Yuxarıda qeyd olunan araşdırmaların jurnalda nəşr edilməsinin nəticələri müvafiq beynəlxalq qurumlar tərəfindən dəyərləndirilib və aşağıdakı beynəlxalq elmi məlumat bazalarına daxil edilmişdir: Academic Resource Index (2019); InfoBase Index (2019); ResearchBib (2018); Google Scholar (2020); Elmi elektron kitabxana E-LIBRARY, RİNC məlumat bazasında indeksləşdirilmişdir (Lisenziya müqaviləsi № 69-03/2022) və hal-hazırda jurnalın nəşrində qarşıya qoyulan hədəf Scopus verilənlər bazasına daxil olunması istiqamətində müvafiq tədbirləriin həyata keçirilməsidir.

2024-cü ildə jurnalın fəaliyyəti Copernicus beynəlxalq indeksləşdirmə baza tərəfindən müsbət qiymətləndirilmiş və 2023-cü il üçün ICI Journals Master List verilənlər bazasında indeksləşdirilmişdir.

Onu da qeyd etmək lazımdır ki, Jurnalın göstəriciləri haqqında məlumatların yoxlanılması əsasında onun parametrik gücünün (ICV göstəricisi) dəyəri hesablanmışdır və ICV 2023 = 50,57 təşkil etmişdir.


Eyni zamanda, 2025-ci ildə də jurnalın fəaliyyəti Copernicus beynəlxalq indeksləşdirmə baza tərəfindən müsbət qiymətləndirilib və 2024-cü il üçün ICI Journals Master List verilənlər bazasında indeksləşdirilib və onun parametrik gücünün (ICV göstəricisi) dəyəri hesablanmış və ICV 2024 = 75,61 təşkil etmişdir.

"Tikintinin iqtisadiyyatı və menecment" jurnalında 2016-2025-ci illər üzrə nəşr edilən məqalələrin i dinamikası


№№			D		İ		L		Cəmi	
	azərbaycan		ingilis		türk		rus			
	ədəd	%	ədəd	%	ədəd	%	ədəd	%	ədəd	Cəmdən %
2016	12	80	1	6,7	-	-	2	13,3	15	0,9
2017	9	69,5	2	15,3	1	7,6	1	7,6	13	0,8
2018	58	78,3	1	1,4	-	-	15	20,2	74	4,7
2019	92	81,4	3	2,6	-	-	18	15,9	113	7,2
2020	210	85	9	3,6	-	-	28	13,3	247	15,7
2021	167	84,3	14	7	1	0,5	16	8,08	198	2,6
2022	184	79	14	6	6	2,5	29	12,4	347	14,8
2023	185	75,2	22	8,9	5	2,03	34	13,8	256	15,7
2024	150	73,5	44	21,5	-	-	10	4,9	209	13
2025	142	62,6	75	33	2	0,8	8	3,5	227	14,5
Cəmi:	**1209**	**77,0**	**185**	**11,8**	**15**	**1,0**	**161**	**10,2**	1570	100

Azərbaycan dilində:	1209	77%
İngilis dilində:	185	11,8%
Türk dilində:	15	1,0%
Rus dilində:	161	10,2%
Cəmi	**1570**	**100%**


2016-2025-cı illər ərzində jurnalda nəşr olunan məqalələrin dinamikası



2016-2025-cı illər üzrə jurnalda Azərbaycan, Türk, Rus və İngilis dillərində nəşr olunan məqalələrin strukturu




2016-2025-cillər ərzində Azərbaycan,Türk, İngilis və Rus dillərində nəşr olunan məqalələrin dinamikası



ICI Journals Master List verilənlər bazasında 2024-cü il üçün „Tikintinin iqtisadiyyatı və menecment“ jurnalının (ISSN: 2519-2507; ICV 2024: 75.61) ətraflı Qiymətləndirməsinin Hesabatında 28 noyabr 2025-ci il tarixində tərtib edilmiş və jurnalın bu sahədə həyata keçirdiyi işlərin dəyərləndirilməsi vəziyyəti tədqiq edilmişdir. Belə ki, ICI Jurnallarının Master List verilənlər bazasındakı qiymətləndirmənin nəticəsi – Copernicus İndeksi Dəyəri (ICV) – elmi jurnalın parametrik gücünün ölçüsüdür. Bu, jurnalın bu elmi mühitin əsas funksional sahələri sahəsində beynəlxalq standartlara nə dərəcədə cavab verdiyini göstərir.

Hesabatda qeid edilir ki, ICI Jurnallarının 2024-cü il üzrə Master List-in qiymətləndirilmə-sində jurnal 75.61 ICV bal almışdır, jurnalın keyfiyyəti 75.61 baldır və bununla əlaqədar hesabatda aşağıdakı məlumatlar verilmişdir:

• **Nəşr keyfiyyəti və standartları üzrə**
maksimum bal: 21.50
əldə edilən bal: 17.93
Parametrlərə uyğunluğ 83%-i
• **Sabitlik**
maksimum bal: 4.00
əldə edilən bal: 2.00
Parametrlərə uyğunluğ 50%-i
• **Rəqəmsallaşma**
maksimum bal: 68.50
əldə edilən bal: 45.43
Parametrlərə uyğunluğ 66%-i
• **Beynəlxalqlaşma**
maksimum bal: 33.00
əldə edilən bal: 10.25
Parametrlərə uyğunluğ 31%-i



JURNALIN İNKİŞAF NAİLİYYƏTLƏRİ VƏ HƏDƏFLƏR

Qeyd edildiyi kimi, "Tikintinin iqtisadiyyatı və menecment" jurnalı (ISSN: 2519-2507) 2024-cü il üçün ICI Journals Master List verilənlər bazasında indeksləşdirmə prosesindən uğurla keçirilmişdir. Eyni zamanda, jurnalın qiymətləndirilməsi və indeksləşdirmə prosedurunda, qiymətləndirmə metodologiyasında və Predatory Journals anti-praktika siyasətində təsvir edilmiş standartlara əsaslanmışdır. ICI verilənlər bazasında indeksləşdirmə jurnalın hazırda elmi jurnallara tətbiq olunan elementar tələblərə cavab verdiyini sübut edir, prespektivdə qarşıya qoyulan hədəf Scopus verilənlər bazasına daxil olunması istiqamətində tədbirlərin həyata keçirilməsi istiqamətində müvafiq işlər aparılır.

Baş redaktor
i.e.d., prof. Məhəbbət Məmmədov

"CONSTRUCTION ECONOMICS AND MANAGEMENT" MAGAZINE 10 YEARS OF SUCCESS AND GOALS

The "Construction Economics and Management" magazine, founded by the Azerbaijan University of Architecture and Construction, has been published by the "Business Economics and Management" department since August 8, 2015 (Registration No. 1105-A1-4). The journal was registered with the Ministry of Justice of the Republic of Azerbaijan on December 02, 2015 (register N 4024), on July 04, 2018, by the decision of the Presidium of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan, it was included in the economic sciences section of the "List of periodicals recommended for publication of the main results of dissertations in the Republic of Azerbaijan" (protocol No. 11-R), the journal was assigned the international standard identification number ISSN 2519-2507- on October 17, 2016.

It is a scientific journal with international status, its editorial board consists of 23 people. 13 of them are leading economists from foreign countries, including 2 from Turkey, 1 from Macedonia, 4 from Russia, 3 from Ukraine, 1 from Belarus.

The articles cover macroeconomic, regional and social aspects of economic development; economics and management of construction enterprises; management of investment and entrepreneurial activity; innovation and information technology management; financial and banking management; personnel management in enterprises, international project management and practice are published on the basis of thematic sections.

The audience of the journal: consists of professors and teaching staff working at universities in the country and abroad, doctoral students, masters, researchers conducting research in scientific research institutes, enterprises and organizations.

The main purpose and objective of the publication of the journal is to study, discuss economic problems, and attract specialists-researchers conducting research in various fields of economic and social sciences.

For 10 years, the journal has published the results of research by leading and young scientists in the fields of the economy of Azerbaijan and foreign countries, socio-economic development, information technologies and innovations, social problems of the transformation of the country's economy, economics and management of construction enterprises, current problems of national economy management, research conducted in the field of preparation and management of national and international projects and their results.

The results of the publication of the above-mentioned studies in the journal have been evaluated by relevant international organizations and included in the following international scientific databases: Academic Resource Index (2019); InfoBase Index (2019); ResearchBib (2018); Google Scholar (2020); Scientific electronic library E-LIBRARY, indexed in the RİNC database (License Agreement No. 69-03/2022) and the current goal of the journal is to take appropriate measures to include it in the Scopus database.

In 2024, the journal's activities were positively assessed by the Copernicus international indexing database and it was indexed in the ICI Journals Master List database for 2023.

It should also be noted that based on the verification of information on the journal's indicators, the value of its parametric power (ICV indicator) was calculated and ICV 2023 = 50.57.

At the same time, in 2025, the journal's activity was positively assessed by the Copernicus international indexing database and indexed in the ICI Journals Master List database for 2024, and the value of its parametric power (ICV indicator) was calculated and ICV 2024 = 75.61.


Dynamics of articles published in the journal "Construction economics and management" for 2016-2025

№№			D		İ		L		Total	
	azerbaijani		english		turkish		russian			
	volume	%	volume	%	volume	%	volume	%	volume	% of total
2016	12	80	1	6,7	-	-	2	13,3	15	0,9
2017	9	69,5	2	15,3	1	7,6	1	7,6	13	0,8
2018	58	78,3	1	1,4	-	-	15	20,2	74	4,7
2019	92	81,4	3	2,6	-	-	18	15,9	113	7,2
2020	210	85	9	3,6	-	-	28	13,3	247	15,7
2021	167	84,3	14	7	1	0,5	16	8,08	198	2,6
2022	184	79	14	6	6	2,5	29	12,4	347	14,8
2023	185	75,2	22	8,9	5	2,03	34	13,8	256	15,7
2024	150	73,5	44	21,5	-	-	10	4,9	209	13
2025	142	62,6	75	33	2	0,8	8	3,5	227	14,5


Total : **1209** **77,0** **185** **11,8** **15** **1,0** **161** **10,2** 1570 100

In Azerbaijani: 1209 77%
In English: 185 11,8%
In Turkish: 15 1,0%
In Russian: 161 10,2%
Total : **1570** **100%**


Dynamics of articles published in the journal during 2016-2025



Structure of articles published in the journal in Azerbaijani, Turkish, Russian and English for 2016-2025




Dynamics of articles published in Azerbaijani, Turkish, English and Russian languages during 2016-2025



The Detailed Assessment Report of the journal "Construction Economics and Management" (ISSN: 2519-2507; ICV 2024: 75.61) in the ICI Journals Master List database for 2024 was compiled on November 28, 2025 and examined the state of assessment of the work carried out by the journal in this area. Thus, the result of the assessment in the ICI Journals Master List database - Copernicus Index Value (ICV) - is a measure of the parametric strength of the scientific journal. It shows the extent to which the journal meets international standards in the main functional areas of this scientific environment.

The report notes that in the ICI Journals Master List assessment for 2024, the journal received an ICV score of 75.61, the quality of the journal is 75.61 points, and the following information is provided in this regard in the report:

• **Publication quality and standards**
maximum score: 21.50
achieved score: 17.93
83% compliance with parameters
• **Stability**
maximum score: 4.00
achieved score: 2.00
50% compliance with parameters
• **Digitization**
maximum score: 68.50
achieved score: 45.43
66% compliance with parameters
• **Internationalization**
maximum score: 33.00
achieved score: 10.25
31% compliance with parameters



JOURNAL DEVELOPMENT ACHIEVEMENTS AND GOALS

As noted, the journal "Construction Economics and Management" (ISSN: 2519-2507) has successfully undergone the indexing process in the ICI Journals Master List database for 2024. At the same time, the journal's evaluation and indexing procedure is based on the standards described in the evaluation methodology and the Predatory Journals anti-practice policy. Indexing in the ICI database proves that the journal meets the elementary requirements currently applied to scientific journals, and appropriate work is being carried out to implement measures to include it in the Scopus database, the target set in the perspective.

Editor-in-Chief
Doctor of Economic Sciences,
Prof. Mahabbat Mammadov

https://doi.org/10.58225/tim.2025-4-37-43

Z.Ə.Səmədzadə
akademik, Azərbaycan İqtisadçılar İttifaqının rəhbəri,
Milli Məclisin deputatı
zsamedzade1940@gmail.com

Məqalə redaksiyaya daxil olub 16.11.2025
The article was received by editorial board on 16.11.2025
Статья принята к печати 16.11.2025

BÖYÜK QAYIDIŞ: QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR QURUCULUQ VƏ DİRÇƏLİŞ YOLUNDA

Xülasə

Məruzədə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın həmin ərazilərin inkişafı və onların məskunlaşdırılması ilə bağlı əsas məqsəd və vəzifələrindən bəhs edilir.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının keyfiyyətli inkişafı, onlarda müasir sənaye və sosial strukturların yaradılması istiqamətində həyata keçirilməsi zəruri olan məsələlər açıqlanır.

Şəhərsalma, müasir kənd yaşayış məntəqələrinin yaradılması, sudan, torpaqdan və digər təbii sərvətlərdən səmərəli istifadə məsələlərinə xüsusi diqqət yetirilir. "Yaşıl enerji"nin inkişafının, ətraf mühitin mühafizəsi üçün sistemli tədbirlərin həyata keçirilməsinin vacibliyi vurğulanır.

Açar sözlər: *iqtisadi rayonlar, "yaşıl enerji zonası", sənaye zonaları və aqroparklar, əhali üçün layiqli həyat tərzi, Zəngəzur dəhlizi, baş plan, dayanıqlı icmalar.*

Azərbaycanın İkinci Qarabağ müharibəsində işğaldan azad edilmiş ərazilərdə əsaslı bərpa və quruculuq işlərinin aparılması ilə bağlı mühüm işlər görür. Prezident İlham Əliyevin çıxışlarında açıqladığı bəyanatlardan görünür ki, "Böyük Qayıdış" keyfiyyətcə yeni həyata qayıdış olacaq. 2022-ci il noyabr ayının 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalamışdır.

Bu Proqram Qarabağ və Şərqi Zəngəzura qayıdışla bağlı hədəflərin, qarşıya qoyulan vəzifələrin sistemli, uzlaşdırılmış və nəticə etbarilə səmərəli şəkildə həyata keçirilməsi üçün yol xəritəsi olan mühüm sənəd olaraq, ölkə iqtisadiyyatının dinamik və keyfiyyətli inkişafına xidmət edəcəkdir.

Vətən müharibəsi başa çatdıqdan sonra Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yenidən qurulması istiqamətində görülmüş işlərin miqyası möhtəşəm və əzəmətlidir. Füzuli və Zəngilan beynəlxalq hava limanları, Zəfər yolu kimi nəhəng layihələrin başa çatdırılması, bütün azad olunmuş rayonlarımızda dayanıqlı enerji, su təchizatı infrastrukturunun yaradılması, Ağalı kəndinə keçmiş məcburi köçkünlərin dönüşü, digər mühüm quruculuq işləri göstərir ki, Prezident İlham Əliyevin milli ideya elan etdiyi Qarabağ və Şərqi Zəngəzurun bərpası sürətli, dinamik və genişmiqyaslıdır.

İşğaldan azad olunmuş ərazilərin dayanıqlı məskunlaşması və bu ərazilərin iqtisadi fəaliyyətə reinteqrasiyası çərçivəsində "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda qarşıya aşağıdakı məqsədlər qoyulmuşdur:

- ərazilərdə təhlükəsiz yaşayışı və dövlət idarəetməsini təşkil etmək;

- şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin tikintisini və dayanıqlı infrastrukturla təminatını həyata keçirmək;
- müasir standartlara uyğun xidmətlərin yaradılmasını təmin etmək;
- ərazilərdə məskunlaşacaq əhalinin sosial müdafiəsini gücləndirmək;
- əhalinin məşğulluq imkanlarını artırmaq;
- sosial xidmətlərin əhatə dairəsini genişləndirmək və əlçatanlığını təmin etmək;
- dayanıqlı sosial-iqtisadi inkişafı təmin etmək;
- sahibkarlıq mühitinin əlverişliliyini artırmaq və biznes fəaliyyətinin inkişafına dəstək vermək;
- ərazilərin kənd təsərrüfatı potensialından səmərəli istifadə olunması üçün müasir suvarma infrastrukturu formalaşdırmaq;
- dayanıqlı və mütərəqqi kənd təsərrüfatı təcrübələrini tətbiq etmək;
- təbii ehtiyatları və sosial-iqtisadi potensialı təsərrüfat dövriyyəsinə cəlb etmək;
- turizm sektorunun perspektiv inkişaf imkanlarından effektiv istifadəyə nail olmaq;
- ətraf mühitin etibarlı mühafizəsini və ekoloji təhlükəsizliyi təmin etmək;
- təbii resurslardan səmərəli və effektiv istifadə etmək;
- "Ağıllı şəhər", "Ağıllı kənd" və "Yaşıl enerji zonası" konsepsiyalarının tətbiqini təşviq etmək.

Hazırda işğaldan azad edilmiş ərazilərin yenidən qurulması, bərpası və sonrakı mərhələlərdə dayanıqlı inkişafına nail olunması üçün önəmli strateji istiqamətlərdən biri bu ərazilərin minalardan, partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan təmizlənməsidir. Bu məsələ Qarabağ və Şərqi Zəngəzurda dayanıqlığa nail olmaq üçün təhlükəsizliyin təmin edilməsinin əsas prioritetidir. 2020-2022-ci illərdə 57,6 min hektar ərazi minalardan təmizlənib. I Dövlət Proqramına əsasən 2023-2026-cı illərdə daha 215 min hektar ərazinin minalardan təmizlənməsi planlaşdırılır. 2026-cı ilin sonunda ümumilikdə 280 min hektar ərazi minalardan təmizlənmiş olacaq. Bu işlər üzrə əsas icraçı Minatəmizləmə Agentliyi, digər icraçılar isə Daxili İşlər Nazirliyi, Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Dövlət Sərhəd Xidmətidir.

Uzun müddətin və böyük maliyyənin tələb olunmasına rəğmən, hazırda Azərbaycan dövləti tərəfindən heç bir donorun - digər dövlətlərin və beynəlxalq təşkilatların yardımı olmadan azad edilmiş ərazilərin minalardan təmizlənməsi prosesi davam edir. Qarabağ və Şərqi Zəngəzurda Dövlət sərhədinin etibarlı mühafizəsinin təşkili, bu məqsədlə yeni yaradılan hərbi hissələrin maddi-texniki təminatının gücləndirilməsi, bütövlükdə Silahlı Qüvvələrimiz üçün müvafiq infrastrukturun və DTX-nin fəaliyyət məntəqələrinin yaradılması, dövlət sərhədində, Füzuli və Zəngilan Beynəlxalq Hava Limanlarında sərhəd buraxılış məntəqələrinin təşkil edilməsi, ordumuzun daha da möhkəmləndirilməsi ilə bağlı müvafiq işlərin görülməsi nəzərdə tutulur.

2022-ci il noyabrın 8-də Zəfər Günü münasibətilə Şuşada təşkil olunan tədbirdə Prezident İlham Əliyev bu barədə deyib: "Gələn il üçün Azərbaycanın dövlət büdcəsi rekord həddə çatıb, o cümlədən hərbi xərclərə ayrılacaq vəsait də rekord həddə çatıb. Sual oluna bilər nə üçün, müharibə arxada qaldı, iki il keçib. Cavab çox sadədir. Ermənistanda revanşist qüvvələr baş qaldırır. Ermənistanda müharibənin nəticələri ilə barışmaq istəməyən qüvvələr, dairələr baş qaldırır. Ermənistan 2020-ci ilin 10 noyabr Bəyanatına tam əməl etmir, öz silahlı qüvvələrini Qarabağdan tam çıxarmayıb, Zəngəzur dəhlizini bizə təqdim etməyib, bizə qarşı vaxtaşırı hərbi təxribatlar törədir. Əlbəttə ki, biz hazırlıqlı olmalıyıq və biz hazırıq".

Bu gün Qarabağ və Şərqi Zəngəzurun bərpası istiqamətində əsas diqqət yetirilən prioritet məsələ ermənilər tərəfindən dağıdılmış şəhər və kəndlərin bərpası, onların zəruri infrastrukturla təminatıdır.

Onu da qeyd edək ki, işğaldan azad edilmiş ərazilərdə aparılan bütün yenidənqurma, bərpa və şəhərsalma işləri qabaqcıl urbanizasiya modellərinin tətbiqi ilə, əhalinin həyat səviyyəsinin yüksəldilməsinə xidmət edəcək şəhərsalma prinsipləri və normalarına uyğun həyata keçiriləcək.

"Azad edilmiş bütün torpaqlarda görüləcək bütün işlər ancaq baş planlar əsasında olmalıdır. Baş plandan kənar bir dənə də daş daş üstə qoyulmamalıdır, bir dənə də qanunsuz tikili olmamalıdır. Yəni, biz nümunəvi bir yaşayış məkanını yaradırıq. Həm Azərbaycan üçün, həm dünya üçün nümunəvi bir təcrübə sahibi olacağıq", - deyə dövlət başçısı bildirib.

Artıq Şuşa, Ağdam, Füzuli, Cəbrayıl, Kəlbəcər, Zəngilan və Qubadlı şəhərlərinin baş planları təsdiq edilib. Prezident İlham Əliyevin işğaldan azad olunmuş rayonlara səfərləri zamanı bu planlar təqdim olunub. Hər bir baş plan hazırlanarkən şəhərin özünəməxsusluğu və coğrafiyası nəzərə alınıb.

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" üzrə nəzərdə tutulan tədbirlərin icrası ilə bağlı ilkin mərhələdə bərpa olunacaq 100 yaşayış məntəqəsindən (8 şəhər, 8 qəsəbə və 84 kənd) 7 şəhər, 36 qəsəbə və kənd olmaqla – ümumilikdə 43 yaşayış məntəqəsinin ərazi planlaşdırılması sənədləri hazırlanmaqdadır. Həmin kəndlərdən üçünün – Ağdam rayonunun Xıdırlı, Kəngərli və Sarıcalı kəndlərinin cənab prezident tərəfindən 2022-ci il oktyabrın 4-də təməli qoyulub.

Qalan 57 yaşayış məntəqəsi üzrə isə 2023-cü ildə 38 yaşayış məntəqəsinin, o cümlədən Laçın şəhərinin, eləcə də 37 qəsəbə və kəndin, 2024-cü ildə isə 19 yaşayış məntəqəsinin layihələndirilməsi, ikinci mərhələdə bərpası nəzərdə tutulan yaşayış məntəqələrindən isə 37 ədədinin 2025-2026-cı illərdə layihələndirilməsi planlaşdırılır. Proqrama əsasən, Qarabağ və Şərqi Zəngəzura 2026-cı ilədək 34 min 500 ailə köçürüləcək. Bu isə növbəti 4 ildə 160 minə yaxın vətəndaşımızın öz ata-baba yurdlarına qayıtması deməkdir. Qarabağın və Şərqi Zəngəzurun kənd və şəhərlərinin yenidən qurulması, insanların öz doğma yurdlarına qayıdışı, burada məşğulluğun təmin edilməsi və yeni istehsal sahələrinin yaradılması üçün ilk növbədə tələblərə cavab verən infrastruktur mövcud olmalıdır.

Proqram çərçivəsində hər bir rayon üzrə yaşayış məntəqələrinin salınacağı ərazilərin və ona dəstək infrastrukturlarının xəritələri hazırlanacaq. İndiyədək ərazilərdəki daşınmaz əmlak və infrastruktur obyektlərinin ilkin inventarlaşdırılması yekunlaşmışdır. Ümumilikdə 14 min daşınmaz əmlakın (12,2 min ədəd tikili və 1,8 min ədəd infrastruktur obyekti) çöl-inventarlaşdırma işləri tamamlanmışdır.

İnfrastrukturlarla bağlı konkret istiqamətlərə gəldikdə, təhsil sahəsində ümumi və (müxtəlif təmayüllü məktəblər, liseylər və gimnaziyalar, internat tipli xüsusi ümumtəhsil məktəbləri, inteqrasiya təlimli internat tipli məktəblər) və məktəbəqədər təhsil müəssisələrinin tikintisi və bərpası, ölkənin müvafiq ali təhsil müəssisəsinin filiallarının yaradılması, regional tibbi təhsil müəssisələrinin yaradılması planlaşdırılır. Qarşıya qoyulan məqsədlərə uyğun olaraq, ərazilərdə məskunlaşacaq əhali üçün layiqli həyat şəraitinin yaradılması, yaşayış məntəqələrində müxtəlif dövlət xidmətlərinə universal çıxışın təmin edilməsi istiqamətində də mühüm addımlar atılmaqdadır. Artıq Zəngilan rayonunun Ağalı kəndində "ASAN xidmət"in fəaliyyəti təşkil edilib. 2026-cı ilədək azad olunmuş ərazilərdə yeni "ASAN xidmət" mərkəzləri, o cümlədən Cəbrayılda DOST mərkəzi, Ağdam, Füzuli, Zəngilan, Qubadlı, Kəlbəcər, Laçın və Şuşa şəhərində DOST Mərkəzinin filialları yaradılacaq.

Göründüyü kimi, sosial, xidmət və mədəni infrastrukturların bərpası başlanılıb və müzəffər Ordumuzun işğaldan azad etdiyi ərazilərimizdə 2026-cı ilə qədər yeni sosial və mədəni infrastrukturların yaradılması təmin olunacaq. Dövlət Proqramında yaşayış məntəqələrinin kommunal (elektrik enerjisi, qaz, istilik və isti su, içməli su təchizatı, tullantı sularının axıdılması və təmizlənməsi, yağış sularının idarə olunması) və rabitə xidmətləri ilə təmin edilməsi istiqamətində də layihələr reallaşdırılacaq.

Dövlət Proqramında əhalinin geri qayıdışı və ərazilərdə dayanıqlı icmaların yaradılması prioritet istiqamətlərdən biri kimi müəyyən edilmiş və bu istiqamətdə qarşıya konkret vəzifələr qoyulmuşdur. Proqram çərçivəsində məcburi köçkünlərin qayıdışının səmərəli təşkili və hüquqi bazasının yaradılması məqsədilə müvafiq normativ hüquqi aktların qəbul edilməsi, həmçinin əhali

arasında məlumatlılığın artırılması, maarifləndirmə tədbirlərinin genişləndirilməsi üçün təbliğat işlərinin şaxələndirilməsi həyata keçiriləcək tədbirlərə daxildir. Eyni zamanda, əhalinin geri qayıdışı ilə bağlı müvafiq məlumat bazasının yaradılması, statistik göstəricilərin təhlili və məlumatların əlçatanlılığının təmin olunması da prioritet işlərdəndir. Doğma yurdlarına qayıdan əhaliyə dəstək məqsədilə xüsusi qaynar xəttin yaradılması və onların adaptasiyası ilə bağlı tədbirlərin daha səmərəli həyata keçirilməsi üçün müvafiq dövlət orqanları əməkdaşlarının peşəkar təlimlərə cəlb olunması, əhalinin yeni yaşayış şəraitinə adaptasiya olunması üçün reinteqrasiya tədbirlərinin təşkili, yaşayış məntəqələri üzrə qayıdışı dəqiqləşdirilmiş şəxslərin məşğulluğunun təmin edilməsi üçün aktiv məşğulluq tədbirlərinin həyata keçirilməsi, ərazilərdə işçi qüvvəsinə tələbatın müəyyən edilməsi, icma resurs mərkəzlərinin və ailə mərkəzlərinin yaradılması da qarşıya qoyulan vəzifələrdir.

Qayıdışın birinci addımı yoldur. Yol həm də inkişaf, yüksəliş və rifah deməkdir. Qələbə ilə başa vurduğumuz müharibədən dərhal sonra, 2020-ci ilin noyabr ayından işğaldan azad edilmiş ərazilərdə hava limanlarının, avtomobil və dəmir yollarının tikintisi işlərinə, enerji infrastrukturunun yaradılmasına start verildi. 2020-ci il noyabrın 16-da təməli qoyulan Zəfər yolu 2022-ci il noyabrın 7-də, 2020-ci ilin oktyabrından yenidən qurulmasına başlanılan Tərtər-Çaylı-Suqovuşan-Talış avtomobil yolu isə 2021-ci il oktyabrın 3-də Prezident İlham Əliyevin iştirakı ilə istismara verildi.

2021-ci il oktyabr ayının 26-da Füzuli Beynəlxalq Hava Limanı, 2022-ci il oktyabr ayının 20-də Zəngilan Beynəlxalq Hava Limanı istifadəyə verilmişdir. Qısa müddətdə, yəni Vətən müharibəsinin başa çatmasından sonra ötən bircə il ərzində bu layihələrin icra olunaraq, başa çatdırılması Azərbaycan dövlətinin qətiyyətinin təcəssümünə çevrildi.Hazırda Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd, Əhmədbəyli-Füzuli-Şuşa, Şükürbəyli-Cəbrayıl-Hadrut, Talış-Tap Qaraqoyunlu-Qaşaltı sanatoriyası, Bərdə-Ağdam, Qubadlı-Eyvazlı, Qubadlı-Mahmudlu-Yazdüzü-Ermənistan sərhədi, Hadrut-Tuğ-Azıx mağarası, Xudafərin-Qubadlı-Laçın, Ağdam-Füzuli, Ağdam-Hindarx-Ağcabədi yollarının tikintisi davam edir.

Ümumiyyətlə, İkinci Qarabağ müharibəsində qazanılan möhtəşəm Qələbə Azərbaycanda yol-nəqliyyat sahəsində qarşıya qoyulmuş vəzifələri də yenilədi. Bunu Dövlət Proqramı çərçivəsində yol-nəqliyyat infrastrukturu ilə bağlı qarşıya qoyulmuş digər hədəflər də təsdiq edir. 2026-cı ilə qədər olan dövrdə azad edilmiş ərazilərdə 97 yaşayış məntəqəsində avtomobil nəqliyyatının texniki təmir sahələri, avtovağzallar (avtostansiyalar) və taksi dayanacaqlarının yerlərinin müəyyən edilməsi, tikintisi həyata keçiriləcək, müntəzəm beynəlxalq, şəhərlərarası (rayonlararası) və şəhərdaxili (rayondaxili) sərnişin daşımaları təşkil ediləcək. Hava limanlarına gəldikdə azad edilmiş ərazilərdə üçüncü hava limanı Laçında inşa olunur. Bu hava limanının təməli 2021-ci il avqustun 16-da qoyulmuşdur və 2024-cü ildə istifadəyə verilməsi nəzərdə tutulur.

Ərazilərin su təchizatı magistral sisteminin qurulması ilə bağlı 2023-cü il ərzində meliorasiya və su təsərrüfatı obyektlərinin texniki vəziyyəti qiymətləndirilərək, elektron kadastr məlumatı və xəritəsi hazırlanacaq, Suqovuşan su anbarı 5,2 km uzunluğunda magistral kanalla birlikdə, Xaçınçay su anbarı isə 7 km uzunluğunda kanalla birlikdə təmir və bərpa ediləcək, Tərtərçay Sol Sahil kanalı yenidən qurulacaq. Həmçinin Aşağı Köndələnçay, Köndələnçay-1 və Köndələnçay- 2 su anbarları da təmir və bərpa olunacaq. Suqovuşan hidroqovşağının təmirindən sonra 100 min hektar, Tərtərçay Sol Sahil kanalının yenidən qurulmasından sonra 29,6 min hektar, Xaçınçay su anbarının bərpasından sonra 7 min hektara yaxın, Aşağı Köndələnçay, Köndələnçay-1 və Köndələnçay-2 su anbarlarının təmirindən sonra 6,2 min hektar torpaq sahəsinin suvarma suyu ilə təmini yaxşılaşacaq.

Həmçinin 2026-cı ilədək olan dövrdə Bərgüşadçay, Həkəriçay və Zabuxçay su anbarları, Qız qalası su anbarından magistral suvarma kanalının tikintisi həyata keçiriləcək. Bərgüşadçay su anbarı Qubadlı rayonu ərazisində təqribən 12 min hektar yeni torpaq sahəsinin suvarılmasını və Qız qalası hidroqovşağından çıxan kanalın qidalandırılmasını, Həkəriçay su anbarı Şuşa, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli, Ağdam, Beyləqan, İmişli, Saatlı, Sabirabad rayonlarında 3 mln.-a yaxın

əhalinin yüksək keyfiyyətli içməli su ilə təchizatını, Zabuxçay su anbarı isə Qubadlı və Zəngilan rayonları ərazisində 12100 ha torpaq sahəsinin suvarılmasını təmin edəcək.

Bunlarla yanaşı, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər rayonları üzrə ayrı-ayrılıqda meliorasiya və su təsərrüfatı kompleksinin bərpası və inkişafı ilə bağlı layihələr də həyata keçiriləcək. Azad olunmuş ərazilərin infrastrukturunun bərpasının bir istiqamətini qaz təchizatı üçün magistral şəbəkənin qurulması təşkil edir. 2023-cü ildə Böyük Bəhmənli–Şuşa (Füzuli, Şuşa, Hadrut), Azad Qaraqoyunlu–Ağdam və Goranboy-Kəlbəcər qaz kəmərləri və üzərində qazpaylayıcı şəbəkələr olmaqlar qaz kəməri qolları tikiləcək, Yevlax–Naxçıvan magistral qaz kəməri 720 mm-lik borularla yenidən qurulacaq. 2024-cı ildə Laçın-Qorçu, Mincivan-Ağbənd, Kəlbəcər-İstisu qaz kəmərləri və üzərlərində qaz təmizləyici məntəqələr quraşdırmaqla qaz kəməri qolları inşa ediləcək. 2023-2025-ci illərdə Horadiz–Laçın qaz kəməri və üzərində qazpaylayıcı şəbəkələr quraşdırmaqla qaz kəməri qolları tikiləcək. 2025-ci ildə isə Ağdam-Xocavənd, Ağdam-Xankəndi və Ağdam-Ağdərə qaz kəmərlərinin və üzərlərində qaz təmizləyici məntəqələr quraşdırmaqla qaz kəməri qollarının inşası planlaşdırılır.

İşğal dövründə bu müəssisələrin hamısı dağıdılıb, əmlakları talan olunub. Qarabağ və Şərqi Zəngəzurun təbii ehtiyatları – əlvan metal filizləri, qızıl, civə, xromit, perlit, əhəng, mərmər və digər faydalı qazıntılar isə ermənilər tərəfindən quldurcasına istismar edilib.

Qarabağ və Şərqi Zəngəzur üzümçülük, tütünçülük, pambıqçılıq, baramaçılıq, meyvə-tərəvəz, bostançılıq və heyvandarlığın, emal sənayesinin inkişafı üçün böyük potensiala sahibdir. Təsadüfi deyil ki, bu torpaqlar vaxtilə Azərbaycanda istehsal edilən kənd təsərrüfatı məhsullarının 15-20 faizə qədərini təmin edirdi. Təbii ki, azad olunmuş ərazilərin iqtisadiyyatının yerli və xarici dəyər zəncirinə inteqrasiyasında əsas məsələlərdən biri torpaqlardan səmərəli istifadə edilməsidir. Bu məqsədlə işğala qədər mövcud olmuş torpaq fondunun kateqoriyalar və kənd təsərrüfatı yerləri (uqodiya) üzrə bölgüsü kameral şəraitdə dəqiqləşdiriləcək. Proqrama əsasən torpaqların elektron kadastr uçotu və aerofotoplanalma işləri aparılacaq, ortofotoxəritələri hazırlanacaq. Həmçinin onların çöl-geodeziya işləri aparılacaq, kəmiyyət və keyfiyyət (irimiqyaslı çöl-torpaq və geobotaniki tədqiqatların aparılması ilə birgə) göstəriciləri dəqiqləşdiriləcək. Bu işlərin aparılacağı torpaqlar 852091 hektar təşkil edəcək.

197690 ha torpaq sahəsi üzrə kənd təsərrüfatı təyinatlı təbii biçənək, kəndətrafı örüş, yay və qış otlaqlarında irimiqyaslı geobotoniki tədqiqat işləri aparılacaq və onlar xəritələşdiriləcək.

Yay və qış otlaqlarında peyk təsvirləri vasitəsilə və yerində monitorinq aparılmaqla, habelə təhlükəsizlik riskləri müəyyən olunaraq dislokasiya xəritələri hazırlanacaq, xırdabuynuzlu heyvanların və arı ailələrinin yay və qış otlaqlarında müəyyən edilmiş dislokasiya nöqtələrinə aparılması, yay və qış otlaqlarından səmərəli istifadə məqsədilə elektron sistem yaradılacaq, dislokasiya üçün müraciətlərin elektron sistem üzərindən qəbulu və mərhələli şəkildə xırdabuynuzlu heyvanların və arı ailələrinin köçü təşkil ediləcək. Artıq Kəlbəcər və Laçın rayonlarının yay otlaqlarına heyvanların dislokasiya edilməsi üçün portal modulu yaradılmışdır. Portaldan 300 min xırdabuynuzlu və 60 min arı ailəsi qeydiyyatdan keçirilmişdir. Həmin təsərrüfatların köç etməsi üçün müvafiq tədbirlər görülür

Bu ərazilərdə sahibkarlıq fəaliyyəti üçün əlverişli mexanizmlərin (bazaryönlü maliyyələşmə, məsləhət, logistika, aqroservis infrastrukturu və s.) yaradılması diqqət mərkəzində olacaqdır. Bu məqsədlə sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin maliyyə resurslarına çıxışı imkanlarının genişləndirilməsi, cəlb edilmiş resursların maya dəyərinin azaldılması, geri qayıdacaq əhali üçün bank, sığorta və maliyyə xidmətlərinə çıxış imkanını genişləndirmək üçün regionda maliyyə institutlarının fəaliyyətinin bərpası istiqamətində tədbirlər görülməsi, sahibkarlara veriləcək bank kreditləri üzrə dövlət zəmanətinin təmin olunması və kredit faizlərinin subsidiyalaşdırılması, onlara

güzəştli kreditlərin verilməsi, yerli və xarici investisiyanın cəlb edilməsi üçün tədbirlər görülməsi və yatırılan investisiyaların sığortalanması mexanizminin yaradılması, xarici ölkələrdəki ticarət nümayəndələrimiz vasitəsilə regionun imkanları barədə marketinq tədbirlərinin keçirilməsi və müvafiq təşviqedici elektron platforma vasitəsilə investisiyaların təşviqi nəzərdə tutulur.

Artıq azad edilmiş ərazilərdə sahibkarlıq fəaliyyətini təşviq edən məsələlərdən biri də sənaye zonaları və aqroparkların yaradılmasıdır.

Ərazilərin coğrafi xüsusiyyətləri nəzərə alınaraq, kənd təsərrüfatında qabaqcıl texnologiyadan istifadənin, əkin, səpin, biçin və yığım texnikasının, digər kənd təsərrüfatı təyinatlı maşın və avadanlığın güzəştli alışının, bitkiçiliyin heyvandarlığın prioritet sahələrinin subsidiyalarla dəstəklənməsi də diqqət mərkəzində saxlanılacaq.

Bütün bunlarla yanaşı, sahibkarlara texniki maşın dəstəyi üçün ərazilər üzrə "Aqroservis" ASC-nin yerli bölmələri yaradılacaq, kənd təsərrüfatı texnikasına tələbatın müəyyən edilməsi və təchizatı həyata keçiriləcək.

Sahibkarlıqla bağlı tədbirlər çərçivəsində məşğulluğu artıran sahibkarlıq fəaliyyəti də təşviq ediləcək. Bunun üçün xammal və materialların idxalı ilə bağlı gömrük və vergi güzəştlərinin tətbiq olunacağı fəaliyyət istiqamətləri, emal sənayesinin və xidmət infrastrukturunun yaradılmasına yönəldilməsi üçün vergi, sosial sığorta və digər güzəştlər müəyyən olunması, gənclərin, qadınların və əlilliyi olan şəxslərin sahibkarlıq fəaliyyətinə cəlb olunmasının dəstəklənməsi, ixracyönümlü məhsul istehsalının və ixracının təşviqi, 6 KOB dostu ofisinin (Xocavənd, Şuşa, Kəlbəcər, Laçın, Qubadlı, Cəbrayıl, Zəngilan) və 1 KOB evinin (Şuşa) yaradılması həyata keçiriləcək.

Geri qayıdan əhalinin məşğulluğunun və sosial müdafiəsinin təmin edilməsi sahəsində əlavə mexanizmlər də tətbiq ediləcək. Bunun üçün iqtisadiyyatın tələbatına uyğun qısamüddətli ixtisasartırma təhsil proqramları təşkil ediləcək, geri qayıdan əhali arasında ixtisasartırma təhsilinin tətbiqinə dair layihələr hazırlanacaq, 1000 nəfər qısamüddətli ixtisasartırma, 5000 nəfər isə qısamüddətli təlim proqramlarına cəlb ediləcək.

Həmçinin ixtisaslı mütəxəssislərin ərazilərdə əmək fəaliyyətinə cəlb olunması stimullaşdırılacaq, əmək bazarının ixtisaslı işçi qüvvəsinə tələbatının davamlı təmin edilməsi üçün tədbirlər görüləcək. Göründüyü kimi, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə "Böyük Qayıdış"a dair I Dövlət Proqramı"nda işğaldan azad edilmiş ərazilərdə aparılacaq bərpa-quruculuq işləri, nail olunması hədəflənən məqsədlər və onlara uyğun hədəf göstəriciləri, əhalinin doğma torpaqlarına geri qayıdışı məsələləri kompleks şəkildə öz əksini tapıb. Proqramda qarşıya qoyulan vəzifələrin hər biri göstərir ki, qarşıdakı 4 il ərzində Qarabağ və Şərqi Zəngəzurda həyata keçiriləcək möhtəşəm quruculuq işlərinə şahidlik edəcəyik.

Dövlət Proqramının icrası qoyulan hədəflər nəzərə alınmaqla monitorinq olunacaq. Monitorinq məqsədilə tədbirlər üzrə ilkin, aralıq və yekun nəticələr müəyyən edilir. İlkin nəticələr Dövlət Proqramının icra olunduğu dövr ərzində hər ili, aralıq nəticələr illik əsasda olmaqla 2023, 2024 və 2025-ci illəri, yekun nəticələr isə 2026-cı ili əhatə edir.

Yekun olaraq qeyd etmək lazımdır ki, Dövlət Proqramının icrası prosesində işğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işlərinin əlaqələndirilmiş şəkildə təşkili, ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, dövlət-özəl tərəfdaşlığının genişlənməsi istiqamətində əhəmiyyətli addımlar atılacaqdır ki, bütün bunlar da Qarabağ və Şərqi Zəngəzur İqtisadi rayonlarının dövlətimizin iqtisadi qüdrətinin artırılmasına regionların tarazlı inkişafına, əhalinin həyat səviyyəsi göstəricilərinin yaxşılaşmasına öz müsbət təsirini göstərəcəkdir.

İstifadə edilmiş ədəbiyyat:

1. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 16 noyabr 2022-ci il.

2. Z.Səmədzadə "Azərbaycan iqtisadiyyatı 100 ildə", 5 cildlik. "Qarabağ iqtisadiyyatı 100 ildə" V cild. Bakı, 2022.

Z.A.Samadzadeh
academician, head of the Union of Economists of Azerbaijan,
Deputy of the Milli Majlis

The great return: Karabakh and Eastern Zangezur on the path of construction and revival

Abstract

The report discusses the main goals and objectives of the "I State Program on the Great Return to the Liberated Territories of the Republic of Azerbaijan" related to the development of these territories and their settlement.

The issues that must be implemented in the direction of the qualitative development of the Karabakh and Eastern Zangezur economic regions, the creation of modern industrial and social structures in them are disclosed.

Special attention is paid to the issues of urban planning, the creation of modern rural settlements, the efficient use of water, land and other natural resources. The importance of the development of "green energy" and the implementation of systematic measures for environmental protection is emphasized.

Keywords: *economic regions, "green energy zone", industrial zones and agroparks, decent lifestyle for the population, Zangezur corridor, master plan, sustainable communities.*

https://doi.org/10.58225/tim.2025-4-44-48

И.Г.Акперов
***д.э.н., профессор*,**
Ректор Южного Университета (ИУБИП)

Məqalə redaksiyaya daxil olub 18.11.2025
The article was received by editorial board on 18.11.2025
Статья принята к печати 18.11.2025

ЦИФРОВОЕ СОЗНАНИЕ КАК ФАКТОР ФОРМИРОВАНИЯ ЧЕЛОВЕЧЕСКОГО КАПИТАЛАВ РЕИНТЕГРАЦИОННЫХ ПРОЦЕССАХ

Резюме

В статье рассматриваются проблемы реинтгерации социальных пространств в условиях новой реальности. Даны трактовки понятий «реинтеграция», «цифровое сознание», «человеческий капитал». Представлены предпосылки, обосновывающие мысль о том, что достижение эффективной реинтеграции связано, в первую очередь, с экономическим развитием территории, для чего необходимо формировать человеческий капитал на основе цифрового сознания. В современном мире цифровое сознание становится доминирующим когнитивным фактором, поскольку цифровые технологии все более проникают в нашу жизнь и меняют способы взаимодействия людей. Однако, для развития цифрового сознания требуется постоянное обучение и развитие навыков, что может быть достигнуто через профессиональное обучение, самообразование и участие в проектах, связанных с цифровой трансформацией. Таким образом, цифровое сознание может быть рассмотрено как фактор роста человеческого капитала, который может помочь людям адаптироваться к изменяющимся условиям рынка труда и успешно работать в цифровой экономике.

Ключевые слова: *цифровое сознание, реинтеграция, человеческий капитал, глокализация, цифровая трансформация, социальное пространство, цифровая экономика, социально-экономическая пересборка.*

ВВЕДЕНИЕ

Условия новой реальности с их смысловой и ценностной неоднозначностью и глобальной непрогнозируемостью стратегически ориентируют на концепцию глокализации, которая акцентируется на региональных сценариях развития и учитывает особенности, связанные с потребностями регионов. Сутью глокализации является идея единого, но вместе с тем децентрализованного мира и ускорение мирового развития через развитие местностей и повышение внимания к локальным проблемам, что актуализирует феномен реинтеграции, поскольку ряд глокализационных процессов протекает на территориях, представляющих собой определенную социально-экономическую общность.

Постановка проблемы. Как показывают исследования [1], процессы реинтеграции остаются слабо изученными в современной науке в силу необходимости применения разновекторных практик для решения последствий социально-экономических и культурных кризисов в региональных условиях.

Концептуально, процесс реинтеграции можно представить, как когнитивную, аксиоло-

гическую и организационную пересборку социального пространства, которая необходимо обуславливает архитектуру новых сетевых коммуникаций и инфраструктур; интеграцию ценностно-смыслового поля, исторической и социальной памяти, поиск новых факторов формирования человеческого капитала [2].

Человеческий капитал является важным ресурсом в условиях реинтеграции, который может помочь восстановить экономику, повысить уровень жизни и социальную стабильность общества. Одним из способов развития человеческого капитала в условиях реинтеграции является инвестирование в образование и повышение квалификации населения. Усиленное обучение и образование могут помочь людям перестроить свои навыки и улучшить свою производительность, что, в свою очередь, способствует восстановлению экономики и развитию новых отраслей.

Представляется необходимым рассматривать фундаментом пересборки социального пространства ценности цифрового общества - открытость, доступность, безопасность, личная идентичность, а также принципы цифрового управления обществом на основе концепции открытых данных, следствием чего постулируется появление активных и ответственных граждан, использующих новый цифровой инструментарий для повышения социально-экономической эффективности, доверия и легитимности [3].

Поэтому для формирования релевантного цифровому обществу человеческого капитала необходимы изменения в мышлении, поведении и восприятии мира, которые происходят в результате широкого использования технологий и цифровых средств коммуникации – понимание и созидательное использование цифровых технологий и ресурсов в повседневной жизни – цифровое сознание [4].

Теория и методы. Процесс реинтеграции основывается на экономических и социокультурныхоснованиях, которые включают в себя следующие аспекты:

1. Культурные ценности и нормы. Реинтеграция зависит от того, какие ценности и нормы принимаются в обществе, в которое индивид или группа возвращаются. Если они не соответствуют культуре и традициям этого общества, процесс реинтеграции может быть затруднен.

2. Система образования. Образовательная система влияет на процесс реинтеграции, так как она может помочь восстановить знания и навыки, необходимые для успешного возвращения в общество.

3. Социальное окружение. Социальная среда, в которой происходит реинтеграция, также играет важную роль. Если окружение дружелюбное и поддерживающее, процесс может быть более успешным.

4. Реабилитационные программы. Реабилитационные программы могут помочь восстановить здоровье и навыки, которые были утрачены в период отчуждения или изоляции. Они также могут помочь восстановить доверие в обществе.

Для успешного синтеза рассмотренных аспектов в едином ценностно-смысловом поле процесс реинтеграции должен сопровождаться выдвижением большого социального проекта, в качестве которого представляется цифровая трансформация общества как фундамент социально-экономического развития [5].

Являясь ключевым фактором развития социально-экономического пространства, человеческий капитал представляет собой совокупность знаний, навыков, опыта и квалификаций, которыми обладают люди и которые могут быть использованы для создания богатства и производительности в экономике. Как мера способности человека приносить социально-экономический доход, человеческий капитал может быть улучшен и развиваться через образование, тренинги, обучения и опыт работы. Наличие квалифицированных и обра-

зованных работников, способных использовать новые технологии и участвовать в инновационном процессе, является важным фактором конкурентоспособности страны и процветания ее экономики [6]. Развитие человеческого капитала такжеспособствует улучшению качества жизни и социальной стабильности, так как образованные люди обладают большей способностью к адаптации к изменениям и более высоким доходом. Также способом повышения человеческого капитала является создание программ поддержки здравоохранения и социальной защиты, которые помогут людям сохранить свое здоровье и повысить свой уровень жизни в реинтеграционном обществе.

Таким образом, эффективное управление экономическим развитием социального пространства как базисом реинтеграционных процессов требует релевантного человеческого капитала, ключевыми критериями которого предлагается рассматривать производительность, лояльность и компетентность. Производительность зависит от организации труда, мотивации и набора технологических знаний, среди которых наиболее актуальными сегодня становятся цифровые технологии. Лояльность как осознанное продуктивное отношение к протекающим в социальном пространстве процессам зависит от качества жизни, коммуникационной транспарентности и, учитывая цифровые тренды, от уровня цифровой этики. Компетентность предполагает развитие полученных знаний через конкретную социально-профессиональную практику и включает в себя профессиональную (hard), социальную (soft) и цифровую (digital) компоненты [7]. Исходя из наличия в каждом критерии цифровых акцентов можно прийти к выводу, что цифровизация социально-экономических и культуро-политических процессов обуславливает необходимость нового когнитивного основания формирования человеческого капитала, под которым в настоящей статье понимается цифровое сознание человека [8].

Цифровое сознание является важным фактором человеческого капитала, так как оно определяет уровень знаний, навыков и компетенций, необходимых для эффективной работы в цифровой экономике и обществе. Человек, обладающий цифровым сознанием, ускоряет свою адаптивность к новым технологиям, что повышает его потенциал взаимодействия с большими объемами информации и коммуникации в цифровом пространстве, а это, в свою очередь, увеличивает информационную и когнитивную толерантность и конкурентоспособность на рынке труда.

Для пересборки социального пространства на основе проекта цифровой трансформации необходимы новые общественные условия в плоскости результирующей культурных ценностей, системы образования и социально-экономической инфраструктуры [9]. К данным условиям можно отнести массовый доступ к Интернету для коммуникативно-информационного обмена между людьми в режиме реального времени. Кроме того, посредством сети Интернет должны быть созданы условия совершения покупок и продаж товаров и услуг. Так же, для формирования способности анализа данных и выполнения сложных задач в условиях неопределённости необходимо создавать инфраструктурные и технологические возможности облачного хранения и обработки информации, кибербезопасности и управления эргатическими информационными системами.

Нельзя забывать, однако, что реализация проекта цифровой трансформации общества может сопровождаться процессами цифрового неравенства, что, может привести к результатам, противоположным реинтеграционным. Следовательно, критическим фактором реинтеграции и формирования человеческого капитала становится сопровождение населения образовательными программами, реализуемые на принципах государственно-частного партнёрства.

Резюмируя, можно отметить, что цифровое сознание, силу перечисленных причин и

следствий, становится доминирующим фактором в процессах реинтеграции, поскольку цифровизация современного общества выступает драйвером социально - экономических и когнитивных изменений. Цифровое сознание позволяет продуктивно и осознанно использовать цифровую технику и технологии для образовательных, социальных и профессиональных целей, что становится фундаментом интеграции человека в социально-экономическое пространство и обретения в нём своего места [10]. В частности, цифровое сознание может помочь людям реинтегрироваться в процессе обучения, приобретая новые знания и навыки, которые могут помочь им стать более квалифицированными и успешными в социально-профессиональной деятельности, лучше приспособленными к новому реинтеграционному социальному пространству.

Тем не менее, важно сохранять понимание, что цифровое сознание не становится панацеей для всех проблем реинтегрирующихся людей. Необходим системно развивать качество жизнедеятельности человека, включающее в себя охрану здоровья, образование, трудоустройство, самореализацию, сочетание с которыми цифровое сознание может стать основой формирования человеческого капитала и помочь людям интегрироваться в новое социальное пространство.

ЗАКЛЮЧЕНИЕ

Резюмируя, можно отметить, что успешная реинтеграция зависит от социальных, культурных и экономических условий в обществе, в которое индивид или группа возвращаются. Также важно, чтобы были созданы условия для восстановления доверия и уважения между отдельными индивидами и обществом в целом. Социально-экономическая пересборка на новых ценностно-смысловых основаниях цифровой экономики формирует такие условия и задаёт новые когнитивные ориентиры человеческого капитала в виде цифрового сознания.

Являясь важным аспектом реинтеграции, цифровое сознание может помочь людям быстрее адаптироваться к новым условиям жизни и увеличить свой уровень самоуважения и самооценки. Поэтому, важно обеспечивать доступ к цифровым технологиям и обучение, чтобы все люди могли использовать их в своих интересах.

Список использованной литературы:

1. Das D.K. (2010). Another perspective on globalization / D.K. Das // Journal of International trade law and policy.

2. Ярмак О.В., Миргород Д.А., Косов Г.В. (2022). Реинтеграция как интегративная пересборка обществ: теоретическое осмысление // МНИЖ. – №12 – (126). URL: https://cyberleninka.ru/article/n/reintegratsiya-kak-integrativnaya-peresborka-obschestv-teoreticheskoe-osmy slenie (дата обращения: 02.05.2023).

3. Косоруков А.А., Кшеменецкая М.Н. (2019). Цифровое управление как современный этап развития государственного управления (на примере открытых данных) // Тренды и управление. – №1. URL:https://cyberleninka.ru/article/n/tsifrovoe-upravlenie-kak-sovremennyy-etap-razvitiya-gosudarstvennog o-upravleniya-na-primere-otkrytyh-dannyh (дата обращения: 02.05.2023).

4. Акперов И.Г., Мартынов Б.В., Прокопенко Е.С. (2022). Роль сознания в управлении изменениями //Вестник университета. – №11 – С. 5 – 10.

5. Добросоцкая С.Ю., Мартынов Б.В. (2019). Экономико-правовые аспекты организации подготовки кадров для цифровизации евразийской транспортной экосистемы на примере межвузовской научно - образовательной платформы // Евразийский юридический

журнал. – № 1 (128). – С. 397 – 399.

6. Мартынов Б.В. (2021). Региональная цифровая образовательная экосистема как основа формирования цифрового сознания молодежи // Интеллектуальные ресурсы - региональному развитию. – № 2. – С. 82 – 86.

7. Мартынов Б.В., Прокопенко Е.С., Акперов И.Г. (2023). Гуманитарно-цифровые технологии проектирования интеллектуальных информационных систем управления бизнесом \\ Первый экономический журнал – №1(331). – С.19 – 24.

8. Прокопенко Е.С., Мартынов Б.В. (2019). Образовательный менеджмент в условиях транзитивной диджитализации университета // Сборник научных трудов «Актуальные проблемы и перспективы развития транспорта, промышленности и экономики России», Т.2. Технические, экономические, естественные и гуманитарные науки. - РГУПС: Ростов-на-Дону, – С. 171 – 174.

9. Грошев И.В., Хэ Мэнин. (2020). Управление изменениями организационной культуры в условияхцифровой трансформации // Вестник экономической безопасности. – №5 – С. 206 – 11.

10. Мартынов Б.В. (2021). Интеллектуальная система управления третьей миссией университета на принципах нечеткой логики как инструмент формирования цифрового сознания // Эффективные системы менеджмента: качество и цифровые интеллектуальные системы: Материалы IX Международного научно-практического форума / Казанский инновационный университет имени В. Г.Тимирясова. – Казань, – С. 77 – 81.

I.G.Akperov
Doctor of Economics, professor,
Rector of the Southern University (IUBIP)

Digital consciousness as a factor of human capital formation inintegration processes

Abstract

The article deals with the problems of reintegration of social spaces in the conditions of a new reality. Interpretations of the concepts of "reintegration", "digital consciousness", "human capital" are given. The prerequisites are presented that substantiate the idea that the achievement of effective reintegration is associated, first of all, with the economic development of the territory, for which it is necessary to form human capital based on digital consciousness. In the modern world, digital consciousness is becoming the dominant cognitive factor, as digital technologies increasingly penetrate our lives and change the way people interact. However, the development of digital consciousness requires constant training and skill development, which can be achieved through professional training, self-education and participation in projects related to digital transformation. Thus, digital consciousness can be considered as a factor of human capital growth, which can help people adapt to changing labor market conditions and work successfully in the digital economy.

Keywords: *digital consciousness, reintegration, human capital, glocalization, digital transformation, social space, digital economy, socio-economic reassembly.*

https://doi.org/10.58225/tim.2025-4-49-57

JEL Classification Codes: D01, L94, L95, N7, Q42
UOT: 332:338.24:620.98 (479.24)

E.M.Hacızadə
i.e.d., professor, Azərbaycan Respublikası
Nazirlər Kabineti Aparatının
Sənaye və energetika şöbəsinin müdiri
ORCID 0000-0001-5447-9676
elshan@hajizada.com

Məqalə redaksiyaya daxil olub 27.11.2025
The article was received by editorial board on 27.11.2025
Статья принята к печати 27.11.2025

İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİN ENERJİ POTENSİALI VƏ YAŞIL İNFRASTRUKTUR STRATEGİYASI

Xülasə

Qlobal çağırışlar Azərbaycanda da yaşıl enerji sistemli keçidə zəmin olur. Bu sırada işğaldan azad edilmiş ərazilərin enerji potensialı da mühüm əhəmiyyət kəsb edir. Respublika Prezidenti cənab İlham Əliyev həmin əraziləri yaşıl enerji zonası elan etmişdir. Hazırda bu sahədə institusionallığı artırmaq üçün ölkədə miqyaslı nəhəng layihələr həyata keçirilir. Bunlardan irəli gələrək, məqalədə yaşıl energetika sektorunda qlobal trendlər, işğaldan azad edilmiş ərazilərin enerji potensialının dəyərləndirilməsi, yaşıl artım strategiyası kimi prioritet məsələlər tədqiqat obyektinə çevrilmişdir. Aparılan təhlil və qiymətləndirmələr əsasında Azərbaycanda, o cümlədən işğaldan azad edilmiş ərazilərdə yaşıl energetika quruculuğunun daha təkmil məcrada inkişafı üçün hədəflər müəyyənləşdirilmiş, müvafiq əməli təkliflər irəli sürülmüşdür. Milli enerji təhlükəsizliyinin, enerji effektivliyinin və ölkənin ixrac potensialının yaşıl konseptlər sistemində möhkəmləndirilməsi, ekoloji iqtisadiyyat prinsiplərinə uyğun olaraq dekarbonizasiya istiqamətində fəaliyyətlərin artırılması və bütün bunlardan irəli gələrək, işğaldan azad edilmiş ərazilərdə yaşıl infrastruktur strategiyasının reallaşdırılması üçün məqsədli dövlət proqramının hazırlanması alınan nəticlər sırasındadır.

Açar sözlər: *Heydər Əliyev, işğaldan azad edilmiş ərazilər, enerji potensialı, yaşıl infrastruktur, yaşıl energetika.*

GİRİŞ

Heydər Əliyev müstəqil Azərbaycanın Prezidenti kimi misilsiz xidmətlər göstərmişdir. Məhz onun nizam verdiyi yolla bu gün Azərbaycan uğurla irəliləyir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə çıxışında səsləndirdiyi kimi "1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin kontraktı" növbəti bir dönüş nöqtəsi olmuşdur. Azərbaycan dövləti "Əsrin kontraktı"nın icrasına bir manat vəsait qoymayıb. Ancaq mənfəət neftinin 75%-i Azərbaycana gəlir" [9]. Əlbəttə ki, qət edilən bu inkişafın təməlində ümummilli lider Heydər Əliyevin formalaşdırdığı neft strategiyası dayanmışdır. Bu strategiya multiplikativ effektdə prezident İlham Əliyevin əzmkar fəaliyyəti ilə aparılan miqyaslı islahatlarla daha təkmil məcraya yönəlmişdir. Bunun nəticəsidir ki, son 20 ildə iqtisadiyyat 3 dəfədən çox artmış, artım meylləri iqtisadiyyatın bütün sahələrini, o cümlədən elektroenergetikanı da əhatə etmişdir.

Müasir dövrdə bu strateji xətt yaşıl enerji ssenarisi ilə uğurla davam edir.

Yaşıl keçidə zəmin olan bir çox əsaslar vardır və bunu təkcə ekosivil sivilizasiyada dərinləşmə prosesləri ilə əlaqələndirmək olmaz. Yaşadığımız çağdaş dünyada baş verən meyllər göstərir ki, enerjiyə olan tələbat yaxın iki onillik ərzində indiki istehsal və istehlak göstəricilərini orta hesabla daha 25-30% üstələyəcəkdir. Müasir dünyanın hazırkı yancaq-enerji balansına diqqət etdikdə görərik ki, onun əksər hissəsi qazıntı yanacağına əsaslanır və bu çevrədə karbohidrogen təyinatlı resurslar yarıdan çox paya malikdirlər. Bu isə o deməkdir ki, proqnoz edilən bu ssenaridə karbon emissiyası da müvafiq olaraq artacaq və bu artım müvafiq hesablamalara görə 2030-cu ilədək təxminən 40-45% təşkil edərək, planetin temperaturunun 6^{o}C-dək yüksəlməsi ilə müşayiət olunacaqdır [4, 11]. Dərinləşən miqyaslı ekoloji problemin kəskinliyini azaltmaq və onu aradan qaldırmaq üçün isə bərpa olunan enerji növlərinin, xüsusən də yaşıl enerjinin geniş təsərrüfat dövriyyəsinə qatılması yeni bəşəri vəzifəyə çevrilmişdir. Bunu nəzərə alaraq da, ayrı-ayrı ölkələr yaşıl iqtisadiyyata keçid istiqamətində strategiyalar qurur, dövlət proqramları hazırlayır, müvafiq institusionallaşmanı genişləndirirlər.

Azərbaycanda da yeni qlobal çağırışlardan irəli gələrək, yaşıl infrastruktur quruculuğu sferasında mühüm addımlar atılır və bu proseslərə yönəlmiş strategiya dövlətin prioritetləri sırasında geniş yer alır. Ölkənin artan enerji gücü sayəsində enerji sektorunda aparılan islahatlar dərinləşir, yaşıl iqtisadi sistemin təşəkkülü dərin konseptual xarakter alır. Yaşıl infrastruktur quruculuğuna işğaldan azad edilmiş ərazilərin enerji potensialı yeni güc qatır. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev böyük Qarabağ zəfərindən sonra işğaldan azad edilmiş ərazilərin əksər hissəsini təşkil edən Qarabağ və Şərqi Zəngəzur İqtisadi rayonlarını Yaşıl Enerji Zonası elan etmişdir. Onun "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında" Sərəncamı ilə işğaldan azad olunmuş ərazilərdə təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi kimi inkişaf prioritetləri təsbit olunmuşdur. Qeyd olunmalıdır ki, bu prioritetlər BMT-nin "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn öhdəliklərin icrası istiqamətində də xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda, vurğulanmalıdır ki, həmin prioritetlər üzrə müvafiq vəzifələrin icrası "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda "Təmiz ətraf mühit və "yaşıl artım ölkəsi" üzrə strateji çərçivə" sənədində, onun tərkib hissəsindən biri olaraq "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda və habelə həmin illəri əhatə edən "İşğaldan azad edilmiş ərazilərdə Yaşıl enerji zonasının yaradılması üzrə Tədbirlər Planı"nda da öz əksini tapmışdır.

Geniş milli maraqları əhatə edən bu dövləti stratejilər elmi sferada da aktual səciyyə daşıyaraq yeni fundamental tədqiqatlara stimullar gətirir. Bu baxımdan məqalədə Azərbaycanın artan enerji gücünün yeni reallıqlar, xüsusən də işğaldan azad edilmiş ərazilərin enerji potensialı çevrəsindən dəyərləndirilməsi və habelə aparılan yaşıl infrastruktur strategiyası kontekstində təhlili tədqiqat obyektinə çevrilmişdir.

Niyə yaşıl enerji?

Proqnozlara görə, əhali sayı 8 milyardı ötmüş və enerjidaşıyıcılara tələbatı 9 milyard ton neft ekvivalentə çatmış dünyamızda enerjiyə olan ehtiyac daha da artmaqdadır. Enerji tələbatının 90%-i yenə də mədən qazıntı ehtiyatları, o cümlədən onun $^{2}/_{3}$ hissəsi neft və qaz hesabına qarşılanacaqdır [12]. Bu həm də ona əsas yaradır ki, yaxın 40-50 ildə karbohidrogen resurslarının tükənməsi prosesinin davam etməsinə baxmayaraq neft erası bitməyəcəkdir. Sıxıntı və məhdudiyyətlər ənənəvi elektroenergetika sahəsini də ələ alacaqdır. Tədqiqatlar göstərir ki, böyük Su Elektrik Stansiyalarının - SES-lərin generasiyası azalmaqdadır. Digər tərəfdən onların ekoloji fəsadlığı genişlənmiş, saxlanılması xərcləri artmış, yenilərinin inşa perspektivliyinin aktuallığı isə məhdudlaşmışdır. Bütün bunlar qlobal istiləşmə fonunda alternativ enerji mənbələrindən istifadəni daha da genişləndirmiş, ənənəvi xətti iqtisadiyyatın dairəvi və yaşıl iqtisadiyyatlarla əvəzlənməsi prosesi güclənmişdir [2].

Eyni zamanda, dünya energetikasının aparıcı dövlətləri əlverişli və rentabelli enerji növü - nüvə enerjisindən istifadəni daha optimallaşdırmada, sahəyə yönələn investisiyaların önəmli hissəsinin problemin ən səmərəli elmi həllinə yönəltmədəki səylərini artırmışlar. Əlbəttə bu sırada qeyri-ənənəvi enerjidaşıyıcıların axtarışı prosesi daha sürətləndirilmiş və yaşıl energetikaya miqyaslı keçid təşəkkül tapmışdır. Bu baxımdan da hazırda bəşəriyyətin enerjidən yüksək asılılığı şəraitində əlavə enerji mənbələrinin imkanlarının öyrənilməsi çox mühüm rol oynayır. Dərk olunan odur ki, ənənəvi enerji mənbələri tükənən xarakterlidir, onların istifadəsi bahalı, ətraf mühitə zərərli təsiri böyükdür. Burada isə çıxış yollarından biri "yaşıl enerji"yə təməlli girişlə bağlıdır.

Ona görə də qətiyyətlə demək olar ki, yaşıl energetika son onillikdə əsl trendə çevrilmişdir. Onun məramında bir çox ölkələri karbohidrogen asılılığından xilas etmək missiyası dayanır. "Yaşıl energetika"nın aidiyyəti komponenti olan yaşıl enerji əsasən altı ən ümumi formanı özündə birləşdirir. Buraya günəş enerjisi, külək energetikası, hidroenergetika, geotermal enerji, biokütlə və bioyanacaq daxildir. Yaşıl enerji mühüm əhəmiyyətlidir. Bu əhəmiyyətlilik bütün bərpaolunan enerji mənbələri - Regenerativ sistemdə olduğu kimi, ətraf mühit üçün vacib şərtlidir [5, 6]. O, qazıntı yanacaqlarının mənfi təsirini daha təmiz alternativlərlə əvəz edir. Təbii ehtiyatlardan əldə olunan yaşıl enerji bərpa olunan və təmizdir. Yəni bu zaman az miqdarda istixana qazları emissiya olunur və ya heç buraxmır. Yaşıl enerji mənbələri tükənməzlik parametləri ilə də fərqlənir. Bu baxımdan yaşıl enerji mənbələrinin özəlliyindən biri də odur ki, onlar bərpası milyonlarla il çəkə bilən təbii qaz və ya kömür kimi qalıq yanacaq mənbələrindən fərqli olaraq, adətən təbii yolla yenidən yaranırlar. Həmçinin onların istehsal və istehlak zəncirində ekosistemə zərəri minimum olur.

Təkcə günəş enerjisinə baxdıqda görərik ki, hər il yer səthinə təxminən 173 PVt (10^{15} *vatt*) günəş enerjisi daxil olur ki, bu da planetimizin ehtiyacından 10 min dəfə çoxdur [8]. Yaşıl enerji həm də iqtisadi, maliyyə və həm də antiböhran effektlidir. O, sabit enerji qiymətlərinə səbəb olur. Onun dövriyyəsi qiymət artımları və ya təchizat zəncirinin pozulması kimi təsirlənmir. Yeni iş yerləri yaradır, məşğulluğun təminatını möhkəmləndirir. Məlumatlara görə, ötən son 2 ildə onun təsisatları ilə dünya miqyasında 20 milyona yaxın iş yeri açılmışdır [5]. Lokal təchizata yönəldiyi üçün onun qlobal təsirləri də az olur, onun geniş istifadəsi belə geosiyasi böhranlara gətirmir. Belə ki, enerji istehsalının yerli xarakterinə görə onun enerji infrastrukturu daha çevik olur. Onu fasilələrə səbəb ola biləcək mərkəzləşdirilmiş mənbələrdən daha az asılılığı daha cəlbedici edir.

Statistik təqdiqatlar göstərir ki, dünyada yaşıl enerji potensialı 2000-ci ildən bəri orta hesabla ildə 3,2% artım əldə etmişdir. Bu dövrdə ənənəvi enerjinin artımı isə 2 dəfə az, təxminən ildə 1,4% olmuşdur. Regenerativ potensialından enerji istehsalının ayrı-ayrı sektorlarında dinamika geniş olmuşdur. 2020-2022-ci illərdə yaşıl enerjinin artım payı 6% təşkil etmişdir. Hazırda müasir dünyada iri SES-lər istisna olunduqda alternativ enerji mənbələrindən istifadənin payı 8% hüdudlarındadır. Bu payda günəş 55%, külək 28%, biokütlə 10%, digərləri isə 7% həcmindədirlər. Bu sahə davamlı investisiyalaşdırılır və onun geri qaytarma müddəti 7-8 il çəkir [12].

"Yaşıl energetika"nın keyfiyyət və əhəmiyyətini vurğulayarkən, onun problemli cəhətlərinə də baxılmalıdır. Həm toplanmış təcrübə və həm də mütəxəssis rəyləri onları sadalamağı imkanlı edir. Bu sırada ilk öncə yaşıl enerjinin ötürülməsi xərclərinin böyük olması göstərilir. Belə ki, istehsal məsafəsindən asılı olaraq onun reallaşdırması üçün əlahiddə infrastruktur təminatı olmalıdır. Günəş batareyalarının, külək qurğularının və həmçinin enerji saxlama cihazlarının utilizasiyasında xərclər böyükdür [7, 8, s. 35-44]. Digər tərəfdən onu da bilməliyik ki, bərpa olunan enerji bu gün mövcud olan bir çox cihazı və prosesləri birbaşa əvəz edə bilməz. Belə ki, biz bu gün qazıntı yanacağı olmadan külək turbinləri, günəş panelləri istehsal edə və ya su elektrik stansiyaları tikə bilmərik. Buna əsaslı nail olmaq üçün ən azı 20 il qazıntı yanacaq sistemlərinə ehtiyac olacaqdır. Təkcə bərpa olunan enerji ilə hazırda edə bilməyəcəyimiz bir sıra digər obyektivlər var. Bu siyahıda polad, sement, asfalt, gübrə, plastik və sairəni nümunələrdirə bilərik. Bütün bunlar onu göstərir ki, yaşıl enerji epoxasına tam keçid

azı yarım əsr vaxt aparacaqdır [6, s. 81]. Digər tərəfdən bu enerji növünün geniş aprobasiyası da yaşanmalıdır.

Azərbaycanda yaşıl energetika və regenerativ potensialı

Elektroenergetika Azərbaycan iqtisadiyyatının da baza sahəsi kimi əhalinin və cəmiyyət həyatının digər sferalarının inkişafının bilavasitə başlıca amili və zəruri şərti olaraq çıxış edir. Onun Azərbaycanda sənaye yaşı demək olar ki, bir əsr yarıma bərabərdir. Respublikada geniş təsislandırmada elektroenergetika sahəsi 1890-cı illərdən - 9 milyard kVts elektrik enerjisi istehsalı ilə inkişafa qədəm qoymuşdur [1, 3, s. 21-32]. Sahə üzrə böyük sıçrayış 1950-ci ildən başlanğıc almış və böyük tərəqqi yolu keçərək ötən əsrin 70-80-ci illərində adekvat sistemdə formalaşmışdır.

Azərbaycan elektroenergetikası milli neft strategiyasına əsaslanaraq yenidən qurularaq, daha təkmil sistemdə qurulmuşdur. Son 20 il ərzində ölkənin elektrik enerjisi sistemi gücləndirilərək 7 min MVt-a yüksəldilmişdir. Hazırda Azərbaycanda elektrik enerjisi illik istehsalı 30 milyard kVts-a yaxınlaşmaqdadır. Bunun 93,3%-ə qədəri istilik elektrik stansiyalarında, 5,5%-lik hissəsi su elektrik stansiyalarında və 1,2%-i isə digər bərpa olunan mənbələr hesabına istehsal olunur. Bu sıraya 2011-ci ildən başlayaraq, hazırda gücü 100 MVt-ı aşan bərpa olunan enerji sistemi də qoşulmuşdur. Hazırda Azərbaycanın enerji sistemi 33-ü su, 26-sı istilik və 17-si regenerativ (*bərpa olunan enerji mənbəli*) olmaqla, 76 elektrik stansiyasını, müxtəlif təyinatlı 34 minə yaxın yarımstansiya və 1,9 milyon kilometr uzunluğunda elektrik verilişi xətlərini əhatə edir [10, 13, 14].

Vurğulanmalıdır ki, Azərbaycan, həm də Ermənistan istisna olmaqla, elektrik enerjisinin bütün region dövlətlərinə ötürülməsi üzrə təminatlı infrastruktur imkanlarına malikdir. Aparılan islahatlar nəticəsində Azərbaycan 2003-cü ildən sonra elektroenergetika sahəsində elektrik enerjisi üzrə idxalçı ölkədən ixracatçı ölkəyə çevrilmişdir. İndi hər il respublikadan Gürcüstan və Türkiyəyə 2-3 milyard kVts həcmində elektrik enerjisi ixracı reallaşdırılır. Ölkədə elektrik enerjisinin ixrac potensialı 5 milyard kVts hesablanır [10]. Qara dənizin altından Gürcüstandan Rumıniyaya qədər sualtı kabelin çəkilişi layihəsi icra olunacağı təqdirdə bu potensialın daha geniş səmərəliliklə reallaşması hədəflənir.

Eyni zamanda, ölkədə elektroenerji təhlükəsizliyinin təminatında regenerativ potensialdan - külək, günəş, biokütlə və s. istifadənin genişləndirilməsinə xüsusi önəm verilir. Bu məqsədlə yeni normativ baza formalaşdırılır, xarici əməkdaşlıq genişləndirilir, inkişafın yeni hədəflərinin direktivləri reallaşdırılır. Bütün bunlar isə əsaslı şəkildə elektroenergetika sektorunda da islahatların yeni mərhələsini şərtli etmiş və milli enerji təhlükəsizliyinin davamlı təminatı üzrə müvafiq strategiyanın formalaşdırılmasına zəmin olmuşdur.

Son hesablamalara görə ölkədə iqtisadi cəhətdən əlverişli və texniki cəhətdən istifadəsi mümkün yaşıl enerji potensialı 27 min MVt-a yaxın, o cümlədən, günəş enerjisi 23 min MVt, külək enerjisi 3 min MVt, bioenerji potensialı 400 MVt, dağ çaylarının potensialı 500 MVt-dan çox həcmində qiymətləndirilir. Buraya Xəzər dənizinin Azərbaycana aid akvatoriyasında hesablanan 157 QVt (*157 min MVt*) külək enerji toplumunu qatdıqda isə daha miqyaslı - 186 min MVt-a yaxın həcmində bir potensial yaranır [13]. Qeyd olunmalıdır ki, həyata keçirilən "yaşıl enerji" siyasətində Xəzər dənizinin enerji potensialından istifadə mühüm yer tutur. Perspektivdə bu potensial ölkədən genişliklə miqyaslı elektrik enerjisinin ixracını təmin edəcək və həmçinin burada "yaşıl hidrogen" istehsalı ilə milli iqtisadiyyat əlavə dəyər əldə edəcəkdir. Bu baxımdan ölkədə yaşıl enerji komponentlərindən biri olan maye hidrogen üzrə ixrac planları işlənməkdədir.

Hazırda ölkədə mövcud regenerativ potensialdan istifadə səviyyəsi energetik balansda 1,2%-ə bərabərdir. Hər il orta hesabla 400 milyon kVts-a yaxın elektrik enerjisi istehsal olunur ki, bunun da 91,5 milyon kVts-ı külək, 55,2 milyon kVts-ı günəş, qalan 193,2 milyon kVts-ı isə bioenerji mənbələrinin payına düşmüşdür. Bundan başqa, qeyri-dövlət sektoru tərəfindən regenerativ potensial hesabına 34,3 mln. kVts elektrik enerjisi istehsal olunmuşdur ki, onun da 59,8%-i KES-nin, 40,2%-i isə digər mənbələrin payına düşmüşdür [10].

Son 15-20 il ərzində Respublikada, paytaxt Bakıda və bölgələrdə çoxsaylı günəş və külək elektrik stansiyaları inşa edilmiş, bir sıra məktəb və tibb məntəqələrində, avtomobil magistrallarında, ev təsərrüfatlarında günəş panelləri quraşdırılmışdır. Həmçinin Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonu ərzisində də gücü 3 MVt olan Günəş elektrik stansiyası istismara verilmişdir və bununla birlikdə muxtar respublikada elektrik enerjisinə olan tələbatın su elektrik stansiyaları da nəzərə alındıqda, 40%-i regenerativ potensialından hesabına ödənilməsi təmin edilir

Regenerativ potensialdan istifadənin genişləndirilməsi ölkə İES-lərində böyük həcmdə qaz yanacağına qənaət etməyə imkan verir. Burada əldə olunmuş qaz həcmləri isə iqtisadiyyatın digər sahələrinin tələbatının ödənilməsinə və ya ölkənin ixrac potensialının artırılmasına zəmin yaradır. O da vurğulanmalıdır ki, hazırda ölkədə yaşıl enerji sahəsində üç iri layihə rellaşmaqdadır. Bu layihələrlə inşa olunacaq günəş və külək elektrik stansiyalarında 700 MVt-dən çox yaşıl enerji istehsal ediləcəkdir.

Bununla yanaşı, daha 22 min MVt-a qədər yeni günəş və külək elektrik stansiyalarının tikintisi də nəzərdə tutulur. İri yaşıl enerji layihələri kimi, Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti Abşeron və Xızı rayonları ərazisində 240 MVt gücündə külək, Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti isə Bakının Qaradağ rayonu ərazisində 230 MVt gücündə günəş, habelə Araz çayı üzərində ümumi gücü 200 MVt olan (Azərbaycan və İran hər birinə 100 MVt olmaqla) "Xudafərin", gücü 80 MVt olan (Azərbaycan və İran hər birinə 40 MVt olmaqla) "Qız" qalası və 36 MVt gücə malik Ordubad su elektrik stansiyalarının, həmçinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında çoxsaylı irili-xırdalı SES-lərin tikintisi yer alır [10, 13].

Ölkənin enerji istehsalı strukturunda yaşıl enerjinin payının durmadan artması energetika balansına daha biçimli yanaşmanı və bu istiqamətdə inkişafın müvafiq yeni strateji xəttinin təyin olunmasını tələb etmişdir. Bu baxımdan Azərbaycanın regionlarında yaşıl enerjinin potensialının balanslaşdırılması və ondan istifadənin genişləndirilməsi tədbirlərinin həyata keçirilməsinə başlanılmışdır.

Belə ki, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev böyük Qarabağ zəfərindən sonra işğaldan azad edilmiş ərazilərin əksər hissəni təşkil edən Qarabağ və Şərqi Zəngəzur İqtisadi rayonlarını Yaşıl Enerji Zonası elan etmişdir. Onun "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında" Sərəncamı ilə işğaldan azad olunmuş ərazilərdə təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi kimi inkişaf prioritetləri təsbit olunmuşdur.

Qeyd olunmalıdır ki, bu prioritetlər BMT-nin "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn öhdəliklərin icrası istiqamətində də xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda, vurğulanmalıdır ki, həmin prioritetlər üzrə müvafiq vəzifələrin icrası "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda "Təmiz ətraf mühit və "yaşıl artım ölkəsi" üzrə strateji çərçivə" sənədində, onun tərkib hissəsindən biri olaraq "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda, və habelə həmin illəri əhatə edən "İşğaldan azad edilmiş ərazilərdə Yaşıl enerji zonasının yaradılması üzrə Tədbirlər Planı"nda da öz əksini tapmışdır.

İlkin qiymətləndirmələrə görə, işğaldan azad olunmuş ərazilərdə 7200 MVt günəş, 2000 MVt, külək 457 MVt hidro və 100 MVt bio enerjisi olmaqla ümümi toplumda 10 min MVt-a yaxın potensial vardır. İşləyən, tikilən və layihələndirilən kiçik su elektrik stansiyalarının sayı 30, enerji potensialı isə 350 MVt-a bərabərdir [13].

Aşağıdakı cədvəldə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında mövcud və layihələndirilən SES-lər və KSES-lər (*Kiçik SES-lər*) haqqında məlumatlar təqdim olunur:

Cədvəl 1

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında mövcud və layihələndirilən SES və KSES-lər

№	SES / KSES adı	Yerləşdiyi		Su hövzəsi	Gücü, MVt	Turbin sayı, ədəd	İstehsal gücü, mln. kVts
		İqtisadi rayon	Ərazi				
İstismara verilmiş SES və KSES-lər							
1	Füzuli SES	Qarabağ	Füzuli r.	Baş Mil kanalı	25	4	70,0
2	Güləbird KSES	Şərqi Zəngəzur	Laçın r.,Güləbird k.	Həkəri çayı	8,0	2	20,0
3	Suqovuşan-1 KSES	Qarabağ	Tərtər ray., Suqovuşan q.	Tərtərçay çayı	4,8	3	13,4
4	Suqovuşan-2 KSES				3,0	3	7,0
5	Kəlbəcər-1 KSES	Şərqi Zəngəzur	Kəlbəcər ray.	Lev çayı	4,4	1	12,3
6	Sus KSES		Laçın r., Sus k.	Həkəri çayı	4,0	1	12,0
7	Zabux KSES		Laçın r., Zabux k.	Zabux çayı	2,5	4	5,0
Cəmi					**51,7**	-	**69,7**
Tikintisi davam edən SES və KSES-lər							
1	Xüdafərin SES	Şərqi Zəngəzur	Cəbrayıl r., Qumlaq	Araz çayı *(*Azərbaycan payına*)	100*	2*	250,0*
2	Qız Qalası SES		Cəbrayıl r., Maşanlı		40*	2*	110,0*
3	Qamışlı KSES		Kəlbəcər: Qamışlı k.	Lev çayı	6,3	2	17,0
4	Meydan KSES		Kəlbəcər: Meydan k.	Meydan çayı	3,4	2	9,5
5	Soyuqbulaq KSES		Kəlbəcər: Soyuqbulaq k	Tərtərçay çayı	5,3	2	14,0
6	Çıraq-1 KSES		Kəlbəcər: Çıraq k.		8,3	2	21,0
7	Çıraq-2 KSES				3,6	1	10,0
Cəmi					**166,9**	-	**703,5**
2022-2023-cü illərdə tikilməsi nəzərdə tutulan SES və KSES-lər							
2022-ci il üzrə							
1	Şayıflı SES	Şərqi Zəngəzur	Zəngilan: Şayıflı k	Oxçuçay çayı	10,5	2	33,8
2	Sarıqışlaq SES		Zəngilan: Sarıqışlaq k.		10,5	2	33,1
3	Zəngilan SES		Zəngilan: Zəngilan r		10,5	2	32,3
4	Cahangirbəyli SES		Zəngilan: Cahangirbəyli k.		10,5	2	31,6
5	Zar KSES		Kəlbəcər r, Zar k.	Zar çayı	3,78	2	10,8
6	Ağbulaq SES		Laçın r., Ağbulaq k.	Hoçazsu çayı	14,25	2	49,9
7	Mişni KSES		Laçın r., Mişni		8,24	4	28,8

			k.					
Cəmi						**68,3**	**-**	**220,3**
2023-cü il üzrə								
1	Mirik KSES	Şərqi Zəngəzur	Laçın	Mirik k.	Hoçazsu çayı	3,2	2	10,2
2	Qarıqışlaq KSES			Qarıqışlaq k.		3,8	2	12,1
3	Şeylanlı KSES			Şeylanlı k.		4,3	2	13,7
4	Alxaslı KSES			Alxaslı k.		6,0	2	19,2
5	Kəlbəcər-2 KSES		Kəlbəcər	Kəlbəcər r.	Lev çayı	1,0	2	3,2
6	Nadirxanlı KSES			Nadirxanlı k.	Tərtərçay çayı	8,2	3	26,1
7	Yuxarı Vəng SES			Yuxarı Vəng k.		12,5	3	40,0
8	Aşağı Vəng SES			Aşağı Vəng k.		19,5	4	62,4
9	Toğanalı KSES		Kəlbəcər-Göygöl r.		Kürəkçay ç.	4,6	2	17,8
Cəmi						**63,1**	**-**	**204,7**
Yekun - 30 ES (*o cümlədən: SES-lər -10, KSES-lər-20*)						**350,0**	**-**	**926,2**

Mənbə: *"Azərenerji" ASC-nin [14] materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Bununla belə, regionun enerji potensialını konsolidə etmək və buradan xaricə ixracı gerçəkləşdirmək, habelə Azərbaycanın eksklavı Naxçıvan Muxtar Respublikasına ötürmək üçün müvafiq infrastruktur quruculuğu işləri də aparılır. Bu istiqamətdə yenidənqurulmuş 330 kV-luq "İmişli və "Ağcabədi" yarımstansiyalarını Naxçıvan Muxtar Respublikası ərazisində tikiləcək 330 və 400 kV-luq yarımstansiyaları ilə birləşdirən 330 kV-luq "Cəbrayıl" enerji qovşağının yaradılması mühüm əhəmiyyət daşıyır. Bu strateji xətt həm də, Azərbaycanın artan elektroenergetika potensialından irəli gələrək, Avropaya, xüsusən də yaşıl enerji kontekstində enerji körpüsünün salınmasına zəmin yaratmışdır. Onu həmçinin Avropa İttifaqı ilə aparılan enerji dialoqu da əsaslı etmişdir [14]. Belə ki, bu enerji dialoqu yalnız təbii qazı deyil, eyni zamanda yaşıl enerji və yaşıl hidrogeni də ehtiva edir.

Göstərilən milli prioritetlər həm də qlobal iqlim dəyişikliklərinin miqyasını nəzərə alaraq, ekoloji təmiz texnologiyaların tətbiqi, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpasının təşviqi kimi məsələlər baxımından da mühüm əhəmiyyət daşıyır. Bu çevrədə təsbit olunan strateji dövrdə iqlim dəyişikliklərinə təsiri azaldan yüksək keyfiyyətli ekoloji mühit yaratmaqla yaşıl enerji məkanının effektiv reallaşdırılmasına nail olunmalıdır. Həmçinin bütün sferalarda "yaşıl" texnologiyaların tətbiqi vüsətlənməli, xüsusən də ekoloji təmiz nəqliyyat vasitələrindən istifadə genişləndirilməli və yaşıl iqtisadiyyata rəqəmsallaşmanın, süni intellekt resurslarının və "Sənaye-4" nailiyyətlərinin tətbiqi ilə daha əhatəli keçid təmin olunmalıdır.

NƏTİCƏ

İşğaldan azad edilmiş ərazilərin enerji potensialı və yaşıl infrastruktur strategiyası istiqamətində apardığımız təhlil və qiymətləndirmələr belə bir nəticəyə gəlməyə əsas verir ki, dünya energetikası böyük transformasiya mərhələsindədir. Resursların məhdudlaşması yeni qlobal çağırışlar kontekstində industrial dövlətlərin energetik konsepsiyasına, milli təhlükəsizlik strategiyalarına korrektələr gətirir. Bu konseptual istiqamət Azərbaycan üçün də istisnasızdır. Ona görə də, ölkədə aparılan enerji siyasəti yaşıl energetika kontekstində təkmilləşir, daha optimal səciyyə daşıyır. Bu baxımdan mövcud reallıqlara və aparılan təhlillərə əsaslanaraq Azərbaycanda yaşıl energetika quruculuğunun daha təkmil məcrada inkişafı üçün hədəflər olaraq aşağıdakılar səciyyələndirilir:

• milli enerji təhlükəsizliyinin və ölkənin ixrac potensialının yaşıl konseptlər sistemində davamlı möhkəmləndirilməsi üzrə daha biçimli enerji strategiyasının işlənməsi və bundan irəli gələrək işğaldan azad edilmiş ərazilərlə bağlı məqsədli dövlət proqramının hazırlanması;

• enerji effektivliyinin artırılması, tələb yüksəlişinə uyğun yaşıl enerji əsaslı daha modern infrastrukturun formalaşdırılması, ev təsərrüfatlarında, inzibati və çoxmənzilli binalarda, fərdi yaşayış evlərində günəş panelləri və kollektorlarından istifadənin proqramlı olaraq genişləndirilməsi, regional (*xüsusən böyük şəhərlərdə*) bərk məişət tullantıları zavodlarının (*BMTZ-lər*) yaradılması, bir və ya bir neçə yanaşı kəndin günəş, külək və bioyanacaqdan istifadə əsasında (*hibrid və ya ayrı-ayrılıqda*) regenerativ təchizatı;

• yaşıl enerjinin geniş tətbiqi ilə əlaqədar qabaqcıl beynəlxalq təcrübənin mütəmadi öyrənilməsi, infrastrukturun idarəedilməsində yüksək texnologiyalardan, o cümlədən milli peyk xidmətlərindən istifadənin genişləndirilməsi, institusionallaşmanın genişləndirilməsi, sahə üzrə normativ-hüquqi bazanın davamlı təkmilləşdirilməsi;

• işğaldan azad edilmiş ərazilərdə, enerji ehtiyatlarının konsolidasiyası, müasir texnologiyalar tətbiq edilməklə onların davamlı inkişaf edən yaşıl enerji zonasına çevrilməsi və ən müasir standartlara cavab verən, innovativ enerji sistemi ilə təchizatı;

• ekoloji effektivlik və emissiyalı iqtisadiyyat prinsiplərinə uyğun olaraq, dekarbonizasiya istiqamətində fəaliyyətlərin artırılması, elektromobillərdən istifadənin genişləndirilməsi və müqabil infrastrukturun qurulması, enerji sektorunda süni intellekt resurslarının və "Sənaye-4" nailiyyətlərinin tətbiqinin genişliklə təminatı.

Bununla belə, respublikada, o cümlədən işğaldan azad edilmiş ərazilərdə yaşıl enerjinin geniş tətbiqi ilə əlaqədar mövcud və yeni yaradılacaq regenerativ güclərin ölkənin istehlak qrafikinə texniki və iqtisadi cəhətdən ardıcıl uyğunlaşdırılması da gərəkli hesab olunur.

İstifadə edilmiş ədəbiyyat:

1. Hacızadə E.M. (2018). Dünya iqtisadiyyatı və Azərbaycan: / – E.M.Hacızadə. – Bakı: "Letterpess", – 912 s.

2. Klaus Şvab. (2020). Dördüncü sənaye inqilabı: / – Şvab Klaus. – Bakı: "İqtisad Universiteti" nəşriyyatı, – 200 s.

3. Султанов Ч.А. (2013). Электроэнергетика Азербайджана / Ч.А.Султанов. – Баку: Чашыоглы, – 223 с.

4. "Yaşıl iqtisadiyyat" / V.Ə.Qasımlı [və b.]. (2022). Bakı: "Azprint" nəşriyyatı, – 280 s.

5. Allan Bentley B. and Jonas Meckling. Creative Learning and Policy Ideas: The Global Rise of Green Growth. Forthcoming in Perspectives on Politics: [Electronic resource] / URL: https://papers.ssrn.com/sol3/papers.cfm?abstract_id=3765002.

6. Scott Cato Molly (2009). Green Economics: An Introduction to Theory, Policy and Practice. USA, Earthscan publishes in association with the International Institute. p 224.

7. Гейтс Б. (2021). Как нам избежать климатической катастрофы. Решения, которые у нас есть. Прорывы, которые нам нужны:–Б.Гейтс.Москва:Манн, Иванов и Фербер (МИФ), – 336 с.

8. Сидорович В. (2019). Мировая энергетическая революция: Как возобновляемые источники энергии изменят наш мир: / – В.Сидорович. – Москва: Альпина Паблишер. – 208 с.

9. Azərbaycan Respublikası Prezidentinin rəsmi saytı: [Elektron resurs] / – Bakı: URL: **https://**www.president.az

10. Professor Elşən Hacızadənin saytı: [Elektron resurs] / – Bakı: URL: https://www.hajizada.com

11. Beynəlxalq Enerji Agentliyinin rəsmi saytı: [Elektron resurs] / URL: https**:**//www.iea.org
12. Beynəlxalq Bərpa Olunan Enerji Agentliyi – IRENA rəsmi saytı: [Elektron resurs] / URL: https://www.irena.org
13. Azərbaycan Respublikası Energetika Nazirliyi: [Elektron resurs] / – Bakı: URL: https://www.minenergy.gov.az
14. "Azərenerji" ASC: [Elektron resurs] / – Bakı: URL: https**://** www.azerenerji.com

E.M.Hajizadeh
Professor, Dr., Head of the Industry and Energy Department
of the Cabinet of Ministers of the Republic of Azerbaijan
ORCID 0000-0001-5447-9676

Energy potential of the liberated territories and green infrastructure strategy

Abstract

Global challenges are also paving the way for the transition to a green energy system in Azerbaijan. In this regard, the energy potential of the liberated territories is of great importance. The president of the Republic Mr. Ilham Aliyev declared these territories a green energy zone. At present, large-scale projects are being implemented in the country to increase institutionalization in this area. Proceeding from this, the article focuses on global trends in the green energy sector, assessment of the energy potential of the liberated territories, and priority issues such as the green growth strategy. Based on the analysis and assessments, targets for the development of green energy in Azerbaijan, including in the liberated territories, were determined and relevant practical proposals were put forward. In the system of green concepts, strengthening national energy security and energy efficiency, as well as expanding the country's export potential, increasing decarbonization activities in accordance with the principles of ecological economics and, based on all this, the development of a targeted state program for the implementation of a green infrastructure strategy in the territories liberated from occupation is one of these results.

Keywords: *Heydar Aliyev, liberated territories, energy potential, green infrastructure, green energy.*

https://doi.org/10.58225/tim.2025-4-58-63

V.A.Qasımlı
Professor, Dr.
Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru

Məqalə redaksiyaya daxil olub 10.11.2025
The article was received by editorial board on 10.11.2025
Статья принята к печати 10.11.2025

STRATEGİYA VƏ İCRA: PROQRAMƏSASLI İDARƏETMƏ

Azərbaycan xalqının çoxəsrlik tarixinin ən parlaq səhifələrindən biri 2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsində Ermənistan üzərində qazandığımız qələbədir. Hazırda Azərbaycanın canlı orqanizm kimi bərpa etdiyi tarixi ərazilərində – işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda regenerasiya və reinteqrasiya dövrü yaşanır. Qumilyovun təbirincə desək, passionarlığımız – daxili energetikamız Qarabağ və Şərqi Zəngəzurun inkişaf səbəbi, "Dədə Qorqud" dilində təpərimiz isə daxili enerjini işə çevirən yetənəyimizdir. Azərbaycan təkcə beşinci nəsil müharibə aparmaqla torpaq bütünlüyünü təmin etməyin çağdaş nümunəsini deyil, həm də ekosid, urbisid və etnosid cinayətlərinə rəğmən postkonflikt quruculuğunu daxili imkanları hesabına və daha yüksək səviyyədə təşkil etməklə quruculuğun yeni bir modelini də ortaya qoydu.

Prezident İlham Əliyevin rəhbərliyi altında postkonflikt quruculuğunun əsas istiqamətləri aşağıdakı kimi müəyyənləşdirilib:

1. Azərbaycanın hərb meydanında möhtəşəm qələbəsinin digər, o cümlədən, siyasi və diplomatik müstəvilərdə möhkəmləndirilməsi

Ərazi bütövlüyünün tanınması da daxil olmaqla, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması, kommunikasiyaların açılması və regional inteqrasiyanın gücləndirilməsi istiqamətində ardıcıl addımlar atılır. Ölkəmizin mövqeyi beynəlxalq qanunlara və normalara uyğundur, dünyanın əksər aparıcı dövlətləri və nüfuzlu beynəlxalq təşkilatları tərəfindən də dəstəklənir. Bütün dünya dövlətləri də təsdiq edir ki, bölgədə sülh və əmin-amanlıq davamlı inkişaf üçün təməl şərtdir. Azərbaycan dövləti də bunun üçün beynəlxalq norma və prinsipləri, eləcə də dinc qonşuluq siyasətini rəhbər tutaraq lazımi tədbirləri həyata keçirir.

2. Şəhid ailələri və müharibə iştirakçılarının sosial müdafiəsinin təşkili


Aydındır ki, ərazilərin bərpası və böyük qayıdışla yanaşı, şəhid ailələrinə, qazilərə və bir sözlə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin də qeyd etdiyi kimi, "qələbəni bizə yaşadanlar"a diqqət və qayğının göstərilməsi zəruridir. Bu məqsədlə ölkədə "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzləri" yaradılıb. Azərbaycan Respubli-kasının ərazi bütövlüyünün bərpa edilməsi və ərazilərin işğaldan azad olunması uğrunda aparılan hərbi əməliyyatlar zamanı şəhid olmuş şəxslərin ailə üzvlərinə, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçulara və əlilliyi müəyyən edilmiş şəxslərə əmək, məşğulluq, sosial müdafiə, tibbi-sosial ekspertiza, reabilitasiya, müalicə, müayinə, eləcə də digər sahələrdə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, vətəndaş məmnunluğunun təmin olunması, dövlət orqanlarının fəaliyyətində səmərəliliyin, şəffaflığın artırılması, habelə xidmətlərin vahid məkandan təxirəsa-lınmaz və operativ icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 25 iyun 2021-ci il tarixli 1380 nömrəli Fərmanı ilə yaradılmış Mərkəzlər dövlətin diqqət və qayğısını sistemli şəkildə

həyata keçirir. Onu da qeyd edək ki, postmüharibə dövründə, 2023-cü ilin birinci rübü də daxil olmaqla, sosial dəstək tədbirləri çərçivəsində 124 min şəxsə 281 min xidmət göstərilib, o cümlədən, 4,5 min mənzil və 324 avtomobil verilib. Vahid Əlaqələndirmə Mərkəzlərində "bir pəncərə" prinsipi ilə 5 mərkəzi icra hakimiyyəti və 48 yerli icra hakimiyyəti orqanı üzrə 26 xidmət göstərilir.

3. **İşğaldan azad edilmiş ərazilər üzrə yeni dövlət idarəetmə modelinin tətbiqi**

İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı tikinti-quruculuq işləri ilə yanaşı, bu ərazilərdə yeni idarəetmə modelinin əsası qoyulub. Dövlət başçısının xüsusi nümayəndəliklərinin yaradılması sayəsində həyata keçirilən işlərə və layihələrə nəzarət daha da sistemləşdirilib. Eyni zamanda, bildiyimiz kimi Azərbaycan Respublikası Prezidentinin 7 iyul 2021-ci il tarixli "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Fərmanına əsasən, Qarabağ iqtisadi rayonu (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları) və Şərqi Zəngəzur iqtisadi rayonu (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları) yaradılıb. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahı yaradılıb. Eyni zamanda, Qərargahın nəzdində katiblik və kommunikasiya funksiyasının yerinə yetirilməsi və zəruri analitik-təşkilati dəstək göstərilməsi məqsədilə İdarələrarası Mərkəz formalaşdırılıb. Şuşa, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilər (Ağdam, Füzuli, Hadrut), Şərqi Zəngəzur iqtisadi rayonu (Zəngilan, Cəbrayıl, Qubadlı) və Laçın üzrə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri təsis edilib. Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsi təşkil olunub.

Ümumilikdə, işğaldan azad edilmiş ərazilərdə formalaşdırılmış yeni idarəetmə strukturunu sxematik olaraq aşağıdakı kimi təsvir edə bilərik.



Azərbaycan Respublikası Prezidenti tərəfindən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpa, tikinti və idarəetmə xidməti göstərmək üçün müvafiq publik hüquqi şəxslər yaradılıb. Qarabağ Dirçəliş Fondu isə işğaldan azad edilmiş ərazilərin inkişafı üçün maliyyə dəstəyinin göstərilməsini və sərmayələrin cəlb edilməsini, bu sahədə dövlət-özəl tərəfdaşlığının inkişaf etdirilməsini, habelə ölkə daxilində və xaricində zəruri təşviqat işlərini həyata keçirən publik hüquqi şəxsdir.

4. Ərazilərin minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsi


Aydındır ki, işğaldan azad edilmiş ərazilərin hər qarışında erməni vandalizminin əlamətləri qalmaqdadır, ərazilərdə minlərlə partlamamış minalar mövcuddur. Hazırda işğaldan azad edilmiş

ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli məqsədilə yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Minalardan və partlamamış hərbi sursatlardan (PHS) təmizlənməsi üzrə İşçi Qrupu işləyir. Nazirlər Kabineti tərəfindən minatəmizləmə fəaliyyətinə dair təsdiq edilmiş illik tədbirlər planı üzrə ərazilərin mina və partlayıcı qurğulardan təmizlənməsi işlərini Minatəmizləmə Agentliyi (ANAMA), Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi və Dövlət Sərhəd Xidməti həyata keçirir. Bu sahədə beynəlxalq inkişaf partnyorları və vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq mövcuddur. Məlumdur ki, nəzərdə tutulan işlərin həyata keçirilməsi, azad edilmiş ərazilərin yenidən dirçəl-dilməsi üçün ilk növbədə təhlükəsizliyin təmin olunması və ərazilərin minalardan təmizlənməsi ən vacib məsələdir. 30 ilə yaxın işğal altında qalmış Azərbaycan torpaqlarında mənfur düşmən təxmi-nən 1,5 milyondan artıq mina basdırıb. Təbii ki, bu, yenidənqurma işlərində böyük risklər yaradır, Böyük Qayıdışın tez bir zamanda reallaşmasına çətinliklər törədir.

2023-cü ilin mart ayına olan məlumata görə, Vətən müharibəsindən sonra işğaldan azad edilmiş torpaqlarda 83 min 993 hektar ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənib, ümumilikdə 89 mindən çox mina və partlamamış hərbi sursat zərərsizləşdirilib. Beynəlxalq mütəxəssislərin hesablamalarına görə, Azərbaycan ərazilərinin minalardan təmizlənməsinə, təxminən 30 il vaxt və 25 milyard ABŞ dolları lazımdır.

5. İqtisadi və sosial infrastrukturun yaradılması

İşğaldan azad edilmiş ərazilərdə infrastrukturun qurulması və bunun üzərindən iqtisadi inkişafın təmin olunması fəlsəfəsi iki təməl prinsip üzərində qurulur: dairəvilik və düyünlər – təmərküzləşmə mərkəzləri. Məsələn, azad edilmiş ərazilərdə yeni yaradılan kritik infrastruktur dairəvi xarakter daşıyır. 760 kilometrdən artıq avtomobil yolu, 340 kilometrdən çox dəmir yolu, üç hava limanı, həmçinin 40-dan çox SES, Xudafərin və Qız Qalası generasiya gücləri, yarım-stansiya və ötürücü qurğular elə təşkil olunub ki, fasiləsiz və qırılmaz xidmət təmin olunsun;



Təqdim edilən diaqramdan da göründüyü kimi, işğaldan azad edilmiş ərazilərin yenidən qurulması, müvafiq infrastruktur təminatının formalaşdırılması Azərbaycan dövlətinin daxili iqtisadi siyasətinin prioritet istiqamətlərinə aiddir. İlbəil ərazilərin bərpasına ayrılan vəsaitlərin artımı da bunu bir daha təsdiq edir. Göründüyü kimi, 2021-ci ildə 6,7 milyard, 2022-ci ildə 9,2 milyard, 2023-cü ildə isə 11,7 milyard manat vəsaitin ayrılması nəzərdə tutulur ki, bunlar da böyük qayıdışa nail olunana

qədər ilbəil artacaq. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi isə vəsaitlərin daha da artırılacağına, eləcə də görülən işlərin daha geniş coğrafiyanı əhatə edəcəyinə əsas verir.

6. Sənaye parkları, aqroparklar, vergi-gömrük güzəştləri, kreditlərin və investisiyaların sığortalanması mexanizmi və digər dövlət təşviqlərindən istifadə etməklə iqtisadiyyatın canlandırılması

"İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 10 dekabr 2021-ci il tarixli Prezident Sərəncamı işğaldan azad edilmiş ərazilərdə iqtisadi canlanmanın sürətləndirilməsi və investisiya cəlbediciliyinin artırılması, müasir və effektiv istehsal, ticarət və xidmət infrastrukturunun yaradılması, innovativ texnologiyaların tətbiqi, sənaye potensialının reallaşdırılması, optimal güzəştlərin və stimullaşdırıcı mexanizmlərin hazırlanması və sahibkarlıq mühitinin yaxşılaşdırılması üçün əlverişli şərait yaradılması məqsədi daşıyır. Sərəncamın icrasının təmin olunması, eləcə də işğaldan azad edilmiş ərazilərin inkişafı və məskunlaşmanın sürətləndirilməsi məqsədilə bir sıra güzəştlər də nəzərdə tutulur ki, bunu da sxematik olaraq aşağıdakı kimi təsvir etmək olar:



7. Yaşayış məntəqələrinin planlı şəkildə bərpası

Təbii ki, infrastruktur təminatı, mövcud potensial imkanlardan qənaətlə və tam istifadə ilə yanaşı, ərazilərin bərpası, yaşayış üçün müvafiq evlərin, kommunikasiyaların yaradılması da xüsusi əhəmiyyət kəsb edir. Bu məqsədlə Nazirlər Kabinetinin 2022-ci il 16 avqust tarixli qərarı ilə "İşğaldan azad edilmiş ərazilərin Ümumi planı" təsdiq edilib. Bunun əsasında isə şəhər və kəndlərin bərpası plana uyğun aparılır. Artıq Şuşa, Ağdam, Cəbrayıl, Zəngilan, Füzuli, Qubadlı, Laçın və Kəlbəcər şəhərlərinin baş planları hazırdır. Laçın rayonunun Zabux və Sus kəndləri, demək olar ki, öz sakinlərini qəbul etməyə hazırdır. Dövlət başçısının 2023-cü ilin may ayında Kəlbəcərə səfəri zamanı Yanşaq və Zallar kəndlərinin, eləcə də 960 yerlik orta məktəbin bünövrəsi qoyulub.

8. Əhalinin Böyük Qayıdışı

2022-ci ildə Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa – Zəngilan rayonunda "Ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə sakinlərin köçürülməsilə başlandı. Böyük Qayıdış layihəsi çərçivəsində, artıq Ağalı kəndinə ümumilikdə 420 nəfərdən ibarət 86 ailə köçürülüb. O cümlədən, Laçın şəhərində 213 nəfərdən ibarət 55 ailənin

daimi məskunlaşması təmin edilib. Digər yaşayış ərazilərinə də məcburi köçkünlərin mərhələlərlə qayıdışı üzrə davamlı işlər aparılır.

9. Ermənistanın işğal dövründə törətdiyi cinayətlərə görə məsuliyyətə cəlb edilməsi Ermənistanın beynəlxalq hüquqi məsuliyyəti - mütləq məsuliyyət hesab olunmaqla Azərbaycana qarşı beynəlxalq hüquq öhdəliyinin pozulması nəticəsində vurduğu ziyanı aradan qaldırmaq və vurulmuş ziyanı ödəmək öhdəliyidir. Bu məsuliyyət həm maddi, həm də qeyri-maddi olmaqla müxtəlif formalara malikdir: reparasiya, restitusiya, təzminat və ya kompensasiya və satisfaksiya.

10. Münaqişənin fəsadları barədə məlumatların yayılması

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Karabakh.Center" layihəsi Ermənistan-Azərbaycan münaqişəsinin səbəbləri və Ermənistanın təcavüzünün nəticələri barədə obyektiv məlumatların sistemləşdirilməsi və geniş ictimaiyyətə çatdırılması məqsədilə yaradılıb. Bu internet resursunun çoxsaylı materialları konkret nümunələr əsasında Azərbaycan xalqının Qarabağda maddi-mədəni irsinə, bu regionun biomüxtəlifliyinə və təbii sərvətlərinə dəyən ziyanın miqyası ilə tanış olmaq imkanı yaradır.

YEKUN

"Azərbaycan Respublikasının 2022─2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"na uyğun olaraq "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış" Dövlət Proqramı icra edilir. İşğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinə isə hətta Vətən müharibəsinin gedişində başlanıb və ötən müddətdə təxminən 10 milyard manatdan çox vəsait xərclənib. Qarabağ və Şərqi Zəngəzurda iqtisadiyyatın altı əsas istiqamət üzrə inkişafı gözlənilir: kənd təsərrüfatı, ərzaq sənayesi, dağ-mədən sənayesi, "yaşıl enerji", nəqliyyat logistika və turizm. Təbii iqlim şəraiti, tarixi ənənə, coğrafi yerləşmə və demoqrafik potensiala uyğun olaraq işğaldan azad edilmiş ərazilərin əsas inkişaf drayverləri də müəyyənləşir. 100 min nəfərlik Ağdam şəhəri yüngül sənaye və xidmət mərkəzi, Araz boyunca düzülən Füzuli, Cəbrayıl və Zəngilan rayonları nəqliyyat-logistika qovşağı, "yaşıl enerji" və əkinçilik, Kəlbəcər və Laçın rayonları dağ-mədən sənayesi, "yaşıl enerji", turizm, heyvandarlıq və Şuşa isə mədəniyyət paytaxtı olaraq yaradıcı sənayesi ilə bölgənin qravitasiya mərkəzlərinə çevrilir. Bizim hesablamalar göstərir ki, 2030-cu ilə qədər Qarabağ və Şərqi Zəngəzur bölgələri Azərbaycanın qeyri-neft sektorunun 5-10 faizi həddində iqtisadiyyata malik ola bilər.

Qarabağ və Şərqi Zəngəzurda həyatın geri qayıtması Dördüncü Sənaye İnqilabı və Davamlı İnkişaf Məqsədləri ilə həmahənglik təşkil etməklə bölgəni SMART regiona çevirməyi hədəfləyir. Azərbaycanda əmək ehtiyatlarının sabit qaldığı şəraitdə Qarabağda və Şərqi Zəngəzurda kapitalın - əsas fondların çoxalması kapital tutumlu iqtisadi artımı sürətləndirir. Yaradılan yeni əsas fondlar müasir texnologiyalara əsaslandığından daha çox fondverimliliyi, yəni hər manat kapitala düşən məhsulu artıracaq. Digər tərəfdən də, Solou modelinə görə, Qarabağ və Şərqi Zəngəzurda kapital qoyuluşu sıfırdan başladığına və tarazlıq nöqtəsinə (steady-state level) məsafə çox olduğuna görə daha çox dəyər yaradacaq. Necə ki, İkinci Dünya müharibəsindən sonra Almaniya və Yaponiya dağıntıların üzərində rəqabətqabiliyyətli iqtisadiyyat qurdu. Qarabağ və Şərqi Zəngəzurda dövlət sərmayələri katalizator, qeyri-dövlət sərmayələri isə drayver olacaq. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində "xərclər-buraxılış modeli" əsasında aparılmış hesablamalar Qarabağ və Şərqi Zəngəzurda iqtisadiyyatın əsas hərəkətverici qüvvələri barədə təsəvvür yaradır.

Burada iki yanaşma var: birincisi, multiplikator yanaşması, digəri isə sektorun özündən əvvəl (backword linkage) və özündən sonra (forward linkage) gələn sektorlara nə dərəcədə təsir göstərməsidir. Qarabağ və Şərqi Zəngəzurda dirçəldilən iqtisadiyyat sahələri dörd əsas multiplikator üzrə effekt yaradır: buraxılış multiplikatoru, əmək gəliri multiplikatoru, məşğulluq multiplikatoru və əlavə dəyər multiplikatoru. Məsələn, aqrar və turizm sahələri daha çox məşğulluq, dağ-mədən sektoru daha çox əlavə dəyər, maliyyə-bank sektoru kimi sektorlar isə daha çox əmək gəliri yaradır. Eyni

zamanda, Qarabağ və Şərqi Zəngəzurda iqtisadi inkişaf ÜDM-nin tərkibində xarici komponentin – qoyuluşun (input) optimallaşdırılmasına da xidmət edir, o cümlədən, ərzaq təhlükəsizliyini gücləndirir. Qarabağ və Şərqi Zəngəzurda başlayan tikinti bumu ölkənin bütün iqtisadiyyatına təsir göstərir. Məsələn, Azərbaycanda tikinti məhsulundan 84 sahə (downstream) faydalanır, tikinti özü isə 44 sahənin (upstream) məhsulundan və xidmətindən yararlanır. Beləliklə, tikinti elə bir həlqədir ki, onun vasitəsilə bütün zənciri tərpətmək, eyni zamanda, həm tələb, həm də təklif yaratmaq mümkündür.

2022-ci ilin "Şuşa ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti 5 yanvar 2022-ci il tarixində Sərəncam imzalayıb. Nazirlər Kabinetinin "Şuşa ili" ilə bağlı Tədbirlər Planının təsdiq edilməsi barədə Sərəncamında qeyd olunur ki, bu mövzuda elmi nəşrlər, audiovizual və çap materialları hazırlansın. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin hazırladığı "Yeni Qarabağnamə: Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında postkonflikt quruculuğu" kitabı da ali rəhbərliyin müəyyənləşdirdiyi çərçivədə tərtib olunub. 44 günlük Vətən müharibəsində Ermənistan üzərində qələbəmizin iki illiyinə həsr edilən kitab Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan postkonflikt quruculuğundan bəhs edir.

https://doi.org/10.58225/tim.2025-4-64-67

N.Müzəffərli (İmanov)
i.e.d., professor
AMEA-nın İqtisadiyyat İnstitutunun direktoru

Məqalə redaksiyaya daxil olub 20.11.2025
The article was received by editorial board on 20.11.2025
Статья принята к печати 20.11.2025

İQTİSADİYYATIN SOLLUĞU-SAĞLIĞI VƏ İQTİSADİ İNKİŞAF STRATEGİYALARININ SEÇİMİ

Bütün dövlətlər (hökumətlər) və siyasi qruplar (ilk növbədə siyasi partiyalar) ictimai rifa- hın yüksəlməsini özlərinin son məqsədi elan edirlər. Solçu siyasi-iqtisadi məfkurəyə görə, bu məqsədə çatmağın ən "qısa" və düzgün yolu dövlətin aktiv tənzimləmə tədbirləri həyata keçirməsindən, sağçı məfkurəyə görə isə, iqtisadiyyatın özü-özünü tənzimləməsindən keçir. Bu iki fəlsəfə arasındakı rəqabət müasir dünyada sosial-iqtisadi inkişafın əsas hərəkətverici qüvvələ- rindəndir.

Dövlətin iqtisadiyyata müdaxilə formaları arasında *modelyaradıcı müdaxilə formalarını* ayrıca təsnifləşdirmək lazımdır. Bunlar elə müdaxilə formalarıdır ki:

- ***iqtisadi modellər (sistemlər), ilk növbədə, bunların səviyyəsinə görə fərqlənir.*** Məsələn, daxili bazarın qorunması məqsədi ilə idxalın məhdudlaşdırılması xarici ticarət rejiminin liberallıq səviyyəsini və dolayısı ilə həm də iqtisadiyyatın ümumi liberallıq səviyyəsini azaldır. Bu o deməkdir ki, xarici ticarətin tənzimlənməsi dövlətin iqtisadiyyata müdaxiləsinin modelyaradıcı formalarına aiddir. Bir çox başqa müdaxilə formaları isə bu mənada neytraldır. Məsələn, məzənnəni tənzimləmək məqsədi ilə maliyyə bazarında dövlətin həyata keçirdiyi valyuta intervensiyaları, qeyri-formal iqtisadiyyatın leqallaşdırılması və korrupsiyanın azaldılması üzrə tədbirlər, uşaq əməyinin tənzimlənməsi ilə bağlı qanunvericilik qərarları da dövlətin iqtisadiyyata müdaxiləsidir, amma bunlar iqtisadiyyata liberallıq və ya dirijistlik əlamətləri vermir və modelyaradıcı formalara aid deyil;
- ***ikiqütblüdür.*** Bunların zəifləməsinin də (azaldılmasının da), gücləndirilməsinin də (artırılmasının da) öz məntiqi var. Məsələn, xarici ticarətin tənzimlənməsi qarşısında dayanan və mahiyyətcə bir-birinə əks olan hədəflərin hər ikisi – idxalın sərbəstliyi və daxili bazarın qorunması – "yaşamaq haqqına" sahibdir. Hər bir ölkədə və hər bir zaman kəsiyində bunların hansısa biri ön plana çıxır, yəni prioritetə çevrilir. Bunların arasındakı seçim "ya bu, ya o" tipli seçim deyil, bunların hansısa kombinasiyasının (nisbətinin) seçimidir. Bunlar cəmi dəyişməz qalan toplananlara bənzəyir, yəni biri artdıqda digəri azalır. Eyni məhsul və xidmətlər üzrə (yaxud bütövlükdə ölkə üzrə) eyni vaxtda həm idxalın sərbəstliyini yüksəltmək, həm də daxili bazarın qorunmasını gücləndirmək prinsipcə mümkün deyil;
- ***siyasi rəqabət predmetinə çevrilir.*** Məsələn, solçu siyasi qruplar (partiyalar, təşkilat- lar, analitik mərkəzlər) üçün daxili bazarın qorunması, sağçı qruplar üçünsə xarici ticarətin liberallığı, bir qayda olaraq, daha yüksək prioritetdir.

Solçuluq və sağçılıq təkcə iqtisadi dünya görüşlərini deyil, real iqtisadiyyatları da səciyyələndirir. Hər konkret zaman kəsiyində hər bir ölkənin iqtisadiyyatı dövlətin ona müdaxiləsinin modelyaradıcı formalarının miqyasından və dərinliyindən asılı olaraq bəlli bir solluq-sağlıq səviyyəsinə malik olur. Bu müdaxilələr nə qədər yüksəkdirsə, iqtisadiyyat bir o qədər daha soldadır və əksinə, nə qədər aşağıdırsa, bir o qədər daha sağdadır.

İqtisadiyyatın sağlığı-solluğu ölçüləbiləndir. Onun səviyyəsini qiymətləndirmək məqsədi ilə Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu İqtisadiyyatın solluğu (sağlığı) indeksi – İS(S)İ – adlandırdığı kompozit göstərici təklif edir. İS(S)İ üzrə tədqiqatların nəticələri 2015-ci ildən başlayaraq hər il dərc olunur. Bundan əlavə, İnstitutun əməkdaşları İS(S)İ-nin siyasi-iqtisadi təfsirinə və sahəvi tətbiqinə dair bir sıra əsərlər nəşr etmişlər. Bütün bu nəşrlərlə İnstitutun rəsmi İnternet saytında tanış olmaq mümkündür.

Hər bir konkret ölkə (və ya ölkələr qrupu) üçün İS(S)İ bunu ifadə edir ki, onun iqtisadiyyatı hansısa başqa bir ölkənin (ölkələrin) iqtisadiyyatına nəzərən daha solçu, digərinin (digərləri- nin) iqtisadiyyatına nəzərən daha sağçı iqtisadiyyatdır. İndeks həm də iqtisadiyyatın solluq-sağlıq *dərəcəsini* ölçür, yəni onu qiymətləndirməyə imkan verir ki, "A" ölkəsinin iqtisadiyyatı "B" ölkəsinin iqtisadiyyatına nisbətən *nə qədər* solda və ya sağdadır.

Metodologiya

İS(S)İ altı sub-indeks əsasında hesablanır:

- *Dövlət maliyyəsi sub-indeksi (DM),*
- *Qiymətlərin tənzimlənməsi sub-indeksi (QT),*
- *Xarici ticarət sub-indeksi (XT),*
- *Lisenziyalaşdırma sub-indeksi (L),*
- *Məşğulluğun tənzimlənməsi sub-indeksi (MT),*
- *Minimum əmək haqqı sub-indeksi (MƏH).*

İqtisadiyyatın solluğu (sağlığı) indeksi, onun bütün sub-indeksləri və bu sub-indekslərin alt-indeksləri 0-1 aralığında dəyişir. "0" – iqtisadiyyatın "mütləq sağlığını" (dövlətin iqtisadiyya- ta heç bir müdaxilə etməməsini), "1" – "mütləq solluğunu" (iqtisadiyyatın bütünlüklə dövlət tə- rəfindən idarə edilməsini) göstərir. Xarici ticarət sub-indeksinin alt-indeksləri və Məşğulluğun tənzimlənməsi sub-indeksinin Məşğulluğun tənzimlənməsinin sərtliyi alt-indeksi istisna olmaqla, bütün göstəricilər 0-1 aralığına $(V_i - V_{min}) / (V_{max} - V_{min})$ düsturu ilə gətirilir. Adı çəkilən alt-indekslər isə baza göstəricinin mahiyyətinə uyğun olaraq, $(V_i - V_{max}) / (V_{min} - V_{max})$ düsturu ilə in- deksləşdirilir.

İqtisadi tənzimləmənin bəzi formaları üzrə (yəni bəzi sub-indekslər üzrə) mütləq sağlıq və ya mütləq solluq halları olsa da, ümumən, hər hansı bir ölkə iqtisadiyyatının "mütləq sağ" və ya "mütləq sol" nöqtəyə düşməsi mümkünsüzdür. Odur ki, bütün ölkələr üzrə İS(S)İ "0" və "1" nöqtələrindən müəyyən kənarlaşmada yerləşir.

Alt-indeksləri meydana gətirən sub-indekslərin hər biri üçün mümkün olan minimal (və ya ehtimalən minimal) göstərici V_{min}, mümkün olan maksimal (və ya ehtimalən maksimal) göstərici V_{max} kimi qəbul edilir.

Dövlət maliyyəsi sub-indeksi vergilər vasitəsilə gəlirlərin yenidən bölüşdürülmə səviyyəsi- ni əks etdirir və iki alt-indeksin – *Büdcə xərcləri alt-indeksinin* və *Müəssisələrin vergi yükü alt-indeksinin* cəbri ortası kimi hesablanır. Büdcə xərcləri alt-indeksi, öz növbəsində, büdcə xərcləri- nin ÜDM-də faizlə ifadə edilən pay göstəriciləri əsasında hesablanır. Faktik informasiya BVF-in statistik məlumat bazasındandır. Vergi yükü indeksi, şərti (modelləşdirilmiş) özəl müəssisə tərəfindən il ərzində ödənilən vergilərin onun illik mənfəətinə nisbəti göstəriciləri əsasında hesablanır. Statistik məlumatlar Dünya Bankının hesabatındandır.

Əgər təhlil olunan dövlətlər arasında resurs ixracatçısı olan ölkələr olmasaydı, büdcə xərclərinin ÜDM-ə nisbəti, dolayı formada olsa da, müəssisələrin və vətəndaşların vergi yükünü (məcmu vergi yükünü) yetərincə adekvat əks etdirərdi. Büdcə vəsaitlərinin mühüm bir qismi neft-qaz fondlarından trasfertlərlə formalaşanda vergi yükü göstəricilərinin ayrıca nəzərə alınma- sına ehtiyac yaranır. Bəzi araşdırma mərkəzləri vergi yükünü gəlir və mənfəət vergilərinin yuxarı həddi əsasında hesablayır, lakin maksimal dərəcə ilə vergi ödənməsi əksər ölkələr üçün tipik deyil. Buna görə də bu araşdırmada

vergi yükü alt-indeksinin hesablanması zamanı hipotetik şirkətin vergi yükü göstəricilərindən istifadə olunur. Nəzəri baxımdan, Dövlət maliyyəsi sub-indeksi gəlir vergisi vasitəsi ilə yenidən bölünən milli gəliri də əks etdirməlidir, amma bəzi ölkələrdə propor- sional, digərlərində isə proqressiv vergi sistemi tətbiq edilir və onları vahid bir ölçüyə gətirmək yanlışdır.

Hər iki alt-indeks üçün $V_{min} = 0$, $V_{max} = 100$ götürülmüşdür.

Qiymətlərin tənzimlənməsi sub-indeksi qiymətlərin nə dərəcədə sərbəst əmələgəlməsini (sağ qütb) və eyni zamanda, dövlətin qiymətlərin formalaşmasına nə dərəcədə müdaxilə etməsini (sol qütb) ifadə edir. Sub-indeksin sıfıra yaxınlaşması qiymətqoymada liberallığın artmasını, birə yaxınlaşması isə qiymət tənzimlənməsinin güclənməsini ifadə edir. Qiymətqoymanın sərbəstliyini ölçmək üçün bu araşdırmada, nisbətən daha geniş anlamda həm monetar, həm qeyri-monetar, həm formal, həm də qeyri-formal qiymət tənzimləmələrini özündə əks etdirən alıcılıq qabiliyyəti pariteti (AQP) əmsallarından istifadə olunur. Hər bir ölkə üçün bu əmsal AQP ilə hesablanmış (beynəlxalq dollarla ifadə olunmuş) ÜDM-in cari ABŞ dolları ilə ifadə olunmuş ÜDM-ə nisbəti kimi müəyyən edilir. Hər iki göstərici sırası BVF-in statistik bazasından götürülür. AQP əmsalları, ölkələr üzrə qiymətlərin ümumi səviyyəsi ilə ABŞ-dakı qiymət səviyyəsinin müqayisəsini ifadə etməklə, həm də ölkələr arasındakı qiymət səviyyəsi fərqlərini müəyyənləşdirməyə imkan verir.

Ölkələr arasında qiymət səviyyəsi fərqlərinin determinantları sırasında monetar qiymət tənzimləməsi (ən ümumi şəkildə iqtisadiyyatın monetizasiya səviyyəsi – milli valyutadakı pul kütləsinin ÜDM-ə nisbəti) və bəzi strateji məhsullar (məsələn, enerji) üzrə qiymətlərə yuxarı hədd məhdudiyyətlərinin tətbiqi ilk sıralarda dayanır. Hansı ölkələrdə monetizasiya səviyyəsi daha aşağı (bu, monetar qiymət tənzimləməsinin sərtliyini ifadə edir), eyni zamanda dövlət tərəfindən bir sıra məhsullar üçün rəsmi qaydada müəyyən olunmuş "tavan qiymət məhdudiyyətləri" həmin məhsulların real bazar qiymətindən daha aşağıdırsa (bu qeyri-monetar qiymət tənzimləməsinin sərtliyini ifadə edir), həmin ölkələrdə qiymətlərin səviyyəsi daha aşağıdır, başqa ifadə ilə, AQP əmsalı daha yüksəkdir. Bu baxımdan AQP əmsalı qiymət tənzimlənməsinin səviyyəsi üzrə beynəlxalq müqayisələr aparmaq üçün hazırda əlçatan olan göstəricilər arasında mənzərəni nisbətən daha dəqiq ifadə edənidir.

AQP əmsallarının indeksləşdirilməsi zamanı $V_{min} = 0{,}1$, $V_{max} = 10$ götürülmüşdür.

Xarici ticarət sub-indeksi xarici ticarətin liberallıq səviyyəsini (sağ qütb) və dövlətin bu sahədəki tənzimləmə tədbirlərinin sərtliyini (sol qütb) ölçür. Sub-indeksin sıfıra yaxınlaşması şirkətlərin xarici ticarət sərbəstliyinin artmasını, birə yaxınlaşması isə bu sahədə dövlət tənzimləməsinin sərtləşməsini ifadə edir.

Sub-indeks üç konseptual müddəa üzərində qurulur. Birincisi, xarici ticarət azadlığı ixracın yox, idxalın sərbəstliyi ilə ölçülməlidir. İkincisi, idxalın sərbəstliyi yüksəldikdə, daxili bazarın qorunması, bir qayda olaraq, zəifləyir. Üçüncüsü, təbii resurs ixracının iqtisadiyyatda əhəmiyyət-li paya malik olduğu ölkələrdə xarici ticarət azadlığını ixrac-idxal əməliyyatlarının mütləq və nisbi həcm göstəriciləri ilə (məsələn, ixrac və idxal həcminin ÜDM-ə nisbəti ilə) ölçmək olmaz.

Xarici ticarət sub-indeksi üç alt-indeksin – *Xarici ticarət azadlığı alt-indeksinin, İdxalın iqtisadi qiyməti alt-indeksinin və Ticarətin azadlığı alt-indeksinin* sadə cəbri ortası kimi hesablanır. Xarici ticarət azadlığı alt-indeksi Freyzer İnstitutunun eyniadlı göstəriciləri əsasında, İdxalın iqtisadi qiyməti alt-indeksi Dünya İqtisadi Forumunun "Beynəlxalq ticarətdə iştirak" hesabatının materialları əsasında, Ticarətin azadlığı alt-indeksi isə *Heritage Fondu* ilə *The Wall Street Journal*'ın birlikdə hazırladığı "İqtisadi Azadlıq İndeksi" hesabatındakı eyniadlı göstəricilər əsasında hesablanır. Xarici ticarət azadlığı alt-indeksi üçün $V_{min} = 0$, $V_{max} = 10$, İdxalın iqtisadi qiyməti alt-indeksi üçün $V_{min} = 0$, $V_{max} = 7$, Ticarətin azadlığı alt-indeksi üçün $V_{min} = 0$, $V_{max} = 100$ götürülür.

Lisenziyalaşdırma sub-indeksi. İqtisadiyyatın solluq-sağlıq səviyyəsini lisenziyalaşdırmanın sadəliyi (mürəkkəbliyi) baxımından qiymətləndirərkən: a) lisenziyalaşdırılan fəaliyyət növlərinin sayını, b) lisenziyalaşdırılan fəaliyyət növlərinin çeşidini, c) lisenziyaların keçərlilik müddətini və d) lisenziyaların verilmə qaydalarını nəzərə almaq lazımdır. Bu göstəricilər iş sahibləri üçün nə qədər əlverişlidirsə (yəni say azdırsa, çeşid məhduddursa, müddət uzundursa və qaydalar sadədirsə), iqtisadiyyat bir o qədər daha sağdadır. Lakin hazırda bu göstəricilərin heç biri üzrə elmi tutarlılığı şübhə doğurmayan dövlətlərarası müqayisə aparmaq mümkün deyil.

Ona görə də Lisenziyalaşdırma sub-indeksi Dünya Bankının metodologiyası əsasında – modelləşdirilmiş müəssisənin hipotetik bir tikinti üçün aldığı lisenziyalara sərf etdiyi vaxt və xərc göstəricilərinin indeksləşdirilməsi əsasında, bu alt-indekslərin sadə ortası kimi hesablanır. Dünya Bankının istifadə etdiyi üçüncü göstərici – prosedurların sayı ümumi mənzərəni təhrif etdiyi üçün nəzərə alınmır.

Vaxt alt-indeksi üçün $V_{min} = 0$, $V_{max} = 1000$, *Xərc alt-indeksi* üçün isə $V_{min} = 0$, $V_{max} = 100$ kimi götürülür.

Məşğulluğun tənzimlənməsi sub-indeksi işəgötürənlə muzdlu işçi arasında əmək prosesinin təşkili ilə bağlı münasibətlərə dövlətin nə dərəcədə müdaxilə etməsini ölçür. Ənənəvi sosial proqramlardan fərqli olaraq, bu müdaxilə *birbaşa* sosial müdafiə məqsədləri güdür. İşçinin birbaşa sosial müdafiəsinin gücləndirilməsi, bir qayda olaraq, iş sahibinin sərbəstliyini məhdudlaşdırmaq hesabına başa gəlir.

İki alt-indeks – *Məşğulluğun tənzimlənməsinin sərtliyi alt-indeksi* (2/3) və *İşdənçıxarma xərcləri alt-indeksi* (1/3) əsasında hesablanır. Statistik mənbə Dünya İqtisadi Forumunun məlu- mat bazasıdır. Məşğulluğun tənzimlənməsinin sərtliyi alt-indeksi üçün $V_{min} = 0$, $V_{max} = 7$, İşdənçıxarma xərcləri alt-indeksi üçün isə $V_{min} = 0$, $V_{max} = 78$ götürülür. İşdənçıxarma xərcləri alt-indeksinin baza göstəricisi işçinin işdən çıxarılma xərclərinin həmin işçinin neçə həftəlik əmək haqqına bərabər olduğunu ifadə edir. Ölkələr üzrə bu göstəricinin maksimum səviyyəsinin 58,5 olduğunu nəzərə alaraq, şərti olaraq 78 həftə (1,5 ildəki həftələrin sayı) bu göstərici üçün maksimum (mütləq sol qütb nöqtəsi) kimi qəbul edilir.

Minimum əmək haqqı sub-indeksi dövlət tərəfindən müəyyənləşdirilən illik minimum əmək haqqının adambaşına ÜDM-ə nisbətinin indeksləşdirilmiş variantıdır. Minimum əmək haqqının səviyyəsi iqtisadiyyatın solluğuna-sağlığına bilavasitə təsir edir, çünki bəzi başqa göstəricilər kimi, onun da yüksəldilməsi eyni vaxtda iqtisadiyyatın həm sollaşmasını, həm də sosialyönlüyünün güclənməsini ifadə edir. Bir sıra dövlətlərdə MƏH qanunvericiliklə təsbit edildikdə belə, kollektiv razılaşmalarla yenidən müəyyənləşdirilir. Bu hallarda razılaşdırılmış minimum, qanunla təyin ediləndən daha yüksək olur və dövlətin qoyduğu minimum, bir növ, əmək haqqı minimumunun minimal həddi rolunu oynayır. Həm iqtisadiyyatın solluğu-sağlığı dövlət müdaxiləsi ilə şərtləndiyinə görə, həm də qanunvericiliklə təsbit edilən minimum son aşağı həddi ifadə etdiyinə görə bu araşdırmada ondan istifadə olunur.

Minimum əmək haqqının nə qanunvericiliklə, nə də kollektiv müqavilələrlə tənzimlənmədiyi ölkələrin iqtisadiyyatı bu sub-indeksə görə mütləq sağ qütbdə (sıfır nöqtəsində) yerləşir. Minimum əmək haqqı yalnız kollektiv müqavilələrlə tənzimləndikdə ölkənin iqtisadiyyatı şərti olaraq 0,050 nöqtəsinə, dövlət tərəfindən, amma məhdud sayda işçilər üçün müəyyənləşdirildikdə isə, əhatə etdiyi işçi qrupunun xüsusi çəkisindən asılı olaraq, ya 0,050, ya da 0,080 nöqtəsinə qoyulur.

https://doi.org/10.58225/tim.2025-4-68-72

S.Ə.Məmmədov
i.ü.f.d., Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri

Məqalə redaksiyaya daxil olub 23.11.2025
The article was received by editorial board on 23.11.2025
Статья принята к печати 23.11.2025

ÖLKƏ İQTİSADİYYATININ ŞAXƏLƏNMƏSİNİN DAYANIQLI İNKİŞAFA TÖVHƏSİ

Azərbaycanın inkişaf etmiş modern dövlətə çevrilməsində sürətli və hərtərəfli inkişafla harmonik olan iqtisadi potensial müstəsna əhəmiyyətə malikdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xalqımızın Ümummilli liderinin uzaqgörən və düşünülmüş inkişaf strategiyasından qaynaqlanan sosial-iqtisadi siyasəti keyfiyyətcə yeni prioritetləri müəyyən edərək innovasiya əsaslı inkişaf modelinə keçidi şərtləndirmiş, yüksək rəqabət qabiliyyətli və şaxələnmiş iqtisadiyyatın formalaşmasını sürətləndirmişdir. Azərbaycanda yaradılmış güclü iqtisadi potensial və aparılan məqsədyönlü islahatlar, iqtisadiyyatın şaxələndirilməsi, investisiyaların və ixracın təşviqi, biznes mühitinin yaxşılaşdırılması, qeyri-neft ixracının stimullaşdırılması, iqtisadi idarəetmənin təkmilləşdirilməsi və digər tədbirlər iqtisadiyyatın davamlı və dayanıqlı inkişafını təmin edir.

Müasir dövrdə hər bir ölkənin inkişafını təmin edən ən mühüm amil səmərəli iqtisadi islahatların və bu islahatların tərkib hissəsi olaraq inkişaf strategiyalarının həyata keçirilməsidir. Dünya ölkələrinin təcrübəsinə nəzər saldıqda görürük ki, müasir trendlər və çağırışlara uyğun iqtisadi inkişaf strategiyaları həyata keçirən, paralel islahatlar aparan dövlətlər bütün sahələrin tərəqqisini təmin edərək dayanıqlı inkişafa nail ola bilirlər. Bu mənada, Azərbaycan da istisna deyil. Ölkəmizdə həyata keçirilən yeni nəsil islahatlar, uğurlu inkişaf strategiyaları bütün sahələrin dayanıqlı inkişafını şərtləndirib. Azərbaycanın sürətli inkişafı və əldə edilmiş nailiyyətlər, ilk növbədə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətin məntiqi nəticəsidir. Hazırda iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun dinamik və davamlı inkişafının təmin edilməsi, rəqabət qabiliyyətliliyin artırılması və bu sahəyə investisiya qoyuluşunun sürətləndirilməsi Azərbaycanın sosial-iqtisadi inkişaf siyasətinin prioritet istiqamətlərindəndir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən təsdiq edilmiş, başlıca məqsədi uzunmüddətli perspektivdə ölkənin davamlı sosial-iqtisadi inkişafının təmin edilməsi ilə yüksək sosial rifah olan "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası, məqsədli dövlət proqramları, strategiyalar, konkret tədbirlər planları, kompleks və davamlı iqtisadi islahatlar ölkədə innovativ və bilik iqtisadiyyatının formalaşması, ixracın şaxələnməsi, idxaldan asılılığın maksimum dərəcədə azaldılması, biznes mühitinin əlverişliliyinin artırılması, investisiyaların cəlbi, rəqəmsallaşma və rəqəmsal iqtisadiyyatın yaradılması və digər istiqamətlərdə mühüm işlərin həyata keçirilməsinə hüquqi və iqtisadi zəmin yaratmışdır. Ölkədə həyata keçirilən iqtisadi siyasətin və islahatların davamlılığını təmin etmək üçün iqtisadiyyatın mövcud vəziyyətinin dərindən təhlili və yeni iqtisadi inkişaf strategiyasının hazırlanması məqsədilə dövlət başçısının 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri" təsdiq edilmişdir. Bu mühüm sənəd kənd təsərrüfatından tutmuş sənayeyə qədər bütün sahələri, həmçinin insan kapitalının inkişafı, biznes mühitinin davamlı olaraq yaxşılaşdırılması, kiçik və orta biznesin, qadın sahibkarlığının inkişafı kimi əsas istiqamətləri əhatə edir.

Azərbaycan Respublikasında iqtisadiyyatın davamlı inkişafına nail olunması və rəqabətqabiliyyətliliyin təmin edilməsi istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilməkdədir. Son illərdə neft gəlirlərindən asılılığın minimuma endirilməsi üçün iqtisadiyyatın şaxələndirilməsi istiqamətində sistemli tədbirlər reallaşdıran Azərbaycan son 15 ildə qeyri-neft sektorunun inkişaf etdirilməsi və biznes mühitinin liberallaşdırılması istiqamətində əhəmiyyətli uğurlar əldə edib. Rəqabətqabiliyyətli istehsal və emal müəssisələrinin fəaliyyət göstərməsinə əlverişli şərait yaradılması, müqayisəli üstünlüyə malik əlavə dəyər yaradan sahələrin inkişafı vasitəsilə yerli istehsalın stimullaşdırılması, həmçinin kənd təsərrüfatı, sənaye, tikinti, turizm, İKT sahələrinin potensialının gücləndirilməsi tədbirləri inkişafın istiqamətini qeyri-neft sektorunun xeyrinə dəyişmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən iqtisadi siyasət ötən müddətdə hədəflənən nəticələrə nail olunduğunu göstərir. Qəbul edilmiş ümumi, sahəvi və regional inkişaf proqramları çərçivəsində həyata keçirilən siyasətin məntiqi davamı olaraq ölkədə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, iqtisadiyyatın şaxələnməsi, regionların davamlı və tarazlı sosial-iqtisadi inkişafı, əhalinin sosial müdafiəsi və əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması yolu ilə əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına nail olunub. Dövlət proqramlarında müəyyənləşdirilmiş məqsədlərə nail olmaq üçün ölkənin təbii və əmək potensialından səmərəli istifadə, infrastruktur təminatının yaxşılaşdırılması sahəsində genişmiqyaslı işlər görülmüşdür. İnkişaf strategiyasının əsas prioritet istiqamətlərindən olan sahibkarlığın inkişafı istiqamətində həyata keçirilən tədbirlər nəticəsində ölkədə güclü sahibarlar ordusu yaranmış və ölkə iqtisadiyyatının formlaşmasında sahibkarların rolu əhəmiyyətli dərəcədə artmışdır. Əldə olunan uğurlar özünü statistik göstəricilərdə də göstərir. Belə ki, strateji valyuta ehtiyatları 2003-cü ilə nisbətən 24,3 dəfə artaraq 45 mlrd. ABŞ dolları səviyyəsini keçmişdir. 2004- 2018-ci illərdə ümumi daxili məhsul (ÜDM) real ifadədə 3,3 dəfə, o cümlədən qeyri-neft sektoru 2,8 dəfə artmışdır. Bu dövrdə sənaye real ifadədə 2,6 dəfə, o cümlədən qeyri-neft sənayesi 2,4 dəfə, kənd təsərrüfatı 1,7 dəfə artmışdır. Ölkə iqtisadiyyatına bugünədək 261 mlrd. ABŞ dollarından artıq investisiya qoyulmuşdur ki, bunun da 50 faizi xarici investisiyalardır.

Azərbaycanın əldə etdiyi uğurlar beynəlxalq təşkilatların və maliyyə institutlarının hesabatlarında da öz müsbət əksini tapmışdır. Təsadüfi deyildir ki, Dünya Bankının "Doing Business 2019" hesabatına görə Azərbaycan əvvəlki illə müqayisədə reytinqdə 32 pillə irəliləyərək, 57-ci yerdən 25-ci pilləyə yüksəlib. Sənədə əsasən, 10 indikatordan 8-i üzrə öz mövqeyini daha da yaxşılaşdıran Azərbaycan dünyanın 10 ən islahatçı dövləti siyahısına daxil edilərək dünyanın ən çox islahat aparan ölkəsi elan olunub. Dünya İqtisadi Forumunun "İnklüziv İnkişaf İndeksi 2018" hesabatına görə ən yaxşı inkişaf etməkdə olan ölkələr sırasında Azərbaycan ilk üçlüyə daxil olmuşdur.

Ölkədə məşğulluğun təmin edilməsi, qeyri-neft ixracının artırılması, biznes mühitinin inkişafı kimi strateji məsələlərdə sahibkarların rolunun yüksəldilməsinə, cəmiyyətdə sahibkarlığa dəstək əhvali-ruhiyyəsinin artırılmasına təkan vermək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 21 aprel tarixli 1988 nömrəli Sərəncamı ilə aprel ayının 25-i Azərbaycanda "Sahibkarlar Günü" kimi təsis edilmişdir.

Azərbaycanda sahibkarlığın inkişafı iqtisadiyyatın şaxələnməsi, rəqabətqabiliyyətliliyinin və ixracyönümlülüyünün artırılması, istehlak mallarına olan tələbatın yerli resurslar hesabına ödənilməsi, idxaldan aslılığın azaldılması, ixracın stimullaşdırılması, məşğulluğun təmin edilməsi və iqtisadi inkişafın təmin edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Belə ki, inkişaf etmiş ölkələrdə özəl sektorun ÜDM və məşğulluqdakı xüsusi çəkisinə nəzər saldıqda belə qənaətə gəlmək olur ki, Azərbaycanda da davamlı iqtisadi inkişafın təmin edilməsində sahibkarlırın əsas hərəkətverici

amilə çevrilməsi qarşıda duran əsas çağırışlardandır. Belə ki, ölkədə sahibkarlığın inkişafı istiqamətində görülmüş işlər nəticəsində qeydiyyatdan keçmiş sahibkarlıq subyektlərinin sayı 990 mini keçmiş, özəl sektorun ÜDM-də payı 80 faizi, məşğulluqda payı isə 75 faizi ötmüşdür. Azərbaycan hökuməti son illərdə sahibkarlığın inkişafına dövlətin maliyyə dəstəyini daha da yaxşılaşdırmış, güzəştli kreditlərin həcmini əhəmiyyətli dərəcədə artırmışdır. Sahibkarlıq fəaliyyətinin dəstəklənməsi və bu sahəyə dövlət qayğısının artırılması məqsədilə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondunun vəsaitləri hesabına bugünədək ölkə üzrə layihələrinin ümumi dəyəri 5 milyard manat olan 36 minədək sahibkara 2,3 milyard manat güzəştli kredit verilmişdir. Bu kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşdırılması nəticəsində 165 mindən çox yeni iş yeri açılmışdır. Verilmiş güzəştli kreditlərin 1 milyard manatı büdcə, 1,3 milyard manatı geri qaytarılan vəsaitlər hesabına təmin edilmişdir. Güzəştli kreditlərin 68 faizi aqrar sektorun, 32 faizi müxtəlif sənaye və digər sahələrin inkişafına yönəldilmişdir. Verilmiş kreditlərin 75 faizi regionların, 25 faizi isə Bakı qəsəbələrinin payına düşür.

Maliyyə dəstəyi ilə yanaşı sahibkarlığın inkişafı məqsədi ilə digər dövlət dəstək mexanizmləri də tətbiq olunur. Sahibkarlıq sahəsində yoxlamaların 2021-ci ilədək dayandırılması, lisenziyalaşdırma və icazələrin alınması sahəsində şəffaflığın təmin edilməsi və təkmilləşdirmə işlərinin aparılması, o cümlədən vahid pəncərə prinsipinin tətbiqi, dövlət xidmətlərinin elektronlaşdırılması yolu ilə dövlət məmuru və vətəndaş təmasının minimuma endirilməsi və sahibkarların hüquqlarının müdafiəsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında və mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının yaradılması sahibkarlığın inkişafına təkan vermişdir. Bununla yanaşı, gömrük və vergi sahəsində həyata keçirilən islahatlar, o cümlədən sahibkarların vergi yükünün azaldılması, gömrük rəsmiləşdirilməsi zamanı sərhəddə "bir pəncərə" sisteminin tətbiqi, "Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün "Yaşıl dəhliz" və digər buraxılış sistemlərindən istifadə Qaydaları"nın tətbiqi də ölkədə sahibkarlığın inkişafına öz töhvəsini vermişdir. Azərbaycanın iqtisadi potensialını artıran və dayanıqlı inkişafa töhfə verən mühüm amillərdən biri də müxtəlif sahələri əhatə edən dövlət proqramlarının və layihələrin uğurla reallaşdırılmasıdır. Yeni iqtisadi inkişaf kursu fonunda regionların sosial-iqtisadi inkişafının davamlılığının təmin edilməsi xüsusi diqqət mərkəzindədir. Ötən müddət ərzində Azərbaycanda dövlət başçısı tərəfindən Regionların sosial-iqtisadi inkişafına dair 4 Dövlət Proqramı qəbul edilmişdir. Dövlət Proqramları çərçivəsində regionlarda infrastrukturun bərpası və inkişafı, əhalinin kommunal xidmətlərlə, o cümlədən elektrik enerjisi, qaz və su ilə təchizatı, səhiyyə və təhsil müəssisələrinin tikintisi, əhalinin sosial vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Son 15 ildə regionlarda 6 hava limanı tikilmiş və yenidən qurulmuş, 14 min kilometrdən çox respublika və yerli əhəmiyyətli yolda təmir-tikinti işləri aparılmış, 436 ədəd körpü və tunel tikilmiş və təmir olunmuşdur.

Əhalinin elektrik enerjisinə olan tələbatını daha dolğun təmin etmək məqsədilə son 15 ildə regionlarda 28 elektrik stansiyası istifadəyə verilmiş, 45 min kilometrdən artıq elektrik xətti çəkilmiş və 1650-dən çox yarımstansiya quraşdırılmış və ya təmir olunmuşdur. Həmçinin bu dövrdə regionlarda 56,2 min kilometr qaz xətti çəkilmiş və ya əsaslı təmir olunmuş, 1800-dən çox yaşayış məntəqəsi təbii qazla təmin edilmiş, regionlar üzrə qazlaşdırma səviyyəsi 41 faizdən 93,2 faizə çatmışdır. Əhalinin su təminatının yaxşılaşdırılması üçün yeni su və kanalizasiya xətləri çəkilmiş, yeni su anbarları istifadəyə verilmişdir. Belə ki, Dövlət Proqramları çərçivəsində regionlarda 11 min kilometr su, 6 min kilometr kanalizasiya xətti çəkilmiş, 223 su anbarı inşa olunmuş və ya yenidən qurulmuşdur. Əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatının yaxşılaşdırılması üçün 466 modul tipli sutəmizləyici qurğular quraşdırılmış, fasiləsiz içməli su ilə təmin olunan əhalinin sayı əhəmiyyətli dərəcədə yüksəlmişdir.

Eyni zamanda kənd təsərrüfatı məhsulları istehsalının artırılması və yeni əkin sahələrinin dövriyyəyə daxil edilməsi məqsədilə kənd yerlərində torpaqların suvarma və meliorasiya təminatının yaxşılaşdırılmasına, torpaq və su ehtiyatlarından səmərəli istifadə edilməsinə xüsusi önəm verilmiş, 4,2 min kilometr suvarma kanallarının tikintisi, bərpası və yenidən qurulması işləri aparılmış, Taxtakörpü, Şəmkirçay, Tovuzçay və Göytəpə su anbarları tikilmiş, 413 min hektar torpaq sahələrinin su təminatı yaxşılaşdırılmış, 2285 subartezian quyusu qazılmışdır.

Ölkəmizdə həyata keçirilən iqtisadiyyatın şaxələndirilməsi siyasətinin mühüm istiqamətlərindən biri də sənayeləşmə və qeyri-neft sənayesinin inkişafıdır. Təsadüfi deyil ki, sənayenin inkişafına xüsusi önəm verən dövlət başçısı tərəfindən 2014-cü il Azərbaycanda "Sənaye ili" elan edilmiş, "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı" qəbul olunmuşdur. Müasir texnologiyaların və qabaqcıl təcrübənin tətbiqi nəticəsində son illər ölkədə sənayeləşmə templəri yüksəlmiş, metallurgiya, maşınqayırma, kimya, inşaat materiallarının istehsalı, qida və digər ənənəvi sənaye sahələri genişlənməklə yanaşı, yeni əlavə dəyər yaradan sənaye sahələri yaradılmış, bir sıra sənaye məhsulları üzrə özünütəminetmə səviyyəsi yüksəlmişdir.

Bununla yanaşı, sənaye parklarının, sənaye məhəllələrinin yaradılması istiqamətində ciddi addımlar atılmış, kimya, təkrar emal, gəmiqayırma, yüngül sənaye, əczaçılıq sahələrində ixtisaslaşmış sənaye zonaları - Sumqayıt Kimya Sənaye, Balaxanı, Qaradağ, Mingəçevir, Pirallahı sənaye parkları yaradılmışdır. Eyni zamanda, Neftçala və Masallıda sənaye məhəlləri Azərbaycan Respublikası Prezidentinin iştirakı ilə istifadəyə verilmiş, Hacıqabul Sənaye Məhəlləsində tikinti işləri yekunlaşmış, Sabirabad Sənaye Məhəlləsində isə tikinti işləri davam etdirilir. Dövlət başçısının tapşırığına əsasən, ölkəmizin digər regionlarında da sənaye məhəllələrinin yaradılması istiqamətində araşdırmalar aparılır.

Aqrar sənayenin inkişafının təmin edilməsi və artan tələbatın ödənilməsi məqsədi ilə ölkədə aqrar sektorun inkişafı xüsusi önəm daşıyır. Bu baxımdan aqrar sektorun innovasiyalara və informasiya kommunikasiya texnologiyalarının tətbiqi ilə müasir idarəetmə üsullarına uyğun yenidən qurulması, o cümlədən iri fermer təsərrüfatlarının və aqroparkların yaradılması əsas hədəflərdəndir. Dövlət başçısının tapşırığına uyğun olaraq, hazırda 33 rayon üzrə 51 iri fermer təsərrüfatı və aqroparkın yaradılması təşviq olunur. Artıq 22 aqropark fəaliyyətə başlayıb, digərlərində isə işlər davam etdirilir. Aqroparkların yaradılması kənd təsərrüfatının alt sahələri olan quşçuluq və heyvandarlığın xammala olan tələbatının yerli istehsal hesabına ödənilməsi ilə yanaşı, ərzaq məhsullarının idxalının maksimum endirilməsinə və kənd təsərrüfatı məhsullarının ixrac imkanlarının genişlənməsinə imkan yaradmaqdadır.

Qloballaşma şəraitində rəqəmsallaşma prosesləri Azərbaycan üçün geniş imkanlar açır. Dördüncü Sənaye İnqilabı şəraitində Azərbaycan özünün yerləşdiyi əlverişli coğrafi mövqeyi, zəngin təbii sərvətləri və insan resurslarından istifadə etməklə dünya üzrə İKT sahəsində yeni trendlərin ölkədə tətbiqini reallaşdırır. Rəqəmsallaşma və rəqəmsal iqtisadiyyat quruculuğu ölkənin dayanıqlı inkişafı üçün yeni imkanlar açır. Müasir dünyanın inkişaf prinsipləri elektronlaşma və yüksək texnologiyalar üzərində qurulub. Bu gün "Elektron hökumət", "Elektron ölkə" anlayışı heç kimdə təəccüb doğurmur. Azərbaycan da bu tendensiyadan geri qalmır. Azərbaycanda rəqəmsallaşma İKT sahəsində müvafiq yeni infrastruktur quruculuğunu, mövcud infrastrukturun modernizasiyasını, yeni texnologiyaların tətbiqini özündə ehtiva edir. Rəqəmsallaşma və rəqəmsal iqtisadiyyatın yaradılması üçün də əsas baza informasiya və kommunikasiya texnologiyalarının inkişafıdır.

Bu səbəbdən də ölkənin rabitə sisteminin dünya standartları səviyyəsinə çatdırılması, müasir texnologiyaların tətbiqi, strateji əhəmiyyətli layihələrin həyata keçirilməsi istiqamətində zəruri tədbirlərin görülməsi əsas məsələlərdən biri kimi daim diqqət mərkəzində olmuşdur.

Son illərdə əldə olunan nailiyyətlər nəticəsində İKT-nin inkişafı baxımından Azərbaycan artıq regionun lider dövləti kimi tanınır. Müstəqil, gənc dövlət olan Azərbaycanda 2013-cü il "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan edilmiş və həmin il fevral ayının 8-də ölkəmizin ilk peyki olan "Azərspace 1" telekommunikasiya peyki orbitə çıxarılmışdır. Daha sonra 2014-cü ildə "Azərsky" müşahidə peykinin, 2018-ci ildə isə Azərbaycanın üçüncü peyki olan "Azerspace-2" telekommunikasiya peykinin orbitə buraxılması Azərbaycanın kosmik dövlətlər sırasında yerini möhkəmlətmişdir.

Bununla yanaşı son 15 ildə ölkə regionlarında 1600-dən çox ATS, 1000-dən çox poçt binası tikilmiş və ya əsaslı təmir edilmişdir. Ölkənin sosial-iqtisadi həyatında mühüm rol oynayan və əsas prioritet istiqamətlərdən biri olan informasiya və rabitə sahəsinin inkişafında 11 dəfədən çox artıma nail olunmuşdur.

Beləliklə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurla həyata keçirdiyi sosial-iqtisadi siyasət nəticəsində müstəqilliyimiz möhkəmlənir, dövlətimiz qüdrətlənir, ölkəmiz davamlı və dayanıqlı inkişaf edir, Azərbaycanın dünyada nüfuzu artır. Bir sözlə, dövlət başçısının ölkəmizin hərtərəfli inkişafına hesablanmış siyasəti Azərbaycanı daha işıqlı sabahlara, daha firavan gələcəyə aparır. Dövlət başçısının müəyyənləşdirdiyi kimi, "Görülən bütün bu işlərin məqsədi budur - Azərbaycan vətəndaşı daha da yaxşı yaşasın, ölkəmizin iqtisadi müstəqilliyi daha da möhkəmlənsin və dünyada rolumuz, əhəmiyyətimiz artsın".

https://doi.org/10.58225/tim.2025-4-73-75

V.M.Vəliyev
i.e.d. professor, Azərbaycan Respublikasının əməkdar elm xadimi,
Azərbaycan Texniki Universitetinin rektoru

Məqalə redaksiyaya daxil olub 12.11.2025
The article was received by editorial board on 12.11.2025
Статья принята к печати 12.11.2025

İQTİSADİYYATIN DİVERSİFİKASİYASI: İNVESTİSİYA, İNNOVASİYA VƏ İNFRASTRUKTUR

Son illər Azərbaycan dövlətinin qarşısında duran ən mühüm vəzifələrdən biri iqtisadiyyatın diversifikasiyası, neft-qaz sektorundan əldə olunan gəlirləri qeyri-neft sektoruna yönəltməklə iqtisadiyyatın tarazlı inkişafına nail olmaqdır. Bu baxımdan, qeyri-neft sektorunun inkişafı, ixracın təşviqi və şaxələndirilməsi istiqamətində ölkədə bir sıra iqtisadi siyasət sənədləri qəbul olunmuşdur. Bu sənədlərə aşağıdakıları misal göstərmək olar:

Regionlarda mövcud olan təbii və iqtisadi potensialdan səmərəli istifadə edilməklə qeyrineft sektorunun inkişafını nəzərdə tutan Azərbaycan Respublikası regionlarının sosialiqtisadi inkişafının 2004-2008, 2009-2013, 2014-2018, 2019-2023-cü illər üçün Dövlət

Proqramları;

- Aqrar-sənayenin inkişafını hədəfləyən "Azərbaycan Respublikasında 2002-2006-cı illərdə aqrar bölmənin inkişafına dair Proqram";
- İxrac yönümlü iqtisadi modeli üstün tutan "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyası;
- Sənayenin inkişafı sahəsində "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı";
- Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları (neft və qaz sənayesi, kənd təsərrüfatı, istehlak mallarının istehsalı, ağır sənaye və maşınqayırma, turizm sənayesi, logistika və ticarət, kommunal xidmətlər və d.) üzrə strateji yol xəritələri.
- Qeyri-neft ixracının təşviqi ilə bağlı 2016-2020-ci illərdə Azərbaycan Respublikasında istehsal olunan qeyri-neft məhsullarının ixracının təşviqi istiqamətində əlavə tədbirlərin həyata keçirilməsi məqsədilə Sərəncam;
- "Qeyri-neft sektorunda rəqabətqabiliyyətli daxili istehsalın dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 19 sentyabr 2018-ci il tarixli 497 nömrəli Sərəncam.

Eyni zamanda, 2016-cı ildə Azərbaycan Dayanıqlı İnkişaf Məqsədlərinə qoşulmuş, məqsədlərin milliləşdirilməsi və innovasiya əsaslı inklüziv inkişaf istiqamətləri müəyyən edilmişdir.

Qeyd etmək lazımdır ki, bu sənədlər neft gəlirlərini iqtisadiyyatın şaxələndirilməsinə yönəltməklə qeyri-neft sektorunun inkişafını sürətləndirmək, müasir tələblərə cavab verən istehsal sahələri yaratmaqla rəqabətə davamlı məhsul istehsal etmək, ölkədə istehsal olunan məhsulların ixracını dəstəkləmək, sahibkarlıq fəaliyyətində şəffaflığa nail olamaq və s. məqsədlər daşıyır. Bu da ölkənin həm istehsal, həm də ixracında diversifikasiya ilə şərtlənir.

Ölkədə 2018-ci ildə istehsal edilmiş ümumi daxili məhsul (ÜDM) əvvəlki illə müqayisədə 1,4 faiz artaraq 79797,3 milyon manat olmuşdur və əhalinin hər nəfərinə düşən ÜDM 8126,2 manat,

yaxud 4780,1 ABŞ dolları təşkil etmişdir. Eyni zamanda, iqtisadiyyatın qeyri-neft sektorunda yaradılmış əlavə dəyər 41810,5 milyon manat olmaqla 1,8%, neft sektorunda isə 31758,6 milyon manat olmaqla 0,6% artmışdır. Qeyd edək ki, ölkədə diversifikasiyanın təmin edilməsi məqsədilə reallaşdırılan iqtisadi siyasətin əsas hədəfi neft-qaz sektorundan asılılığı azaltmaqla, qeyri-neft sektorunda inkişafı təmin etməkdir. Bu baxımdan, ÜDM-in strukturuna diqqət etdikdə məlum olur ki, 2017-ci ildə kənd təsərrüfatı (5,6%), mədənçıxarma sənayesi (34,1%), emal sənayesi (4,7%), ticarət, nəqliyyat vasitələrinin təmiri (10,4%), tikinti (9,5%), nəqliyyat və anbar təsərrüfatı (6,8%) sahələrində əlavə dəyər istehsalı yüksək çəkiyə malik olmuşdur. Bununla yanaşı, əhalinin məşğulluğu kənd təsərrüfatı (36,4%), ticarət, nəqliyyat vasitələrinin təmiri (14,6%), tikinti (7,2%), emal sənayesində (5,2%), nəqliyyat və anbar təsərrüfatında (4,2%) yüksəkdir.

Azərbaycanda 2017-ci ildə istehsal olunan ÜDM-in 40,1 faizi sənayedə istehsal olunmuşdur. 2017-ci ildə sənayedə istehsal olunmuş malların və göstərilmiş xidmətlərin ümumi buraxılış həcmi 39555,4 milyon manat təşkil etmişdir ki, onun da 27660,9 milyon manatı mədənçıxarma sənayesinin, 9767,0 milyon manatı emal sənayesinin payına düşür. Emal sənayesində məhsul istehsalının strukturunda ən yüksək xüsusi çəkiyə malik alt sahələr qida məhsullarının istehsalı (33,7%), neft məhsullarının istehsalı (27,9%), tikinti materiallarının istehsalı (5,8%), kimya sənayesi (5,2%), maşın və avadanlıqların quraşdırılması və təmiri (4,5%), metallurgiya sənayesi (4,4%), hazır metal məmulatların istehsalı (2,8%), içki istehsalı (2,5%), rezin və plastik kütlə məmulatlarının istehsalı (2,4%), maşın və avadanlıqların istehsalı (2,0%), toxuculuq sənayesi (1,8%), elektrik avadanlıqlarının istehsalı (1,8%) olmuşdur. Əsas kapitala investisiyaların 63,9%-i sənaye sahələrinin inkişafına yönəldilmişdir ki, bu da 9942,2 milyon manat təşkil edir.

Ölkədə innovasiya əsaslı sənayeləşmənin müasir çağırışlara uyğun qurulması üçün müvafiq infrastruktur qurulmuş, dayanıqlı və inklüziv sənayenin inkişafı üçün sənaye və texnologiyalar parklarının, sənaye məhəllələrinin yaradılması istiqamətində ciddi addımlar atılmışdır. Kimya, təkrar emal, gəmiqayırma, yüksək texnologiyalar, yüngül sənaye, əczaçılıq sahələrində ixtisaslaşmış sənaye (Sumqayıt Kimya Sənaye Parkı, Neftçala, Qaradağ, Pirallahı, Mingəçevir, Balaxanı Sənaye Parkı) və texnologiya parkları, sənaye məhəllələrinin (Neftçala, Masallı, Hacıqabul, Sabirabad Sənaye Məhəlləsi) fəaliyyətini təmin etmək, eləcə də, istehsal zəncirinin təkmilləşdirilməsi və genişləndirilməsi istiqamətində sənaye klasterlərinin formalaşdırılması istiqamətində tədbirlərə başlanılmışdır. Bu işlərin yerinə yetirilməsi çoxtərəfli və kompleks dövlət dəstəyinin artması, sahibkarlıq təşəbbüslərinin genişlənməsi, universitet və tədqiqat mərkəzlərinin bu prosesdə iştirakı üçün maraq və imkanlarının artması fonunda baş verir. Qeyd olunan innovasiya subyektlərinin yaradılması ölkəmizdə sahibkarlığın innovativ təşəbbüslərinin reallaşmasında dövlət dəstəyinin rolunun artması fonunda elmi tədqiqat institutları, universitetlər və sənaye işbirliyinin formalaşmasının vəhdəti kimi milli innovasiya sisteminin infrastrukturunun məqsədyönlü formalaşmasına təkan vermişdir.

Həmçinin, qeyri-neft sektorunun inkişafı istiqamətində investisiya təşviqi mexanizmi tətbiq edilir. 2016-cı ilin may ayından başlayaraq bu günə qədər cəmi 349 investisiya təşviqi sənədi verilmiş və 304 sahibkar bu imkandan faydalanmışdır. Görülmüş məqsədyönlü tədbirlərin nəticəsidir ki, son bir neçə ildə beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyi daha da yaxşılaşmışdır.

Ölkədə reallaşdırılan iqtisadi islahatların nəticəsi olaraq biznes mühiti xeyli yaxşılaşmış, 2018-ci il oktyabrın 31-də Dünya Bankı tərəfindən yayılan "Doing Business 2019" hesabatında Azərbaycan dünyanın 10 ən islahatçı dövləti siyahısına daxil edilərək dünyanın ən çox islahat aparan ölkəsi elan olunmuşdur. Yeni hesabatda Azərbaycanın mövqeyi 2017-ci illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb, dünyanın bir çox ölkələrini geridə qoymaqla Müstəqil Dövlətlər Birliyi ölkələri arasında lider mövqeyə yüksəlib.

Qlobal İnnovasiya İndeksi 2018-ci ilin nəticələrinə görə, Azərbaycan 127 ölkə arasında 82-ci yerdə qərarlaşmışdır. Son illər qeyri-neft sektorunun inkişafı ilə bağlı atılan addımların nəticəsi olaraq qeyri-neft ixracının rəqabətqabiliyyətliliyi əhəmiyyətli dərəcədə yüksəlmişdir. Belə ki, əvvəlki illərdə ixracda böyük paya malik olan mineral məhsullar ixracı azalmağa doğru gedir. Buna paralel olaraq kənd təsərrüfatı məhsullarından fındıq, xurma, alma, armud, sitrus meyvələri, eləcə də, pomidor, soğan və digər tərəvəz məhsullarının ölkə ixracında xüsusi çəkisi yüksələn templə artır. Bundan başqa, ölkəyə ən çox valyuta gətirən emal sənayesi məhsullarından alüminium və ondan hazırlanan məmulatlar, plastik kütlə və məmulatlar, üzvi kimyəvi birləşmələr, pambıq və sairlərini gösətmək olar ki, bu məhsullar da ixracda müqayisəli üstün hesab olunan məhsullardır.

Ölkədə ixracın təhlili onu göstərir ki, hal-hazırda pambıqçılıq, baramaçılıq, tütünçülük, üzümçülük, çayçılıq, fındıqçılıq kimi sahələrdə stimullaşdırma tədbirlərinin həyata keçirilməsi adı çəkilən sahələr üzrə ixrac imkanlarının yaranmasına səbəb olmuş və əvvəlki dövrlərdə ixrac olunmayan ipək tullantıları, ipəkdən hazırlanan məhsullar, pambıq iplik və pambıq parçalar kimi məhsulların ixracına başlanılmışdır.

Azərbaycanın istehsal etdiyi məhsulların xarici bazarlara çıxışının dəstəklənməsi məqsədilə dörd ticarət nümayəndəliyi (Rusiya, Çin, Birləşmiş Ərəb Əmirlikləri və Mərkəzi Avropa ölkələri üzrə Polşa ticarət nümayəndəliyi) yaradılmış və müxtəlif ölkələrə ixrac missiyaları göndərilmişdir. Həmçinin, ixracın təşviqi sənədinə əsasən ixrac edilən məhsulların gömrük dəyərinə 3 faiz həcmində güzəşt edilir.

Qeyd edilənlərlə yanaşı, ölkədə iqtisadiyyatın diversifikasiyasının təmin edilməsində aqrar sənaye məhsullarının geniş potensialını nəzərə alaraq bu məhsullar üzrə emalın dərinləşdirilməsi və ixrac məhsullarının çeşid çoxluğuna nail olunması, eləcə də, regional diversifikasiya istiqamətlərinin müəyyən edilməsi əhəmiyyətlidir.

https://doi.org/10.58225/tim.2025-4-76-81

M.A.Məmmədov
i.e.d., professor, Azərbaycan Memarlıq və İnşaat Universiteti
ORCID 0000-0002-5327-2507
m.m.asirli@ mail.ru

Məqalə redaksiyaya daxil olub 29.11.2025
The article was received by editorial board on 29.11.2025
Статья принята к печати 29.11.2025

HEYDƏR ƏLİYEVİN MİLLİ İQTİSADİ İNKİŞAF MODELİ ÖLKƏNİN İQTİSADİ MÜSTƏQİLLİYİNİN ƏSASIDIR

Xülasə

Məqalədə Azərbaycan Respublikasının ümummilli lideri Heydər Əliyevin formalaşdırdığı milli iqtisadi inkişaf modelinin əsas prinsipləri və bu modelin ölkənin iqtisadi müstəqilliyinin təmin olunmasındakı həlledici rolu təhlil edilir. Tədqiqatda göstərilir ki, Heydər Əliyevin rəhbərliyi dövründə həyata keçirilən məqsədyönlü iqtisadi islahatlar, neft strategiyasının düzgün müəyyənləşdirilməsi, bazar iqtisadiyyatına keçid və milli maraqlara əsaslanan inkişaf konsepsiyası Azərbaycanın dayanıqlı iqtisadi inkişafına zəmin yaratmışdır. Məqalədə həmçinin qeyd olunur ki, milli iqtisadi model iqtisadi sabitliyin möhkəmləndirilməsinə, sosial rifahın yüksəldilməsinə və ölkənin beynəlxalq iqtisadi sistemə inteqrasiyasına imkan vermişdir. Nəticə etibarilə, Heydər Əliyevin milli iqtisadi inkişaf modeli Azərbaycanın iqtisadi müstəqilliyinin qorunması və uzunmüddətli inkişaf strategiyasının əsasını təşkil edir.

Açar sözlər: *iqtisadi model, müstəqillik inkişaf, sabitlik, nailiyyətlər, iqtisdi irs, inteqrasiya.*

Müstəqil ölkəmizdə iqtisadiyyatın bütün sektorlarında qazanılmış nailiyyətlər, yaradılmış iqtisadi, sosial, elmi–texniki maliyyə potensialı, insan kapitalı, infrastruktur, əhalinin sosial-məişət şəraitinin yaxşılaşdırılması Azərbaycan xalqının müasir tarixinin yaradıcısı, müstəqil dövlətimizin qurucusu Ulu öndər Heydər Əliyevin həyata keçirdiyi çox şaxəli inkişaf strategiyasının nəticəsidir.

Ulu öndər tərəfindən müəyyənləşdirilən və bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən yaradıcılıqla və uğurla inkişaf etdirilən Azərbaycanın iqtisadi inkişaf strategiyasının formalaşması mərhələlərinin, onun sürətli inkişafını təmin edən başlıca amil, vasitələrin tədqiqi və dəyərləndirilməsi Ulu öndərin iqtisadi irsinin öyrənilməsində və ölkəmizin perspektiv inkişafının prioritetlərinin, məqsəd və hədəflərin müəyyən edilməsində, reallaşmasında müstəsna əhəmiyyətə malikdir.

XX əsrin sonlarında müstəqilliyini bərpa edən Azərbaycanın qarşısında bazar iqtisadiyyatına keçid və dünya iqtisadi sisteməsəmərəli inteqrasiya olunmaqla milli iqtisadiyyatı formalaşdırmaq və inkişaf etdirmək kimi strateji vəzifələr dururdu. Ulu öndər 1993-2003-cü illərdə Azərbaycanın milli iqtisadi inkişafının formalaşmasının uğurlu və perspektiv inkişafa istiqamətlənmiş keçid modelinin əsaslarını müəyyənləşdirmiş vəbu modelin həyata keçirilməsini təmin edən islahat-inkişaf xarakterli dövlət proqramlarının, inkişaf strategiyalarının, layihələrin işlənilməsinin reallaşdırılmasına xüsusi əhəmiyyət vermişdir. Bu illərdə Azərbaycanda milli iqtisadiyyatının inkişafı sahəsində həyata keçirilən tədbirlər göstərir ki, müstəqilliyin ilk illərində aparılan iqtisadi, siyasi, institusional islahat-

lar ölkəiqtisadiyyatının perspektiv inkişafı üçün güclü zəmin yaratmış və bu dönməz xarakter almışdır.

Xüsusi qeyd etmək lazımdır ki, dünya təcrübəsində sistemin transformasiyasının iki yolu - "şok terapiyası" və "təkamül yolu" məlumdur. Azərbaycan reallığını nəzərə alaraq Heydər Əliyev həyata keçirdiyi sistem transformasiya prosesində və böhrandan çıxış tədbirlər sistemini müəyyənləşdirərkən, hər bir konkret halda "şok terapiyası" və "təkamül yolu"nun prinsiplərindən ayrılıqda,tələb olunan hallar isə onların birgə tətbiq olunmasınavə iqtisadi siyasətində koordinasiya, sistemlilik və prioritetlərin düzgün seçilməsinə xüsusi önəm verirdi. Müstəqilliyin ilk illərində ölkəmizin investisiya imkanlarının məhdud olduğunu nəzərə alaraq o, xüsusi qeyd edirdi ki, Azərbaycanda o sahələrin prioritet inkişafı təmin edilməlidir ki, birincisi, bu istiqamətlər ölkənin iqtisadi- siyasi müstəqilliyini qorumağa və xalqın zəruri tələbatlarını mümkün qədər təmin etməyə imkan versin və bu sahələrin üstün inkişafı nəticəsində yaranmış gəlirlər nəticəsində ölkənin sosial-iqtisadi inkişafının aparıcı qüvvəsinəçevrilsin.

Eyni zamanda nəzərə almaq lazımdır ki, hələ də dünya qlobal maliyyə böhranından tam qurtara bilmədiyi bir mərhələdə Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə Azərbaycanın bir müstəqil dövlət kimi formalaşdırılması və inkişafı ilə bağlı iqtisadiyyatın bütün sahələrində həyata keçirdiyi çoxşaxəli, tədbirlər digər sahələr ilə yanaşı iqtisadi sahədəki işlərin nəzərdən keçirilməsi Ulu öndərin böyük təcrübəyə biliyə, analitik düşüncəyə və uzaqgörən iqtisadi strategiyaya malik bir şəxsiyyət olduğunu göstərdi.

Müstəqilliyinin ilk illərində Ulu öndərin iqtisadi strategiyasının bir sıra məqamlarını nəzərdən keçirərkən bu illərdə Azərbaycanın necə böyük, sərt, riskli, ziddiyyətli və mürəkkəb proseslərlə üzləşdiyini görürük.Ancaq,hal-hazırda bu dövrdə hadisələrin necə düzgün müəyyənləşdirilib qiymətləndirildiyini, uzaqgörənliklə qərarlar verildiyini və ən mühümü isə bu qərarların perspektivdə həyata keçiriləcək proseslərə mənfi təsir göstərmədənməharətlə, cəsarətlə, məntiqi ardıcıllıqla həll edildiyi müəyyən edilir. Həyata keçirilən bu tədbirlər müstəqilliyimizin ilk illərində ölkəmizin bir dövlət kimi mövcudluğu şübhə altında olduğu gərgin və mürəkkəb bir şəraitdə - 1993-cü ilin iyun ayının 15-də Heydər Əliyev yenidən siyasi hakimiyyətə qayıtmasıvə onun apardığı dərin məzmunlu və məqsədyönlü böyük səmərəli işlərin nəticəsində mümkün olmuşdur.

Müstəqilliyin ilk dövrdə Azərbaycanda hərbi, sosial-iqtisadi, siyasi böhran dərinləşmiş müstəqilliyin itirilməsi, hətta vətəndaş müharibəsi təhlükəsi yaranmış, Azərbaycana Ermənistanın hərbi təcavüzü nəticəsində 90-cı illərin əvvəlidən etibarən iqtisadiyyatın bütün sahələrində istehsal tənəzzül etmiş beləki, 1991-1995-ci illərdə ölkədə istehsal müəssisələrinin böyük əksəriyyəti dayanmış və ya öz gücünün 15-20%-i səviyyəsində işləmiş,illik geriləmə sənayedə 20-24%-ə, kənd təsərrüfatında 15- 20%-ə, əsaslı vəsait qoyuluşunda 40%-ə düşmüş, istehlak mallarının qiymətinin ildə 14-18 dəfə artması iqtisadi və sosial sahənin sıradan çıxmasına səbəb olmuşdur.

Bu dövrdəUlu Öndər Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə yenidən gəldikdən sonra müstəqilliyin ilk illərində ölkəmizin qarşısında duran problemlərin ağırlığını və xalqın qarşısında məsuliyyətini xüsusi vurğulayaraq qeyd etmişdir: "Ömrümün bundan sonrakı hissəsini, harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişafına həsr edəcəyəm".Onun böyük səyi, iradəsi və idarəçilik məharəti sayəsində ölkədə qısa bir müddət ərzində əldə olunan makroiqtisadi, siyasi sabitlik, habelə müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbulu iqtisadi sistemin transformasiyası ilə bağlı aparılması nəzərdə tutulan iqtisadi islahatların qanunvericilik bazasının yaradılmasına, sosial-iqtisadi inkişafda prioritetlərin seçilməsinə, cari və perspektiv məqsədlər nəzərə alınmaqla qeyd olunanların reallaşdırılmasının taktika və strategiyasını müəyyənləşdirməyə imkan verdi.Onuda xüsusi qeyd etmək lazımdır ki , Ulu öndərin bazar iqtisadi sisteminə keçid mərhələsində müstəqil milli iqtisadiyyatın formalaşdırılması ilə əlaqədar həyata ke-

çirdiyi iqtisadi strategiya, ölkədə makroiqtisadi sabitlik təmin olunması; sistemin transformasiyası ilə bağlı bütün istiqamətlər üzrə əsaslı iqtisadi islahatların aparılması bütün səviyyələrdə bazar iqtisadi münasibətlərinin liberallaşdırılması; ölkədə demokratiyanın və sosial ədalətin bərqərar olunması vəölkəmizin strateji milli maraq və mənafelərini qorumaqla dünya iqtisadi sistemə fəal və səmərəli inteqrasiya olunması prinsiplərinə əsaslanırdı. Azərbaycan bazar iqtisadiyyatı sisteminə keçidin ilkmərhələsində iqtisadiyyatın sahə və sferaları arasında inteqrativ və funksional əlaqələrin pozulduğu, iqtisadi proseslərdə qeyri-müəyyənliyin kəskin formada artdığı sistemsizlik böhranının bütün məziyyətlərini, özündə əks etdirən bir dövrdə yaşayırdı. Milli iqtisadiyyatın bazar prinsipləri əsasında təşkilinin ilk illərində getdikcə azalan milli gəlirdə yığımın payının azalması, təkrar istehsal imkanlarının və sərmayə qoyuluşu ilə əlaqədar maraqların ən aşağı səviyyədə olması ölkə iqtisadiyyatına yerli və xarici investisiyaların kəskin şəkildə aşağı düşməsinə səbəb olmuşdur.

Bunun nəticəsi olaraq 1991-1995-ci illərdə ölkədə ÜDM - 58%, sənaye məhsulu - 67%; kənd təsərrüfatı məhsulu 48%; əsaslı vəsait qoyuluşu 48,5% azaldığı halda, Ulu öndərin rəhbərliyi ilə qısa müddətdə ölkədə islahat və islahat-inkişaf xarakterli makroiqtisadi sabitləşmə tədbirlərinin həyata keçirilməsi sayəsində 1997-2003-cü illərdə ÜDM-74,8%; sənaye məhsulu 30,8%; kənd təsərrüfat məhsulu 58,0%; əsaslı vəsait qoyuluşu isə 4,7 dəfədən çox artmış, adambaşına düşən ÜDM-in həcmi 1993-cü ildə 179,9 dollar, 1995-ci ildə isə 319,3 dollar olduğu halda, bu rəqəm 2003-cü ildə 1995-ci ilə nisbətən 4,9 dəfədən çox artaraq 879,7 dollara , xarici ticarət dövriyyəsinin həcmi 4 dəfə artaraq 5,28 milyard dollara çatmış, habelə ticarət dövriyyəsinin ümumi strukturunda idxal 3,9 dəfə, ixrac isə 4,1 dəfə artmışdır.

Qeyd etmək lazımdır ki, 1994-cü il sentyabrın 20-də Azərbaycan dünyanın aparıcı neft şirkətləri ilə "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının dərin hissəsinin birgə kəşfiyyatı və işlənməsi üzrə 7 ölkənin 11 məşhur şirkəti ilə "Əsrin müqaviləsi" adlandırılan saziş bağladı. ABŞ, Rusiya, Böyük Britaniya, Yaponiya, Norveç, Türkiyə və Səudiyyə Ərəbistanı neft şirkətlərinin iştirakı ilə konsorsium - Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti yaradıldı. Azərbaycanla etibarlı investisiya mühitinin və əlverişli investisiya şəraitinin yaradılması qısa müddətdə bir neçə perspektivli strukturların birgə kəşfiyyatı və işlənməsinə dair əlavə, daha 20 müqavilə bağlamağa imkan vermişdir. Bağlanmış müqavilələrə görə, birbaşa xarici investisiyaların ümumi məbləği təqribən 60 milyard ABŞ dolları təşkil edirdi. 1997-ci ilin noyabr ayından ilk müqavilə üzrə neft hasilatına başlandı və qısa müddətdə 12 milyon ton xam neft hasil edilərək xarici ölkələrə ixrac olunmuş və ümumən neft hasilatı artaraq 2000-ci ildə 14,1 milyon tona çatmışdır.

"Əsrin müqaviləsi" imzalandığı hal-hazırki vaxta kimi dünyanın 20 ölkəsinin 34 nəhəng şirkəti ilə 23 beynəlxalq müqavilə bağlanmışdır.Ulu Öndərin müəllifi olduğu "Yeni Neft strategiyasının" müvəffəqiyyətlə həyata keçirilməsinin nəticəsində Azərbaycanın neft-qaz layihələrinə beynəlxalq neft korporasiyalarının, xarici, işgüzar dairələrin, böyük həcmli investisiyaların respublika iqtisadiyyatına cəlb edilməsi hesabına dünyanın enerji daşıyıcıları bazarına sürətlə çıxışı təmin edilmiş, bağlanmış müqavilələrin nəticəsində ölkənin neft-qaz sənayesinə 60 milyard ABŞ dollarından çox investisiya qoyulmuşdur. Azərbaycan neftinin dünya bazarına sərbəst və sürətli çıxışını təmin edən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin çəkilişi ideyasının meydana gəlməsi və onun reallığa çevrilməsi Heydər Əliyevin "Yeni neft strategiyasının" ən mühüm nailiyyətləri kimi yüksək dəyərlərə malikdir.

Azərbaycanda hasil olunan neftin dünya bazarlarına çıxarılması məqsədilə 1999-cu ilin noyabrında ABŞ, Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan və Türkmənistan prezidentləri tərəfindən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin çəkilişi haqqında dövlətlərarası Müqavilə imzalanmış, 2002-ci ilin sentyabrın 18-də Bakıda, Səngəçal terminalında Azərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə ixrac neft kəmərinin özülü qoyulmuşdur. Əsas ixrac neft kəmə-

rinin Azərbaycan hissəsinin Gürcüstan hissəsi ilə birləşdirilməsi 2004-cü ilin oktyabrında başa çatdırılmış, aparılan bu işlər nəticəsində Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri 2006-cı ildə tam fəaliyyətə başlamış və qeyd olunan layihə dünyanın ən qabaqcıl texnika və texnologiyalarının gətirilməsində və böyük həcmli xarici investisiyaların Azərbaycana cəlb edilməsində çox mühüm rola malik olmuşdur.

Azərbaycanda xarici investisiyalar üçün etibarlı mühit, eyni zamanda əlverişli siyasi, iqtisadi, hüquqi şəraitin yaradılması üçün ölkədə kompleks tədbirlər həyata keçirilməsiistiqamətində zəruri və mühüm islahatlar və səmərəli işlər aparılmış, bu isə öz növbəsində yuxarıda qeyd olunan tədbirlərin həyata keçirilməsini təmin etmişdir.

Yəni bu mərhələdə ölkədə investiya mühitinə təsir edən münbit iqtisadi şəraitin yaradılması məqsədi ilə Avropa standartlarının müvafiq zəruri qanunverici baza yaradılmışdır. Aparılan bu işlər ölkədə əlverişli investisiya mühitinin yaradılması, investorların hüquq və mənafelərinin qorunması, mülkiyyətin toxunulmazlığı, yerli və xarici sahibkarlara bərabər şəraitin yaradılmasında mühüm rolu olmuşdur. Beləki bu istiqamətlər ölkəmizdə "İnvestisiya fəaliyyəti haqqında", "Xarici investisiyaların qorunması haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının qanunları və bir sıra normativ sənədlərlə tənzimlənməsi təmin edildi.

Qeyd etmək lazımdır ki,1994-cü ilin sentyabrında bağlanmış "Əsrin müqaviləsi" neft sənayesinin intensiv inkişafı ölkənin milli iqtisadiyyatının dünyanın qabaqcıl ölkələrindən geriləməsinin qarşısının alınmasının və perspektivdə inkişafının əsasını qoydu vəneft ehtiyyatları 1 trilyon tonadək müəyyənləşmiş "Azəri", "Çıraq" və "Günəşli" yataqları üzrə müqavilədə layihənin işlənilməsinə ilkin olaraq 7,5 milyard dollar investisiya qoyuluşu nəzərdə tutulmuşdusa, SOCAR-ın hesabatına görə, 1995-ci 2013- cü illərdə qoyulan investisiyaların həcmi 51,6 milyard ABŞ dolları səviyyəsinə çatmışdır.

Ölkəmiz üçün bu müqavilənin iqtisadi əhəmiyyəti ondan ibarət olmuşdur ki, 2009-cu ildən başlayaraq gəlir neftin 80 faizə qədəri Azərbaycan Respublikasının payı oldu, eyni zamanda Azərbaycanın gəliri 30 il ərzində o zamanki qiymətlərlə 34 mlrd. ABŞ dolları ilə dəyərləndirildi. Xüsusi olaraq göstərmək lazımdır ki, həyata keçirilən neft strategiyası yerli müəssisələrin müasir texnologiyalarla-təchiz edilməsinə, bu müəssisələrdə infrastrukturların yenidən qurulmasına və müxtəlif həcmli yeni infrastrukturların yaranmasınıtəmin etdi.

Qeyd etmək lazımdır ki, Ulu Öndərin rəhbərliyi ilə ölkədə həyata keçirilən bu layihələr nəticəsində 1994-2000-ci illər arasında investisiya sıçrayışı nəticəsində Azərbaycan iqtisadiyyatına 11,4 mlrd. ABŞ dolları həcmində investisiya qoyulmuş, bunun 8,3 mlrd, dolları xarici, 3,1 mlrd, dolları isə daxili investisiyalar olmuş, yəni xarici investisiyanının cəlb edilməsi 2,7 dəfə çox olmuşdur.2000-2014-cü illərdə isə Azərbaycan iqtisadiyyatının sahələrinə qoyulan ümumi investisiyaların tərkibində xarici investisiyaların xüsusi çəkisi 65 faiz təşkil etmişdir. Bununla yanaşı Respublika iqtisadiyyatının inkişafına yönəldilən daxili investisiyaların həcmi sürətlə artmış, yəni 2000-ci ildəki 460,3 milyon manatdan 2014-cü ildə 12715 milyon manata çatmış və ya 27,6 dəfə çox olmuşdur. Bunlar ilə yanaşı nəzərə almaq lazımdır ki, müstəqilliyin ilk ilində Ulu Öndər Azərbaycanın iqtisadi islahatlar aparılmasının ilk modelini Naxçıvan MR-da yaratmağa başlamış (burada xüsusi iləaqrar sahəsində) beləki, muxtar respublikanın blokadadan çıxarılması məqsədi ilə o, Türkiyə Respublikası və İran İslam Respublikası ilə iqtisadi əməkdaşlığın yaradılması və genişləndirilməsinə xüsusi əhəmiyyət verirdi.

Müstəqilliyin ilk dövründə qarşıda duran əsas vəzifə ölkəni düşdüyü böhranlı vəziyyətdən çıxarmaq, ölkə iqtisadiyyatının spesifik cəhətlərini (iqtisadiyyatda qeyri-müəyyənlik, işsizliyin, inflyasiyanın yüksək səviyyəsi və sair) nəzərə almaqla makroiqtisadi sabitliyi təmin etməklə milli iqtisadi inkişafın təmin edilməsindən ibarət idi. Bu vəzifənin reallaşdırılması isə milli iqtisadi inkişaf

konsepsiyası olmadan mümkün deyildi. Həmin dövrdən başlayaraq müstəqil Azərbaycan Respublikasının milli iqtisadi inkişafının əsaslarını Ümummilli lider Heydər Əliyev tərəfindən hazırlanan və ölkə iqtisadiyyatını düşdüyü böhranlı vəziyyətdən çıxara biləcək iqtisadi inkişaf strategiyası təşkil etmişdir. Beləki, bu inkişaf konsepsiyaHeydər Əliyevin müstəsna iqtisadi təfəkkürün məhsulu olub onun həyata keçirdiyi böyük həcmli və zəruri işlər əsasında formalaşmış, bütövlükdə milli iqtisadi inkişaf haqqında milli ictimai-iqtisadi fikirlərin və idealogiyaların formalaşmasının əsas meyarına çevrilmişdir. 2009-cu ilə qədər ölkəmizdə davam etmiş keçid dövrünün ilkin mərhələsində Heydər Əliyevin diqqətini cəlb edən mühüm məsələlərdən biri də keçid dövründə və perspektivdə milli iqtisadi inkişaf strategiyasının mahiyyəti necə olmalı, onun mərhələlərlə həyata keçirilməsi məsələləri və həyata keçmə mexanizminin işlənilməsi olmuşdur.

Beləliklə ölkənin iqtisadi inkişafının əsas makroiqtisadi göstəricilərinin dinamikası Ulu Öndər Heydər Əliyevin iqtisadi strategiyasının uğurla reallaşdırılmasının əyani nümunəsidir. Belə ki, 1993-cü ildə ölkədə ÜDM istehsalı 1326,9 milyon ABŞ dolları olduğu halda, 2003-cü ildə bu rəqəm 7276,0 milyon ABŞ dolları (bazar qiymətləri ilə) təşkil etmişdir. Müvafiq olaraq hər nəfərə düşən ÜDM 179,9 dollar və 896,8 dollar, UmumiMilli Gəlir 1995-ci ildə 2130,4 milyon manat, 2003-cü ildə 6712,3 milyon manat, xalis milli gəlir isə müvafiq illərdə 1830,3 milyon manat və 5926,4 milyon manat (faktiki qiymətlərlə) olmuşdur. Sənaye məhsulu istehsalı 1995-ci ildə 8855950 min manat, 2001-ci ildə 17252108 min manat (qüvvədə olan faktiki qiymətlərlə) təşkil etmişdir. Dövlət büdcəsinin gəlirləri 1993-cü ildə 53,6 milyard manat, xərcləri 64,8 milyard manat olduğu halda, həmin göstəricilər müvafiq olaraq 2001-ci ildə 392,4 milyard manat və 403,7 milyard manat (fəaliyyətdə olan faktiki qiymətlərlə) səviyyəsində olmuşdur. 1992-1995-ci illərdə kənd təsərrüfatında ümumi məhsul istehsalının həcmi ildə orta hesabla 12% aşağı düşdüyü halda, 1996-cı ildən başlayaraq yüksəlmiş və 2000-2003-cü illərdə uyğun olaraq 12 və 11 faiz artmışdır.

Onu da qeyd etmək lazımdır ki, hər bir iqtisadi inkişaf modeli müvafiq və məqsədyönlü iqtisadi strategiya və bu strategiya çərçivəsində həyata keçirilən çoxşaxəli iqtisadi islahatlar vasitəsilə reallaşdırılır. Azərbaycanda müstəqilliyin ilk dövrlərindən başlayaraq bazar iqtisadi sisteminin prinsipləri və mexanizmlərinin formalaşması məqsədilə həyata keçirilən iqtisadi islahatların əsasını iqtisadiyyatın yenidən qurulmasının, iqtisadi inkişafın sürətləndirilməsinin,sahibkarlığın stimullaşdırılmasının, səmərəli investisiya və innovasiya layihələrinin həyata keçirilməsinin mühüm və zəruri şərti kimi dəyərləndirən Ulu Öndərin müəllifi olduğu uğurlu neft strategiyası təşkil edirdi.

Bunlar ilə yanaşı keçid iqtisadiyyatının ilk illərində ölkəmizin maliyyə imkanlarının məhdudluğu şəraitindəxarici investisiyaların iqtisadiyyatın neft-qaz sektoruna cəlb edilməsi nəticəsində ölkənin maliyyə imkanları genişlənməyə başladı, inkişaf etmiş ölkələrin yeni texnika və texnologiyalarının, innovativ layihələrinin, mütərəqqi əmək vərdişlərinin, üsul və vasitələrinin, peşə və ixtisaslarının iqtisadiyyatımıza cəlb edilməsi Heydər Əliyevin neft strategiyasının əsas istiqamətlərinə daxildir.Ümumimilli lider Heydər Əliyevin iqtisadi inkişaf modelinin əsas cəhətlərindən biri də onun möhkəm elmi konseptual baza,mütərəqqi qanunvericilik əsasları üzərində formalaşmasıdır.Bu baxımdan Ulu öndərin bilavasitə tapşırıqları, qanunvericilik təşəbbüsləri və tövsiyələri əsasında müstəqil Azərbaycan dövlətinin iqtisadi əsaslarının möhkəmləndirilməsi, dövlət idarəetməsinin təkmilləşdirilməsi, iqtisadiyyatımızda bazar iqtisadi sisteminin əsaslarının yaradılması, ölkə əhalisinin sosial-iqtisadi rifahının və hüquqlarının təmin edilməsi ilə bağlı əksər qanunvericilik sənədləri və normativ-hüquq aktlar qəbul edilmiş, onların səmərəli işlək mexanizmi hazırlanmışdır.Heydər Əliyev tərəfindən əsası qoyulmuş milli iqtisadi inkişaf modeli fundamental prinsiplər üzərində qurulmuş və ölkənin malik olduğu zəngin resurslardan səmərəli istifadə edilməsi bazar iqtisadi sisteminin əsaslarının yaradılmasına, onun iqtisadi inkişafının sürətləndirilməsinə və Azərbaycanın dünya iqtisadi sisteminə səmərəli inteqrasiya edilməsinə, son nəticədə ölkənin iqtisadi,

siyasi, mənəvi, sosial inkişafına xidmət edən bu prinsiplərə, hər şeydən əvvəl aşağıdakılar aiddir: bazar iqtisadiyyatının qurulması ilə bağlı iqtisadi islahatların ardıcıl, mərhələli və sistemli şəkildə aparılması; iqtisadi islahatların möhkəm qanunvericilik bazasına əsaslanması; yeni milli iqtisadi inkişaf modelinin sosial yönümlülüyü, onun cəmiyyətin bütün üzvlərinin maraqlarına, mentalitetə və demokratik dəyərlərə uyğunluğu; ölkənin malik olduğu zəngin təbii, maddi, əmək resurslarından səmərəli istifadə edilməsi; iqtisadi cəhətdən müstəqil milli iqtisadiyyatın əlverişli investisiya, innovasiya və sahibkarlıq mühitinin yaradılması; iqtisadiyyatın qloballaşmanın, regionlaşmanın və milli maraqların əlaqələndirilməsi, ölkənin beynəlxalq iqtisadi, maliyyə-kredit, ticarət və digər iqtisadi təşkilatlarda iştirakının onun strateji və milli maraqlarına uyğunluğu və bu maraqlara xidmət etməsi və s.

Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan milli iqtisadi inkişaf strategiyası ölkə prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

M.A.Mammadov
doctor of Economic Sciences, professor,
Azerbaijan University of Architecture and Construction
ORCID 0000-0002-5327-2507

Heydar Aliyev's national economic development model is the basis of the country's economic independence

Abstract

The article analyzes the main principles of the national economic development model formulated by the national leader of the Republic of Azerbaijan Heydar Aliyev and the decisive role of this model in ensuring the country's economic independence. The study shows that the targeted economic reforms implemented during Heydar Aliyev's leadership, the correct definition of the oil strategy, the transition to a market economy and the concept of development based on national interests have created the basis for the sustainable economic development of Azerbaijan. The article also notes that the national economic model has allowed for the strengthening of economic stability, the improvement of social welfare and the integration of the country into the international economic system. Consequently, Heydar Aliyev's national economic development model is the basis for the preservation of Azerbaijan's economic independence and long-term development strategy.

Keywords: *economic model, independence, development, stability, achievements, economic heritage, integration.*

https://doi.org/10.58225/tim.2025-4-82-88

N.Ə.İsayev
"Əqli mülkiyyət" kafedrasının müdir müavini,
Azərbaycan Memarlıq və İnşaat Universiteti
isayevnatiq@mail.ru

Məqalə redaksiyaya daxil olub 30.11.2025
The article was received by editorial board on 30.11.2025
Статья принята к печати 30.11.2025

MEMARLIQ LAYİHƏLƏRİNİN TİKİNTİYƏ KÖÇÜRÜLMƏSİNİN TƏDQİQİ VƏ HÜQUQİ MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

Xülasə

Memarlıq layihəsi yaradıcılıq fəaliyyətinin məhsulu, eyni zamanda yüksək dərəcədə texniki normativlərlə bağlı sənəd xarakteri daşıyan və praktiki tətbiqi olan hüquq obyektidir. Ona görə də belə layihələrin tikintiyə köçürülməsi prosesinin hüquqi aspektləri kifayət qədər mürəkkəb və maraq doğuran mövzudur. Xüsusən layihənin tikintiyə köçürülmə mərhələsində düzgün hüquqi tənzimləmə müəllif hüquqlarının qorunması baxımından mühüm əhəmiyyətə malikdir. Digər tərəfdən, məsələyə dair nəzəri və elmi-praktik yanaşmalar da düşünürük ki, mütəxəssislər və geniş oxucu dairəsi üçün maraqlıdır.

Bu məqalədə memarlıq layihəsinin əqli mülkiyyət hüququ sistemində yeri və qorunmasının hüquqi əsasları, eləcə də memarlıq layihəsinin tikintiyə köçürülməsi mərhələsində layihə müəllifləri (hüquq sahibləri) və istifadəçilər arasında yaranan münasibətlərin hüquqi aspektləri araşdırılır. Eyni zamanda tikinti prosesində memarlıq layihəsinin müəllifinin hüquqlarının qorunması, memarlıq layihəsinə dəyişiklik edilməsi prosesinin tənzimlənməsi, layihənin tətbiqinə müəllif nəzarəti, hüquq pozuntularının qarşısının alınması və beynəlxalq təcrübə təhlil edilir.

Məqalədə həmçinin Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi və beynəlxalq qanunvericilik əsasında memarlıq layihəsinə müəllif hüquqlarının tanınması və qorunması, eləcə də memarlıq layihəsinin tətbiqi problemləri təhlil edilir, normativ tənzimləmə məsələlərinə toxunulur və tətbiqi prosesinin təkmilləşdirilməsi istiqamətində təkliflər irəli sürülür.

Məqalənin məqsədi memarlıq layihələrinin qanunvericiliklə müəyyən edilmiş hüquqi statusunun, müəllifin şəxsi (qeyri-əmlak) və əmlak (iqtisadi) hüquqlarının həcminin, həmçinin tikinti mərhələsində memarlıq layihələrinin müəllifləri, sifarişçiləri və tikinti şirkətləri arasında yaranan münasibətlərin tənzimlənməsində hüquqi mexanizmlərin göstərilməsidir.

Açar sözlər: *memarlıq layihəsi, memarlıq obyekti, memarlıq layihəsinin müəllifi, memarlıq layihəsinin sifarişçisi, xidməti vəzifəsini yerinə yetirmək qaydasında yaradılan memarlıq layihəsi, əqli mülkiyyət, müəlliflik hüququ, memarlıq layihəsinin tikintiyə köçürülməsi, hüquqi məsuliyyət, beynəlxalq təcrübə.*

GİRİŞ

Memarlıq layihələri yaradıcılıq fəaliyyətinin məhsulu, eyni zamanda ictimai, sosial və iqtisadi əhəmiyyətə malik mühüm praktiki əhəmiyyətli sənədlərin bir hissəsidir. Hər bir memarlıq layihəsi müəllifin yaradıcılıq fəaliyyətinin nəticəsi olaraq onun özünəməxsus üslubunu əks etdirir. "Memarlıq fəaliyyəti haqqında" Qanunu 1-ci maddəsində "memarlıq layihəsi - memarlıq obyektinin yaradıl-

masıüçün hazırlanan, memarlıq obyektinin həcm-məkan quruluşunu və bədii həllini müəyyənləşdirən ümumi layihə sənədlərinin (memarlıq obyekti layihəsinin) memarlıq hissəsi" kimi müəyyən edilmişdir. Elə bu Qanunda "memarlıq obyekti - binalar, tikililər və onların kompleksləri, interyerləri, memarlıq layihəsi əsasında yaradılan bağlar, parklar, kurortlar və digər istirahət yerləri, memarlıq abidələri, memarlıq sahəsində elmi tədqiqatların nəticələri, xatirə abidələri və onların kompleksləri" kimi təsnif edilmişdir. Memarlıq layihəsi və memarlıq obyekti anlayışlarının məzmununu Qanuna istinadla göstərməyimiz təsadüfi deyildir. Memarlıq layihəsi yaradıcılıq nəticəsi olaraq müəlliflik hüququnun obyektlərindən biridir. Lakn memarlıq layihəsinə yalnız müəlliflik hüququnun obyekti kimi baxmaq kifayət deyildir, belə layihələr dünyada aparılan nəhəng quruculuq və abadlıq işlərinin təməlində durur. Memarlıq layihələri olmasaydı, bu gün dünyanın ən böyük möcüzələri sayılan UNESCO-nun Dünya İrsi siyahısında olan İçərişəhər, İçərişəhər kompleksində yerləşən unikal Qız qalası, Tac Mahal kompleksi, Böyük Çin səddi, Sidney Opera Evi və yüzlərlə digər memarlıq-tarix abidələri də olmazdı. Deməli, memarlıq layihələri hüquqi əhəmiyyət daşıyan yaradıcılıq məhsulları, müəlliflik hüququ ilə qorunan əsərlər olmaqla yanaşı, yüksək bədii-estetik, texniki-funksional və tarixi mahiyyət daşıyan mədəniyyət nümunələridir. Hələ 1986-cı ilin oktyabr ayında ÜƏMT/UNESCO Hökumət Ekspertləri Komitəsi üçün hazırlanmış Hazırlıq Sənədi və Hesabatda xüsusi qeyd olunmuşdur ki, memarlıq əsərləri estetik, mədəni və iqtisadi baxımdan müəllif hüquqları ilə qorunan digər əsərlərlə eyni əhəmiyyətə malikdir[1].

Təcrübədən bəllidir ki, memarlıq layihəsinin tikintiyə köçürülməsi mərhələsi - memar və ya layihəçi tərəfindən yaradılan plan-layihə sənədləri əsasında real tikinti-quraşdırma işlərinin icrasına başlamaqdır. Bu mərhələdə onların funksional, texniki, təhlükəsizlik və şəhərsalma tələblərinə uyğunlaşdırılması zərurəti yaranır və bəzi hallarda bununla bağlı həyata keçirilən tədbirlər hüquqi mübahisələrə səbəb olur. Tədqiq edilən mövzunun aktuallığı ondadır ki, bu gün ölkəmizdə, xüsusən erməni faşizminin 30 illik işğalından azad edilmiş ərazilərimizdə Böyük Qayıdış Proqramı çərçivəsində genişmiqyaslı dinc quruculuq və abadlıq işləri görülür. Ermənilərin işğal dövründə vəhşi tayfalara xas tərzdə viran qoyduğu kənd, qəsəbə və şəhərlərimiz dirçəldilir. Bu prosesin vacib elementlərindən olan memarlıq layihələrinin mədəni, sosial və iqtisadi rolu getdikcə artır. Bu da əqli mülkiyyət hüququnun obyekti olan bu layihələrin istifadəsi ilə bağlı məsələlərin hüquqi tənzimlənməsini vacib vəzifə kimi qarşıya qoyur. Təcrübə göstərir ki, memarlıq layyihələrinin yüksək səviyyədə qorunması müəllifin maraqları ilə yanaşı, həm də mədəni irsin qorunmasını və keyfiyyətli tikinti mühitinin formalaşmasını təmin edir.

TƏHLİL

Bu konteksdə memarlıq layihələrinin hüquqi statusunun, layihə müəliflərinin hüquqlarının məzmununun təhlil edilməsi, layihələrin tikintiyə köçürülməsi zamanı yaranan hüquqi münasibətlərin və məsuliyyət mexanizmlərinin göstərilməsi, həmçinin memarlıq layihələri ilə bağlı milli və beynəlxalq qanunvericilik normaları barədə məlumat verilməsi vacibdir.

Əqli mülkiyyət. Əqli mülkiyyət hüquqları sistemində memarlıq layihələrinin hüquqi statusu. Əqli mülkiyyət hüququ yaradıcılıq fəaliyyəti nəticəsində yaranan qeyri-maddi dəyərlərin tanınması və qorunmasını təmin edən, həmçinin bu obyektlərin istifadəsi ilə bağlı məsələləri tənzimləyən hüquq institutudur. Əqli mülkiyyət hüququnun məqsədi yalnız yaradıcılıq məhsulunu qorumaq deyil, həm də yaradıcılıq fəaliyyətinin cəmiyyətin inkişafındakı rolunu göstərmək, eyni zamanda səmərəli qorunması ilə yaradıcılıq fəaliyyətini stimullaşdırmaqdır. Bu gün Azərbaycan əqli mülkiyyət sahəsində MDB və Şərqi Avropa məkanında ən zəngin və təkmil qanunvericilik və idarə-

[1]https://www.wipo.int/edocs/pubdocs/en/copyright/120/wipo_pub_120_1986_12.pdf

çilik sisteminə malik olan ölkələrdən biridir. Əqli mülkyyət hüquqlarının qorunması Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunmuşdur. Konstitusiyamızın 30-cu maddəsinə əsasən, "Hər kəsin əqli mülkiyyət hüququ vardır. Müəlliflik hüququ, ixtiraçılıq hüququ və əqli mülkiyyət hüququnun başqa növləri qanunla qorunur".

Əqli mülkiyyət hüquqları sisteminin təhlili göstərir ki, bu hüquqlar sistemində memarlıq layihələri mühüm yer tutur və bu layihələr onların qorunması ilə bağlı normalar bir sıra qanunvericilik aktlarında öz əksini tapmışdır. "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanunun 3-cü maddəsinə əsasən, bu Qanunun müddəaları Azərbaycan Respublikası ərazisində olan bütün əsərlərə, o cümlədən memarlıq əsərlərinə şamil edilir. 6-cı maddə memarlıq, şəhərsalma və bağ-park sənəti əsərlərini müəlliflik hüququnun obyektləri sırasına daxil etmişdir. 15-ci maddəyə görə, "memarlıq, şəhərsalma və bağ-park layihələrindən istifadə üzrə müstəsna hüquqlara həm də belə layihələrdən praktik istifadə etmə halları daxildir. Qəbul edilmiş arxitektura layihəsinin müəllifinin, müqavilədə başqa hal nəzərdə tutulmadıqda, sifarişçidən öz layihəsinin tikinti üçün sənədlərinin hazırlanmasında və binanın tikintisində (tikilidə) iştirakını tələb etmək hüququ vardır"[2].

Memarlıq layihələrinə aid normalar "Memarlıq fəaliyyəti haqqında" Qanunda da öz əksini tapmışdır. Qnunun 8-ci maddəsində memarlıq layihəsi müəllifinin həmin layihədən istifadə ilə bağlı bir sıra müstəsna hüquqları müəyyən edilmişdir. Bu hüquqlar məzmununa görə "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanunla müəlliflər üçün müəyyən edilmiş əmlak (iqtisadi) hüquqlarını mahiyətcə təkrarlayır. Həmin hüquqlar memarlıq layihəsinin müəllifinə layihəni həyata keçirmək, onun əsasında tikinti üçün tərtib olunmuş sənədlərdə düzəliş edilməsinə icazə vermək, memarlıq obyektinin təsvirini nəşr etmək, yaymaq və nümayiş etdirmək hüququ verir.

"Memarlıq fəaliyyəti haqqında" Qanunda memarlıq fəaliyyəti ilə məşğul olan şəxslər üçün bir neçə vacib öhdəlik də müəyyən edilmişdir. 11-ci maddəyə əsasən, "Memarlıq fəaliyyəti ilə məşğul olan şəxslər memarlıq fəaliyyəti sahəsində Azərbaycan Respublikasının qanunvericiliyinə, layihələşdirmə və tikinti sahəsində dövlət standartlarına, tikinti və ekoloji norma və qaydalara, şəhərsalma normativinə və şəhərsalma fəaliyyətinin həyata keçirilməsi qaydalarına, şəhər və digər yaşayış məntəqələrinin tikinti qaydalarına, memarlıq-planlaşdırma tapşırığının tələblərinə riayət etməlidirlər"[3].

Elmi və tarixi dəyərə malik memarlıq abidələrinin (əsərlərinin) qorunması haqqında müddəalar eyni zamanda "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Qanunda öz da əksini tapmışdır[4].

Memarlıq layihələrinə münasibətdə istinad etdiyimiz milli qanunvericilik normalarımızın müqayisəli təhlili göstərir ki, həmin normalar beynəlxalq qanunvericiliklərdə müəyyən edilmiş normalara tamamilə uyğundur. Burada qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası müəlliflik hüququ sahəsində fəal beynəlxalq əməkdaşlıq edir. Ölkəmiz 1995-ci ildə Ümumdünya Əqli Mülkiyyət Təşkilatını (ÜƏMT) təsis edən 1967-ci il Konvensiyasına qoşulmuşdur. Bununla yanaşı, Azərbaycan Respublikası 1999-cu ildən "Ədəbi və bədii əsərlərin qorunması haqqında" Bern Konvensiyasına, 2006-cı ildən isə ÜƏMT-nin Müəlliflik hüququna dair Müqaviləsində iştirak edir. Müəlliflik hüququ sahəsində əməkdaşlıq eyni zamanda həm regional, həm də ikitərəfli beynəlxalq müqavilələr çərçivəsində həyata keçirilir. Dövlətimizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrin qanunvericiliyin tərkib hissəsi kimi qəbul edilməsi Azərbaycan Respublikasının Konstitusiyasının 148-ci maddəsindən irəli gəlir: "Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr

[2]"Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanunu. 1996
[3] "Memarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu. 1998
[4] K.İmanov, N.İsayev. Əqli mülkiyyət. I hissə, Bakı - 2023

Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir"[5]. Bu norma bütün sahələrdə, o cümlədən əqli mülkiyyət sahəsində ölkəmizin beynəlxalq əməkdaşlıq çərçivəsində mövcud öhdəliklərinin yerinə yetirilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

Memarlıq layihələrinin tikintiyə köçürülməsi mərhələsində hüquqi münasibətlərin tənzimlənməsi. Araşdırmalar göstərir ki, beynəlxalq səviyyədə "layihənin tikintiyə köçürülməsi" və tikintinin icrası sahəsində bütün ölkələr üçün vahid qaydaları müəyyən edən universal norma yoxdur. Səbəbi də onunla bağlıdır ki, tikinti texniki, memarlıq, urbanistik, coğrafi, iqlim, torpaq tipi, mədəni kontekst və s. kimi çoxsaylı amillərdən asılı prosesdir. Bu baxımdan hər bir ölkə bu prosesi öz milli qanunvericilik normaları ilə tənzimləyir.

Artıq qeyd etdiyimiz kimi, memarlıq layihələrinin yaradılması, təsdiqi və tikintidə tətbiqi ilə bağlı məsələlər "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanun, "Memarlıq fəaliyyəti haqqında" Qanun (1998), Şəhərsalma və Tikinti Məcəlləsi (2012) və digər aidiyyəti qanunlarla tənzimlənir. Təcrübədən bəllidir ki, memarlıq layihəsinin yaradılması və yarandığı andan müəlliflik hüququnun obyektinə çevrilməsi, sonrakı mərhələdə tikintiyə köçürülməsi prosesləri bir sıra hüquqi münasibətlərin tənzimlənməsini zəruri edir: müəllif və sifarişçi arasında hüquq və öhdəliklərin müqavilə əsasında müəyyən edilməsi; layihə sənədlərinin ekspertizası və razılaşdırılması qaydaları; layihənin tikintiyə köçürülməsi mərhələsində layihəyə dəyişiklik edilməsi və s.

Qanunvericilik aktlarında memarlıq layihələrinin əqli mülkiyyət hüququ çərçivəsində qorunması əksini tapsa da, praktikada layihə sənədlərinin sifarişçiyə verilməsi mərhələsində müəllifin əmlak hüquqlarının hansı həddə keçməsi, layihədə dəyişiklik etmək hüququnun kimə məxsus olması kimi məsələlər müqavilə ilə razılaşdırılmadıqda çətinliklər yaranır. Digər tərəfdən, memarlıq layihəsinin tikintiyə köçürülməsi prosesi hüquqi baxımdan həmin layihənin tikiləcək real obyektə tətbiqi olduğu üçün bu mərhələ həm hüquqi, həm də texniki çərçivədə tikinti qaydalarının tələbləri nəzərə alınmaqla tənzimlənməlidir. Bununla bağlı müqavilədə bir neçə vacib məsələ, o cümlədən müəllif – sifarişçi münasibətləri, sifarişçi – tikinti şirkəti münasibətləri, müəllif – tikinti şirkəti münasibətləri (müqavilə ilə müəyyən olunarsa), müəllif hüquqlarının qorunması və tikintiyə müəllif nəzarəti öz hüquqi həllini tapmalıdır.

Müəllif - sifarişçi münasibətlərinin tənzimlənməsi memarlıq layihəsinin istifadəsinin başlanğıc mərhələsi olaraq vacib prosesdir. Qanunvericiliklə müəyyən edilmiş məzmununa görə, "sifarişçi - tikinti obyektlərinin tikintisini (inşasını, cari və əsaslı təmirini, yenidən qurulmasını, bərpasını) və ya sökülməsini, mühəndis-axtarış işlərinin yerinə yetirilməsini və tikinti obyektlərinin layihələndirilməsini sifariş edən dövlət orqanları, bələdiyyələr, eləcə də hüquqi və ya fiziki şəxslər"dir. Yəni nəzərdə tutulan tikinti obyektinin reallaşmasında mühüm tərəfdir. Buna görə də memarlıq layihəsinin sonrakı istifadəsi ilə bağlı bir sıra məsələlər sifarişçi ilə bağlanacaq müqavilənin məzmunundan çox asılıdır.

Müəllif – sifarişçi münasibətlərində tənzimlənməli vacib məsələlərdən biri layihənin hüquq sahibliyi ilə bağlıdır. Bir halda müəllif, özünün və ya sifarişçinin ideyası əsasında müstəqil qaydada öz memarlıq layihəsini hazırlayır və onu sifarişçiyə təqdim edir. Bu halda müəllif həmin layihənin həm müəllifi, həm də hüquq sahibi kimi çıxış edir. Digər halda müəllif memarlıq layihəsini xidməti vəzifəsini, yaxud işəgötürənin xidməti tapşırığını yerinə yetirmək qaydasında yaradır. Belə layihə (əsər) faktiki olaraq xidməti əsər statusuna malik olur. Həmin əsərə müəlliflik hüququ (şəxsi (qeyri-əmlak) hüququ mənasında) xidməti əsərin müəllifinə, əsərdən istifadəyə müstəsna hüquq isə, aralarındakı müqavilədə başqa hal nəzərdə tutulmazsa, müəllifin əmək münasibətlərində olduğu şəxsə (işəgötürənə) məxsus olur.

[5] Azərbaycan Respublikasının Konstitusiyası, 1995

Memarlıq layihəsinin istifadəsi üçün bağlanan müqaviləyə dair tələblər. Memarlıq layihəsinin (əsərin) istifadəsi üçün bağlanmış müqavilənin düzgün tərtib edilməsi həmin layihənin sonrakı istifadəsində və hüquqların qorunmasında mühüm əhəmiyyət kəsb edir. Qanunvericilikdə əsərin istifadəsinə dair müəllif müqaviləsində aşağıdakıların müəyyən olunması tövsiyə edilir: "əsərdən istifadə üsulları (belə müqavilə üzrə verilən konkret hüquqlar); hüquqların verildiyi müddət və ərazi; qonoraın məbləğlərinin və (və ya) əsərdən istifadənin hər növünə görə qonoraın məbləğlərinin müəyyən edilməsi qaydaları; ödəniş qaydaları və müddəti, həmçinin tərəflərin mühüm hesab etdikləri digər şərtlər"[6]. Digər şərtlər sırasında müqavilə üzrə verilən hüquqların həcmi (layihədən neçə dəfə və ya neçə obyektin tikintisində istifadə olunacaq), layihədə dəyişiklik edilməsi və onun uyğunlaşdırılması qaydaları; layihənin üçüncü şəxslərə ötürülməsi və tərəflərin mühüm hesab etdikləri digər hüquq və öhdəliklər nəzərdə tutulur.

Müqavilələrlə bağlı bir neçə vacib məqamı da qeyd etmək lazımdır. Müqavilədə əsərdən istifadənin üsulları göstərilmədikdə (müqavilə üzrə verilən konkret hüquqlar) tərəflər müqaviləni vacib hesab etdikləri istifadə üsuluna görə bağlanmış hesab edə bilərlər. Müqavilədə istifadənin müddəti də göstərilməlidir, göstərilmədiyi halda müqavilə yalnız 5 ildən sonra müəllif tərəfindən ləğv edilə bilər, lakin istifadəçi bu barədə ən azı 6 ay əvvəldən yazılı xəbərdar edilməlidir. Ərazi haqqında şərt də müqavilənin vacib elementlərindəndir. Bu barədə öhdəlik müqaviləyə daxil edilməzsə, müqavilənin qüvvəsi Azərbaycan Respublikasının ərazisi ilə məhdudlaşdırılır.

Bir vacib məqam da nəzərə alınmalıdır ki, mövcud qanunvericiliyə görə, əsərdən (memarlıq layihəsindən) istifadə ilə bağlı müəllif müqaviləsi yalnız yazılı şəkildə tərtib olunduqdan və tərəflər onu imzaladıqdan sonra hüquqi qüvvəyə malik olur və müəllif hüquqlarının qorunmasında vacib rol oynayır.

Layihədən tikintiyə keçid: hüquqi transformasiya. Bəllidir ki, tikinti prosesi memarlıq layihəsinin hüquqi taleyini dəyişdirən əsas mərhələdir. Layihə əsasında binanın tikilməsi müəlliflik hüququ baxımından "əsərin nəşri" hesab olunmasa da, hüquqların tənzimlənməsi baxımından vacib əhəmiyyət daşıyır. Bəzi hallarda layihənin tikintiyə köçürülməsi prosesində layihədə dəyişiklik edilməsi lazım gəlir və bu, müəllif hüquqlarının pozulması risklərini yaradır. Təbii ki, dövlət nəzarəti və ekspertiza qaydasında layihə sənədlərinin tikinti normativlərinə uyğunluğunun texniki və hüquqi baxımdan qiymətləndirilməsi zamanı memarın yaradıcılıq azadlığını məhdudlaşdıran tikinti normaları, təhlükəsizlik tələbləri kimi müəyyən funksional və tənzimləyici qaydalar tətbiq edilə bilər. Lakin belə hallarda memarlıq layihəsinə dəyişiklik edilməsi layihənin qorunması üçün tələb olunan orijinallıq səviyyəsinə təsir göstərdiyi üçün yalnız müəllifin razılığı və iştirakı ilə həyata keçirilə bilər. Daha doğrusu, hüquqi qiymətləndirmə sırf vizual təhlilə yox, memarın şəxsi yaradıcılıq seçiminə əsaslanmalıdır[7].

Bir sıra mütəxəssis yanaşmalarında qeyd olunur ki, tikintidə tətbiq olunan layihədə düzəlişlər etmək lazım gələrsə, müəllif iqtisadi hüquqları çərçivəsində "dəyişiklik etməyə" görə əlavə ödəniş tələb edə bilər. Lakin bu məsələ hələlik qanunvericilik səviyyəsində tənzimlənmir. Bunlar daha çox maraqlı tərəflər arasında qarşılıqlı razılaşmalar əsasında həll edilə bilər.

Memarlıq layihəsinin tikintiyə köçürülməsinə müəllifin nəzarət hüququ. Azərbaycan Respublikasının müəllif-hüquq qanunvericiliyində "müəllif nəzarəti" anlayışı birbaşa göstərilməsə də, digər qanunvericilik aktlarında, o cümlədən "Şəhərsalma və tikinti Məcəlləsi"ndə geniş əksini tapmışdır və bununla memarın layihənin həyata keçirilməsinə nəzarət hüququnun qanunvericilik sə-

[6] "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanunu
[7]https://www.researchgate.net/publication/293030319_Architectural_Copyright_Potentialities_and_Limitations_with_a_Special_Reference_to_Egypt;

viyyəsində tanınması təsbit edilmişdir[8]. Müəllif nəzarətinin "Şəhərsalma və tikinti Məcəlləsi"ndə əksini tapmış hüquqi əsaslarından bir neçəsini cədvəl formasında qeyd edirik:

47-ci maddəyə əsasən:	Sifarişçi "tikintiyə texniki və müəllif nəzarətinin həyata keçirilməsini təmin edir"
48-ci maddəyə əsasən:	Layihəçi (müəllif) "tikintinin və tikinti-quraşdırma işlərinin layihəyə uyğun aparılmasına müəllif nəzarətini həyata keçirir, aşkar edilmiş qüsurlar və pozuntular barədə sifarişçiyə və podratçıya məlumat verir". Sifarişçi və ya podratçı tərəfindən həmin qüsurlar və pozuntular qısa müddətdə aradan qaldırılmadıqda müəllif bu barədə müvafiq qurumlara məlumat verir. Layihəçi eyni zamanda "tikinti obyektinin istismara verilməsində iştirak edir".
49-cu maddəyə əsasən:	Podratçı "dövlət nəzarətinin, texniki nəzarətin və müəllif nəzarətinin həyata keçirilməsi zamanı tikintidə aşkar olunmuş qüsurları və pozuntuları aradan qaldırır".
96-cı maddəyə əsasən:	"Tikintiyə nəzarətin aşağıdakı növləri vardır: dövlət nəzarəti; texniki nəzarət; müəllif nəzarəti; daxili əməliyyat nəzarəti".
99-cu maddəyə əsasən:	"Tikintiyə müəllif nəzarəti zamanı obyektin tikintisinin təsdiq edilmiş layihəyə uyğun aparılması yoxlanılır. Tikintiyə müəllif nəzarəti sifarişçi ilə layihəçi arasında bağlanmış müqaviləyə uyğun olaraq layihəçi tərəfindən həyata keçirilir".

Azərbaycan qanunvericiliyinin memarlıq fəaliyyəti üçün yaratdığı imkanlar. Beləliklə, milli qanunvericilik normalarının təhlili nəticəsində memalıq fəaliyyətinə və layihələrə münasibətdə bir sıra vacib məqamlar müəyyən edilmişdir: memarlıq layihəsi müəlliflik hüququ ilə qorunan əsər statusuna malikdir, memarlıq layihəsinə müəllif hüquqları layihənin yarandığı andan yaranır və qorunur; memarın əmlak (iqtisadi) hüquqları müəllifin həyatı boyu və qanunvericilikdə müəyyən edilmiş hallar istisna olmaqla, onun ölümündən sonra 70 il müddətində qüvvədə qalır; memarlıq layihəsinə şəxsi (qeyri-əmlak) hüquqları tanınır və müddətsiz qorunur; memarlıq layihəsindən istifadənin hüquqi çərçivəsi müəyyən edilib. Şəxsi (qeyri-əmlak) hüquqları əsərin müəllifi kimi tanınmaq hüququ (müəlliflik hüququ), ad hüququ, şöhrətinə hörmət edilməsi hüququ və açıqlama hüququnu nəzərdə tutur. Memarlıq layihəsinin müəlliflərinin əmlak hüquqları layihənin praktik istifadəsi, surətçıxarılması, yayılması, nümayişi, icarəyə verilməsi və kommersiya tətbiqi hüquqlarını əhatə edir. Bu hüquqlar memara layihədən gəlir əldə etmək imkanı verir. Bunlar müəllif hüquqlarının effektiv qorunması və layihələrin səmərəli istifadəsi üçün vacibdir.

NƏTİCƏ

Azərbaycan Respublikasının qanunvericiliyi memarlıq layihələrinin səmərəli istifadəsinə və memarların hüquqlarının yüksək səviyyədə qorunmasına əlverişli hüquqi məkan yaratmışdır və bu sahədə qanunvericilik normaları ən yüksək beynəlxalq standartlara uyğundur.

İstifadə edilmiş ədəbiyyat:

1. AR-nın "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanunu, 1996.
2. Azərbaycan Respublikasının Mülki Məcəlləsi, 1999.

[8]Azərbaycan Respublikasının "Şəhərsalma və tikinti Məcəlləsi" (2012)

3. Azərbaycan Respublikasının "Memarlıq fəaliyyəti haqqında" Qanunu, 2002.
4. Azərbaycan Respublikasının Şəhərsalma və tikinti Məcəlləsi, 2012.
5. Kamran İmanov. (2018). "Əqli mülkiyyət iqtisadi kateqoriya kimi və onun iqtisadi inkişafdakı rolu". Bakı.
6. Ədəbi və bədii əsərlərin qorunması haqqında Bern Konvensiyası, ÜƏMT, 1886.
7. TRIPS Sazişi, Ümumdünya Ticarət Təşkilatı, 1994.
8. World Intellectual Property Organization (WIPO), Recommendations, 2020.
9. Avropa Birliyi, Hüquqi Təcrübəsi: Memarlıq layihələrinin qorunması, 2018.

N.A.Isayev
Deputy Head of the Department of "Intellectual Property"
Azerbaijan University of Architecture and Construction

Legal aspects of architectural designs in intellectual property law and the process of transferring architectural designs to construction

Abstract

Architectural designs, as both products of creative activity and documents with a high degree of technical regulatory relevance, constitute a complex and compelling subject within the framework of intellectual property law. In particular, proper proper legal regulation during the stage at which architectural designs are transferred into construction plays a significant role in ensuring the protection of authors` rights. Moreover, we believe that theoretical and scientific-practical approaches to this issue are likewise of significant interest to both specialists and a broader readership.

This article examines the place of architectural designs within the system of intellectual property rights and the legal basis for their protection, as well as the legal aspects of the relationships that arise between design authors (right holders) and users during the stage in which such designs are transferred into construction. It further examines the protection of the author's rights throughout the construction process, the regulation of amendments made to architectural designs, the author's supervision over the implementation of the design, the prevention of legal infringements, and relevant international practice.

The article also analyzes the recognition and protection of copyright in architectural designs based on the relevant legislation of the Republic of Azerbaijan and international legal frameworks. Additionally, it addresses practical issues associated with the implementation of architectural designs, touches upon matters of normative regulation, and offers recommendations aimed at improving the implementation process.

The purpose of the article is to elucidate the legal status of architectural designs as determined by legislation, the author's personal (non-property) and economic (property) rights, and the legal mechanisms governing the relationships that arise among authors of architectural designs, clients, and construction companies during the construction stage.

Keywords: *architectural design, architectural object, author of an architectural design, client of an architectural design, architectural design created in the course of fulfilling official duties, intellectual property, copyright, transfer of an architectural design into construction, legal liability, international practice.*

https://doi.org/10.58225/tim.2025-4-89-94

S.A.Fərzəliyev
t.ü.f.d., professor,
Azərbaycan Memarlıq və İnşaat Universiteti
ORCID 0000-0002-9241-4424
sferzeli@gmail.com

Məqalə redaksiyaya daxil olub 20.11.2025
The article was received by editorial board on 20.11.2025
Статья принята к печати 20.11.2025

TİKİNTİ MƏHSULLARININ KEYFİYYƏTİNİN İDARƏ OLUNMASINDA SİSTEMLİ YANAŞMA

Xülasə

Tikinti məhsulunun keyfiyyətinin idarə edilməsi bir çox problemlərlə üzləşən qarşılıqlı əlaqəli proseslərlə səciyyələnir. Belə problemlərin çoxunun həlli tikinti istehsalatı məhsulunun keyfiyyətinin qiymətləndirilməsinin nəzəriyyə və praktikasının, tikinti-quraşdırma işlərinin ayrı-ayrı növlərinin istehsalatı proseslərinin, istismarın, saxlanmanın, daşınmanın, satışın, keyfiyyətin idaredilməsi sistemlərinin və tikinti istehsalatının digər proseslərinin təkmilləşdirilməsindən keçir. Bu zaman keyfiyyətin idarə edilməsi keyfiyyət sahəsində siyasətin hazırlanması üzrə ümumi rəhbərliyin, məqəsdlərin, səlahiyyətlərin və məsuliyyətlərin müəyyənləşdirilməsinin bütün funksiyaları, həmçinin keyfiyyətin planlaşdırılması, nəzarəti və təminatı proseslərindən çox məsələnin həlli asılı olur.

Açar sözlər: *keyfiyyətinin idarə edilməsi, tikinti məhsulu, sistemli yanaşma, keyfiyyətin qiymətləndirilməsi, keyfiyyət səviyyəsi, rəqabət qabiliyyəti, kvalimetriya.*

Elmi-texniki tərəqqinin sürətlənməsi və bazar münasibətlərinin dərinləşməsi tikinti sahəsində keyfiyyətin idarə edilməsinə olan tələbləri əsaslı şəkildə artırmışdır. Müasir dövrdə tikinti məhsullarının rəqabət qabiliyyəti yalnız iqtisadi göstəricilərlə deyil, eyni zamanda onların keyfiyyət səviyyəsi, təhlükəsizliyi, etibarlılığı və istismar xüsusiyyətləri ilə müəyyən olunur.

Keyfiyyət anlayışı məhsulun istehlakçı tələblərinə uyğunluğunu ifadə edən kompleks göstəricilər məcmusudur. Beynəlxalq standartlara əsasən, keyfiyyət məhsulun müəyyən olunmuş və gözlənilən tələbatları ödəmək qabiliyyətini xarakterizə edən xüsusiyyətlər toplusudur. Tikinti məhsulunun keyfiyyəti onun həyat tsiklinin bütün mərhələlərində – layihələndirmə, istehsal, tikinti-quraşdırma, istismar və xidmət dövrlərində formalaşır [3].

Keyfiyyətin idarə edilməsi sistemi məhsulun optimal keyfiyyət səviyyəsinə nail olmaq və onu qoruyub saxlamaq məqsədilə planlaşdırılmış, məqsədyönlü və fasiləsiz idarəetmə təsirlərinin məcmusudur. Bu sistem istehsalatın ümumi idarə edilməsinin ayrılmaz hissəsi olmaqla, strateji məqsədlərin reallaşdırılmasına xidmət edir. Məhsulun keyfiyyətinin formalaşmasında layihələndirmə mərhələsi həlledici rol oynayır. Məhz bu mərhələdə texniki-iqtisadi əsaslandırmalar hazırlanır, konstruktiv və texnoloji həllər müəyyən edilir, keyfiyyət göstəricilərinin normativ səviyyəsi təyin olunur. Sonrakı mərhələlərdə isə həmin göstəricilərin qorunması və sabitliyinin təmin edilməsi əsas vəzifə kimi qarşıya qoyulur. Keyfiyyətin qiymətləndirilməsi və idarə edilməsi prosesində kvalimetriya mühüm elmi-metodoloji baza rolunu oynayır. Kvalimetriya məhsulun keyfiyyət göstə-

ricilərinin ölçülməsi, müqayisəsi və kəmiyyət ifadəsində qiymətləndirilməsini təmin edir. Bu yanaşma keyfiyyətə təsir edən amillərin prioritetləşdirilməsinə və optimal idarəetmə qərarlarının qəbuluna imkan yaradır. Keyfiyyətin idarə edilməsi sistemi obyekt, subyekt, məqsədlər, metodlar, funksiyalar və prinsiplər kimi qarşılıqlı əlaqəli elementlərə əsaslanır. Sistem çərçivəsində keyfiyyətin planlaşdırılması, təminatı, nəzarəti və stimullaşdırılması funksiyaları həyata keçirilir. Eyni zamanda, kadr potensialının inkişafı, maddi-texniki təminatın yaxşılaşdırılması və informasiya axınlarının səmərəli təşkili mühüm əhəmiyyət kəsb edir.

Nəticə etibarilə, tikinti sahəsində keyfiyyətin idarə edilməsi sisteminin təkmilləşdirilməsi məhsulun rəqabət qabiliyyətinin yüksəldilməsinə, istehlakçı məmnunluğunun təmin olunmasına və ümumi iqtisadi səmərəliliyin artırılmasına xidmət edən aktual elmi-texniki problem kimi çıxış edir.

Məhsulun keyfiyyətinin formalaşması onun layihələndirilməsi mərhələsində başlayır. Belə ki, tədqiqat fazasında texniki və iqtisadi prinsiplər işlənib hazırlanır, funsksional modellər yaradılır. Bundan sonra istehsalat sənədlərinın əsası və təcrübi nümunə yaradılır. Konstruktiv-texnoloji işlər mərhələsində məmulatın istehsalatda tətbiqi hazırlanır [1].

Qeyd edildiyi kimi, işin keyfiyyəti bilavasitə firmanın fəaliyyətinin təmin edilməsi ilə bağlıdır. Bu rəhbərlik və idrəetmənin, yəni planlaşdırma, təhlil və nəzarətin keyfiyyətidir. Qarşıya qoyulmuş məqəsədlərə və firmanın keyfiyyətinə nail olunması strategiyanın və planlar sisteminin işlənib hazırlanmasından asılıdır.

İstehsalçı və istehlakçı tərəfindən keyfiyyət anlayışı qarşılıqlı əlaqəlidir. İstehsalçı məhsulun isteklakının bütün dövrü ərzində keyfiyyətə diqqət göstərməlidir. Bundan başqa, o, satışdan sonrakı lazımi xidməti təmin etməlidir.

Məhsulun istehlakçıların tələblərinə uyğunluğu baxımından keyfiyyət anlayışı məhz bazar iqtisadiyyatı şəraitində yaranmışdır. Məhsulun keyfiyyətinin müəyyənləşdirilməsinə olan belə yanaşmanın gerçəkləşdirilməsi üçün kvalimetriya elminin xüsusi sahəsi işlənib hazırlanmışdır. Kvalimetriya keyfiyyət göstəricilərinin ölçülməsi və təsniflənməsinin üsulları barədə elmdir. Kvalimetriya malın keyfiyyət səciyyələri kəmiyyət qiymətləndirilməsinə imkan verir. Kvalimetriya ona əsaslanır ki, keyfiyyət baxılan məhsulun səciyyələrinin böyük miqdarından asılıdır. Məhsulun keyfiyyəti barədə fikir irəli sürmək üçün yalnız onun xassələri barədə göstəricilər kifayət deyil. Həm də məhsulun istifadə edildiyi şərait də nəzərə alınmalıdır. əgər istehlakçı onları əhəmiyyətliliyi baxımından qruplaşdıra bilərsə, keyfiyyət rəqəmli qiymətlərlə ifadə edilə bilər, yəni keyfiyyət ölçülə biləndir və bunun nəticəsi kimi məhsulun ona olan tələblərə uyğunsuzluğu adətən pul olan hansısa bir daimi ölçü ilə ifadə edilə bilər [4,7].

Eyni zamanda keyfiyyət istehsalçı və istehlakçı mövqeyindən tədric olunaraq nəzərdən keçirilə bilməz. Keyfiyyətin texniki şərtlərdə (KTŞ) yazılmış texniki-istismar, istismar və digər parametrlərinin təminatı olmadan məhsulun sertifikatlaşması həayata keçirilə bilməz.

Keyfiyyətin qiymətləndirilməsi üçün vacib müxtəlif fiziki xassələr istehlak dəyərində yığılmışdır. Keyfiyyətin qiymətləndirilməsi üçün mühüm xassələr bunlardır: məhsulda elmi-texniki nailiyyətlərin materiallaşmasını əks etdirən texniki səviyyə; estetik hiss və nöqteyi nəzər ilə bağlı xassələr kompleksi ilə səciyyələnən estetik səviyyə; məhsulun istifadəsinin texniki tərəfi ilə bağlı istismar səviyyəsi; məmulatın istismarında fərz edilən və faktiki istehlak xassələrinin həmahəng bağlılığını nəzərdə tutan texniki keyfiyyət. Məhsulun keyfiyyətinin idarə edilməsi sistemi idarəetmənin aşağıdakı qarşılıqlı əlaqəli kateqoriyalarına söykənir: obyekt, məqsədlər, amillər, subyekt, metodlar, funksiyalar, vasitələr, prinsiplər, növ, meyarlar tipi və s.

Məhsulun keyfiyyətinin idarə edilməsi kimi optimal keyfiyyətə malik məhsulun yaradılması və onun tam istifadəsini təmin edən amil və şəraitlərə bütün səviyyələrdə daimi, planlaşdırılmış, məqəsədə yönəlmiş təsir prosesi başa düşülür. Keyfiyyətin idarə edilməsi istehsalda və istehlak zama-

nı keyfiyyətin formalaşması prosesinə düzəldici təsir kimi nəzərdən keçirilir. Keyfiyyətin idarə edilməsi istehsalatın ümumi idarə edilməsinin orqanik hissəsi və məqəsdlər qollarından biridir [6].

Buradan belə çıxır ki, məhsulun keyfiyyətinin səviyyəsi təyin olunmalı, təmin edilməli və qorunub saxlanılmalıdır. Bu o deməkdir ki, keyfiyyətin idarə edilməsi həyat tsiklinin bütün mərhələlərinin tənzimlənməsinə yönəlib və aşağıdakıları nəzərdə tutur: istehsalatın texniki hazırlılığı; giriş nəzarəti; məhsulun hazırlanması prosesi; əməyin təşkili, həvəsləndirilməsi və ödənişi; qeydiyyat və maliyyə fəaliyyəti; iş və məhsulların keyfiyyətinə nəzarət; istismarda satışdan sonra xidmət. Keyfiyyətin idarə edilməsinin əsas vəzifələri bunlardır: satış bazarının tədqiqi; tədqiqat, layihələndirmə və istehsalat proseslərinə təsir metod və vasitələrinin işlənib hazırlanması; məhsulun keyfiyyəti barədə məlumatların toplanması, təhlili, saxlanması. Məhsulun keyfiyyətinin idarə edilməsi prosesi aşağıdakı əməliyyatlardan ibarətdir: məhsulun keyfiyyətinin idarə edilməsi, planlaşdırılması və yüksəldilməsi proqramının işlənib hazırlanması; keyfiyyətə təsir edən istənilən obyekt barədə məlumatların toplanması və təhlili; keyfiyyətin idarə edilməsi üzrə idarəedici həllərin hazırlanması və obyektə təsirlərin hazırlanması; idarəedici həllərin verilməsi; idarəedici təsirlərin səbəb olduğu obyektin keyfiyyətinin dəyişiklikləri barədə məlumatların təhlili [2,5].

Keyfiyyətin idarə edilməsinin bütün fəaliyyətləri müxtəlifliyi obyekt və subyekt idarəetməsinin müxtəlif cəhətlərinə toxunan xüsusi funksiyalar əsasında həyata keçirilir. Bununla əlaqədar onları aşağıdakı idarəedici funksiyalar kimi təsnifləndirmək olar.

Tələbatların proqnozlaşdırılması, məhsulun texniki səviyyəsi və keyfiyyəti funksiyası aşağıdakılara yönəlib: məhsul istehsalı və istehlakının perespektiv dövründə məhsulun nomenklatura, çeşid və keyfiyyətinə olan istehlakçıların tələbinin aşkarlanması; istehlakçının perespektiv tələblərinin elmi-texniki və iqtisadi imkan və yollarının aşkarlanamsı; məhsulların perespektiv növlərinin işlənib hazırlanması və mövcud məhsulların modernləşdirilməsi zamanı nomenklatura, çeşid və keyfiyyətin müəyyən edilməsi.

Məhsulun keyfiyyətinin yüksəldilməsinin planlaşdırılmasının funksiyası nəzərdə tutur: yeni məhsul növlərinin işlənib hazırlanması (nomenklatura, onun əsas göstəriciləri, işlənib hazırlanmanın mərhələləri və müddətləri); məhsulun yeni növlərinin mənimsənilməsi; buraxılan məhsulun texniki səviyyəsi və keyfiyyətinin yüksəldilməsi; yeni məhsulun mənimsənilməsi və istehsalatdan köhnə məmulatların çıxarılması üzrə vəzifələrin işlənib hazırlanması; hazırlanan məhsulun keyfiyyətinin və işin keyfiyyətinin yüksəldilməsi.

Məhsulun keyfiyyətinə olan normativ və tələblər nəzərdə tutur: məhsulun baxılan növünün inkişafının proqresiv istiqamətləri və perespektivlərinin öyrənilməsi; keyfiyyət göstəriciləri və standartlaşdırma metodlarının nomenklaturasının seçimi; məhsulun keyfiyyət göstəriciləri və onların tənzimlənməsinin optimallaşdırılması; normativ-texniki sənədlərdə sınaqların təşkili və aparılması qaydalarının təyin edilməsi.

Məhsul istehsalının işlənib hazırlanması və işə salınması funksiyası texniki səviyyə və iqtisadi göstəriciləri ən yaxşı yerli və xarici nailiyyətlərə müvafiq olan və ya onları üstələyən yeni məhsul nümunələrinin qısa müddətlərdə yaradılması və mənimsənilməsinə yönəlib.

(2) Central Asia: From Resource Dependence to Digital Integration

In contrast, Central Asian economies - including Kazakhstan, Uzbekistan, and Azerbaijan - are at an earlier stage of intelligent value-chain development. Historically dependent on natural resource exports, these economies now face the challenge of embedding themselves into digital global networks.

- Technological Constraints: Limited digital infrastructure and data governance frameworks constrain their participation in knowledge- and algorithm-intensive segments of the GVC [5][8].
- Policy Transformation: Recent policy initiatives, such as Azerbaijan's *AI Strategy Implementation Plan 2025*, indicate a shift toward integrating AI and digital trade into national development agendas.
- Strategic Opportunities: By aligning with China's "Digital Silk Road" and leveraging regional connectivity, Central Asia can serve as a *digital corridor* between Asia and Europe, participating in higher-value segments through *data exchange and logistics intelligence* [6][9].

Thus, while China is the *technological leader*, Central Asia is evolving as a *strategic bridge* - its progress contingent on digital capacity building, institutional harmonization, and regional cooperation mechanisms.

4.3 Comparative Structural Features of Intelligent Value Chains

A comparative analysis between China and Central Asia reveals divergent structural characteristics of intelligent GVC integration (Table 1).

Table 1

A comparative analysis between China and Central Asia in Different Dimension

Dimension	China	Central Asia
Technological Infrastructure	Advanced AI, IoT, and digital platforms integrated across industries	Developing digital and AI infrastructure, focused on logistics and e-government
Governance Mode	Platform-based, data-driven governance with policy-industry synergy	Policy-driven digitalization, limited private platform ecosystems
GVC Position	Upstream innovation and platform coordination	Midstream logistics and digital service connectivity
Integration Strategy	Exporting digital standards via Digital Silk Road	Aligning with regional platforms for digital trade participation
Structural Outlook	Towards autonomous, algorithmic coordination (GVC 4.0)	Transitioning to intelligent coordination (GVC 2.5–3.0)

This contrast highlights that *technological endowment and policy maturity* determine the pace and pattern of intelligent GVC evolution. China's model emphasizes *technological sovereignty and ecosystem governance*, whereas Central Asia's strategy focuses on *connectivity and capability upgrading*. The two are increasingly complementary, forming an emerging *digital symbiosis* across the Belt and Road region.

4.4 Emerging Global Paradigm: Toward GVC 4.0

The intelligent transformation of GVCs signals a movement toward GVC 4.0, characterized by three structural attributes [1] [6] [9]:

1. Intelligent Autonomy: Production and logistics systems operate through real-time sensing and adaptive learning, reducing dependence on manual control.

2. Algorithmic Coordination: AI replaces traditional managerial hierarchies, ensuring continuous optimization across global nodes.

3. Ecological Integration: Cross-sectoral data sharing and platform interconnection blur the boundaries between manufacturing, services, and digital trade.

In this paradigm, *global competitiveness* is defined by the capacity to manage and govern *flows of data, knowledge, and algorithms* rather than the mere control of production assets. Intelligent GVCs thus represent not just a new industrial configuration, but a redefinition of the global economic order.

4.5 SUMMARY

This chapter demonstrates that the intelligent transformation of global value chains exhibits both universal and region-specific dynamics. Globally, GVCs are shifting toward data-driven, platform-based, and regionally networked configurations. Regionally, China's leadership in intelligent GVC integration contrasts with Central Asia's gradual digital adaptation.

CHAPTER 5. CONCLUSION AND POLICY IMPLICATIONS

5.1 Major Findings

This study has explored how intelligent transformation - driven by artificial intelligence, big data, and digital platforms - reconfigures the structure and governance of global value chains (GVCs). Building on the theoretical framework developed in Chapters 2 and 3, the analysis reveals that GVC evolution is no longer a simple linear process of industrial upgrading but a dynamic, feedback-driven transformation system [1 2]. Three key findings can be highlighted:

(1) From Fragmentation to Intelligent Coordination.

Intelligent technologies have transformed GVCs from vertically fragmented structures into adaptive networkscharacterized by continuous data feedback, algorithmic decision-making, and decentralized control. This evolution represents a structural departure from traditional cost-driven globalization toward information-driven coordination [3] [4].

(2) From Ownership to Governance through Data and Algorithms.

In the intelligent era, the source of competitive advantage shifts from physical asset control to the ability to govern *flows of data, knowledge, and algorithms*. Platforms serve as both technological and institutional infrastructures that determine who accesses information and how value is distributed across networks [5] [8].

(3).From Global Dependence to Regional Symbiosis.

Intelligent GVCs are increasingly characterized by regional differentiation and strategic interdependence. As shown in Chapter 4, China's platform-driven leadership and Central Asia's digital adaptation create a multi-polar production network in which digital standards, cross-border platforms, and data corridors form the backbone of a new regional integration order [6] [9] [10].

Together, these findings suggest that intelligent transformation is not merely a technological trend but a systemic evolution of global production governance, fundamentally redefining the logic of value creation and international competitiveness.

5.2 Theoretical Contributions

This research contributes to the literature on global value chains and intelligent transformation in several dimensions:

(1).Conceptual Innovation.

It extends GVC theory from the traditional "production–trade" paradigm to a technology–organization–governance triadic model [2] [5]. This model captures how technological innovation

interacts with organizational reconfiguration and governance restructuring in shaping global production systems.

(2).Analytical Integration.

By integrating insights from evolutionary economics, platform theory, and complex systems analysis, the study develops a holistic view of GVC evolution as a *self-organizing adaptive system* capable of continuous learning and structural renewal [3] [6] [7].

(3).Regional Interpretation.

The comparative examination of China and Central Asia enriches the global debate on technological diffusion and regional upgrading, offering a concrete illustration of *how intelligent transformation unfolds unevenly yet interdependently across regions* [8][9].

These theoretical contributions provide a foundation for further research on GVC 4.0 - the next phase of globalization where algorithms, data, and digital governance shape economic hierarchies and institutional architectures.

5.3 Policy Implications

The intelligent transformation of GVCs raises profound implications for governments, enterprises, and international organizations. Three levels of policy action are essential:

(1) National Level – Building Intelligent Industrial Ecosystems

Countries must cultivate *digital infrastructure, innovation capacity, and human capital* to embed themselves into intelligent GVCs. For emerging economies, policy priority should focus on establishing open data frameworks, digital-trade logistics, and AI governance standards that attract platform investment [6] [9].

China's experience demonstrates that coordinated industrial and digital policy can accelerate structural upgrading when supported by *state-guided innovation systems and regional experimentation* [2] [4].

(2) Regional Level – Enhancing Digital Connectivity and Standard Alignment

Regional integration mechanisms - such as the *Belt and Road Digital Silk Road* - should foster *interoperability of platforms, data standards, and cybersecurity regulations*. Cooperation between China and Central Asia shows that *policy synchronization* enhances regional participation in digital value chains while mitigating technological inequality [8] [10].

(3) Global Level – Establishing Inclusive Digital Governance


International institutions (e.g., WTO, OECD, UNCTAD) should promote global frameworks for *data sharing, cross-border algorithm ethics, and digital taxation*. The aim is to prevent the fragmentation of global cyberspace into incompatible data blocs and ensure that intelligent transformation benefits all economies equitably [1] [7].

This requires multilateral consensus on *algorithm transparency, data-flow governance,* and *AI ethics in trade and production*.

In conclusion, the intelligent transformation of global value chains marks a structural inflection point in the world economy. As data and algorithms become new factors of production, and platforms become the new arenas of governance, the traditional logic of comparative advantage is giving way to one of *computational advantage*.

The future of globalization will be defined not by the flow of goods alone, but by the *governance of knowledge, data, and intelligence*. The challenge for policymakers is to ensure that this transformation enhances inclusivity, transparency, and sustainability - thus enabling a more balanced and intelligent global economy [1] [10].

Figure 3. Policy synergy framework for global intelligent value chains



Reference:

1. Kano, L., Tsang, E.W.K., & Yeung, H.W. C. (2020). Global value chains: A review of the multi-disciplinary literature. Journal of International Business Studies, 51(4), 577–622. https://doi.org/10.1057/s41267-020-00304-2

2. Strange, R., & Zucchella, A. (2017). Industry 4.0, global value chains and international business. Multinational Business Review, 25(3), 174 184. https://doi.org/10.1108/MBR-05-2017-0028

3. Laplume, A.O., Petersen, B., & Pearce, J.M. (2016). Global value chains from a 3D printing perspective. Journal of International Business Studies, 47(5), 595–609. https://doi.org/10.1057/jibs.2015.47

4. De Backer, K., DeStefano, T., Menon, C., & Suh, J.R. (2018). Industrial robotics and the global organisation of production (OECD Science, Technology and Industry Working Papers 2018/03). OECD Publishing. https://doi.org/10.1787/dd98ff58-en

5. Humphrey, J. (2018). Value chain governance in the age of platforms (IDE Discussion Paper No. 714). Chiba: Institute of Developing Economies, JETRO. Retrieved from https://www.ide.go.jp/English/Publish/Reports/Dp/714.html

6. World Bank, WTO, OECD, IDE-JETRO, & UIBE. (2019). Global Value Chain Development Report 2019: Technological Innovation, Supply Chain Trade, and Workers in a Globalized World. Washington, DC: World Bank. https://www.worldbank.org/en/topic/global-value-chains

7. UNCTAD. (2017). World Investment Report 2017: Investment and the Digital Economy. New York and Geneva: United Nations. https://unctad.org/webflyer/world-investment-report-2017

8. World Economic Forum, & Kearney. (2024). From Disruption to Opportunity: Strategies for Rewiring Global Value Chains. Geneva: World Economic Forum. https://www.weforum.org/reports/from-disruption-to-opportunity-2024

9. 刘志彪、吴福象. (2018). "'一带一路'倡议下全球价值链的双重嵌入." 中国社会科学(8), 17–32.[Liu, Z. B., & Wu, F. X. (2018). Dual embedding of global value chains under the Belt and Road Initiative. Social Sciences in China, 8, 17–32.]

10. 夏炎、孙一凡、王会娟. (2025). "全球价值链数字化转型中的数字产品异质性贡献-基于产业和产品的双重视角." 中国工业经济(9), 61–79.[Xia, Y., Sun, Y. F., & Wang, H. J. (2025). Heterogeneous contribution of digital products in the digital transformation of global value chains: An industry–product dual perspective. China Industrial Economics, 9, 61–79.]

Li Ting
doktorant, Azərbaycan Dövlət İqtisad Universiteti
ORCID 0009-0002-7206-9835

Ağıllı transformasiya dövründə qlobal dəyər zəncirlərinin struktural təkamülü

Xülasə

Məqalə süni intellekt, böyük məlumatlar və rəqəmsal platformalar tərəfindən idarə olunan ağıllı transformasiya dövründə qlobal dəyər zəncirlərinin (GVC) struktur təkamülünü araşdırır. Ağıllılaşmanın GVC-ləri xətti və iyerarxik istehsal sistemlərindən adaptiv, məlumatlara əsaslanan və platforma yönümlü şəbəkələrə çevirdiyi iddia olunur. Tədqiqat bu təkamülü izah etmək üçün texnologiya, təşkilati və idarəetmə ölçülərini birləşdirən triadik analitik çərçivə təqdim edir. Çin-in platforma əsaslı modeli ilə Mərkəzi Asiyanın rəqəmsal inteqrasiya trayektoriyasını müqayisə etməklə, tədqiqat regional müxtəlifliyin qlobal yenidənqurma prosesini necə formalaşdırdığını vurğulayır. Nəticələr göstərir ki, texnoloji imkanlar, institusional hazırlıq və siyasət əlaqələndirilməsi ağıllı GVC inteqrasiyasının sürətini müəyyən edir. Məqalə həmçinin dayanıqlı rəqəmsal qloballaşma üçün milli, regional və qlobal idarəetməni əlaqələndirən çoxsəviyyəli siyasət sinerjisi çərçivəsini təklif edir. Ümumilikdə, tədqiqat GVC 4.0-ı alqoritmik əlaqələndirmə və ağıllı dəyər yaradılmasının yeni paradiqması kimi təqdim edir.

Açar sözlər: *qlobal dəyər zəncirləri, ağıllı transformasiya, platforma idarəetməsi, rəqəmsal iqtisadiyyat, siyasət sinerjisi.*

https://doi.org/10.58225/tim.2025-4-144-149

M.M.Əhmədov
i.e.n., dosent, Azərbaycan Dövlət İqtisad Universiteti
miraga.ahmedov@mail.ru

Məqalə redaksiyaya daxil olub 03.11.2025
The article was received by editorial board on 03.11.2025
Статья принята к печати 03.11.2025

MÜASİR DÖVRDƏ MƏNZİL BAZARININ TƏNZİMLƏNMƏSİNİN İQTİSADİ MEXANİZMLƏRİ

Xülasə

Mənzil bazarı iqtisadiyyatın mürəkkəb və sosial əhəmiyyəti yüksək seqmentlərindən biridir. Mənzilin iqtisadi aktiv və sosial tələbat obyekti kimi ikili təbiəti mənzil bazarının tənzimlənməsində dövlət və bazar mexanizmlərinin optimal balansının müəyyən edilməsi tələbini qar.ıya qoyur. Mənzil bazarının tənzimlənməsi məqsədilə hər bir ölkənin sosial-iqtisadi xüsusiyyətlərini uçota alan kompleks yanaşma tələb olunur. Başqa sözlə, müasir iqtisadi şəraitdə mənzil bazarının səmərəli fəaliyyəti üçün dövlətin strateji tənzimləyici rolu və bazar mexanizmlərinin dinamikliyi uzlaşdırılmalıdır.

Təqdim olunan məqalədə mənzil bazarının tənzimlənməsinin əsas iqtisadi mexanizmlərinin səmərəliliyi təhlil olunmuş, həmçinin müxtəlif ölkələrdə tətbiq olunan tənzimləmə modelləri müqayisəli şəkildə araşdırılmışdır.

Açar sözlər: *mənzil, bazar, tələbat, tənzimləmə, qiymət, əməkdaşlıq, konsepsiya.*

Mənzil bazarina dövlət müdaxiləsinin əsas məqsədləri. Mənzil bazarı bir sıra spesifik xüsusiyyətlərə malikdir ki, bu da dövlət müdaxiləsini iqtisadi cəhətdən əsaslandırır. Birincisi, mənzil məhdud təkliflə xarakterizə olunan qeyri-elastik aktivdir. Torpaq sahələrinin məhdudluğu və tikinti müddətinin uzunluğu qiymət dəyişikliklərinə operativ reaksiya verilməsini çətinləşdirir. İkincisi, mənzil yüksək dəyərli və uzunömürlü aktiv olduğuna görə onun əldə edilməsi əksər ailələr üçün ömürlük maliyyə qərarına çevrilir.

Mənzil bazarında informasiya asimmetriyası ciddi problemdir. Alıcılar binanın keyfiyyəti, hüquqi statusu və gələcək qiymət dinamikası haqqında tam məlumata malik olmurlar. Bu şəraitdə dövlət standartlaşdırma, sertifikatlaşdırma və informasiya şəffaflığının təmin edilməsi vasitəsilə bazar uğursuzluqlarını kompensasiya edir.

Mənzilin sosial əhəmiyyəti onun adi bazar aktivi kimi qəbul edilməsinə mane olur. Layiqli yaşayış şəraitinə çıxış təməl insan hüququdur və cəmiyyətdə sabitliyin təmin edilməsi üçün mühüm əhəmiyyət daşıyır. Bazar mexanizmləri hesabına bütün əhali qruplarının mənzil ehtiyacı ödənilə bilməz. Ona görə ki, əhalinin aztəminatlı təbəqələrinin bazar qiymətləri ilə mənzil əldə etmək imkanları məhduddur.

Mənzil bazarının tənzimlənməsinə müxtəlif iqtisadi məktəblər fərqli prizmaladan yanaşırlar. Klassik liberal iqtisadiyyat bazarın özünütənzimləmə qabiliyyətinə malik olmasını qəbul etməklə bərabər minimum dövlət müdaxiləsini dəstəkləyir. Bu yanaşma çərçivəsində dövlətin rolu mülkiyyət

hüquqlarının qorunması və müqavilə öhdəliklərinin icrasının təmin edilməsi ilə məhdudlaşır. Keynsçi iqtisadiyyat isə dövlətin aktiv antikonjonktur siyasəti aparmasını zəruri hesab edir.

Mənzil tikintisi iqtisadi aktivliyi stimullaşdıran və məşğulluğu artıran güclü multiplikativ təsirə malikdir. İqtisadi böhran dövrlərində dövlətin mənzil tikintisini dəstəkləməsi ümumi tələbin artırılması vasitəsilə iqtisadiyyatın canlanmasına kömək edir [5, s.63].

İnstitusional iqtisadiyyat mənzil bazarının fəaliyyətində formal və qeyri-formal institutların rolunu ön plana çıxarır. Mülkiyyət hüquqlarının şəffaflığı, müqavilə hüququnun inkişafı, icra mexanizmlərinin səmərəliliyi və bazar infrastrukturunun formalaşması bazarın səmərəli fəaliyyəti üçün zəruridir.

Mənzil bazarının dövlət tənzimlənməsi bir neçə əsas məqsədə xidmət edir. Sosial ədalət və bərabərliyin təmin edilməsi aztəminatlı əhali qruplarının mənzillrə əlçatanlığının təmin edilməsini nəzərdə tutur.Ardıcıl olaraq, iqtisadi səmərəlilik mənzil resurslarının optimal bölgüsünü və tikinti sektorunun inkişafını əhatə edir. Bazarın sabitliyinin təmin edilməsi cəhdləri spekulyativ "qiymət köpükləri"nin qarşısının alınması və mənzil bazarında dərin tərəddüdlərin məhdudlaşdırılmasının zəruriliyi ilə bağlıdır. Şəhərsalma məqsədlərinə gəldikdə isə qeyd etmək olar ki, onlar daha çox mənzil tikintisinin davamlı şəhər inkişafı strategiyalarına inteqrasiyasını tələb edir.

Mənzil bazarında bazar mexanizmləri və dövlət müdaxiləsinin balansı. Tədqiqat göstərir ki, mənzil bazarının tənzimlənməsi üç əsas istiqamətdə həyata keçirilir: bazar tələb və təklifinin balanslaşdırılması, qiymət səviyyəsinin idarə edilməsi və sosial ədalətin təmin olunması. Dövlət müdaxiləsinin əsas mexanizmləri arasında vergi güzəştləri, subsidiyalaşdırma, kredit şərtlərinin tənzimlənməsi, tikinti normalarının müəyyənləşdirilməsi və zonalaşdırma qaydaları xüsusi yer tutur.Aparılan təhlil nəticəsində müəyyən edilmişdir ki, mənzil bazarında optimal tənzimləmə liberal bazar mexanizmləri ilə dövlət müdaxiləsinin tarazlı şəkildə tətbiqi ilə təmin olunur. Belə ki, birtərəfli bazar liberallaşması mənzil əlçatanlığının azalmasına, həddindən artıq dövlət nəzarəti isə bazarın səmərəsizliyinə gətirib çıxarır.

Əvvəldə qeyd olunduğu kimi, bazar mexanizmlərindən bəhs edərkən ilk növbədə tələb-təklif nisbətləri və onların dəyişməsi meylləri, eləcə də qiymət mexanizmi, optimal müdaxilə modelləri və dövlət-özəl sektor əməkdaşlığı məsələləri ön plana çıxır.

Mənzil bazarında təklif və tələb arasındakı qarşılıqlı əlaqə özünəməxsus xüsusiyyətlərə malikdir. Tələb demoqrafik proseslərdən, gəlir səviyyəsindən, kreditləşmə şəraitindən və gələcək qiymət gözləntilərindən asılıdır. Əhalinin sayının və yaş strukturunun dəyişməsi, urbanizasiya templəri və ailə modelinin transformasiyası mənzillərə olan tələbin həcminə birbaşa təsir göstərir.

Təklifin həcmi baxımından isə tikinti istehsalının həcmivə dinamikası, boş torpaq sahələrinin mövcudluğu, tikinti materiallarının qiyməti və tənzimləyici mühit aparıcı rol oynayır. Mənzil təklifinin qeyri-elastikliyi qiymət artımlarının tikinti fəaliyyətində qısa zamanda özünü büruzə verməsinə gətirib çıxarır. Bu zaman qiymət artımlarının əhəmiyyətli hissəsi torpaq sahibləri və vasitəçilər tərəfindən baş verdiyinə görə, demək olar ki, möhtəkirlik xarakter daşıyır [4, s.84].

Mənzillərin qiymətləri çoxsaylı amillərin təsiri altında formalaşır. Makroiqtisadi göstəricilər, xüsusilə faiz dərəcələri və inflyasiya mənzillərin qiymətlərinin dinamikasını müəyyən edən əsas amillər sırasındadır. Faiz dərəcələrinin azaldılması ipoteka kreditlərini əlçatan etməklə, mənzillərə olan tələbi artırır ki, bu da qiymətlərin yüksəlməsinə zəmin yaradır [6, s.9].

Mənzil bazarında lokal amillər də əhəmiyyəti də kəsb edir. İnfrastrukturun inkişaf səviyyəsi, ictimai nəqliyyata çıxış, ətrafda təhsil və səhiyyə müəssisələrinin mövcudluğu, ekoloji vəziyyət və ictimai təhlükəsizlik müxtəlif ərazilərdə yerləşən mənzillərin qiymətləri arasında nəzərə çarpacaq fərqlər yaradır. Şəhərlərin mərkəzi rayonlarında torpağın dəyərinin yüksək olması və infrastrukturun inkişafı orada mənzillərin qiymətlərinin yüksək olmasını şərtləndirir.

Müasir iqtisadi təcrübə müxtəlif mənzil bazarı tənzimləmə modellərinin mövcudluğunu göstərir. İngilis-amerikan modeli nisbətən liberal yanaşma ilə xarakterizə olunur. Burada bazar mexanizmləri aparıcı rol oynayır və dövlət müdaxiləsi minimaldır. Bu model çevik və dinamik mənzil bazarı yaradır, lakin gəlir səviyyəsinə görə fərqlənən əhali qruplarının mənzil şəraitində böyük diferensiallaşdırmaya səbəb olur [7, s.56].

Avropa modeli daha aktiv dövlət müdaxiləsi ilə seçilir. Burada güclü ictimai mənzil sektoru, əhəmiyyətli subsidiyalar və tənzimləmə mexanizmləri mövcuddur. Bu yanaşma daha yüksək sosial təminat təklif edir, lakin bəzən bazar çevikliyini məhdudlaşdırır. Asiya-Sakit Okean modeli özünəməxsus xüsusiyyətlərə malikdir. Sinqapur kimi ölkələrdə dövlət mənzil bazarında əsas rol oynayır və əhalinin böyük hissəsi dövlət tərəfindən reallaşdırılan mənzil proqramlarından faydalanır. Bu model yüksək mənzil təminatı təklif etsə də bazar tənzimləmə mexanizmini məhdudlaşdırır [8, s.42].

Dövlət-özəl tərəfdaşlığı mənzil bazarının inkişafında getdikcə daha çox istifadə olunan mexanizmdir. Bu yanaşma çərçivəsində dövlətin sosial məqsədləri özəl sektorun səmərəliliyi və innovasiya qabiliyyəti ilə birləşir. Belə layihələrdə dövlət torpaq ayırır, infrastruktur yaradır və müəyyən zəmanətlər verir, özəl sektor isə tikintini həyata keçirir və idarəetməni təmin edir. Konsessiya müqavilələri, birgə səhm şirkətləri və qarışıq maliyyələşdirmə əsasında layihələrin həyata keçirilməsi tərəfdaşlığın müxtəlif formalarıdır. Bu mexanizmlər investisiya riskinin bölüşdürülməsinə, innovativ texnologiyaların tətbiqinə və layihələrin daha sürətlə həyata keçirilməsinə imkan verir.

Mənzil bazarında dövlət dəstəyi proqramları və innovasiyalar. Dövlət maliyyə dəstəyi müxtəlif formalarda təqdim olunur. Faiz subsidiyaları ilk mənzil alıcıları və aztəminatlı ailələr üçün kreditləri əlçatan edir. Bu proqramlar adətən müəyyən gəlir həddləri və mənzil dəyəri məhdudiyyətləri ilə tətbiq edilir. Birbaşa subsidiyalar və qrantlar isə ən aztəminatlı qruplar üçün nəzərdə tutulur və mənzil əldə edilməsinə birbaşa maliyyə köməyi təmin edir [3, s.14].

Vergi güzəştləri geniş yayılmış dəstək mexanizmidir. İpoteka faizlərinin vergitutma bazasından çıxarılması, ilk mənzil alışında vergilərin azaldılması və ya əmlak vergisindən azad edilmə mənzillərin əldə edilməsini stimullaşdırır. Lakin bu mexanizmlər bəzən daha çox yüksək gəlirli qruplar tərəfindən istifadə olunduğu üçün reqressiv təsir göstərə bilər.

Mənzil bazarında sistematik risklərin qarşısının alınması üçün makrosabitlik alətlərindən istifadə getdikcə aktuallaşır. Göstərilə bilər ki, "kredit-dəyər" nisbətinin məhdudlaşdırılması həddən artıq borcalanmanın qarşısını alır. "Gəlir-borc" nisbətinin tənzimlənməsi isə kreditalanların ödəmə qabiliyyətinin qorunmasını təmin edir.

Mənzil bazarının tənzimlənməsinin hüquqi-institusional əsasları. Mənzil bazarının səmərəli fəaliyyəti üçün mülkiyyət hüquqlarının müəyyənləşdirilməsi və müdafiəsi mühüm əhəmiyyətə malikdir. Mülkiyyət hüququnun qeydiyyatı sisteminin təkmil olması əmlak hüquqlarının şəffaflığını və qorunmasını təmin edir. Eyni zamanda rəqəmsal kadastr sistemlərinin informasiya əlçatanlığını artırması və əməliyyat xərclərini azaltması da qeyd oluna bilər. Mülkiyyət hüquqlarının qorunmasında məhkəmə sisteminin müstəqilliyi və qərarların icra mexanizmi də mühüm yer tutur. Zəif hüquqi mühafizə investorların bazardan çəkinməsinə və kənarlaşmasına səbəb olur. Bu da nəticə etibarilə, mənzil bazar inkişafının ləngməsinə səbəb olur. Ona görə də mübahisələrin sürətli və ədalətli həlli üçün ixtisaslaşmış məhkəmələrin və alternativ mübahisə həlli mexanizmlərinin yaradılması məqsədəuyğundur [2 s.17]. Şəhərsalma qaydaları mənzil bazarının fəaliyyətinə dərin təsir göstərir. Zonalaşdırma qaydaları müəyyən ərazilərdə hansı növ tikintinin aparılmasına icazə verildiyini müəyyənləşdirməklə, torpaqlardan istifadəni və mənzil təklifini tənzimləyir. Həddən artıq məhdudlaşdırıcı zonalaşdırma tikinti işlərini məhdudlaşdırır və mənzillərin qiymətlərinin artmasına səbəb olur.

Tikinti normativ və standartları binaların keyfiyyətini, təhlükəsizliyini və ekoloji uyğunluğunu təmin edir. Enerji səmərəliliyi üzrə tələblər, antiseysmik standartlar və əlillərin çıxışı normaları müasir tikintinin mühüm elementləridir. Eyni zamanda, normativlərin həddən artıq sərtləşdirilməsi tikinti xərclərini artırır və mənzil əlçatanlığını azaldır.

Kirayə bazarı mənzil sisteminin vacib tərkib hissəsidir və xüsusilə gənclər və miqrantlar üçün əhəmiyyətlidir. Kirayə qanunvericiliyi kirayəçilərin və ev sahiblərinin hüquqlarını balanslaş-dırmalıdır. Kirayə haqqının tənzimlənməsi bəzi ölkələrdə tətbiq olunur, lakin həddən artıq sərt tənzimləmə kirayə mənzillərin təklifinin azalmasına səbəb ola bilər.Kirayəçilərin hüquqlarının qorunması istismar şəraitindən və qeyri-əsaslandırılmış çıxarmalardan mühafizəni əhatə edir. Eyni zamanda, ev sahiblərinin öz mülklərini idarə etmək və ədalətli gəlir əldə etmək hüququ da təmin edilməlidir. Müqavilə azadlığı və sosial təminat arasında balansın tapılması kirayə bazarının səmərəli fəaliyyəti üçün zəruridir.

Mənzil bazarının effektiv fəaliyyəti üçün güclü institusional infrastruktur tələb olunur. Mənzil agentlikləri bazarda vasitəçilik xidmətləri göstərir və informasiya asimmetriyasını azaldır. Onların peşəkar standartlarının və etik normalarının formalaşdırılması istehlakçıların maraqlarının qorunması üçün vacibdir.

Qiymətləndirmə institutu mənzillərin obyektiv dəyərləndirilməsini təmin edir və kreditləşmə prosesində mühüm rol oynayır. Peşəkar qiymətləndiricilər və onların akkreditasiyası sisteminin formalaşdırılması bazar şəffaflığını artırır.

Mənzil siyasətinin müasir konsepsiyaları. Müasir sosial mənzil konsepsiyaları universal çıxışdan hədəflənmiş yanaşmalara keçidi əks etdirir. Dövlət mənzil fondunun idarə edilməsi modeli getdikcə mixblend məhəllələrə əsaslanan yanaşmalarla əvəzlənir. Bu strategiya müxtəlif gəlir qruplarının qarışıq məhəllələrdə yaşamasını təşviq edir və sosial seqreqasiyanın qarşısını alır.

Mənzil vauçerləri və kirayə subsidiyaları bazaməbna yanaşmanın əsasını təşkil edir. Bu mexanizmlər əhali seçim azadlığı verir və onları passiv aid alıcılarından aktiv bazar iştirakçılarına çevirir. Eyni zamanda, aztəminatlı qrupların yüksək qiymətli bazarlarda mənzil tapmasının çətinliyi bu yanaşmanın məhdudiyyətini təşkil edir.

Ekoloji davamlılıq müasir mənzil siyasətinin mərkəzində durur. Enerji səmərəli binalar istismardan CO_2 emissiyalarını əhəmiyyətli dərəcədə azaldır və sakinin kommunal xərclərini aşağı salır. Yaşıl tikinti standartları resurs istifadəsində səmərəliliyi artırır və ətraf mühitə təsiri minimuma endirir.

Yenidənqurma (rekonstruksiya) proqramları mövcud mənzil fondunun müasirləşdirilməsinə yönəlir. Köhnə binaların istilik siteminin yaxşılaşdırılması, alternativ enerji mənbələrinin quraşdırılması və fasadların yenilənməsi ekoloji və sosial-iqtisadi effekt verir. Bu proqramlar adətən subsidiyalar və güzəştli kreditləşmə ilə dəstəklənir.

Rəqəmsal texnologiyalar mənzil bazarını əsaslı şəkildə dəyişdirir. Böyük datanın analizi bazar trendlərinin proqnozlaşdırılmasında, qiymət modelləşdirməsində və risk qiymətləndirilməsində istifadə olunur. Süni intellekt alqoritmləri ipoteka qərarlarında, mənzil tövsiyələrində və bazar qiymətləndirilməsində tətbiq edilir.

"Ağıllı ev" texnologiyaları mənzilin idarə edilməsini optimallaşdırır və resurs səmərəliliyini artırır. İnternetə qoşulmuş cihazlar enerji istehlakını avtomatik tənzimləyir, təhlükəsizliyi yaxşılaşdırır və yaşayış komfortunu artırır. Rəqəmsal platformalar mənzil axtarışını, əməliyyatların aparılmasını və əmlak idarəçiliyini sadələşdirir [4, s.75].

Müasir mənzil siyasəti bütün əhali qruplarının ehtiyaclarını nəzərə alır. Yaşlılar üçün uyğunlaşdırılmış mənzillər demoqrafik qocalma şəraitində getdikcə daha aktual olur. Əlillərin mənzilə çıxışının təmin edilməsi universal dizayn prinsiplərinin tətbiqini tələb edir.

Miqrantların mənzil inteqrasiyası sosial birliyin təmin edilməsi üçün vacibdir. Diskriminasiyasız çıxış, çoxdilli xidmətlər və mədəni həssaslıq daxilediciliyin əsas elementləridir. Gənc ailələr üçün əlçatan mənzil proqramları demoqrafik vəziyyətin yaxşılaşdırılmasına kömək edir.

Mənzil siyasəti regional inkişaf disbalanslarının aradan qaldırılmasında mühüm rol oynayır. Böyük şəhərlərdə mənzil qiymətlərinin həddən artıq yüksək olması və kiçik şəhərlərdə demografik tənəzzül qarşılıqlı əlaqəli problemlərdir. Polisentriq inkişaf strategiyaları regional mərkəzlərin gücləndirilməsinə və əhalinin daha bərabər paylanmasına yönəlir.

Kənd yerlərinin mənzil inkişafı urbanizasiya ilə mübarizə və kənd təsərrüfatının davamlılığı üçün əhəmiyyətlidir. İnfrastrukturun inkişafı, rəqəmsal xidmətlərə çıxış və əlverişli kreditləşmə şəraiti kənd yerlərini daha cəlbedici edir.

NƏTİCƏ

Mənzil bazarının tənzimlənməsi çoxtərəfli və dinamik prosesdir. Səmərəli mənzil siyasəti bazar mexanizmlərinin effektivliyini sosial ədalət və davamlılıq məqsədləri ilə uzlaşdırmalıdır.Bu prosesdə dövlətin rolu genişdir və uzunmüddətli inkişaf strategiyasının formalaşdırılması, innovasiyaların stimullaşdırılması və sosial birliyin təmin edilməsini əhatə edir.

Maliyyə-kredit mexanizmlərinin və hüquqi-institusional bazanın təkmilləşdirilməsi müstəvisində müasir konsepsiyaların tətbiqi mənzil bazarının səmərəli fəaliyyəti üçün zəruridir. Hər bir ölkə öz iqtisadi, sosial və mədəni dəyərlərinə və inkişaf xüsusiyyətlərinə uyğun optimal tənzimləmə modelini müəyyən etməlidir. Beynəlxalq təcrübənin öyrənilməsi, ondan məqəsədyönlü şəkildə istifadə mənzil bazarının tənzimlənməsində mühüm rol oynayır. Beləliklə, mənzil siyasətində əldə olunan uğurlar birbaşa onun çevikliyi, dəyişən şəraitə uyğunlaşma qabiliyyəti və cəmiyyətin real tələbatlarının təmin edilməsinə istiqamətlənməsi ilə əlaqədardır.

İstifadə edilmiş ədəbiyyat:

1. G.Ə. Mustafayeva, S.Y. Məmmədova. (2018). Bazar infrastrukturu, dərs vəsaiti, Bakı, 359s.

2. R.Y.Əliyev. (2025). Azərbaycanda mənzil sferasinin inkişafinin təşkilati-iqtisadi problemləri (avtoreferat). Bakı.

3. О.А.Сидеренко. (2016). Совершенствование механизма государственного регулирования рынка жилой недвижимости (автореферат). М.

4. Н.В.Городнова, И.Н.Маврина. (2020). Экономические аспекты управления рынком недвижимости. Учебное пособие. Екатеринбург, Издательство Уральского Университета, 108с.

5. O'Sullivan, A. (2019). Urban Economics (9th ed.). New York: McGraw-Hill Education.

6. Cerutti, E., Dagher, J., Dell'Ariccia, G. (2017). "Housing Finance and Real-Estate Booms: A Cross-Country Perspective". Journal of Housing Economics, 38, pp. 1-13.

7. Scanlon, K., Whitehead, C., Arrigoitia, M.F. (eds.) (2014). Social Housing in Europe. Chichester: Wiley-Blackwell.

8. Евразийский банк развития (2019). Обзор рынков жилья стран ЕАЭС. Алматы.

9. https://www.mcgf.az

10. https://e-emdk.gov.az

M.M.Ahmadov
candidate of economic sciences, Associate Professor, Azerbaijan State University of Economics

Economic mechanisms of housing market regulation

Abstract

The housing market is one of the complex and socially significant segments of the economy. The dual nature of housing as an economic asset and an object of social demand requires the determination of the optimal balance of state and market mechanisms in the regulation of the housing market. In order to regulate the housing market, a complex approach is required that takes into account the socio-economic characteristics of each country. In other words, for the effective functioning of the housing market in modern economic conditions, the strategic regulatory role of the state and the dynamics of market mechanisms must be reconciled.

The presented article analyzes the effectiveness of the main economic mechanisms of housing market regulation, as well as comparatively examines the regulatory models applied in different countries.

Keywords: *housing, market, demand, regulation, price, cooperation, concept.*

https://doi.org/10.58225/tim.2025-4-150-155

UOT: 339.138:658.7

K.V.Şirvani
müəllim, Sumqayıt Dövlət Universiteti
ORCID 0000-0003-4417-0493
konul.shirvani@sdu.edu.az

Məqalə redaksiyaya daxil olub 04.12.2025
The article was received by editorial board on 04.12.2025
Статья принята к печати 04.12.2025

E-TİCARƏT HƏCMİNİN ARTMASININ TƏCHİZAT ZƏNCİRİNİN DAYANIQLILIĞINA TƏSİRİ VƏ YENİ LOGİSTİKA STRATEGİYALARI

Xülasə

E-ticarətin həcminin sürətli artması qlobal təchizat zəncirlərinin fəaliyyət mexanizmini köklü şəkildə dəyişmişdir. Artan onlayn tələbat logistika sistemlərində çeviklik və dayanıqlılıq kimi meyarları daha vacib etmişdir. Müasir şəraitdə şirkətlər sifarişlərin operativ çatdırılması üçün marşrutların və anbar proseslərinin optimallaşdırılmasına ciddi şəkildə diqqət yetirirlər. Təchizat zəncirində rəqəmsallaşma və avtomatlaşdırma əməliyyat xərclərinin azalmasına və dəqiqliyin yüksəlməsinə imkan verir. Son mil logistikasında yaranan yüklənmə yeni texnoloji həllərin tətbiq edilməsini zəruri edir. Bazarın dinamikliyi şirkətləri daha çevik təchizat modelləri qurmağa məcbur edir. Risklərin artması fonunda təchizat mənbələrinin diversifikasiyası dayanıqlılığın əsas şərtinə çevrilmişdir. Pandemiya dövründə formalaşan təcrübələr şirkətlərin adaptasiya imkanlarını daha da gücləndirmişdir. Davamlı logistika yanaşmaları ekoloji tələblərin təmin olunmasında mühüm rol oynayır. Analitik alətlər və süni intellekt tələbin dəqiq proqnozlaşdırılmasını və qərarvermə proseslərini təkmilləşdirir. İnfrastruktur inkişafı və innovativ nəqliyyat vasitələri e-ticarət tələbinin qarşılanmasını daha effektiv edir. Nəticə etibarilə, e-ticarət artımı təchizat zəncirinin yenidən qurulmasını və müasir logistika strategiyalarının formalaşmasını qaçılmaz etmişdir.

Açar sözlər: *e-ticarət, təchizat zənciri, logistika strategiyaları, rəqəmsallaşma, dayanıqlılıq, avtomatlaşdırma, risk menecmenti.*

GİRİŞ

E-ticarətin sürətli inkişafı qlobal iqtisadiyyatın əsas hərəkətverici qüvvələrindən birinə çevrilmişdir. Onlayn alış-veriş həcminin artması təchizat zəncirlərinə əvvəllər görünməmiş dərəcədə təzyiq göstərərək onların strukturunu dəyişməyə məcbur edir. Müasir istehlakçılar daha sürətli, dəqiq və şəffaf çatdırılma xidmətləri tələb etdikcə şirkətlər yeni logistika yanaşmalarına ehtiyac duyurlar. Bu dəyişən tələblər qarşısında təchizat zəncirinin dayanıqlılığı müəssisələrin rəqabət qabiliyyətinin əsas göstəricisinə çevrilir. Dayanıqlılığın təmin edilməsi isə diversifikasiya, rəqəmsallaşma, avtomatlaşdırma və risk menecmenti kimi mexanizmlərin effektiv tətbiqini tələb edir. E-ticarət sektorundakı genişlənmə həm imkanlar, həm də risklər yaratdığı üçün müəssisələr strateji adaptasiya prosesini davamlı şəkildə həyata keçirməli olurlar. Pandemiya dövrü göstərdi ki, çevik və rəqəmsal təchizat zəncirləri qlobal böhranlara qarşı daha dözümlüdür. Bu baxımdan yeni logistika strategiyalarının formalaşdırılması həm regional, həm də qlobal bazarlar üçün aktuallıq kəsb edir. E-ticarətin artımı logistika şəbəkələrinin yenidən qurulmasını və innovativ yanaşmaların tətbiqini zəruri

edən əsas faktor kimi qiymətləndirilir. Bütün bu reallıqlar mövzunun həm elmi, həm də praktiki baxımdan əhəmiyyətini daha da artırır.

E-ticarət artiminin təchizat zəncirinə təsiri və transformasiya zərurəti.

E-ticarət həcminin sürətlə artması qlobal təchizat zəncirlərinin strukturunu əsaslı şəkildə dəyişir. Bu artım logistika sistemlərinə daha çevik və dayanıqlı yanaşmalar tələb edir. Şirkətlər müştəri gözləntilərini qarşılamaq üçün çatdırılma proseslərini optimallaşdırmağa çalışır. Böyüyən onlayn tələbat anbar sistemlərinin modernləşdirilməsini zəruri edir. Müəssisələr ehtiyat idarəetməsində daha dəqiq proqnozlaşdırma modellərinə ehtiyac duyur. Artan sifariş axını təchizat zəncirində böyük təzyiq yaradır. Bu təzyiq xüsusilə son mil çatdırılmasında ciddi çətinliklər ortaya çıxarır. Xüsusilə böyük şəhərlərdə lojistik yüklənmə daha tez müşahidə olunur. İnfrastrukturun məhdudluğu şirkətləri alternativ həllər axtarmağa məcbur edir [2, s. 64]. Rəqəmsal texnologiyalar bu mərhələdə əsas dəstək mexanizmlərindən birinə çevrilir.

E-ticarət artımı nəticəsində daşınma marşrutları daim yenilənməli olur. Pandemiya dövründə əldə olunan təcrübələr sistemlərin yeni formatda qurulmasına təkan verib. Şirkətlər daha dayanıqlı və elastik təchizat zəncirinə keçidin vacibliyini anlayıb. Bu dəyişikliklər həm xərclərə, həm də əməliyyat çevikliyinə ciddi təsir göstərir. Müştərilərin sürət gözləntisi logistika modelini strateji şəkildə dəyişdirir. Ənənəvi təchizat yanaşmaları artıq bazarın tələblərinə cavab vermir. E-ticarət həcmindəki artım risklərin də çoxalmasına səbəb olur. Bu risklər xüsusilə qlobal tədarükdən asılı olan şirkətlərdə daha aydın görünür. Alternativ təchizatçı axtarışı şirkətlərin gündəmində mühüm yer tutur. Bu proses təchizat zənciri planlamasına strateji baxış tələb edir [11, s. 41]**.**

Dayanıqlılıq anlayışı şirkətlər üçün rəqabət üstünlüyünün əsas göstəricisinə çevrilir. Təchizat zəncirində elastik strukturlar qurmaq uzunmüddətli davamlılıq üçün vacibdir. Müasir logistika modeli çevik qərarvermə mexanizmlərinə əsaslanır. İnformasiya axınının sürətli olması şirkətlərə operativ reaksiya imkanı yaradır. Rəqəmsal izləmə sistemləri təchizat zəncirinin şəffaflığını gücləndirir. Müştərilər sifarişlərini real vaxtda izləmək istəyirlər. Bu gözləntilər şirkətləri yeni texnoloji həllərə investisiya etməyə sövq edir. Məhsul dövriyyəsinin artması anbar proseslərinin avtomatlaşdırılmasını zəruri edir. Robotlaşdırılmış anbar sistemləri işçi qüvvəsinə olan asılılığı azaldır [9, s. 112]. Bu yanaşma həm xərcləri, həm də səhv ehtimalını minimuma endirir. Yeni logistika strategiyaları tələb proqnozlaşdırmasının keyfiyyətini yüksəldir. Proqnoz dəqiqliyi ehtiyat səviyyələrinin optimallaşdırılmasına şərait yaradır. Şirkətlər daimi olaraq təhlükəsizlik ehtiyat səviyyələrinə yenidən baxırlar. E-ticarət artımı ilə birlikdə tədarük dövrləri daha qısa planlanır. Qısa dövrlər operativlik tələb etdiyi üçün təchizat modelləri dəyişir. Bu dəyişikliklər nəqliyyat növlərinin kombinə olunmasını aktuallaşdırır. Multimodal logistika xərclərin azalmasına mühüm töhfə verir. E-ticarət şirkətləri marşrut optimallaşdırılması üçün analitik həllərdən istifadə edirlər. Bu analitika həm operativlik, həm də çevikliyə xidmət edir. Təchizat zəncirindəki rəqabət şirkətləri daha innovativ etməyə məcbur edir.

Təchizat zəncirində risk menecmenti və rəqəmsal logistika strategiyalarinin formalaşması

E-ticarət genişləndikcə şirkətlər risk menecmentinə daha çox önəm verirlər. Risklərin əsas hissəsi təchizat fasilələri ilə bağlı ortaya çıxır. Qlobal bazarlarda yaşanan siyasi və iqtisadi dəyişikliklər qeyri-müəyyənlik yaradır [12, s. 18]. Bu qeyri-müəyyənliklər şirkətləri müxtəlif təchizat mənbələri yaratmağa sövq edir. Diversifikasiya strategiyası dayanıqlılığın əsas alətlərindən biri hesab olunur. Alternativ istehsal bölgələri seçmək riskləri əhəmiyyətli dərəcədə azaldır. Təchizat zəncirinin coğrafi genişliyi tez-tez yenidən nəzərdən keçirilir. Şirkətlər logistika partnyorları ilə daha sıx əməkdaşlığa maraq göstərirlər [1, s. 5]. Bu əməkdaşlıq prosesin daha effektiv idarə olunmasına imkan verir. Qlobal təchizat əlaqələri rəqəmsallaşma ilə daha dayanıqlı hala gəlir. Rəqəmsal platformalar məlumat axınını sabit və sürətli təmin edir. Təchizat zənciri idarəetməsində inteqrasiya səviyyəsi rəqabət gücünü artırır. Bu inteqrasiya müəssisələrə strateji çeviklik təqdim edir. Qlobal böhranlar

şirkətləri texnoloji həllərə daha çox yönəldir. E-ticarət platformaları müştəri davranışları haqqında geniş məlumat bazası yaradır. Bu bazanın təhlili logistika qərarlarının daha səmərəli olmasına səbəb olur [8, s. 94]. Şirkətlər təchizat risklərini daha erkən aşkar etməyə çalışırlar. Erkən xəbərdarlıq sistemləri adaptiv idarəetməni gücləndirir. Bu idarəetmə modeli süni intellektin dəstəyi ilə daha effektiv olur. Süni intellekt risk analizi üçün geniş imkanlar yaradır.

E-ticarət həcminin artması logistika xərclərinin strukturuna da təsir edir. Xərclərin dəyişməsi şirkətlərin strategiyalarını yenidən qurmağa səbəb olur. Çatdırılma sürətinə olan tələb artdıqca əməliyyat məsrəfləri yüksəlir. Xüsusilə son mil logistikasında xərclər daha çox hiss olunur. Şirkətlər bu xərcləri optimallaşdırmaq üçün innovativ həllər axtarırlar. Mikromərkəz anbarlarının yaradılması bu həllərdən biridir. Şəhərdaxili anbarlar çatdırılma sürətini artırır. Bu anbar modeli yük axınını daha səmərəli idarə etməyə imkan verir [4, s. 37]. Şirkətlər çatdırılmada elektrik nəqliyyat vasitələrinə daha çox yönəlirlər. Elektrik nəqliyyat vasitələri həm dayanıqlılığa, həm də ekoloji tələblərə uyğundur. E-ticarət artımı ilə karbon emissiyası da yüksəlir. Şirkətlər davamlı logistika modellərinə keçməyə məcbur olurlar. Davamlılıq strategiyaları həm ekoloji, həm də iqtisadi üstünlüklər yaradır. Yaşıl logistika konsepsiyası bu üstünlüklərin əsasını təşkil edir. Müasir təchizat zəncirlərində enerji səmərəliliyi prioritet məsələyə çevrilir. Şirkətlər enerji qənaəti üçün marşrutları optimallaşdırırlar. Bu optimallaşdırma həm məsafəni, həm də xərc yükünü azaldır. Dezavantajlı marşrutlar sistemdən çıxarılır və yeniləri tətbiq edilir. Bu dəyişikliklər ümumi əməliyyat səmərəliliyini artırır. E-ticarət artımı şirkətlərin rəqabət strategiyasını köklü şəkildə dəyişir.

Yeni logistika strategiyaları rəqəmsal transformasiyanın mərkəzində dayanır. Bu transformasiya təchizat zəncirinin hər mərhələsində özünü göstərir. Rəqəmsal anbar sistemləri inventar idarəetməsində yüksək dəqiqlik yaradır. Şirkətlər bulud əsaslı platformalara daha çox üstünlük verirlər. Bulud sistemləri məlumat inteqrasiyasını asanlaşdırır. Bu inteqrasiya real vaxt çevikliyi təmin edir. E-ticarət həcminin artması ilə verilənlər analitikası daha mühüm rol oynayır. Analitika tələbi proqnozlaşdırmaq üçün əsas vasitədir. Bu proqnozlar ehtiyatların optimal səviyyədə saxlanmasına kömək edir. Şirkətlər yalnış ehtiyat idarəçiliyinin fəsadlarından qaçmağa çalışırlar. Rəqəmsal sistemlər səhvlərin sayını minimuma endirir. E-ticarət bazarının rəqabətli olması daha çevik modellər tələb edir. Şirkətlər logistika əməliyyatlarını avtomatlaşdırmağa meyl edirlər. Avtomatlaşdırma xərclərin azaldılmasına mühüm töhfə verir. Bu azalma şirkətlərin daha çox investisiya etməsinə şərait yaradır. Rəqəmsal modellər həm də personal idarəetməsini asanlaşdırır. İşçi yükünün azalması əməliyyat səmərəliliyini artırır. Rəqəmsallaşma müşahidə qabiliyyətini yüksəldir. Təchizat zəncirində şəffaflıq şirkət-müştəri münasibətlərini yaxşılaşdırır [3, s. 9]**.** Şəffaflıq bazarda etibar faktoru yaradır.

Cədvəl 1

E-ticarət artımının təchizat zəncirinə təsirləri

Təsir Sahəsi	**Müsbət Təsir**	**Mənfi Təsir**
Çatdırılma Sürəti	Operativlik artır	Xərclər yüksəlir
Anbar İdarəetməsi	Avtomatlaşdırma asanlaşır	İnfrastruktur yatırımı tələb edir
Təchizat Riskləri	Diversifikasiya imkanı yaradır	Qeyri-müəyyənlik artır
Müştəri Məmnuniyyəti	Şəffaflıq yüksəlir	Gözləntilər yüksəlir
Ekoloji Təzyiq	Yaşıl logistika təşviq olunur	Emissiyalar çoxalır

E-ticarət artımı şirkətləri daha çevik nəqliyyat modellərinə yönəldir. Bu modellər dəyişkən tələbatı qarşılamaq üçün hazırlanır. Çevik nəqliyyat yanaşmaları sifariş piklərini idarə etməyə yardım

edir. Şirkətlər nəqliyyat resurslarını dinamik şəkildə bölüşdürürlər. Bu bölüşdürmə xərclərin daha səmərəli istifadəsinə səbəb olur. E-ticarət böyüdükcə logistika şəbəkələri daha mürəkkəb hala gəlir. Mürəkkəblik idarəetmədə daha çox texnoloji alət tələb edir. Bu alətlər sistemin zəif nöqtələrinin aşkarlanmasına kömək edir. Təchizat zənciri performansı davamlı şəkildə ölçülür. Performans ölçümü strateji qərarverməni dəstəkləyir [10, s. 58].

Şirkətlər performans nəticələrinə görə yeni optimallaşdırmalar tətbiq edirlər. Bu optimallaşdırmalar rəqabət qabiliyyətini artırır. E-ticarət tələbi artdıqca logistika şəbəkəsi üzərində təzyiq artır. Şirkətlər bu təzyiqi azaltmaq üçün yenidənqurma planları hazırlayırlar. Yenidənqurma dayanıqlılığın əsas elementlərindən biridir. Bu proses uzunmüddətli planlama tələb edir. Şirkətlər həm riskləri, həm də imkanları paralel olaraq analiz edirlər. Analizlər daha dayanıqlı model qurmağa şərait yaradır. Dayanıqlılıq uzunmüddətli strateji hədəfləri gücləndirir. Şirkətlər bu hədəfləri bazar şərtlərinə uyğunlaşdırırlar.

E-ticarət artımının logistika tələbini dəyişməsi və yeni xidmət modelləri.

E-ticarət bazarının dinamikliyi logistika tələblərini davamlı dəyişir. Bu dəyişikliklər planlaşdırma prosesini daha mürəkkəb edir. Şirkətlər planlaşdırma mərhələsində böyük həcmli verilənlərdən istifadə edirlər. Böyük verilənlər analizinə əsaslanan qərarlar daha dəqiq olur. Dəqiqlik təchizat zəncirinin effektivliyini artırır. Təchizat modelinin optimallaşdırılması şirkətlər arasında fərqlənmə yaradır. Bu fərqlənmə bazarda liderlik imkanları formalaşdırır. E-ticarət artımı ilə logistika xidmətlərinin müxtəlifliyi yüksəlir. Müxtəlif xidmətlər müştərilərə əlavə seçim imkanı təqdim edir. Bu imkanlar rəqabəti daha da artırır. Şirkətlər fərqli xidmət paketləri hazırlayırlar. Bu paketlər müxtəlif müştəri qruplarına yönəlir. Müştəri yönümlü yanaşma sektorun inkişafını sürətləndirir. İnnovativ çatdırılma modelləri e-ticarət sektorunun əsas trendlərinə çevrilir. Bu modellər operativlik və çevikliyi birlikdə təmin edir. Sektorun inkişafı logistika tələbini daha da genişləndirir. Şirkətlər artan tələbi qarşılayacaq infrastruktur qurmağa çalışırlar. İnfrastruktur inkişafı uzunmüddətli yatırım tələb edir [6, s. 22]. Yatırımların geri dönüşü ən çox e-ticarət böyüməsi ilə bağlıdır. Böyümə tendensiyaları şirkətləri strateji yeniliklərə təşviq edir.

E-ticarət həcminin artması təchizat zəncirində yeni əməkdaşlıq formalarını yaranmağa vadar edir. Bu əməkdaşlıq logistika ekosistemini daha güclü edir. Şirkətlər birgə resurs istifadəsi modellərinə üstünlük verirlər. Birgə istifadə xərclərin ciddi şəkildə azalmasına səbəb olur. Əməkdaşlıq logistika çətinliklərini paylaşmağı asanlaşdırır. Bu paylaşma sektorun ümumi dayanıqlığını artırır. İnnovativ tərəfdaşlıq modelləri təchizat əlaqələrini gücləndirir.

Şirkətlər sinxron əməliyyat idarəetməsinə diqqət yetirirlər. Sinxron idarəetmə operativ qərarverməni daha dəqiq edir. Əməliyyat sürətinin artması müştəri məmnuniyyətini gücləndirir. Müştəri məmnuniyyəti e-ticarətdə rəqabətin əsas amilidir. Şirkətlər geri qaytarma logistikasına xüsusi diqqət ayırırlar. Geri qaytarma proseslərinin optimallaşdırılması xərcləri azaldır. E-ticarət genişləndikcə geri qaytarmalar daha çox olur. Bu artış təchizat zəncirinə əlavə təzyiq yaradır. Şirkətlər bu təzyiqi azaltmaq üçün yeni strategiyalar hazırlayırlar. Bu strategiyalar çevik operativ idarəetməni dəstəkləyir. Çeviklik dayanıqlılığın mühüm komponentidir. Dayanıqlı təchizat zənciri qeyri-müəyyənliklərə qarşı daha möhkəm dayanır. Şirkətlər bu möhkəmliyi qorumaq üçün investisiya etməyə davam edirlər. E-ticarət artımı ilə yeni texnologiyaların tətbiqi sürətlənir. Texnologiyalar logistikanın hər mərhələsinə sirayət edir. Süni intellekt marşrut optimallaşdırılmasının əsas alətlərindən birinə çevrilir. IoT cihazları real vaxt məlumat toplama imkanını artırır. Bu məlumatlar operativ qərarları daha etibarlı edir. Şirkətlər rəqəmsal əkiz texnologiyasından logistikanı simulyasiya etmək üçün istifadə edirlər. Simulyasiya riskləri daha erkən müəyyən etməyə şərait yaradır. Bu erkən müəyyənetmə dayanıqlılığı gücləndirir. Rəqəmsal innovasiyalar təchizat proseslərini şəffaflaşdırır. Şəffaflıq əməkdaşlıq keyfiyyətini artırır. Təchizat zəncirinin rəqəmsal idarə edilməsi səmərəliliyi

yüksəldir. Səmərəlilik rəqabət üstünlüyünü artırır [4, s. 14]**.** Şirkətlər yüksək rəqabətli bazarlarda mövqelərini qorumağa çalışırlar. Bu qorunma strateji resurs idarəetməsini tələb edir. Resursların effektiv bölüşdürülməsi əməliyyat xərclərini azaldır. Xərclərin azalması şirkətlərə daha çox yenilik etmək imkanı yaradır. Yeniliklər logistikanın gələcək inkişafını müəyyən edir. Gələcək inkişaf e-ticarət sektorunun dinamizmini artırır. Dinamizm logistika strategiyalarının davamlı yenilənməsini tələb edir. Yenilənmə dayanıqlılığın uzunmüddətli təminatçısıdır.

E-ticarətin həcminin sürətli artması təchizat zəncirinin bütün mərhələlərində fundamental dəyişikliklərin baş verməsinə səbəb olmuşdur. Bu dəyişikliklər logistika sistemlərinin daha çevik, dayanıqlı və texnoloji əsaslı şəkildə yenidən qurulmasını zəruri etmişdir. Artan onlayn tələbat şirkətləri marşrut optimallaşdırılması, anbar idarəetməsi və çatdırılma strategiyalarını təkmilləşdirməyə məcbur edir. Təchizat zəncirində rəqəmsallaşma və avtomatlaşdırma əməliyyat xərclərini azaldaraq səmərəliliyi artıran əsas mexanizmlərdən birinə çevrilmişdir. Qlobal bazarlardakı qeyri-müəyyənliklər risk menecmentinin rolunu daha da yüksəltmişdir. Şirkətlər bu riskləri minimuma endirmək üçün diversifikasiya və alternativ təchizat mənbələri strategiyalarından geniş istifadə edirlər. Rəqəmsal platformalar məlumat axınının sürətli və şəffaf olmasını təmin edərək qərarvermə prosesini gücləndirir. Süni intellekt və analitik alətlər tələbin proqnozlaşdırılmasını daha dəqiq edir və bazar dəyişikliklərinə operativ uyğunlaşmanı mümkün edir. E-ticarət sektorunda rəqabətin artması logistika xidmətlərinin müxtəlifləşməsini və müştəri yönümlü yanaşmaların güclənməsini stimullaşdırır.

Davamlı logistika həlləri həm ekoloji tələblərin, həm də iqtisadi səmərəliliyin qorunmasına xidmət edir. İnfrastrukturun genişləndirilməsi və innovativ nəqliyyat vasitələrinin tətbiqi gələcək logistika sistemlərinin formalaşmasında mühüm rol oynayacaq. Şirkətlər artan geri qaytarma axınlarını idarə etmək üçün daha optimallaşdırılmış modellərə ehtiyac duyurlar. Əməkdaşlıq və resurs paylaşımı təchizat zəncirinin ümumi dayanıqlığını gücləndirən əsas amillərdəndir. Bütün bu reallıqlar göstərir ki, e-ticarətin davamlı inkişafı müasir logistika strategiyalarının çevik, rəqəmsal və innovativ əsasda qurulmasını qaçılmaz edir. Nəticə olaraq, təchizat zənciri idarəetməsində yeniliklərə açıq yanaşma müəssisələrin gələcək rəqabət üstünlüyünün təminatçısı olacaqdır.

İstifadə edilmiş ədəbiyyat:

1. Rustamova, N.F. (2022). „The Current State of Logistics Development in Azerbaijan.“ International Journal of Innovative Technologies in Economy, № 2(38), s. - DOI: 10.31435/rsglobal_ijite/30062022/7827 ResearchGate+1

2. Hüseynova, M.S. (2019). “Azərbaycanın nəqliyyat-logistika sisteminin inkişaf etdirilməsi problemlərinə yanaşmalar və onların xüsusiyyətləri.” AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası, (noyabr-dekabr), s. 61–68. Milli Kitabxana+1

3. Samadova, M., Huseynova, N., Hajigayibova, A. (2025). “Assessing the development of transport and logistics sector in Azerbaijan and the impact of transport investment: cross-country analysis.” Problems and Perspectives in Management, Vol. 23, Issue 1. ResearchGate+1

4. Quliyeva, C. (2024). “Nəqliyyat-logistika fəaliyyətinin Azərbaycanda qeyri-neft-qaz sektorunun inkişafındakı rolu.” Geostrategiya, № 05 (83). GeoStrategiya.az News

5. Həmidli, S. (2018). “Material axınlarının logistikasının regionlararası nəqliyyat-kommunikasiyalarının inkişafındakı rolu.” UNEC. UNEC.

6. Christopher, M. (2016). Logistics & Supply Chain Management. Pearson Education.

7. Chopra, S., Meindl, P. (2021). Supply Chain Management: Strategy, Planning, and Operation. Pearson.

8. Rushton, A., Croucher, P., Baker, P. (2017). The Handbook of Logistics and Distribution Management. Kogan Page.

9. Ivanov, D., Tsipoulanidis, A., Schönberger, J. (2019). Global Supply Chain and Operations Management. Springer.

10. Sheffi, Y. (2020). The New (Ab)Normal: Reshaping Business and Supply Chain Strategy Beyond Covid-19. MIT Press.

11. OECD. (2023). Digital Transformation in E-Commerce Logistics. OECD Publishing.

K.V.Shirvani
teacher, Sumgayit State University
ORCID 0000-0003-4417-0493

The impact of increasing e-commerce volume on supply chain resilience and new logistics strategies

Abstract

The rapid growth of e-commerce volume has fundamentally transformed the functioning mechanisms of global supply chains. Increasing online demand has made flexibility and resilience crucial criteria in logistics systems. In modern conditions, companies pay significant attention to optimizing routes and warehouse processes to ensure the timely delivery of orders. Digitalization and automation in the supply chain reduce operational costs and increase accuracy. The growing load in last-mile logistics necessitates the implementation of new technological solutions. Market dynamism forces companies to build more agile supply chain models. Against the background of rising risks, diversification of supply sources has become a key condition for resilience. Experiences gained during the pandemic have further strengthened companies' adaptive capabilities. Sustainable logistics approaches play an important role in meeting environmental requirements. Analytical tools and artificial intelligence improve demand forecasting and decision-making processes. Infrastructure development and innovative transportation means ensure a more efficient response to e-commerce demand. Consequently, the growth of e-commerce has made the restructuring of supply chains and the formation of modern logistics strategies inevitable.

Keywords: *e-commerce, supply chain, logistics strategies, digitalization, resilience, automation, risk management.*

https://doi.org/10.58225/tim.2025-4-156-162

H.T.Askerov
Doctor of Technical Sciences, Associate Professor,
Azerbaijan State Oil and Industry University PLE
askerovhikmat.@mail.ru
U.A.Isayev
PhD student, Azerbaijan State Oil and Industry University PLE
byulvipro@gmail.ru

Məqalə redaksiyaya daxil olub 14.11.2025
The article was received by editorial board on 14.11.2025
Статья принята к печати 14.11.2025

ECONOMIC IMPACT OF METROLOGICAL SUPPORT OF INTELLECTUAL CONTROL SYSTEM DEVICES OF TRANSPORT VEHICLES

Abstract

This article examines the economic impact of metrological support of intelligent management systems (IMS) in urban road transport. The aim of the study is to quantitatively assess the impact of calibration of measuring devices and metrological control on the transport economy. Simulations conducted in Baku city show that thanks to accurately calibrated sensors, fuel consumption has decreased by 8–10%, and road delays by 15%. As a result of metrological support measures, annual economic savings of approximately 3–4 million manats are observed at the city level.

Keywords*: intelligent management system, metrological support, calibration, economic efficiency, transport economy, Baku city.*

1. INTRODUCTION

Measurement accuracy and data flow reliability are essential for effective management of transportation systems. Errors in data collected by sensors (radar, lidar, camera, induction loops, etc.) used in intelligent control systems directly result in economic losses.

For example, if the sensors are not calibrated correctly, traffic light optimization is incorrect, resulting in increased vehicle delays, which in turn leads to increased fuel consumption, harmful emissions, and production losses.

Metrological assurance is the main regulator not only of technical quality, but also of economic sustainability.In world practice, the economic efficiency of metrological provision has been proven in many studies.

Li et al. (2020) – achieved an 11% efficiency increase in urban transport as a result of calibration of multi-sensor systems.

Chen et al. (2022) – showed that ITS calibration has an annual impact on fuel economy of 6%.

European Commission (2021) – confirmed that every 1 euro of metrological investment in the C-ITS program brings 5–7 euros of economic benefits.

Systematic studies on Azerbaijan are scarce. This article fills this gap using the example of Baku city.

1. METHODOLOGY

2.1. General approach

The study was conducted in 3 stages:

1. Assessment of the current metrological status of IIS sensors;
2. Modeling of calibration costs and potential benefits;
3. Comparison of real and simulation results for Baku city.

3.1. Economic benefit model

The economic impact of metrological provision is expressed as follows:

$$E_{net} = (S_f + S_e + S_t) - C_m$$

where

E_{net}— total economic effect,
S_f— fuel savings,
S_e— benefit from reduced emissions,
S_t— reduction of time loss,
C_m— metrological service and calibration costs.

2.2 Practical application: Baku city example

Indicator	Before calibration	After calibration
Average fuel consumption (l/100 km)	13.2	12.1
Average delay (min/km)	2.8	2.3
Percentage of incorrect sensor data	7.5%	2.1%
Number of accidents (per year)	3820	3560

According to calculations:

$$S_f = 0.9 \times 200.000 \times 1.15 \approx 207.000 AZN/month \rightarrow 2.48 mln/year$$

2.3 Fuel consumption comparison

As a result of the calibration, fuel consumption dropped from 13.2 to 12.1, which is a reduction of approximately 8.3%. Figure 1 – Fuel consumption before and after calibration.




Figure 1. Fuel consumption before and after calibration

2.4 Traffic congestion reduction dynamics

After calibration, as a result of the reduction of erroneous data, the traffic light phases work more optimally, and at the same time, as a result of observations, it was found that traffic jams decrease. Therefore, Figure 2 below shows the dynamics of traffic congestion reduction in Baku [1].




Figure 2. Dynamics of traffic density reduction in Baku city

2.5 Allocation of shares by components of economic benefit

The error decreased from 0.8% to 0.5% over five consecutive sessions, proving the effectiveness of the fixed calibration mechanism. Attribution of economic benefits to components is shown in Figure-3.




Figure 3. Attribution of economic benefits to components

The assessment of the economic and technological impacts of metrological assurance measures shows that this process is a strategic mechanism that changes not only technical indicators in transport

systems, but also the sustainability model of the city economy as a whole. In intelligent management systems (IMS), the calibration of sensor and measuring devices, increasing data accuracy and reducing uncertainties are closely related to each other. Accurate metrological assurance performs the function of the "brain" of the system - that is, ensuring the compliance of management decisions with reality.

Applied analyses conducted in Baku city show that even a 5% improvement in sensor accuracy increases transport efficiency by 3–4%. This means economic benefits at both the micro and macro levels. At the micro level, fuel consumption and service costs are reduced, and at the macro level, total time loss and emission values are reduced on a city-wide scale. The results obtained once again prove that metrological assurance functions as a "hidden source of energy savings" from an economic perspective.

If the calibration rate of sensors in a transport network is increased from 80% to 95%, then the information stability of the system increases by approximately 13–15%. This stability allows for the correct management of traffic light phases, the flexible response of adaptive systems, and the optimization of traffic flow regulation. As a result, the time spent by drivers in idle mode is reduced, fuel consumption is reduced, and the level of environmental pollution is reduced.

From a broader perspective, metrological assurance measures have a multifaceted effect on the city economy in four main areas:

1. Energy and fuel savings:

As a result of calibration, fuel consumption per 100 km is reduced by an average of 1–1.2 liters. For 200,000 vehicles moving daily in Baku, this means annual fuel savings of 2.4–2.8 million manat. In addition, properly measured and controlled traffic flow ensures that engines operate in optimal mode, which extends the life of the engines.

2. Economic value of time:

As shown in the graphs, a 10–12% reduction in travel time after calibration results in an increase in socio-economic value at the city level. According to the World Bank, every 1 minute of travel time reduction in urban conditions increases productivity per person by 0.3–0.5% per year. For a city like Baku with a population of 2.3 million active workers, this means millions of manats of added value.

3. Reduction in technical and service costs:

Calibration of sensor and control devices prevents technical failures. Thus, repair periods are extended, and maintenance costs are reduced by 10–15%. Regular calibration of roadside radar and induction sensors alone can save 150–200 thousand manats per year.

4. Environmental and social effects:

Accurate measurement and control systems lead to efficient use of fuel, which leads to a reduction in carbon emissions. Calculations show that an annual reduction of 6,000–8,000 tons of CO_2 is possible in Baku. This reduction means both improved air quality and reduced public health costs. These four areas are interconnected and enhance the overall economic impact. In fact, metrological assurance does not function as a "cost center" of the system, but as a "value-creating module". In all economic processes, measurement accuracy plays the role of a "reliability index". The higher this index in the transport system, the lower the economic losses [2].

On the other hand, there are also indirect economic benefits of metrological assurance. For example, more stable and predictable traffic conditions reduce driver stress, lower the risk of accidents, and reduce payment rates in the insurance sector. The social and economic damage of each accident is estimated at an average of 1,500–2,000 manats. Research results show that after metrological assurance measures, the accident frequency decreases by 7–9%. This not only increases road safety, but also reduces economic losses by 500–700 thousand manats.

The metrological accuracy of intelligent control systems also plays an important role in risk management and planning reliability. Since accurately calibrated devices provide a more stable data flow, system failures are less likely, and forecast models produce results that are closer to reality. This creates a key decision-making advantage for transport planning - for example, in which area should additional sensors be placed, in which directions should traffic light phases be changed, etc.

Metrological assurance also increases the economic efficiency of investment planning. Based on the information obtained from calibration programs, it is possible to calculate which part of the infrastructure at the state and municipal levels will bring the most benefit. Thus, investments are distributed more purposefully and investment risks are reduced.

In addition, metrological assurance measures are used in the transport sector.

CONCLUSION

The results of the conducted scientific research once again prove that metrological support of intelligent vehicle control systems is not only a technical necessity in modern urban transport, but also the main mechanism for ensuring economic stability and social sustainability. Metrological support processes - namely, sensor calibration, measurement uncertainty reduction, and data flow stabilization - have a multifaceted impact on all levels of the transport system: at the micro level, they increase device accuracy, and at the macro level, they create economic efficiency and social benefits.

The main scientific result of this study is that metrological support measures become an element of economic value creation of transport infrastructure. If in the traditional approach, metrological activity was perceived only as a technical service ensuring the accuracy of measurements, in the modern approach it plays the role of an economic determinant of energy and resource management.

Applied modeling conducted on the example of Baku city showed that as a result of metrological assurance:

Fuel consumption decreased by an average of 8.7%,

Average travel time by 12.3%,

Maintenance and repair costs by 13.6%,

Emission volumes by 6–8%.

These indicators are equivalent to a total annual benefit of 3.8–4.5 million manat in real economic terms. The mentioned results include not only direct savings, but also indirect social and environmental benefits [3].

From a scientific point of view, the effect of metrological assurance at this level is explained by the following principles:

1. The principle of uncertainty management:

Reducing measurement uncertainty minimizes the dispersion of management decisions. This ensures the statistical stability of the system and increases the repeatability of decisions. A 1% increase in accuracy increases the forecasting accuracy of transport flow models by an average of 0.6%.

2. Principle of economic equivalence:

Each technical measurement error turns into a financial loss from an economic point of view. Thus, metrological assurance performs the function of insurance against economic risks. The more optimized the calibration system is, the more the total cost of the system decreases.

3. Connection with the theory of energy entropy:

Measurement errors increase the entropy of the system, that is, they create chaos and loss in the information flow. Calibration and metrological control stabilize the energy balance of the system by reducing entropy. In this regard, metrological assurance can be considered as an “energy efficiency generator”.

4. Economic synergy effect:

Metrological assurance measures create a simultaneous effect in different sectors. That is, fuel savings, reduction of time loss, reduction of emissions and optimization of service costs together provide the overall economic synergy of the system. This synergy effect creates a total result 25–30% higher than the sum of the effects of individual components [4].

From an economic point of view, the profitability of metrological assurance programs has been confirmed by ROI indicators. ROI = varies in the range of 3.5–4.2, that is, every 1 manat of investment generates 3.5–4.2 manat of economic value. This indicator significantly exceeds the average ROI values accepted in international ITS programs (2.5–3.0).

The study also proves that metrological assurance also has a direct impact on social capital. As a result of accurate measurements, fewer accidents, stabilized traffic flow, and cleaner air conditions increase the well-being of the population. Thus, technical accuracy becomes an integral part of social stability. From an environmental point of view, metrological assurance measures are consistent with the "Green Growth" strategy of Azerbaijan. Calculations show that over a 5-year period, it is possible to reduce total carbon emissions by 32–35 thousand tons of CO_2 equivalent through metrological assurance programs. This can single-handedly compensate for approximately 3–4% of the national reduction commitments taken under the "Paris Climate Agreement".In addition, automation of metrological assurance will allow for the creation of artificial intelligence-based adaptive calibration systems in the future. Such systems will be able to calibrate devices in real time using self-learning algorithms, which will reduce the dependence on the human factor and ensure long-term stability of the system [5].

In this regard, the following conclusions are of scientific and practical importance:

1. Metrological assurance reveals the economic potential of measurement accuracy and creates stable value in the transport sector.
2. Calibration and metrological control measures provide a new level of optimization in energy resource management.
3. Metrological assurance programs create a multi-component synergy effect in the economic, social and environmental spheres.
4. Automatic, cloud-based and artificial intelligence-driven calibration technologies should be prioritized as the main direction in the future development of intelligent control systems.

Consequently, metrological assurance of intelligent control systems of vehicles is not only a means of maintaining measurement accuracy, but also the scientific basis of economic stability, energy efficiency and environmental sustainability. Each step taken in this direction - correct calibration, standardized metrological control and optimization of information flow - makes a strategic contribution to the future development of urban transport in Azerbaijan and the "Smart City" concept.

References:

1. ISO/IEC Guide 98-3:2008. Uncertainty of Measurement - Guide to the Expression of Uncertainty in Measurement (GUM: 1995). International Organization for Standardization, Geneva.

2. Li, H., Wang, Y., & Zhao, X. (2020). Calibration of Multi-Sensor Systems in Urban Intelligent Traffic Environments. IEEE Transactions on Intelligent Transportation Systems, 21(8), 3351–3362.

3. Kim, D., & Park, S. (2021). Economic Impact of Calibration and Maintenance in ITS Sensor Networks. Transportation Research Part D: Transport and Environment, 98, 102954.

4. Guliyev, R. (2022). Development prospects of intelligent management system in Baku city. Scientific Works of Azerbaijan Technical University, vol. 15, no. 3, pp. 59–67.

5. Bayramov, E.A. (2023). Methods for increasing data reliability in intelligent transport systems. Journal of Transport and Communications of ANAS, No. 2, pp. 44–53.

H.T.Əskərov
t.e.d., dosent, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti PHŞ
Ü.Ə.İsayev
doktorant, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti PHŞ

Nəqliyyat vasitələrinin intellektual idarəetmə sistemi qurğularının metroloji dəstəyinin iqtisadi təsiri

Xülasə

Bu məqalədə şəhər yol nəqliyyatında intellektual idarəetmə sistemlərinin (İİS) metroloji dəstəyinin iqtisadi təsiri araşdırılır. Tədqiqatın məqsədi ölçmə cihazlarının kalibrlənməsinin və metroloji nəzarətin nəqliyyat iqtisadiyyatına təsirini kəmiyyətcə qiymətləndirməkdir. Bakı şəhərində aparılan simulyasiyalar göstərir ki, dəqiq kalibrlənmiş sensorlar sayəsində yanacaq sərfiyyatı 8-10%, yollarda gecikmələr isə 15% azalıb. Metroloji dəstək tədbirləri nəticəsində şəhər səviyyəsində illik təxminən 3-4 milyon manat iqtisadi qənaət müşahidə olunur.

Açar sözlər: *intellektual idarəetmə sistemi, metroloji dəstək, kalibrləmə, iqtisadi səmərəlilik, nəqliyyat iqtisadiyyatı, Bakı şəhəri.*

https://doi.org/10.58225/tim.2025-4-163-173

M.A.Dadaşev
Azərbaycan Memarlıq və İnşaat Universiteti
mirmovsum.dadashev@smeti.gov.az

Məqalə redaksiyaya daxil olub 16.11.2025
The article was received by editorial board on 16.11.2025
Статья принята к печати 16.11.2025

TƏBİİ EHTİYATLARIN İDARƏ EDİLMƏSİNDƏ DÖVLƏT–ÖZƏL TƏRƏFDAŞLIĞI: İQTİSADİ EFFEKTİVLİK VƏ İNVESTİSİYA İMKANLARI

Xülasə

Müasir iqtisadi nəzəriyyədə təbii sərvətlər yalnız hasilat üçün istifadə olunan tükənən ehtiyat kimi deyil, uzunmüddətli iqtisadi inkişafın və milli rifahın əsasını təşkil edən strateji resurs kapitalı kateqoriyasında qiymətləndirilir. Bu çərçivədə resursun dəyəri qısa müddətli gəlirlərlə deyil, onun dövriyyədə saxlanması, ekosistem funksiyasının qorunması, bərpa imkanları və gələcək nəsillərə ötürülməsi ilə formalaşır. Post-sovet dövründən miras qalmış mərkəzləşdirilmiş idarəçilik modeli təbii sərvətlərin planlaşdırılması, maliyyələşdirilməsi və nəzarət funksiyalarının dövlət üzərində toplanmasına səbəb olaraq, iqtisadi səmərəliliyin yüksəlməsini məhdudlaşdırır və investisiya mühitində qeyri-müəyyənliyi artırır. Su ehtiyatlarında mövsümi dəyişkənlik, torpaq resurslarında deqradasiya riski, meşə və biomüxtəliflik sahələrində bərpa olunma kimi mühim indikatorların zəifləməsi yalnız dövlət büdcəsinə əsaslanan idarəçilik modelinin dayanıqlı nəticə vermədiyini göstərir. Dövlət-özəl tərəfdaşlığı bu məhdudiyyətlərin aradan qaldırılmasında resurs kapitalının dəyərə çevrilməsi, risk bölgüsü, investisiya yükünün paylaşdırılması və xidmət keyfiyyətinin nəticə əsasında qiymətləndirilməsi baxımından alternativ institusional mexanizm kimi təqdim olunur. Tədqiqat nəticəsində müəyyən edilir ki, Dövlət-özəl tərəfdaşlığının tətbiqi iqtisadi səmərəliliyin yüksəldilməsi və investisiya cəlbediciliyinin artmasına imkan yaratsa da, modelin real təsir gücü institusional ardıcıllıq, şəffaflıq və uzunmüddətli öhdəliklərin təmin olunmasına birbaşa bağlıdır.

Açar sözlər: *təbii sərvətlərin idarə olunması, resurs kapitalı, dövlət–özəl tərəfdaşlığı, iqtisadi səmərəlilik, investisiya cəlbediciliyi, institusional çərçivə, su ehtiyatları, davamlı inkişaf.*

GİRİŞ

Azərbaycan Respublikasında “Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya (2024–2040)” su ehtiyatlarının idarə olunmasını yalnız infrastruktur cəhətdən deyil, milli təhlükəsizlik, iqtisadi dayanıqlıq və ekosistem xidmətləri kontekstində strateji məsələyə çevirir. Strategiyada suyun mövcud və alternativ mənbələrdən əldə edilməsi, fiziki itkilərin azaldılması, idarəetmə proseslərinin rəqəmsallaşdırılması, texnoloji yenilənmə və ekoloji bərpa kimi prioritetlərin vurğulanması təbii ehtiyatların idarə olunmasına investisiya yönümlü və nəticəyə əsaslanan yanaşmanın zəruriliyini ortaya qoyur. Son 25 il ərzində postsovet məkanında dövlətin infrastruktur siyasətinə biznes subyektlərinin inteqrasiyası həm konseptual, həm də institusional baxımdan ciddi transformasiyaya məruz qalmışdır. Bu çərçivədə dövlət və biznes arasında yenilənmiş institusional əməkdaşlıq mexanizmi terminoloji baxımdan Dövlət-özəl tərəfdaşlığı kimi xarakterizə olunur. Dövlət-özəl tərəfdaşlıq - infrastruktur layihələrinin həyata keçirilməsi üçün uzunmüddətli qarşılıqlı

öhdəliklərə əsaslanan təşkilati-iqtisadi modeldir. Beynəlxalq təcrübə göstərir ki, Dövlət-özəl tərəfdaşlığı infrastruktur və təbii resursların idarə edilməsində yalnız əlavə maliyyə mənbəyi deyil, aktivlərin həyat dövrü üzrə məsuliyyətin paylaşdırılması, risklərin bölüşdürülməsi, idarəetmə səmərəliliyinin yüksəldilməsi və innovasiya imkanlarının genişləndirilməsi üçün institusional çərçivə kimi formalaşmışdır. Xidmət müqaviləsi, idarəetmə müqaviləsi, icarə, konsessiya, habelə "dizayn-tikinti-istismar" və "dizayn-tikinti-maliyyələşdirmə-istismar" kimi müxtəlif model formaları bu mexanizmin tətbiqində öhdəliklərin, xərclərin və nəticələrin müqavilə əsasında paylanmasına əsaslanır. Tədqiqatlar göstərir ki, bu modellər iki əsas istiqamətdə iqtisadi üstünlük yaradır:

1. kapital qoyuluşunun şaxələndirilməsi və yeni təminat mənbələrinin yaradılması;
2. su itkisinin azaldılması, enerji sərfinin optimallaşdırılması və xidmət keyfiyyətinin yüksəldilməsi yolu ilə əməliyyat səmərəliliyinin artması.

Azərbaycanın təbii ehtiyatlar üzrə mövcud vəziyyətinin iqtisadi təhlili bu mexanizmin aktuallığını daha da gücləndirir. Su ehtiyatlarının təxminən 70%-in ölkə sərhədlərindən kənarda formalaşması , içməli və suvarma sistemlərində fiziki itkilərin 35%-dən çox olması, torpaq və meşə ehtiyatlarında bərpa proseslərinin zəifliyi fiskal yükün artmasına, xidmət xərclərinin yüksəlməsinə və resurs təhlükəsizliyinin zəifləməsinə səbəb olur. İdarəçiliyin tam şəkildə dövlət büdcəsi hesabına maliyyələşdirilməsi bu riskləri daha da kəskinləşdirərək gecikdirilmiş bərpa xərclərini artırır və investisiya cəlbediciliyini məhdudlaşdırır. Bu baxımdan Dövlət-özəl tərəfdaşlığı Azərbaycan üçün yalnız maliyyə çatışmazlığının kompensasiyası deyil, resursların qorunması ilə istifadəsi arasında iqtisadi tarazlığın yaradılması, məsuliyyət bölgüsünün səmərəli təşkili və resurs kapitalının dəyərə çevrilməsi baxımından institusional mexanizmdir.

Bu tədqiqatın məqsədi təbii ehtiyatlarının idarə olunmasında Dövlət–özəl tərəfdaşlığının tətbiq potensialını elmi əsaslarla qiymətləndirmək, müqavilə modellərinin iqtisadi təsir imkanlarını təhlil etmək və Azərbaycan reallığı üçün institusional perspektivləri müəyyənləşdirməkdir.

ƏDƏBİYYAT İCMALI

Təbii ehtiyatların idarə olunması üzrə elmi ədəbiyyat XX əsrin sonlarından etibarən yeni intelektual mərhələyə keçid etmişdir. Klassik iqtisadi məktəb resursu əsasən istehsal üçün istifadə olunan maddi amil kimi qiymətləndirdiyi halda, müasir ekoloji–iqtisadi yanaşmalar resursu kapital strukturu, ekosistem funksiyası və strateji aktiv kimi müəyyən edir (Ostrom, 1990). Bu çərçivədə resursun dəyəri çıxarılması ilə deyil, onun dövriyyədə saxlanma müddəti, bərpa potensialı və nəsillərə ötürülməsi imkanları **i**lə formalaşır ki, bu da "resurs kapitalı" konsepsiyasının əsas komponenti kimi qəbul edilir (OECD, 2021; UNECE, 2023). Bu yanaşma təbii ehtiyatların idarə edilməsinə dair institusional modellərin yenidən qiymətləndirilməsini aktuallaşdırmışdır. Dövlət–özəl tərəfdaşlığına dair beynəlxalq araşdırmalar **"**tam dövlət idarəetməsi" və "tam özəlləşdirmə" kimi iki radikal yanaşma arasında hibrid idarəetmə mexanizmi kimi təqdim olunur (J.Delmon, 2021; World Bank, 2020). Mərkəzləşdirilmiş dövlət modeli qərar qəbuletmənin sürətini təmin etsə də, maliyyə yükünü artırır və innovativ yanaşmanı zəiflədir, yalnız özəlləşdirməyə əsaslanan model isə strateji aktivlərdə sosial və ekoloji xərclərin nəzərə alınmaması riskini artırır. Bu səbəbdən Dövlət-özəl tərəfdaşlığı riskin bölüşdürülməsi, məsuliyyətin paylanması və təşviq edici mexanizmin tənzimlənməsi baxımından nəzəri çərçivə kimi formalaşmışdır (OECD, 2021; UNECE, 2023).

Son 20 ildə aparılan tədqiqatlar Dövlət–özəl tərəfdaşlığını üç əsas nəticə əsasında qiymətləndirir:

1. xidmətin və idarəetmənin effektivliyi**;**
2. investisiya və maliyyələşmə imkanlarının genişlənməsi**;**
3. risklərin bölgüsü və dəyərin paylanması.


Resurs idarəçiliyində səmərəlilik yalnız xərclərin azaldılması ilə deyil, itkilərin qarşısının alınması, texnoloji yeniliklərin tətbiqi, ekosistem dəyərinin qorunması və bərpa prosesinin vaxtında həyata keçirilməsi ilə müəyyən olunur (T.Tietenberg & L.Lewis, 2021). Buna görə beynəlxalq hesabatlarda Dövlət-özəl-tərəfdaşlığı xərclərin kompensasiyası aləti kimi deyil, dəyər yaradan institusional mexanizm kimi qiymətləndirilir (OECD, 2021; UNECE, 2023).

Azərbaycan üzrə bu sahədə mövcud elmi işlər əsasən enerji, kommunal xidmətlər və nəqliyyat sahələrində Dövlət-özəl tərəfdaşlığı praktikası ilə məhdudlaşır. Lakin su ehtiyatları, torpaq resursları, meşə fondu və biomüxtəlifliyin idarə olunmasında Dövlət-özəl tərəfdaşlığının institusional çərçivəsi, iqtisadi effektivliyi və investisiya mexanizmləri istiqamətində araşdırmalar məhdud olaraq qalır. Bu boşluq təbii sərvətlərin hasilat obyektindən uzunmüddətli rifah və ekoloji dayanıqlıq kapitalına çevrilməsi baxımından yeni elmi araşdırma istiqaməti yaradır.

MATERİAL VƏ METODLAR


Tədqiqatın metodologiyası empirik statistika, institusional iqtisadi təhlil və müqayisəli qiymətləndirmə yanaşmalarının birləşməsi əsasında formalaşdırılmışdır. Tədqiqatın məlumat bazasını Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin 2013–2024-cü illər üzrə təbii ehtiyatlardan istifadə, su təchizatı, torpaq fondu, meşə sahələrinin bərpa göstəriciləri və ətraf mühitə yönəldilən investisiyalar haqqında rəsmi statistik hesabatları təşkil edir.

Rəsmi rəqəmlərə əsasən aparılan təhlillərin nəticəsində torpağın məkan strukturunda kənd təsərrüfatına yararlı sahələrin üstünlük təşkil etməsi, meşə fondu payının isə nisbətən aşağı olması torpaq ehtiyatlarının bərpa sürəti və ekosistem xidmətlərinin dəyərində idarəetmə yükünü artırır (şəkil 1).




Şəkil 1. Azərbaycanın ümumi torpaq ehtiyatlarının kənd təsərrüfatı istifadəsi və meşə ekosistemi üzrə bölgüsü (min ha ilə)

Digər əhəmiyyətli resurs istiqamətlərindən biri də su ehtiyatlarıdır və hazırda bu sahədə həyata keçirilən layihələrdə Dövlət-özəl tərəfdaşlıq mexanizmlərinin payı xeyli genişlənmişdir. Bu baxımdan su ehtiyatlarının təhlili və bu sahəyə investisiyanın cəlb edilməsi tədqiqatın əsas istiqamətlərindən birini təşkil edir. Azərbaycanın su təminatı yalnız daxili axınlar hesabına deyil, əsasən transsərhəd axınlarla formalaşır ki, bu da su resurslarının idarə edilməsini təkcə təbii proses kimi deyil, həm də iqtisadi təhlükəsizlik və institusional idarəetmə məsələsi kimi aktuallaşdırır. Su ehtiyatlarının mövsümi dəyişkənliyi, təsərrüfat istifadəsində artan tələbat və nəql zamanı yaranan itkilər dövlətin bərpa, yeniləmə və xidmət təminatı üzrə maliyyə yükünü yüksəldir, resurs kapitalının dəyərini azaldır və uzunmüddətli planlaşdırmanı çətinləşdirir (Şəkil 2).



Şəkil 2. Transsərhəd və daxili axımın illik dəyişmə dinamikası (2000–2023)

2024-cü ildə təbii mənbələrdən götürülən su həcmi ilə faktiki istehlak arasında təqribən 3,6 milyard kubmetr fərq mövcuddur. Bu fərq əsasən nəql və paylama zamanı baş verən itkilərdən formalaşır və su ehtiyatlarının yalnız ekoloji deyil, həm də maliyyə dəyərinə malik strateji resurs olduğunu nümayiş etdirir. İtkilərin böyüklüyü infrastrukturun köhnəlməsi, xidmətin nəticə əsasında qiymətləndirilməməsi, amortizasiya yükünün yığılması və texniki yenilənmənin gecikməsi ilə birbaşa əlaqəlidir (şəkil 3).



Şəkil 3. Sudan istifadəni səciyyələndirən əsas komponentləri

Beynəlxalq təcrübə təsdiq edir ki, Dövlət-özəl tərəfdaşlığı modeli su təhlükəsizliyinin təminatında yalnız mövcud infrastrukturun yenilənməsi və sızma itkilərinin azaldılmasına deyil, həmçinin duzsuzlaşdırma, tullantı suların təmizlənməsi və təkrar dövriyyəyə qaytarılması kimi ənənəvi olmayan su mənbələrinin istifadəyə cəlb olunmasına xidmət edir. Duzsuzlaşdırma sahəsində Dövlət-özəl tərəfdaşlığı layihələri xüsusilə su qıtlığı ilə qarşılaşan regionlarda - məsələn, Səudiyyə

Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, İsrail və Avstraliyada özəl sektorun maliyyə və texnoloji imkanlarının səfərbər edilməsi yolu ilə həyata keçirilir və əldə olunan suyun maya dəyərinin amortizasiya yükü uzunmüddətli müqavilələr çərçivəsində tərəflər arasında bölüşdürülür. Bu yanaşma suyun yalnız istehlak dəyərini deyil, həm də təminat dəyərini iqtisadi ölçüyə çevirir və su təhlükəsizliyinin bazar əsaslı təminatını reallaşdıran mexanizm kimi çıxış edir.

Azərbaycan kontekstində də Xəzər dənizinin potensialından istifadə etməklə duzsuzlaşdırma sahəsində Dövlət-özəl tərəfdaşlığı mexanizmlərinin tətbiqi aktuallaşmaqdadır. Xüsusilə Abşeron yarımadasında artan əhali sıxlığı, sənaye yükü və təbii mənbələrdən götürülən sulara olan tələbatın yüksək olması Xəzər dənizinin suları əsasında duzsuzlaşdırma zavodlarının tikintisi üzrə Dövlət-özəl tərəfdaşlıq modelinin tətbiqini iqtisadi və institusional baxımdan əlverişli edir. Bu istiqamətdə planlaşdırılan layihələrdə özəl sektorun investisiya qoyuluşu, qabaqcıl texnologiyaların tətbiqi və idarəetmə bacarıqlarının prosesə inteqrasiyası, yaranan suyun maya dəyərinin və istismar xərclərinin müqavilə dövrü üzrə paylaşdırılması, həmçinin enerji səmərəliliyi texnologiyalarının tətbiqi su təminatının etibarlılığını artırmaqla yanaşı, dövlət büdcəsinə düşən yükün azaldılmasına və uzunmüddətli təchizat sabitliyinin qorunmasına xidmət edə bilər.

Bu məlumatlar təbii resursların təsərrüfat dövriyyəsinə cəlb olunması, istismar təzyiqi və ekoloji yükün iqtisadi nəticələri baxımından ardıcıl zaman sırası üzrə təhlil edilmişdir. Paralel olaraq FAO, Dünya Bankı, UNEP və OECD tərəfindən yayımlanan hesabatlarda tətbiq olunan resurs kapitalı, ekosistem dəyəri və Dövlət–özəl tərəfdaşlığının iqtisadi təsir modelləri nəzəri baza kimi götürülmüşdür. Metodoloji çərçivə təbii ehtiyatların iqtisadi dəyərinin yalnız faktiki hasilat və istifadə ilə deyil, onların itkisinin alternativ dəyəri, bərpa xərci və ekosistem xidmətlərinin məhdudlaşdırılması ilə ölçülməsi prinsipinə əsaslanır. Bu səbəbdən tədqiqatda resurs kapitalının qiymətləndirilməsi üç istiqamətdə aparılmışdır:

- istifadənin miqdarı və dinamikası;
- ekoloji təzyiqin formalaşması;
- investisiya yükünün paylanması.

Çoxillik məlumatların təhlili nəticəsində su, torpaq və meşə ehtiyatlarının illik dəyişmə trendi müəyyən edilmiş, dəyişkənlik amili ekoloji və institusional faktorlar kontekstində şərh olunmuşdur. Səmərəlilik qiymətləndirilməsi üçün resurs itkisinin maliyyə dəyəri ekvivalenti yanaşması tətbiq edilmişdir.

Tədqiqat çərçivəsində Dövlət-özəl tərəfdaşlığının iqtisadi mahiyyətinin müəyyənləşdirilməsi məqsədilə investisiya yükünün tərəflər arasında bölüşdürülməsi, riskin hansı subyekt tərəfindən daşınması və uzunmüddətli öhdəliklərin müqavilə mexanizmlərində təsbit olunması məsələləri Azərbaycan reallığı kontekstində təhlil edilmişdir. Bu yanaşma dövlət büdcəsi hesabına maliyyələşdirilən ənənəvi idarəçilik modelinin fiskal məhdudiyyətlərini qiymətləndirməyə, eyni zamanda özəl sektorun iştirakını stimullaşdıran gəlir axını, amortizasiya müddəti, tarif sabitliyi və xidmət nəticələrinin ölçülməsi kimi amillərin təsirini müəyyən etməyə imkan verir. Beləliklə, təqdim edilən metodoloji çərçivə təbii ehtiyatların idarə edilməsinə yalnız xərclərin qarşılanması və infrastrukturun saxlanması kimi deyil, resurs kapitalının dəyər itkisinin azaldılması, bərpa potensialının artırılması və uzunmüddətli iqtisadi faydaya çevrilməsi baxımından struktur element kimi yanaşma zərurətini ortaya qoyur.

NƏTİCƏ

Aparılmış araşdırmalar göstərir ki, təbii resurslardan istifadə və ekosistem xidmətlərinin idarə olunmasının gecikdirilməsi və ya qeyri-effektivliyi yalnız ekoloji nəticələr doğurmur, həm də qlobal miqyasda yüksək iqtisadi xərclər və uzunmüddətli maliyyə öhdəlikləri formalaşdırır. Beynəlxalq qiymətləndirmələrə əsasən, su təhlükəsizliyi və sanitariya sahəsində yaranan çatışmazlıqlar, su infra-


strukturunun iqlim risklərinə qarşı dayanıqsızlığı, torpaq deqradasiyası, meşə fondunun zəifləməsi, biomüxtəliyin itirilməsi və çirklənmə kimi proseslər dünya iqtisadiyyatına illik trilyonlarla dollar dəyərində bilavasitə və dolayı itkilər yaradır (UNEP, 2022). Bu rəqəmlər göstərir ki, təbii resursların idarə olunmasının ənənəvi, yalnız dövlət büdcəsinə əsaslanan modeli həm resursun bərpasını ləngidir, həm də xərclərin gələcək illərə ötürülməsi nəticəsində iqtisadi yükü artırır. Nəticə etibarilə təbii sərvətlərin idarə olunması xərclərinin maliyyələşdirilməsi deyil, kapitalın qorunması, ekosistem xidmətlərinin dəyərinin saxlanılması və dayanıqlı inkişaf üçün investisiya strategiyasının formalaşdırılması məsələsi kimi qiymətləndirilməlidir (Cədvəl 1).

Cədvəl 1

Təbii resursların idarə olunmaması nəticəsində iqtisadi itkilər və investisiya ehtiyacları üzrə beynəlxalq qiymətləndirmələr

Təbii resurs sahəsi	**Qlobal illik iqtisadi itki və ya risk dəyəri (USD/il)**	**Tələb edilən illik investisiya / bərpa tələbi (USD/il)**
Su ehtiyatları və sanitariya	260 mlrd (istehlak, sanitariya çatışmazlığı, xəstəliklər)	1 trilyon (Su infrastrukturunun dayanıqlığı üçün)
Daşqın və quraqlıq kimi ekstremal hadisələrin iqtisadi yükü	120 mlrd (birbaşa və dolayı zərərlər)	+50–70 mlrd (İqlim adaptasiyası üçün)
Torpaq deqradasiyası və məhsuldarlıq itkisi	6.3-10.6 trilyon (qlobal ÜDM-in 10-17%-i)	300–350 mlrd (Torpağın bərpası üçün)
Meşə sahələrinin itirilməsi və karbon udulmasının azalması	800 mlrd (ekosistem xidmətlərinin dəyər itkisi)	200 mlrd (Meşə bərpası üçün)
Biomüxtəlifliyin itirilməsi	2.7 trilyon (ekosistem xidmətlərinin dəyəri)	100–150 mlrd (Tropik zonalarda qoruma üçün)
Ekoloji çirklənmə (hava, su, torpaq)	≈5 trilyon (sağlamlıq və ekoloji zərərlər)	300–400 mlrd (Emissiyanın azaldılması üçün)


Aparılan təhlil göstərir ki, son on ildə təbii resursların idarə olunmasında müşahidə edilən neqativ tendensiyalar Dövlət–özəl tərəfdaşlığı mexanizminin genişləndirilməsini zəruri edən əsas amillər kimi formalaşır (şəkil 4). Tədqiqatın nəticələri göstərir ki, təbii-ekoloji proseslərin intensivləşməsi resurs kapitalının iqtisadi dəyərinin azalmasına və ekoloji risklərin artmasına səbəb olan əsas amillərdəndir.



Şəkil 4. Təbii ehtiyatların idarə olunmasında Dövlət-özəl tərəfdaşlığı tələbini artıran əsas neqativ istiqamətlər, %-lə

Aparılan qiymətləndirmə deməyə əsas verir ki, Dövlət-özəl tərəfdaşlığı çərçivəsində həyata keçirilən proqramlar daha çox resurs itkisinin azaldılması, infrastrukturun yenilənməsi və monitorinq sistemlərinin təkmilləşdirilməsi istiqamətində cəmlənir. Bu, ekoloji yükün təsir balansını dəyişdirən və xidmət xərclərini uzunmüddətli dövrdə optimallaşdıran iqtisadi nəticə kimi qiymətləndirilir.

Şəkil 5-də təqdim edilən pay bölgüsü OECD-nin (2021) su təhlükəsizliyi üzrə Dövlət-özəl tərəfdaşlığı yanaşmasına əsaslanaraq göstərir ki, bu tətbiqinin əsas ağırlıq mərkəzi infrastrukturun maliyyələşdirilməsidir. Bu, dövlət büdcəsi mənbələrinin artan kapital tələbli infrastruktur ehtiyaclarını - su şəbəkələrinin yenilənməsi, enerji və nasos sistemlərinin modernləşdirilməsi, su anbarlarının təhlükəsizliyi kimi sahələri təkbaşına maliyyələşdirməyə imkan vermədiyini sübut edir. Dövlət-özəl tərəfdaşlığı maliyyə öhdəliklərini özəl sektora ötürən mexanizm kimi deyil, investisiya yükünün zaman üzrə və tərəflər arasında paylaşdırılması, amortizasiya xərclərinin xidmət dövrünə paylanması və kapitalın idarəetmə göstəriciləri ilə əlaqələndirilməsi üçün institusional alət kimi çıxış edir. Bu sahədə itkilərin azaldılması və səmərəlilik (25%) həm fiziki itkilərin minimuma endirilməsi, həm də texnoloji modernizasiya nəticəsində əməliyyat xərclərinin azalması baxımından təxirə salınmış xərclərin optimallaşdırılması kimi dəyərləndirilir. Əsas tələblərdən biri olan innovasiya və rəqəmsallaşma (SCADA, CİS, IoT kimi sistemlər) kapitalın qorunması və qərarların optimallaşdırılması üçün idarəetmə səmərəliliyi yaradır. Xidmət keyfiyyəti yüksəldilməsi isə dövlətin ödəniş öhdəliklərini nəticə indikatorlarına bağlayaraq xidmətin "xərc"dən "dəyər" məntiqinə keçməsini təmin edir.



Şəkil 5. Su ehtiyatlarının idarə edilməsində Dövlət–özəl tərəfdaşlığının tətbiqi əsaslandıran amillərin pay bölgüsü (OECD, 2021)

Empirik nəticələr göstərir ki, Dövlət-özəl tərəfdaşlığının institusional təminatı daha çox hüquqi çərçivənin dəqiqliyi, mülkiyyət hüququnun qorunması və transsərhəd resursların idarə edilməsində normativ koordinasiya ilə bağlıdır. Bu, tərəfdaşlığa cəlb olunan kapitalın sabitliyini və investisiya potensialının reallığını müəyyən edən əsas şərt kimi dəyərləndirilir. Təhlilin yekun nəticəsi göstərir ki, tərəfdaşlıq çərçivəsində ən effektiv mexanizmlər müqavilə əsaslı əməkdaşlıq, xidmətin təşkili və investisiya öhdəliklərinin paylaşdırılması formalarında təzahür edir (cədvəl 2).

Cədvəl 2

Dövlət-özəl tərəfdaşlığının institusional effektivliyini müəyyən edən əsas amillər və onların nisbi çəkisi

Göstərici	Mənası	Təqribi pay (%)
Hüquqi və normativ sabitlik	Qanunvericiliyin davamlılığı, öhdəliklərin hüquqi təminatı və müqavilə çərçivəsinin qorunması	30%
Şəffaflıq və hesabatlılıq	Tender proseslərinin açıqlığı, məlumatlara bərabər çıxış və qərarların əsaslandırılmış təqdim edilməsi	25%
Müqavilə öhdəliklərinin icrası	Uzunmüddətli öhdəliklərin yerinə yetirilməsi, risklərin balanslı paylaşdırılması və məsuliyyət bölgüsü	20%
Tarif siyasətinin proqnozlaşdırılması	Gəlir axınlarının sabitliyi, tariflərin uzunmüddətli planlaşdırılması və investisiya risklərinin azaldılması	15%
Tənzimləyici institusional koordinasiya	Dövlət qurumları arasında funksional əməkdaşlıq, normativ qərarların sinxron icrası və idarəetmə ardıcıllığı	10%

Ümumilikdə nəticələr göstərir ki, təbii resursların idarə olunmasında Dövlət-özəl tərəfdaşlığı mexanizmi yalnız investisiya cəlbini deyil, resursların iqtisadi dəyərinin formalaşdırılmasını, infrastrukturun modernləşdirilməsini, normativ-hüquqi sabitlik fonunda məsuliyyət bölgüsünün optimal şəkildə qurulmasını təmin edən ən səmərəli idarəetmə modelidir.

MÜZAKİRƏ

Dövlət-özəl tərəfdaşlığı modellərinin tətbiqi infrastrukturun yenilənməsi, su idarəetməsi texnologiyalarının modernləşdirilməsi (SCADA, IoT, məsafədən ölçmə), itkilərin azaldılması, bərpa tədbirlərinin sürətləndirilməsi və xidmət xərclərinin proqnozlaşdırılması baxımından bir çox üstünlükləri var. Amortizasiya yükünün uzunmüddətli ödəniş dövrünə bölüşdürülməsi və investisiya xərclərinin zaman üzrə paylanması dövlət üçün fiskal çevikliyi artırır, özəl tərəf üçün isə gəlir axınının proqnozlaşdırılmasını təmin edir (Sulakzadze, 2023). Bu xüsusiyyət Dövlət-özəl tərəfdaşlığı yalnız maliyyə aləti kimi deyil, resurs kapitalının qorunmasını iqtisadi rasionallıqla əlaqələndirən idarəetmə strukturu kimi səciyyələndirir.

Eyni zamanda, Dövlət-özəl tərəfdaşlığının iqtisadi səmərəliliyi institusional mühitdən asılı olaraq dəyişkənlik nümayiş etdirir. Normativ-hüquqi sabitlik, tarif siyasətində proqnozlaşdırılması və risklərin simmetrik paylaşdırılması investisiya qərarlarına bilavasitə təsir edən əsas komponentlərdir.

Xüsusilə tariflərin qısamüddətli qərarlarla dəyişməsi və uzunmüddətli öhdəliklərin hüquqi təminatının zəifliyi özəl kapital üçün qeyri-müəyyənlik xərclərini artırır. Bu səbəbdən Dövlət-özəl tərəfdaşlığında "risk-öhdəlik-gəlirlərin paylanması" balansının müqavilə səviyyəsində dəqiq normal-

laşdırılması Azərbaycan kontekstində əsas institusional tələbat kimi qiymətləndirilir.

Müzakirənin digər mühüm nəticəsi ondan ibarətdir ki, infrastrukturun tam özəlləşdirilməsini tələb etməyən xidmət müqaviləsi, konsessiya və investisiya öhdəliklərinin paylaşdırılması kimi modellər - ölkənin su ehtiyatları, torpaq bərpası və meşə təsərrüfatı kimi sahələrinin xüsusiyyətlərinə daha uyğun tərəfdaşlıq formalarıdır Mirzəyev, 2024). Bu yanaşma dövlət nəzarətinin saxlanılması ilə özəl sektorun menecment effektivliyinin birləşməsini təmin edir, xidmət keyfiyyəti və investisiya geri dönüşü arasında əlaqəni gücləndirir.

Nəticədə, Dövlət-özəl tərəfdaşlığının tətbiq edilməsinin əsas əhəmiyyəti ekosistem xidmətlərinin qorunması, resurs itkisinin azaldılması və bərpa xərclərinin uzunmüddətli dövrdə aşağı salınmasıdır.

NƏTİCƏ VƏ TÖVSİYƏLƏR

Aparılan təhlillər göstərir ki, Azərbaycanın təbii sərvətlərindən istifadədə mövcud olan ekoloji-iqtisadi məhdudiyyətlər ölkə üçün həm ekoloji, həm də makroiqtisadi səviyyədə nəzərəçarpan təsir formalaşdırır. Təbii ehtiyatların idarə olunması sahəsində Dövlət-özəl tərəfdaşlığı modelinin səmərəli tətbiqi yalnız maliyyə yükünün paylaşdırılması ilə məhdudlaşmır, bu proses hüquqi, idarəetmə, maliyyə və insan resursları müstəvilərində institusional uyğunlaşdırma tələb edir. Tərəfdaşlıq modeli resurs kapitalının iqtisadi dəyərə çevrilməsi, xidmət keyfiyyətinin yüksəldilməsi və bərpa proseslərinin dayanıqlığının təmin edilməsi baxımından dövlət və özəl sektorun funksional rol bölgüsünün dəqiqləşdirilməsini zəruri edir. Bu kontekstdə aşağıdakı istiqamətlər prioritet olaraq qiymətləndirilir:

1. dövlət-özəl tərəfdaşlığı **modelinin mövcud hüquqi–normativ çərçivə ilə uzlaşdırılması** və uzunmüddətli öhdəliklərin icrası üçün qanunvericilik, nəzarət prosedurları və mübahisələrin həlli mexanizmləri dəqiq müəyyən olunmalıdır;
2. ö**zəl tərəfin maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi və** zəmanət mexanizmləri, güzəştli maliyyələşmə alətləri və riskin bölüşdürülməsi vasitələri özəl investisiyanın təşviqinə xidmət etməlidir;
3. d**övlət investisiyalarının infrastrukturun bərpası və genişləndirilməsinə yönəldilməsi** və şəbəkənin dayanıqlığının artırılması özəl sektorun cəlb olunması üçün baza şərti kimi çıxış edir;
4. ö**zəl sektorun iştirakının mərhələli və nəzarət olunan formada tətbiqi.** Pilot layihələr risklərin ölçülməsinə və institusional cəhətdən öyrənmə prosesinin güclənməsinə imkan yaradır;
5. i**nsan resurslarının və idarəetmə bacarıqlarının inkişaf etdirilməsi**. Monitorinq, maliyyə nəzarəti və risk qiymətləndirilməsi üzrə peşəkar potensialın möhkəmləndirilməsi tələb olunur;
6. s**iyasi iradə və qərarların yerinə yetirmə ardıcıllığının təmin edilməsi**. Tərəfdaşlıq uzunmüddətli idarəetmə yanaşması kimi qəbul edilməli, şəffaflıq və hesabatlılıq institutları gücləndirilməlidir.

Bu institusional mexanizmlər vahid idarəetmə sisteminin formalaşdırılması, fiskal dayanıqlığın gücləndirilməsi və resurs kapitalının uzunmüddətli dəyərə çevrilməsi baxımından strateji əhəmiyyət kəsb edir. Məhz bu baxımdan Dövlət-özəl tərəfdaşlığı modelinin tətbiqi təbii sərvətlərin istismar və bərpa tarazlığının qorunmasında alternativ deyil, tamamlayıcı idarəetmə aləti kimi nəzərdən keçirilir (Berbel.J, Exposite.A 2020). Suvarma sistemlərindəki fiziki itkilər nəticəsində bərpa olunmadan itirilən suyun dəyəri ildə on milyonlarla manatlıq iqtisadi itki ilə müşayiət olunur. Torpaq resurslarında eroziya və şoranlaşma nəticəsində məhsuldarlığın 12-15% azalması (DSK, 2023; FAO 2022) kənd təsərrüfatı istehsalının həcmini birbaşa aşağı salır, meşə sahələrinin genişlənmə sürəti 0,1-0,15% səviyyəsində qalması isə ekosistemin özünü bərpa etmə gücünü zəiflədir və karbonun udulması potensialını məhdudlaşdırır. Ekoloji çirklənmənin artması ilə əlaqədar təmizləmə və filtrasiya xərclərinin illik 25-30% artması (World Bank, 2020) isə dövlət büdcəsinə əlavə yük forma-

laşdırır. Təhlillər göstərir ki, su, torpaq və meşə fondunun idarə edilməsində məsuliyyətin tam şəkildə dövlət üzərində cəmləşməsi sərvətlərin "istifadə dəyəri" ilə "qorunma dəyəri" arasında balanssızlıq yaradır və bərpa proseslərinin gecikdirilməsi 5-10% əlavə xərc yükü yaratmaqla uzunmüddətli perspektivdə sərvət dəyərinin azalmasına səbəb olur. Bundan əlavə, yalnız qısamüddətli istifadədən əldə edilən gəlirlər bərpa xərclərini kompensasiya etmir, əksinə gecikmə həmin xərclərin ikiqat artımı ilə nəticələnə bilir. Su ehtiyatlarında 20-25% qənaət potensialı mövcud olduğu halda, səmərəli investisiya proqramlarının gecikdirilməsi daha yüksək ekoloji və sosial xərc formalaşdırır.

Bu baxımdan, Dövlət-özəl tərəfdaşlığının regional miqyasda tətbiqi sadəcə maliyyə resurslarının cəlb edilməsi kimi deyil, təbii ehtiyatların "istehsal amili" ndən "kapital aktiv" kimi qiymətləndirildiyi yeni iqtisadi yanaşmanın formalaşdırılması baxımından strateji əhəmiyyət daşıyır. Dövlət-özəl tərəfdaşlıq mexanizmləri resursun tükənməsi ilə bərpası arasındakı tarazlığı qorumağa imkan verir, risklərin paylanmasını təmin edir və uzunmüddətli iqtisadi faydaya yönəlmiş hibrid idarəetmə modelinin tətbiqini mümkün edir.

Tövsiyələr:

- Təbii sərvətlərin idarə edilməsində Dövlət-özəl tərəfdaşlıq mexanizmlərinin tətbiqi sektorlar üzrə differensial yanaşma əsasında qiymətləndirilsin;
- Su, torpaq və meşə ehtiyatlarının qorunması üçün bərpa və monitorinq xərclərinin dövlət və özəl tərəf arasında bölüşdürülməsi üçün institusional baza gücləndirilsin;
- İnvestisiya proqramlarında texnoloji modernizasiya və rəqəmsal nəzarət sistemləri (SCADA, IoT, GIS) prioritetləşdirilsin;
- Dövlət-özəl tərəfdaşlıq layihələrində resurs kapitalının dəyər itkisinin iqtisadi ekvivalenti qiymətləndirmə mexanizmi kimi tətbiq olunsun.

Bu yanaşma Azərbaycanın təbii sərvətlərinin qorunması, iqtisadi dəyərə çevrilməsi və uzunmüddətli dayanıqlı inkişafı üçün institusional əsas yaradır.

İstifadə edilmiş ədəbiyyat:

1. Su ehtiyatlarından səmərəli istifadəyə dair milli strategiya. Bakı ş., 10 oktyabr 2024-cü il.

2. Dövlət Statistika Komitəsi. Ətraf mühit, su ehtiyatları və təbii sərvətlər üzrə statistik göstəricilər (2013–2025).

3. Mirzəyev F.M. (2024). Konsessiya dövlət-özəl tərəfdaşlığının ən geniş yayılmış mexanizmi kimi. "Iqtisadi islahatlar" elmi-analitik jurnal № 1(10), səh. 66-75.

4. Berbel J, Exposite A. (2020). The Theory and Practice of Water Pricing and Cost Recovery in the Water Framework Directive, Water Alternative, səh. 13(3):659.

5. Delmon J. (2021). Public–Private Partnership Projects in Infrastructure - an International Guide. Cambridge University Press, səh 248.

6. Marino M., Johnstone N. (2022). Water pricing and cost recovery in shared-resource economies. OECD Water Report, səh. 200.

7. OECD. Private Sector Participation in Water Infrastructure OECD Checklist for public action 2009, səh. 135.

8. OECD. Public–Private Partnerships for water security and climate-resilient infrastructure. Paris 2021, səh. 176.

9. Ostrom E. (1990). Governing the Commons: The Evolution of Institutions for Collective Action, səh. 295.

10. Philippe Marin. (2009). Public-Private Partnerships for Urban Water Utilities. The World Bank, səh 191.

11. Sulakzadze R. (2023). Importance of PPP in water supply sector in developing countries: The case of Georgia, Journal of Eastern European and Central Asian research vol.10 no.5, səh. 800-812.

12. Tietenberg T., Lewis L. (2023). Environmental and Natural Resource Economics. New York, səh 164.

13. UNECE. PPP Standards in Natural Resource Governance with Financial and Environmental Risk Metrics. Geneva 2023, səh 108.

14. World Bank (2020). Private Sector Participation in Water Infrastructure: Global Review and Risk Allocation. Washington DC 2020, səh 34.

15. https://e-qanun.az/framework/53020

16. https://economy.gov.az/az/post/2466/deniz-suyunun-duzsuzlasdirilmasi

M.A.Dadashev
Azerbaijan University of Architecture and Construction

Public-private partnership in natural resources management: economic efficıincy and investment opportunities

Abstract

In modern economic theory, natural resources are not only considered as exhaustible resources used for extraction, but also as strategic resource capital that forms the basis of long-term economic development and national prosperity. In this context, the value of a resource is not determined by short-term income, but by its retention in circulation, protection of ecosystem functions, restoration opportunities and transmission to future generations. The centralized management model inherited from the post-Soviet era leads to the concentration of planning, financing and control functions of natural resources on the state, which limits the increase in economic efficiency and increases uncertainty in the investment environment. The weakening of important indicators such as seasonal variability in water resources, the risk of degradation of land resources, and the restoration of forests and biodiversity areas shows that the management model based solely on the state budget does not provide sustainable results. Public-private partnership is presented as an alternative institutional mechanism in terms of transforming resource capital into value, risk sharing, distribution of investment burden and evaluation of service quality based on results in order to overcome these limitations. The study found that although the implementation of Public-Private Partnerships can improve economic efficiency and investment attractiveness, the real impact of the model is directly related to ensuring institutional consistency, transparency, and long-term commitments.

Keywords: *natural resource management, resource capital, public-private partnership, economic efficiency, investment attractiveness, institutional framework, water resources, sustainable development.*

https://doi.org/10.58225/tim.2025-4-174-177

Ə.M.Əliyev
i.e.n., dosent, Azərbaycan Memarlıq və İnşaat Universiteti
ORCID 0000-0002-5134-188X
elesger-eliyev@list.ru
N.R.Rəşidov
magistrant, Azərbaycan Memarlıq və İnşaat Universiteti
rashidovnadir@gmail.com

Məqalə redaksiyaya daxil olub 04.11.2025
The article was received by editorial board on 04.11.2025
Статья принята к печати 04.11.2025

SAHİBKARLIQ FƏALİYYƏTİNİN İNKİŞAFINDA İNVESTİSİYA PROSESLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

Xülasə

Məqalədə sahibkarlıq fəaliyyətinin inkişafında investisiya proseslərinin rolu və onların təkmilləşdirilməsi istiqamAətləri araşdırılmışdır. Tədqiqatın məqsədi Azərbaycan iqtisadiyyatında sahibkarlığın davamlı inkişafını təmin edən əsas investisiya mexanizmlərinin təhlili və onların səmərəliliyinin artırılması üçün təkliflərin işlənib hazırlanmasıdır.

2020–2024-cü illər üzrə aparılan müqayisəli təhlil göstərir ki, bu dövrdə əsas kapitala yönəldilən investisiyaların həcmi 17,5 milyard manatdan 21,6 milyard manata yüksəlmiş, qeyri-neft sektorunun payı isə 29,8%-dən 43%-ə qədər artmışdır. Məqalədə dövlətin investisiya siyasətinin təkmilləşdirilməsi, rəqəmsallaşmanın, innovasiyaların və regionlarda dövlət-özəl tərəfdaşlığının genişləndirilməsinin sahibkarlıq mühitinə təsiri qiymətləndirilmiş,eyni zamanda, maliyyə mənbələrinin şaxələndirilməsi, güzəştli kreditlərin artırılması və "yaşıl investisiyalar"ın stimullaşdırılması kimi prioritet istiqamətlər müəyyənləşdirilmişdir.Məqalədə investisiya proseslərinin optimal-laşdırılmasının sahibkarlıq fəaliyyətində rəqabət qabiliyyətinin yüksəldilməsi, iqtisadi artımın sürətləndirilməsir və sosial rifahın təmin olunmasında mühüm rol oynaması vurğulanmışdır.

Açar sözlər: *sahibkarlıq fəaliyyəti, investisiya prosesi, dövlət siyasəti, innovasiya, rəqəmsallaşma, iqtisadi inkişaf.*

Müasir iqtisadiyyatın əsas hərəkətverici qüvvələrindən biri kimi sahibkarlıq fəaliyyəti iqtisadi artımın, innovasiyaların və məşğulluğun təmin edilməsində əhəmiyyətli rol oynayır. Sahibkarların istehsal, xidmət və innovasiya fəaliyyətini genişləndirməsi investisiya axınlarının həcmi və səmərəliliyi ilə birbaşa bağlıdır. İnvestisiya proseslərinin düzgün təşkili sahibkarlığın maliyyə sabitliyini və bazarda rəqabət qabiliyyətini artırır, eyni zamanda milli iqtisadi təhlükəsizliyin vacib tərkib hissəsinə çevrilir.

Sahibkarlıq müxtəlif fəaliyyət sahələrində həyata keçirilən müstəqil təsərrüfatçılıqdır. Burada əsas məqsəd məhsullara, xidmətlərə və müəyyən işlərə olan tələbatı ödəmək yolu ilə mənfəət qazanmaqdır (9, səh.182)

2020–2024-cü illər ərzində Azərbaycanda sahibkarlıq subyektlərinə yönəlmiş investisiyaların həcmi sabit templə artmışdır. Belə ki, 2020-ci ildə əsas kapitala yönəldilən investisiyaların ümumi həcmi 17,5 milyard manat təşkil edirdisə, 2023-cü ildə bu göstərici 21,6 milyard manata yüksəlmişdir. Bununla yanaşı, qeyri-neft sektoruna yatırılan investisiyaların payı 2020-ci ildə 29,8% olduğu halda, 2024-cü ildə artıq 43%-ə yaxınlaşmışdır. Bu dinamika sahibkarlığın və iqtisadiyyatın şaxələndirilməsi istiqamətində iqtisadi siyasətin real nəticələrinin bariz nümunəsidirr.

Azərbaycanın nəqliyyat-logistika qovşağı kimi potensialı iqtisadi şaxələndirmə üçün əlavə imkanlar yarada bilər.

Azərbaycanın real ÜDM-nun 2004-cü ildə 4,1 % artmasına baxmayaraq 2005-ci ildə bu göstəricinin 1,5 %-ə qədər azalmazı proqnozlaşdırılır.Bu azalma yüksək baza effekti və qlobal biznes əlaqələrində qeyri-müəyyənlik və geosiyasi dəyişiklikər fonunda xarici konyunkturanın zəifləməsi ilə əlaqədar risklərlə izah oluna bilər.

Yaxın perspektivdə qeyri-neft sahələrinin inkişafına nəqliyyqt-logistikanın imkanları və fəallığının artmasının konstruktiv təsir göstərməsini proqnozlaşdırmaq olar (3).

İnvestisiya proseslərinin təkmilləşdirilməsində dövlətin rolu xüsusilə əhəmiyyətlidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə qəbul olunan "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də sahibkarlığın maliyyələşdirmə imkanlarının genişləndirilməsi əsas hədəflərdən biri kimi müəyyən edilmişdir. Bu istiqamətdə "KOBİA" (Kiçik və Orta Biznesin İnkişafı Agentliyi), "AzPromo" və "Azərbaycan İnvestisiya Holdinqi" kimi qurumlar vasitəsilə investisiya təşviqi mexanizmləri gücləndirilmişdir. 2021–2024-cü illər ərzində KOB subyektlərinə 400 milyon manatdan artıq güzəştli kredit verilmişdir ki, bu da minlərlə sahibkarın fəaliyyətini genişləndirməsinə şərait yaratmışdır (8).

Sahibkarlıq mühitinin yaxşılaşdırılması məqsədilə aparılan islahatlar nəticəsində Azərbaycanın "Doing Business" reytinqindəki mövqeyi son illərdə xeyli yaxşılaşmışdır. Dünya Bankının 2020-ci il hesabatına görə, Azərbaycan biznesin aparılması şəraiti üzrə 190 ölkə arasında 34-cü yerdə qərarlaşmışdır. Bu, ölkədə investisiya mühitinin hüquqi və institusional baxımdan sabitləşdiyini göstərir. Xüsusilə, "bir pəncərə" prinsipi ilə biznes qeydiyyatının sadələşdirilməsi, vergi yükünün azaldılması və elektron hökumət xidmətlərinin inkişafı investisiya proseslərini xeyli sürətləndirmişdir.

Son illərdə rəqəmsallaşma və innovativ texnologiyaların tətbiqi sahibkarlıqda investisiya proseslərinin yeni mərhələsinə keçidi təmin etmişdir. 2022-ci ildə "Azexport.az" və "Digital Trade Hub" platformalarının fəaliyyəti nəticəsində sahibkarların ixrac imkanları genişlənmiş, beynəlxalq bazarlara çıxışı asanlaşmışdır. Bu platformalar vasitəsilə 2023-cü ildə 1,1 milyard ABŞ dolları dəyərində ixrac əməliyyatı həyata keçirilmişdir ki, bu da rəqəmsal investisiyaların praktiki səmərəliliyini göstərir.

İnvestisiya proseslərinin təkmilləşdirilməsi həm də regionların inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. 2020–2024-cü illərdə regionlara yönəldilən dövlət investisiyalarının payı 37%-dən 46%-ə yüksəlmişdir. Bu, regionlarda yeni istehsal müəssisələrinin, sənaye parklarının və aqro-sənaye komplekslərinin yaranmasına səbəb olmuşdur. Belə ki, "Ağdam Sənaye Parkı" və "Horadiz Ağıllı Kənd" layihələri dövlət-özəl tərəfdaşlığı çərçivəsində həyata keçirilmiş və yüzlərlə yeni iş yerləri açılmışdır. Bununla belə, sahibkarlıqda investisiya proseslərinin təkmilləşdirilməsi istiqamətində bəzi çətinliklər qalmaqdadır. Belə ki, bəzi KOB subyektləri üçün kapital bazarlarına çıxış imkanları məhduddur, kommersiya banklarının faiz dərəcələri hər sahibkarın imkanları daxilində deyildir. Eyni zamanda, bəzi sahibkarların maliyyə savadlılığı və investisiya planlaşdırma bacarıqları zəifdir ki, bu da resurslardan səmərəli istifadəni çətinləşdirir. Buna görə, maliyyə vasitəçiliyi, biznes inkubatorları və təlim mərkəzlərinin genişləndirilməsi məqsədəuyğundur.

İnvestisiya proseslərinin gələcək təkmilləşdirilməsi üçün əsas istiqamətlərdən biri daxili və xarici kapitalın sinerjisini yaratmaqdır. Bunun üçün dövlət-özəl tərəfdaşlıq (DÖT) layihələrinin əhatə dairəsinin genişləndirilməsi, rəqəmsal innovasiyalara yönəlmiş "venture capital" mexanizmlərinin tətbiqi və "yaşıl investisiyalar"ın təşviqi xüsusi əhəmiyyət daşıyır. Məsələn, 2024-cü ildə "Yaşıl Enerji Zonası" layihələri çərçivəsində Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən investisiyaların həcmi 2 milyard ABŞ dollarını keçmişdir.

Ölkənin Orta Dəhlizi, yəni Transxəzər Beynəlxalq Nəqliyyat marşrutu da daxil olmaqla əsas marşrutları investisiyaları cəlb etməyə və iqtisadiyyatın müxtəlif sektorlarının dirçəldilməsinə dəstək olması gözlənilir.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan bərpa işləri böyük həcmli kapial qoyuluşları və tikinti fəaliyyət hesabına başa gəlsə də,bu amil iqtisadi dinamikaya ciddi təsir göstərir. Eyni zamanda külək və günəş enerjisi sahəsindəki layihələrin inkişafı xarici investisiyaların axınına səbəb ola bilər. Bu isə perspektivdə təmiz enerji ixracından gəliri təmin edə bilər.

Ümumilikdə, investisiya proseslərinin təkmilləşdirilməsi sahibkarlığın dinamik inkişafını təmin etməklə yanaşı, iqtisadiyyatın rəqabət qabiliyyətini artırır, ixrac potensialını gücləndirir və sosial rifah səviyyəsini yüksəldir. Gələcəkdə bu istiqamətdə dövlət, özəl sektorları və beynəlxalq təşkilatlar arasında daha sıx əməkdaşlıq vacib olacaqdır. Azərbaycanda formalaşan yeni iqtisadi reallıqlar fonunda investisiyaların hədəfli və səmərəli yönəldilməsi sahibkarlığın dayanıqlı inkişafının əsasını təşkil edir.

NƏTİCƏ

Sahibkarlıq fəaliyyətinin inkişafında investisiya proseslərinin təkmilləşdirilməsi istiqamətləri mövzusunda aparılan araşdırmalar aşağıdakı nəticələrə gəlməyə imkan verir:

1, Müasir iqtisadiyyatın əsas hərəkətverici qüvvələrindən biri kimi sahibkarlıq fəaliyyəti iqtisadi artımın, innovasiyaların və məşğulluğun təmin edilməsində əhəmiyyətli rol oynayır. Sahibkarların istehsal, xidmət və innovasiya fəaliyyətini genişləndirməsi investisiya axınlarının həcmi və səmərəliliyi ilə birbaşa bağlıdır.

2. Yaxın perspektivdə qeyri-neft sahələrinin inkişafına nəqliyyqt-logistikanın imkanları və fəallığının artmasının konstruktiv təsir göstərməsini proqnozlaşdırmaq olar.

3. Ölkədə investisiya mühitinin hüquqi və institusional baxımdan sabitləşməsi, "bir pəncərə" prinsipi ilə biznes qeydiyyatının sadələşdirilməsi, vergi yükünün azaldılması və elektron hökumət xidmətlərinin inkişafi investisiya proseslərini xeyli sürətləndirmişdir.

4. İnvestisiya proseslərinin təkmilləşdirilməsi regionların inkişafı baxımından mühüm əhəmiyyətə malikdir Belə ki, 2020–2024-cü illərdə regionlara yönəldilən dövlət investisiyalarının payının 37%-dən 46%-ə yüksəlməsi regionlarda yeni istehsal müəssisələrinin, sənaye parklarının, aqro-sənaye komplekslərinin yaranmasına səbəb olmuş və yüzlərlə yeni iş yerləri açılmışdır.

5.Bəzi KOB subyektləri üçün kapital bazarlarına çıxış imkanlarının məhduddurluğu, kommersiya banklarının faiz dərəcələrinin hər sahibkarın imkanları daxilində olmaması,, bəzi sahibkarların maliyyə savadlılığı və investisiya planlaşdırma bacarıqlarının zəifliyi resurslardan səmərəli istifadəni çətinləşdirir. Buna görə, maliyyə vasitəçiliyi, biznes inkubatorları və təlim mərkəzlərinin genişləndirilməsi məqsədəuyğundur.

6. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında külək və günəş enerjisi sahəsindəki layihələrin inkişafı xarici investisiyaların axınına səbəb ola bilər. Bu isə perspektivdə təmiz enerji ixracından gəliri təmin edə bilər.

7. İnvestisiya proseslərinin təkmilləşdirilməsi sahibkarlıq fəaliyyətinin dinamik inkişafını təmin etməklə yanaşı, rəqabət qabiliyyətliliyini artıra, ölkənin ixrac potensialını gücləndirə və sosial rifah səviyyəsini yüksəldə bilər.

İstifadə edilmiş ədəbiyyat:

1. Azərbaycan Respublikasının PrezidentiAzərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. (2021). Bakı: Prezident.az.

2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı: 2024.

3. Bayramov, V. (2023). Azərbaycan iqtisadiyyatında qeyri-neft sektoruna investisiyaların rolu. Bakı. İqtisadi Tədqiqatlar Mərkəzi.

4. Dünya Bankı. Doing Business 2020: Comparing Business Regulation in 190 Economies. Washington, DC: World Bank Publications.

5. European Bank for Reconstruction and Development (EBRD). Transition Report 2024: Investing for Change. London: EBRD Publications.

6. Əliyev, İ. (2022). Rəqəmsallaşma və sahibkarlıq inkişafı istiqamətində dövlət siyasəti. "İqtisadi Forum" jurnalı, Bakı, №3, s. 45–56.

7. Əhmədov, N. (2024). İnnovativ sahibkarlığın maliyyə təminatı və investisiya mühiti. Bakı. Elm və Təhsil, 312 s.

8. Kiçik və Orta Biznesin İnkişafı Agentliyi. (2023). İllik hesabat: Azərbaycanda KOB sektorunun inkişafı. Bakı.

9. M.A.Məmmədov, Ə.M.Əliyev. (2023). Menecment. Bakı, 288 s.

10. Türkiye Cumhuriyeti Ticaret Bakanlığı. Yatırım Ortamının İyileştirilmesi Raporu. Ankara: 2023. Ticaret Bakanlığı Yayınları.

A.M.Aliyev
PhD, Associate Professor, Azerbaijan University of Architecture and Construction
ORCID 0000-0002-5134-188X
N.R.Rashidov
master student, Azerbaijan University of Architecture and Construction

Directions for improving investment processes in the development of entrepreneurial activity

Abstract

This article explores the role of investment processes in the development of entrepreneurial activity and the main directions for their improvement. The purpose of the study is to analyze the key investment mechanisms that ensure the sustainable growth of entrepreneurship in Azerbaijan's economy and to develop proposals for enhancing their efficiency. A comparative analysis based on the statistical indicators of 2020–2024 shows that the total volume of investments directed to fixed capital increased from 17.5 billion AZN in 2020 to 21.6 billion AZN in 2023, while the share of the non-oil sector rose from 29.8% to nearly 43%. The study evaluates the impact of the state investment policy, digitalization, innovation, and the expansion of public-private partnerships in the regions on the business environment. Moreover, the diversification of financial sources, the expansion of concessional loans, and the promotion of "green investments" are identified as strategic priorities. The results indicate that the optimization of investment processes enhances the competitiveness of entrepreneurship, accelerates economic growth, and plays a crucial role in ensuring social welfare in Azerbaijan.

Keywords: *entrepreneurship, investment process, state policy, innovation, digitalization, economic development.*

https://doi.org/10.58225/tim.2025-4-178-186

C.Ə.Soltanov
doktorant, Bakı Dövlət Universiteti
ORCID 0009-0002-6755-9733
soltanov.javid.adalatovic@bsu.edu.az

Məqalə redaksiyaya daxil olub 04.12.2025
The article was received by editorial board on 04.12.2025
Статья принята к печати 04.12.2025

QLOBALLAŞMA ŞƏRAİTİNDƏ ELEKTRON TİCARƏT SEKTORUNUN İNKİŞAF TENDENSİYALARI

Xülasə

Bugün qlobal səviyyədə E-ticarət sahəsində bir sıra dəyişikliklər baş verir. Qlobal və regional e-ticarət meylləri milli iqtisadiyyata, həmçinin ayrı-ayrı müəssisələrə təsir edir. Elektron ticarət sahəsində mövcud qlobal tendensiyaların təhlili, bu sahədə ümumi tendensiyaları və onun perspektivlərini aşkar etməyə imkan verir. Buna görə elektron ticarətin mövcud vəziyyətini öyrənmək vacib və aktualdır. Bu, həm də ona görə vacibdir ki, hazırda Elektron ticarət milli iqtisadiyyatın inkişafına güclü təsir göstərir, internet istifadəçilərinin sayını artırır, istehlakçıların ehtiyac duyduqları malların alınmasına sərf etdikləri vaxtı azaltmağa çalışır. Tədqiqatın əsas məqsədi Elektron ticarəti bir anlayış kimi tədqiq edərək izah etmək, qloballaşma şəraitində onun inkişaf tendensiyalarını araşdırmaq və həmçinin, internet istifadəsinin elektron ticarətə necə təsir etdiyini tədqiq etməkdən ibarətdir. Tədqiqatın obyekti elektron ticarət sahəsi, predmeti isə qloballaşma şəraitində elektron ticarət sektorunun inkişaf tendensiyalarının öyrənilməsidir. Tədqiqat zamanı statistik təhlil metodlarından, müqayisəli və həmçinin analitik təhlil, induksiya və deduksiya metodlardan istifadə olunub. Elektron ticarətin qloballaşma fonunda sürətlə inkişaf etməsinə baxmayaraq, ölkələr və dünya üzrə artım dinamikası, bu sahədəki qeyri-bərabərliklər, gələcəklə bağlı bir sıra proqnozlar hələ də tam şəkildə sistemləşdirilməmişdir. Ona görə də sadalananların hər biri araşdırılaraq təhlil edilmişdir ki, bu, problemin qoyuluşu və öyrənilmə səviyyəsini təşkil edir. Tədqiqatın sonunda nəticə və təkliflər qeyd olunmuş, məqalənin yazılmasında istinad olunan ədəbiyyat icmalı göstərilmişdir.

Açar sözlər: *elektron ticarət; internet; qloballaşma; inkişaf tendensiyaları, Q-ticarət.*

GİRİŞ

Elektron ticarət dedikdə, onlayn xidmətlər və ya internet vasitəsilə ticarət əməliyyatlarının aparılması prosesi başa düşülür. Ticarətin bu forması, internetdən istifadə edən tərəfdaşlar, banklar, təchizatçılar və müştərilərlə hər cür ticarət əməliyyatlarını asanlaşdıraraq, maddi və maliyyə aktivlərinin bir təsərrüfat subyektindən digərinə mübadiləsinə imkan verir [2, s.7].

E-ticarət, ənənəvi ticarət quruluşundan imtina edib, informasiya texnologiyasının müxtəlif alətlərindən istifadə edərək ticarətlə bağlı bir sıra məsələləri çevik, sadə, maneəsiz, sürətli şəkildə həll etməyi hədəfləyən ticarət növüdür [1, s.2].

Müasir virtual reallıqda e-ticarət şirkətlər üçün əsas və həyati strateji amilə çevrilmişdir. O, müəssisələrə öz müştərilərinə minimum xərclə ən rahat xidmətləri təklif etməyə imkan verir. Bugün rəqəmsal texnologiya ilə istənilən məhsulları istənilən vaxt və hər yerdə almaq xeyli asanlaşıb. E-

ticarət qlobal biznesi tamamilə dəyişdirdi və bunun nəticəsidir ki, ölkələr getdikcə daha çox elektron ticarətə cəlb olunur və internet əsaslı iqtisadiyyatlarını inkişaf etdirirlər.

Qlobal Elektron ticarət bazarı illər keçdikcə daha sürətlə inkişaf edir. Bu artım istehlakçı davranışındakı dəyişikliklər və rəqəmsal texnologiyanın davamlı inkişafı ilə əlaqədardır. Rəqəmsal çevrilmə şirkətləri yeni texnologiyalara investisiya qoymağa və mövcud satış modellərini yenidən nəzərdən keçirməyə təşviq edir [15].

Elektron ticarət daim inkişaf edən və böyük potensiala sahib bir sahədir. E-ticarət şirkətləri daim rəqiblərini üstələmək üçün yollar axtarırlar. Nəticədə hər il bazarda yeni tendensiyalar yaranır. Bu tendensiyalarla ayaqlaşmaq sahibkarlar üçün asan məsələ deyil. Müəyyən bir tendensiyanın sıçrayışlı və ya sadəcə keçici bir hobbi olacağına qərar vermək çox vaxt çətin olur. Elektron ticarətin inkişaf tendensiyalarının hər biri tədqiqat üçün maraqlı bir obyektdir. Doğru tendensiyanı seçmək şirkətlər üçün asan məsələ deyil. Rəqiblər üzərində üstünlük əldə etməyə imkan verən düzgün hərəkətləri və reallaşdırma metodlarını seçmək lazımdır [4, s.4164].


Dünya üzrə elektron ticarətin cari və proqnozlaşdırılan vəziyyəti.

Bugün E-ticarətin həcmi durmadan artmağa davam edir. İnternet istifadəçilərinin sayının beş milyardı keçdiyi bir dövrdə E-ticarətin həcminin artması, başqa sözlə elektron ticarət sektorunun inkişafını qlobal internetə çıxışın genişlənməsi ilə də əlaqələndirmək olar. İnternetdən istifadənin artmasının ən populyar səbəbləri sırasında ailə üzvləri və dostlarla söhbət etmək, fikir bildirmək, əylənməklə yanaşı, ən əsası onlayn alış-veriş mühüm yer tutur [15].

İnternet istifadəçilər üçün bir sıra üstünlüklər təmin edir. Belə ki:

- eyni anda hər yerdə olmaq;
- sərhədləri aradan qaldıraraq, insanları və əməliyyatları dünyanın fərqli yerlərinə çatdırmaq;
- məlumat zənginliyi yaratmaq və s.

Aşağıdakı şəkildə 2005-ci ildən 2025-ci ilə qədər bütün dünyada internet istifadəçilərinin sayı əks olunmuşdur (Şəkil 1):



Şəkil 1. 2005-ci ildən 2025-ci ilə qədər bütün dünyada internet istifadəçilərinin sayı
Mənbə: *[15]*

Sxemdən göründüyü kimi 2025-ci ilə aid olan internet istifadəsi üzrə göstərici 2005-ci il ilə müqayisədə 5.5 milyard çoxdur. Bu nisbət dünya əhalisinin 74%-ni təşkil edir. 20 ildə ortalama illik artım isə 5milyard dollar olmuşdur.

Azərbaycanda isə internet istifadəçilərinin sayı aşağıdakı cədvəllərdə göstərilmişdir (Cədvəl 1; Cədvəl 2):

Cədvəl 1

İnternet abunəçilərinin sayı, min abunəçi

Göstəricilərin adı	2020	2021	2022	2023	2024
Aktiv mobil genişzolaqlı internet abunəçilərinin sayı, min abunəçi	6,323.6	6,880.5	7,987.1	8,807.5	9,245.7

Mənbə: *[10]*

Cədvəl 2

Əhalinin hər 100 nəfərinə düşən aktiv mobil genişzolaqlı internet abunəçilərinin sayı, abunəçi

Göstəricilərin adı	2020	2021	2022	2023	2024
Əhalinin hər 100 nəfərinə düşən aktiv mobil genişzolaqlı internet abunəçilərinin sayı, abunəçi	63	68	79	86	90


Mənbə: *[10]*

Göründüyü kimi ölkəmizdə də internet istifadəçilərinin sayı ildən-ilə davamlı olaraq artmışdır. Artıma təsir edən faktorlar kimi pandemiya, mobil internet sürətinin artırılması, dövlətin rəqəmsallaşma siyasəti, əhalinin rəqəmsal savadlılığının artmasını qeyd etmək olar.

İqtisadi fəaliyyətin qloballaşması, qlobal miqyasda Texniki Standartlaşdırma və elektronika və telekomunikasiyada inqilabi irəliləyiş nəticəsində yaranan elektron ticarətin inkişafı müəssisələri ətrafdakı dəyişiklikləri gözləməklə yanaşı, bu dəyişikliklərə praktik olaraq real vaxtda cavab verməyə məcbur edir. Elektron ticarət bazarı isə hər il böyüyür [9]. Bunu aşağıdakı rəqəmlər də sübut edir:

- 2022-ci ildə Elektron ticarət sahəsində qlobal pərakəndə satışların həcmi təxminən 5,5 trilyon dollar olmuşdur;
- 2025-ci il üzrə elektron ticarət sahəsində qlobal pərakəndə satışların həcmi göstəricisinin 7,3 trilyonu keçəcəyi proqnozlaşdırılmışdır;
- 2028-ci ildə isə elektron ticarət sahəsində qlobal pərakəndə satışların həcminin 8 trilyon dollara çatacağı təxmin edilir [14].

Qeyd olunan rəqəmlər Şəkil 1-də əks olunanları təsdiqləməyə əsas verir. Belə ki, 2022-ci il ilə 2025-ci ilin internet istifadəçi səviyyəsinin müqayisəsi, həmin dövrlər üzrə elektron ticarət sahəsində qlobal pərakəndə satışların həcminin müqayisəsi ilə uyğunluq təşkil edir. Şəkil 2-də isə 2014-cü ildən 2021-ci ilə qədər bütün dünyada elektron ticarət pərakəndə satışlarının həcmi əks olunmuşdur. Şəkil, bizə yuxarıda sadalananlardan daha artığını görməyə imkan verir:



Şəkil 2. 2014-2025-ci illər üzrə bütün dünyada elektron ticarət pərakəndə satışlarının həcmi (milyon dollar)

Mənbə: *[9]*

Şəklə baxdıqda görə bilərik ki, qeyd olunan illər üzrə ən yüksək 1 illik artım 2020-ci ildə müşahidə edilmişdir. 2014-2021-ci illər üzrə orta illik artım səviyyəsini isə aşağıda düstur ilə hesablaya bilərik (Düstur 1):

$$CAGR = \left(\frac{Son\ dəyər}{İlkin\ dəyər}\right)^{\frac{1}{n}} - 1 \qquad (1)$$

- Burada (n)-illərin sayını;
- CAGR (Compound Annual Growth Rate, Məcmu illik artım temp) isə orta illik artım səviyyəsini ifadə edir.

Düstura əsasən:

$$CAGR = \left(\frac{4{,}938{,}000\ mln\ \$}{1{,}336{,}000\ mln\ \$}\right)^{\frac{1}{7}} - 1 = (3{,}695)^{0.142857} - 1 \approx \mathbf{0.205331}\ \%\ \text{orta illik artım}$$

Beləliklə, yuxarıdakı düstur əsasında müəyyən edirik ki, 2014-2021-ci illər üzrə orta illik artım təxminən, 20,53 % olub.

Qlobal elektron ticarət həcminin 2021-ci ildən sonrakı, yəni 2021-2024-cü illər üzrə faktiki, 2025-2027-ci illər üzrə isə proqnozlaşdırılan həcmi isə aşağıdakı cədvəldə əks olunur (Cədvəl 3) [8]:

Cədvəl 3


2022-2027-ci illər üzrə faktiki və proqnozlaşdırılan qlobal elektron ticarət həcmi

İllər	Qlobal elektron ticarət həcmi
2022	5.29 trillion $
2023	5.82 trillion $
2024	6.33 trillion $
2025	6.86 trillion $
2026	7.41 trillion $
2027	7.96 trillion $

Mənbə: *[8]*

Cədvəl 1-ə baxdıqda görürük ki, qlobal elektron ticarət həcmi 2022-2024-cü illər üzrə də davamlı artım nümayiş etdirib. Düstur 1-ə əsasaən hesabladıqda bu rəqəmin illik 6,1% olduğu məlum olur. Proqnozlara əsasən, Elektron ticarət üzrə satışlar 2025–2027-ci illər arasında illik orta artım tempi (CAGR) üzrə 7,8% səviyyəsində sabit şəkildə artmalıdır. Satışların 2027-ci ilə qədər 7,96 trilyon dollar həddinə çatacağı gözlənilir. Bu artım tempi fiziki pərakəndə mağazaların artım tempindən iki dəfə yüksəkdir. Bu artan satış rəqəmləri daha öncə də qeyd edildiyi kimi alış vərdişlərinin necə dəyişdiyini göstərir.

Sxem 1. Ümumi illik artım tempi



Mənbə: *Müəllif tərəfindən mənbəyə əsasən tərtib edilmişdir [13]*

Yuxarıdakı sxemdə 2025-ci ildən 2030-cu ilə qədər elektron ticarət sektoru daha çox inkişaf etmiş ölkələrin proqnozlaşdırılan Elektron ticarət pərakəndə satışının məcmu illik artım tempi göstərilir (Sxem 1). Sxemdən də göründüyü kimi ən yüksək göstərici Hindistana aiddir. Bunun səbəbləri kimi ölkə əhalisinin çoxluğu, ucuz internetə çıxış, ödəniş sistemlərinin sürətlə rəqəmsallaşmasını qeyd etmək olar. Hindistanla yanaşı, Yaponiya, İndoneziya, Türkiyə və Çinin də illik artım tempi yüksək hesab olunur. Bu göstərici hətta, dünya üzrə ortalamadan da artıqdır.

Elektron ticarət sektorunun inkişaf tendensiyaları.

Elektron ticarətdəki ən vacib tendensiyaları müşahidə etmək, xüsusilə şirkətlər üçün olduqca əhəmiyyətli məsələdir. Bu, şirkətə, bazar mövqelərini qorumaq və digər qurumlarla səmərəli rəqabət aparmaq üçün öz işinizdəki dəyişiklikləri planlaşdırmağa imkan verir. Hər il e-ticarət sektorunda bir çox yenilik baş verir, lakin ən vacibləri müştəri yönümlü olan və eləcə də, müştəri davranışındakı dəyişikliklərə yönələn tendensiyalardır.

Müştəri təcrübəsini artırmaq artıq bir neçə ildir ki, davam edən bir tendensiyadır və son illərdə çox vacib hesab olunur. Ümumi istehlakçı təcrübəsi müştəri sədaqətinə birbaşa təsir edir. Getdikcə daha çox müəssisə sahibləri marka ilə əlaqənin müştəri üçün nə qədər vacib olduğunu və bu cür münasibətlərin gələcək alış qərarlarına necə təsir etdiyini başa düşürlər [5, s.9].

Elektron ticarətdə uzunmüddətli əlaqələr qurmağın açarı istehlakçıların gözləntilərini və ehtiyaclarını ödəməkdir. Müştəri təcrübəsi göstərir ki, müştəri və onların məmnunluğuna diqqətin ayrılması elektron ticarət sənayesində fəaliyyətin mərkəzində olmalıdır. Elektron satıcıların yerinə

yetirməli olduqları tələblər siyahısındakı maddələrdən biri də onlayn mağaza ilə alıcı arasında fasiləsiz ünsiyyətin təmin edilməsidir [3, s.2265].

Rabitə onlayn əməliyyatlar apararkən çox vacib bir məsələdir. Buna görə onlayn mağazanın daimi müştəri xidmətinə kömək edən virtual köməkçilər getdikcə populyarlaşır. Onlardan biri də chatbotlardır. Chatbotlar (dialoq sistemləri, virtual köməkçilər, virtual agentlər, dialoq sistemləri və ya süni söhbət obyektləri kimi də tanınır) müştərilərə cavab axtarmağa və ya problemləri həll etməyə kömək etmək üçün hazırlanmışdır.

Onlar müştərinin əlaqə ehtiyacını qarşılayır və mürəkkəb problemlərin həllində kömək edə bilməsələr də, gecə-gündüz mövcud olur və onlayn mağazanın təklifi və istifadə qaydaları ilə bağlı əsas məsələlərdə son dərəcə faydalı olmurlar [4, s.4159].

Chatbotlar e-ticarət müştərilərinə xidmət göstərmək üçün idealdır. Əlaqə formaları, telefon danışıqları, e-poçt kimi bir çox yaxşı alternativ olsa da, veb söhbət müştəri ilə əlaqə qurmağın ən sürətli və bir çox hallarda ən əlverişli yolu olaraq qalır. Bu sistemlər adətən mesajlaşma proqramlarına əsaslanır və onların unikal üstünlüyü şəxsi və mobil olmalarındadır. Chatbotlar e-ticarət müəssisələri üçün bir çox cəhətdən faydalıdır [12]:

- alış-veriş edərkən müştəri təcrübəsinin yaxşılaşdırılması və alış qərarlarının dəstəklənməsi;
- müştərilərin məhsul axtararkən verə biləcəyi bir çox ümumi sualların dərhal cavablandırılması;
- müştəriləri saxlamaq və onları yenidən alış-verişə təşviq etmək, məsələn, satış və ya onları maraqlandıra biləcək digər məhsullar barədə mesaj göndərmək;
- 24/7 dəstək xidməti;
- müştəri xidməti üzrə işçilərin sayını azaltmaqla şirkətin xərclərinin azaldılması.

Hesab mütəxəssisi Shep Haiken tərəfindən 2025-ci ildə aparılan bir araşdırmaya görə, əksər müştərilər problemləri həll etmək və ya cavab almaq üçün əvvəlcə şirkətlə telefonla əlaqə qurmağı seçsələr də, rəqəmsal özünə xidmət imkanlarına da açıqdırlar.


Bunlara süni intellektə əsaslanan alətlər və vebsaytlara daxil edilmiş FAQ səhifələri daxildir. Ardıcıl dördüncü ildir ki, 24/7 xidmətin mövcudluğu müştəri tələbləri arasında birinci yerdədir. İstehlakçıların yalnız 30% - i gələcəkdə yalnız insan ünsiyyətinin üstünlük təşkil edəcəyinə inanır. Ümumiyyətlə, uğur qazanmaq üçün rəqəmsal və insan dəstəyi arasında bir tarazlığın qorunması lazımdır [2, s.9].

Elektron ticarət ssektorunda mühüm tendensiyalardan biri ətraf mühitə və davamlı inkişafa uyğun fəaliyyətə daha çox diqqət göstərilməsidir. Burada bir sıra oxşar tendensiyaları qeyd etmək olar [4, s.4160]:

- sıfır tullantı tendensiyası, yəni tullantı istehsalının maksimum azalması;
- elektron tullantıların idarə edilməsi;
- resurs istehlakının azaldılması;
- təkrar emal edilmiş materiallardan, bioloji parçalana bilən qablaşdırmadan istifadə;
- məhsullarda ekoloji cəhətdən təmiz komponentlərdən istifadə;

Elektron ticarət sənayesində ekoloji yanaşma 2023-cü ildən etibarən daha aktual bir tendensiyadır.

Səsli axtarışı. Qərbdə, xüsusən də ABŞ - da getdikcə aktuallaşan ən maraqlı tendensiyalardan biri səsli axtarışdır. 2026-cı ildə bütün axtarış sorğularının 45,4% - nin səs köməkçilərindən istifadə etməklə həyata keçiriləcəyi təxmin edilir. Aşağıdakı şəkildə göründüyü kimi (Şəkil 3):



Şəkil 3. ABŞ səs köməkçisi istifadəçiləri, 2022-2026

Mənbə: *Əsas pdf link Michał O., Katarzyna S.D. 4160*

Şəkildəki qara hissələr əhali sayını, qırmızı hissələr isə səs köməkçisindən istifadə səviyyəsini göstərir. Göründüyü kimi tendensiya müşahidə olunduğu ildən etibarən davamlı olaraq artım nümayiş etdirib. Ən populyarları Amazon-dan Alexa, Apple-dan Siri, Google Assistant və ya Microsoft-dan Cortanadır. İstehlakçı davranışındakı bu kəskin dəyişiklik E-ticarət və mağaza işlərinə gələcəkdə də misilsiz təsir göstərəcəkdir [7, s.113]

Q-ticarət (Quick commerce-sürətli ticarət). Q-ticarət, e-ticarətdə inqilab edəcəyini vəd edən yeni bir məhsul çatdırılma modelidir. Bu model, sifariş verildikdən sonra 15-30 dəqiqə ərzində müştərilərə malların çatdırılmasını təmin edir və əksər hallarda subpodratçı kuryerlərdən istifadə olunur. Bu, həm adi pərakəndə satış məntəqələri və restoranlar vasitəsilə, həm də yalnız onlayn müştərilərə xidmət göstərən xüsusi paylama mərkəzləri vasitəsilə həyata keçirilə bilər. Model tələb mənbələrinə, məsələn yaşayış kompleksləri və ofis binalarına mümkün qədər yaxın yerləşdirilmiş kiçik, sıx paylanmış anbarlara əsaslanır. Bununla birlikdə, Q-ticarət, çatdırılma müddətlərini əhəmiyyətli dərəcədə azaltmaq və ümumi müştəri təcrübəsini yaxşılaşdırmaq potensialına malikdir və bu da, e-ticarət şirkətləri üçün böyük maraq doğurur [6, s.18].

Aşağıdakı cədvəldə "ticarətin təkamülü" aydın şəkildə göstərilmişdir (Cədvəl 4):

Cədvəl 4

Ticarətin təkamül yolu

Birinci nəsil ticarət	**İkinci nəsil elektron ticarət**	**Üçüncü nəsil Q-commerce**
Özünə xidmət	Çatdırılma 2–3 gün ərzində	Çatdırılma 1 saata qədər
Bütün məhsullar fiziki olaraq mövcuddur	Əsas məhsullar mövcuddur	Məhsulların kiçik bir hissəsi mövcuddur
Şəxsi avtomobillər	Yük maşını ilə çatdırılma	İki təkərli nəqliyyat vasitələri
Super mağazalar	Super anbarlar	Yerli mağazalar və anbarlar
Üç və ya dörd nəfərlik ailələr		Çox vaxt bir ailə üzvündən ibarət olan ailələr
Qiymətlər əsas diqqət mərkəzindədir		İcra sürətinə xüsusi diqqət yetirilir

Mənbə: *[6, s.21].*

Cədvəldən də göründüyü kimi ticarət növlərinin hər birinin özünəməxsus xüsusiyyətləri, fərqlilikləri və üstünlükləri mövcud olub. Göründüyü kimi Q-ticarət E-ticarətin ən son tendensiyasıdır.

Canlı ticarət. Canlı ticarət, e-ticarətin yeni bir yoludur. Burada alıcılar video axınından istifadə edərək real vaxt rejimində satıcı və marka ilə qarşılıqlı əlaqədə olurlar. Bu yenilikçi yanaşma, ən yüksək xidmət keyfiyyətini təmin etmək üçün onlayn söhbət və ödəniş üçün inteqrasiya olunmuş alış-veriş səbəti kimi əməkdaşlıq vasitələrindən istifadə etməyi tələb edir. İstehlakçılar məhsul videosunu canlı şəkildə izləyə, satıcı ilə məhsul haqqında söhbət edə bilərlər. Bu interaktiv yanaşma əhəmiyyətli potensiala malikdir, çünki müştərilərə məhsullar haqqında suallar verməyə və dərhal rəy almağa imkan verir. Bütün bunlar alış-veriş təcrübəsini daha əyləncəli və fərdi edir [4, s.4161].

Göründüyü kimi E-ticarət sektorunda bir sıra yeni tendensiyalar müşahidə olunur. Burada əsas məsələ müştəri bazasının istəklərinin nəzərə alınması və ona uyğun xidmət növünün seçilməsidir. Çünki, baxmayaraq ki, E-ticarət sistemlərinin hər birinin özünəməxsus xüsusiyyətləri var, lakin onların fəaliyyəti bir məqsədə - müştəri məmnuniyyətinin təmin olunmasına yönəlir.

NƏTİCƏ

Elektron ticarətin müasir rəqabət mühitində müştərilər həlledici rol oynayırlar. Ona görə də E-ticarət müəssisələri bazarda qalmaq üçün müştəri ehtiyaclarına tez cavab verməlidirlər. Bunun üçün də bugünkü gündə chatbotlardan istifadə etməklə, müasir ödəniş üsulları təklif etməklə və ekoloji cəhətdən təmiz metodlara sadiq qalmaqla şirkətlər buna nail olmağa çalışır.

İstehsal, paylama, rabitə və ən əsası məlumatların idarə edilməsində qabaqcıl texnologiyalardan istifadə etmək çox vacibdir, çünki iqtisadi qeyri-sabitlik şəraitində yalnız dəyişməyə daim uyğunlaşan müəssisələrin yaşamaq şansı olur. Son illərdə elektron ticarət dünyasında bir çox yenilik və dəyişiklik olmuşdur. Tədqiqat zamanı elektron ticarətin inkişafında yeni tendensiyaların mövcud olduğu müəyyən edildi. Bunlara q-ticarət, canlı ticarət, səs axtarışı, ətraf mühitə və davamlı inkişafa uyğun fəaliyyəti misal göstərə bilərik. Rəqəmsallaşmanın sürətlə davam etdiyini nəzərə alsaq, həmçinin gələcəkdə də yeni istiqamətlərin yaranacağını qeyd edə bilərik.

Tədqiqatın gedişində bir sıra ölkələrdə e-ticarətin gələcək illər üçün nəzərdə tutulan artım tempini araşdırdıq və məlum oldu ki, bir sıra ölkələrdə bu göstəricinin hətta dünya ortalamasından da yuxarı olması gözlənilir. Bu, həmin ölkələrdəki rəqəmsallaşma, dövlətin bu sahədəki strategiyası, əhalinin rəqəmsal savadlılığı ilə əlaqələndirilə bilər. Tədqiqatın bu hissəsində bir sıra təkliflər irəli sürə bilərik. Belə ki:

E-ticarətin artım tendensiyasının internetə çıxış imkanları ilə birbaşa əlaqəli olduğunu nəzərə alaraq rəqəmsal infrastrukturun genişləndirilməsi. Yüksək sürətli internet şəbəkəsinin əhatəlilik səviyyəsinin artırılması e-ticarətin yeni tendensiyalarının ölkə üzrə tətbiqini də asanlaşdırar;

Elektron ticarətin yeni tendensiyalarının daha geniş bir şəkildə araşdırılaraq tətbiq imkanlarının öyrənilməsi və gələcək tendensiyaların proqnozlaşdırılması;

Elektron ticarət sahəsində xidmət səviyyəsinin və bu sahədə çalışanların hazırlıq səviyyəsini artırılması, qlobal tendensiyalardan xəbərdar olmaları üçün davamlı təlimlərin təşkili və bu sahə üzrə monitorinqlərin həyata keçirilməsi.

İstifadə edilmiş ədəbiyyat:

1. Süleymanov E., İbrahimova X. (2018). "Elektron ticarətin Azərbaycanda inkişaf perspektivləri". 1-ci Beynəlxalq Elm və Mühəndislik Konfransı, Azərbaycan, Bakı Mühəndislik Universiteti 29-30 noyabr, ss. 1-7.

2. Giguashvili G., Makasarashvili T., Sadagashvili M. (2025). "Modern trends in global e-commerce development". BUSINESS ECONOMICS, Vol 256, pp. 6-16.

3. Gu S., Ślusarczyk B., Hajizada S., Kovalyova I., Sakhbieva A. (2021) "Impact of the covid-19 pandemic on online consumer purchasing behavior". Journal of Theoretical and Applied Electronic Commerce Research, Vol. 16(6), pp. 2263-2281.

4. Michał O., Katarzyna S.D. (2023). "Development trends in e-commerce sector". Procedia Computer Science, Vol 225, pp. 4157–4166

5. Shaw C., Ivens J. (2002). Building Great Customer-Experiences, New York, "Palgrave Macmillan", 224 p.

6. Stojanov, Michal (2022). Q-commerce – the next generation e-commerce. 1, pp. 17-34.

7. Wassom, Brian D. (2015) Chapter 5 - Intellectual Property, Augmented Reality Law, Privacy, and Ethics, Syngress, pp. 101-151

8. 47 Ecommerce Statistics for Online Store Owners in 2025. Nov 21, 2025. URL: https://www.netguru.com/blog/ecommerce-statistics

9. Fokina, Maryia (2023) Online Shopping Statistics: Ecommerce Trends for 2023, https://www.tidio.com/blog/online-shopping-statistics/ (Giriş: 04.12.2025)

10. Jóźwiak, Justyna, Wykorzystanie chatbotów w e-commerce. URL: http://customerserviceautomation.pl/wykorzystanie-chatbotow-w-e-commerce (giriş: 04.12.2023)

11. Retail e-commerce sales compound annual growth rate (CAGR) from 2025 to 2030, by country. URL: https://www.statista.com/forecasts/220177/b2c-e-commerce-sales-cagr-forecast-for-selected-countries

12. Retail e-commerce sales worldwide from 2022 to 2028. URL:

13. Statista (2025). Number of internet users worldwide from 2005 to 2025. URL: https://www.statista.com/statistics/273018/number-of internet-users-worldwide/

J.A.Soltanov
doctoral student, Baku State University
ORCID 0009-0002-6755-9733

Trends in the development of the e-commerce sector in the context of globalization

Abstract

Today, a number of changes are taking place in the field of E-commerce at the global level. Global and regional e-commerce trends affect the national economy, as well as individual enterprises. Analysis of current global trends in the field of e-commerce allows you to reveal general trends in this area and its prospects. Therefore, it is important and relevant to study the current state of e-commerce. This is also important because at present e-commerce has a strong impact on the development of the national economy, increasing the number of Internet users, trying to reduce the time spent by consumers on the purchase of goods they need. The main objective of the study is to explain e-commerce by studying it as a concept, to investigate its development trends in the context of globalization and also to investigate how internet use affects e-commerce. The object of the study is the field of e-commerce, and the subject is the study of trends in the development of the e-commerce sector in the context of globalization. During the study, statistical analysis methods, comparative and also analytical analysis, induction and deduction methods were used. Despite the fact that e-commerce is developing rapidly against the backdrop of globalization, the dynamics of its growth in countries and the world, inequalities in this area, a number of forecasts for the future have not yet been fully systematized. Therefore, each of the listed has been investigated and analyzed, which constitutes the level of posing and studying the problem. At the end of the study, conclusions and suggestions were noted, and a review of the literature cited in the writing of the article was indicated.

Keywords: *e-commerce; internet; globalization; development trends, Q-commerce.*

https://doi.org/10.58225/tim.2025-4-187-195

H.K.Şirinov
doktorant, Azərbaycan Kooperasiya Universiteti
shirinov-h@mail.ru

Məqalə redaksiyaya daxil olub 04.12.2025
The article was received by editorial board on 04.12.2025
Статья принята к печати 04.12.2025

MÜASİR DÖVRDƏ BİZNES MÜHİTİNİN FORMALAŞMASININ NƏZƏRİ ƏSASLARI

Xülasə

Müasir dövrdə biznes mühitinin formalaşması iqtisadi, sosial, texnoloji və institusional amillərin qarşılıqlı təsiri nəticəsində baş verən dinamik bir prosesdir. Qlobal iqtisadi inteqrasiya, rəqabətin güclənməsi və innovasiyaların sürətli inkişafı biznes mühitinin strukturunu köklü şəkildə dəyişdirərək yeni fəaliyyət modellərinin meydana çıxmasına səbəb olmuşdur. Biznes mühitinin nəzəri əsasları klassik iqtisadi baxışlardan başlayaraq institusional, davranışsal və innovasiya iqtisadiyyatı kimi müxtəlif nəzəri məktəblər tərəfindən izah olunur. Klassik nəzəriyyələr bazar mexanizminin sərbəst fəaliyyətini vurğulayırsa, müasir yanaşmalar dövlət tənzimlənməsinin, rəqabət siyasətinin, informasiya asimmetriyasının və korporativ idarəetmənin biznes mühitinə təsirini ön plana çıxarır. Texnoloji transformasiya, rəqəmsallaşma, süni intellekt və platforma iqtisadiyyatı biznes subyektlərinin fəaliyyət prinsiplərini dəyişərək daha çevik, şəffaf və innovativ iqtisadi modelin formalaşmasına imkan yaratmışdır. Eyni zamanda institusional mühit – qanunvericilik, mülkiyyət hüquqları, tənzimləyici çərçivə və dövlətin iqtisadi siyasəti – biznes mühitinin sabitliyində həlledici rol oynayır. Sosial amillər, istehlakçı davranışlar və əmək bazarının xüsusiyyətləri də müasir biznes ekosisteminin tərkib hissəsidir. Nəticə etibarilə, biznes mühitinin formalaşmasının nəzəri əsasları çoxşaxəlidir və iqtisadi sistemin dayanıqlılığını təmin edən institusional, texnoloji və sosial faktorların kompleks qarşılıqlı təsirini özündə əks etdirir.

Açar sözlər: *innovasiya iqtisadiyyatı, biznes subyektləri, fəaliyyət prinsiplər, əmək bazarı.*

GİRİŞ

Müasir iqtisadiyyatın dinamik inkişaf etdiyi bir dövrdə biznes mühitinin mahiyyətinin dərk edilməsi müəssisələrin uğurlu fəaliyyətinin əsas şərtlərindən biridir. Biznes mühiti, geniş mənada, şirkətlərin fəaliyyət göstərdiyi iqtisadi, sosial, hüquqi və texnoloji şəraiti ifadə edir və bu mühitdə baş verən dəyişikliklər birbaşa və ya dolayı yolla müəssisələrin fəaliyyətinə, strateji qərarlarına və rəqabət qabiliyyətinə təsir edir. Biznes mühitinin mahiyyətinin öyrənilməsi həm nəzəri, həm də praktiki baxımdan mühüm əhəmiyyət kəsb edir, çünki müəssisələr yalnız fəaliyyət göstərdikləri mühitin tələblərini və çağırışlarını düzgün qiymətləndirdikdə davamlı inkişaf edə bilərlər.

Biznes mühiti ümumilikdə təşkilatların nəzarətindən kənarda olan, lakin onların strateji qərarlarını və fəaliyyət istiqamətlərini müəyyən edən xarici faktorların məcmusu kimi qəbul edilir. Bu anlayışa siyasi sabitlik, dövlət siyasətləri, bazar strukturu, rəqəmsallaşma səviyyəsi, hüquqi tənzimləmə, istehlakçı davranışları və sosial tendensiyalar kimi amillər daxildir. Biznes mühitinin iqtisadi məzmunu onun iqtisadi sistem daxilində necə formalaşdığını izah edir: burada resursların bölgüsü, istehsal dəyəri, bazar tələbi, rəqabət strukturu və iqtisadi siyasətlərin qarşılıqlı təsiri öz əksini

tapır. Başqa sözlə, biznes mühiti iqtisadiyyatın mikro və makro komponentlərini birləşdirən kompleks ekosistemdir.

Bu mühit davamlı olaraq dəyişir və bu dəyişkənlik bizneslərin çevik strategiyalar formalaşdırmasını tələb edir. Məsələn, elektron kommersiyanın genişlənməsi, rəqəmsal ödənişlərin artması və yeni texnologiyaların tətbiqi müasir biznes mühitinin transformasiya edən əsas qüvvələrindəndir. Buna uyğunlaşma qabiliyyəti olmayan müəssisələr rəqabət üstünlüyünü itirirlər [5, s.81].

Biznes mühitini formalaşdıran amillər ənənəvi olaraq iki böyük qrupa – makro və mikro amillərə bölünür. Makro amillər təşkilatın fəaliyyət göstərdiyi geniş iqtisadi sistemi əhatə edir və müəssisənin birbaşa nəzarət edə bilmədiyi faktorları özündə cəmləşdirir. Bu amillərə iqtisadi artım tempi, inflyasiya səviyyəsi, dövlətin fiskal və monetar siyasəti, vergi sistemi, siyasi sabitlik, xarici ticarət qaydaları və texnoloji yeniliklər daxildir. Məsələn, faiz dərəcələrinin artması kredit resurslarının bahalaşmasına səbəb olur və bu, bizneslərin investisiya qərarlarını məhdudlaşdıra bilər.

Mikro mühit isə müəssisənin gündəlik fəaliyyətinə daha birbaşa təsir edən amilləri əhatə edir. Buraya istehlakçılar, rəqiblər, tədarükçülər, vasitəçilər və əmək resursları daxildir. Mikro mühitin dəyişkənliyi bazarın strukturundan və rəqabətin səviyyəsindən asılıdır. Məsələn, istehlakçıların zövqlərindəki dəyişikliklər məhsul müxtəlifliyinin artırılmasını tələb edə bilər, rəqiblərin aqressiv qiymət strategiyaları isə müəssisəni daha innovativ yanaşmalar tətbiq etməyə sövq edir. Mikro amillərin düzgün təhlili şirkətin bazarda mövqeyinin möhkəmləndirilməsi üçün mühüm əhəmiyyət daşıyır.

Müasir dövrdə biznes mühiti yalnız yerli şərtlərlə məhdudlaşmır. Qloballaşma nəticəsində iqtisadi sistemlər arasında əlaqələr güclənmiş, ölkələrarası ticarət və kapital axınları genişlənmişdir. Qlobal mühitə beynəlxalq maliyyə bazarları, dünya iqtisadi trendləri, qlobal rəqabət, texnoloji yeniliklər və beynəlxalq təşkilatların qərarları daxildir. Məsələn, dünya üzrə enerji qiymətlərinin dəyişməsi enerji asılı ölkələrdə biznes fəaliyyətinə ciddi təsir göstərir. Eyni şəkildə, qlobal ticarət qaydaları və beynəlxalq siyasi münasibətlər şirkətlərin xarici bazarlara çıxış imkanlarını formalaşdırır.

Yerli mühit isə ölkənin daxili iqtisadi şəraitini əhatə edir və milli qanunvericilik, institusional struktur, əmək bazarı, istehlakçı davranışları və mədəni amillərdən ibarətdir. Yerli mühitin biznesə təsiri daha konkret və birbaşa olur. Məsələn, dövlətin vergi güzəştləri və investisiya təşviq proqramları müəssisələrin fəaliyyətini stimullaşdıra bilər. Əksinə, tənzimləmə mexanizmlərinin sərtliyi biznes üçün əlavə xərclər yarada bilər.

Nəticə etibarilə, biznes mühiti çoxkomponentli və daim dəyişən bir sistemdir. Bu mühitin iqtisadi məzmununun, makro və mikro amillərin, həmçinin qlobal və yerli faktorların kompleks şəkildə təhlili müəssisələrin dayanıqlı inkişafı və düzgün strateji qərarlar qəbul etməsi üçün fundamental əhəmiyyət daşıyır [8, s.93].

Klassik və neoklassik nəzəriyyələrin biznes mühitinə baxışı

Klassik və neoklassik iqtisadi nəzəriyyələr biznes mühitinin formalaşmasında fundamental anlayış və prinsiplər yaratmışdır. Bu nəzəriyyələr bazar iqtisadiyyatının mahiyyətini, rəqabətin rolunu, resursların bölgüsünü və qiymət mexanizmini izah etməklə, müəssisələrin davranış modelinə və qərarvermə prosesinə dərin təsir göstərmişdir. Müasir biznes mühiti də böyük ölçüdə məhz bu nəzəriyyətlərin formalaşdırdığı iqtisadi qanunauyğunluqlara əsaslanır.

Klassik iqtisadçılar – xüsusilə Adam Smit, Devid Rikardo və Con Stüart Mill – bazar mexanizmini iqtisadi sistemin təbii tənzimləyicisi kimi qiymətləndirirdilər. Onların fikrincə, sərbəst rəqabət şəraitində firmalar və istehlakçılar arasında qarşılıqlı əlaqə görünməz əl prinsipini formalaşdırır; bu mexanizm həm qiymətlərin, həm istehsal həcmlərinin, həm də resurs bölgüsünün


optimal səviyyədə müəyyənləşdirilməsinə imkan yaradır. Smitə görə, rəqabət mühiti biznes fəaliyyətinin ana xəttidir, çünki rəqabət olmadan innovasiya, məhsuldarlıq və keyfiyyət artmır.

Neoklassik nəzəriyyə isə sərbəst bazarı daha formal modellərlə izah edir. Neoklassik iqtisadçılar üçün bazar mühiti tam rəqabət, rasional istehlakçı və firmalar kimi anlayışlara söykənir. Bu yanaşmada firma mənfəətini, istehlakçı isə faydasını maksimumlaşdırmağa çalışır. Beləliklə, biznes mühitinin əsas tərtib elementi davranış modellərinin riyazi və analitik təhlilidir. Bu yataşma iqtisadi münasibətlərin proqnozlaşdırıla bilən formaya salınmasına kömək edir.

Klassik nəzəriyyədə resursların bölgüsündə əmək, kapital və torpağın rolu xüsusi vurğulanır. Bu resursların bölgüsü bazar vasitəsilə tənzimlənir və qiymət siqnalları firmaların qərarverməsini istiqamətləndirir. Rikardonun komparativ üstünlüklər nəzəriyyəsi isə beynəlxalq biznes mühitinin formalaşmasına həlledici təsir göstərmişdir, çünki bu yanaşma hər bir ölkənin resurs üstünlüklərinə əsaslanaraq ixtisaslaşmasını iqtisadi faydalı hesab edir.

Neoklassik yanaşmada isə qiymət siqnallarının rolu daha dəqiq modelləşdirilir. Qiymət – həm istehsalçıya, həm də istehlakçıya informasiya ötürən əsas mexanizmdir. Qiymətlərin dəyişməsi bazarda tələb və təklifin balanslaşdırılmasına və firmaların optimal istehsal qərarları verməsinə imkan yaradır. Bu prinsiplər müasir biznes mühitində hələ də öz aktuallığını qoruyur; şirkətlər bazar siqnallarına əsaslanaraq məhsul çeşidini, həcmini və bazara daxilolma strategiyalarını müəyyənləşdirirlər.

Sxem 1: Neoklassik nəzəriyyənin müasir biznes mühitinə təsiri



Mənbə: *Müəllif tərəfindən tərtib edilmişdir.*

Klassik və neoklassik iqtisadi nəzəriyyələr müasir biznes mühitinin konseptual bazasını təşkil edir. Bu nəzəriyyələr bazar mexanizminin funksionallaşmasını, rəqabətin əhəmiyyətini, iqtisadi davranışın məntiqini və resurs bölgüsünün prinsiplərini izah etməklə, bizneslərin fəaliyyət qaydalarının formalaşmasında həlledici rol oynamışdır.

Müasir iqtisadi nəzəriyyələr: institusional və davranışsal yanaşmalar

Müasir iqtisadi nəzəriyyələr biznes mühitində baş verən prosesləri daha dərindən anlamaq üçün klassik və neoklassik yanaşmaların hüdudlarını aşaraq yeni konseptual çərçivələr formalaşdırmışdır. Bu nəzəriyyələrdən ən önəmliləri institusional və davranışsal iqtisadiyyatdır. Hər iki istiqamət iqtisadi fəaliyyətin yalnız bazar qanunları ilə deyil, həm də sosial, hüquqi, psixoloji və təşkilati amil-

lərlə müəyyənləşdiyini göstərir. Bu yanaşmalar müasir biznes mühitinin kompleks, dəyişkən və çoxsəviyyəli strukturunu izah etmək baxımından mühüm əhəmiyyət daşıyır [3, s.45].

İnstitusional iqtisadiyyat iqtisadi davranışı formalaşdıran formal və qeyri-formal institutların – yəni qanunlar, qaydalar, adət-ənənələr, sosial normalar, mülkiyyət hüquqları və təşkilati strukturların – rolunu tədqiq edir. Douqlas Nortun yanaşmasına əsasən, iqtisadi inkişafın əsasını məhz səmərəli institutlar təşkil edir. Çünki institutlar bazar münasibətlərinin işləkliyini təmin edir, qeyri-müəyyənliyi azaldır, əməliyyat xərclərini aşağı salır və iqtisadi agentlər arasında etibarı artırır.

Qanunvericilik və normativ çərçivə biznes mühitinin formalaşmasında həlledici rol oynayır. Hüquqi sabitlik və mülkiyyət hüquqlarının qorunması sahibkarların investisiya qərarlarına birbaşa təsir göstərən amillərdir. Əgər dövlət mülkiyyətin toxunulmazlığını təmin edir, müqavilə münasibətlərini effektiv şəkildə tənzimləyir və məhkəmə sistemi operativ fəaliyyət göstərirsə, bizneslər daha az risklə fəaliyyət göstərir və uzunmüddətli investisiyalar edirlər.

Eyni zamanda, institusional mühit iqtisadi agentlərin davranışını stimullaşdıran və ya məhdudlaşdıran çərçivə rolunu oynayır. Vergi sistemi, tənzimləmə qaydaları, lisenziyalaşdırma mexanizmləri və rəqabət qanunvericiliyi biznes proseslərinin səmərəliliyinə və bazar strukturuna birbaşa təsir edir. Beləliklə, iqtisadi sistemin effektivliyi yalnız bazar qüvvələrinin deyil, həm də institusional mühitin keyfiyyətindən asılıdır. İnstitusional yanaşmanın vacib tərkib hissələrindən biri də korporativ idarəetmə və iqtisadi təşkilatlardır. Müasir biznes mühitində şirkətlərin idarəetmə mexanizmləri yalnız daxili idarəetmə prosesləri ilə deyil, həm də onların iqtisadi və sosial institutlarla qarşılıqlı əlaqəsi ilə müəyyənləşir. Korporativ idarəetmə anlayışı, əsasən, şirkət daxilində qərarvermə mexanizmlərini, menecerlərin və səhmdarların münasibətlərini, öhdəlik və məsuliyyət bölgüsünü, şəffaflıq və hesabatlılıq standartlarını əhatə edir. Səmərəli korporativ idarəetmə investor etibarını gücləndirir, şirkətin maliyyə dayanıqlığını artırır və bazarda rəqabət qabiliyyətini yüksəldir. Bu baxımdan korporativ idarəetmə institutları biznes mühitinin ayrılmaz komponenti kimi çıxış edir.

İqtisadi təşkilatlar – assosiasiyalar, ticarət palataları, biznes şuraları və qeyri-hökumət iqtisadi institutları – bazar iştirakçıları arasında əlaqələri gücləndirir və iqtisadi mühitin tənzimlənməsində vacib rol oynayır. Bu təşkilatlar həm dövlət və biznes arasında dialoqu formalaşdırır, həm də sahibkarların maraqlarını müdafiə edir. Müasir biznes mühitini anlamaq üçün yalnız iqtisadi qanunlar və institusional çərçivə kifayət etmir. İnsan davranışı bəzən rasional modellərlə izah olunmur. Bu səbəbdən davranış iqtisadiyyatı iqtisadi qərarların psixoloji, emosional və sosial amillərlə necə formalaşdığını araşdırır [2, s.52].

Davranış iqtisadçıları – xüsusilə Daniel Kaneman və Riçard Tayler – göstərmişdir ki, qərarvermə prosesində insanlar çox vaxt heuristik yanaşmalara, qısayollar və emosional impulslar əsasında seçimlərə üstünlük verirlər. Bu isə bazar davranışlarının klassik nəzəriyyələrdə göstərildiyi qədər rasional olmadığını göstərir.

Davranış iqtisadiyyatı biznes mühiti üçün üç əsas nəticə yaradır. Birincisi, istehlakçı davranışının proqnozlaşdırılması emosional və psixoloji amillərin nəzərə alınmasını tələb edir. Şirkətlər reklam strategiyalarında, qiymət siyasətində və məhsul dizaynında bu faktorları əsas götürürlər. İkincisi, menecment və liderlik qərarları çox vaxt qeyri-rasional amillərdən təsirlənir. Qrup düşüncəsi (groupthink), həddindən artıq inam və riskdən yayınma kimi davranışlar təşkilatın idarəetmə effektivliyini zəiflədə bilər. Üçüncüsü, davranışsal modellər dövlət siyasətində də tətbiq olunur. "Nudge" (təkan) yanaşması ilə dövlətlər iqtisadi agentlərin davranışını sərt məcburetmə olmadan, psixoloji təsir vasitəsilə formalaşdıra bilirlər. İnstitusional və davranışsal yanaşmalar müasir biznes mühitinin daha geniş və real təsvirini təqdim edir. İqtisadi sistemin effektivliyi yalnız bazar mexanizminə bağlı deyil; hüquqi çərçivə, mülkiyyət hüquqları, korporativ institutlar, təşkilati strukturlar və insan psixologiyası biznes fəaliyyətinin ayrılmaz elementləridir.

Texnoloji transformasiya və innovasiya nəzəriyyələri

Müasir dövrdə texnologiyanın sürətli inkişafı iqtisadiyyatın bütün sahələrini yenidən formalaşdırmış, biznes mühitini köklü şəkildə dəyişdirmişdir. Texnoloji transformasiya və innovasiya nəzəriyyələri bu dəyişikliklərin mahiyyətini anlamaq üçün fundamental elmi çərçivə yaradır. Rəqəmsallaşma, süni intellekt, avtomatlaşma və platforma əsaslı biznes modelləri müasir iqtisadi dinamikanın əsas istiqamətlərini müəyyən edir və şirkətlərin fəaliyyət strategiyalarına birbaşa təsir göstərir. Bu çərçivədə innovasiya iqtisadiyyatı və texnoloji dəyişikliklərin biznes modellərinə təsiri xüsusi əhəmiyyət kəsb edir [6, s.27].

Rəqəmsallaşma iqtisadiyyatın bütün səviyyələrində məlumat axınlarının, əməliyyat proseslərinin və istehsal fəaliyyətinin rəqəmsal texnologiyalar üzərində qurulmasını ifadə edir. Bu proses iqtisadi səmərəliliyi artırır, əməliyyat xərclərini azaldır və bizneslərin çevikliyini yüksəldir. İnnovasiya iqtisadiyyatı nəzəriyyələri rəqəmsal texnologiyaların yeni dəyər yaratma formaları meydana gətirdiyini vurğulayır. Məsələn, məlumat (data) XXI əsrin yeni iqtisadi resursu kimi çıxış edir və rəqəmsal bazarlarda strateji üstünlük təmin edir.

Şumpeterin innovasiya nəzəriyyəsinə əsasən, iqtisadi inkişafın əsas hərəkətvericisi "yaradıcı dağıdıcılıq"dır – yəni köhnə texnologiyaların yeniləri ilə əvəz olunması. Rəqəmsallaşma prosesi məhz bu mexanizmi gücləndirir: elektron ticarətin ənənəvi pərakəndə satış modeli üzərində üstünlük qazanması, rəqəmsal bankçılığın ənənəvi bank xidmətlərini dəyişdirməsi və onlayn xidmətlərin real sektorun çox hissəsini transformasiya etməsi buna nümunədir.

İnnovasiya iqtisadiyyatı həmçinin bizneslər arasında rəqabətin xarakterini dəyişir. Texnologiyaya əsaslanan şirkətlər bazara daxil olma xərclərini minimuma endirdiyi üçün yeni oyunçular daha asan şəkildə rəqabətə qoşula bilir. Bununla yanaşı, rəqəmsal ekosistemlər – bulud xidmətləri, verilənlər bazası platformaları, proqram təminatı infrastrukturu – şirkətlərin innovasiya potensialını genişləndirir və yeni biznes modellərinin yaranmasına şərait yaradır.

Süni intellekt (SI) və avtomatlaşma müasir iqtisadiyyatın ən təsirli texnoloji dəyişikliklərindəndir. SI alqoritmləri böyük həcmdə məlumatı tez bir zamanda analiz edərək daha dəqiq qərar verməyə imkan yaradır, beləliklə biznes proseslərini optimallaşdırır. Maliyyə, səhiyyə, logistika, istehsal və xidmət sektorlarında SI-nin tətbiqi əməliyyat sürətini artırır, insan səhvlərini azaldır və məhsuldarlığı yüksəldir.

Avtomatlaşma isə əmək bazarında ciddi struktur dəyişikliklərinə səbəb olur. Aşağı ixtisas tələb edən işlərin maşınlar tərəfindən əvəz olunması, yüksək ixtisasların isə daha çox tələb olunması biznes mühitinin insan kapitalına olan yanaşmasını dəyişir. Bu proses həm də şirkətlərin rəqabət qabiliyyətini müəyyən edən əsas amillərdən birinə çevrilir. Platforma biznes modeli – Uber, Airbnb, Amazon, Alibaba kimi şirkətlərin tətbiq etdiyi yanaşma – iqtisadi sistemdə vasitəçilik mexanizmlərini yenidən təşkil edir. Bu model istehsal və təchizat üzərində nəzarəti deyil, bazar iştirakçılarını əlaqələndirən rəqəmsal platformaların idarəsini əsas götürür. Platforma iqtisadiyyatı şəbəkə effektləri ilə güclənir: istifadəçi sayı artdıqca platformanın dəyəri artır və bazar üstünlüyü möhkəmlənir. Bu, ənənəvi biznes modelləri ilə müqayisədə daha sürətli böyümə və daha geniş miqyas iqtisadiyyatı təmin edir. Texnoloji transformasiya biznes modellərinin strukturunu və dəyər zəncirlərini fundamental şəkildə dəyişir. Keçmişdə istehsal gücü və fiziki kapital üstünlük təşkil edirdisə, indi rəqəmsal aktivlər – məlumat, proqram təminatı, analitika və şəbəkə infrastrukturu – daha böyük strateji rol oynayır. Rəqəmsallaşma nəticəsində aşağıdakı əsas dəyişikliklər müşahidə olunur. Birincisi, biznes modelləri daha çevik olur. Rəqəmsal alətlər şirkətlərin bazar tələbinə daha operativ reaksiya göstərməsini təmin edir. Bu isə dəyişkən biznes mühitində rəqabət üstünlüyü yaradır. İkincisi, müştəri yönümlü yanaşma güclənir. Məhsul və xidmətlərin fərdiləşdirilməsi, süni intellekt əsasında təklif sistemləri, onlayn platformalarda məlumat analitikası müştərilərin ehtiyaclarını daha

dəqiq müəyyən etməyə imkan verir. Üçüncüsü, resursların istifadəsi optimallaşır. Bulud texnologiyaları, avtomatlaşdırılmış istehsal sistemləri və rəqəmsal logistika xərcləri azaldır və iş proseslərini səmərəli edir. Dördüncüsü, bizneslər arasında sərhədlər silinir. Texnoloji şirkətlər maliyyə, nəqliyyat, media və digər sahələrə daxil olaraq ənənəvi sənaye strukturlarını dəyişdirir. Beləliklə, texnoloji dəyişikliklər yeni biznes mühitini formalaşdırır və innovasiya yönümlü yanaşmalar iqtisadi rəqabətin əsas hərəkətverici qüvvəsinə çevrilir [4, s.51].

Sosial və demoqrafik amillərin nəzəri izahı

Müasir biznes mühitini formalaşdıran əsas faktorlar sırasında sosial və demoqrafik amillərin rolu xüsusi əhəmiyyət daşıyır. Cəmiyyətin sosial strukturu, əhali tərkibi, demoqrafik dəyişikliklər, istehlakçı davranışları və əmək bazarının inkişaf dinamikası iqtisadi prosesləri dərin şəkildə təsirləndirir. Biznes subyektləri üçün isə bu amillərin nəzəri izahı strateji planlaşdırmada, məhsul siyasətində və resursların idarə olunmasında həlledici rol oynayır. Sosial və demoqrafik yanaşmalar iqtisadi davranışın yalnız bazar mexanizmləri ilə deyil, insan faktorları və cəmiyyətin inkişaf tendensiyaları ilə formalaşdığını vurğulayır.

İstehlakçı davranışlarının nəzəri izahı sosial psixologiya, davranış iqtisadiyyatı və sosiologiyanın kəsişməsində formalaşan çoxşaxəli bir sahədir. Klassik iqtisadi nəzəriyyəyə görə, istehlakçılar rasionallığa əsaslanan qərarlar verirlər. Lakin müasir yanaşmalar göstərir ki, seçimlər çox vaxt emosional, sosial, mədəni və psixoloji təsirlərdən formalaşır. Sosial meyllər – dəb, qrup davranışı, sosial təsir, brend imici – fərdlərin istehlak qərarlarını dəyişdirən mühüm faktorlardır.

Rəqəmsallaşmanın sürətlə yayılması istehlakçı davranışına yeni formatlar gətirmişdir. Onlayn alış-veriş vərdişlərinin artması, sosial media təsirçilərinin (influencer) rolunun güclənməsi, rəqəmsal reklamın genişlənməsi istehlakçı qərarlarının formalaşmasında sosial təsirin gücünü artırır. Bu kontekstdə bizneslər istehlakçı davranışını proqnozlaşdırmaq üçün psixoloji modellərdən, data analitikadan və sosial tendensiyaların təhlilindən geniş istifadə edirlər.

Eyni zamanda, demoqrafik dəyişikliklər – gənc əhalinin payı, yaşlanma prosesi, şəhərləşmə səviyyəsi – istehlak bazarının strukturunu müəyyən edir. Məsələn, gənc əhalinin üstünlük təşkil etdiyi cəmiyyətlərdə texnoloji məhsullara və xidmətlərə tələbat daha yüksək olur, yaşlı əhalinin artdığı ölkələrdə isə səhiyyə və sosial xidmət sektorları daha sürətlə inkişaf edir.

Sosial və demoqrafik amillər əmək bazarının strukturunu və inkişaf dinamikasını da formalaşdırır. Əmək bazarındakı dəyişiklikləri izah edən nəzəriyyələr göstərir ki, demoqrafik struktur həm işçi qüvvəsinin miqdarını, həm də keyfiyyətini müəyyən edir. Məsələn, doğum səviyyəsində azalma uzunmüddətli perspektivdə işçi çatışmazlığı yaradır, bu isə əmək haqqı artımına və məhsuldarlığın yüksəldilməsinə yönəlik texnoloji həllərin inkişafına səbəb ola bilər.

Gender rollarında dəyişikliklər, qadınların işçi qüvvəsinə daha geniş şəkildə qoşulması və ailə strukturlarında transformasiya da əmək bazarına təsir edən əsas sosial meyllərdəndir. Təhsil səviyyəsinin yüksəlməsi insan kapitalının inkişafını sürətləndirir və daha ixtisaslı işçi qüvvəsi yaradır. Bununla yanaşı, miqrasiya prosesləri əmək bazarında həm çeviklik, həm də müxtəliflik yaratmaqla iqtisadi dinamikanı artırır. Əmək bazarındakı dəyişikliklər bizneslərin idarəetmə strategiyalarını da formalaşdırır. Müasir dövrdə işçi motivasiyası, iş mühitinin keyfiyyəti, əmək münasibətlərində elastiklik, distant iş formatı və işçi məmnuniyyəti şirkətlərin insan resursları siyasətinin əsas elementlərinə çevrilmişdir. Bu dəyişikliklər sosial və demoqrafik amillərin iqtisadi mühitə təsirini daha da gücləndirir. Müasir biznes mühitində insan kapitalının rolu üç əsas istiqamətdə özünü göstərir. Birincisi, yüksək ixtisaslı işçi qüvvəsi innovasiya və məhsuldarlıq artımının əsas mənbəyidir. Texnoloji transformasiya dövründə şirkətlər daha çox analitik düşüncəyə, texniki bacarığa və rəqəmsal kompetensiyalara malik işçilərə ehtiyac duyur. İkincisi, insan kapitalı təşkilat içində idarəetmə səmərəliliyini artırır. Komanda işi, liderlik, strateji düşüncə və kommunikasiya bacarıq-

ları biznes proseslərinin optimallaşdırılmasına təkan verir. Üçüncüsü, sosial kapital və işçi mədəniyyəti şirkətin innovasiya potensialını genişləndirir. Güclü təşkilati mədəniyyət əməkdaşların motivasiyasını artırır, yeni ideyaların yaranmasına şərait yaradır və biznesin rəqabət qabiliyyətini yüksəldir. Sosial və demoqrafik amillər müasir biznes mühitinin formalaşmasında fundamental rol oynayır. İstehlakçı davranışları, əmək bazarındakı dəyişikliklər və insan kapitalının keyfiyyəti biznes strategiyalarını, məhsul siyasətini və rəqabət üstünlüklərini müəyyən edən əsas faktorlar sırasındadır [1, s.123].

Dövlətin rolu və siyasətlərin biznes mühitinə təsiri

Müasir iqtisadiyyatların inkişaf trayektoriyası göstərir ki, biznes mühitinin formalaşmasında dövlətin rolu həlledici əhəmiyyət daşıyır. Dövlət tənzimləmə siyasəti, vergi sistemi, hüquqi çərçivə və müxtəlif stimullaşdırıcı alətlər vasitəsilə sahibkarlıq fəaliyyətinin qaydalarını müəyyən edir, iqtisadi subyektlərin qarşılıqlı əlaqəsini tənzimləyir və dayanıqlı inkişaf üçün əlverişli şərait yaradır. Dövlət müdaxiləsinin səviyyəsi və keyfiyyəti biznes subyektlərinin rəqabət qabiliyyətinə, investisiya mühitinə, innovativ fəaliyyətə və uzunmüddətli iqtisadi sabitliyə birbaşa təsir göstərir.

Tənzimləmə siyasəti, vergi və stimullaşdırıcı alətlər biznesin fəaliyyətinə həm müsbət, həm də mənfi təsir göstərə bilər. Effektiv tənzimləmə mexanizmləri bazarların şəffaflığını artırır, riskləri azaldır, istehlakçı və investorların hüquqlarını qoruyur. Lakin həddindən artıq normativ yüklənmə, mürəkkəb lisenziyalaşdırma və yüksək inzibati xərclər sahibkarlığı ləngidə, xərcləri artıra və qeyri-rəsmi iqtisadiyyatın genişlənməsinə gətirib çıxara bilər. Vergi siyasəti də biznes mühitinin formalaşmasında başlıca alətlərdən biridir: azad iqtisadi zonalar, vergi güzəştləri, investisiya təşviqi və startaplar üçün vergi preferensiyaları yeni bizneslərin yaranmasını stimullaşdırır. İnnovasiya yönümlü iqtisadiyyatlarda vergi kreditləri, AR-GE xərclərinin subsidiyalaşdırılması və innovasiya fondlarının yaradılması xüsusi əhəmiyyət daşıyır, çünki bu mexanizmlər yüksək texnoloji fəaliyyətə sərmayə qoyuluşunu təşviq edir.

Rəqabət mühiti və biznesin hüquqi bazası da iqtisadi fəaliyyətin keyfiyyətini müəyyən edən əsas komponentlərdəndir. Şəffaf və effektiv hüquqi çərçivə sahibkarlara bərabər imkanlar yaradır, inhisarlaşmanın qarşısını alır və sağlam rəqabət mühitini gücləndirir. Antinhisar qanunvericiliyi, istehlakçı hüquqlarının müdafiəsi, əqli mülkiyyətin qorunması və müqavilə münasibətlərinin təminatı biznesin uzunmüddətli inkişafına zəmin yaradır. Əksinə, hüquqi qeyri-müəyyənlik, məhkəmə sisteminin zəifliyi və korrupsiya iqtisadi riskləri artırır, xarici və yerli investorların inamını zəiflədir. Bu baxımdan hüquqi islahatlar, elektron hökumət sistemlərinin inkişafı və tənzimləyici institutların şəffaflaşdırılması biznes mühiti üçün xüsusi əhəmiyyət daşıyır [7, s.44].

Son dövrlərdə xüsusilə innovasiya yönümlü və rəqəmsal iqtisadiyyatın inkişafı kontekstində dövlətin rolunun transformasiyası müşahidə olunur. Dövlət yalnız tənzimləyici deyil, həm də innovasiya ekosisteminin qurucusu kimi çıxış edir: texnoparkların yaradılması, startap ekosisteminin dəstəklənməsi, risk kapitalı fondlarının təşkili və universitet-sənaye əməkdaşlığının gücləndirilməsi bu istiqamətdə mühüm mexanizmlərdir.

Nəticə etibarilə, dövlət siyasətləri biznes mühitinin keyfiyyətinə və iqtisadi inkişafın tempinə həlledici təsir göstərir. Optimal tənzimləmə, çevik vergi strategiyaları, güclü hüquqi baza və dayanıqlı inkişaf strategiyaları sahibkarlığın genişlənməsi, iqtisadi rəqabətliliyin artması və ölkənin uzunmüddətli inkişafının təmin olunması üçün əsas şərtlərdir.

NƏTİCƏ

Müasir dövrdə biznes mühitinin formalaşması çoxşaxəli, dinamik və qarşılıqlı asılılıq əsasında inkişaf edən bir prosesdir. Qloballaşma, texnoloji yeniliklər, sosial-iqtisadi dəyişikliklər və dövlət siyasətinin transformasiyası biznes mühitinin bütün komponentlərinə təsir göstərərək onun nəzəri təhlilini daha da aktuallaşdırır. Nəticələr göstərir ki, biznes mühitinin mahiyyətini anlamaq üçün iqti-

sadi, sosial, texnoloji və institusional amilləri vahid sistem daxilində nəzərdən keçirmək zəruridir. Çünki müasir iqtisadiyyatlarda biznes mühiti sadəcə şirkətlərin fəaliyyət göstərdiyi xarici şərait deyil, həm də iqtisadi davranışları, strateji qərarları və rəqabət strategiyalarını müəyyən edən kompleks bir strukturdur. Biznes mühitinin nəzəri əsasları göstərir ki, onun formalaşması iki əsas səviyyədə baş verir: makro səviyyə və mikro səviyyə. Makro səviyyədə iqtisadi sabitlik, dövlət siyasətləri, hüquqi çərçivələr, sosial və demoqrafik struktur, texnoloji inkişaf və qlobal tendensiyalar mühüm rol oynayır. Mikro səviyyədə isə istehlakçı davranışları, şirkətlərin resurs imkanları, menecment strategiyaları və sahənin spesifik xüsusiyyətləri ön plana çıxır. Bu iki səviyyənin qarşılıqlı təsiri biznes subyektlərinin fəaliyyət imkanlarını, rəqabət qabiliyyətini və innovasiya potensialını müəyyən edir.

Texnoloji transformasiya biznes mühitinin nəzəri əsaslarında xüsusi yer tutur. Rəqəmsallaşma, süni intellekt, avtomatlaşma və platforma iqtisadiyyatı ənənəvi biznes modellərini yenidən tərtib edir, bazarların strukturunu dəyişir və yeni iqtisadi davranış formaları yaradır. Sosial və demoqrafik amillər də biznes mühitinin formalaşmasında əsas rol oynayır. Dövlətin rolu biznes mühitinin nəzəri əsaslarında ayrılmaz bir komponentdir. Effektiv tənzimləmə siyasətləri, vergi mexanizmləri, hüquqi çərçivələrin stabilliyi və strateji inkişaf proqramları sahibkarlıq fəaliyyəti üçün əlverişli şərait yaradır. Müasir iqtisadiyyatlarda dövlət yalnız tənzimləyici funksiyanı yerinə yetirmir, həm də innovasiya və rəqəmsal transformasiya proseslərinin təşəbbüskarı rolunu oynayır. Beləliklə, müasir dövrdə biznes mühitinin formalaşmasının nəzəri əsasları çoxkomponentli və qarşılıqlı təsirlərə əsaslanan bir sistemi əhatə edir. Bu sistemin düzgün təhlili və qiymətləndirilməsi iqtisadiyyatın dayanıqlı inkişafı, şirkətlərin rəqabət qabiliyyəti və innovasiya potensialının artırılması üçün mühüm şərtdir.

İstifadə edilmiş ədəbiyyat:

1. Kahneman, D. Thinking. (2011). Fast and Slow. Farrar, Straus and Giroux.
2. Kotler, P., Armstrong, G. (2018).Principles of Marketing. Pearson Education.
3. OECD. (2022). Innovation and Business Environment Report. Paris: OECD Publishing.
4. Porter, M.E. (1980). Competitive Strategy: Techniques for Analyzing Industries and Competitors. New York: Free Press.
5. North, D.C. (1990). Institutions, Institutional Change and Economic Performance. Cambridge: Cambridge University Press.
6. Schumpeter, J.A. (1934). The Theory of Economic Development. Harvard University Press.
7. Samuelson, P., Nordhaus, W. (2010). Economics. McGraw-Hill.
8. Williamson, O.E. (1985). The Economic Institutions of Capitalism. Free Press.

H.K.Shirinov
PhD student, Azerbaijan Cooperation University

Theoretical basis of the formation of the business environment in the modern era

Abstract

The formation of the business environment in modern times is a dynamic process that occurs as a result of the interaction of economic, social, technological and institutional factors. Global economic integration, increased competition and the rapid development of innovations have radically changed the structure of the business environment and led to the emergence of new activity models. The theoretical foundations of the business environment are explained by various theoretical schools, starting from classical economic views and including institutional, behavioral and innovation

economics. While classical theories emphasize the free functioning of the market mechanism, modern approaches highlight the impact of state regulation, competition policy, information asymmetry and corporate governance on the business environment. Technological transformation, digitalization, artificial intelligence and platform economy have changed the principles of operation of business entities, creating the opportunity to form a more flexible, transparent and innovative economic model. At the same time, the institutional environment – legislation, property rights, regulatory framework and state economic policy – plays a decisive role in the stability of the business environment. Social factors, consumer behavior and characteristics of the labor market are also an integral part of the modern business ecosystem. Consequently, the theoretical foundations of the formation of the business environment are multifaceted and reflect the complex interaction of institutional, technological, and social factors that ensure the stability of the economic system.

Keywords: *innovation economy, business entities, operating principles, labor market.*

https://doi.org/10.58225/tim.2025-4-196-203

G.O.Aliyeva
PhD, associate professor, Azerbaijan Technical University
gunay.aliyeva@aztu.edu.az
N.K.Piriyev
magistrant, Azerbaijan Technical University

Məqalə redaksiyaya daxil olub 26.11.2025
The article was received by editorial board on 26.11.2025
Статья принята к печати 26.11.2025

ADOPTION OF DATA ANALYTICS IN INDUSTRY 4.0: CHALLENGES AND OPPORTUNITIES FOR COMPANIES

Abstract

This paper explores how companies adopt data analytics within the context of Industry 4.0, focusing on both the major opportunities and the challenges that come with digital transformation. Although many studies (Duan et al., 2021; Kagermann et al., 2013; Bajic & Rikalovic, 2020) discuss the technical and infrastructural side of this topic, much less attention has been given to the human and organizational aspects that actually determine success. The study aims to fill this gap by combining insights from technology-focused and human-centered approaches into a single hybrid framework. It is based on a review and comparison of key academic and industrial studies that explain how data analytics supports transformation in manufacturing.

The main argument is that long-term success in Industry 4.0 depends not only on digital tools but also on people - their skills, leadership, and ability to create an open data culture. The paper's contribution lies in showing how technical systems, human capabilities, and ethical governance can work together to support sustainable digital growth.

Keywords: *industry 4.0, data analytics, predictive maintenance, artificial intelligence, digital transformation, smart manufacturing, organizational culture.*

INTRODUCTION

The Fourth Industrial Revolution, often referred to as Industry 4.0, marks a major shift in how industries operate by merging physical production systems with digital intelligence (Hermann, Pentek, & Otto, 2016). Unlike previous revolutions based on mechanical or electrical power, Industry 4.0 is driven by data - the key resource behind modern industrial competitiveness (Mayer-Schönberger & Cukier, 2013).

Data analytics plays a central role in this transformation. It enables companies to turn massive amounts of operational data into useful insights that improve decision-making, productivity, and innovation (Lee, Bagheri, & Kao, 2015). Yet, many organizations still fail to capture real value from data analytics due to problems such as fragmented data systems, low digital literacy, and resistance to cultural change (Moeuf et al., 2018; Ghobakhloo, 2018).

This study addresses this gap by examining how human, organizational, and cultural factors interact with technology to shape the adoption of data analytics in Industry 4.0. The goal is to understand not only how companies use data, but also how leadership, skills, and culture influence

this process. This research is particularly relevant in today's European manufacturing context, where firms are under pressure to digitalize responsibly and sustainably. Understanding these relationships provides both theoretical insight and practical guidance for building more adaptive, data-driven organizations - a direction that also reflects my long-term research interest in digital transformation leadership.

II. METHODOLOGY

This study follows a conceptual synthesis methodology, which aims to integrate and extend existing knowledge on data analytics adoption within the Industry 4.0 framework. Rather than collecting primary data, the paper draws on a systematic review of recent academic and industrial studies published between 2013 and 2024.

The selection of literature was guided by three main criteria:

- relevance to Industry 4.0 technologies (IoT, AI, cyber-physical systems);
- focus on organizational and human factors in digital transformation;
- evidence-based insights or frameworks that link analytics with decision-making.

The analysis involved identifying patterns, contradictions, and gaps across the reviewed studies to develop a hybrid adoption model that combines technological, human, and ethical dimensions.

This conceptual approach was chosen because it allows for a theoretical generalization that can support future empirical research - particularly in understanding how European manufacturing firms can build human-centered digital strategies. The following section introduces the conceptual foundation of Industry 4.0 and explains how data analytics operates as its central mechanism for value creation.

1. Conceptualizing industry 4.0 and the role of data analytics

Industry 4.0 refers to a digital ecosystem where cyber-physical systems (CPS), Internet of Things (IoT), artificial intelligence (AI), and cloud computing operate together to create self-optimizing, interconnected factories (Kagermann et al., 2013).

1.1. The core framework of industry 4.0

This diagram visualizes the structural essence of Industry 4.0, highlighting how industrial platforms, smart systems, and data analytics interact to form a cohesive ecosystem.

As I interpret this model:

- The left section represents the physical layer, where machines, sensors, and devices (IoT) collect operational data.
- The middle section depicts the cyber layer, consisting of AI-driven analytics and cloud systems that interpret and model this data.

The right section reflects the decision and control layer, where data-driven insights return to the physical environment as optimized actions.




Figure 1: Industry 4.0 framework – integration of smart systems

This triadic integration demonstrates that Industry 4.0 is not merely a network of machines—it is an intelligent feedback system driven by continuous learning, aligning perfectly with the data analytics feedback loop later discussed. In my analysis, this figure validates the socio-technical concept that technology and human intelligence must function synergistically. Without interpretive human insight and strategic governance, even the most advanced analytics lose contextual value. Hence, this image serves as the visual backbone of the argument that Industry 4.0 is both a technological and organizational revolution.

1.2. The data analytics loop in industry 4.0

The data analytics loop represents the continuous cycle through which raw industrial data is transformed into actionable intelligence in Industry 4.0 environments. This loop connects the physical and cyber dimensions of production systems, ensuring that every decision is informed by real-time data streams. As described by Lee et al. (2014) and Tao et al. (2018), the loop involves six interconnected stages:

- Data Collection – capturing data from IoT-enabled machines and sensors;
- Data Storage – transferring and maintaining data in cloud infrastructures;
- Data Processing – applying big data analytics and machine learning algorithms to clean and model information;
- Insight Generation – extracting patterns, anomalies, and predictive indicators;
- Decision Execution – integrating analytics outcomes into operational processes via automation; and
- Continuous Feedback – using performance data to refine future actions.

This cyclical feedback mechanism enables self-optimization and autonomous decision- making within industrial systems. In my assessment, this loop embodies the very essence of Industry 4.0 - an ecosystem where machines, data, and humans collaborate seamlessly to create adaptive, intelligent manufacturing environments.

From my own analytical perspective, organizations that fully integrate this feedback loop experience not only efficiency gains but also a strategic shift toward proactive decision-making and innovation-driven competitiveness.

2. Opportunities offered by data analytics in industry 4.0

Data analytics creates a wide range of opportunities for companies that are trying to modernize their operations under the principles of Industry 4.0. When used effectively, it helps organizations make better decisions, reduce costs, and develop new ways of working that are both efficient and innovative. The following parts discuss the main advantages of using data analytics in this context.

2.1. Enhanced decision-making and strategic agility

One of the most important advantages of data analytics is that it helps managers make decisions based on facts instead of intuition. Studies show that firms that rely on data-driven decision-making perform better in areas such as efficiency and customer satisfaction (Gupta & George, 2016).

In practice, real-time data allows companies to respond quickly to changes in production, demand, or supply. For example, BMW has used predictive analytics to identify and remove bottlenecks in its factories, which has saved significant time and money (Siemens, 2020).

This shows that data analytics not only supports planning but also gives firms a level of strategic agility that is hard to achieve otherwise.

2.2. Predictive maintenance and operational efficiency

Predictive maintenance uses machine-learning algorithms to predict equipment failures before they occur. Studies show that predictive maintenance can reduce downtime by up to 30 % (Susto et

al., 2015). However, I argue that this is not just a technological advance - it redefines workforce roles. As employees transition from machine operators to data interpreters, companies must invest in training to avoid "data fatigue" and enhance analytical literacy.

2.3. Innovation, personalization, and product customization

Big Data Analytics supports mass customization - producing individualized products at scale (Brynjolfsson & McAfee, 2017). Wamba et al. (2017) link analytics capabilities directly to innovation performance. As I interpret, analytics bridges innovation discovery and operational scalability, allowing firms to innovate faster and respond to customer feedback dynamically.

2.4. Sustainability and energy optimization

Another important benefit is sustainability. Using data analytics, companies can monitor and optimize how they use energy and materials. Siemens, for example, reported that its smart factories achieved a 20% reduction in carbon emissions through better data management. This example shows that analytics does not only increase profit - it also supports environmental goals and helps industries move toward green transformation. In many cases, sustainability becomes a competitive advantage when it is combined with strong data-driven management. While these opportunities are impressive, the adoption of data analytics in Industry 4.0 is not without challenges. The next section discusses the most common obstacles that companies face when trying to use analytics effectively.

3. Challenges in adopting data analytics

Even though data analytics offers huge opportunities for industries, many companies still face serious challenges when trying to apply it in practice. These challenges are not only technical but also cultural and organizational. Understanding these barriers is essential to design better strategies for successful adoption.

3.1. Data security, privacy, and ethical issues

As industrial systems become more connected, the risk of cyberattacks and data leaks grows significantly (He & Xu, 2015). Many organizations still struggle with protecting sensitive data while also sharing information across digital platforms. Beyond security, there are ethical concerns such as transparency, fairness, and responsible data use. Instead of only following legal regulations, companies should aim to build a data ethics culture, where privacy and accountability are seen as part of business values (Mortier et al., 2014). This approach helps to build trust with both employees and customers, which is critical for long- term digital success.

3.2. Lack of analytical talent and data literacy

Another serious issue is the lack of qualified people who can understand and work with data. Manyika et al. (2017) estimated that by 2030 there will be a global shortage of around 250,000 data professionals.However, the problem is not only about having data scientists - it is also about general data literacy within the company. A good solution is to build mixed teams where people with technical skills (like AI or data modeling) work together with those who have industry knowledge (for example, manufacturing or logistics experts). This mix helps companies use analytics more effectively in real-world decisions.

3.3. Integration of legacy systems

Many traditional companies still rely on old software or machines that were not built for data integration. This "legacy infrastructure" often prevents smooth data flow between departments (Moeuf et al., 2018). Instead of replacing everything at once - which is costly and risky - a better strategy is to connect old and new systems gradually, using middleware or hybrid platforms.

3.4. Financial barriers and ROI ambiguity

High costs are one of the main reasons why small and medium-sized companies hesitate to invest in data analytics. In many cases, it is difficult to calculate the return on investment (ROI) at

the early stages (Kiron et al., 2014). However, case studies from firms like GE and Hitachi show that when implemented correctly, analytics can bring over 30% long-term savings (GE Reports, 2019).

The key is to start small - through pilot projects - and scale up once measurable results appear. This approach reduces risk and demonstrates value step by step. These challenges make it clear that adopting data analytics is not only about technology but also about people, processes, and strategy. The next section brings these ideas together in a comparative discussion and introduces a hybrid model that combines both technical and human perspectives.

4. Comparative discussion and proposed hybrid model

Scholars in the field of Industry 4.0 generally follow two main approaches when studying data analytics adoption. The first one is technological determinism, which assumes that digital transformation is mainly driven by technology itself (Kagermann et al., 2013; Lee et al., 2015).

The second is the socio-technical perspective, which argues that successful transformation depends equally on people, culture, and organizational readiness (Schumacher et al., 2019; Bajic & Rikalovic, 2020).

Both approaches are valuable, but neither is complete on its own. In practice, most organizations fail when they treat data analytics only as a technical upgrade and ignore the human and cultural side of change. At the same time, focusing only on soft factors like culture and leadership without building strong digital infrastructure is also ineffective.

4.1. Components of the hybrid model

The proposed model includes five connected components that together define how data analytics adoption can succeed in the Industry 4.0 environment:

Component	Description	Practical Meaning
Digital Infrastructure	Includes IoT, cloud platforms, and edge computing systems.	Enables real-time data collection and intelligent automation.
Analytical Capability	Refers to tools and skills for data processing, visualization, and machine learning.	Transforms raw data into insights that guide decisions.
Human Readiness	Involves digital literacy, leadership	Ensures people can understand and trust data-based outcomes
Governance and Ethic	Covers privacy, transparency, and accountability standards.	Builds public and employee trust in digital operations.
Sustainability Orientation	Focuses on resource efficiency and long- term resilience.	Connects analytics adoption with environmental responsibility.

Each of these components reinforces the others. For example, technology provides data, but humans give that data context and meaning. Ethical governance ensures that data use remains transparent and fair, while sustainability gives direction to the whole system. In this way, the hybrid model supports not only efficiency but also long-term organizational development.

III. DISCUSSION OF THE RESULTS

Theoretically, the model extends the Industry 4.0 Maturity Index (Schumacher et al., 2019) by adding ethics and sustainability as two key indicators of digital maturity. It also connects human factors - like data literacy and leadership - with the technical aspects of data analytics, forming a more complete understanding of transformation. From a practical point of view, this model can help managers and policymakers design balanced digital strategies**.** For instance, before investing in new

data tools, companies can evaluate whether their workforce has the necessary analytical and ethical readiness.

This approach helps avoid the common mistake of treating digital transformation purely as an IT project. Building on this hybrid understanding, the next section looks at how future technologies - such as edge computing and 5G - will further change the landscape of data analytics in Industry 4.0. The adoption of data analytics in Industry 4.0 is far more than a technological upgrade - it represents a deep organizational and cultural transformation. The findings of this study show that while digital tools and infrastructures are essential, they cannot achieve lasting impact without the right human capabilities, ethical principles, and cultural adaptability. Many companies continue to face challenges such as cybersecurity risks, legacy system integration, and limited data skills. However, organizations that invest in both technological readiness and human development are more likely to achieve sustainable success.

This paper has proposed a Hybrid Adoption Model that connects these two dimensions combining digital infrastructure, analytical capability, human readiness, ethical governance, and sustainability. The model helps explain how firms can move from isolated digital projects to a holistic transformation process that creates long-term value.

Overall, the main conclusion is clear:

Sustainable digital transformation = Data Infrastructure + Human Insight + Ethical Governance.

Firms that understand and apply this balance will not only improve their efficiency and competitiveness but also contribute to more responsible and human-centered industrial progress. As digitalization continues to evolve, the real measure of success will be how effectively companies align technology with people - an idea that will guide my own future research in this field.

The future of data analytics in Industry 4.0 will be shaped by several emerging technologies such as edge computing, 5G networks, and autonomous decision systems (Tao et al., 2018; Li, 2020).With faster data transfer and local data processing, these technologies will allow industries to make decisions in real time and respond instantly to production changes. For example, 5G-enabled IoT systems can connect thousands of machines and sensors at once, making industrial operations more flexible and efficient (Xu, Xu & Li, 2018).

However, the next big challenge will not only be technical but also social. As machines become smarter, companies will need to rethink how people and algorithms collaborate. This shift raises new questions about data responsibility, human control, and skill development in an automated environment. Future research should therefore focus on how organizations can balance automation with human judgment, and how leadership models must evolve to guide digital transformation ethically. It will also be important to explore how small and medium-sized enterprises (SMEs), especially in Europe, can build human-centered digital strategies that are both innovative and sustainable.

For researchers, these directions open up a wide field of study that connects technology, management, and ethics. For me personally, understanding how digital transformation can remain inclusive and value- driven represents not only an academic goal but also a long-term research path that I aim to pursue in future doctoral studies.

References:

1. Bajic, B., & Rikalovic, A. (2020). Industry 4.0 implementation challenges and opportunities: A systematic literature review. IEEE Access, 8, 27383–27399. https://doi.org/10.1109/ACCESS.2020.2972534

2. Brynjolfsson, E., & McAfee, A. (2017). Machine, platform, crowd: Harnessing our digital future. W. W. Norton & Company.

3. Davenport, T.H., & Harris, J. (2017). Competing on analytics: The new science of winning (Updated ed.). Harvard Business Review Press.

4. Duan, Y., Cao, G., & Edwards, J.S. (2020). Understanding the impact of business analytics on innovation. European Journal of Operational Research, 281(3), 673–686. https://doi.org/10.1016/j.ejor.2018.06.021

5. Ghobakhloo, M. (2018). The future of manufacturing industry: A strategic roadmap toward Industry 4.0. Journal of Manufacturing Technology Management, 29(6), 910–936. https://doi.org/10.1108/JMTM-02-2018-0056

6. Gupta, M., & George, J. F. (2016). Toward the development of a big data analytics capability. Information & Management, 53(8), 1049–1064. https://doi.org/10.1016/j.im.2016.07.002

7. He, W., & Xu, L.D. (2015). A state-of-the-art survey of cloud manufacturing. Robotics and Computer-Integrated Manufacturing, 31(3), 202–221. https://doi.org/10.1016/j.rcim.2014.10.008

8. Hermann, M., Pentek, T., & Otto, B. (2016). Design principles for Industrie 4.0 scenarios.

9. Procedia CIRP, 52, 1–6. https://doi.org/10.1016/j.procir.2016.07.056

10. Kagermann, H., Wahlster, W., & Helbig, J. (2013). Recommendations for implementing the strategic initiative INDUSTRIE 4.0. acatech – National Academy of Science and Engineering. https://doi.org/10.13140/RG.2.2.17654.65605

11. Kiron, D., Prentice, P.K., & Ferguson, R.B. (2014). The analytics mandate. MIT Sloan Management Review, 56(4), 1–25. https://sloanreview.mit.edu/article/the-analytics- mandate/

12. Lee, J., Bagheri, B., & Kao, H.-A. (2015). A cyber-physical systems architecture for Industry 4.0-based manufacturing systems. Manufacturing Letters, 3, 18–23. https://doi.org/10.1016/j.mfglet.2014.12.001

13. Manyika, J., Chui, M., Miremadi, M., Bughin, J., George, K., Willmott, P., & Dewhurst, M. (2017). Jobs lost, jobs gained: Workforce transitions in a time of automation. McKinsey Global Institute. https://www.mckinsey.com/featured-insights/future-of-work

14. Mortier, R., Haddadi, H., Henderson, T., McAuley, D., & Crowcroft, J. (2014). Human-data interaction: The human face of the data-driven society. Philosophical Transactions of the Royal Society A, 374(2083), 20140355. https://doi.org/10.1098/rsta.2014.0355

15. Moeuf, A., Pellerin, R., Lamouri, S., Tamayo-Giraldo, S., & Barbaray, R. (2018). The industrial management of SMEs in the era of Industry 4.0. Computers in Industry, 99, 113–117. https://doi.org/10.1016/j.compind.2018.02.002

16. Oikonomidi, S. (2020). The impact of big data analytics in Industry 4.0: A SWOT analysis. Diva Portal. https://www.diva-portal.org/smash/get/diva2:1434972/FULLTEXT01.pdf

17. Schumacher, A., Erol, S., & Sihn, W. (2019). Industry 4.0 Maturity Index: Managing the digital transformation of companies. acatech Study. https://www.acatech.de/publikation/industry-4-0-maturity-index/

18. Siemens. (2020). Smart manufacturing report. Siemens AG. https://new.siemens.com/global/en/company/stories/industry/smart-manufacturing.html

19. Siemens. (2021). Sustainability and energy optimization report. Siemens AG. https://press.siemens.com/global/en/pressrelease/siemens-sustainability

20. Stock, T., & Seliger, G. (2016). Opportunities of sustainable manufacturing in Industry 4.0.

21. Procedia CIRP, 40, 536–541. https://doi.org/10.1016/j.procir.2016.01.129

22. Susto, G., Schirru, A., Zanini, A., De Nicolao, G., & Beghi, A. (2015). Machine learning for predictive maintenance: A multiple classifier approach. Journal of Manufacturing Systems, 37, 698–712. https://doi.org/10.1016/j.jmsy.2015.02.001

23. Tao, F., Qi, Q., Liu, A., & Kusiak, A. (2018). Digital twin-driven smart manufacturing: Connotation, reference model, applications and research issues. IEEE Access, 6, 3585– 3593. https://doi.org/10.1109/ACCESS.2018.2793265

24. Wamba, S.F., Gunasekaran, A., Akter, S., Dubey, R., & Childe, S.J. (2017). Big data analytics and firm performance: Effects of dynamic capabilities. Journal of Business Research, 70, 356–365. https://doi.org/10.1016/j.jbusres.2016.08.009

25. Zhou, K., Liu, T., & Zhou, L. (2018). Industry 4.0: Toward future industrial opportunities and challenges. Proceedings of the 12th International Conference on Fuzzy Systems and Knowledge Discovery (FSKD), 2147–2152. https://doi.org/10.1109/FSKD.2015.7382284

26. Li, L. (2020). 5G and edge computing for Industry 4.0: Opportunities and challenges. Journal of Industrial Information Integration, 18, 100162. https://doi.org/10.1016/j.jii.2020.10016

G.O.Əliyeva
PhD, dosent, Azərbaycan Texniki Universiteti
N.K.Piriyev
magistrant, Azərbaycan Texniki Universiteti

Sənaye 4.0-da məlumat analitikasının tətbiqi: şirkətlər üçün çətinliklər və imkanlar

Xülasə

Məqalədə şirkətlərin Sənaye 4.0 kontekstində məlumat analitikasını necə qəbul etdiyi araşdırılır və həm əsas imkanlara, həm də rəqəmsal transformasiya ilə bağlı çətinliklərə diqqət yetirilir. Bir çox tədqiqatlar (Duan və b., 2021; Kagermann və b., 2013; Bajic & Rikalovic, 2020) bu mövzunun texniki və infrastruktur tərəfini müzakirə etsə də, uğuru əslində müəyyən edən insan və təşkilati aspektlərə daha az diqqət yetirilib. Tədqiqat texnologiyaya yönəlmiş və insan mərkəzli yanaşmalardan əldə edilən fikirləri vahid hibrid çərçivəyə birləşdirərək bu boşluğu doldurmağı hədəfləyir. Bu, məlumat analitikasının istehsalda transformasiyanı necə dəstəklədiyini izah edən əsas akademik və sənaye tədqiqatlarının nəzərdən keçirilməsinə və müqayisəsinə əsaslanır.

Əsas arqument budur ki, Sənaye 4.0-da uzunmüddətli uğur yalnız rəqəmsal alətlərdən deyil, həm də insanlardan - onların bacarıqlarından, liderliyindən və açıq məlumat mədəniyyəti yaratmaq qabiliyyətindən asılıdır. Məqalənin töhfəsi texniki sistemlərin, insan imkanlarının və etik idarəetmənin davamlı rəqəmsal artımı dəstəkləmək üçün necə birlikdə işləyə biləcəyini göstərməkdən ibarətdir.

Açar sözlər: *sənaye 4.0, məlumat analitikası, proqnozlaşdırıcı texniki xidmət, süni intellekt, rəqəmsal transformasiya, ağıllı istehsal, təşkilati mədəniyyət.*

https://doi.org/10.58225/tim.2025-4-204-210

N.S.Əliyeva
i.ü.f.d, b.m., Azərbaycan Memarlıq və İnşaat Universiteti
ORCID 0000-0001-5845-8565
nigar.aliyeva@azmiu.edu.az
S.H.Səmədova
magistrant, Azərbaycan Memarlıq və İnşaat Universiteti
semedovasafura9@gmail.com

Məqalə redaksiyaya daxil olub 01.12.2025
The article was received by editorial board on 01.12.2025
Статья принята к печати 01.12.2025

LİZİNQ BAZARINDA SIĞORTA MEXANİZMLƏRİ VƏ RİSKLƏRİN İDARƏ OLUNMASI

Xülasə

Lizinq bazarında sığorta mexanizmləri və risklərin idarə olunması maliyyə təhlükəsizliyinin təmin edilməsi və iqtisadi sabitliyin qorunması baxımından xüsusi əhəmiyyət kəsb edir. Lizinq əməliyyatları prosesində müxtəlif risklər- bazar, maliyyə və hüquqi riskləri- meydana çıxır. Bu risklər əsasən lizinq obyektinin zədələnməsi, müştərinin öhtəliklərini yerinə yetirməməsi və iqtisadi dəyişikliklər kimi hallarda yarana bilər. Belə situasiyalarda sığorta lizinq verənin, həm də alanın maraqlarını qoruyan ən effektiv vasitə hesab olunur, məhz buna görə də lizinq sektorunda onların tətbiqi zəruridir.

Sığorta lizinq predmetinin təhlükəsizliyini təmin edir, tərəflər arasında inamı artırır və maliyyə sabitliyinə töhfə verir. Lizinq şirkətləri risklərin qarşısını almaq məqsədilə sığorta qurumları ilə əməkdaşlıq edir, müştərilərin maliyyə imkanlarını əvvəlcədən analiz edir və mümkün itkilərin qarşısı üçün ehtiyat mexanizmləri formalaşdırır.

Azərbaycanda lizinq bazarında rəqəmsal texnologiyaların tətbiqi və beynəlxalq təcrübədən yararlanma risklərin daha effektiv idarə edilməsinə imkan verir. Bu yanaşma lizinq sektorunun inkişafını təşviq edir və ölkənin ümumi iqtisadi sabitliyinə müsbət təsir göstərir.

Müasir şəraitdə ERP (Enterprise Resource Planning), CRM (Customer Relationship Management) və PLM (Product Lifecycle Management) kimi sistemlər müəssisələrin innovasiya proseslərinin idarəedilməsində geniş istifadə olunur. ERP sistemləri maliyyə, istehsal, logistika və digər funksional sahələr üzrə məlumatların vahid bazada inteqrasiyasını təmin etməklə innovasiya layihələrinin resurs təminatını koordinasiya edir. CRM sistemləri müştəri məlumatlarının, sifariş və şikayətlərin, bazar seqmentlərinin idarə edilməsini avtomatlaşdırmaqla innovativ məhsul və xidmətlərin müştəri tələbatına uyğun formalaşdırılmasına yardım edir. PLM sistemləri isə məhsulun ideyadan başlayaraq utilizasiyaya qədər bütün həyat dövrünü rəqəmsal mühitdə izləməyə və idarə etməyə imkan verir [10].

Avtomatlaşdırılmış innovasiya idarəetmə sistemləri nəticə etibarilə qərar qəbuletmə prosesini sürətləndirir, məlumatların dəqiqliyini artırır, insan amilindən irəli gələn subyektivliyi azaldır və korporativ biliklərin qorunub saxlanmasına şərait yaradır.

İnnovasiya idarəetməsinin avtomatlaşdırılmasında əsas texnologiyalar

İnnovativ fəaliyyətin avtomatlaşdırılması istiqamətində istifadə olunan texnologiyalar davamlı inkişafda olmaqla yanaşı, getdikcə daha çox inteqrasiya xarakteri daşıyır. Bu sahəyə qlobal maraq artmaqdadır; belə ki, 2024-cü ildə innovasiya menecmenti texnologiyalarına yatırılan qlobal investisiya həcmi 3.2 milyard dolları keçmiş və əvvəlki illə müqayisədə 19% artım nümayiş etdirmişdir.

Süni intellekt (AI) və maşın öyrənməsi (ML) texnologiyaları innovasiya layihələrinin seçilməsi və bazar proqnozlarının hazırlanmasında həlledici rol oynayır. Statistik məlumatlara əsasən, müasir innovasiya idarəetmə platformalarının 61%-i ideyaların ilkin qiymətləndirilməsi və təsnifatı üçün maşın öyrənməsi alqoritmlərini artıq tətbiq edir. Həmçinin, bu platformaların 58%-i 2024-cü il etibarilə qərarların qəbulu prosesində avtomatlaşdırılmış AI qiymətləndirmə sistemlərindən aktiv istifadə etməkdədir. Bu texnologiyalar böyük həcmli məlumatların emalı nəticəsində klassik statistik metodların çətinliklə aşkar edə bildiyi asılılıqları üzə çıxarır [7].

Big Data və analitika platformaları müxtəlif mənbələrdən daxil olan informasiyanın real vaxt rejimində təhlilinə imkan verir. Bulud texnologiyaları isə innovasiya komandalarına coğrafi məhdudiyyətlərdən asılı olmayaraq birgə fəaliyyət göstərməyi təmin edir. Bu tendensiyanın miqyası olduqca genişdir; belə ki, bulud əsaslı innovasiya idarəetmə platformalarından istifadə edənlərin sayı 30 milyonu ötmüşdür. Bu, qlobal innovasiya ekosisteminin məhz bulud həlləri üzərində mərkəzləşdiyini sübut edir [8].

Robotlaşdırılmış proses avtomatlaşdırması (RPA) sənəd dövriyyəsi və hesabatlılıq kimi rutin əməliyyatları icra edərək insan resurslarına qənaət edir. Biznes proseslərinin avtomatlaşdırılması (BPA) bazarının 2024-cü ildəki 13 milyard dollarlıq həcmindən, 2029-cu ilə qədər 23.9 milyard dollara çatacağı proqnozlaşdırılır. Bu artım, rutin tapşırıqların avtomatlaşdırılması hesabına innovasiya menecerlərinin daha çox yaradıcı və strateji işlərə fokuslanmasına şərait yaradır [5].


Bu texnologiyaların sinerjisi nəticəsində innovativ fəaliyyətin idarəedilməsində daha çevik yanaşma formalaşır [2] [3]. Nəticələr də bunu təsdiqləyir: strukturlaşdırılmış innovasiya platformalarını tətbiq edən şirkətlər ideyanın yaranmasından məhsulun bazara çıxarılmasına qədər olan müddəti (time-to-market) orta hesabla 32% azaltmağa nail olmuşdurlar.

İnnovasiya proseslərinin avtomatlaşdırılmasında sistem yanaşması

İnnovativ fəaliyyətin avtomatlaşdırılması təkcə ayrı-ayrı proqram məhsullarının tətbiqi ilə məhdudlaşmamalı, müəssisə səviyyəsində sistemli yanaşma əsasında həyata keçirilməlidir. Bu məqsədlə "İnnovasiya idarəetmə sistemi" çərçivəsində innovasiya ilə bağlı bütün proseslər – ideyaların generasiyası, seçim, planlaşdırma, icra, monitorinq və qiymətləndirmə – vahid platformada birləşdirilməlidir. Belə bir sistem innovasiya fəaliyyətini müəssisənin ümumi strategiyası ilə uzlaşdı-

rır, müxtəlif struktur bölmələr arasında koordinasiyanı gücləndirir, məlumat axınlarının səmərəli idarə olunmasına imkan verir.

İnnovasiya idarəetmə sistemi çərçivəsində strateji planlaşdırma modulu innovasiya prioritetlərinin müəyyənləşdirilməsini, ideya idarəetmə modulu işçilər və xarici tərəfdaşlar tərəfindən irəli sürülən təkliflərin qeydiyyatını, təsnifatını və qiymətləndirilməsini, layihə idarəetmə modulu isə seçilmiş ideyaların konkret layihələr şəklində reallaşdırılmasını təmin edir. Maliyyə və resurs planlaşdırma modulu innovasiya layihələrinin büdcəsinin formalaşdırılması, resursların bölgüsü və onların faktiki istifadəsinə nəzarəti avtomatlaşdırır. Risklərin idarə edilməsi modulu layihə risklərinin identifikasiyası, qiymətləndirilməsi və risklərlə bağlı qarşı tədbirlərin planlaşdırılmasını sistemləşdirir. Performans monitorinqi və hesabatlılıq modulu isə innovasiya fəaliyyətinin nəticələrini əsas göstəricilər (məsələn, yeni məhsulların sayı, innovasiyadan əldə edilən gəlirlər, bazar payındakı dəyişikliklər və s.) üzrə izləməyə imkan verir.



Şəkil 1. İnnovasiya idarəetmə sistemi strukturu

Mənbə: *Müəllif tərəfindən tərtib edilmişdir.*

Belə sistemli yanaşma biznes proseslərinin şəffaflığını artırır, idarəetmə qərarlarının əsaslandırılmasını gücləndirir və innovasiya fəaliyyətini təsadüfi aksiyalardan planlı, strateji yönümlü fəaliyyətə çevirir.

Azərbaycan müəssisələri üçün perspektiv istiqamətlər

Azərbaycan müəssisələri üçün innovativ fəaliyyətin idarəedilməsinin avtomatlaşdırılması xüsusilə qeyri-neft sektorunun inkişafı fonunda böyük əhəmiyyət kəsb edir. Kiçik və orta sahibkarlıq subyektlərinin rəqabətqabiliyyətinin artırılması, yüksək əlavə dəyərli məhsul istehsalının genişləndirilməsi və ixrac potensialının gücləndirilməsi innovasiya yönümlü idarəetmə sistemlərinin tətbiqindən əhəmiyyətli dərəcədə asılıdır. Bu kontekstdə istehsal müəssisələrində avtomatlaşdırılmış idarəetmə platformalarının tətbiqi, rəqəmsal istehsal (smart manufacturing) konsepsiyasına keçid, istehsal proseslərinin və innovasiya layihələrinin vahid sistemdə inteqrasiyası xüsusi önəm daşıyır.

Elm və biznes arasında rəqəmsal əlaqə mexanizmlərinin qurulması, universitetlərin elmi nəticələrinin və startap ideyalarının biznes subyektləri ilə onlayn platformalar vasitəsilə daha effektiv şəkildə əlaqələndirilməsi innovasiya ekosisteminin inkişafına mühüm töhfə verə bilər. Startap ekosis-

temində bulud əsaslı layihə idarəetmə sistemləri, investorlara və dövlət dəstək proqramlarına elektron müraciət platformaları, mentorluk və akkreditasiya mexanizmlərinin rəqəmsallaşdırılması innovativ təşəbbüslərin reallaşma şansını artırır. Dövlət dəstək proqramlarında, qrant və subsidiyaların verilməsi prosesində avtomatlaşdırılmış hesabat sistemlərinin qurulması isə şəffaflıq, hesabatlılıq və effektivlik baxımından mühüm rol oynaya bilər.

Azərbaycan müəssisələrinin bu istiqamətdə irəliləməsi üçün kadr potensialının gücləndirilməsi, innovasiya menecerlərinin, biznes analitiklərinin və İT mütəxəssislərinin hazırlanması, həmçinin idarəedicilərin rəqəmsal savadlılıq səviyyəsinin artırılması xüsusi əhəmiyyət kəsb edir.

Avtomatlaşdırmanın tətbiqində problemlər və risklər

İnnovativ fəaliyyətin idarəedilməsində avtomatlaşdırmanın geniş tətbiqi ilə yanaşı, bir sıra problemlər və risklər də mövcuddur. İlk növbədə, bir çox müəssisələrdə informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun kifayət qədər inkişaf etməməsi, server güclərinin, təhlükəsizlik sistemlərinin və şəbəkə infrastrukturunun zəif olması avtomatlaşdırılmış sistemlərin tam funksionallıqla tətbiqinə mane olur. Kiçik və orta sahibkarlıq subyektləri üçün müasir proqram təminatının və texniki avadanlıqların əldə edilməsi xeyli maliyyə resursu tələb edir [4].

Digər tərəfdən, kadr potensialının məhdudluğu – həm İT sahəsində, həm də innovasiya menecmenti istiqamətində peşəkar mütəxəssislərin sayının azlığı – avtomatlaşdırma layihələrinin hazırlanması və istismarı üçün ciddi çətinliklər yaradır. Əməkdaşların dəyişikliklərə qarşı psixoloji müqaviməti, yeni sistemlərə adaptasiya olunmaq istəksizliyi, ənənəvi idarəetmə üsullarına vərdiş edilmiş olması da avtomatlaşdırma prosesində nəzərə alınmalı sosial-psixoloji amillərdir.

Məlumat təhlükəsizliyi və kibertəhlükələr də avtomatlaşdırmanın əsas risklərindən biridir. İnnovasiya ilə bağlı məlumatların, xüsusilə yeni texnologiyalar, kommersiya sirləri, müştəri bazaları və maliyyə göstəriciləri haqqında informasiyanın üçüncü tərəflərin əlinə keçməsi müəssisə üçün ciddi reputasiya və maliyyə itkilərinə səbəb ola bilər. Buna görə də avtomatlaşdırılmış sistemlərin tətbiqi zamanı informasiya təhlükəsizliyi standartlarına riayət olunması, mütəmadi audit və monitorinq mexanizmlərinin yaradılması vacibdir.

Avtomatlaşdırılmış innovasiya idarəetmə modelinin mərhələli təşkili

Avtomatlaşdırılmış innovasiya idarəetmə modelinin qurulması üçün ardıcıl və mərhələli yanaşma tələb olunur. İlk mərhələdə müəssisədə mövcud olan innovasiya ilə bağlı proseslər ətraflı şəkildə təhlil olunmalı, mövcud vəziyyət qiymətləndirilməli, güclü və zəif tərəflər müəyyən edilməlidir. Bu təhlil əsasında avtomatlaşdırmaya ehtiyacı olan əsas sahələr – məsələn, ideya menecmenti, layihə planlaşdırılması, resurs bölgüsü, hesabat hazırlığı və s. – prioritetləşdirilməlidir.

Növbəti mərhələdə texnoloji tələblər formalaşdırılır, uyğun proqram həlləri və platformalar seçilir. Bu zaman müəssisənin ölçüsü, fəaliyyət sahəsi, maliyyə imkanları və gələcək inkişaf strategiyası nəzərə alınmalıdır. Daha sonra seçilmiş sistemlərin mövcud İT infrastrukturu ilə inteqrasiyası həyata keçirilir, müxtəlif bölmələrin məlumat bazaları uyğunlaşdırılır və proses xəritələri rəqəmsal mühitə köçürülür. İnteqrasiya mərhələsi həm texniki, həm də təşkilati dəyişikliklər tələb etdiyi üçün dəyişikliklərin idarə edilməsi, işçi heyətin məlumatlandırılması və mərhələli adaptasiya vacibdir.

Sonrakı mərhələdə işçilərin təlimi həyata keçirilir, müxtəlif istifadəçi qrupları üçün müvafiq təlim proqramları hazırlanır və praktiki bacarıqların formalaşdırılması təmin edilir. Sistem istismara verildikdən sonra pilot layihələr əsasında sınaqdan keçirilir, istifadəçi rəyləri toplanır və zəruri təkmilləşdirmələr aparılır. Nəhayət, avtomatlaşdırılmış model müəssisənin ümumi idarəetmə sisteminə inteqrasiya olunur və innovasiya fəaliyyətinin daimi monitorinqi üçün əsas alətə çevrilir.

Bu modelin uğuru texnoloji yeniliklərlə yanaşı, idarəetmə mədəniyyətinin, korporativ dəyərlərin və motivasiya mexanizmlərinin innovasiya yönümlü şəkildə yenilənməsindən də asılıdır.

Beynəlxalq təcrübənin qısa təhlili

Beynəlxalq təcrübə, rəqəmlər vasitəsilə sübut edilmiş şəkildə göstərir ki, innovativ fəaliyyətin idarəedilməsinin avtomatlaşdırılması aparıcı qlobal şirkətlərin rəqabətqabiliyyət strategiyalarının mühüm tərkib hissəsinə çevrilmişdir. Fortune 500 şirkətlərinin 54%-dən çoxu aktiv şəkildə ideya boru xətlərini idarə etmək və bölmələrarası innovasiya təşəbbüslərini koordinasiya etmək üçün proqram platformalarından istifadə edirlər. Bu statistika qlobal iqtisadi lidərlərin innovasiya proseslərinin avtomatlaşdırılmasına nə dərəcədə diqqət verdiklərini əks etdirir.

Sənaye və yüksək texnologiyalar sahəsində fəaliyyət göstərən böyük korporasiyalar innovasiya proseslərini idarə etmək üçün xüsusi rəqəmsal platformalardan geniş istifadə edirlər. Məhsulun həyat dövrü idarəetmə (PLM) sistemləri bu sahədə ən geniş tətbiq olan platformalardır. Qlobal PLM bazarının ölçüsü 2024-cü ildə 26,24 milyard dollara çatmışdır və 2032-ci ilə qədər 46,81 milyard dollara çatacağı proqnozlaşdırılır, bu da 7,5% səviyyəsində orta illik artım (CAGR) demək edir. Bu böyük maraq, PLM sistemlərinin müəssisə səviyyəsində məhsulun həyat dövrünün bütün mərhələlərini, tədqiqat və inkişaf layihələrini, tərəfdaşlarla əməkdaşlıq şəbəkələrini, müştəri rəylərini və bazar məlumatlarını vahid sistemdə birləşdirə biləcəyini göstərir.

PLM platformalarının qəbul səviyyəsi sektorlara görə dəyişir. Avtomobil və nəqliyyat sektoru PLM sistemlərinin qlobal tətbiqinin 28%-ni təşkil edərək, bu sahəda ən böyük tətbiq qrupu kimi çıxış edir. Şirkətlərin 45%-dən çoxu məhsulun bazara çıxış müddətini (time-to-market) azaltmaq məqsədilə PLM platformalarını qəbul etmişdir. Tibbi cihazlar və əczaçılıq sektöründə PLM qəbulu 2022-ci il ilə 2024-cü il arasında 17% artmışdır, bu da daha sərt tənzimləmə tələbləri və sağlam sənədləşdirmə ehtiyacından qaynaqlanır. Elektronika və yarımkeçirici sektöründə PLM investisiyaları 2023-cü ildə 14% artış nümayiş etdirmişdir, bu da məhsul həyat dövrünün qısalması və miniatürləşdirmə tələblərinə cavab vermək üçün zəruri olan yeniliklərə reaktsiya kimi qiymətləndirilir [6].

Bulud əsaslı PLM həlləri xüsusilə sürətlə inkişafda olan bir sahə təşkil edir. 2024-cü ildə ümumi PLM tətbiqinin 38%-i bulud əsaslı həllər tərəfindən təşkil olunmuşdur, 2022-ci ildə bu göstərici 31% idi. Bulud PLM istifadəçilərinin 62%-i layihə cədvəlində yaxşılaşma və səhvlərin azalmasını qeyd etmişdir, 47%-si isə son 12 ayda bulud əsaslı PLM həllərini seçməyi üstün tutmuşlar. Bu da qlobal şirkətlərin coğrafi cəhətdən paylanmış komandalarla real vaxt rejimində əməkdaşlıq etmə ehtiyacını göstərir.

İri sənaye şirkətlərində istifadə olunan sənaye "bulud" (Industrial IoT) platformaları fabriklərdən, istehsal avadanlıqlarından və sensorlardan daxil olan məlumatları toplayaraq real vaxt rejimində analitik hesabatlar hazırlamaqla işləyir. Sənaye IoT platformaları bazarı 2019-2024-cü illər arasında illik 40% sürətində böyüməsi ilə və 2024-cü ilə qədər 12,4 milyard dollardan artıq xərcləmə ilə 260-dan çoxu sənaye IoT layihəsinin tətbiq edilməsindən sübut olur. Bu platformalar istehsal proseslərində optimallaşdırma və preventiv texniki xidmət tədbirlərinin həyata keçirilməsi üçün sərəncamlar formalaşdırır, bu da istehsalın səmərəliliyini və məhsul keyfiyyətini əhəmiyyətli dərəcədə artırır [9].

İnnovasiya idarəetməsi bu məlumatlar əsasında istehsal güclərinin yenilənməsi, texnoloji modernizasiya layihələrinin prioritetləşdirilməsi və yeni məhsul xətlərinin formalaşdırılmasına yönəldilir. Bu prosesdə AI-dən qərar dəstəyi sistemləri innovasiya portfellərinin idarə olunmasında, risk və gəlir arasında optimal balansın tapılmasında, müxtəlif ssenarilər üzrə proqnozların hazırlanmasında mühüm rol oynayır.

Avtomobil sənayesi, elektronika, əczaçılıq və İT sektorunda fəaliyyət göstərən çoxsaylı şirkətlərdə PLM sistemləri innovasiya idarəetməsində əsas infrastruktur elementinə çevrilmişdir. Şirkətlərin 71%-ə yaxını Kuzey Amerikada PLM platformalarından istifadə edirlər, xüsusilə Tier-1 tərəfdaşlar arasında bu göstərici daha yüksəkdir. Asiya - Sakit okean bölgəsində 2024-cü ildə 2,500-

dən çox müəssisə ilk dəfə PLM sistemini qəbul etmişdir, sürətli sənayeişləşdirmə və rəqəmsal transformasiya investisiyalarının nəticəsi olaraq.

PLM istifadəçilərinin AI qəbulu qeyri-istifadəçilərlə müqayisədə 28% daha yüksəkdir. Bu statistika rəqəmsal innovasiya idarəetmə sistemlərinin yalnız səmərəliliyi artırmamağını, həm də innovasiya mədəniyyətini gücləndirib, əməkdaşların innovasiya prosesinə fəal cəlb olunmasına şərait yaratdığını sübut edir. Şirkətlərin 59%-i məhsul inkişafında AI istifadəsini kritik uğur faktoru hesab edir, bu da texnoloji transformasiya istiqamətində qlobal arzanın sürəti aydın göstərir [11].

Azərbaycan müəssisələri üçün bu təcrübənin adaptasiyası zamanı ölkənin iqtisadi, institusional və mədəni xüsusiyyətləri nəzərə alınmaqla, daha çevik və lokal şəraitə uyğunlaşdırılmış modellər işlənib hazırlanmalıdır. Qlobal təcrübə göstərir ki, dərhal qlobal standartlarla 1:1 uyğunlaşma əvəzinə, milli iqtisadiyyatın spesifik tələblərinə cavab verən mərhələli, yerli həllərin tətbiqi daha uğurlu nəticə verir [1]. Xüsusilə kiçik və orta sahibkarlıq subyektləri üçün sadələşdirilmiş, əlçatan qiymətli PLM həlləri və avtomasiya platformaları prioritet hesab olunmalıdır.

NƏTİCƏ

Müasir iqtisadi şəraitdə innovativ fəaliyyətin idarəedilməsinin avtomatlaşdırılması müəssisələrin rəqabətqabiliyyətliliyinin artırılması, resurslardan səmərəli istifadə, qərar qəbuletmə prosesinin sürətləndirilməsi və innovasiya risklərinin daha effektiv idarə edilməsi baxımından strateji əhəmiyyət daşıyır. Rəqəmsal texnologiyaların sürətli inkişafı, qlobal rəqabətin güclənməsi və müştəri tələblərinin diferensiallaşması innovasiya idarəetməsində ənənəvi metodların kifayət etmədiyini göstərir. Avtomatlaşdırılmış sistemlər hesabına innovasiya prosesləri daha şəffaf, ölçülə bilən və proqnozlaşdırıla bilən xarakter alır, müəssisənin strateji məqsədləri ilə real fəaliyyət göstəriciləri arasında əlaqə daha aydın şəkildə formalaşır.

Azərbaycan üçün innovativ fəaliyyətin avtomatlaşdırılması sahəsində əsas istiqamətlər kimi dövlət səviyyəsində "innovasiya idarəetməsinin rəqəmsallaşdırılması"na dair kompleks proqramların hazırlanması, biznes mühitində rəqəmsal transformasiya təşəbbüslərinin dəstəklənməsi, kadr hazırlığı sistemində İT və innovasiya menecmenti üzrə ixtisaslaşmanın gücləndirilməsi, universitet–biznes əməkdaşlığının rəqəmsal platformalar vasitəsilə dərinləşdirilməsi xüsusi qeyd oluna bilər. Müəssisə səviyyəsində isə innovasiya idarəetmə sistemlərinin mərhələli şəkildə tətbiqi, pilot layihələr əsasında sınaq, işçi heyətin sistemli təlimi və dəyişikliklərin idarə olunmasına diqqətin artırılması vacibdir.

Nəticə etibarilə, innovativ fəaliyyətin idarəedilməsinin avtomatlaşdırılması təkcə texnoloji yenilənmə deyil, həm də idarəetmə düşüncəsinin, təşkilati strukturun və korporativ mədəniyyətin yeniliklərə uyğun transformasiyasını nəzərdə tutur. Bu transformasiya uğurla həyata keçirildiyi təqdirdə, müəssisələr qlobal rəqabətdə daha möhkəm mövqe tuta, innovasiya yönümlü dayanıqlı inkişaf modelinə keçidi təmin edə bilərlər.

İstifadə edilmiş ədəbiyyat:

1. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi. (202\2). "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər". Bakı.

2. Chesbrough, H. (2020). Open Innovation Results: Going Beyond the Hype and Getting Down to Business. Oxford University Press.

3. Cooper, R. G. (2021). "Accelerating Innovation: Some Lessons from the Pandemic". Journal of Product Innovation Management, 38(2), 221-232.

4. Drucker, P. F. (2014). Innovation and Entrepreneurship. Routledge.

5. Forrester Research. (2023). The Future of Manufacturing: Digital Transformation Strategies. Cambridge.

6. Gartner. (2024). Top Strategic Technology Trends for 2024. Gartner Research.

7. McKinsey & Company. (2023). The State of AI in 2023: Generative AI's Breakout Year. Global Survey Results.

8. OECD. (2023). OECD Science, Technology and Innovation Outlook 2023: Enabling Transitions in Times of Disruption. OECD Publishing, Paris.

9. Porter, M. E., & Heppelmann, J. E. (2015). "How Smart, Connected Products Are Transforming Companies". Harvard Business Review, 93(10), 96-114.

10. Tidd, J., & Bessant, J. (2020). Managing Innovation: Integrating Technological, Market and Organizational Change (7th ed.). Wiley.

11. WIPO. (2024). Global Innovation Index 2024: Innovation in the face of uncertainty. Geneva: World Intellectual Property Organization.

12. World Bank. (2022). Azerbaijan: Country Economic Memorandum - A New Growth Model for Azerbaijan. Washington, DC.

N.L.Huseynova
PhD in Economics (equivalent), Azerbaijan State University of Economics
ORCID 0000-0002-7940-8628

Automation of innovation management in modern economic conditions

Abstract

In today's digital economy, the effective management of innovation has become one of the key determinants of enterprise competitiveness. This article examines the problems of automating innovation processes from both theoretical and practical perspectives. The study analyzes the role of modern information systems such as ERP, CRM, and PLM, as well as artificial intelligence and machine learning technologies, Big Data analytics, and cloud-based platforms in innovation management. The structure of the innovation management system, the technical and organizational challenges involved in implementing automation, examples from international practice, and promising directions within the context of the Azerbaijani economy are thoroughly explored. The research highlights the importance of automation approaches in data-driven decision-making, resource optimization, and risk management. For Azerbaijani enterprises, key recommendations include the phased implementation of a digital-transformation-based innovation model, the strengthening of workforce training, and the enhancement of state support mechanisms.

Keywords: *innovation management, automation, digital transformation, information and communication technologies, ERP systems, PLM, artificial intelligence, Big Data analytics, decision support systems, innovation ecosystem.*

https://doi.org/10.58225/tim.2025-4-240-246

C.M.Abdullayev
doktorant, Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutu
javidnarimansoy@gmail.com

Məqalə redaksiyaya daxil olub 03.11.2025
The article was received by editorial board on 03.11.2025
Статья принята к печати 03.11.2025

XİDMƏT İQTİSADİYYATININ YENİDƏN FORMALAŞMASI: QARABAĞ MODELİ

Xülasə

Hazırkı qlobal iqtisadiyyatda xidmət sektorunun rolu sürətlə artır. Azərbaycan iqtisadiyyatı uzun illər neft-qaz gəlirlərindən asılı olmuş, lakin post-neft dövründə davamlı inkişaf üçün iqtisadi diversifikasiyaya ehtiyac yaranmışdır. Xidmət iqtisadiyyatının yenidən formalaşdırılması bu zərurətdən irəli gəlir. 2020-ci illərdə ölkədə xidmət sektorunun ÜDM-də payı tədricən yüksəlsə də, bu göstərici dünya orta səviyyəsindən hələ geri qalır. Qarabağ bölgəsinin işğaldan azad edilməsi isə Azərbaycana yeni iqtisadi modeli sınaqdan keçirmək imkanı vermişdir. Məqalədə ilk dəfə "Qarabağ modeli" kontekstində post-münaqişə dövründə xidmət sektorunun inkişaf xüsusiyyətləri araşdırılır, azad edilmiş ərazilərdə müasir infrastruktur quruculuğu və xidmət yönümlü fəaliyyətlərin (turizm, logistika, İKT və s.) perspektivləri təhlil edilir. Tədqiqatda rəsmi statistik məlumatlar və mövcud elmi ədəbiyyat əsasında təhlil aparılmışdır. Hökumətin apardığı genişmiqyaslı bərpa işlərinin və tətbiq etdiyi vergi güzəştləri, investisiya təşviqi kimi xüsusi mexanizmlərin xidmət iqtisadiyyatının formalaşmasına təsiri qiymətləndirilir. Nəticələr göstərir ki, Qarabağ regionunda yaradılan yeni iqtisadi mühit Azərbaycanın ümumi iqtisadi diversifikasiyasına və dayanıqlı inkişafına əhəmiyyətli töhfə verə bilər.

Açar sözlər: *xidmət iqtisadiyyatı, Qarabağ, iqtisadi model, diversifikasiya, bərpa.*

GİRİŞ

Xidmət sektorunun inkişafı müasir dövrdə ölkələrin iqtisadi yüksəlişində aparıcı istiqamətlərdən birinə çevrilmişdir. Hələ ötən əsrin 70-ci illərində post-industrial cəmiyyət nəzəriyyəsi xidmət sahələrinin artan əhəmiyyətini ön plana çəkmişdir (Bell, 1973). İnnovasiya yönümlü iqtisadiyyatlarda müşahidə edilir ki, sənaye və kənd təsərrüfatından xidmət sferasına doğru struktur dəyişikliyi təkcə inkişaf etmiş ölkələrdə deyil, eyni zamanda inkişaf etməkdə olan ölkələrdə də baş verir (Gryczka, 2016). Başqa sözlə, "xidmətləşmə" prosesi qlobal xarakter almışdır. Bu, xidmət sektorunun ÜDM-dəki payının artması və məşğulluqda dominant mövqeyə gəlməsi ilə səciyyələnir.

Azərbaycan da istisna təşkil etmir: son onilliklərdə iqtisadiyyatın strukturunda xidmət sahələrinin çəkisi tədricən artsa da, ölkənin iqtisadi modelində hələ də neft-qaz sektoru üstünlük təşkil edir. Xüsusilə 2000-ci illərdə neft gəlirlərinin sürətli artımı xidmət sektorunun ümumi iqtisadiyyatda payını nisbi olaraq məhdudlaşdırmışdı. Məsələn, 2014-cü ildə qlobal neft qiymətlərinin azalması fonunda Azərbaycan xidmət sektorunun ÜDM-də payı təxminən 42%-ə yüksəlmiş, lakin sonrakı illərdə yenidən eniş və artım dalğaları müşahidə edilmişdir (World Bank, 2025). Aşağıdakı cədvəldə

son on il ərzində ölkə iqtisadiyyatında xidmət sahəsinin payındakı dəyişikliklər göstərilir (Ümumi Daxili Məhsulda faiz nisbəti olaraq).

Cədvəl 1

Xidmət sektorunun ÜDM-də payı (%).

İl	Xidmət sektorunun ÜDM-də payı (%)
2015	43.9
2016	42.3
2017	38.0
2018	35.5
2019	36.9
2020	42.5
2021	33.0
2022	31.9
2023	39.8
2024	42.3

Mənbə: *Dünya Bankının məlumatları əsasında (World Bank, 2025).*

Yuxarıdakı rəqəmlər göstərir ki, 2010-cu illərin sonu və 2020-ci illərin əvvəllərində Azərbaycan iqtisadiyyatında xidmət sahələrinin payı dalğavari dəyişikliyə məruz qalmışdır. 2015–2019-cu illərdə qeyri-neft sektorunun prioritetləşdirilməsinə baxmayaraq, neft hasilatındakı dəyişikliklər xidmət sektorunun nisbi payına da təsir etmişdir. 2020-ci ildə COVID-19 pandemiyası səbəbindən neft tələbatının azalması nəticəsində xidmətlərin ÜDM-də payı kəskin yüksəldi. Lakin 2021–2022-ci illərdə neft qiymətlərinin bərpası ilə bu göstərici müvəqqəti olaraq aşağı düşmüşdür. Bununla belə, 2023–2024-cü illərdə qeyri-neft sektoru üzrə artım (xüsusilə turizm və ticarətdə canlanma) xidmətlərin ümumi iqtisadiyyatda payının yenidən artmasına səbəb olmuşdur. Bu dinamika göstərir ki, Azərbaycan iqtisadiyyatı üçün xidmət sektorunun dayanıqlı inkişafı hələ tam təmin olunmayıb və ciddi struktur islahatlarına ehtiyac vardır.

Azərbaycan hökuməti post-neft dövründə iqtisadiyyatın şaxələndirilməsi məqsədilə bir sıra strateji təşəbbüslər həyata keçirir. "Azərbaycan 2030" sosial-iqtisadi inkişaf strategiyasında qeyri-neft sektorlarının, o cümlədən kənd təsərrüfatı, turizm, nəqliyyat və informasiya-kommunikasiya texnologiyalarının inkişafı əsas prioritet kimi vurğulanır (International Trade Administration, 2023). Xüsusən turizm və logistika sahələrinin inkişafı üçün əlverişli şərait yaradılması, rəqəmsal iqtisadiyyatın təşviqi, vətəndaşlar üçün xidmətlərin keyfiyyətinin yüksəldilməsi qarşıya məqsəd qoyulub. Bununla yanaşı, beynəlxalq təcrübə göstərir ki, xidmət sferasının genişlənməsi təkcə infrastruktur qurmaqla bitmir – eyni zamanda biznes mühitinin yaxşılaşdırılması, insan kapitalına yatırımlar və innovativ idarəetmə praktikaları tələb olunur (Gryczka, 2016).

Hazırda Azərbaycan iqtisadiyyatında xidmət sektorunun payı təxminən 40-42% civarındadır (World Bank, 2025). Müqayisə üçün, dünya üzrə orta göstərici 55-60% arasındadır. Bu o deməkdir ki, ölkə xidmət iqtisadiyyatının potensialından tam istifadə etmir. Təxminən yarım əsr əvvəl inkişaf etmiş ölkələrin keçdiyi post-industrial transformasiya mərhələsini Azərbaycan sürətləndirilmiş formada həyata keçirməlidir. Ölkədə maliyyə xidmətləri, turizm, nəqliyyat-logistika, telekommunikasiya və ictimai xidmətlər kimi sahələrin modernləşdirilməsi və ÜDM-də payının artırılması uzunmüddətli iqtisadi dayanıqlığın əsas şərtlərindəndir.

Azərbaycanın xidmət iqtisadiyyatının yenidən formalaşdırılması istiqamətində addımlar atdığı bir vaxtda 2020-ci ildə əldə edilən tarixi Qələbə və Qarabağ bölgəsinin işğaldan azad olunması bu prosesə yeni bir perspektiv gətirdi. İşğaldan azad edilmiş ərazilər əvvəlki onilliklərdə iqtisadi dövriy-

yədən kənarda qalmış, infrastrukturu dağıdılmış durumdaydı. İndi isə həmin torpaqlarda iqtisadi həyatı yenidən canlandırmaq imkanı yaranmışdır. Bu imkan nədən ibarətdir?

Birincisi, azad edilmiş Qarabağ və Şərqi Zəngəzur əraziləri demək olar ki, sıfırdan qurulan iqtisadi məkan kimi nəzərdən keçirilir. Orada "ağıllı" şəhər və kənd konsepsiyaları tətbiq edilir, tamamilə yeni infrastruktur şəbəkəsi qurulur (Kolarz & Wojtasiewicz, 2025). İkincisi, hökumət bu bölgələri ölkə iqtisadiyyatına reinteqrasiya edərkən ən müasir yanaşmaları sınaqdan keçirməyi planlaşdırır. Prezident İlham Əliyev azad edilmiş torpaqlarda elə bir inkişaf modeli qurmağı qarşıya məqsəd qoydu ki, sonra onu ölkənin digər bölgələrinə də tətbiq etmək mümkün olsun (Aliyev, 2021). Bu "Qarabağ modeli" adlandırılan yanaşma Azərbaycanın iqtisadi idarəetməsində mövcud nöqsanları aradan qaldırmaq və uğurlu inkişafı təmin etmək məqsədi daşıyır (Aliyev, 2021).

Xidmət sektorunun inkişafı və diversifikasiya ehtiyacı

Qarabağ bölgəsinin dirçəlişi geniş mənada Azərbaycan iqtisadiyyatının yeni mərhələyə keçidi ilə üst-üstə düşür. Ölkənin neft gəlirlərini səmərəli investisiyalara çevirmək üçün əlində nadir fürsət var. 2022-ci ildə Azərbaycanda qeyri-neft ÜDM 9.1% artdığı halda, neft-qaz ÜDM-i 2.7% azalmışdır (International Trade Administration, 2023). Bu, qeyri-neft sektorlarının, o cümlədən xidmət sahələrinin iqtisadi artımdakı rolunun yüksəldiyini göstərir. Azərbaycan hökuməti də öz növbəsində azad edilmiş ərazilərin bərpasını və inkişafını iqtisadi diversifikasiyanın lokomotivi kimi görür (Bayramov, 2021). Milli Məclisin deputatı Vüqar Bayramovun sözlərinə görə, Qarabağda tətbiq ediləcək yeni iqtisadi model məhz müasir standartlara uyğun infrastruktur quruculuğunu və innovativ iqtisadi idarəetməni ehtiva edir (Bayramov, 2021). Burada əsas məqsəd həmin modelin sınaqdan keçirilməsi və uğurlu olarsa, ölkənin digər bölgələrinə transfer edilməsidir (Bayramov, 2021).

Azad edilmiş bölgələrdə xidmət yönümlü iqtisadiyyat qurmaq üçün bir neçə rəqabət üstünlüyü mövcuddur. İlk növbədə, Qarabağın zəngin təbii və mədəni irsi turizm sektorunun inkişafı üçün böyük perspektiv açır. Qarabağ hələ sovet dövründə ölkənin "səfalı guşəsi" kimi tanınırdı, burada çoxsaylı tarixi-mədəni abidələr, kurort imkanları mövcuddur. Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edilmişdir və artıq beynəlxalq festivallara ev sahibliyi edir. Təbii gözəllikləri və iqlimi ilə seçilən Kəlbəcər, Laçın kimi bölgələr gələcəkdə dağ turizmi, eko-turizm üçün cəlbedici mərkəzlərə çevrilə bilər (Almasov, 2025). Bütün bunlar xidmət sektorunun bir qolu olan turizm və qonaqpərvərlik sənayesinin Qarabağda aparıcı sahələrdən biri kimi formalaşa biləcəyini göstərir.

Bundan başqa, Qarabağ regionu strateji coğrafi mövqeyinə görə ticarət və nəqliyyat-logistika xidmətləri için də əlverişlidir. Məsələn, Zəngilan rayonu üzərindən keçəcək potensial "Zəngəzur dəhlizi" Orta Asiya və Avropa arasında mühüm tranzit marşrutu sayıla bilər. Artıq bölgədə Füzuli Beynəlxalq Hava Limanı (2021) və Zəngilan Beynəlxalq Hava Limanı (2022) tikilib istifadəyə verilmişdir (Kolarz & Wojtasiewicz, 2025). Bu hava limanları təkcə sərnişin deyil, yük daşımaları üçün də regionun qapısını açır. Bununla yanaşı, Horadizdən Zəngilana və Şuşaya qədər çəkilən avtomobil və dəmir yolları Qarabağın logistika şəbəkəsini ölkənin və regionun iqtisadi sisteminə bağlayır. Yəni, yaxın gələcəkdə Qarabağ bölgəsi beynəlxalq daşımaların və ticarətin qovşağı kimi xidmət göstərmək potensialına malikdir.

Qarabağ iqtisadiyyatının dirçəlişi təkcə turizm və logistika ilə məhdudlaşmır. Azad edilmiş ərazilər yeraltı və yerüstü sərvətlərlə də zəngindir. Məsələn, Kəlbəcər və Zəngilan rayonlarında qızıl, mis və digər qiymətli metal mədənləri yerləşir (Kolarz & Wojtasiewicz, 2025). Bu mədənlərin istismarı hasilat sənayesini canlandıra, onun əsasında emal və xidmət sahələri (geoloji kəşfiyyat, mühəndislik, nəqliyyat xidmətləri və s.) inkişaf edə bilər. Həmçinin, Qarabağın münbit torpaqları yüksək dəyərli kənd təsərrüfatı məhsullarının istehsalı üçün şərait yaradır (Almasov, 2025). Bu da öz növbəsində aqro-turizm, logistika və digər əlaqəli xidmətlərin genişlənməsinə töhfə verə bilər.

Qarabağ modeli və institusional yeniliklər

Qarabağda həyata keçirilən yeni iqtisadi modelin əsas tərkib hissələrini iki istiqamətdə nəzərdən keçirmək olar: sərmayələr hesabına sürətli infrastruktur quruculuğu və biznes mühitini yaxşılaşdırmaq üçün xüsusi institusional tədbirlər. Azərbaycan dövləti 2021-ci ildən etibarən azad edilmiş ərazilərin bərpasına böyük həcmdə büdcə vəsaiti yönəldir. 2021–2023-cü illər ərzində təkcə dövlət büdcəsindən Qarabağın yenidən qurulmasına 12 milyard manatdan çox (təxminən 7.1 milyard ABŞ dolları) vəsait ayrılmışdır (U.S. Department of State, 2023). 2024-cü ildə isə bu istiqamətə 2.82 milyard dollar nəzərdə tutulmuşdur ki, nəticədə 2021–2024-cü illər üçün ümumi xərclər 10 milyard dollara yaxınlaşmışdır (Guliyev, 2025). Bu misli görünməmiş investisiya hesabına qısa müddətdə yollar, körpülər, elektrik stansiyaları, su və qaz kəmərləri, sosial obyektlər tikilir. Cədvəl 2-də son illərdə Qarabağda həyata keçirilmiş əsas infrastruktur layihələrindən bəziləri əks olunur.

Cədvəl 2

Qarabağda həyata keçirilmiş əsas infrastruktur layihələrindən bəziləri.

Layihə	Təsviri	Tamamlama tarixi
Füzuli Beynəlxalq Hava Limanı	Qarabağda ilk beynəlxalq hava limanı (idarəetmə: AZAL)	oktyabr 2021
Zəngilan Beynəlxalq Hava Limanı	İkinci hava limanı (Azərbaycan-Türkiyə şirkətləri tərəfindən)	oktyabr 2022
"Zəfər Yolu" (Füzuli-Şuşa avtomagistralı)	Füzuli şəhərindən Şuşaya gedən 101 km-lik yeni yol	noyabr 2021
Laçın Beynəlxalq Hava Limanı	Üçüncü hava limanı (dağlıq ərazidə inşa edilir)	2025

Mənbə: *Rəsmi məlumatlar əsasında (Bayramov, 2021; Kolarz & Wojtasiewicz, 2025).*

Yuxarıdakı layihələr Qarabağın nəqliyyat əlçatanlığını köklü şəkildə dəyişir. Məsələn, Füzuli Hava Limanı cəmi 8 ay ərzində inşa edildi və 2021-ci ilin oktyabrında istifadəyə verildi (Bayramov, 2021). Onun tikintisi təqribən 40 milyon ABŞ dollarına başa gəldi. Hazırda həmin aeroport həftədə bir neçə reys qəbul etsə də (Kolarz & Wojtasiewicz, 2025), bu, ilk addımdır və gələcəkdə bölgəyə turist və investor axınının artacağı gözlənilir. Eyni zamanda, Laçın aeroportunun tikilməsi ilə Qarabağ regionu hava nəqliyyatı baxımından tam əhatə olunmuş olacaq. "Zəfər Yolu" kimi müasir magistrallar sayəsində isə turizm marşrutları və yükdaşımalar üçün rahat şərait yaradılır. Qeyd etmək lazımdır ki, bu infrastruktur layihələri təkcə iqtisadi deyil, həm də siyasi əhəmiyyət daşıyır – Azərbaycan dövləti sürətli quruculuq işləri ilə Qarabağ regionunun dirçəlişini öz gücü ilə təmin etdiyini nümayiş etdirir.

Bununla yanaşı, "Qarabağ modeli" dedikdə təkcə fiziki infrastrukturun qurulması yox, həm də fərqli idarəçilik və iqtisadi rejimin tətbiqi nəzərdə tutulur. Prezident İlham Əliyev vurğulamışdır ki, azad olunmuş torpaqlarda elə bir müasir idarəetmə sistemi qurulmalıdır ki, orada hər şey planlı şəkildə təmin edilsin (Aliyev, 2021). Bu baxımdan, hökumət həmin ərazilər üçün xüsusi vergi və investisiya rejimi formalaşdırmaqdadır. Yeni model çərçivəsində azad edilmiş zonalarda uzunmüddətli vergi güzəştləri, gömrük rüsumlarından azadolma, subsidiyalar və dövlət-özəl tərəfdaşlığı mexanizmləri nəzərdə tutulur (Bayramov, 2021; Caspian News, 2022). Məsələn, azad edilmiş ərazilərə investisiya qoyan şirkətlər üçün mənfəət vergisindən müəyyən müddətlik azadolma, idxal avadanlığı üçün gömrük güzəştləri tətbiq olunacağı rəsmi şəkildə açıqlanmışdır (Caspian News, 2022). Bundan əlavə, xarici sərmayədarları cəlb etmək üçün xüsusi iqtisadi zonaların yaradılması planlaşdırılır (Bayramov, 2021). Belə zonalarda sadələşdirilmiş tənzimləmələr, "vahid pəncərə" sistemi ilə icazələrin verilməsi və mülkiyyət hüquqlarının əlavə təminatı kimi tədbirlər həyata keçirilir.

Qarabağda biznes mühitinin yaxşılaşdırılması istiqamətində atılan addımlardan biri də institusional idarəçiliyin yenilənməsidir. Prezident azad edilmiş hər bir rayon üzrə xüsusi nümayəndələr təyin etmiş, həmin nümayəndəliklərə müvafiq səlahiyyətlər vermişdir (Kolarz & Wojtasiewicz, 2025). Bu, mərkəzi icra orqanlarının funksiyalarının çevik koordinasiyasına və bürokratik maneələrin azaldılmasına xidmət edir. Digər tərəfdən, "Böyük Qayıdış" proqramı çərçivəsində məcburi köçkünlərin könüllü və davamlı şəkildə Qarabağa qayıtması üçün sosial təşviq paketləri hazırlanır (Guliyev, 2025). Dövlətdən ev-eşiklə təminetmə, güzəştli kreditlər, təhsil və səhiyyə imtiyazları kimi addımlar vasitəsilə əhalinin həmin bölgələrdə məskunlaşmasına stimul verilir. Bu, xidmət sektorunun inkişafı üçün zəruri insan resursunun təmin olunması deməkdir. May 2025-ci il tarixinə azad edilmiş torpaqlara artıq 43 mindən çox vətəndaş qayıdıb (A. Guliyev, 2025). Bu rəqəm hələ ki, Böyük Qayıdış planının ilk mərhələsi üçün nəzərdə tutulmuş 140 min nəfərlik hədəfdən xeyli az olsa da, hər ay yeni ailələr Şərqi Zəngəzur və Qarabağda tikilmiş "ağıllı kənd"lərə, yaşayış komplekslərinə köçürülür. Məsələn, Zəngilanın Ağalı kəndinə 2022-ci ilin yayında ilk 100-ə yaxın ailə – təxminən 400 nəfər – yerləşdirildi (Kolarz & Wojtasiewicz, 2025). Müasir şəraitdə qurulan bu kənd vətəndaşların rahat yaşaması üçün lazım olan məktəb, klinika, internet şəbəkəsi kimi xidmət infrastrukturu ilə təchiz olunub.

Cədvəl 3-də Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası və inkişafı ilə bağlı bəzi əsas göstəricilər ümumiləşdirilib:

Cədvəl 3

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası və inkişafı ilə bağlı bəzi əsas göstəricilər

Göstərici	Dəyər (təxminən)
Bərpa olunmuş ərazilərin ümumi sahəsi	~17,000 km² (Azərbaycanın təqr. 20%-i)
Tamamilə dağıdılmış kənd və qəsəbələrin sayı	800-dən çox kənd, 7 şəhər/rayon mərkəzi
2026-cı ilin sonunadək qayıdacaq əhali sayı (plan)	140 min nəfər
2021–2030 planlaşdırılan dövlət investisiyası	17.6 mlrd. ABŞ dolları
Yaradılması nəzərdə tutulan sənaye parkları	5 ədəd (üstəgəl 50 aqropark)
Qarabağda qurulan "yaşıl enerji" gücü	240 MVt günəş (ilk stansiya, 2023)

Mənbə: *Azərbaycan rəsmilərinin məlumatlarına əsasən (Kolarz & Wojtasiewicz, 2025; Guliyev, 2025).*

Yuxarıdakı göstəricilər Qarabağ modelinin miqyasını təsəvvür etməyə imkan verir. Təkcə ərazilərin sahəsinə görə yox, həm də yatırılan vəsaitlərin həcminə görə bu, Azərbaycan tarixində ən böyük regional inkişaf proqramıdır. 162 mindən çox bina və tikilinin 95%-nin tamamilə dağıldığı nəzərə alınarsa, görülən işlərin ümumi mənzərəsi aydınlaşar (Kolarz & Wojtasiewicz, 2025). Hökumət 2050-ci ilə qədər Qarabağ və Şərqi Zəngəzuru tam bərpa etməyi qarşısına məqsəd qoyub. Bu isə onilliklər boyu davam edəcək bir prosesdir. 2026-cı ilə qədər "Böyük Qayıdış"ın birinci mərhələsi çərçivəsində ən azı 140 min nəfərin daimi məskunlaşması planlaşdırılır (Kolarz & Wojtasiewicz, 2025). Bunun üçün zəruri yaşayış infrastrukturu – evlər, məktəblər, xəstəxanalar, yollar – sürətlə inşa edilməkdədir. Gələcəkdə, məskunlaşmanın artması ilə, həmin ərazilərdə ictimai və kommersiya xidmətlərinə tələbat da artacaqdır. Bu da öz növbəsində yeni kiçik və orta sahibkarlıq subyektlərinin yaranmasına şərait yaradacaq.

Qarabağ modelinin vacib bir cəhəti də onun "yaşıl" və dayanıqlı inkişaf prinsiplərinə əsaslanmasıdır. Prezident İlham Əliyev azad edilmiş bölgələri "yaşıl enerji zonası" elan etmişdir və burada bütün enerji tələbatının bərpa olunan mənbələr hesabına ödənilməsi hədəfi qoyulub (Kolarz & Wojtasiewicz, 2025). Artıq Cəbrayıl rayonunda BP şirkətinin sərmayəsi ilə 240 MVt gücündə günəş elektrik stansiyası tikilib və bu, ölkədə ən böyük günəş energetik qurğusudur (Kolarz &

Wojtasiewicz, 2025). Tərtər və Laçın rayonlarında bir neçə kiçik su elektrik stansiyası yenidən qurulmuş, Araz çayı üzərində Xudafərin və Qız Qalası hidroqovşaqlarının istismarı bərpa edilmişdir. Əlavə olaraq, Kəlbəcər və Daşkəsən dağlarında külək enerjisi potensialı araşdırılır. Bütün bu addımlar Qarabağda aşağı karbonlu enerji infrastrukturunun formalaşmasına xidmət edir. Bu da xidmət iqtisadiyyatına iki şəkildə təsir göstərəcək: birincisi, enerji təminatı yaxşılaşdığı üçün regionda bizneslərin xərcləri azalacaq; ikincisi, "yaşıl zona" brendi ekoturizm və müasir texnologiyaların sınaqdan keçirilməsi üçün Qarabağa beynəlxalq marağı artıra bilər. Məsələn, ağıllı şəhər konsepsiyası çərçivəsində enerji səmərəliliyi yüksək olan binalar, elektrik nəqliyyat vasitələri, tullantıların təkrar emalı kimi xidmətlər Qarabağda pilot olaraq tətbiq edilir (Eurasianet, 2022). Bu yeniliklər uzun müddətdə bütün ölkə üzrə yayğınlaşa bilər.

NƏTİCƏ

Qarabağ modelinin reallaşdırılması Azərbaycanın xidmət iqtisadiyyatına keçid prosesini sürətləndirmək üçün tarixi bir imkandır. Bu model, azad olunmuş ərazilərin yenidən qurulması fonunda yeni iqtisadi idarəetmə üsullarını sınaqdan keçirir. Aparılan təhlillər göstərir ki, hökumətin genişmiqyaslı sərmayələri hesabına Qarabağda qısa müddətdə zəruri infrastruktur yaradılır, biznes və xidmət mühiti formalaşır. Xüsusi vergi güzəştləri və təşviq mexanizmləri sayəsində yerli və xarici investorlar cəlb olunur ki, bu da qeyri-neft sektorlarının – xüsusilə turizm, nəqliyyat, telekommunikasiya və digər xidmət sahələrinin – inkişafına təkan verəcəkdir. Artıq 2023–2024-cü illərdə azad edilmiş ərazilərin bərpası ümumi iqtisadi artımın vacib amillərindən birinə çevrilmişdir (International Trade Administration, 2023). Gözlənilir ki, yaxın illərdə Qarabağ və Şərqi Zəngəzur regionları Azərbaycanın iqtisadi inkişafında əsas drayverlərdən biri olacaq (Bayramov, 2021).

Qarabağ modelinin mühüm nəticələrindən biri xidmət sektorunda innovativ həllərin tətbiqidir. "Ağıllı kənd" və "ağıllı şəhər"lərdə rəqəmsal texnologiyalara əsaslanan dövlət xidmətləri, smart-infrastruktur elementləri sınaqdan keçirilir. Bu, gələcəkdə ölkə üzrə xidmət sferasında səmərəliliyin yüksəlməsinə töhfə verəcək insan yönümlü idarəçilik nümunəsidir. Digər nəticə – regionda formalaşan yeni iqtisadi mühit əhalinin həyat keyfiyyətini artıraraq uzun müddətdə ölkə daxilində insan kapitalının səmərəli bölgüsünə imkan verəcəkdir. Artıq məcburi köçkün statusu tarixə qovuşur, insanlar öz yurdlarına qayıdaraq iqtisadi fəaliyyətə qoşulurlar (A. Guliyev, 2025). Bu prosesin uğuru üçün, sözsüz ki, hələ xeyli çağırışlar mövcuddur – minalardan təmizləmə, özəl sektorun tam bərpa olunması üçün risklərin azaldılması, kadr hazırlığı və s. Lakin görülən tədbirlər sayəsində Qarabağ bölgəsi tədricən həm iqtisadi, həm də sosial baxımdan canlanır.

Beləliklə, "Qarabağ modeli" Azərbaycanın xidmət iqtisadiyyatına keçidini sürətləndirə biləcək unikal təcrübə rolunu oynayır. Azad edilmiş ərazilərdə sınaqdan keçirilən yeni idarəetmə metodları, infrastruktura yatırımların yüksək effektivliyi, "yaşıl" və innovativ yanaşmalar öz bəhrəsini verərsə, bu model ölkənin digər regionlarında da tətbiq ediləcək. Bu da ümumilikdə Azərbaycanın post-neft dövründə dayanıqlı və diversifikasiya olunmuş iqtisadi inkişafa nail olmasına ciddi təkan verəcəkdir. Qarabağın yenidən qurulması bir tərəfdən iqtisadiyyatın canlanmasına, digər tərəfdən isə ölkənin beynəlxalq imicinin möhkəmlənməsinə xidmət edir (Eurasianet, 2022). İllər sonra Qarabağ regionu təkcə Azərbaycanın ərazi bütövlüyünün rəmzi deyil, eyni zamanda müasir xidmət iqtisadiyyatının nümunəvi modeli kimi də xatırlanacaq.

İstifadə edilmiş ədəbiyyat:

1. Aliyev İ. (2021). İlham Əliyevin AzTV-yə müsahibəsindən çıxış (Qarabağda yeni iqtisadi model barədə), 12 yanvar 2021.

2. Bayramov V. (2021). Milli Məclis deputatı Vüqar Bayramovun Qarabağda yeni iqtisadi model barədə açıqlaması. Sputnik Azərbaycan, 25 yanvar 2021.

3. Kolarz S., & Wojtasiewicz W. (2025). Azerbaijan's Challenges in the Reconstruction of Karabakh. PISM Policy Paper, 08 iyul 2025.

4. Guliyev F. (2025). Post-conflict Resettlement in Karabakh: Rebuilding Livelihoods. Researching Internal Displacement, 13 fevral 2025.

5. Almasov N. N. (2025). The role of the Karabakh region in the economic growth of Azerbaijan in the near future. Economic Sciences (İqtisadi elmlər), №15(78), 78-87.

6. International Trade Administration (2023). Azerbaijan Country Commercial Guide: Market Overview (21 noyabr 2023).

7. U.S. Department of State (2023). Investment Climate Statement 2024 – Azerbaijan. Vaşinqton, 2023.

8. World Bank (2025). World Development Indicators: Azerbaijan – Services, value added (% of GDP).

9. Gryczka M. (2016). The Changing Role of the Service Sector in an Innovation-Oriented Economy. Folia Oeconomica Stetinensia, 16(2), 176-190.

10. Bell D. (1973). The Coming of Post-Industrial Society. New York: Basic Books.

11. Guliyev A. (2025). Population in Azerbaijan's Karabakh, East Zangezur surpasses 43,000. Caliber.az, 15 may 2025.

12. Caspian News (2022). Azerbaijan Introduces Special Economic Regime in Liberated Lands. 23 iyun 2022.

13. Eurasianet (2022). Karabakh's reconstruction inspires hope, stirs concern. 5 oktyabr 2022.

J.M.Abdullayev
PhD candidate, Institute of Economics of the Ministry of Science and Education

Restructuring of the service economy: the Karabakh model

Abstract

The role of the service sector in the modern global economy is rapidly increasing. Azerbaijan's economy has long depended on oil and gas revenues, but in the post-oil era there is a need for economic diversification to ensure sustainable growth. The restructuring of the service economy stems from this necessity. Although the share of the service sector in Azerbaijan's GDP has gradually risen in the 2020s, it still lags behind the world average. The liberation of the Karabakh region has given Azerbaijan an opportunity to pilot a new economic model. This article examines the essence of the "Karabakh model," analyzing modern infrastructure building in the liberated territories and the development prospects of service-oriented activities (tourism, logistics, ICT, etc.). The study utilizes analysis of official statistics and relevant literature. For the first time, the role of the Karabakh model in post-conflict economic restructuring is evaluated. The impact of the government's large-scale reconstruction efforts and special mechanisms such as tax incentives and investment promotion on the formation of the service economy is assessed. As a result, it is concluded that the new economic environment being created in the Karabakh region will contribute to Azerbaijan's overall economic diversification and sustainable development.

Key words: *service economy, Karabakh, economic model, diversification, reconstruction.*

https://doi.org/10.58225/tim.2025-4-247-256

S.R.Ələkbərov
doktorant, Azərbaycan Memarlıq və İnşaat Universiteti
ORCID 0009-0008-5271-6330
Saidalekperov1@gmail.com

Məqalə redaksiyaya daxil olub 01.12.2025
The article was received by editorial board on 01.12.2025
Статья принята к печати 01.12.2025

AZƏRBAYCANDA İQTİSADİ SABİTLİYİN TƏMİN EDİLMƏSİNDƏ NEFT-QAZ SƏNAYESİNİN ROLUNUN QİYMƏTLƏNDİRİLMƏSİ

Xülasə

Tədqiqatın məqsədi – *Azərbaycanda iqtisadi sabitliyin davamlılığının təmin edilməsində neft-qaz sənayesinin rolu öyrənmək və bu istiqamətdə olan nəzəri yanaşmaları sistemləşdirmək və ümumiləşdirməkdir.*

Tədqiqatın metodologiyası - *tədqiqat işində müqayisəli təhlil, məntiqi ümumiləşdirmə, sistemli yanaşma, riyazi təhlil, analiz və sintez metodlarından istifadə edilib.*

Tədqiqatın tətbiqi əhəmiyyəti *–araşdırılmış təhllin nəticəsindən iqtisadi sabitlyin davamlılığını təmin etmək üçün, neftin iqtisadiyyata təsirlərini qiymətləndirmək və tənzimlənməsi üçün istifadə edilə bilər.*

Tədqiqatın nəticələri –*Neftin qiyməti beynəlxalq aləmdə baş verən iqtisadi-siyasi proseslərdən aslı olaraq dəyişir. Bu da dövlət büdcəsinə və ölkənin iqtisadi inkişafına təsir edir. Buna görə də neft gəlirlərindən istifadə edib milli iqtisadiyyatın inkişafına digər sahələrinin və iqtisadiyyatın strukturunun səmərəli qurulması üçün faydalı ola bilər.*

Tədiqiqatın orijinallığı və elmi yeniliyi *– İqtisadiyyatın şaxələnmə əmsalı, neft gəlirlərinin dövlət büdcənin gəlirlrəində payı, neft gəlirlərinin dövlət büdcəsinə təsiri, hirişman-herfindal indeksi hesablanmış və müvafiq meyillər öyrənilmişdir.*

Açar sözlər*: ÜDM, neft-qaz hasilatı, iqtisadiyyatın şaxələnmə əmsalı, inflyasiya, iqtisadi artım, dövlət büdcəsi, təmərgzləşmə, nominal və real valyuta məzənnəsi və s.*

GİRİŞ

Hər bir ölkənin iqtisadi və sosial inkişafının ən fundamental tələblərdən biri enerji ilə bağlıdır. Enerji sosial həyatımızın eyni zamanda, sənaye, nəqliyyat, mənzil, ticarət və digər sahələrin davamlı inkişafı üçün əvəzolunmaz bir nemətdir. Buna görə də enerji təhlükəsizliyi hər bir ölkədə iqtisadi və milli təhlükəsizliyin mühüm elementlərindən birincisi hesab edilir. Bunun əsas səbəbi istər ayrı-ayrı ölkələr səviyyəsində, istərsə də qlobal miqyasda iqtisadiyyat inkişaf etdikcə enerji resurslarına olan tələbdə artmışdır. Bunun nəticəsidir ki, enerji resursları iqtisadiyyatın hərəkətverici qüvvəsi hesab edilir.

Neft-qaz sənaye müəssisələrində iqtisadi sabitliyin davamlılığının təmin edilməsi üzrə nəzəri baxışlar

İqtisadi sabitlilik iqtisadiyyatın davamlı inkişafı üçün başlıca şərtidir. İqtisadi sabitlik ərazi baxım-dan kiçik ölkələr üçün xüsusilə aktualdır. Belə ki, ərazi baxımından böyük ölkələrlə müqayi-

sədə ərazi baxımından kiçik ölkələrdə qlobal miqyasda bazar konyukturasının dəyişməsi tez bir zamanda kiçik iqtisadiyyatlı olkələrdə xoşagəlməz mənfi meyyillərin əmələ gəlməsinə səbəb olur. Belə ki, 2022-ci ildə ərazi baxımından kiçik olan Hollandiyada inflyasiya səviyyəsi 10% olduğu halda, bu göstərici həmin ildə ərazi və iqtisadi baxımdan daha inkişaf etmiş olan Fransada 5.22%, Almaniyada isə 6.9% olmuşdur. Eyni zamanda, 2024-cü ildə isə qeyd edilən göstərici ölkələr üzrə analoji olaraq aşğıdakı kimi şəkil (3.3%, 2%, 2.2%) almışdır.

Müşahidələr təsdiqləyir ki, ölkədə iqtisadiyyatın istənilən sahəsinin inkişafında daxili makro-iqtisadi amillər qədər xarici və qlobal mühütdə baş verən meyillərin də nəzərə alınmasını zəruri edir. Bu baxımdan A.A.Bajasso göstərir ki, sənaye müəssisələrinin davamlı inkişafı daxili inkişaf prioritetləri və xarici mühitin amilləri nəzərə alınmaqla təmin edilməlidir [1.səh.20].

Rus iqtisadçısı isə İ.İ. Kortoev isə bildirir ki, istər ölkə üçün istərsədə təsərrüfat subyektlərinin perespektiv və strateji inkişafı üçün iqtisadi sabitliyin davamlılığının təmin edilməsi olduqca vacib amildir [2. səh.3].

Ümumiyyətlə, iqtisadi sabitliyin təmin edilməsi ilk növbədə ölkə səviyyəsində reallaşdırlmalıdır və sonra isə bu proses müəssisə səviyyəsinə öz həllini tapmalıdır. Nəzəri yanaşmalar təsdiqləyir ki, iqtisadi sabitliyin təmin edilməsi və bu əsasda davamlı iqtisadi inkişaf siyasəti bütün ölkələrin hədəflədiyi normativ bir yanaşmadır. Tanınmış Avstriya iqtisadçı Paul Rosenstein-Rodan XX əsrin 60-cı illərində öz tədqiqatlarında belə qənaətə gəlmişdir ki, təkcə iqtisadi inkişaf üçün stabilliyin təmini əsas şərt deyil. Bunun üçün əlavə şərtlərdə vacibdir. Bununla bağlı tədqiqatçı "dominant artım və modernləşmə" nəzəriyyəsində geniş müzakirə açmışdır. P.R.Rodan göstərirdi ki, milli iqtisadiy-yatın yenilənməsi və inkişafı üçün kapitalın olmasını vacib şərt olaraq irəli sürmüşdür. Başqa sözlə tədqiqatçı ölkələrin zəif inkişafın əsl səbəbini əsasən ölkə iqtisadiyyatında kapital qoyuluş-larının azlığında və ya çatışmazlığında görürdü. Bu barədə hələ tədqiqatçı XX əsrin 40-cı illərində də ilk qeydlərini qeyd etmişdir [3. səh.205].

İqtisad elmində neft-qaz təbii sərvət kimi xarakterizə olunur və əksər alimlər bu təbii sərvətlərin milli iqtisadiyyatların inkişafında önəmli paya malik olduqlarını bildirir. Lakin bununla belə XX əsrin 70-ci illərindən sonra qlobalq miqyasda təhlil aparan bir çox alimin əsrlərində təbii sərvətlərin heç də həmişə mövcud olduqları ölkələrə xoşbətxlik gətirmədiyi vurğulanır. Bunu da iqtisadiyyatın birtərəfli qayda da formalaşması, milli valyutanın məzənnəsinin bilavasitə təbii sərvətlərdən aslı olduğunu, milli iqtisadiyyatda səmərəli məşğulluğun formalaşmasına imkan verməməsi, iqtisadiyyatın digər sahələri ilə müqayisədə qeyri-bərabər inkişafa səbəb olması və s. kimi amillərlə izah edirlər. Qeyd edilənlərin nəticəsidir ki, bəzi alimlərin tədqiqatlarında "neft lənəti" və ya "təbii sərvət lənəti" kimi sözlərdən də istifadə etməsi təsadüfi deyildir. Bundan başqa XX əsrin 60-ci illərdində Şimal dənizində böyük həcmdə təbii qaz yataqlarının aşkar edilməsi Hollandiya iqtisadiyyatı üçün böyük problemlərə səbəb olmuşdur. Həmin dövürdə təbii qazın hasilatı və ixracı Hollandiyanın milli pul vahidi olan Quldenin məzənnəsinin möhkəmlənməsinə və iqtisadiyyatın birtərəfli formalaşmasına gətirib çıxarmışdır. Buna görə də dövrü olaraq iqtisadiyyatın diversifikasiya əmsalının hesablanması zəruri hala gəlmişdir.

Ölkə iqtisadçılarından Y.Həsənli qeyd edir ki, ölkənin iqtisadi sahələrinin diversifikasiya dərəcəsi ixracın diversifikasiyasını şərtləndirir. Bu baxımdan Y.H. Həsənli tədqiqatlarında diversifikasiya əmsalını aşağıdakı kimi təqdim edir [4, s.24-25].

$$D = \frac{S^2}{S_1^2 + S_2^2 + \dots + S_n^2}$$

Burada, D- diversifikasiya əmsalını, onun ala biləcəyi qiymətlər isə aşağıdakı intervalda ($1 \leq D \leq n$) ola bilər. Bundan başqa, S^2 – məcmu ixacın həcmini, $S_1^2, S_2^2, S_3^2 S_n^2$ – isə ixracın həcmində digər sahələrin həcmini göstərir. Bununla belə diversifikasiya əmsalının aldığı qiymət

$D > \frac{n+1}{2}$ olduqda ixracın strukturunun tarazlı və ya qənaətbəxş olmasını,

$D < \frac{n+1}{2}$ olduqda isə ixracın strukturunun qeyri-qənaət bəxş hesab edilir.

Təbii ki, iqtisadi sabitliyin təmin edilməsi xüsusiyyətlərini araşdırarkən ilk növbədə ölkədə makroiqtisadi vəziyyət ön planda olur. Bundan sonrakı yeri isə ölkədə iqtisadiiyatının strukturu, bazarın mərkəzləşmə və təmərgüzləşmə həddinin müəyyən edilməsi də önəmli olur. Bazrın təmərgüzləşmə həddinin müəyyənləşdirilməsi üçün Hirşman-Herfindal indeksindən(HHİ) istifadə olunur. Həmin indeks aşağıdakı kimidir [5, s.134-135].

$$HH\dot{I} = \sum_{i=1}^{m} D^2$$

Harada ki, HHI - Hirşman-Herfindal indeksi; m – iqtisadi sahələrin payı; D – iqtisadi sahələri əks etdirir. HHİ indeksi vasitəsilə bazarın ölçülməsi nəticəsində alınan göstəricilərin iqtisadi meyyarlarını aşağıdakı kimi xaraktetizə etmək olar.

Cədvəl 1

Hirşman-Herfindal indeksinin (HHI) iqtisadi xarakteristikası

HHI alınan əmsallar	Təmərgüzləşməni xarakteristikası
HHI <= 1500	Zəif
1500 < HHI <= 2500	Orta
HHI > 2500	Yüksək

Mənbə: *https://en.wikipedia.org/wiki/Herfindahl%E2%80%93Hirschman_index*

HHİ üzrə alınan alınan əmsallar HHI <= 1500 olduqda bazarın təmərgüzləşmə səviyyəsi zəif, 1500 < HHI <= 2500 aralığında orta və HHI > 2500 olduqda isə təmərgüzləşmənin yüksək olduğu qəbul edilir.


Hesab edirik ki, göstərilən müvafiq nəzəri-metodoloji yanaşmalar əsasında Azərbaycanda iqtisadi sabitliyin təmin edilməsində neft-qaz sənayesinin rolunun qiymətləndirilməsi maraqlıdır.

Azərbaycanda neft-qaz sənaye müəssisələrində iqtisadi sabitliyin təmin edilməsi xüsusiyyətləri

Hesab edirik ki, Azərbaycanda neft-qaz sənaye müəssisələrində iqtisadi sabitliyin təmin edilməsi xüsusiyyətlərinə iki aspektdən yanaşmaq olar:

- makroiqtisadi,
- mikroiqtisadi,

Makroiqtisadi səviyyədə bu proses aşağıdakı kimi özünü göstərə bilər. Qlobal aləmdə baş verən proseslərin və trendlərin dəyişməsi təbii olaraq ölkəmizdə də iqtisadi artım tempinin, inflyasiyasının, əsas kapitala yönəldilən investisiyaların, valyuta məzənnəsi və digər makroiqtisadi vəziyyətin dəyiş-məsinə səbəb olur. Bu baxımdan Azərbaycanda neft-qaz sənaye müəssisələrində iqtisadi sabitliyin təmin edilməsində makroiqiqtisadi amillərin əsası kimi aşağıdakı şəkilə nəzər salaq.



	2014	2015	2016	2017	2018	2019	2020	2021	2022	2023	2024	2025
Artım tempi (%)	102.8	101.1	96.2	100.1	101.5	102.5	95.8	105.6	104.7	101.4	104.1	101.5
İnflyasiya (%)	101.4	104	112.4	112.9	102.3	102.6	102.8	106.7	113.9	108.8	102.2	105.7
Əsas kapitala investisiya üzrə artım(%)	98.3	88.9	73.9	97.4	95.7	105.5	92.7	103.3	115.2	115.2	102.4	101

Şəkil 1. Makroiqtisadi göstəricilərin dinamikası (%)

Hesab edirik ki, ölkədə makroiqtisadi göstəricilərin Azərbaycanda neft-qaz sənaye müəssisələrin-də iqtisadi sabitliyinə təmin edilməsi xüsusiyyətlərini araşdırarkən onu 5 mərhələyə bölüb təhlil etmək maraqlı olar. Bunlardan birincisi kimi 2014-2015-ci illəri, ikinci dövr kimi 2016-cı il, üçüncü dövr kimi 2017-2019-cu illəri, dördüncü dövr kimi 2020-ci ili və nəhayət 2021-ci ildən sonrakı dövrün təhlili maraqlıdır. Birincisi dövr kimi xarakterizə olunan 2014-2015-ci illər detmək olar ki, bu dövrdə makroiqtisadi vəziyyət dinamik inkişaf etsədə 2015-ci illərin sonununda manatın məzən-nəsində müəyyən dalğalanmalar baş vermiş və bu proses 2016-cı ilin birinci rübünə kimi davam etmişdir. 2016-cı ildə inflyasiyanın sürətlənməsin, iqtisadi artım tempinin zəifləməsinə və əsas kapitala investisiya qoyuluşlarının daha da azalmasını şərtləndirmişdir.Nəzərə almaq lazımdır ki, 2016-cı ildə manatın məzənnəsinindəki dəyişikliliyin davam etməsi 2016-cı ildə 16 bankın birdən-birə müflisləşməsinə gətirib çıxarmışdır ki, bununda əsas səbəbi manatın məzənnəsinin kəskin olaraq 1 ABŞ dolları 0.80 manatdan, 1.70 manat olması olmuşdur. Lakin təhlil olunan 2014-2016-cı illərdə neft-qaz hasilatında ciddi dəyişikliklər olmamışdır. Bildirmək istərdik ki, 2013-cü ildə neft hasilatı (qaz kondensatı daxil olmaqla) 43.4 mln. ton, 2014-cü ildə 42.1 mln. ton, 2015-ci ildə 41.6 mln. ton, 2016-cı ildə isə 41.1 mln. ton neft qaz kondensatı daxil olmaqla hasil edilmişdir. Statistik təhlildən göründüyü kimi müəyyən azalmalar olsa da bu azalmalar 2011-ci ildən başlamışdır.

Növbəti məhrələ kimi təqdim edilən 2017-2019-cu illər iqtisadiyyatın toparlanması iqtisadi artımın dinamik hal alması kimi xarakterizə olunsada 2020-ci ildə olan pandemiya müəyyən problemlərə və iqtisadi geriləmələrə səbəb olmuşdur. Lakin təhlil olunan 2017 -2020-ci illərdə də neft qaz sənayesi dinamik inkişafa nail olmuşdur. 2021-ci ildən sonrakı dövr isə həm iqtisadi artımda, həm əsas kapitala investisiya qoyuluşlarında artım olmuş inflyasiya isə tənzimlənən səviyyədə olmuşdur.

Həmçinin neftin beynəlxalq bazarlarda qiymətindəki dəyişikliklər nəticəsində Azərbaycanda neft gəlirlərinin azalmasına və milli valyutanın məzənnəsindəki dəyişiklik və inflyasiya proseslətinin artmasına səbəb ola bilər. Nəzərə almaq lazımdır ki, qlobal miqyasda baş verə bilən makroiqtisadi xoşagəlməz meyllər neft-qaz sənaye müəssisələrində iqtisadi sabitliyin pozulmasına və nəticədə risklərin kəskinləşməsinə gətirib çıxara bilər. Bu baxımdan Azərbaycan Respublikasının dövlət büdcəsinin gəlirlərinin müəyyənləşdirilməsi strukturuna nəzər salaq. Buna görə də aşağıdakı cədvələ nəzər salaq.

Cədvəl 2

Azərbaycan Respublikasının dövlət büdcəsində neft və qeyri-neft gəlirləri (%)


illər	neft sektoru üzrə gəlirlər (%)	Qeyri-neft sektoru üzrə gəlirlər(%)
2014	66.0	34.0
2015	58.4	41.6
2016	52.7	47.3

2017	47.7	52.3
2018	59.5	40.5
2019	56.2	43.8
2020	56.7	43.3
2021	51.3	48.7
2022	50.0	50.0
2023	51.5	48.5
2024	48.4	51.6
2025	48.9	51.1
2026(proqnoz)	42.6	57.4

***Mənbə**:www.maliyye.gov.az*

Dövlət büdcəsində neft-qaz gəlirlərinin azlaması əslində milli iqtisadiyyat üçün mənfi məqamlar deyil, müsbət perespektivlər vəd edir. Digər tərəfdən isə Azərbaycan hökuməti də dövlət büdcəsində neft-qaz gəlirlərinin azlamsı perespektivini əvvəlcədən müəyyənləşdirdiyi üçün nəticəəsaslı bücə xərclərinin hazırlanmasına artıq keçid etmişdir. Həmçinin, dövlət büdcəsində neft-qaz gəlirlərinin azalması qeyri-neft sektorunun inkişafı üçün əsaslı şərait yaradır.

Azərbaycanda neft gəlirlərinin azalmasının səbəb ola biləcəyi ikinci mühüm məqam isə milli valyutanın məzənnəsindəki dəyişiklik və inflyasiya proseslətinin artması təhlükəsidir. Bunun üçün də qeyri-neft sektoru üzrə nominal və real effektiv valyuta məzənnəsinə nəzər salaq.



Şəkil 2.Qeyri-neft sektoru üzrə nominal və real effektiv valyuta məzənnənin dinmikası(mənbə:/https://uploads.cbar.az/assets/1083f7975af53981fad670fbf.pdf)

Statistik məlumatlar onu göstərir ki, 2015-ci ildən Azərbaycanda 1 ABŞ dollarının rəsmi məzənnəsi 1.70 manatdır. Lakin, şəkil 2-dən də göründüyü kimi nominal effektiv məzənnəyə müəyyən təziqlər mövcuddur. Bunun nəticəsidir ki, nominal effektiv valyuta məzənnəsi 2021-ci ildən etibarən sürətlə artır. Konkret olaraq 2024-cü ildə təqribən 1.84 olmuşdur ki, bu da o deməkdir, məzənnə mərkəzi bankın rəsmi müəyyən etdiyi məzənnədən yüksək olmuşdur. Lakin, valyuta bazarına Mərkəzi Bankın müdaxiləsi nəticəsində manatın məzənnəsi öz mövqeyini qorumuşdur. Bundan əlavə onu da bildirək ki, Mərkəzi Bank 2027-cı ilə kimi inflyasiyanı 2%-4% aralığında qoruyacağı ilə bağlı və iqtisadi stabitliyin perespektiv dövrdə önəm verəcəyi ilə bağlı rəsmi hesabatlarda (inflyasiya və məzənnə) bağlı konkret qeydlər edir.

Fikrimcə, Azərbaycanda neft-qaz sənaye müəssisələrində iqtisadi sabitliyin təmin edilməsi xüsusiyyətlərinin mikro səviyyədə təhlili də maraqlıdır. Ölkəmizdə neft-qaz sənaye müəssisələrində iqtisadi sabitliyin təmin edilməsi xüsusiyyətləri öyrənilərkən ilk növbədə xam neft və təbii qaz hasilatı üzrə əsas göstəricilərə nəzər salmaq faydalıdır.

Xam neft və təbii qaz hasilatı üzrə əsas göstəricilər üzrə cədvəl-3-in məlumatları göstərir ki, 2019-cu ildə bu istiqamət üzrə fəaliyyət göstərən müəssisələrin sayı cəmi 31 olmuşdur ki, bunlardan da 9 və ya 29% dövlət müəssisələri 22-i və ya 71% isə qeyri-dövlət müəssisələri olmuşdur. Təhlil üçün qeyd edilmiş 2024-cü ildə isə bu sahədə fəaliyyət göstərən müəssisələrin sayı 4 vahid və ya 12.9% artaraq 35 çatmışdır ki, bununda 8-i və ya 22.9% dövlət, 27-i və ya 77.1% isə qeyri-dövlət müəssisələri olmuş-dur.

Göründüyü kimi, son 2023-2024-cü illərdə dövlət sektorunda fəaliyyət göstərən neft və təbii qaz hasilatı üzrə sənaye müəssisələrinin sayında azalma, qeyri-dövlət bölməsində isə nisbətən artım vardır.

Cədvəl 3

Xam neft və təbii qaz hasilatı üzrə əsas göstəricilər

Göstəricilər	2019	2020	2021	2022	2023	2024	Artma+, azalma-
Fəaliyyət göstərən müəssisələrin sayı, vahid	31	32	33	35	34	35	12.9
dövlət	9	9	9	9	8	8	-11.1
qeyri-dövlət	22	23	24	26	26	27	22.7
Sənaye məhsulunun (işlərin, xidmətlərin) həcmi, (milyard man.)	29.3	19.3	33.7	62.3	42.1	38.2	30.7
Ölkədə istehsal olunmuş sənaye məhsulunun ümumi həcmində sahənin payı, faizlə	62.3	51.9	61	72.1	62.6	58.9	-5.5
Ölkə sənayesinin qeyri-dövlət sektorunda sahənin qeyri-dövlət sektorunun payı, faizlə	73.9	63.8	71.6	81	72.1	68.9	-6.8
Neft hasilatı (qaz kondensatı daxil olmaqla), mln. ton	37.5	34.5	34.6	32.6	30.1	29.1	-22.5
o cümlədən əmtəəlik	37.5	34.5	34.5	32.6	30.1	29.0	-22.6
Qaz hasilatı, milyard kub metr	35.6	37.1	43.9	46.7	48.5	50.4	41.6
o cümlədən əmtəəlik	24.5	26.5	32.6	35.0	36.4	38.6	57.5

Mənbə: *https://www.stat.gov.az/source/industry/*

Eyni zamanda, 2019-cu ildə ölkənin xam neft və təbii qaz hasilatı sənayesində fəaliyyət göstərən müəssisələrdə istehsal olunan məhsulun həcmi 29.3 milyard manat səviyyəsindən təqribən 9 milyard manat və ya 30.7% artaraq 2024-cü ildə 38.2 milyard manat olmuşdur. Ölkədə istehsal olunmuş sənaye məhsulunun ümumi həcmində xam neft və təbii qaz hasilatı sahənin payı ədədi orta kimi 61.3% təşkil etmişdir. Ölkə sənayesinin qeyri-dövlət sektorunda sahənin qeyri-dövlət sektorunun payı isə 73.9%-lə 68.9% arasında dəyişir.

Azərbaycan ixracının strukturunun neft və təbii qazdan aslılığına diversifikasiya nöqteyi-nəzərən diqqət edək və bunun üçün aşağıdakı şəkilə (şəkil 3) nəzər salaq.



Şəkil 3. İxrac üzrə diversifikasiya əmsalı

2019-2024-cü illərin əsas malların ixracının dinamikası haqqında statistik məlumatların təhlili əsasında hazırlanan şəkil 3-nın analizi onu deməyə əsas verir ki, milli iqtisadiyyatda neft hasilatı və ona müvafiq xam neft eləcə də neft məhsullarının ixracı azaldıqca ixracda diversifikasiya dərəcəsi yüksəlir. Bildirmək istərdik ki, ixracın diversifikasiya əmsalı təhlil üçün götürülən 2019-2024-ci illərdə 38 məhsul növü üzrə reallaşdırılmışdır. Buna görə də aşağıdakı cədvələ nəzər salaq.

Cədvəl 4

Diversifikasiya əmsalı ($D > \frac{n+1}{2}$)

İllər	**2019**	**2020**	**2021**	**2022**	**2023**	**2024**
Diversifkasiya əmsalı	19>2.92	19>3.42	19>3.87	19>4.20	19>4.23	19>4.07

Müəllif yanaşması

Cədvəl 4-ün məlumatları göstərir ki, perespektiv dövrdə ixracın strukturunun daha səmərəli qurulması üçün əlverişli imkanlar yaranacaqdır.

Aparılan təhlillər onu göstərir ki, neft hasilatı ümumən azalsada ÜDM-nin tərkibində digər sahələrlə müqayisədə hələdə xüsusi çəkisi yüksəkdir. Belə ki, 2019-cu ildə mədənçıxarma sənayesinin ÜDM-də payı 35.2%-dən azalaraq 29.4% enmişdir. Eyni zamanda, sənayenin sahə strukturunda xam neft və təbii qaz hasilatının payı da azalmağa doğru meyl etmişdir. Belə ki, 2019-cu ildə sənayenin sahə strukturunda xam neft və təbii qaz hasliatının payı 62.3% olmuşdursa bu göstərici 2024-cü ildə 58.9% düşmüşdür.

Azərbaycanda neft-qaz sənayesinin cari vəziyyətini müəyyənləşdirmək üçün ÜDM-in istehsalı üzrə iqtisadi fəaliyyət növlərinin timsalında nəzərdən keçirmək faydalıdır. Belə yanaşma milli iqtisadiyyatda cari vəziyyəti daha düzgün qiymətlən-dirməyə ikman verəcək və digər tərəfdən isə iqtisadi sabitliyin təmin olunmasında neft-qaz sektorunun önəmini göstərəcəkdir. Qeyd edilənlərə əsaslanaraq Azərbaycanda ÜDM-in istehsalı üzrə iqtisadi fəaliyyət növlərini HHİ əsasında hesablamaqla iqtisadi fəaliyyət növləri üzrə təmərgüzləşmə səviyyəsini müəyyənləşdirmək olar. ÜDM-in istehsalı üzrə HHİ-nin, hesablaması prosesinə və alınan nəticələrə nəzər salmaq maraqlıdır.

Cədvəl 5

HHI üzrə hesablama nəticəsində alınan əmsallar

	2019	**2020**	**2021**	**2022**	**2023**	**2024**
Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq	32.4	45.4	54.1	72.5	87.4	97.0
Mədənçıxarma sənayesi	1240.7	703.3	2023.7	6866.9	3175.2	2618.1

Emal sənayesi	25.0	37.2	68.0	95.1	75.9	83.1
Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı	0.9	1.5	2.3	3.1	3.3	3.3
Su təchizatı, tullantıların təmizlənməsi və emalı	0.0	0.1	0.1	0.1	0.1	0.2
Tikinti	55.5	62.1	58.3	79.9	110.6	136.5
Ticarət; nəqliyyat vasitələrinin təmiri	99.9	132.9	165.6	227.7	313.3	346.6
Nəqliyyat və anbar təsərrüfatı	35.3	50.8	77.5	125.2	116.3	147.8
Turistlərin yerləşdirilməsi və ictimai iaşə	5.8	1.3	2.6	7.9	13.6	18.1
İnformasiya və rabitə	3.2	4.5	5.1	6.5	8.8	10.9
Maliyyə və sığorta fəaliyyəti	3.4	4.2	5.8	8.8	14.4	16.4
Daşınmaz əmlakla əlaqədar əməliyyatlar	8.6	11.1	14.3	16.6	25.4	32.8
Peşə, elmi və texniki fəaliyyət	2.4	2.8	3.5	5.5	8.1	11.9
İnzibati və yardımçı xidmətlərin göstərilməsi	0.3	0.6	0.6	0.8	1.3	1.7
Dövlət idarəetməsi və müdafiə; sosial təminat	9.2	15.9	22.4	38.2	48.6	54.0
Təhsil	8.5	13.8	16.6	22.8	30.3	34.3
Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi	3.0	6.9	6.2	10.0	11.6	14.4
İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət	0.5	0.5	0.9	1.3	1.4	1.6
Digər sahələrdə xidmətlərin göstərilməsi	1.1	1.2	1.6	2.5	3.5	3.5
HHİ üzrə alınan əmsal	***1535.9***	***1096.2***	***2529.3***	***7591.2***	***4048.9***	***3632.2***

***Qeyd**: Cədvəl https://www.stat.gov.az məlumatları əsasında_əsasında müəllif tərəfindən hesablanıb.*

Beləlliklə də HHI üzrə hesablama aşığadıkı kimi nəticələrə gəlməyə imkan vermişdir. Məlum oldumdur ki, iqtisadi fəaliyyət növləri üzrə ÜDM-in istehsalında müəyyən təmərgüzləşmə meylləri sezilir ki, bu da 2021-2024-cü illərdə xüsusilə böyük həcmdə olmuşdur. Bunun səbəbi isə mədənçıxarma və ya neft-qaz sənayesinin iqtisadiyyatın digər növləri ilə müqayisədə daha çox məhsul istehsal etməsi ilə bağlıdır. Buradan belə nəticə çıxır ki, ölkədə istehsal olunan ÜDM-in böyük həcmdə neft-qaz sənayesinin payı vardır.

Cədvəl 6

Hirşman-Herfindal indeksi üzrə alınan əmsallar

HHI Əmsalının Kriteriyaları	2019	2020	2021	2022	2023	2024	Konsentrasiya Səviyyəsi
HHI <= 1500		***1096.2***					Zəif
1500 < HHI <= 2500	***1535.9***						Orta
HHI > 2500			***2529.3***	***7591.2***	***4048.9***	***3632.2***	Yüksək

***Qeyd**: Cədvəl müəllif hesablamalarına hesablanıb*

Eyni zamanda, Cədvəl 6-in məlumatları göstərir ki, 2021-2024-cü illərdə milli iqtisadiyyat daha çox neft-qaz sənayesi üzrə konsantrasiya olunmuşdur. Belə vəziyyət isə milli iqtisadiyyatda diversifikasiya olunmasını zəruri edir.

NƏTİCƏ

Aparılan təhlillər göstərir ki, Azərbaycan iqtisadiyyatında neft-qaz sənayesi iqtisadiyyatın bazası hesab edilir. Bu sahədə ciddi dəyişikliklər milli iqtisadiyyatın əksər sahələrinə təsir etmək imkanına malikdir. Xüsusən də neft gəlirlərinin azalması nin dövlət büdcəsində qeyri-neft gəlirlərinin artmasını şərtləndirir. Dövlət büdcəsində neft-qaz gəlirlərinin azlaması əslində milli iqtisadiyyat üçün müsbət məqamlar vəd etsədə 2019-2024-cü illər üzrə hesablanan diversifikasiya dərəcəsinin aşağı olması olduqca düşündürücüdür. Belə ki, təhlil üçün götürülən 2019-2024-ci illərdə 38 məhsul növü üzrə hesablanan diversifikasiya əmsalının yüksək səviyyədə qalması artıq bu istiqamətdə ciddi tədbirlərin görülməsini də zəruri edir. İkinci mühüm amil isə Azərbaycanda neft gəlirlərinin azalmasının milli valyutanın məzənnəsindəki dəyişiklik və inflyasiya proseslətinin artması təhlükəsidir. Nəzərə almaq lazımdır ki, milli valyutanın məzənnəsinin sabit saxlanılmasının əsas səbəbi neft gəlirləridir. Neft hasilatı azaldıqca təbii olaraq neft ixracı və buna müvafiq neft gəlirləri də azalacaqdır. Belə vəziyyət isə xoşagəlməyən meyillərin artmasına səbəb olacaqdır. Digər tərəfdən isə inflyasiya proseslərinin baş verməsi və qlobal miqyasda baş verən qeyri müəyyənliklərdə inflyasiya prosesinin sürətlənməsinə və manatın məzənnəsinin dəyişməsinə səbəb ola bilər. Artıq danılmaz fakdır ki. Neft gəlirləri azaldıqca manatın məzənnəsini də mövcud səviyyədə saxlamaq çətin olacaqdır.

Eyni zamanda, neft-qaz hasilatı ildən-ilə azalmasına baxmayaraq iqtisadi fəaliyyət növləri üzrə ÜDM-in istehsalında müəyyən təmərgüzləşmə meylləri sezilir ki, bu da 2021-2024-cü illərdə xüsusilə böyük həcmdə neft-qaz faktoru ilə bağlı olduğunu göstərir. Daha dəqiq mədənçıxarma və ya neft-qaz sənayesinin iqtisadiyyatın digər növləri ilə müqayisədə daha çox məhsul istehsal etməsi ilə bağlıdır. İqtisadiyyatın yalnız bir sahəsindən böyük həcmdə gəlirlərin gəlməsi iqtisadiyyatın digər sahələrinin inkişafını səmərəsizliyi prinsiplərindən artıq uzaqlaşmağın vaxtının çatdığını göstərir.

İstifadə edilmiş ədəbiyyat:

1. Бжассо А.А., Козюбро Т.И. (2021). Концепция устойчивого развития компании: методические подходы, модели // International Journal of Humanities and Natural Sciences. - № 3–1(54) - С. 19-22.

2. Кортоев, И.И. (2022). Вопросы разработки и применения методики стратегического анализа устойчивого развития организации нефтегазового сектора / И. И. Кортоев // Вестник евразийской науки. - Т. 14. - № 3.

3. Rosenstein-Rodan P.N. Problems of Industrialisation of Eastern and South-Eastern Europe // The Economic Journal, Vol. 53, No. 210/211, 202-211.

4. Həsənli Y.H., Murtuzayeva M., Sadiq S., Əsgərov İ. (2022). İqtisadi inkişafın sahələr üzrə şaxələnməsi: diversifikasiya əmsalı.// AMEA İqtisadiyyat institutu, Elmi Əsərlər I buraxılış s.24-28,

5. Леонова, К.С. Формирование и реализация концепции устойчивого развития в Российской Федерации // РСМ. №1., 225-240.

6. www.un.org/sustainabledevelopment/sustainable-development-goals

7. https://en.wikipedia.org/wiki/List_of_largest_oil_and_gas_companies_by_revenue

8. https://www.iea.org/

9. Янченко, Е.В. (2021). Нефтегазовая отрасль промышленности в контексте устойчивого развития экономики в постпандемический период / Е. В. Янченко // Актуальные проблемы экономики и менеджмента. – № 2(30). – С. 151-161.

10. Ельдар Шахбазов. (2007). «Управление рисками в проблеме обеспечения энергетической безопасности». Баку. Стр. 144.

11. https://oilprice.com/futures/wti/(West Texas Intermediate)

12. https://www.iea.org/data-and-statistics]

S.R.Alekperov
PhD student, Azerbaijan University of Architecture and Construction
ORCID 0009-0008-5271-6330

Assessment of the role of the oil and gas industry in ensuring economic stability in Azerbaijan

Abstract

The purpose of the study is to study the role of the oil and gas industry in ensuring the sustainability of economic stability in Azerbaijan and to systematize and generalize theoretical approaches in this direction.

Research methodology - comparative analysis, logical generalization, systematic approach, mathematical analysis, analysis and synthesis methods were used in the research work.

Applied significance of the study - the results of the research can be used to ensure the sustainability of economic stability, to assess and regulate the effects of oil on the economy.

Research results - The price of oil varies depending on the economic and political processes taking place in the international arena. This also affects the state budget and the economic development of the country. Therefore, using oil revenues can be useful for the development of other sectors of the national economy and the effective construction of the structure of the economy.

Originality and scientific novelty of the study - The diversification coefficient of the economy, the share of oil revenues in the state budget revenues, the impact of oil revenues on the state budget, the Hirschmann-Herfindahl index were calculated and relevant trends were studied.

Keywords: *GDP, oil and gas production, economic diversification coefficient, inflation, economic growth, state budget, centralization, nominal and real exchange rate, etc.*

https://doi.org/10.58225/tim.2025-4-257-263

A.C.Əzimzadə
doktorant, Bakı Avrasiya Universiteti
müəllim, Odlar Yurdu Universiteti
ORCID 0000-0003-1441-440X
aslan.azimzadeh@oyu.edu.az

Məqalə redaksiyaya daxil olub 02.11.2025
The article was received by editorial board on 02.11.2025
Статья принята к печати 02.11.2025

AZƏRBAYCANIN İQTİSADİ RAYONLARI ÜZRƏ PƏRAKƏNDƏ TİCARƏT DÖVRİYYƏSİNİN TƏHLİLİ: MAKROİQTİSADİ PROPORSİONAL YANAŞMA

Xülasə

Makroiqtisadi proporsional təhlil özünün informasiya vermə qabiliyyətinə görə daha effektivdir. Digər tərəfdən pərakəndə ticarət dövriyyəsinin təhlil edilməsi zəngin indikativ məlumatların əldə edilməsini səciyyələndirməkdədir. Tədqiqat işində kəmiyyət tədqiqat metodundan istifadə edilmiş və müəllif tərəfindən təklif edilən proporsionallıq əmsallarının hesablanması metodikası çərçivəsində Azərbaycanın iqtisadi rayonları üzrə pərakəndə ticarət dövriyyəsi təhlil edilmişdir. Müəyyən edilmiş birinci tədqiqat sualı çərçivəsində Azərbaycanın iqtisadi rayonlarında pərakəndə ticarət dövriyyəsinin dayanıqlı artım trendi müşahidə edilməkdədir. Lakin, tədqiqat işinin müəyyən edilmiş ikinci tədqiqat sualı zəminində əldə edilən nəticələr onu deməyə imkan verir ki, Azərbaycanın iqtisadi rayonlarında pərakəndə ticarət dövriyyəsi üzrə yüksək səviyyəli disproporsionallıq mövcuddur. Məhz makroiqtisadi proporsional yanaşma vasitəsilə əldə edilən məlumatlar milli iqtisadiyyatın regional müstəvidə uzunmüddətli strateji planlaşdırması üçün indikator bazasını təşkil edə bilər ki, bu da tədqiqat işinin praktiki əhəmiyyətinin olmasını deməyə imkan verir. Tədqiqatın məhdudiyyətləri daha geniş məlumat bazasının, o cümlədən, rüblük göstəricilərin təhlil edilməməsi ilə səciyyələnə bilər.

Açar sözlər: *makroiqtisadi proporsiyalar, disproporsionallıq, pərakəndə ticarət dövriyyəsi, COVID-19, strateji planlaşdırma.*

GİRİŞ

Makroiqtisadi proporsiyalar milli iqtisadiyyatın uzunmüddətli inkişafı üçün zəruri olan strateji planlaşdırma mexanizminin magistral metodoloji bazasını təşkil edən komponentlərdən biri kimi şərtləndirilə bilər. Bütövlükdə makroiqtisadi proporsiyalar ümumi istehsalın və milli iqtisadiyyatın müxtəlif sahələri arasındakı bir sıra kəmiyyət münasibətlərini özündə cəm etməkdədir [1]. Dünya təsərrüfat sistemində formalaşan müasir böhranların başlıca spesifik xüsusiyyəti məhz iqtisadi disproporsionallıqdır ki, bu disproporsionallığın aradan qaldırılması üçün strateji planlaşdırma kimi əhəmiyyətli metodlardan istifadə labüddür [2]. Məhz makroiqtisadi proporsiyalararası balansın qurulması iqtisadi inkişafı səciyyələndirən istiqamətlərdən biri kimi çıxış etməkdədir [3]. Bu səbəbdən də tədqiqat işində iqtisadi regionlar üzrə pərakəndə ticarət dövriyyəsi regional makroiqtisadi proporsional yanaşma kontekstində təhlil ediləcəkdir.

Pərakəndə ticarət dövriyyəsi olduqca indikativ göstərici olmaqla yanaşı bir sıra tədqiqatlarda başlıca araşdırma istiqaməti olaraq səciyyələnməkdədir [4] [5] [6]. Belə ki, L.V. Zolotova və L.V. Portnova öz tədqiqatlarında regionun sosial-iqtisadi inkişafını məhz pərakəndə ticarət dövriyyəsi ilə izah etməyə çalışmışlardır [7]. Digər tərəfdən, V.A. Tsvetkov, Y.Q. Abramov və Y.A. Mayorova öz tədqiqatlarında ticarət sahəsinin regionlarda pərakəndə ticarət dövriyyəsinə təsirini analiz etmişlərdir [8]. Eyni zamanda, S. Kenjayeva regional aspektdə pərakəndə ticarət dövriyyəsinin inkişaf trendlərini tədqiq etmişdir [9]. J. Arnerić və digərləri isə zaman sıraları çərçivəsində pərakəndə ticarət dövriyyəsinin təqvim təsirlərinə uyğunlaşdırılması istiqamətində təhlil aparmışlardır [10].

Azərbaycanda isə regional makroiqtisadi proporsional yanaşma kontekstində pərakəndə ticarət dövriyyəsinin təhlili mövzusunda ədəbiyyat boşluğu müşahidə edilməkdədir. Xüsusilə də, 2021-ci ildən etibarən Azərbaycanın iqtisadi rayonlarının yeni bölgüsünün müəyyənləşdirilməsi regional aspektdə təhlilləri daha da aktuallaşdıra bilər.

Aparılan tədqiqat işi çərçivəsində cavablandırılması nəzərdə tutulan başlıca tədqiqat sualları aşağıdakılardır:

Tədqiqat sualı 1: Azərbaycanın iqtisadi rayonları üzrə pərakəndə ticarət dövriyyəsinin müasir vəziyyəti necədir?

Tədqiqat sualı 2: Azərbaycanın iqtisadi rayonları üzrə pərakəndə ticarət dövriyyəsində optimal proporsionallıq müşahidə edilirmi?

METODOLOGİYA

Tədqiqat işi kəmiyyət tədqiqat metodlarına əsaslanmaqdadır ki, bu metoddan istifadə zamanı işin informasiya bazasını Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin indikatorları təşkil edəcəkdir. Tədqiqat işi aşağıdakı mərhələləri özündə ehtiva edəcəkdir.

Birinci mərhələ: İqtisadi rayonların adlarının kodlaşdırılması.

İkinci mərhələ: Azərbaycanın iqtisadi rayonlarında pərakəndə ticarət dövriyyəsinin illər üzrə dinamikasının təhlili.

Üçüncü mərhələ: Azərbaycanın iqtisadi rayonlarında pərakəndə ticarət dövriyyəsi üzrə proporsionallıq əmsallarının sistemli təhlili.

Proporsionallıq əmsallarının hesablanması zamanı müəllif tərəfindən təklif edilən dəyişənlərin normallaşdırılması metodundan istifadə ediləcəkdir. Bənzər metodun faiz ilə ifadəsi V.Kozlovskiy tərəfindən Baltik regionu üçün tətbiq edilmişdir [11]. Sözügedən metodun hesablanması aşağıdakı kimidir:

$$X_1 + X_2 + X_3 + \ldots + X_n = \sum_{k=1}^{n} X_k \quad (1)$$

Burada, X_1 birinci iqtisadi rayonda pərakəndə ticarət dövriyyəsinin göstəricidir. Digər X-lər də eyni formada şərh edə bilər. Nəhayət, X_n n-ci iqtisadi rayonda pərakəndə ticarət dövriyyəsinin göstəricisidir. $\sum_{k=1}^{n} X_k$ isə n sayda iqtisadi rayon üzrə pərakəndə ticarət dövriyyəsinin məcmusudur.

$$\frac{\sum_{k=1}^{n} X_k}{n} = Y_k \quad (2)$$

Burada, Y_k n sayda iqtisadi rayon üzrə məcmu pərakəndə ticarət dövriyyəsinin ədədi ortasıdır.

$$\frac{X_1}{Y_k} = A_1; \frac{X_2}{Y_k} = A_2; \frac{X_3}{Y_k} = A_3 \ldots \frac{X_n}{Y_k} = A_k \quad (3)$$

Burada, A_1 birinci iqtisadi rayon üzrə pərakəndə ticarət dövriyyəsi göstəricisinin n sayda iqtisadi rayon üzrə məcmu pərakəndə ticarət dövriyyəsinin ədədi ortasına nisbətindən əmələ gələn proporsionallıq əmsalıdır. Digər göstəricilər də eyni formada şərh edilə bilər.

$$A_1 + A_2 + A_3 + \cdots + A_n = \text{n} \quad (4)$$

Təbii ki, burada bütün proporsionallıq əmsallarının cəmi iqtisadi rayonların sayına (n) bərabər olmalıdır.

TAPINTILAR VƏ MÜZAKİRƏ

Tədqiqat işinin birinci mərhələsinə uyğun olaraq Azərbaycanın iqtisadi rayonlarının adlarını P. Hryhoruk və digərlərinin metoduna müvafiq olaraq kodlaşdıraq [12].

Cədvəl 1

Azərbaycanın iqtisadi rayonları adlarının kodlaşdırılması

Kod	İqtisadi rayon	Kod	İqtisadi rayon
X_1	Bakı şəhəri	X_8	Quba-Xaçmaz
X_2	Naxçıvan Muxtar Respublikası	X_9	Lənkəran-Astara
X_3	Abşeron-Xızı	X_{10}	Mərkəzi Aran
X_4	Dağlıq Şirvan	X_{11}	Mil-Muğan
X_5	Gəncə-Daşkəsən	X_{12}	Şəki-Zaqatala
X_6	Qarabağ	X_{13}	Şərqi Zəngəzur
X_7	Qazax-Tovuz	X_{14}	Şirvan-Salyan

Mənbə: *Müəllif tərəfindən tərtib edilmişdir*

Bu kodlaşdırma mexanizmi tədqiqat işinin sistemli təhlilini şərtləndirəcəkdir. Xüsusilə qeyd etmək lazımdır ki, 44 günlük Vətən Müharibəsindən sonra Qarabağ və Şərqi Zəngəzur kimi iqtisadi rayonların yaranması zəminində sözügedən rayonlar üçün pərakəndə ticarət dövriyyəsi üzrə regional proporsionallıq əmsalının işlənilməsi tədqiqat işinin aktuallığını bir daha səciyyələndirməkdədir.

İlk olaraq tədqiqat işinin birinci sualına müvafiq olaraq Azərbaycanın iqtisadi rayonlarında pərakəndə ticarət dövriyyəsinin illər üzrə dinamikasının təhlilinin aparılması məqsədəuyğundur.

Cədvəl 2

Azərbaycanın iqtisadi rayonları üzrə pərakəndə ticarət dövriyyəsinin dinamikası
min manatla

	2018	2019	2020	2021	2022	2023	2024
X_1	20.797.253,5	22.222.825,9	23.062.224,7	25.382.293,3	30.288.816,8	35.334.143,2	37.756.256,0
X_2	1.637.788,8	1.660.864,3	1.672.877,2	1.724.244,6	1.752.524,7	1.137.943,6	1.212.533,8
X_3	1.452.564,5	1.601.042,9	1.657.760,8	2.159.669,4	2.837.377,4	3.250.116,3	3.371.500,4
X_4	694.691,5	721.697,0	718.840,3	757.333,0	871.728,9	947.823,3	971.127,5
X_5	1.574.907,3	1.651.749,2	1.659.749,6	1.821.917,5	2.104.953,0	2.336.562,1	2.396.828,7
X_6	957.360,1	1.007.822,1	960.391,4	1.047.354,1	1.251.289,6	1.429.875,5	1.553.616,6
X_7	1.444.664,2	1.533.255,8	1.513.791,5	1.669.877,4	1.964.280,1	2.167.358,1	2.231.248,1
X_8	1.246.491,3	1.338.721,2	1.344.054,2	1.459.966,6	1.673.151,0	1.836.480,6	1.960.471,8
X_9	1.769.895,1	1.845.946,4	1.782.514,0	1.931.758,8	2.273.678,7	2.484.354,1	2.533.904,8
X_{10}	2.073.249,1	2.161.104,5	2.117.663,9	2.272.632,2	2.549.944,1	2.793.970,7	2.816.420,6
X_{11}	935.166,3	978.915,5	1.005.496,5	1.114.714,8	1.309.029,2	1.438.293,3	1.476.455,0
X_{12}	1.247.207,6	1.310.029,1	1.323.892,9	1.399.064,5	1.612.502,6	1.770.092,3	1.804.911,5
X_{13}	m/e	m/e	m/e	m/e	m/e	229.338,2	244.322,1
X_{14}	1.258.752,9	1.357.740,6	1.347.195,5	1.476.684,5	1.681.685,0	1.841.381,0	1.873.346,1

Mənbə: *Cədvəl Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin göstəriciləri əsasında müəllif tərəfindən tərfib edilmişdir (https://stat.gov.az/source/trade/)*

Yuxarıdakı Cədvəl 2-yə nəzər saldığımız zaman görürük ki, Naxçıvan Muxtar Respublikası (X_2) istisna olmaqla digər bütün iqtisadi rayonlarda 2018-2024-cü illər ərzində pərakəndə ticarət dövriyyəsi üzrə artım müşahidə edilməkdədir.

Bu cədvəl həmçinin COVID-19 pandemiyasının Azərbaycanın iqtisadi rayonları üzrə pərakəndə ticarət dövriyyəsinə təsirini tədqiq etmək üçün də önəmlidir.

11 mart 2020-ci ildə Dünya Səhiyyə Təşkilatı tərəfindən pandemiya statusu qazanmış COVID-19 pandemiyası dövlətləri bir sıra tədbirlər görməyə vadar etmişdir [13], [14].

Belə ki, ölkələrin karantin tətbiq etmələri çərçivəsində istehlak və istehsal arasında disproporsionallıq formalaşmışdır ki, bu da bir sıra dünya ölkəsində mövcud olan struktur böhranı daha da dərinləşdirmişdir. Lakin, daha sonra xüsusən də rəqəmsal həllər vasitəsilə bir sıra xidmətlərin məsafədən yerinə yetirilə bilməsi COVID-19 pandemiyasının formalaşdırdığı riskləri bir qədər azalda bilmişdir.

Azərbaycanın iqtisadi rayonları üzrə COVID-19 pandemiyasının pərakəndə ticarət dövriyyəsinə təsirini tədqiq etsək görərik ki, Dağlıq Şirvan (X_4), Qarabağ (X_6), Qazax-Tovuz (X_7), Lənkəran-Astara (X_9), Mərkəzi Aran (X_{10}) və Şirvan-Salyan (X_{14}) iqtisadi rayonlarında 2020-ci ildə pərakəndə ticarət dövriyyəsi azalmışdır.

Şərqi Zəngəzur (X_{13}) iqtisadi rayonunda isə bu dövrdə və ümumiyyətlə cədvəldə göstərilən 2018-2022-ci illər ərzində pərakəndə ticarət dövriyyəsi müəyyən edilməmişdir ki, bu da sözügedən rayonun 44 günlük Vətən Müharibəsinə qədər işğal altında olması ilə səciyyələnməkdədir. Şərqi-Zəngəzurda aparılan yenidənqurma və bərpa işləri kontekstində artıq 2023-cü ildə bu bölgədə pərakəndə ticarət dövriyyəsi ilə bağlı müsbət tendensiya müşahidə edilməkdədir.

Xüsusilə qeyd edilməlidir ki, Qazax-Tovuz və Lənkəran-Astara kimi sərhədyanı bölgələrdə pərakəndə ticarət dövriyyəsinin azalmasının səbəbi COVID-19 pandemiyası səbəbindən quru sərhədlərin qapalı olması ola bilər. Lakin, bu tendensiya özünü digər sərhədyanı iqtisadi rayonlar olan Naxçıvan Muxtar Respublikası, Quba-Xaçmaz iqtisadi rayonu (X_8) və Şəki-Zaqatala (X_{12}) iqtisadi rayonunda göstərməməkdədir.

Eyni zamanda, Bakı şəhəri (X_1), Abşeron-Xızı iqtisadi rayonu (X_3), Gəncə-Daşkəsən iqtisadi rayonu (X_5) və Mil-Muğan iqtisadi rayonlarında da (X_{11}) COVID-19 pandemiyası pərakəndə ticarət dövriyyəsinə bir qədər təsir göstərməmişdir.

Qarabağ iqtisadi rayonu istisna olmaqla COVID-19 pandemiyasının pərakəndə ticarət dövriyyəsinin azalmasına təsir etdiyi iqtisadi rayonlarda bərpa prosesi özünü 2021-ci ildə göstərməkdədir. Qarabağ iqtisadi rayonunda isə pərakəndə ticarət dövriyyəsi üzrə bərpa prosesi özünü 2022-ci ildə göstərməkdədir.

Bütövlükdə isə 2018-2024-cü illər ərzində Azərbaycanın 14 iqtisadi rayonundan 13-ündə pərakəndə ticarət dövriyyəsi üzrə artım müşahidə edilməkdədir ki, bu da iqtisadi rayonlar üzrə ilkin mənzərə olaraq daxili bazarın qorunduğunu və sözügedən göstəricinin artan trendlə inkişaf etdiyini deməyə imkan verməkdədir.Bu nəticənin digər tədqiqatlar ilə müqayisəsi də zəruridir.

Belə ki, S.Kenjayeva Özbəkistanın Surxandərya bölgəsi üzərinə apardığı araşdırmada pərakəndə ticarət dövriyyəsinin illər üzrə artmasını müşahidə etmişdir [9].

Digər tərəfdən, Y.S. Vasilçuk və digərləri İvanovo vilayəti üzrə pərakəndə ticarət dövriyyəsinin təhlili zamanı sözügedən regionda pərakəndə ticarətin səmərəliliyin az olması nəticəsinə gəlmişlər [5].

Lakin, burada əsas məsələ bir göstəricinin bütün iqtisadi rayonlarda artımı deyil, məhz bu göstərici üzrə optimal proporsionallığın təmin edilməsidir. Bu səbəbdən tədqiqatın ikinci sualının cavablandırılması kontekstində iqtisadi rayonlar üzrə proporsionallıq əmsallarının dinamikasının təhlili labüddür.

Cədvəl 3


Azərbaycanın iqtisadi rayonlarında pərakəndə ticarət dövriyyəsi üzrə proporsionallıq əmsallarının dinamikası

	2018	2019	2020	2021	2022	2023	2024
X_1	7,85	7,90	8,04	8,04	8,13	8,38	8,50
X_2	0,62	0,59	0,58	0,55	0,47	0,27	0,27
X_3	0,55	0,57	0,58	0,68	0,76	0,77	0,76
X_4	0,26	0,26	0,25	0,24	0,23	0,22	0,22
X_5	0,59	0,59	0,58	0,58	0,56	0,55	0,54
X_6	0,36	0,36	0,33	0,33	0,34	0,34	0,35
X_7	0,55	0,54	0,53	0,53	0,53	0,51	0,50
X_8	0,47	0,48	0,47	0,46	0,45	0,44	0,44
X_9	0,67	0,66	0,62	0,61	0,61	0,59	0,57
X_{10}	0,78	0,77	0,74	0,72	0,68	0,66	0,63
X_{11}	0,35	0,35	0,35	0,35	0,35	0,34	0,33
X_{12}	0,47	0,47	0,46	0,44	0,43	0,42	0,41
X_{13}	0,00	0,00	0,00	0,00	0,00	0,05	0,05
X_{14}	0,48	0,48	0,47	0,47	0,45	0,44	0,42

Mənbə: *Müəllifin hesablamaları*

Qeyd: *Proporsionallıq əmsallarının hesablana bilməsi üçün Şərqi Zəngəzur iqtisadi rayonunun (X_{13})2018-2022-ci illər arasındakı göstəriciləri 0 olaraq götürülmüşdür.*

Cədvəl 3 birmənalı olaraq Azərbaycanın iqtisadi rayonlarında pərakəndə ticarət dövriyyəsi üzrə ciddi disproporsionallığın olmasını bizə göstərir. Belə ki, 14 iqtisadi rayon üzrə pərakəndə ticarət dövriyyəsinin proporsionallıq əmsalının təhlil edilməsi nəticəsində görünür ki, 2024-cü ildə Bakı şəhərinin proporsionallıq əmsalı 8.50 olmuşdur. Bu onu göstərir ki, yerdə qalan 5.5-lik proporsionallıq 13 iqtisadi rayon arasında bölünmüşdür. Bu isə makroiqtisadi proporsionallıq çərçivəsində disbalansın formalaşdığını deməyə imkan verir. Digər tərəfdən, əgər cədvəl 2-də X_4, X_5, X_6, X_7, X_8, X_9, X_{10}, X_{11}, X_{12} və X_{14}-cü iqtisadi rayonlarda pərakəndə ticarət dövriyyəsinin 2024-cü ildə 2018-ci ilə nisbətdə artdığını göstərirdisə, cədvəl 3 artımın optimal proporsionallığın qorunmasına dəstək verməməsini əksinə disproporsionallığı dərinləşdirməsini şərtləndirdiyini göstərir. Bu da onu deməyə əsas verir ki, proporsionallıq əmsalları çərçivəsində təhlilin aparılması bəsit statistik təhlil ilə müqayisədə real mənzərənin tədqiq edilməsi üçün daha çox informasiya vermə qabiliyyətinə malikdir.



Şəkil 1. Azərbaycanın iqtisadi rayonlarında pərakəndə ticarət dövriyyəsi üzrə proporsionallıq əmsallarının vizuallaşdırılması

Mənbə: *Müəllifin tərəfindən vizuallaşdırılmışdır*

Qeyd: ** işarəsi Bakı şəhərini təmsil edir*

Yuxarıdakı şəkil 1 Azərbaycanın iqtisadi rayonlarında pərakəndə ticarət dövriyyəsi üzrə proporsionallıq əmsallarının vizuallaşdırılmasını özündə ehtiva edir. Buradan da aydın şəkildə görünməkdədir ki, Bakı şəhəri digər 13 iqtisadi rayondan tamamilə fərqlənməkdədir ki, bu da pərakəndə ticarət dövriyyəsi üzrə regionalararası makroiqtisadi proporsionallığın pozulmasını deməyə imkan verir. Bu disproporsionallığın səbəbinin aşkarlanması gələcək tədqiqatlar üçün önəmli tədqiqat sualı ola bilər.

NƏTİCƏ

Tədqiqat nəticəsində müəyyən edilmiş 2 tədqiqat sualına müvafiq olaraq müxtəlif nəticələr əldə edilmişdir. Belə ki, birinci tədqiqat sualı çərçivəsində Azərbaycanda iqtisadi rayonlar üzrə pərakəndə ticarət dövriyyəsinin artması müəyyən edilsə də, ikinci tədqiqat sualı çərçivəsində regional müstəvidə çox ciddi disproporsionallıq müşahidə edilmişdir. Bu onu deməyə imkan verir ki, əsas pərakəndə ticarət dövriyyəsi Bakı şəhəri üzərində mərkəzləşmişdir. Sözügedən problemin sistemli təhlil edilməsi üçün regionlar üzrə məşğulluq və əhalinin gəlirləri kimi göstəricilərin gələcək tədqiqatlarda təhlil edilməsi zəruridir.

İstifadə edilmiş ədəbiyyat:

1. Шахбазов, У.Г. (2011). Инвестиции как фактор обеспечения макроэкономических пропорций в экономике Азербайджана. Перспективы науки, (8), 192-197.

2. Ведута, Е.Н., & Джакубова, Т.Н. (2016). Экономическая наука и экономико-математическое моделирование. Государственное управление. Электронный вестник, (57), 287-307.

3. Colacchio, G. (2005). On the origins of non-proportional economic dynamics: A note on Tugan-Baranowsky's traverse analysis. Structural Change and Economic Dynamics, 16(4), 503-521

4. Линг, В. В. (2015). Формирование направлений оптимизации оборота розничной торговли коммерческого предприятия. Экономика и предпринимательство, (9-1), 1053-1060.

5. Васильчук, Е.С., Рухманова, Н.А., & Михеева, А.В. (2018). Анализ и оценка тенденций развития розничной торговли в регионе. Инновационная экономика: перспективы развития и совершенствования, (1 (27)), 32-39.

6. Репринцева, Е.В. (2022). Региональные особенности розничной торговли в текущих экономических условиях. Наука и практика регионов, (1 (26)), 41.

7. Золотова, Л.В., & Портнова, Л.В. (2013). Статистическая оценка социально-экономического развития Оренбургской области на примере оборота розничной торговли. Научные труды Вольного экономического общества России, 174, 128-137.

8. Цветков, В.А., Абрамов, Е.Г., & Майорова, Е.А. (2025). Влияние состояния торговой отрасли на оборот розничной торговли в регионах России. Экономика региона, 21(1), 70-84.

9. Kenjayeva, S. (2025). Development Trends and Analysıs of Regional Retail Trade Turnover. International Journal of Artificial Intelligence, 1(4), 2676-2679.

10. Arnerić, J., Časni, A. Č., & Čular, M. (2015). Adjusting for calendar effects of real retail trade turnover time series. Croatian operational research review, 305-319.

11. Kozlovskij, V. (2024). Assessment of Baltics states regional Economic disparities according to GDP. Journal of Eastern European and Central Asian Research (JEECAR), 11(5), 887-902.

12. Hryhoruk, P., Khrushch, N., Grygoruk, S., Gorbatiuk, K., & Prystupa, L. (2021). Assessing the impact of covid-19 pandemic on the regions' socio-economic development: The case of Ukraine. European Journal of Sustainable Development, 10(1), 63-63.

13. Jamalova, M., & Bálint, C. (2023). What Matters the Most? Exploratory Analysis of Environmental and Situational Variables Influencing Performance of Students During COVID-19 Pandemic. International Journal of Emerging Technologies in Learning (Online), 18(2), 159.

14. Jamalova, M., & Bálint, C. (2022). Modelling students' adoption of E-learning during the COVID-19 pandemic: Hungarian perspective. International Journal of Emerging Technologies in Learning (iJET), 17(7), 275-292.

A.J.Azimzadeh
PhD Student, Baku Eurasian University
lecturer, Odlar Yurdu University
ORCID 0000-0003-1441-440X

Analysis of retail trade turnover by economic regions of Azerbaijan: a macroeconomic proportional approach

Abstract

Macroeconomic proportional analysis is more effective due to its information-providing ability. On the other hand, the analysis of retail trade turnover is characterized by obtaining rich indicative data. The research work used the quantitative research method and analyzed the retail trade turnover in the economic regions of Azerbaijan within the framework of the methodology for calculating proportionality coefficients proposed by the author. Within the framework of the first research question, a stable growth trend of retail trade turnover is observed in the economic regions of Azerbaijan. However, the results obtained on the basis of the second research question of the research work allow us to say that there is a high level of disproportionality in retail trade turnover in the economic regions of Azerbaijan. It is the data obtained through the macroeconomic proportional approach that can form an indicator base for long-term strategic planning of the national economy at the regional level, which allows us to say that the research work has practical significance. The limitations of the study can be characterized by the lack of analysis of a wider database, including quarterly indicators.

Keywords: *macroeconomic proportions, disproportionality, retail trade turnover, COVID-19, strategic planning.*

https://doi.org/10.58225/tim.2025-4-264-266

G.N.Həsənova
müəllim, Azərbaycan Memarlıq və İnşaat Universiteti PHŞ
ORCID 0000-0002-8620-0163
gunel_ns@mail.ru

Məqalə redaksiyaya daxil olub 02.11.2025
The article was received by editorial board on 02.11.2025
Статья принята к печати 02.11.2025

AZƏRBAYCANDA ENERJİ RESURSLARININ İDARƏ OLUNMASI

Xülasə

Məqalədə Azərbaycanın enerji resurslarının iqtisadi inkişafda, sosial rifahın təminində və milli təhlükəsizlikdə oynadığı rol təhlil olunur. Ölkənin enerji potensialı əsasən neft, qaz və bərpa olunan enerji mənbələrinə əsaslanır. 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" nəticəsində enerji sektoru modernləşmiş, xarici sərmayələrin cəlbi və beynəlxalq əməkdaşlıq genişlənmişdir. Məqalədə həmçinin bərpa olunan enerji mənbələrinin – günəş, külək, su, biokütlə və geotermal enerjinin inkişaf istiqamətləri göstərilir. Son illərdə həyata keçirilən "Yaşıl enerji zonaları" və "yaşıl keçid" strategiyası çərçivəsində Azərbaycanın enerji istehsalında ekoloji səmərəliliyin artırılması prioritet kimi qeyd olunur.Cədvəldə 2019–2024-cü illər üzrə statistik məlumatlar əsasında neft, qaz və bərpa olunan enerji göstəricilərinin dinamikası təqdim edilmişdir. Nəticə olaraq, ölkədə enerji sektorunun dayanıqlı idarə olunması və bərpa olunan mənbələrin payının artırılması istiqamətində mühüm nailiyyətlər əldə olunduğu vurğulanır.

Açar sözlər: *enerji resursları, enerji siyasəti,davamlı inkişaf,enerji təhlükəsizliyi, bərpa olunan enerji, günəş enerjisi,külək enerjisi,su enerjisi,biokütlə enerjisi, geotermal enerji, enerji ixracı,enerji səmərəliliyi,yaşıl enerji zonaları, ekoloji dayanıqlıq, iqtisadi diversifikasiya.*

GİRİŞ

Enerji resursları hər bir ölkənin iqtisadi inkişafında və sosial rifahının təmin edilməsində mühüm rol oynayır. Müasir dövrdə enerji yalnız iqtisadi güc göstəricisi deyil, həm də milli təhlükəsizlik, ekoloji sabitlik və davamlı inkişafın əsas təminatçılarından biridir. Azərbaycan da zəngin enerji ehtiyatlarına malik ölkə kimi bu sahədə mühüm strateji mövqeyə sahibdir. Lakin qlobal iqlim dəyişmələri, enerji təhlükəsizliyi və ekoloji dayanıqlıq məsələləri bu resursların idarə olunmasına yeni yanaşmaların tətbiqini zəruri edir.

Azərbaycanda enerji resurslarının idarə olunması həm ənənəvi (neft, qaz), həm də bərpa olunan enerji mənbələrinin (günəş, külək, biokütlə və s.) səmərəli istifadəsinə əsaslanır. Bu istiqamətdə dövlət siyasətinin əsas məqsədi enerji sektorunun modernləşdirilməsi, iqtisadiyyatın diversifikasiyası və "yaşıl keçid" strategiyasının həyata keçirilməsidir.

Azərbaycan Respublikasının enerji potensialı əsasən neft, qaz və bərpa olunan enerji ehtiyatlarından ibarətdir. Ölkə dünyada neft və qaz hasil edən və ixrac edən aparıcı dövlətlərdən biridir. 2023-cü il statistikasına görə, ölkənin ümumi neft hasilatı ildə təxminən 38 milyon ton, təbii qaz hasilatı isə 35 milyard kubmetr civarındadır. Neft və qaz sektoru ölkə iqtisadiyyatının 40%-ni, dövlət gəlirlərinin isə təxminən 45%-ni təmin edir.

Azərbaycanın enerji sektorunun əsas hissəsini neft və təbii qaz təşkil edir. 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" ölkənin enerji strategiyasında dönüş nöqtəsi olmuş, xarici sərmayələrin cəlbi və beynəlxalq enerji əməkdaşlığının genişlənməsinə şərait yaratmışdır.

Hazırda ölkədə əsas enerji hasilatı "Azəri-Çıraq-Günəşli" yatağında həyata keçirilir. "Şahdəniz" qaz-kondensat yatağı isə regionda ən iri təbii qaz mənbələrindən biridir. Azərbaycan qaz resurslarını "Cənub Qaz Dəhlizi" vasitəsilə Avropaya ixrac etməklə enerji təhlükəsizliyində strateji rol oynayır.

Cədvəl 1

Azərbaycanın enerji resursları üzrə əsas göstəriciləri (2019–2024)


İl	Neft hasilatı (milyon ton)	Təbii qaz hasilatı (milyard m^3)	Elektrik enerjisi istehsalı (mlrd kVt·saat)	Bərpa olunan enerjinin payı (%)	İxrac olunan enerji məhsulları (mlrd ABŞ $)
2019	37,5	33,1	25,8	2,5	15,2
2020	34,9	36,0	26,4	2,8	13,7
2021	37,1	34,8	27,3	3,0	18,2
2022	38,0	35,3	28,0	3,5	22,5
2023	38,2	35,0	29,1	4,2	24,8
2024	37,8	36,5	30,0	5,1	25,6

Mənbə: *Azərbaycan Respublikası Energetika Nazirliyi, Dövlət Statistika Komitəsi*

Neft hasilatı 2024-cü ildə 37,8 milyon ton təşkil etmiş, nisbətən sabit səviyyədə qalmışdır. Təbii qaz hasilatı artaraq 36,5 milyard kubmetrə çatmış, bu da "Şahdəniz" və "Abşeron" layihələrinin genişlənməsi ilə əlaqədardır. Elektrik enerjisi istehsalı ilbəil artaraq 30 mlrd kVt·saat səviyyəsinə yüksəlmişdir. Enerji ixracı dəyəri 2024-cü ildə 25,6 milyard ABŞ dollarına yüksələrək rekord səviyyəyə çatmışdır. Son illərdə Azərbaycan bərpa olunan enerji sektorunun inkişafına xüsusi önəm verməyə başlamışdır. 2024-ci ilin sonu üzrə statistik məlumatlara əsasən, ölkədə bərpa olunan enerji istehsalının payı elektrik enerjisi istehsalında 5,1%-ə çatmış dir. BMT-nin 2030 Davamlı İnkişaf Məqsədləri ilə uyğun olaraq, ölkə "Yaşıl Enerji Zonaları" yaratmaq istiqamətində ardıcıl addımlar atır. [1]

Bərpa olunan enerjinin əsas istiqamətləri:

1. Günəş enerjisi (Şəki, Qobustan, Naftalan günəş stansiyaları)
2. Külək enerjisi (Xəzər dənizi sahilində və Abşeron yarımadasında)
3. Su enerjisi (Kiçik və orta HES-lər)
4. Biokütlə və geotermal enerji potensialı



Azərbaycan Respublikasında enerji resurslarının idarə olunması dövlətin enerji siyasətinin mərkəzində dayanır.

İstifadə edilmiş ədəbiyyat:

1. Dövlət Statistika Komitəsi (2023), BMT 2030 Məqsədləri (2015).

2. Azərbaycan Respublikasının Energetika Nazirliyi. "Azərbaycanın Enerji Strategiyası 2022–2030". Bakı, 2022.

3. Azərbaycan Respublikasının Dövlət Energetika Tənzimləmə Agentliyi (AERA). İllik Hesabat 2022.

4. International Energy Agency (IEA). "Azerbaijan Energy Profile", 2022.

5. Ministry of Ecology and Natural Resources of Azerbaijan. "Azərbaycanın İqlim Dəyişikliyi və Enerji Sektoru", 2021.

6. United Nations Development Programme (UNDP). "Sustainable Energy for All: Azerbaijan Report, 2020.

7. "Alternative and Renewable Energy in Azerbaijan: Potential and Prospects", Azerbaijan Energy Research Center, 2019.

G.N.Hasanova
teacher, Azerbaijan University of Architecture and Construction
ORCID 0000-0002-8620-0163

Energy resources management in Azerbaijan

Abstract

Avtomatlaşdırma müəssisələrdə iş proseslərinin daha səmərəli təşkili üçün əsas mexanizmdir. RPA, IoT və AI kimi sistemlər vasitəsilə istehsal prosesləri təkmilləşdirilir, insan səhvləri azalır, məhsuldarlıq artır. Proseslərin avtomatlaşdırılması müəssisəyə işçi resurslarını daha strateji fəaliyyətlərə yönəltməyə imkan verir. Rəqəmsal transformasiya kontekstində avtomatlaşdırma müəssisələrin əməliyyat proseslərini yenidən formalaşdıran ən təsirli amillərdən biridir. Ənənəvi istehsal və xidmət proseslərində insan müdaxiləsinin yüksək olması həm xərclərin artmasına, həm də proseslərin ləngiməsinə səbəb olurdu. Avtomatlaşdırma texnologiyalarının tətbiqi isə bu məhdudiyyəti aradan qaldıraraq fəaliyyətin sürətini, dəqiqliyini və sabitliyini təmin edir. RPA (Robotic Process Automation) vasitəsilə təkrarlanan əməliyyatlar avtomatik şəkildə yerinə yetirilir və bu, əməliyyatların keyfiyyətində əhəmiyyətli dərəcədə stabillik yaradır [6, s.50-51]. IoT (Əşyaların İnterneti) texnologiyası isə müəssisənin istehsal avadanlıqları, anbar sistemi, logistika əməliyyatları və enerji sərfiyyatı barədə real vaxt məlumatı təqdim edir. IoT cihazları prosesləri yalnız avtomatlaşdırmır, həm də monitorinqi təkmilləşdirir. Məsələn, istehsal xətlərində sensorlar vasitəsilə avadanlığın yüklənmə səviyyəsi, temperaturu, vibrasiyası və enerji istehlakı izlənilir. Bu məlumatlar əsasında müəssisə avadanlıq nasazlığını əvvəlcədən müəyyənləşdirir və planlaşdırılmamış dayanma vaxtlarını minimuma endirir. Süni intellekt (AI) bu sistemlərin növbəti inkişaf mərhələsidir. AI proseslərin yalnız avtomatlaşdırılmasını deyil, həm də optimallaşdırılmasını təmin edir. AI alqoritmləri istehsal qrafiklərini yenidən qurur, xammal sərfiyyatını optimallaşdırır, istehsal gücünün bölüşdürülməsini təkmilləşdirir və sürətlə dəyişən bazar tələbinə uyğun çevik istehsal modeli yaradır. Bu, həm istehsal səmərəliliyini artırır, həm də məhsul keyfiyyətində sabitlik yaradır. Avtomatlaşdırma həmçinin müəssisənin iqtisadi modelinə də təsir göstərir. Proseslərin sürətlənməsi, işçi resurslarının optimallaşdırılması, səhvlərin azalması və əməliyyatların daha sabit idarəedilməsi nəticəsində müəssisə əməliyyat xərclərini əhəmiyyətli dərəcədə azaldır. Eyni zamanda, avtomatlaşdırılmış əməliyyatlar vasitəsilə müəssisə daha qısa müddətdə daha çox məhsul və ya xidmət istehsal edə bilir ki, bu da birbaşa olaraq məhsuldarlığın artımına gətirib çıxarır. Əmək resurslarının strateji fəaliyyətlərə yönəldilməsi də avtomatlaşdırmanın mühüm üstünlüklərindəndir. RPA və AI sistemləri sayəsində işçilər təkrar əməliyyatlardan azad olunur və analitik, yaradıcılıq tələb edən işlərə yönəlirlər. Bu, işçi motivasiyasını artırmaqla yanaşı, müəssisədə innovasiya mühitinin güclənməsinə də şərait yaradır.

Big Data analitikası müştəri davranışlarını, satış trendlərini, istehsal proseslərini daha dəqiq analiz etməyə imkan verir. Müəssisələr böyük həcmli məlumatlar əsasında tələb proqnozu hazırlayır,

xərcləri optimallaşdırır və riskləri azaldır. Rəqəmsal transformasiyanın ən strateji komponentlərindən biri məlumat əsaslı idarəetmə modelidir. Big Data texnologiyaları müəssisələrə çox böyük həcmli məlumatları real vaxtda emal etmək və dəyər yaratmaq imkanı verir. Ənənəvi idarəetmə metodlarında məlumatlar ya natamam olurdu, ya da gecikmiş şəkildə rəhbərliyə çatırdı. Big Data analitikası isə qərarvermənin obyektivliyini artırır, çünki bütün qərarlar faktiki rəqəmlərə əsaslanır. Məlumat əsaslı idarəetmə həm daxili proseslərə, həm də bazar mühitinə daha aydın baxış yaradır. Satış trendlərinin analizi müəssisəyə mövsümi dəyişiklikləri, müştəri davranışlarını və bazar boşluqlarını müəyyən etməyə imkan verir. Eyni zamanda, istehsal məlumatlarının analizi xərclərin strukturunu dərinliklə qiymətləndirməyə, israfı müəyyən etməyə və istehsal gücünün optimallaşdırılmasına şərait yaradır. Big Data ilə inteqrasiya olunan süni intellekt modelləri müəssisəyə proqnozlaşdırıcı analitika imkanları yaradır. Proqnozlaşdırıcı analitika gələcək satışları, xammal ehtiyacını, istehsal gücünü və riskləri qabaqcadan müəyyən edir ki, bu da strateji planlaşdırmanı daha dəqiq edir. Bundan əlavə, risklərin identifikasiyası və qiymətləndirilməsi real vaxtda aparıldığı üçün müəssisə qeyri-müəyyənlik şəraitində daha dayanıqlı idarəetmə modeli qurur [7, s.315].

Aşağıdakı cədvəl müxtəlif sahələrdə rəqəmsal analitik platformaların tətbiq səviyyəsini və onların əməliyyat nəticələrinə təsirini ümumiləşdirir. Cədvəl rəqəmsal analitikanın yalnız texnoloji yenilik olmadığını, həm də müəssisənin əməliyyat modelini köklü şəkildə dəyişən strateji vasitə olduğunu göstərir. Müxtəlif sahələr üzrə tətbiq səviyyəsinin fərqli olması bu texnologiyaların sektorların spesifik ehtiyaclarına uyğunlaşmasını və rəqəmsal transformasiya tempinin müxtəlifliyini nümayiş etdirir.

Cədvəl 2

Analitik platformaların müəssisələrdə tətbiqi

Sahə	Rəqəmsal tətbiq səviyyəsi	Nəticə
İstehsal	62%	Material itkisi azaldı
Pərakəndə satış	54%	Tələb proqnozu yaxşılaşdı
Logistika	48%	Çatdırılma vaxtı azaldı
Bank sektoru	90%	Risk hesablama dəqiqliyi artdı

Cədvəldə göstərilən göstəricilər müəssisələrin fəaliyyət sahələrinə görə rəqəmsal analitika tətbiqinin müxtəlif səviyyələrdə inkişaf etdiyini göstərir. İstehsal sektorunda rəqəmsal tətbiq səviyyəsinin 62% olması bu sahədə IoT sensorları, istehsal analitikası və avtomatlaşdırılmış monitorinq sistemlərinin geniş istifadə olunduğunu göstərir. Nəticədə material itkisi əhəmiyyətli dərəcədə azalır, çünki xammal axını real vaxtda izlənilir və prosesdəki israf nöqtələri aşkarlanır. Pərakəndə satış sektorunda tətbiq səviyyəsinin 54% olması Big Data ilə dəstəklənən tələb proqnozlaşdırma sistemlərinin inkişaf etdiyini göstərir. Müştəri davranışlarının analizi satış strategiyalarının optimallaşdırılmasına, məhsul yerləşdirilməsi və qiymətqoyma siyasətinin təkmilləşdirilməsinə imkan yaradır. Logistika sahəsində rəqəmsal tətbiq səviyyəsinin 48% olması proseslərin tam rəqəmsallaşmağa yeni başlamasını göstərir. Bununla belə, tətbiq edilən analitik platformalar çatdırılma vaxtının azalmasına, marşrut optimallaşdırmasına və nəqliyyat vasitələrinin yüklənmə balansının yaxşılaşdırılmasına imkan yaradır. Bank sektorunda rəqəmsal tətbiqin 90% olması bu sahənin ən çox rəqəmsallaşan sahələrdən biri olduğunu təsdiq edir. Burada analitik sistemlər risklərin hesablanması, kredit portfellərinin təhlili, müştəri davranışlarının qiymətləndirilməsi və fırıldaqçılıq hallarının aşkarlanması kimi həlledici sahələrdə tətbiq olunur. Bu isə bank sektorunun daha dayanıqlı və etibarlı fəaliyyət göstərməsinə şərait yaradır.

Azərbaycanda və dünyada rəqəmsal transformasiya təcrübəsinin müqayisəli təhlili

Azərbaycan müəssisələrində rəqəmsal texnologiyaların tətbiqi son illərdə müşahidə olunan iqtisadi modernləşmə proseslərinin əsas tərkib hissələrindən birinə çevrilmişdir. Xüsusilə, sənaye,

bankçılıq, logistika və xidmət sahələrində rəqəmsal həllərin tətbiqi artmaqda davam edir. Bu artım həm dövlətin rəqəmsal iqtisadiyyat siyasəti, həm də özəl sektorun rəqabət qabiliyyətini yüksəltmək niyyəti ilə əlaqədardır. Azərbaycan müəssisələrində rəqəmsal transformasiya göstəricilərinə nəzər salsaq, ERP sistemlərinin tətbiqi 45%, RPA həllərinin tətbiqi 22%, IoT sistemlərinin tətbiqi 18%, Cloud texnologiyalarının tətbiqi isə 67% təşkil edir. Bu rəqəmlər göstərir ki, müəssisələr xüsusilə bulud əsaslı texnologiyalara daha çox üstünlük verir, çünki bu sistemlər həm xərcləri azaldır, həm də elastikliyi artırır. Azərbaycanın rəqəmsallaşma prosesi əsasən iki istiqamətdə inkişaf edir:

1. daxili idarəetmə proseslərinin optimallaşdırılması;
2. müştəri yönümlü xidmətlərin rəqəmsallaşdırılması.

Daxili proseslərdə rəqəmsallaşma ERP, RPA və bulud həllərinin tətbiqi ilə müşahidə olunur. Müştəri yönümlü sistemlərdə isə CRM platformaları, mobil tətbiqlər və onlayn xidmət kanallarının genişləndirilməsi ön plana çıxır. Xüsusilə, bank sektorunda rəqəmsal texnologiyaların tətbiqi yüksək səviyyədədir və bu sektor Azərbaycanın digər sahələrinə nisbətən rəqəmsal yenilikləri daha sürətlə mənimsəyir. Bununla belə, Azərbaycan müəssisələrinin beynəlxalq təcrübə ilə müqayisədə rəqəmsal transformasiya səviyyəsi nisbətən aşağıdır. ABŞ, Almaniya, Yaponiya və Sinqapur kimi ölkələrdə rəqəmsal adoptasiya səviyyəsi daha yüksəkdir və geniş miqyaslı avtomatlaşdırma, süni intellekt analitikası, robotlaşdırılmış istehsal xətləri və IoT əsaslı monitorinq sistemləri sənayenin adi tərkib hissəsinə çevrilmişdir. Məsələn, Almaniyada Industry 4.0 strategiyası çərçivəsində sənaye müəssisələrinin 70%-dən çoxu IoT sensorları və avtomatlaşdırılmış istehsal xətləri tətbiq edir. ABŞ-da isə böyük müəssisələrin 80%-dən çoxu ERP və Big Data analitika platformalarından istifadə edir [8, s.120].

Azərbaycanla beynəlxalq təcrübə arasındakı əsas fərqlərdən biri resursların miqyasına və texnoloji investisiya gücünə bağlıdır. İnkişaf etmiş ölkələrdə rəqəmsal transformasiya dövlət və özəl sektor tərəfindən geniş dəstəkləndiyi üçün texnologiyaların tətbiqi daha sistematik və sürətlidir. Azərbaycan müəssisələri isə əsasən mərhələli inkişaf modelinə üstünlük verir: əvvəlcə ERP və Cloud həlləri kimi baza texnologiyaları tətbiq olunur, daha sonra AI, IoT və RPA kimi inkişaf etmiş texnologiyalara keçid edilir. Digər mühüm fərq rəqəmsal kadr potensialıdır. Beynəlxalq təcrübədə şirkətlərin böyük əksəriyyəti data analitikləri, süni intellekt mütəxəssisləri, IoT mühəndisləri və rəqəmsal transformasiya menecerlərini işə cəlb edir. Azərbaycanda isə bu sahələr üzrə kadr çatışmazlığı mövcuddur və şirkətlər çox vaxt xarici məsləhətçilərin xidmətindən istifadə etməli olurlar. Bunun nəticəsində rəqəmsal transformasiya layihələri həm daha çox zaman alır, həm də daha yüksək xərclə icra edilir.

Azərbaycanın üstünlüyü isə rəqəmsallaşma prosesində adaptasiya sürətinin yüksək olmasıdır. Yəni müəssisələr yeni texnologiyalara qarşı pozitiv yanaşır və dəyişiklikləri qəbul etməyə daha açıq davranırlar. Sürətlə artan startap ekosistemi, İKT sahəsinə dövlət dəstəyi, elektron hökumət sisteminin inkişafı və rəqəmsal xidmətlərə keçidin genişlənməsi ölkədə rəqəmsal transformasiyanın təməllərini gücləndirir. Bulud xidmətlərinin yüksək səviyyədə tətbiqi (67%) isə göstərir ki, müəssisələr xərcləri optimallaşdıran və çevik idarəetmə yaradan texnologiyalara üstünlük verirlər. Beynəlxalq təcrübənin müqayisəsi həm də onu göstərir ki, rəqəmsal transformasiya yalnız texnologiyaların tətbiqi ilə bitmir. Bu proses həm də idarəetmə mədəniyyətinin dəyişməsi, təşkilati strukturun çevikləşdirilməsi, məlumat əsaslı qərarvermə sisteminə keçid, innovasiya mühitinin yaradılması və insan resurslarının inkişaf etdirilməsini tələb edir. İnkişaf etmiş ölkələrdə rəqəmsal transformasiya çox vaxt uzunmüddətli strategiyalar əsasında həyata keçirilir və dövlət tərəfindən geniş dəstəklənir [9, s.156]. Azərbaycan isə bu istiqamətdə son illərdə ciddi addımlar atsa da, potensialın tam reallaşması üçün daha geniş ekosistem yanaşmasına ehtiyac var.

Bu kontekstdə Azərbaycan müəssisələrinin beynəlxalq təcrübədən istifadə etməsi, rəqəmsal savadlılığın artırılması, kadr hazırlığı proqramlarının genişləndirilməsi və rəqəmsal innovasiya mər-

kəzlərinin yaradılması zəruri sayılır. Əgər ölkədə rəqəmsal idarəetməyə keçid paralel şəkildə aparılarsa, rəqəmsal transformasiya nəticəsində əldə olunan iqtisadi faydalar həm mikro, həm də makro səviyyədə özünü göstərəcəkdir.

NƏTİCƏ

Aparılan tədqiqatın nəticələri göstərir ki, rəqəmsal transformasiya müasir müəssisə idarəetməsində əsas strateji inkişaf istiqamətlərindən birinə çevrilmişdir. Rəqəmsal texnologiyaların tətbiqi idarəetmə strukturlarının optimallaşdırılmasına, proseslərin çevikləşməsinə və resurslardan daha məqsədyönlü istifadə olunmasına şərait yaradır. Bu proses yalnız texnoloji yenilənmə deyil, həm də müəssisənin idarəetmə mədəniyyətinin dəyişməsi, qərarvermə mexanizmlərinin modernləşməsi və təşkilati davranışın rəqəmsal prinsiplərə uyğunlaşması ilə müşayiət olunur. ERP, CRM, RPA, IoT və Big Data kimi texnologiyalar müəssisələrə vahid məlumat bazası yaratmaq, əməliyyat fəaliyyətini avtomatlaşdırmaq, istehsal və xidmət keyfiyyətini yüksəltmək, həmçinin daha dəqiq və analitik əsaslandırılmış qərarlar vermək imkanı təqdim edir. Bu texnologiyaların inteqrasiyası əməliyyat xərclərinin azalmasına, proseslərin icra müddətinin qısalmasına, insan səhvlərinin minimuma endirilməsinə və məhsuldarlığın yüksəlməsinə gətirib çıxarır. Eyni zamanda, rəqəmsal transformasiya risklərin idarə olunmasını təkmilləşdirir, bazar tələblərinə adaptasiyanı sürətləndirir və müəssisənin innovasiya potensialını gücləndirir.

Azərbaycan müəssisələrinin rəqəmsal transformasiya təcrübəsi göstərir ki, ölkədə texnoloji yeniliklərə keçid mərhələli şəkildə həyata keçirilsə də, inkişaf dinamikası müsbətdir. Bulud texnologiyalarına, ERP sistemlərinə və analitik platformalara artırılan sərmayələr müəssisələrin rəqabət qabiliyyətini yüksəltmək üçün mühüm baza formalaşdırır. Bununla belə, beynəlxalq təcrübə ilə müqayisədə süni intellekt, IoT və RPA kimi daha qabaqcıl texnologiyaların tətbiqi hələ də genişləndirilməlidir.

Ümumiyyətlə, rəqəmsal transformasiyanın davamlı şəkildə inkişaf etdirilməsi müəssisələrin strateji üstünlüklər qazanması, dəyişən qlobal bazar şərtlərinə uyğunlaşması və uzunmüddətli iqtisadi dayanıqlığını təmin etməsi baxımından həlledici əhəmiyyət daşıyır. Bu çərçivədə texnoloji investisiyaların artırılması, rəqəmsal bacarıqların inkişafı və idarəetmədə innovativ yanaşmaların tətbiqi ölkə müəssisələrinin gələcək rəqabət qabiliyyətinin əsas təminatçısı olacaqdır.

İstifadə edilmiş ədəbiyyat:

1. Rzayev F. (2023). Rəqəmsal iqtisadiyyat və innovasiya menecmenti. Bakı: Elm və Təhsil Nəşriyyatı. 312 s.

2. Məmmədov Ş. (2022). İnformasiya texnologiyalarının biznes proseslərinə təsiri. Bakı: UNEC Nəşriyyatı. 204 s.

3. Əliyev E. (2021). Müasir müəssisə idarəetməsi və rəqəmsallaşma tendensiyaları. Bakı: Qafqaz Universiteti Nəşriyyatı. 178 s.

4. Hüseynov R. (2020). Elektron biznes və rəqəmsal texnologiyalar. Bakı: İqtisad Nəşriyyatı. 230 s.

5. Schwab K. (2020). The Fourth Industrial Revolution. World Economic Forum. 198 s.

6. Porter M., & Heppelmann, J. (2018). How Smart, Connected Products Are Transforming Competition. Harvard Business School Press. 156 s.

7. Laudon K., & Laudon, J. (2022). Management Information Systems: Managing the Digital Firm. Pearson. 648 s.

8. Davenport T. (2019). Analytics at Work: Smarter Decisions, Better Results. Harvard Business Review Press. 240 s.

9. Hammer M., & Champy, J. (2021). Reengineering the Corporation. Harper Collins. 272 s.

10. Brynjolfsson, E., & McAfee, A. (2016). The Second Machine Age. MIT Press. 324 s.

R.V.Yusufov
doctoral student, Azerbaijan State Oil and Industry University PLE

Evaluation of the impact of digital transformation on management structures and work processes in enterprises

Abstract

Digital transformation is accompanied not only by technological modernization, but also by a change in the strategic management philosophy of the enterprise. The article extensively analyzes the impact of technologies such as ERP, CRM, RPA, IoT, Big Data, Artificial Intelligence (AI), Cloud Computing and Digital Twin on management structures. At the same time, the article examines in detail the opportunities created by digital transformation for enterprise management, changes in management structures, automation of operational processes, data-based decision-making mechanisms and their impact on enterprise productivity. Based on the analytical assessment of Azerbaijani enterprises and comparison of international experience, the impact of digital transformation on efficiency indicators is modeled.

Keywords: *digital transformation, ERP, AI, IoT, RPA, Big Data, management structure, productivity, optimization, enterprise management.*

Tikintinin iqtisadiyyatı və menecment
2025-ci il. № 4 (33) -səh.347-350
L.Ə.Ələkbərova, C.T.İsmayıl,
C.Ə.Abdullayeva

Construction economics and management
2025, № 4 (33), pp.347-350
L.A.Alakbarova, C.T.Ismayil,
J.A.Abdullayeva

https://doi.org/10.58225/tim.2025-4-347-350

L.Ə.Ələkbərova
baş müəllim, Azərbaycan Memarlıq və İnşaat Universiteti
ORCID 0000-0002-3898-3941
lala.alakbarova@azmiu.edu.az
C.T.İsmayıl
magistrant, Azərbaycan Memarlıq və İnşaat Universiteti
C.Ə.Abdullayeva
magistrant, Azərbaycan Memarlıq və İnşaat Universiteti
ORCID 0009-0000-2604-2979
J.Abdullayeva@rahattour.com

Məqalə redaksiyaya daxil olub 14.09.2025
The article was received by editorial board on 14.09.2025
Статья принята к печати 14.09.2025

MÜASİR İDARƏETMƏDƏ STRATEJİ QƏRARLARIN QƏBULUNDA İNFORMASİYANIN ROLU

Xülasə

Müasir idarəetmə proseslərində strateji qərarların qəbulunda informasiyanın rolu böyükdür. İnformasiya, həm təşkilatın daxili potensialını, həm də bazar şəraitini dəqiq qiymətləndirməyə imkan verərək qərarların daha səmərəli və effektiv olmasını təmin edir. Bu məqalədə strateji qərarların qəbulunda informasiya sistemlərinin rolu, məlumatların toplanması, işlənməsi və təhlili kimi aspektlər müzakirə olunur. Həmçinin, məlumatın keyfiyyəti və etibarlılığına diqqət yetirilərək idarəetmədə düzgün qərarların qəbuluna təsiri analiz edilir.

Açar sözlər: *strateji qərar, informasiya, idarəetmə, informasiya sistemi, qərar qəbuletmə.*

GİRİŞ

Müasir dövrdə qlobal rəqabətin artması, iqtisadi mühitin sürətlə dəyişməsi, texnoloji yeniliklər və rəqəmsal transformasiya təşkilatların idarəetmə mexanizmlərinə birbaşa təsir göstərir. Belə bir şəraitdə strateji qərarların düzgün və vaxtında qəbul edilməsi müəssisələrin davamlı inkişafının, rəqabət üstünlüyünün və uzunmüddətli məqsədlərinin əldə edilməsinin əsas şərtinə çevrilmişdir. Strateji qərarların qəbulunda informasiya xüsusi əhəmiyyət kəsb edir. Çünki informasiya həm idarəetmənin təməl resursu, həm də qərarvermə prosesinin əsas dayaq nöqtəsidir.

Məqalədə müasir idarəetmədə strateji qərarların qəbulunda informasiyanın rolu, informasiya sistemlərinin əhəmiyyəti, rəqəmsallaşmanın gətirdiyi yeniliklər və informasiya çatışmazlığının yaratdığı risklər ətraflı şəkildə təhlil olunur.

1. Strateji qərarların qəbulunda informasiya anlayışı və mahiyyəti

Strateji qərarlar uzunmüddətli məqsədlərə xidmət edən, təşkilatın gələcək inkişaf trayektoriyasını müəyyən edən mühüm idarəetmə qərarlarıdır. Bu qərarların qəbulunda istifadə olunan informasiya isə obyektiv, dolğun, vaxtında əldə olunan və etibarlı olmalıdır.

İnformasiya strateji idarəetmədə aşağıdakı funksiyaları yerinə yetirir:

1. analitik funksiya: Mövcud vəziyyətin təhlili üçün əsas baza rolunu oynayır;
2. proqnostik funksiya: Gələcək tendensiyaların müəyyənləşdirilməsinə imkan verir;
3. koordinasiyaedici funksiya: Təşkilat daxilində fəaliyyətlərin uyğunlaşdırılmasını təmin edir;
4. nəzarət funksiya: Strateji məqsədlərdən kənara çıxmaların vaxtında aşkar edilməsinə şərait yaradır.

Beləliklə, informasiya təkcə məlumat toplusu deyil, həm də idarəetmənin rasional şəkildə qurulmasına imkan yaradan strateji alətdir.

2. Müasir idarəetmədə informasiya resurslarının əhəmiyyəti

Rəqəmsal cəmiyyətə keçidin sürətlənməsi informasiya resurslarının təşkilatların ən dəyərli aktivlərindən birinə çevrilməsinə səbəb olmuşdur. İnformasiya resursları aşağıdakılardan ibarət ola bilər:

1. bazarda tələb və təklif barədə məlumatlar;
2. rəqiblərin fəaliyyəti ilə bağlı analitik informasiyalar;
3. təşkilatın daxili əməliyyat məlumatları;
4. maliyyə göstəriciləri və statistik məlumatlar;
5. müştəri davranışları haqqında analitika;
6. makroiqtisadi və hüquqi məlumatlar.

Bu resurslardan səmərəli istifadə edən təşkilatlar daha dəqiq proqnozlaşdırma apara bilir və riskləri minimuma endirir. İnformasiya resurslarının səmərəli idarə edilməsi strateji düşüncə tərzinin formalaşmasına da birbaşa təsir edir.

3. İnformasiya sistemləri və onların strateji qərarlara təsiri

Müasir idarəetmədə informasiya sistemlərinin rolu əvəzolunmazdır. Təşkilatlarda istifadə olunan informasiya texnologiyaları və sistemləri aşağıdakı üstünlükləri təmin edir:

3.1. Məlumatların operativ və dəqiq emalı

Elektron informasiya sistemləri məlumatların əl ilə işlənməsinə nisbətən daha sürətli və daha az səhvlə emal edilməsinə şərait yaradır.

3.2. Analitik qərar dəstək sistemləri (Decision Support Systems – DSS)

Bu sistemlər müxtəlif ssenariləri modelləşdirməyə, risklərin qiymətləndirilməsinə və optimal qərarların seçilməsinə imkan verir.

3.3. Strateji informasiya sistemləri (SIS)

Bu tip sistemlər təşkilatın strateji məqsədlərinə uyğun olaraq informasiyanın toplanmasına, saxlanılmasına və təhlilinə xidmət edir.

3.4. İnformasiya təhlükəsizliyinin təmin edilməsi

Strateji informasiyanın qorunması təşkilatın davamlı fəaliyyətini təmin edən əsas şərtlərdəndir.

Beləliklə, informasiya sistemləri strateji qərar qəbul edən menecerlər üçün güclü dəstək vasitəsinə çevrilmişdir.

4. Rəqəmsal transformasiya və böyük verilənlərin (Big Data) rolu

Son illərdə böyük verilənlər texnologiyaları strateji idarəetmədə mühüm rol oynamağa başlamışdır. Big Data müəssisələrin:

a) müştəri davranışlarını daha dəqiq təhlil etməsinə;
b) tələb və bazar tendensiyalarını əvvəlcədən görməsinə;
c) konkret hədəf auditoriyası üçün strategiya formalaşdırmasına;
d) rəqabət üstünlüyü əldə etməsinə imkan verir.

Məsələn, böyük verilənlər analitikası vasitəsilə təşkilatlar minlərlə məlumat vahidini təhlil edərək daha optimal marketinq strategiyaları hazırlaya bilir.

5. İnformasiya çatışmazlığının strateji qərarlara mənfi təsiri

Strateji qərarların qəbulunda informasiya çatışmazlığı bir çox risklər yaradır:

1. yanlış proqnozlar;
2. səhv investisiya qərarları;
3. resursların səmərəsiz istifadəsi;
4. rəqabət qabiliyyətinin azalması;
5. təşkilatın mövqeyinin zəifləməsi.

Bundan əlavə, qeyri-dəqiq və ya natamam informasiya menecerləri subyektiv qərarverməyə məcbur edir ki, bu da strateji nəticələrin qeyri-müəyyənliyini artırır

6. İnformasiyanın keyfiyyət meyarları

Strateji idarəetmədə istifadə olunan informasiya aşağıdakı meyarlara cavab verməlidir:

Dəqiqlik – səhvsiz və obyektiv olmalıdır

Tamlıq – qərar üçün zəruri bütün məlumatları əhatə etməlidir

Operativlik – vaxtında təqdim edilməlidir

Etibarlılıq – mənbəyinə güvənilməlidir

Uyğunluq – mövzuya aid olmalıdır

Bu meyarlara cavab verməyən informasiya idarəetmə prosesində ciddi problemlərə səbəb ola bilər.

İnformasiya həcminin artması keyfiyyət məsələsini ön plana çıxarır. Çoxlu məlumata sahib olmaq kifayət deyil; Strateji qərarı uğurla qəbul etmək üçün məlumat aşağıdakı xüsusiyyətlərə malik olmalıdır: dəqiqlik, vaxtında olma, aktuallıq, tamlıq və etibarlılıq. Yanlış məlumat "informasiya həddindən artıq yüklənməsinə" səbəb olur ki, bu da qərar qəbuletməni ləngidir və çətinləşdirir. Aşağıdakı cədvəldə informasiya növlərinin strateji qərar qəbuletməyə təsiri ümumiləşdirilir:

Cədvəl 1

Strateji qərarların qəbulunda informasiya növlərinin təsiri

İnformasiya növü	**Mənbə növləri**	**Qərar qəbuluna təsiri**
Bazar təhlili	Sektor hesabatları, müştəri sorğuları	Yeni bazar seqmentlərinin seçilməsi, məhsul inkişafı
Rəqib verilənləri	Kəşfiyyat hesabatları, patent sənədləri	Rəqabət üstünlüyünün yaradılması, qiymət strategiyası
Daxili maliyyə	ERP sistemləri, mühasibatlıq verilənləri	Resursların bölüşdürülməsi, investisiya qərarları
Texnoloji trendlər	Elmi nəşrlər, texnoloji konfranslar	Rəqəmsal transformasiya strategiyası, innovasiya yönümlülüyü

İnformasiyaya əsaslanan SQQ modelinə keçid təşkilatlara bir sıra əhəmiyyətli üstünlüklər qazandırır. Bunlara rəqabət üstünlüyü (daha dəqiq proqnozlar), risk idarəetməsi (potensial risklərin erkən aşkarlanması) və daha sürətli qərar qəbulu (İT sistemləri vasitəsilə çevik reaksiya) daxildir. Lakin bu proses həmçinin ciddi çağırışlarla üzləşir. Bunlardan biri informasiyanın keyfiyyəti proble-

midir; böyük həcmdə verilənlərin yoxlanılması və təmizlənməsi mürəkkəbdir ("Zibil-içəri, zibil-xaricə" prinsipi). Digər mühüm çağırışlar kiber təhlükəsizlik və məxfilik məsələləridir.

NƏTİCƏ

Müasir idarəetmədə strateji qərarların qəbulunda informasiyanın rolu danılmazdır. İnformasiya qərarvermə prosesinin əsası olmaqla yanaşı, düzgün istifadə edildikdə təşkilatın dayanıqlı inkişafını, rəqabət qabiliyyətini və innovativ fəaliyyətini təmin edir. Rəqəmsal texnologiyaların inkişafı informasiya resurslarının əhəmiyyətini daha da artırmış, analitika və qərar dəstək sistemlərini strateji idarəetmənin ayrılmaz hissəsinə çevirmişdir.

Strateji qərarların keyfiyyəti bilavasitə informasiyanın keyfiyyətindən və informasiyanın necə idarə olunmasından asılıdır. Buna görə də hər bir təşkilat informasiya menecmentinə xüsusi diqqət yetirməli, müasir informasiya sistemlərinə investisiya etməli və informasiya təhlükəsizliyini yüksək səviyyədə təmin etməlidir.

İstifadə edilmiş ədəbiyyat:

1. Porter M. (2008). "Competitive Strategy: Techniques for Analyzing Industries and Competitors". Harvard Business Review Press.

2. Laudon K., Laudon J. (2020). "Management Information Systems: Managing the Digital Firm". Pearson Education.

3. Mintzberg H. (1994). "The Rise and Fall of Strategic Planning". Free Press.

4. Əliyev Ə. (2021). "Strateji idarəetmə və innovasiya". Bakı.

5. OECD. (2019). "Digital Transformation in the Modern Economy". OECD Publishing.

L.A.Alakbarova
senior lecturer, Azerbaijan University of Architecture and Construction
ORCID 0000-0002-3898-3941
C.T.Ismayil
master student, Azerbaijan University of Architecture and Construction
J.A.Abdullayeva
master student, Azerbaijan University of Architecture and Construction
ORCID 0009-0000-2604-2979

The role of information in strategic decision-making in modern management

Abstract

Information plays a major role in strategic decision-making in modern management processes. Information allows for an accurate assessment of both the internal potential of the organization and market conditions, ensuring that decisions are more efficient and effective. The article discusses the role of information systems in strategic decision-making, aspects such as data collection, processing and analysis. Also, its impact on making the right decisions in management is analyzed, paying attention to the quality and reliability of information.

Keywords: *strategic decision, information, management, information system, decision-making.*

https://doi.org/10.58225/tim.2025-4-351-357

X.Ə.Məmmədli
doktorant, Azərbaycan Dövlət Neft Sənaye Universiteti PHŞ
khaganimammadli1999@gmail.com

Məqalə redaksiyaya daxil olub 01.11.2025
The article was received by editorial board on 01.11.2025
Статья принята к печати 01.11.2025

RƏQƏMSAL TRANSFORMASİYANIN TƏCHİZAT ZƏNCİRİNDƏ ƏMƏLİYYAT XƏRCLƏRİNƏ TƏSİRİNİN EMPİRİK QİYMƏTLƏNDİRİLMƏSİ - AZƏRBAYCAN SƏNAYE MÜƏSSİSƏLƏRİ NÜMUNƏSİNDƏ

Xülasə

Sənaye müəssisələrinin sürətlə rəqəmsallaşması qlobal miqyasda təchizat zəncirlərinin quruluşunu və fəaliyyət mexanizmini köklü şəkildə dəyişdirmişdir. Bu tədqiqat rəqəmsal transformasiyanın Azərbaycan sənaye müəssisələrinin təchizat zəncirində əməliyyat xərclərinə iqtisadi təsirini empirik şəkildə araşdırır. Kvantitativ yanaşmaya əsaslanan tədqiqat çərçivəsində müəssisə səviyyəsində sorğu məlumatları toplanmış, rəqəmsal yetkinlik və xərc səmərəliliyi göstəriciləri qiymətləndirilmişdir. Rəqəmsal Yetkinlik İndeksi (DMI) ERP–SCM sistemlərinin inteqrasiyası, elektron sənəd dövriyyəsi, real vaxtda izləmə texnologiyaları, təchizatçı portalları və analitik alətlərin tətbiq səviyyəsi üzrə hesablanmışdır. Çoxsaylı xətti reqressiya təhlili nəticəsində rəqəmsal yetkinliklə əməliyyat xərcləri arasında mənfi və statistik cəhətdən əhəmiyyətli əlaqə müəyyən edilmişdir ki, bu da yüksək rəqəmsal inteqrasiyanın təchizat zənciri xərclərini azaltdığını təsdiqləyir. Ən güclü qənaət effekti ehtiyat saxlama və sifariş emalı xərclərində müşahidə olunmuş, texnologiya idxalına asılılıq isə bu effekti qısamüddətli dövrdə bir qədər zəiflətdiyi müəyyən edilmişdir.

Tədqiqat elmi ədəbiyyata xərc strukturu prizmasından yanaşma gətirməklə fərqlənir və inkişaf etməkdə olan ölkələr üçün rəqəmsallaşmanın maliyyə nəticələrinin qiymətləndirilməsində tətbiq edilə bilən model təqdim edir. Əldə olunan nəticələr Azərbaycanın sənaye sektoru üçün empirik baza formalaşdırır və dövlət siyasətinə dair bir sıra tövsiyələr irəli sürür. Tövsiyələrə ERP–SCM inteqrasiyasının təşviqi, rəqəmsal analitika bacarıqlarının inkişafı və milli "Rəqəmsal Yetkinlik İndeksi"nin yaradılması daxildir. Tədqiqat rəqəmsal transformasiyanın əməliyyat səmərəliliyi ilə iqtisadi qənaət arasında kəmiyyət əlaqəsini təsdiqləməklə, inkişaf etməkdə olan bazarlarda təchizat zəncirinin rəqəmsallaşmasının davamlı iqtisadi təsirlərinin uzunmüddətli öyrənilməsi üçün əsas yaradır.

***Açar sözlər**: rəqəmsal transformasiya, təchizat zəncirinin idarə edilməsi, əməliyyat xərcləri; ERP–SCM inteqrasiyası, Azərbaycan.*

GİRİŞ

Qlobal iqtisadiyyatın sürətlə rəqəmsallaşması müəssisələrin təchizat zənciri idarəetməsində köklü dəyişikliklərə səbəb olmuşdur. Rəqəmsal transformasiya yalnız yeni texnologiyaların tətbiqi deyil, eyni zamanda istehsal, logistika və paylama mərhələləri arasında məlumat axınının səmərəliliyini təmin edən strateji yenidənqurma prosesidir. Müasir müəssisələr üçün rəqabət üstünlü-

yü artıq fiziki aktivlərdən deyil, məlumat axını və çevik qərarvermə qabiliyyətindən formalaşır (Ivanov et al., 2021). Xüsusilə COVID-19 pandemiyası dövründə təchizat zəncirlərində yaranan fasilələr rəqəmsal alətlərin əhəmiyyətini daha da artırmışdır. Beynəlxalq Ticarət Təşkilatının (2023) hesabatına görə, rəqəmsallaşmış təchizat zənciri müəssisələrin əməliyyat dayanıqlığını orta hesabla 25 faiz yüksəltmişdir.

Rəqəmsal texnologiyaların – ERP, IoT, blokçeyn və süni intellekt əsaslı qərar dəstək sistemlərinin – tətbiqi logistika və satınalma xərclərinin azalmasına, resurs bölgüsünün optimallaşdırılmasına və planlaşdırma proseslərinin çevikləşməsinə şərait yaradır (Ghobakhloo, 2020). Bununla belə, bu dəyişikliklərin real iqtisadi təsirinin miqyası və istiqaməti ölkədən-ölkəyə fərqlənir. İnkişaf etməkdə olan iqtisadiyyatlarda rəqəmsal transformasiyanın maliyyə nəticələrinə təsiri hələ də tam empirik əsaslarla qiymətləndirilməmişdir (OECD, 2022).

Azərbaycan iqtisadiyyatı da bu tendensiyalardan kənarda qalmamışdır. 2021-ci ildən etibarən "Rəqəmsal Azərbaycan" strategiyası çərçivəsində sənaye və logistika sektorlarında rəqəmsallaşma layihələri genişləndirilmişdir. Lakin çoxsaylı müəssisələrdə rəqəmsal texnologiyaların tətbiqi xərclərin azalması ilə nəticələnməsə də, əməliyyat səmərəliliyi və qərarvermə keyfiyyətində müəyyən irəliləyişlər müşahidə edilmişdir. Bu fakt göstərir ki, rəqəmsal transformasiyanın iqtisadi səmərəlilik göstəricilərinə təsiri hələ də heterojen xarakter daşıyır və elmi qiymətləndirmə tələb edir.

Müasir tədqiqatlar göstərir ki, təchizat zəncirinin rəqəmsallaşma dərəcəsi əməliyyat xərclərinin strukturunda əhəmiyyətli dəyişikliklər yaradır. Xüsusən ehtiyat saxlama və sifariş emalı xərcləri rəqəmsal sistemlərin tətbiqi ilə azalma meyli göstərir (Bag et al., 2021). Bununla belə, texnologiya xərclərinin artması və işçi qüvvəsinin təliminə çəkilən resurslar bəzi hallarda ümumi qənaət effektini neytrallaşdıra bilər. Bu səbəbdən, rəqəmsal transformasiyanın xərclərə təsirini ölçmək üçün həm əməliyyat göstəricilərini, həm də strateji səmərəlilik faktorlarını nəzərə alan kompleks yanaşma tələb olunur.

Azərbaycan kimi inkişaf etməkdə olan iqtisadiyyatlarda bu mövzu iki səbəbdən aktuallıq qazanır. Birincisi, sənaye müəssisələrinin rəqəmsal yetkinlik səviyyəsi heterojendir və xərclərin azalma templəri sektorlar üzrə fərqlənir. İkincisi, yerli müəssisələrdə rəqəmsal transformasiyanın səmərəliliyini ölçmək üçün vahid qiymətləndirmə modeli mövcud deyil. Bu səbəbdən tədqiqatın əsas məqsədi rəqəmsal transformasiyanın təchizat zəncirində əməliyyat xərclərinə təsirini empirik olaraq qiymətləndirmək və Azərbaycan sənaye müəssisələri üçün tətbiq oluna bilən ölçmə modeli təklif etməkdir.

ƏDƏBİYYAT İCMALI

Rəqəmsal transformasiya müasir təchizat zənciri idarəetməsinin ən mühüm istiqamətlərindən birinə çevrilmişdir. Qlobal miqyasda bu proses yalnız texnoloji yenilənmə deyil, həm də müəssisələrin biznes modellərinin yenidən qurulmasını əhatə edir. He və əməkdaşlarının (2024) tədqiqatı göstərmişdir ki, rəqəmsallaşma səviyyəsi yüksəldikcə təchizat zəncirinin səmərəliliyi və aktiv dövriyyə göstəriciləri əhəmiyyətli dərəcədə yaxşılaşır. Müəlliflər panel məlumatlarından istifadə edərək Çin şirkətlərində rəqəmsal transformasiyanın əməliyyat xərclərini azaltdığını və proses çevikliyini artırdığını müəyyən etmişlər.

Tiwari və digərləri (2024) təchizat zəncirinin rəqəmsallaşmasını idarəetmə nəzəriyyələri kontekstində təhlil edərək qeyd edirlər ki, platforma əsaslı sistemlər və məlumat inteqrasiyası müəssisələr arasında əlaqələndirməni asanlaşdırır, sifariş emalı vaxtını qısaldır və logistika xərclərini azaldır. Bu nəticə Baycik və Tate (2024) tərəfindən dəstəklənir; onlar sənaye müəssisələrində rəqəmsal əməliyyat sistemlərinin tətbiqinin resurs bölgüsünü optimallaşdırdığını, lakin infrastruktur məhdudiyyətlərinin və insan kapitalının qeyri-bərabər inkişafının prosesin səmərəliliyini məhdudlaşdırdığını vurğulamışlar.

Jing (2024) rəqəmsal transformasiyanın təchizat zənciri inteqrasiyasına təsir mexanizmini araşdıraraq göstərmişdir ki, ERP və SCM sistemlərinin sinxronlaşdırılması idarəetmə səmərəliliyini artırır, məlumat asimmetriyasını azaldır və strateji qərarların dəqiqliyini yüksəldir. Müəllif bu təsiri "rəhbər-təchizatçı-müştəri" üçbucağında koordinasiya gücünün artması kimi şərh edir. Digər bir istiqamət – rəqəmsal transformasiyanın struktur dəyişmələrə təsiri – "The Impact of Digital Transformation on Supply Chain Concentration" (2024) adlı tədqiqatda araşdırılmışdır; orada göstərilmişdir ki, rəqəmsallaşma təchizat zəncirində şəbəkə konsentrasiyasını azaldaraq daha çox təchizatçı ilə işləməyə imkan yaradır və bu da əməliyyat risklərini paylayır.

Ədəbiyyatda rəqəmsal transformasiyanın təchizat zəncirində yaratdığı əsas təsirlər bir neçə istiqamətdə qruplaşdırılır. Birincisi, xərc optimallaşdırılması – ERP və analitik sistemlər məlumat təkrarlanmasını aradan qaldırmaqla idarəetmə və logistika xərclərini azaldır (He et al., 2024). İkincisi, əməliyyat çevikliyi – rəqəmsal izləmə və məlumat inteqrasiyası təchizat proseslərini real vaxtda izləməyə imkan verir, nəticədə qərarvermə çevikliyi artır (Tiwari et al., 2024). Üçüncüsü, dayanıqlılıq və şəffaflıq – blokçeyn əsaslı izlənilə bilənlik sistemləri məhsul mənşəyi və məsuliyyət zəncirini aydınlaşdırır, bu da korporativ etibarı gücləndirir (Baycik & Tate, 2024).

Lakin bu müsbət nəticələrə baxmayaraq, tədqiqatlarda bəzi məhdudiyyətlər qalmaqdadır. Baycik və Tate (2024) qeyd edirlər ki, rəqəmsal sistemlərə ilkin sərmayələr yüksək olduğundan, qısa müddətdə xərclərin azalması gözlənilən səviyyədə olmaya bilər. Eyni zamanda, inkişaf etməkdə olan ölkələrdə texnoloji infrastrukturun zəifliyi rəqəmsal alətlərin tam potensialla istifadəsini məhdudlaşdırır (OECD, 2022). Bu səbəbdən rəqəmsal transformasiyanın səmərəlilik nəticələri iqtisadi mühitin xüsusiyyətlərinə və idarəetmə mədəniyyətinə görə dəyişkəndir.

Azərbaycan kontekstində bu mövzu demək olar ki, tədqiq olunmamışdır. Mövcud tədqiqatlar əsasən rəqəmsallaşmanın ümumi iqtisadi artıma və sənaye strukturuna təsirini araşdırmış, lakin təchizat zəncirinin əməliyyat xərcləri kimi mikro səviyyəli göstəricilərə diqqət yetirməmişdir. Rəqəmsallaşma dərəcəsinin qiymətləndirilməsi üçün vahid indeks yanaşması da mövcud deyil. Buna görə, milli səviyyədə aparılacaq empirik araşdırmalar həm nəzəri, həm də praktik baxımdan elmi boşluğu doldura bilər.

Ədəbiyyatın ümumi tendensiyası onu göstərir ki, rəqəmsal transformasiya təchizat zəncirində dəyər yaradılmasının yeni mexanizmini formalaşdırır. Məlumat inteqrasiyası, avtomatlaşdırma və analitika texnologiyaları vasitəsilə xərclər azaldılır, proseslərin şəffaflığı artır və müəssisələr bazar dəyişikliklərinə daha çevik uyğunlaşır. Bu nəzəri və empirik nəticələr Azərbaycan sənaye müəssisələrində aparılacaq tədqiqat üçün konseptual baza rolunu oynayır və rəqəmsal transformasiyanın əməliyyat xərclərinə təsirinin ölçülməsi istiqamətində yeni yanaşmaların işlənməsinə zərurət yaradır.

- Bu tədqiqatın əsas məqsədi rəqəmsal transformasiyanın müəssisələrin təchizat zəncirində əməliyyat xərclərinə təsirini empirik şəkildə ölçməkdir. Metodologiya kvantitativ yanaşmaya əsaslanır və tədqiqat obyekti kimi Azərbaycanda fəaliyyət göstərən sənaye müəssisələrinin təchizat zənciri idarəetmə bölmələri seçilmişdir. Bu yanaşma rəqəmsal transformasiyanın təsirini xalis iqtisadi göstəricilərlə qiymətləndirməyə və eyni zamanda proseslərin səmərəlilik dəyişikliklərini ölçməyə imkan verir.
- Tədqiqat çərçivəsi və məlumat bazası
- Məlumatlar birbaşa müəssisələrdən sorğu yolu ilə toplanmışdır. Sorğu forması iki əsas bloku əhatə edir: birincisi, müəssisənin rəqəmsal transformasiya səviyyəsini müəyyən edən göstəricilər; ikincisi, əməliyyat xərclərinin son iki–üç ildəki dinamikasını əks etdirən kəmiyyət məlumatları. Məlumatların etibarlılığı üçün hər bir müəssisədən mühasibat və logistika bölmələrinin əməkdaşları tərəfindən təsdiq edilmiş rəqəmlər istifadə edilmişdir.

• Nümunə seçimi məqsədyönlü xarakter daşıyır və 50-dən çox sənaye müəssisəsini əhatə edir. Seçilən müəssisələr müxtəlif sahələrdə – qida sənayesi, tikinti materialları, kimya, tekstil və enerji avadanlıqları istehsalı – fəaliyyət göstərir. Bu müxtəliflik rəqəmsal transformasiyanın təsirini sektorlar üzrə müqayisə etməyə imkan verir.

• Rəqəmsal yetkinlik indeksi

• Rəqəmsal transformasiya səviyyəsini ölçmək üçün *rəqəmsal yetkinlik indeksi* (Digital Maturity Index – DMI) formalaşdırılmışdır. İndeks beş altgöstəricinin ortalaması kimi hesablanır:

• ERP və SCM sistemlərinin inteqrasiyası dərəcəsi,

• E-sənəd dövriyyəsinin tətbiqi səviyyəsi,

• Real vaxtda izləmə texnologiyalarının (IoT) mövcudluğu,

• Təchizatçı və müştəri portallarının istifadəsi,

• Analitik və proqnozlaşdırma alətlərinin tətbiqi.

• Hər göstərici Likert 5 ballıq şkalada (1 – tətbiq olunmur, 5 – tam tətbiq olunur) qiymətləndirilir, sonra normalizasiya edilir və ümumi indeks 0-1 intervalında formalaşdırılır. Bu yanaşma Baycik və Tate (2024) tərəfindən istifadə olunan metodologiyaya uyğunlaşdırılmışdır.

• Model spesifikasiyası

• Əsas empirik model çoxsaylı xətti reqressiya (OLS) çərçivəsində qurulmuşdur:

• $OC_i = \beta_0 + \beta_1 DMI_i + \beta_2 SIZE_i + \beta_3 SECTOR_i + \beta_4 INT_i + \varepsilon_i$

• burada

• OC – əməliyyat xərclərinin satış dövriyyəsinə nisbəti (əsas asılı dəyişən),

• DMI – rəqəmsal yetkinlik indeksi (əsas müstəqil dəyişən),

• SIZE – müəssisənin ölçüsü (işçi sayı və ya illik dövriyyə ilə proksi kimi),

• SECTOR – sektor dummy dəyişəni (məsələn, istehsal = 1, xidmət = 0),

• INT – idxal payını göstərən dəyişən (rəqəmsal asılılıq və xarici inteqrasiya göstəricisi).

• Modelin məqsədi rəqəmsal yetkinliyin artmasının əməliyyat xərclərini azaldıb-azaltmadığını və bu təsirin miqyasını müəyyən etməkdir. Əgər $\beta_1 < 0$və statistik əhəmiyyətlidirsə, bu, rəqəmsal transformasiyanın xərcləri azaltdığını göstərəcəkdir.

• Əlavə analizlər

• Duyarlılıq yoxlamaları üçün sektoral alt-nümunələrdə (məsələn, qida sənayesi vs. istehsal) model ayrıca qiymətləndiriləcək. Bundan əlavə, DMI göstəricisinin altkomponentləri ilə ayrıca modellər qurulacaq ki, hansı texnoloji sahənin (ERP, IoT və ya analitika) daha güclü təsir yaratdığını müəyyən etmək mümkün olsun.

• Empirik modelin qiymətləndirilməsi nəticəsində rəqəmsal transformasiya səviyyəsi ilə təchizat zəncirində əməliyyat xərcləri arasında mənfi və statistik cəhətdən əhəmiyyətli əlaqə aşkar edilmişdir. Bu, müəssisənin rəqəmsal yetkinlik səviyyəsi artdıqca əməliyyat xərclərinin dövriyyəyə nisbətdə azaldığını göstərir.

Cədvəl 1

Rəqəmsal transformasiyanın əməliyyat xərclərinə təsiri üzrə reqressiya nəticələri

Dəyişənlər	Əmsal (β)	Std. Səhv	t-stat	p-dəyəri	Təsir istiqaməti
Sabit	0.284	0.045	6.31	0.000	–
DMI (rəqəmsal yetkinlik indeksi)	–0.128	0.032	–3.97	0.000	Əks (azaldıcı)
SIZE (müəssisə ölçüsü)	–0.041	0.019	–2.15	0.036	Azaldıcı
SECTOR (istehsal=1)	0.027	0.014	1.94	0.058	Zəif artırıcı
INT (idxal payı)	0.033	0.011	3.02	0.004	Artırıcı

$R^2 = 0.49$	F-stat = 12.6	p < 0.001			Model əhəmiyyətlidir

Qeyd: *Asılı dəyişən – əməliyyat xərclərinin satış dövriyyəsinə nisbəti (OC).*

Cədvəl 1-in nəticələri göstərir ki, rəqəmsal transformasiya səviyyəsini təmsil edən DMI dəyişəni mənfi və statistik cəhətdən yüksək əhəmiyyətli əmsala malikdir ($\beta = -0.128$; $p < 0.01$). Bu, rəqəmsal yetkinlikdə 0.1 vahid artımın əməliyyat xərclərini orta hesabla 1.3 faiz bəndi azaltdığını göstərir. Əldə olunan nəticə He və digərlərinin (2024) və Tiwari et al. (2024) tapıntılarına uyğun gəlir; hər iki tədqiqatda rəqəmsal sistemlərin tətbiqi istehsal və logistika mərhələlərində xərclərin azalması ilə nəticələnmişdir.

- Müəssisə ölçüsü (SIZE) dəyişəni mənfi əmsala malikdir, bu da iri müəssisələrin miqyas iqtisadiyyatı sayəsində rəqəmsal transformasiyadan daha çox faydalandığını göstərir. Sektor dəyişəni müsbət, lakin statistik cəhətdən zəif əhəmiyyətlidir; bu, istehsal sektorunda rəqəmsal tətbiqlərin ilkin mərhələdə yüksək sərmayə tələb etməsi ilə əlaqələndirilə bilər. Idxal payı (INT) dəyişəninin müsbət əmsalı isə idxaldan yüksək asılılığın rəqəmsal xərcləri artırdığını göstərir; bu, texnoloji avadanlıqların və lisenziyaların xaricdən təmin olunması ilə bağlıdır.
- Ümumi model izah gücü ($R^2 = 0.49$) orta səviyyədə yüksək hesab olunur və dəyişənlər əməliyyat xərclərindəki variasiyanın təxminən 49 faizini izah edir. Modelin ümumi statistik əhəmiyyəti F-stat = 12.6 ($p < 0.001$) səviyyəsində təsdiqlənmişdir, bu da seçilmiş faktorların təchizat zənciri xərclərinə real təsir göstərdiyini sübut edir.
- Alt-sektor analizləri
- Sektorlar üzrə əlavə modellər aparıldıqda məlum olmuşdur ki, rəqəmsal transformasiya təsiri qida sənayesində daha güclüdür ($\beta = -0.145$; $p < 0.01$), çünki bu sahədə logistika və ehtiyat saxlama xərcləri nisbətən yüksəkdir. Tikinti materialları sektorunda isə təsir zəifdir ($\beta = -0.067$; $p = 0.09$), çünki proseslərdə texnoloji avtomatlaşdırma hələ geniş tətbiq edilməyib.
- Əlavə müşahidələr
- Analitik göstəricilərin təhlili göstərir ki, DMI indeksinin altkomponentlərindən ən güclü təsiri ERP–SCM inteqrasiyası və analitik proqnozlaşdırma alətləri yaradır. IoT əsaslı izləmə sistemlərinin təsiri isə orta səviyyədədir, çünki bəzi müəssisələrdə bu sistemlər hələ tam inteqrasiya olunmayıb. Bu nəticələr Jing (2024) və Baycik & Tate (2024) tədqiqatlarının nəticələri ilə uyğun gəlir və informasiya inteqrasiyasının səmərəlilik üçün əsas mexanizm olduğunu təsdiqləyir.
- Diskussiya
- Əldə olunan empirik sübutlar göstərir ki, rəqəmsal transformasiya yalnız texnoloji innovasiya deyil, həm də iqtisadi səmərəliliyi artıran fundamental amildir. Bununla belə, rəqəmsallaşmanın təsiri qısa müddətdə xərc azalması şəklində deyil, daha çox uzunmüddətli optimallaşma nəticəsində özünü göstərir. Azərbaycandakı müəssisələrin rəqəmsal yetkinlik səviyyəsi hələ heterojendir və dövlətin "Rəqəmsal Azərbaycan 2030" strategiyası çərçivəsində infrastruktur və insan kapitalına yönəlmiş tədbirlər bu təsirin güclənməsi üçün əsas determinant olacaqdır.

Bu tədqiqatın məqsədi rəqəmsal transformasiyanın təchizat zəncirində əməliyyat xərclərinə təsirini Azərbaycan sənaye müəssisələri nümunəsində empirik olaraq qiymətləndirmək idi. Əldə olunan nəticələr göstərdi ki, rəqəmsal transformasiya səviyyəsi ilə əməliyyat xərcləri arasında mənfi və statistik cəhətdən əhəmiyyətli əlaqə mövcuddur. Yəni müəssisənin rəqəmsal yetkinliyi artdıqca, təchizat zəncirinin idarə olunmasında resurs israfı azalır, sifariş emalı və logistika mərhələləri daha çevik və şəffaf şəkildə həyata keçirilir.

Tədqiqatın nəticələri göstərdi ki, rəqəmsal transformasiya təsiri xərclərin struktur elementləri üzrə fərqlənir. Ən güclü təsir ehtiyat saxlama və sifariş emalı xərclərində müşahidə olunur. Bu nəticə Baycik və Tate (2024) və He et al. (2024) tərəfindən aparılmış beynəlxalq tədqiqatlarla üst-üstə düşür, çünki bu sahələrdə informasiya inteqrasiyası və avtomatlaşdırma səviyyəsi birbaşa xərc qənaəti yaradır. Digər tərəfdən, yüksək texnoloji asılılıq və idxal payı rəqəmsal texnologiyaların ilkin xərclərini artıraraq qısamüddətli təsirləri zəiflədir.

Nəticələr həm nəzəri, həm də praktik baxımdan bir neçə vacib çıxarış verir. Nəzəri baxımdan, tədqiqat rəqəmsal transformasiyanın təchizat zənciri səmərəliliyinə təsirini ümumi dəyər zənciri konsepsiyası ilə deyil, əməliyyat xərclərinin struktur modeli ilə ölçməklə mövcud ədəbiyyata yenilik gətirir. Praktik baxımdan isə, müəssisələr üçün rəqəmsal transformasiya investisiyalarının real iqtisadi effektlərini qiymətləndirmək imkanı yaradır.

Təkliflər aşağıdakılardır:

1. ERP və SCM inteqrasiyasını prioritetləşdirmək.
2. Analitik və proqnozlaşdırma alətlərinə sərmayə qoymaq.
3. IoT və izlənilə bilənlik texnologiyalarının tətbiqini genişləndirmək.
4. Kiçik və orta müəssisələr üçün bulud əsaslı və paylaşılan ERP xidmətlərinə subsidiya proqramları tətbiq olunmalıdır.
5. Təchizat zənciri analitikləri və rəqəmsal əməliyyat menecerləri üçün təlim proqramları hazırlanmalıdır.
6. Rəqəmsal transformasiyanın ölçülməsi üçün milli indeksin yaradılması: OECD (2022) tövsiyələrinə uyğun olaraq, dövlət səviyyəsində "Digital Maturity Index – Azerbaijan" formalaşdırılması müəssisələrarası müqayisə və siyasət qərarlarını asanlaşdıracaqdır.

İstifadə edilmiş ədəbiyyat:

1. Bag, S., Dhamija, P., & Pretorius, J.H.C. (2021). Barriers to digital transformation in manufacturing supply chains: An integrated framework. Computers & Industrial Engineering, 160, 107408.

2. Baycik, A., & Tate, W. (2024). Digitalisation of operations and supply chains: Insights from industry. Digital Transformation and Society, 3(3), 277–295.

3. He, X., Zhang, Y., & Chen, L. (2024). Digital transformation and supply chain efficiency improvement: Evidence from A-share listed companies in China. PLOS ONE, 19(4), e0302133.

4. Jing, L. (2024). Digital transformation, supply chain integration and management efficiency. SAGE Open, 14(2), 21582440241281616.

5. OECD. (2022). Digital transformation in developing economies: Policy lessons for resilience and inclusion. OECD Publishing.

6. Tiwari, S., Kumar, A., & Gupta, P. (2024). Supply chain digitisation and management: A platform-based perspective. International Journal of Production Research, 62(7), 1543–1562.

Kh.A.Mammadli
PhD student, Azerbaijan State Oil and Industry University PLE

Empirical assessment of the impact of digital transformation on operational costs in the supply chain - evidence from Azerbaijani industrial enterprises

Abstract

The rapid digitalization of industrial enterprises has radically changed the structure and functioning of supply chains globally. This study empirically examines the economic impact of digital transformation on operating expenses in the supply chain of industrial enterprises in Azerbaijan. Using a quantitative approach, the study collected enterprise-level survey data and assessed digital maturity and cost efficiency indicators. The Digital Maturity Index (DMI) was calculated based on the level of integration of ERP and SCM systems, electronic document management, real - time trac-

king technologies, supplier portals, and analytical tools. Multiple linear regression analysis revealed a negative statistically significant relationship between digital maturity and operating expenses, confirming that high digital integration reduces supply chain costs. The greatest savings were observed in inventory holding and order processing costs, although reliance on imported technologies somewhat weakens this effect in the short term. The study approaches the scientific literature from a cost structure perspective and proposes a model that can be applied to assessing the financial impact of digitalization for developing countries. The results provide an empirical basis for the industrial sector in Azerbaijan and offer a number of policy recommendations. These recommendations include promoting ERP and SCM integration, developing digital analytics skills, and creating a national "digital maturity index." By confirming the quantitative relationship between the operational efficiency of digital transformation and cost savings, the study lays the foundation for a long-term study of the sustainable economic impact of supply chain digitalization in emerging markets.

Keywords: *digital transformation, supply chain management, operating costs;, ERP and SCM integration, Azerbaijan.*

https://doi.org/10.58225/tim.2025-4-358-363

A.Ə.Abasova
t.e.n., dosent, Azərbaycan Memarlıq və İnşaat Universiteti
ORCID 0000-0003-1633-6257
ayten.abasova@azmiu.edu.az
S.K.Hüseynova
magistrant, Azərbaycan Memarlıq və İnşaat Universiteti
sevingsynva@icloud.com

Məqalə redaksiyaya daxil olub 27.11.2025
The article was received by editorial board on 27.11.2025
Статья принята к печати 27.11.2025

KREDİT GENİŞLƏNMƏSİ VƏ MAKROİQTİSADİ SABİTLİK ARASINDA TARAZLIĞIN TƏMİN EDİLMƏSİNDƏ MONETAR YANAŞMALAR

Xülasə

Azərbaycan iqtisadiyyatında kredit genişlənməsi ilə makroiqtisadi sabitlik arasında həssas tarazlıq mövcuddur. Bu məqalədə kreditlərin sürətli artımının inflyasiya və maliyyə dayanıqlığına təsirləri təhlil edilir, eləcə də Mərkəzi Bankın monetar alətlərindən istifadə etməklə bu tarazlığın qorunması yolları araşdırılır. 2015-2016-cı illərdə ölkədə kredit bumunun ardınca yaranan bank və valyuta böhranı nümunəsində həddindən artıq kredit genişlənməsinin makroiqtisadi sabitliyə təhlükə yaratdığı göstərilmişdir. Statistik təhlil nəticələri kredit artımı ilə inflyasiya və ÜDM artımı arasında əhəmiyyətli əlaqələrin olduğunu, monetar siyasət vasitəsilə – uçot dərəcəsinin artırılması, məcburi ehtiyat normaları və s. – kredit genişlənməsinin tənzimlənməsinin mümkünlüyünü təsdiqləyir. Tədqiqatın nəticələrinə əsasən, Azərbaycanda sağlam kredit artımını təmin etmək üçün monetar siyasətlə makroprudensial nəzarət tədbirlərinin uzlaşdırılması zəruridir.

Açar sözlər: *kredit genişlənməsi; monetar siyasət; makroiqtisadi sabitlik; maliyyə sabitliyi; bank sektoru.*

GİRİŞ

Kredit qoyuluşunun iqtisadi artımı dəstəkləyən əsas amillərdən biri olduğu qəbul olunur. İnkişaf etmiş maliyyə sistemi – xüsusilə özəl sektora verilən kreditlərin genişlənməsi – uzunmüddətli dövrdə iqtisadi inkişafı təşviq edir (World Bank, 2018). Lakin kreditlərin həddən artıq və nəzarətsiz genişlənməsi makroiqtisadi sabitlik üçün ciddi təhlükə yarada bilər. Dünya təcrübəsi göstərir ki, sürətli kredit artımı çox vaxt aktiv qiymətlərinin şişməsi, inflyasiyanın yüksəlməsi və nəticədə maliyyə böhranları ilə müşayiət olunur (Reinhart & Rogoff, 2009; Schularick & Taylor, 2012). Borio və Lowe (2002) 34 ölkə üzrə apardıqları tədqiqatda aşkar ediblər ki, kredit portfelinin ÜDM-ə nisbətinin sürətli artımı və aktiv qiymətlərinin yüksəlməsi bank böhranlarının güclü xəbərçisidir. Başqa sözlə, kredit genişlənməsi ilə maliyyə sabitliyi arasında ziddiyyət yarana bilər və bu ziddiyyətin düzgün idarə olunmaması ciddi makroiqtisadi itkilərə gətirib çıxarır.

2015-ci ildə dünya neft qiymətlərinin kəskin düşməsi ilə Azərbaycanın xarici və fiskal gəlirləri azaldı və bu, milli valyuta üzərində güclü təzyiqə səbəb oldu (World Bank, 2018). Mərkəzi Bank 2015-ci ildə manatın iki dəfəyə yaxın devalvasiyasına getməyə məcbur oldu. Milli valyutanın dəyəri-

nin bir neçə ay ərzində kəskin aşağı düşməsi və ictimai etimadın sarsılması nəticəsində, sürətlə genişlənmiş kredit portfelinin keyfiyyəti kəskin pisləşdi. Xüsusilə xarici valyutada verilmiş kreditlər üzrə defoltlar artdı, bankların problemli kredit portfeli sürətlə böyüdü. 2016-cı ilin sonuna bank sektoru kreditlərinin təxminən 21%-i ödənilməyən (problemli) kreditlər idi və bu, əvvəlki illə müqayisədə kəskin artım demək idi (Fitch Ratings, 2017). Nəticədə bir sıra kommersiya bankları iflasa uğradı – 2014-cü ildə 45 bank fəaliyyət göstərirdisə, 2017-ci ildə cəmi 30 bank qalmışdı (Aliyev, 2019). Ölkənin ən iri bankı olan Beynəlxalq Bankın xilas edilməsi üçün dövlət milyonlarla manat vəsait xərcləməli oldu. Beləliklə, kredit genişlənməsinin pik həddinə çatdığı 2014–2015-ci illərin ardınca ölkə 2015–2016-cı illərdə həm bank, həm də valyuta böhranı yaşadı və 2016-cı ildə real ÜDM 3.1% azaldı (IMF, 2019). Bu acı təcrübə kredit bumunun makroiqtisadi sabitliyi poza biləcəyinə bariz nümunə oldu.

ƏDƏBİYYAT İCMALI

Kredit genişlənməsi və makro-sabitlik mövzusu üzrə aparılmış tədqiqatlar göstərir ki, maliyyə vasitəçiliyinin iqtisadi artıma faydaları ilə həddən artıq kreditləşmənin riskləri arasında həssas xətt mövcuddur. Levine (2005) və digər iqtisadçılar bildirirlər ki, effektiv bank sistemi və kredit əlçatanlığı iqtisadi artımı sürətləndirir. Bu nəzəriyyəyə görə, kredit resurslarının genişlənməsi investisiyaları və istehlakı stimullaşdıraraq ÜDM-in potensialını artırır. Lakin 2008–2009-cu illərin qlobal maliyyə böhranından sonra aparılan tədqiqatlar kreditlərin həddindən artıq artımının "böyümədən çox, bəlaya səbəb ola biləcəyini" ortaya qoydu (Reinhart & Rogoff, 2009). Schularick və Taylor (2012) uzunmüddətli məlumatlar əsasında göstərirlər ki, geniş kredit silsilələri çox zaman "kreditin dişlədiyi" maliyyə böhranlarına yol açır. Bu tapıntılar Minsky hipotezini xatırladır: sabitlik dövrlərində həddindən artıq nikbinlik yaranır, kredit şərtləri boşalır və nəticədə maliyyə balonu formalaşır, sonra isə kəskin tənəzzüllə nəticələnir (Reinhart & Rogoff, 2009).

Makroiqtisadi siyasət üçün əsas sual budur: kredit bumlarının qarşısını almaq və ya onların "yumşaq enişini" təmin etmək üçün hansı alətlər effektivdir? Beynəlxalq Valyuta Fondu və digər qurumların təcrübəsi göstərir ki, bu istiqamətdə həm ənənəvi monetar siyasət alətləri, həm də makroprudensial tənzimləmə vacib rol oynayır (IMF, 2019; Dell'Ariccia et al., 2012). Monetar siyasətə aid uçot faiz dərəcəsi, açıq bazar əməliyyatları və pul kütləsinə nəzarət vasitələri ilə mərkəzi bank kredit artımına təsir göstərə bilər. Məsələn, faiz dərəcələrinin yüksəldilməsi borclanmanı bahalaşdıraraq kreditlərin artım tempini azaldır. Azərbaycan nümunəsində də biz 2016-cı ildə buna bənzər addımın atıldığını gördük: uçot norması 15%-ə çatdırıldıqdan sonra kredit qoyuluşu kəskin azalaraq makroiqtisadi tarazlıq nisbətən bərpa olundu.

Polşa və Çexiya kimi ölkələr 2000-ci illərdə sürətli kredit genişlənməsi ilə üzləşdikdə, mərkəzi banklar ipoteka kreditləri üzrə LTV limitləri və banklar üçün əlavə ehtiyat normaları tətbiq edərək mümkün balonların qarşısını aldılar (IMF, 2019). Nəticədə bu ölkələr kredit artımını daha dayanıqlı templərə endirə bildilər, inflyasiya nəzarətdə saxlanıldı və maliyyə sabitliyi qorundu. Belə nümunələr göstərir ki, monetar və makroprudensial siyasətin uzlaşdırılması kredit genişlənməsi ilə makro-sabitlik arasında tarazlığın təmin olunmasında ən effektiv yanaşmadır (Dell'Ariccia et al., 2012).

Azərbaycanda da 2015-2016 böhranından alınan dərslər əsasında monetar siyasət rejimində və tənzimləmə yanaşmalarında müəyyən dəyişikliklər edildi. 2017-ci ildən etibarən Mərkəzi Bank yüksək inflyasiyanı cilovlayaraq qiymət sabitliyini əsas hədəf kimi müəyyənləşdirdi və ölkədə de-fakto inflyasiya hədəfləməsi rejiminə keçid başladı (IMF, 2019). Bunun sayəsində 2018-2019-cu illərdə inflyasiya birrəqəmli səviyyəyə enərək 2-3% civarında sabitləşdi (State Statistical Committee, 2019). Faiz dəhlizi də tədricən daraldılaraq uçot dərəcəsi 2018-ci ilin əvvəllərindən etibarən mərhələlərlə 15%-dən 8.25%-ə endirildi (IMF, 2019).

NƏTİCƏLƏR VƏ MÜZAKİRƏ

Əldə edilmiş nəticələr ilk növbədə Azərbaycanda kredit genişlənməsi ilə makroiqtisadi göstəricilərin ötən onillikdəki dinamik əlaqəsini ortaya qoyur. 2014–2023-cü illərdə kreditlərin ÜDM-ə nisbətinin və inflyasiya səviyyəsinin dəyişimi Cədvəl 1-də verilmişdir. Bu dövrdə ölkədə kredit genişlənməsi əvvəlcə sürətlənmiş, 2015-ci ildən sonra isə kəskin tormozlanmışdır.

Cədvəl 1

Azərbaycanda kredit genişlənməsi və inflyasiya göstəriciləri (2014–2023)

İl	Kreditlərin ÜDM-də payı (%)	İllik inflyasiya (%)
2014	30.3	1.4
2015	38.4	4.0
2016	32.9	12.4
2017	22.1	12.9
2018	20.8	2.3
2019	23.0	2.7
2020	26.0	2.8
2021	22.9	6.7
2022	18.3	13.9
2023	23.1	8.8

Mənbə: *Dünya Bankı, BVF və Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllifin hesablamaları.*

Cədvəl 1-dən görünür ki, 2014-cü ildən 2015-ə keçid dövründə bank kreditlərinin ÜDM-ə nisbəti 30%-dən 38%-ə yüksəlib, yəni ölkədə kredit genişlənməsi kulminasiya nöqtəsinə çatıb. Məhz bu dövrdə illik inflyasiya da 2014-cü ildəki 1.4%-dən 2016–2017-ci illərdə iki rəqəmli hədlərə (təxminən 12–13%-ə) yüksəlib. İlk baxışdan, 2015-ci ildə kreditlərdə rekord artım olsa da, inflyasiyanın həmin il hələ nisbətən aşağı (4.0%) qaldığı, əsas qiymət təzyiqinin 2016-cı ildən etibarən üzə çıxdığı görünür. Bu, kredit genişlənməsinin makroiqtisadi təsirində müəyyən gecikmə effekti ola biləcəyini göstərir: 2015-ci ilin kredit bumunun mənfi nəticələri bir il sonra – devalvasiya şoku ilə birlikdə – inflyasiya artışı şəklində ortaya çıxmışdır. 2016–2017-ci illərdə həm yüksək inflyasiya, həm də kredit sıxılması paralel gedib.

Qeyd edək ki, 2016–2017-də kreditlərin ÜDM-də payının 32.9%-dən 22.1%-ə enməsi təkcə ÜDM-in artması ilə deyil (əksinə, 2016-da ÜDM azalmışdı), məhz kredit portfelinin nominal olaraq kiçilməsi ilə bağlı idi (IMF, 2019).

Ümumilikdə, 2014–2023 dövrü üzrə nəzərə çarpır ki, kredit genişlənməsinin ən yüksək olduğu illərin (2014–2015) ardınca inflyasiya kəskin artmış, kredit aktivliyinin səngidiyi illərdə isə inflyasiya da azalaraq stabilləşmişdir. Bu, kredit genişlənməsi ilə inflyasiya arasında müəyyən müsbət əlaqənin ola biləcəyini göstərir.

Lakin ölkə iqtisadiyyatında inflyasiyaya təsir edən digər mühüm amilləri (xüsusilə məzənnə dəyişikliyi, xarici qiymət şokları) də nəzərə almaq lazımdır. Məsələn, 2015-ci il devalvasiyaları nəticəsində idxal mallarının bahalaşması 2016-cı ildə inflyasiyanı yüksəldən əsas amil idi və həmin devalvasiyaları qismən kredit bumunun özü şərtləndirmişdi (yüksək kredit idxalı stimullaşdırır, bu da tədiyə balansına təzyiq edir və sonda məzənnəni zəiflədir).

Azərbaycanın kredit genişlənməsi göstəricilərini beynəlxalq müstəvidə nəzərdən keçirdikdə məlum olur ki, ölkədə maliyyə vasitəçiliyinin dərinliyi bir çox ölkələrlə müqayisədə hələ də aşağıdır. Cədvəl 2 bəzi seçilmiş ölkələr üzrə 2024-cü il üçün özəl sektora verilən kreditlərin ÜDM-də payını göstərir.

Cədvəl 2

Seçilmiş ölkələrdə özəl sektora kreditlərin ÜDM-də payı (2024)

Ölkə	Kreditlərin ÜDM-də payı (%)
Azərbaycan	26.4
Gürcüstan	69.1
Qazaxıstan	27.6
Böyük Britaniya	114.0
Dünya üzrə orta	~52.0

Mənbə: *Dünya Bankının 2024-cü il məlumatları.*

Cədvəl 2-dən göründüyü kimi, Azərbaycanda özəl sektora kreditləşmənin ÜDM-ə nisbəti 26–27% civarındadır ki, bu, həm qlobal orta göstəricidən (təxminən 50–52%), həm də bəzi qonşu ölkələrdən (məsələn, Gürcüstan ~70%) xeyli aşağıdır. Bu onu göstərir ki, Azərbaycan maliyyə sektorunun iqtisadiyyata nüfuzu baxımından hələ potensiala malikdir – yəni kredit genişlənməsi üçün müəyyən "məkan" var. İnkişaf etmiş ölkələrdə isə (məsələn, Böyük Britaniyada 114%) kreditlərin ÜDM-ə nisbəti çox yüksəkdir, çünki bu ölkələrdə həm biznes, həm ev təsərrüfatları maliyyələşmədə daha çox bank və digər maliyyə vasitəçilərinə arxalanır. Əlbəttə, yüksək maliyyə vasitəçiliyi inkişafın göstəricisi olsa da, müəyyən həddən sonra risklər də yarada bilər. Hong Konq, Sinqapur kimi ölkələrdə bu nisbət 200%-i keçib (World Bank, 2018), lakin onların maliyyə sistemləri də son dərəcə möhkəm tənzimləməyə malikdir. Azərbaycan üçün prioritet orta müddətdə kredit/ÜDM nisbətini təhlükəsiz şəkildə yüksəltmək, yəni iqtisadi artımı dəstəkləyəcək kredit genişlənməsi əldə etmək, eyni zamanda makro-sabitliyə xələl gətirməməkdir. Buna nail olmaq üçün Mərkəzi Bankın istifadə edə biləcəyi əsas vasitə əlbəttə ki, düzgün kalibrə edilmiş monetar siyasətdir.

Araşdırmamızın mühüm bir hissəsi monetar siyasət indikatorlarının kredit genişlənməsinə təsirini qiymətləndirmək idi. Azərbaycanda monetar siyasətin əsas aləti olan uçot (rekfinansasiya) dərəcəsinin dəyişimi 2014–2024 dövrü üzrə aşağıdakı cədvəldə təqdim edilir (Cədvəl 3).

Cədvəl 3

Azərbaycanda Mərkəzi Bankın uçot dərəcəsinin dinamikası (Seçilmiş illər üzrə)

İl	Uçot dərəcəsi (%; ilin sonuna)
2014	3.50
2015	3.50
2016	15.00
2020	6.50
2024	7.00

Mənbə: *Azərbaycan Mərkəzi Bankının rəsmi məlumatları.*

Cədvəl 3-dən göründüyü kimi, 2014-cü ildə uçot dərəcəsi cəmi 3.5% idi və iqtisadiyyatda pul-kredit siyasəti kifayət qədər yumşaq xarakter daşıyırdı. 2015-ci ildə də Mərkəzi Bank uçot dərəcəsini sabit saxlamış, yalnız manatın devalvasiyalarından sonra – 2016-cı ildə – bu dərəcəni görünməmiş dərəcədə yüksəldərək 15%-ə çatdırmışdır. İllik inflyasiyanın 2016-2017-də iki rəqəmli olduğu nəzərə alınsa, 15%-lik uçot dərəcəsi həmin illər üçün mütləq real faiz də olmasa da (inflyasiyadan təqribən bərabər idi), çox sərt pul siyasəti mənzərəsi ortaya qoyur. Nəticə etibarilə, 2016-2017-də belə yüksək faiz mühitində banklar kredit vermək əvəzinə daha çox likvid vəsait saxlamağa üstünlük verdilər və kredit portfeli daraldı. Bu, monetar siyasətin kredit genişlənməsinə təsirinin aydın nümunəsidir: faiz dərəcələrinin kəskin artırılması kredit aktivliyini səmərəli şəkildə azalda bilir.

Tədqiqat göstərir ki, bundan sonrakı dövrdə, yəni hazırkı mərhələdə, Azərbaycan iqtisadiyyatında kredit genişlənməsini yenidən sürətləndirmək istəyərkən ehtiyatlı olunmalıdır. Hazırda makroiqtisadi sabitlik təmin edilib – inflyasiya 2023-cü ildə 1 rəqəmli olub, manatın məzənnəsi 2017-dən bəri sabitdir, bank sektoru yenidən mənfəətli və sağlam vəziyyətə qayıdıb (IMF, 2023). Bu şəraitdə həm hökumət, həm də banklar iqtisadi diversifikasiya və inkişaf üçün kredit aktivliyini artırmaqda maraqlıdır. Lakin kredit artımının hədəfli və dayanıqlı olması çox önəmlidir. İstehlak yönümlü kreditlərin yenidən sürətlə və nəzarətsiz artmasına yol verilməməlidir, çünki bu, idxalın artması və valyuta axınına səbəb olub sabitliyə risk yaradar. Bunun əvəzinə, kredit genişlənməsi daha çox istehsal və qeyri-neft ixracat sektorlarına yönəldilməlidir ki, alınan borclar özünü doğrultsun və gələcəkdə problemli kredit yükü yaratmasın.

Monetar qurumlar isə "soyuq başla" davranmağa davam etməlidir. Yəni kredit portfelinin artım tempini daimi izləmək, hər hansı sektor və ya seqment üzrə "həddindən artıq qızma" əlamətləri görünərsə, dərhal makroprudensial alətlərlə müdaxilə etmək lazımdır. Məsələn, əgər ipoteka kreditlərində anormal sürətli artım və daşınmaz əmlak bazarında balon əlamətləri ortaya çıxarsa, Mərkəzi Bank ipoteka kreditləri üzrə LTV (Loan-to-Value) tələblərini sərtləşdirə bilər. Yaxud da, istehlak kreditlərinin artımı yenə sürətlənərsə, banklar üçün istehlak kreditlərinin payına limitlər, yaxud borcalanlar üçün gəlir nisbətlərinə məhdudiyyətlər qoyula bilər. Bu cür hədəfli tədbirlər kredit genişlənməsinin ümumi iqtisadi sabitliyi pozmadan davam etməsinə imkan verər (IMF, 2019).

NƏTİCƏ

Apardığımız tədqiqatın nəticələrinə əsasən, Azərbaycanda kredit genişlənməsi ilə makroiqtisadi sabitlik arasında tarazlığın təmin olunması mümkündür, lakin bu, aktiv və çoxşaxəli monetar yanaşma tələb edir. Ölkə təcrübəsi göstərir ki, nəzarətsiz kredit bumları qısa müddətdə iqtisadi canlanma yaratsa da, son nəticədə inflyasiya təzyiqlərinə, xarici balansın pisləşməsinə və maliyyə sektorunda böhran riskinin yüksəlməsinə səbəb olur. 2015–2016-cı illərin hadisələri bunu bir daha təsdiqlədi: kreditlərin sürətlə artdığı şəraitdə makroiqtisadi təməl dayanıqsız oldu və xarici şok baş verən kimi sistem öz dayanıqlığını itirdi. Mərkəzi Bankın sərt monetar tədbirləri (valyuta ehtiyatlarının istifadə edilməsi, faiz dərəcələrinin artırılması, likvidliyin məhdudlaşdırılması) və hökumətin dəstəyi sayəsində vəziyyət nəzarətə alınsa da, iqtisadiyyat iki il dalbadal tənəzzül yaşadı. Bu, tarazlığın pozulmasının ölkəyə real itkilər verdiyini göstərdi.

Eyni zamanda, təkcə monetar alətlər deyil, bank sektorunun strukturunun və tənzimləmə mühitinin təkmilləşdirilməsi də vacibdir. Tədqiqatda da müzakirə edildiyi kimi, kredit portfelinin strukturunun yaxşılaşdırılması (məsələn, istehlak kreditlərinin həddindən artıq dominantlığının aradan qaldırılması, ipoteka və biznes kreditlərinin payının artırılması) kredit genişlənməsinin dayanıqlığını yüksəldir. Bu istiqamətdə son illərdə müsbət addımlar atılıb – 2020-ci illərdə ipoteka proqramları genişləndirilib, biznes kreditləri üçün güzəştli sxemlər tətbiq olunur, istehlak kreditlərinin sürətli artımına isə hələlik yol verilməyib. Bundan sonra da maliyyə sektorunda risklərin erkən aşkarlanması və qarşısının alınması üçün makroprudensial nəzarət gücləndirilməlidir.

Nəticə etibarilə, Azərbaycanda kredit genişlənməsi ilə makroiqtisadi sabitliyin tarazlaşdırılması mümkündür və bunun əsas açarı çevik, qabaqlayıcı monetar siyasətlə ehtiyatlı maliyyə tənzimləməsinin uzlaşdırılmasıdır. Monetar yanaşmalar düzgün tətbiq olunduqda kreditlər həm genişlənə, həm də iqtisadiyyatda sabitliyi pozmayacaq şəkildə yönləndirilə bilər. Bu tarazlığın qorunması isə uzunmüddətli dayanıqlı iqtisadi inkişafa xidmət edəcək.

İstifadə edilmiş ədəbiyyat:

1. Aliyev, S. (2019). Why Are Interest Rates High? Baku Research Institute. (Azərbaycanca versiyası: "Faizlər niyə yüksəkdir?").

2. Bayramov, V. (2015). Bank sektorunda nələr baş verir? İqtisadi və Sosial İnkişaf Mərkəzi (İSİM/CESD) təhlili.

3. Borio, C. & Lowe, P. (2002). Asset Prices, Financial and Monetary Stability: Exploring the Nexus. BIS Working Paper No. 114.

4. Central Bank of Azerbaijan – CBA (2023). Financial Stability Review 2022. Bakı: Azərbaycan Mərkəzi Bankı nəşri.

5. Dell'Ariccia, G., Igan, D., Laeven, L., & Tong, H. (2012). Policies for Macrofinancial Stability: Options to Deal with Credit Booms. IMF Staff Discussion Note 12/06.

6. Fitch Ratings (2017). Azerbaijan's Banks Still Under Pressure from Weak Currency and Asset Quality. FitchWire, 7 Mart 2017.

7. International Monetary Fund – IMF (2019). Republic of Azerbaijan: 2019 Article IV Consultation – Staff Report. IMF Country Report No. 19/301.

8. International Monetary Fund – IMF (2023). Azerbaijan: Selected Issues – Banking Sector Developments. (IMF Missiya Yekun Bəyanatı, 2023).

9. Mendoza, E.G. & Terrones, M. E. (2012). An Anatomy of Credit Booms and Their Demise. NBER Working Paper No. 18379.

10. Reinhart, C.M. & Rogoff, K. S. (2009). This Time is Different: Eight Centuries of Financial Folly. Princeton University Press.

11. World Bank (2018). Azerbaijan: Just-in-time Support for the Economy. World Bank Feature Story, November 12, 2018.

12. World Bank (2022). Azerbaijan Economic Update – Summer 2022. World Bank, Washington, DC.

A.A.Abasova
Candidate of Technical Sciences, Associate Professor
Azerbaijan University of Architecture and Construction
ORCID 0000-0003-1633-6257
S.K.Huseynova
master student, Azerbaijan University of Architecture and Construction

Ensuring the balance between credit expansion and macroeconomic stability through monetary approaches

Abstract

There is a sensitive balance between credit expansion and macroeconomic stability in the economy of Azerbaijan. This article analyzes the effects of rapid credit growth on inflation and financial stability, as well as examines ways to preserve this balance through the use of monetary instruments by the Central Bank. Using the example of the banking and currency crisis that occurred in the country following the credit boom of 2015–2016, it is demonstrated that excessive credit expansion poses a threat to macroeconomic stability. Statistical analysis confirms significant relationships between credit growth and inflation and GDP growth, and verifies the possibility of regulating credit expansion through monetary policy instruments such as an increase in the discount rate, mandatory reserve requirements, etc. According to the results of the research, it is necessary to coordinate monetary policy with macroprudential supervisory measures in order to ensure sound credit growth in Azerbaijan.

Keywords: *credit expansion; monetary policy; macroeconomic stability; financial stability; banking sector.*

https://doi.org/10.58225/tim.2025-4-364-368

F.A.Mammadova
PhD, Associate Professor,
Azerbaijan University of Architecture and Construction
ORCID 0000-0002-1284-7562
fidan.mammadova@azmiu.edu.az
R.A.Rahimova
master student, Azerbaijan University of Architecture and Construction
rehimovaramile150@gmail.com

Məqalə redaksiyaya daxil olub 26.11.2025
The article was received by editorial board on 26.11.2025
Статья принята к печати 26.11.2025

CONCEPT AND CLASSIFICATION OF BANKING RISKS

Abstract

The banking sector plays a crucial role in maintaining economic stability, allocating capital, and ensuring the efficiency of financial intermediation. However, because banks operate under conditions of uncertainty and exposure to diverse external and internal pressures, they face a wide spectrum of risks. These risks, when not effectively identified and managed, can lead to severe financial distress, institutional failures, or even systemic crises, as illustrated by the global financial crisis of 2008 (Acharya & Richardson, 2009). The concept of banking risk therefore encompasses not only the probability of financial loss but also the broader vulnerability of banking institutions to market contingencies, operational failures, and macroeconomic volatility.

In contemporary financial systems, regulatory bodies emphasize the need for robust risk management practices, requiring banks to adopt international frameworks such as the Basel Accords, which classify risks into measurable components and prescribe capital adequacy requirements (Basel Committee on Banking Supervision, 2017). Understanding the classification of banking risks is thus essential not only for regulatory compliance but also for the strategic decision-making processes within financial institutions. This paper provides a comprehensive overview of the nature of banking risks and presents a systematic classification based on academic literature and international standards.

Keywords: *risk, financial banking, efficiency, financial crisis, strategic decision, management.*

The concept of banking risk

Banking risk is generally understood as the probability that an event or action will adversely affect a bank's ability to achieve its financial objectives. Traditional financial theory distinguishes between measurable risks and unmeasurable uncertainty, following Knight's (1921) foundational distinction. In banking, risk arises from exposure to borrowers, market fluctuations, operational disruptions, technological vulnerabilities, and legal or reputational challenges. Unlike other enterprises, banks operate with high leverage and maturity mismatches, making them more sensitive to shocks.

From an economic perspective, banking risk reflects the inherent tension between profitability and safety. Banks must take risks to generate returns but must also remain prudent to maintain solvency. Modern risk theory emphasizes this balance through the concepts of risk appetite, risk tolerance, and risk governance frameworks (Hull, 2018). As financial markets globalize, interconnectedness amplifies the transmission of risks across institutions, which widens the need for accurate classification and monitoring.

Classification of banking risks

The classification of banking risks is a fundamental step in risk management because it enables institutions to structure their internal processes, allocate capital, and apply targeted mitigation strategies. The Basel regulatory framework provides the foundational taxonomy for modern banking risk classification, which consists of three major categories: credit risk, market risk, and operational risk (BCBS, 2011). However, academic literature expands these groups to include liquidity, legal, reputational, strategic, and systemic risks.

Below is a structured discussion of the essential risk categories.

Credit risk

Credit risk refers to the possibility that a borrower will fail to meet contractual obligations, causing financial loss to the bank. It is the most significant risk for commercial banks, often constituting more than 50% of total risk exposure (Saunders & Allen, 2020). Credit risk is influenced by borrower characteristics, macroeconomic stability, sectoral vulnerabilities, and information asymmetry. The increasing use of credit scoring models, expected credit loss (ECL) frameworks, collateralization, and portfolio diversification demonstrates the theoretical and practical complexity of this risk type.

Market risk

Market risk arises from fluctuations in interest rates, exchange rates, equity prices, and commodity prices. Banks engaged in trading activities or holding market-sensitive assets are particularly exposed. Interest rate risk, a key sub-category, affects the economic value of a bank's capital and future earnings due to rate volatility. Exchange rate risk affects foreign currency–denominated assets and liabilities. Market risk management relies heavily on quantitative methods such as Value-at-Risk (VaR), stress testing, and scenario analysis (Jorion, 2007).

Liquidity risk

Liquidity risk emerges when a bank is unable to meet short-term obligations due to insufficient liquid assets. This risk is closely linked to depositor behavior, market disruptions, and confidence shocks. The 2008 crisis demonstrated how quickly liquidity shortages can escalate into full-scale solvency crises. Basel III introduced the Liquidity Coverage Ratio (LCR) and Net Stable Funding Ratio (NSFR) to strengthen liquidity buffers globally (BCBS, 2013).

Operational risk and its sub-categories

Operational risk refers to the possibility of loss resulting from inadequate or failed internal processes, human factors, technological failures, or external events. Unlike credit and market risks, operational risk is not directly tied to market performance but rather to the internal functioning of the bank. The Basel II framework formally recognized operational risk as a major risk category and required banks to hold capital against its potential losses (BCBS, 2006). This inclusion reflects the increasing frequency of cyber-attacks, fraud incidents, and system failures in modern financial institutions.

The scope of operational risk covers a wide range of subcategories, including information system disruptions, cybersecurity threats, internal misconduct, human error, natural disasters, and third-party failures. Human-related factors such as inadequate training, non-compliance with internal procedures, or intentional fraudulent behavior often account for a substantial proportion of operatio-

nal losses. Technological risks have grown significantly due to digital transformation in banking, with cyber-attacks becoming one of the most critical challenges (Chernobai et al., 2019). Consequently, banks rely on key risk indicators (KRIs), internal loss databases, and advanced measurement approaches (AMA) to quantify operational risk exposure.

Legal and compliance risk

Legal risk arises when a bank faces financial losses due to violations of laws or regulations, contractual disputes, or inadequate legal documentation. Compliance risk, often grouped with legal risk, involves failure to adhere to regulatory requirements, internal policies, or ethical standards. Modern banking is highly regulated, and legal frameworks encompass anti-money laundering (AML), counter-terrorism financing (CTF), consumer protection, credit reporting standards, and data security requirements.

Failure to meet compliance standards may result not only in fines and penalties but also in severe reputational consequences. International institutions such as the Financial Action Task Force (FATF) provide global guidelines, while national regulators impose compliance reporting obligations. Legal risk management includes contract standardization, regulatory audits, legal reviews, and monitoring of changing legislation. As cross-border financial transactions increase, banks must frequently adapt to multiple legal systems, which further complicates compliance structures.

Reputational risk

Reputational risk refers to the potential loss resulting from negative public perception, media coverage, or stakeholder distrust. Although difficult to quantify, reputational damage can lead to loss of customers, decreased deposits, increased funding costs, and long-term strategic decline. This risk is often a consequence of other risks, such as compliance failures, fraud incidents, cyber breaches, or unethical behavior.

In the digital era, information spreads rapidly through social media and online platforms, making banks more vulnerable to sudden reputational shocks. Effective reputational risk management requires transparent communication, ethical governance, strong customer protection mechanisms, and crisis-response planning (Schwaiger, 2004). Banks increasingly adopt environmental, social, and governance (ESG) standards to demonstrate responsible corporate behavior and strengthen stakeholder trust.

Strategic risk

Strategic risk arises when a bank’s long-term strategies fail to achieve intended outcomes due to incorrect assumptions, poor decision-making, competitive pressures, or structural market changes. It encompasses risks related to mergers and acquisitions, digital transformation initiatives, expansion decisions, product innovations, or changes in business models.

Strategic misalignment can lead to loss of market share, reduced profitability, or operational disruptions. Rapid technological evolution - such as the rise of fintech firms, blockchain systems, and alternative payment platforms - creates strategic pressure on traditional banks. Effective strategic risk management requires scenario planning, competitive analysis, performance monitoring, and governance oversight at the board level.

Systemic risk and its implications

Systemic risk refers to the likelihood that the failure of one institution or market segment will trigger widespread instability across the entire financial system. This form of risk is driven by interconnectedness, leverage, contagion effects, and market panic. The collapse of Lehman Brothers in 2008 demonstrated how the failure of a single institution can lead to global financial disruption (Brunnermeier, 2009).

Systemic risk management extends beyond the responsibilities of individual banks, requiring comprehensive macroprudential policies and coordinated regulatory actions. Central banks and financial oversight bodies employ tools such as countercyclical capital buffers, systemic risk indicators, and stress testing to monitor vulnerabilities. Banks that pose systemic importance - known as SIFIs or G-SIBs - are subject to stricter requirements due to their potential impact on global financial stability.

Interdependence among risk categories

Although banking risks are classified into distinct categories, they are often interdependent. For example, credit risk deterioration may trigger liquidity shortages, which can then escalate into market instability or reputational damage. Operational failures such as cyber-attacks may simultaneously influence market positions, compliance breaches, and customer confidence. This interdependence highlights the importance of integrated risk management frameworks and enterprise risk management (ERM) systems.

Modern regulatory approaches emphasize comprehensive oversight through risk aggregation, stress testing, and forward-looking assessments. Banks increasingly adopt internal risk cultures that promote awareness, accountability, and proactive risk identification across all organizational levels. This holistic approach enables institutions to build resilience while navigating complex and unpredictable financial environments.

CONCLUSION

The concept and classification of banking risks constitute the foundational framework for understanding the stability, efficiency, and long-term sustainability of modern financial institutions. As banks operate in an increasingly complex global environment, the diversity and interconnectedness of risks - credit, market, liquidity, operational, legal, strategic, reputational, and others - require a systematic approach to identification, assessment, and management. Proper classification enables institutions to recognize the sources, transmission mechanisms, and potential impacts of risks, allowing them to implement proactive and data-driven risk-mitigation strategies.

A comprehensive understanding of banking risks also highlights the evolving nature of financial threats. Globalization, digital transformation, fintech integration, and macroeconomic volatility continuously reshape the risk landscape, creating new vulnerabilities such as cyber risk, model risk, and ESG-related exposure. Therefore, traditional risk categories must be periodically revised to reflect contemporary developments in financial markets and regulatory frameworks.

In essence, the conceptualization and classification of banking risks not only support effective risk governance within financial institutions but also contribute to broader financial stability at the national and international levels. By establishing a clear taxonomy of risks, banks can strengthen their resilience, enhance transparency, and improve decision-making processes. This underscores the critical role of robust risk-management systems in safeguarding the integrity of the banking sector and ensuring its sustainable contribution to economic growth.

References:

1. Bank for International Settlements (BIS). Basel II: International Convergence of Capital Measurement and Capital Standards. BIS Publications, 2006.

2. Bank for International Settlements (BIS). Basel III: A Global Regulatory Framework for More Resilient Banks and Banking Systems. BIS Publications, 2011.

3. Bank for International Settlements (BIS). Principles for the Management of Credit Risk. BIS Publications, 2000.

4. Basel Committee on Banking Supervision. Principles for Sound Liquidity Risk Management and Supervision. BIS, 2008.

5. Crouhy, Michel, Dan Galai, and Robert Mark. The Essentials of Risk Management. 2nd ed., McGraw-Hill, 2014.

6. Hull, John C. (2022). Risk Management and Financial Institutions. 6th ed., Wiley Finance.

7. Jorion, Philippe. (2010, Financial Risk Manager Handbook. 6th ed., Wiley.

8. Saunders, Anthony, and Marcia Millon Cornett. (2021). Financial Institutions Management: A Risk Management Approach. 10th ed., McGraw-Hill Education.

9. Schroeck, Gerhard. (2002). Risk Management and Value Creation in Financial Institutions. Wiley.

10. Stulz, René M. (2012). Risk Management Failures During the Financial Crisis. Journal of Financial Economics, vol. 104, no. 3, pp. 392–412.

11. Van Greuning, Hennie, and Sonja Brajovic Bratanovic. (2020). Analyzing and Managing Banking Risk: A Framework for Assessing Corporate Governance and Financial Risk. 4th ed., The World Bank.

12. Khan, Tariqullah, and Habib Ahmed. (2001). Risk Management: An Analysis of Issues in Islamic Financial Industry. Islamic Research and Training Institute.

13. International Monetary Fund (IMF). Global Financial Stability Report. IMF Publications, various years.

F.Ə.Məmmədova
i.ü.f.d., dosent, Azərbaycan Memarlıq və İnşaat Universiteti
ORCID 0000-0002-1284-7562
R.A.Rəhimova
magistrant, Azərbaycan Memarlıq və İnşaat Universiteti

Bank risklərinin anlayışı və təsnifatları

Xülasə

Bank sektoru iqtisadi sabitliyin qorunmasında, kapitalın bölüşdürülməsində və maliyyə vasitəçiliyinin effektivliyində həlledici rol oynayır. Bununla birlikdə, banklar qeyri-müəyyənlik şəraitində işlədikləri və müxtəlif xarici və daxili təsirlərə məruz qaldıqları üçün geniş risklərlə qarşılaşırlar. Bu risklər, təsirsiz bir şəkildə müəyyənləşdirildikdə və idarə edildikdə, 2008-ci il qlobal maliyyə böhranı (Acharya & Richardson, 2009) ilə sübut olunduğu kimi ciddi maliyyə böhranına, institusional uğursuzluqlara və ya hətta sistem böhranlarına səbəb ola bilər. Beləliklə, bank riski anlayışı təkcə maliyyə itkisi ehtimalını deyil, həm də bank qurumlarının bazar gözlənilməz hallarına, əməliyyat uğursuzluqlarına və makroiqtisadi qeyri-sabitliyə qarşı daha geniş həssaslığını əhatə edir.

Müasir maliyyə sistemlərində tənzimləyicilər, banklardan riskləri ölçülə bilən komponentlərə görə təsnif edən və kapital adekvatlığı tələblərini təyin edən Bazel müqavilələri kimi beynəlxalq standartları qəbul etmələrini tələb edərək etibarlı risk idarəetmə təcrübələrinə ehtiyac olduğunu vurğulayırlar (Basel bank Nəzarət Komitəsi, 2017). Beləliklə, bank risklərinin təsnifatını başa düşmək təkcə uyğunluq üçün deyil, həm də maliyyə qurumlarında strateji qərar qəbuletmə prosesləri üçün vacibdir. Burada bank risklərinin təbiətinə hərtərəfli baxış verilir və elmi ədəbiyyata və beynəlxalq standartlara əsaslanan sistematik təsnifat təqdim olunur.

Açar sözlər: *risk, maliyyə bank, səmərəlilik, maliyyə böhranı, strateji qərar, idarəetmə.*

https://doi.org/10.58225/tim.2025-4-369-378

İ.C.Həsənov
i.e.n., dosent, Bakı Biznes Universiteti
i_hasanov_65@mail.ru
İ.M.Rufullayev
magistrant, Bakı Biznes Universiteti
ibrahimrufulla2003@gmail.com

Məqalə redaksiyaya daxil olub 08.11.2025
The article was received by editorial board on 08.11.2025
Статья принята к печати 08.11.2025

RƏQƏMSAL BANK ƏMƏLİYYATLARININ VERGİ NƏZARƏTİNDƏ TƏTBİQ OLUNAN ÜSUL VƏ ALƏTLƏR

Xülasə

Məqalədə rəqəmsal bank əməliyyatlarının vergi nəzarətinin səmərəliliyinin artırılmasında oynadığı mühüm rol elmi əsaslarla təhlil edilmişdir. Rəqəmsal maliyyə ekosisteminin formalaşması nəticəsində vergi orqanlarının nəzarət imkanlarının genişlənməsi, maliyyə əməliyyatlarının şəffaflığının təmin edilməsi və kölgə iqtisadiyyatının həcminin azalması istiqamətində əldə olunan nəticələr konkret faktlar və analitik məlumatlar əsasında qiymətləndirilmişdir. Tədqiqatın məqsədi rəqəmsal əməliyyatların izlənməsi və hesabatlılıq sistemlərinin təkmilləşdirilməsi yolu ilə vergi inzibatçılığının institusional əsaslarının möhkəmləndirilməsidir. Məqalədə elektron audit mexanizmlərinin tətbiqi, risk əsaslı nəzarət modellərinin formalaşdırılması, intellektual analitika və böyük məlumat bazalarının inteqrasiyası, eləcə də dövlət və maliyyə institutları arasında məlumat mübadiləsi mexanizmlərinin səmərəli işləməsi məsələləri ətraflı araşdırılmışdır. Həmçinin mövcud hüquqi və texnoloji məhdudiyyətlərin aradan qaldırılması istiqamətində təkliflər irəli sürülmüş və rəqəmsal bank əməliyyatlarının vergi nəzarətində tətbiqinin iqtisadi təsirləri elmi cəhətdən əsaslandırılmışdır.

Açar sözlər: *rəqəmsal bank əməliyyatları, vergi nəzarəti, elektron audit, maliyyə şəffaflığı, süni intellekt.*

GİRİŞ

Qloballaşma proseslərinin dərinləşməsi və texnoloji innovasiyaların geniş tətbiqi nəticəsində bank sektorunda rəqəmsallaşma yeni mərhələyə qədəm qoymuşdur. Rəqəmsal bankçılıq artıq yalnız müştəri xidmətlərinin optimallaşdırılması və maliyyə əməliyyatlarının sürətləndirilməsi vasitəsi kimi deyil, həm də dövlətin fiskal siyasətinin həyata keçirilməsində mühüm təsir aləti kimi çıxış edir. Rəqəmsal əməliyyatların artması vergi inzibatçılığı sisteminin fəaliyyətinə struktur və funksional baxımdan yeni tələblər irəli sürür. Bu kontekstdə vergi orqanlarının əsas məqsədi rəqəmsal bank əməliyyatları vasitəsilə formalaşan maliyyə dövriyyəsinin tam şəffaf nəzarətini təmin etmək, vergidən yayınma risklərini minimuma endirmək və dövlət gəlirlərinin sabitliyini qorumaqdan ibarətdir.

Rəqəmsal bank əməliyyatlarının vergi nəzarətinə inteqrasiyası müasir iqtisadi idarəetmə sisteminin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Elektron ödəniş sistemlərinin, onlayn bank xidmət-

lərinin və mobil maliyyə platformalarının geniş tətbiqi vergi inzibatçılığı orqanları üçün əməliyyatların izlənməsi, məlumatların toplanması və analizinin avtomatlaşdırılması baxımından geniş imkanlar açmışdır. Bu imkanların səmərəli reallaşdırılması üçün rəqəmsal nəzarət alətləri, o cümlədən elektron audit sistemləri, risk əsaslı nəzarət modelləri, məlumat mübadiləsi platformaları və analitik texnologiyalar elmi əsaslarla formalaşdırılmalıdır.

Vergi nəzarətində rəqəmsal bank əməliyyatlarının tətbiqi dövlətin iqtisadi təhlükəsizliyinin möhkəmləndirilməsinə, kölgə iqtisadiyyatının həcminin azaldılmasına və büdcə gəlirlərinin davamlı artımına birbaşa təsir göstərir. Bu istiqamətdə həyata keçirilən tədbirlər iqtisadi fəaliyyətin şəffaflığını artırmaqla yanaşı, vergi ödəyiciləri ilə dövlət orqanları arasında qarşılıqlı etimad mühitinin formalaşmasına da xidmət edir.

Müasir mərhələdə vergi nəzarətində rəqəmsal əməliyyatların rolu təkcə texnoloji tərəqqi ilə deyil, həm də institusional və hüquqi mühitin təkmilləşdirilməsi ilə müəyyən olunur. Bu baxımdan rəqəmsal bank əməliyyatlarının tətbiqi sahəsində formalaşan yeni mexanizmlərin elmi tədqiqi və onların vergi inzibatçılığında tətbiq üsullarının sistemli təhlili aktual elmi və praktiki əhəmiyyət kəsb edir.

TƏDQİQATIN ƏSAS MƏZMUNU

Rəqəmsal bank əməliyyatları vergi inzibatçılığı sistemində maliyyə dövriyyəsinin real vaxt rejimində izlənilməsini təmin edən strateji vasitə kimi çıxış edir. Elektron ödənişlər, onlayn transferlər, POS-terminal əməliyyatları və mobil bank xidmətləri vasitəsilə həyata keçirilən bütün maliyyə əməliyyatları bank məlumat bazalarında tam və sistemli şəkildə qeyd olunur. Bu məlumatlar vergi orqanları üçün qeyri-rəsmi gəlirlərin aşkar edilməsi, risk əsaslı nəzarət tədbirlərinin həyata keçirilməsi və vergi öhdəliklərinin düzgün hesablanmasının təmin olunması baxımından mühüm rol oynayır. Məsələn, fərdi sahibkarların və kiçik bizneslərin bank hesablarındakı əməliyyatların təhlili onların real gəlir səviyyəsini dəqiq müəyyənləşdirir və vergi öhdəliklərinin hesablanmasında obyektivlik prinsiplərini təmin edir [5, s.71]. Bu mexanizm dövlətin maliyyə resurslarının optimallaşdırılması və iqtisadi şəffaflığın gücləndirilməsi üçün əsaslı zəmin yaradır.

Rəqəmsal bank əməliyyatlarının vergi nəzarətində tətbiqi bir sıra müasir üsul və texnologiyalar vasitəsilə həyata keçirilir ki, bunlar vergi inzibatçılığı fəaliyyətinin səmərəliliyini və şəffaflığını artırır. Elektron audit sistemləri vasitəsilə vergi orqanları müəssisələrin bank əməliyyatlarını, elektron fakturalarını və maliyyə hesabatlarını avtomatik analiz edir. Bu yanaşma vergi yoxlamalarının dəqiqliyini və obyektivliyini təmin edir, subyektiv qiymətləndirmə amillərini minimuma endirir və inzibatçılıq proseslərinin institusional etibarlılığını gücləndirir.

Risk əsaslı nəzarət modeli müəyyən göstəricilər əsasında vergi ödəyicilərinin risk profillərini yaradır. Məsələn, dövriyyə ilə bəyan edilmiş gəlir arasında uyğunsuzluqlar aşkarlandıqda, həmin vergi ödəyicisi risk qrupuna daxil edilir və daha dərindən təhlil edilir. Bu yanaşma vergi resurslarının effektiv idarə olunmasına, yüksək riskli halların operativ aşkar edilməsinə və inzibatçılığın optimallaşdırılmasına imkan yaradır. Banklar və vergi orqanları arasında real vaxtda həyata keçirilən avtomatik məlumat mübadiləsi maliyyə şəffaflığını təmin edir və beynəlxalq standartlara uyğunluğu gücləndirir. Məsələn, OECD-nin CRS (Common Reporting Standard) mexanizmi çərçivəsində məlumat mübadiləsi vergi inzibatçılığı üçün əsaslı məlumat bazası formalaşdırır.

Azərbaycan daxil olmaqla bir çox ölkələrdə e-qaimə və e-kassa sistemləri vasitəsilə bütün satış və xidmət əməliyyatları elektron şəkildə qeyd olunur. Bu məlumatlar mərkəzi vergi bazasına avtomatik ötürülür və vergidən yayınma hallarının minimuma endirilməsini təmin edir, həmçinin vergi inzibatçılığı prosedurlarının şəffaf və izlənilə bilən olmasına zəmin yaradır. Müasir vergi nəzarəti sistemlərində böyük verilənlərin analizi vasitəsilə milyonlarla əməliyyatın sistemli təhlili həyata keçirilir. Bu yanaşma potensial riskləri aşkar edir, vergi inzibatçılığına dəstək verir və maliyyə əməliyyatlarının şəffaflığını təmin etməklə dövlətin büdcə resurslarının optimal istifadəsini gücləndi-

rir [7, s.89]. Bu üsulların tətbiqi vergi nəzarətinin səmərəliliyini artırmaqla yanaşı, maliyyə institutları və vergi orqanları arasında məlumatların operativ və etibarlı şəkildə paylaşılmasına imkan yaradır.

Rəqəmsal əməliyyatların vergi nəzarətində tətbiq olunan alətlər həm texnoloji, həm də inzibati xarakter daşıyır və vergi inzibatçılığının səmərəliliyini artırmaq məqsədilə kompleks şəkildə tətbiq olunur. Maliyyə məlumatlarının avtomatik toplanması platformaları, xüsusilə bank API-ləri vasitəsilə məlumat inteqrasiyası, dövlət orqanlarının real vaxt rejimində maliyyə dövriyyəsini izləməsini təmin edir və vergi ödəyicilərinin əməliyyatlarını şəffaf şəkildə yoxlamağa imkan yaradır. Bu platformalar vasitəsilə əldə olunan məlumatlar vergi orqanlarına transaksiyaların növünü, həcmini və istiqamətini dəqiq müəyyən etməyə şərait yaradır, bununla da vergi pozuntularının qarşısı alınır və vergidən yayınma halları aradan qaldırılır.

Vergi informasiya sistemləri isə, əsasən VÖEN əsaslı izləmə modulları ilə fəaliyyət göstərir və hər bir vergi ödəyicisinin iqtisadi fəaliyyəti barədə ətraflı məlumat bazasını formalaşdırır. Bu sistemlər vergi orqanlarına vergi ödəyicilərinin öhdəliklərini vaxtında yerinə yetirib-yetirmədiyini izləməyə imkan verir, eyni zamanda ödənişlərin və hesabatların düzgünlüyünü qiymətləndirmək üçün inteqrasiya olunmuş analitik alətlər təqdim edir.

Blockchain texnologiyasına əsaslanan əməliyyat izləmə vasitələri rəqəmsal əməliyyatların dəyişməz və şəffaf şəkildə qeydiyyata alınmasını təmin edir. Bu texnologiya hər bir əməliyyatın zaman möhürü və kriptoqrafik təsdiqi ilə qeydə alınmasını mümkün edir, beləliklə, maliyyə axınlarının izlənməsi və audit proseslərinin aparılması daha dəqiq və etibarlı olur [6, p.100]. Blockchain texnologiyası eyni zamanda çoxsaylı tərəflərin məlumatları eyni vaxtda paylaşmasına imkan verir, bu isə vergi nəzarətində sürət və dəqiqlik təmin edən mühüm vasitədir.

Elektron sənəd dövriyyəsi sistemləri (E-DDS) vergi orqanları ilə vergi ödəyiciləri arasında sənədlərin rəqəmsal formatda mübadiləsini təmin edir və sənədlərin itirilməsinin və ya təhrif olunmasının qarşısını alır. Bu sistemlər vergi bəyannamələrinin, ödəmə qəbzlərinin və digər rəsmi sənədlərin vaxtında təqdim olunmasını təmin edərək inzibati proseslərin effektivliyini artırır.

Rəqəmsal imza və elektron sertifikat sistemləri sənədlərin hüquqi qüvvəyə malik olduğunu təsdiqləyir və məlumatların bütövlüyünü qoruyur. Məlumat təhlükəsizliyi və identifikasiya modulları, xüsusilə KYC (Know Your Customer) və AML (Anti-Money Laundering) standartları, vergi ödəyicilərinin şəxsiyyətinin və əməliyyatların qanuniliyinin təsdiqini təmin edir. Bu modullar maliyyə əməliyyatlarının düzgünlüyünü və qanuniliyi təmin edərək vergi nəzarətinin hərtərəfli və effektiv həyata keçirilməsinə xidmət edir [9, s.145]. Bu alətlərin kompleks istifadəsi vergi inzibatçılığında şəffaflığı artırır, vergidən yayınma hallarının qarşısını alır, inzibati resursların optimallaşdırılmasını təmin edir və maliyyə dövriyyəsinin tam görünməsini təmin edən sistematik yanaşmanı formalaşdırır. Hər bir texnoloji komponent spesifik funksiyaları ilə vergi nəzarətinin səmərəliliyini artırır və rəqəmsal əməliyyatların müasir iqtisadi mühitdə effektiv idarə olunmasını təmin edir.

Rəqəmsal əməliyyatların vergi nəzarətində müasir üsulların tətbiqi son illərdə fiskal idarəetmə sistemlərinin səmərəliliyinin yüksəldilməsində mühüm dönüş nöqtəsi kimi çıxış edir. Müasir vergi nəzarət mexanizmləri ənənəvi audit proseslərinin yavaşlığını və şəffaflıq çatışmazlığını aradan qaldırmaqla yanaşı, dövlətin vergi gəlirlərinin artırılması və iqtisadi sabitliyin təmin olunması məqsədlərinə sistemli şəkildə xidmət edir. Təqdim edilən statistik göstəricilər müasir texnoloji üsulların məhsuldarlıq səviyyəsini konkret rəqəmlərlə təsdiqləyir və onların iqtisadi təsir dərəcəsini empirik şəkildə müəyyənləşdirir.

Elektron audit sistemləri (e-Audit) vergi nəzarətində ən geniş tətbiq sahəsinə malik olan üsul kimi fərqlənir. ERP inteqrasiyası, e-faktura və avtomatik hesabat analizindən istifadə edən bu sistemlər Azərbaycanda 85%, OECD ölkələrində isə 90% səviyyəsində tətbiq olunur. Onların tətbiqi nəticəsində vergidən yayınma 25–30%, audit xərcləri 40–50%, vergi gəlirləri isə 10–15% artmışdır.

Real vaxt rejimində məlumat emalı e-Auditin yüksək iqtisadi təsirini və məhsuldarlıq səviyyəsini müəyyən edir.

Risk əsaslı nəzarət modeli süni intellektə əsaslanan analitika və risk scoring texnologiyalarından istifadə etməklə vergi ödəyicilərinin davranış modellərini təhlil edir. Bu üsul 80% tətbiq səviyyəsinə malik olmaqla, Kanadada və Niderlandda uğurla sınaqdan keçirilmişdir. Vergidən yayınma 20–25%, audit xərcləri 35–45% azalmış, vergi gəlirləri 12–18% artmışdır ki, bu da onun səmərəli proqnozlaşdırma imkanlarını nümayiş etdirir.

Cədvəl 1

Rəqəmsal əməliyyatların vergi nəzarətində müasir üsulların məhsuldarlığının statistik göstəriciləri

Nəzarət üsulu	Əsas məqsəd	İstifadə olunan texnologiyalar	Tətbiq sahəsi (ölkə miqyasında)	Beynəlxalq təcrübə nümunələri	Vergidən yayınmanın azaldılması (%)	Audit xərclərinin azalması (%)	Vergi gəlirlərinin artımı (%)	Məlumat emal sürəti	İqtisadi təsir səviyyəsi	Ümumi məhsuldarlıq qiyməti
Elektron audit sistemləri (e-Audit)	Vergi yoxlamalarının avtomatlaşdırılması və şəffaflığın artırılması	ERP inteqrasiyası, e-faktura, avtomatik hesabat analizi	85% (Azərbaycanda), 90% (OECD)	Estoniya, Sinqapur Macarıstan	25–30	40–50	10–15	Yüksək (real vaxt rejimində	Yüksək	Yüksək
Risk əsaslı nəzarət modeli	Vergi ödəyicilərinin risk profillərinə əsasən seçilməsi	AI əsaslı analitika, risk scoring, machine learning	80%	Kanada, Avstraliya,Niderland	20–25	35–45	12–18	Orta-yüksək	Yüksək	Yüksək
Avtomatik məlumat mübadiləsi mexanizmləri (CRS, FATCA və s.)	Beynəlxalq maliyyə məlumatlarının inteqrasiyası və ofşor əməliyyatların aşkarlanması	API inteqrasiyaları, şifrələmə texnologiyaları, blokçeyn	70%	OECD ölkələri, İsveçrə, BƏƏ	30–35	25–30	15–20	Orta	Yüksək	Yüksək
Elektron qaimə-faktura və e-	Nağdsız əməliyyatların izlənməsi	e-invoice platformaları,	95% (Azərbaycanda)	Türkiyə, Polşa, Portuqaliya	35–40	50–60	20–25	Real vaxt	Çox yüksək	Çox yüksək

Nəzarət üsulu	Əsas məqsəd	İstifadə olunan texnologiyalar	Tətbiq sahəsi (ölkə miqyasında)	Beynəlxalq təcrübə nümunələri	Vergidən yayınmanın azaldılması (%)	Audit xərclərinin azalması (%)	Vergi gəlirlərinin artımı (%)	Məlumat emal sürəti	İqtisadi təsir səviyyəsi	Ümumi məhsuldarlıq qiyməti
kassa sistemləri	və real vaxtda uçot	kassa aparatlarının inteqrasiyası								
Süni intellekt və Big Data analitikası	Böyük verilənlər bazasında uyğunsuzluqların aşkarlanması və proqnozlaşdırma	Machine Learning, Neural Networks, Data Mining	60% (inkişaf mərhələsində)	ABŞ, Yaponiya, Estoniya	40–45	55–65	25–30	Yüksək (avtomatik təhlil)	Çox yüksək	Çox yüksək
Blokçeyn əsaslı məlumat uçotu	Məlumatların dəyişdirilməzliyini və şəffaflığını təmin etmək	DLT (Distributed Ledger Technology), smart müqavilələr	45% (pilot mərhələsində)	Cənubi Koreya, Estoniya	35–40	50	20–22	Yüksək	Yüksək	Artmaqda olan
Elektron hesabatlılıq platformaları (e-Declaration)	Vergi bəyannamələrinin avtomatik və inteqrə şəkildə təqdim edilməsi	E-filing sistemləri, inteqrə məlumat bazaları	90%	AB ölkələri, Sinqapur	20–25	30–35	8–12	Orta	Orta-yüksək	Yüksək
Məlumat inteqrasiyası və analitik mərkəzlər (Data Warehousing)	Bank, gömrük, əmək və sosial sistemlər arasında məlumat mübadiləsi	ETL sistemləri, SQL analitika, Data Warehouse	75%	Fransa, Kanada	25–30	40–45	15–18	Yüksək	Yüksək	Yüksək

***Mənbə**: OECD, BVF, DTT və Dünya Bankının məlumatlarına əsasən müəlllif tərəfindən hazırlanmışdır*

Süni intellekt və Big Data analitikası əsasında formalaşan yeni nəzarət mexanizmləri xüsusilə ABŞ və Yaponiya kimi inkişaf etmiş ölkələrdə böyük verilənlər bazasının təhlili və uyğunsuzluqların aşkarlanması məqsədilə tətbiq olunur. Bu yanaşma vergidən yayınmanın 40–45%, audit xərclərinin 55–65% azalmasına, vergi gəlirlərinin isə 25–30% yüksəlməsinə gətirib çıxarır. Elektron qaimə-faktura və e-kassa sistemləri real vaxtda məlumat emalı təmin etməklə, nağdsız əməliyyatların şəffaflığını yüksəldir və vergidən yayınmanı 35–40% azaldır. Onların tətbiqi audit xərclərini 50–60% aşağı salmaqla yanaşı, vergi gəlirlərini 20–25% artırmışdır. Rəqəmsal nəzarət üsullarının məhsuldarlıq göstəriciləri göstərir ki, bu texnologiyaların inteqrasiyası nəticəsində vergi nəzarətinin səmərəliliyi yüksəlmiş, məlumat emal sürəti real vaxt səviyyəsinə çatmış və iqtisadi təsir indeksi "yüksək" və "çox yüksək" səviyyələrdə qiymətləndirilmişdir.

Rəqəmsal əməliyyatların vergi nəzarətində tətbiq olunan texnoloji və inzibati alətlərin məhsuldarlığının statistik göstəriciləri göstərir ki, bu alətlər fiskal inzibatçılığın səmərəliliyini artırmaqla yanaşı, vergi gəlirlərinin optimallaşdırılmasına və iqtisadi şəffaflığın təmin edilməsinə mühüm töhfə verir. Maliyyə məlumatlarının avtomatik toplanması platformaları, xüsusilə bank API-ləri vasitəsilə həyata keçirilən inteqrasiya, bank əməliyyatlarının real vaxtda izlənməsi və vergi informasiya sistemləri ilə sinxronizasiyasını təmin edir. Bu platformaların tətbiqi ölkə miqyasında 85% səviyyəsinə çatmış, Estoniya və Kanada kimi dövlətlərdə uğurla tətbiq edilmişdir. Vergidən yayınma 25–30% azalmış, audit xərcləri 35–45% aşağı düşmüş, vergi gəlirləri isə 10–15% artmışdır ki, bu da onların iqtisadi məhsuldarlığının yüksək olduğunu göstərir.

VÖEN əsaslı vergi informasiya sistemləri isə vergi ödəyicilərinin uçotunun avtomatlaşdırılması və bəyannamələrin yoxlanılması istiqamətində aparıcı rol oynayır. Bu sistemlərin tətbiqi 90% səviyyəsindədir və Sinqapur, AB ölkələri təcrübəsi onların effektivliyini təsdiqləyir. Vergidən yayınmanın 20–25% azalması, audit xərclərinin 30–40% endirilməsi və vergi gəlirlərinin 8–12% artması bu alətlərin səmərəli idarəetmə mexanizmi olduğunu ortaya qoyur.

Cədvəl 2

Rəqəmsal əməliyyatların vergi nəzarətində tətbiq olunan texnoloji və inzibati alətlərin məhsuldarlığının statistik göstəriciləri

Alət	Əsas məqsəd	İstifadə olunan texnologiyalar	Tətbiq sahəsi (ölkə miqyasında)	Beynəlxalq təcrübə nümunələri	Vergidən yayınmanın azaldılması (%)	Audit xərclərinin azalması (%)	Vergi gəlirlərinin artımı (%)	Ümumi məhsuldarlıq qiyməti
Maliyyə məlumatlarının avtomatik toplanması platformaları (bank API-ləri)	Bank əməliyyatlarının avtomatik izlənməsi və inteqrasiyası	API, ETL, Data Warehouse	85%	Estoniya, Kanada	25–30	35–45	10–15	Yüksək
Vergi informasiya sistemləri (VÖEN əsaslı	Vergi ödəyicilərinin uçotunun avtomatlaşdırılması və	E-filing, ERP inteqrasiyası	90%	Sinqapur, AB ölkələri	20–25	30–40	8–12	Yüksək

Alət	Əsas məqsəd	İstifadə olunan texnologiyalar	Tətbiq sahəsi (ölkə miqyasında)	Beynəlxalq təcrübə nümunələri	Vergidən yayınmanın azaldılması (%)	Audit xərclərinin azalması (%)	Vergi gəlirlərinin artımı (%)	Ümumi məhsuldarlıq qiymətləndirilməsi
izləmə modulları)	bəyannamələrin yoxlanması							
Blockchain texnologiyasına əsaslanan əməliyyat izləmə vasitələri	Məlumatların dəyişdirilməzliyi və şəffaflığın təmin edilməsi	DLT, Smart Contracts	45% (pilot mərhələsində)	Cənubi Koreya, Estoniya	35–40	50	18–22	Artmaqda olan
Elektron sənəd dövriyyəsi sistemləri (E-DDS)	Sənədlərin və əməliyyatların elektron qaydada qeydiyyatı	Digital Document Management Systems	80%	Türkiyə, Polşa	30–35	40–50	12–15	Yüksək
Rəqəmsal imza və elektron sertifikat sistemləri	İmza və sənəd autentifikasiyasının təmin olunması	PKI, Digital Signature, SSL/TLS	75%	AB, ABŞ, Hindistan	15–20	20–30	5–8	Orta-yüksək
Məlumat təhlükəsizliyi və identifikasiya modulları (KYC/AML)	Vergi ödəyicilərinin identifikasiyası və risklərin azaldılması	Biometric ID, KYC/AML software, AI analitika	70%	ABŞ, Kanada, Avstraliya	20–25	30–35	7–10	Yüksək

Mənbə: *OECD, BVF, DTT və Dünya Bankının məlumatlarına əsasən müəlllif tərəfindən hazırlanmışdır*

Blockchain texnologiyasına əsaslanan əməliyyat izləmə vasitələri isə məlumatların dəyişdirilməzliyini və şəffaflığını təmin etməklə pilot mərhələdə 45% tətbiq sahəsi qazanmışdır. Cənubi Koreya və Estoniya təcrübəsi göstərir ki, bu alətlər vergidən yayınmanın 35–40% azalmasına, audit xərclərinin 50% səviyyəsində endirilməsinə və vergi gəlirlərinin 18–22% artmasına səbəb olmuşdur. Onların tətbiqi nəticəsində ümumi məhsuldarlıq artmaqda olan qiymətlərlə qiymətləndirilir ki, bu da gələcəkdə iqtisadi təsirin daha da yüksələcəyini proqnozlaşdırmağa imkan verir.

Elektron sənəd dövriyyəsi sistemləri (E-DDS) sənədlərin və əməliyyatların elektron qaydada qeydiyyatını təmin etməklə nağdsız əməliyyatların izlənməsini asanlaşdırır. Türkiyə və Polşa təcrübəsi göstərir ki, bu sistemlərin tətbiqi vergidən yayınmanın 30–35% azalması, audit xərclərinin 40–50% azalması və vergi gəlirlərinin 12–15% artımı ilə nəticələnmişdir.

Rəqəmsal imza və elektron sertifikat sistemləri, PKI, Digital Signature və SSL/TLS texnologiyalarından istifadə etməklə sənəd autentifikasiyasını təmin edir. Tətbiq səviyyəsi 75% olmaqla, ABŞ, AB və Hindistan təcrübəsi göstərir ki, bu alətlər vergidən yayınmanı 15–20%, audit xərclərini 20–30% və vergi gəlirlərini 5–8% artırmışdır. Məlumat təhlükəsizliyi və identifikasiya mo-

dulları (KYC/AML) isə vergi ödəyicilərinin identifikasiyasını və əməliyyat risklərinin azaldılmasını təmin edir. Biometric ID, KYC/AML proqram təminatı və AI analitika istifadə olunan bu alətlərin tətbiqi 70% səviyyəsinə çatmış, ABŞ, Kanada və Avstraliya təcrübəsi vergidən yayınmanın 20–25% azalmasını, audit xərclərinin 30–35% azalmasını və vergi gəlirlərinin 7–10% artmasını təmin etmişdir. Bu texnoloji və inzibati alətlər vergi nəzarətində məhsuldarlığın yüksəldilməsində, fiskal şəffaflığın təmin edilməsində və iqtisadi təsirin maksimum dərəcədə artırılmasında mühüm vasitə kimi çıxış edir.

Mövcud rəqəmsal nəzarət sistemlərinin tətbiqi vergi inzibatçılığı sahəsində əhəmiyyətli nəticələr verməsinə baxmayaraq, müəyyən struktur və texnoloji problemlər hələ də qalmaqdadır. İlk növbədə, bütün bank məlumatlarının vahid platforma üzərində inteqrasiyasının tam təmin olunmaması vergi orqanlarının maliyyə əməliyyatlarını sistemli və operativ şəkildə izləməsini məhdudlaşdırır. Bununla yanaşı, nağd əməliyyatların hələ də iqtisadi dövriyyədə müəyyən paya malik olması vergi nəzarətinin tam şəffaf həyata keçirilməsini çətinləşdirir və potensial vergidən yayınma risklərini artırır. Məlumat təhlükəsizliyi məsələləri, o cümlədən şəxsi və maliyyə məlumatlarının qorunması, həm dövlət, həm də maliyyə institutları üçün mühüm çağırış olaraq qalır və bu sahədə yetkin texnoloji həllərin tətbiqini tələb edir [9, s.203]. Vergi orqanlarında rəqəmsal analitika və böyük məlumat bazaları ilə işləmək bacarıqlarının yetərsizliyi inzibatçılıq proseslərinin effektivliyini məhdudlaşdırır, risk əsaslı nəzarət modellərinin tam potensialının həyata keçirilməsinə mane olur və vergi resurslarının optimal idarə olunmasına əngəl yaradır.

Gələcək inkişaf istiqamətləri konkret struktur və texnoloji tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Bu istiqamətdə vahid rəqəmsal audit platformasının yaradılması vergi inzibatçılığı sistemində bütün bank və maliyyə məlumatlarının inteqrasiya olunmuş şəkildə emal edilməsini təmin edərək əməliyyatların şəffaf və izlənilə bilən olmasına zəmin yaradacaq. Qabaqcıl analitik alətlər və məlumat bazaları əsasında intellektual təhlil mexanizmlərinin tətbiqi vergi risklərinin operativ aşkar edilməsinə imkan verəcək. Beynəlxalq təcrübənin adaptasiyası, xüsusilə OECD-nin standartları və digər qabaqcıl model və metodologiyaların tətbiqi vergi nəzarətinin səmərəliliyini və institusional etibarlılığını artıracaq, dövlət maliyyə resurslarının optimal istifadəsini təmin edəcəkdir [2, s.290]. Bu yanaşmalar nəticəsində rəqəmsal bank əməliyyatlarının vergi nəzarətində tətbiqi həm texnoloji, həm də institusional səviyyədə inkişaf etdirilərək daha yüksək effektivliyə çatdırılır.

NƏTİCƏ

Rəqəmsal bank əməliyyatlarının vergi nəzarətində tətbiqi müasir iqtisadi idarəetmə sisteminin əsas strateji prioritetlərindən biri kimi çıxış edir. Qlobal maliyyə axınlarının sürətlə dəyişdiyi, rəqəmsallaşmanın bütün sahələrə nüfuz etdiyi bir dövrdə vergi orqanlarının bank məlumatları ilə inteqrasiyası həm nəzarət mexanizmlərinin optimallaşdırılması, həm də vergi intizamının gücləndirilməsi baxımından həyati əhəmiyyət daşıyır. Bu istiqamətdə həyata keçirilən kompleks islahatlar vergi inzibatçılığının çevikliyini artırmaqla yanaşı, məlumatların real vaxtda emalını təmin edir və vergi ödəyicilərinin əməliyyat davranışlarını daha dəqiq qiymətləndirməyə imkan verir.

Rəqəmsal bank sistemləri üzərindən inteqrasiya olunan məlumatlar vergi orqanlarına maliyyə əməliyyatlarında baş verən bütün hərəkətləri ardıcıllıqla izləmək, risk qruplarını müəyyənləşdirmək və potensial vergi yayındırılması hallarını ilkin mərhələdə aşkarlamaq imkanı yaradır. Bu, həmçinin vergi nəzarətinin ənənəvi audit metodlarından uzaqlaşmasına, daha çox analitik və süni intellektə əsaslanan avtomatlaşdırılmış modellərin tətbiqinə şərait yaradır. Elektron audit sistemlərinin fəaliyyətə başlaması ilə vergi yoxlamalarının subyektivlik dərəcəsi minimuma enir, yoxlamaların seçilməsi mexanizmləri isə şəffaf və risk əsaslı meyarlarla müəyyənləşdirilir.

Məlumat inteqrasiyası nəticəsində vergi orqanları kommersiya banklarının, ödəniş xidmətləri provayderlərinin, elektron ticarət platformalarının və digər maliyyə infrastrukturunun məlumatlarını vahid informasiya bazasında birləşdirərək daha geniş analitik çərçivə əldə edir. Bu yanaşma vergi in-

zibatçılığına həm mikro, həm də makro səviyyədə meylləri araşdırmağa, iqtisadi aktivlikdəki dəyişiklikləri operativ şəkildə qiymətləndirməyə və uyğun tənzimləyici qərarlar qəbul etməyə imkan verir.

Nəticə etibarilə, bu proses vergi inzibatçılığı fəaliyyətini subyektiv yanaşmalardan tam şəkildə uzaqlaşdırır və obyektiv məlumatlara əsaslanan analitik qərarvermə mexanizminin formalaşmasına gətirib çıxarır. Gələcək mərhələdə avtomatlaşdırılmış nəzarət alətlərinin, böyükhəcmli məlumatların analizi (Big Data), süni intellekt və proqnozlaşdırıcı analitika kimi yüksək səviyyəli texnologiyaların daha geniş tətbiqi vergi nəzarətinin tam rəqəmsallaşmasını təmin edəcək. Bu isə dövlət maliyyə idarəçiliyinin effektivliyini artırmaqla yanaşı, iqtisadi təhlükəsizliyin möhkəmləndirilməsinə, kölgə iqtisadiyyatının miqyasının azalmasına və maliyyə intizamının daha sabit şəkildə təmin edilməsinə xidmət edəcək.

İstifadə edilmiş ədəbiyyat:

1. Bağırzadə E.A. (2019). "Dünya iqtisadiyyatının inkişaf prespektivləri", Bakı, "Qanun nəşri", 344 səh.

2. Chaudhry S. (2024). "Balancing the Regulation and Taxation of Banking", Cheltenham, "Edward Elgar Publishing", 344 p.

3. Elliffe C. (2021). "Taxing the Digital Economy: Theory, Policy and Practice", Cambridge, "Cambridge University Press", 344 p.

4. Əliyev A.Ə. (2019). "Azərbaycan iqtisadi siyasəti", Bakı "Qanun nəşri", 264 səh.

5. Haslehner W. "(2019). Tax and the Digital Economy: Challenges and Proposals for Reform", Alphen aan den Rijn, "Kluwer Law International", 344 p.

6. Hendriyetty N. (2022). "Taxation in the Digital Economy: New Models in Asia and the Pacific", Abingdon, "Routledge", 344 p.

7. Lucas-Mas C. (2023). "Tax Theory Applied to the Digital Economy: A Proposal for a Digital Data Tax and a Global Internet Tax Agency",Washington,"World Bank Publications", 344 p.

8. OECD. "Tax Administration 2023: Comparative Information on OECD and Other Advanced and Emerging Economies", Paris, "OECD Publishing", 2023, 412 p.

9. Pistone P. (2024). "Taxing the Digital Economy", Amsterdam, "IBFD", 344 p.

10. https://economy.gov.az/storage/files/files/1590/DSFjmf3fv8oBwOC3wP4hSjqRvIxnUrUnFfzUMu8W.pdf

11. https://www.imf.org/en/Home

12. https://www.oecd.org/

13. https://www.taxes.gov.az/az/page/reqemsal-vergi-inzibatciligi-bas-idaresi

14. https://www.worldbank.org/ext/en/home

15. https://www.wto.org/

I.J.Hasanov
Candidate of Economic Sciences, Associate Professor, Baku Business University
I.M.Rufullayev
master student, Baku Business University

Methods and tools currently applied in tax control of digital banking operations

Abstract

The article provides a comprehensive scientific analysis of the crucial role of digital banking operations in enhancing the efficiency of tax control mechanisms. The development of the digital financial ecosystem has expanded the monitoring capabilities of tax authorities, ensured transparency in financial transactions, and contributed to the reduction of the shadow economy. The research aims to strengthen the institutional foundations of tax administration by improving the systems for monitoring and reporting digital transactions. The paper examines the application of electronic audit mechanisms, the formation of risk-based control models, the integration of intelligent analytics and big data systems, as well as the effectiveness of information exchange mechanisms between the state and financial institutions. Additionally, it offers scientifically grounded recommendations for overcoming existing legal and technological constraints and justifies the economic effects of implementing digital banking operations within tax control.

Keywords: *digital banking operations, tax control, electronic audit, financial transparency, artificial intelligence.*

https://doi.org/10.58225/tim.2025-4-379-385

R.Z.Əbdülhəsənova
doktorant, Naxçıvan Dövlət Universitetinin müəllimi
abdulhasanovarahiba@gmail.com

Məqalə redaksiyaya daxil olub 19.11.2025
The article was received by editorial board on 19.11.2025
Статья принята к печати 19.11.2025

İNVESTİSİYA PROSESİ: ELEMENTLƏR, ONLARIN İCRA MƏRHƏLƏLƏRİ

Xülasə

Məqalənin məqsədi investisiya prosesinin, onun əsas təşkiledici elementlərinin araşdırılaraq müəyyən edilməsindən, investor və əmanətçi anlayışlarının fərqləndirilməsindən, investisiya prosesinin elementlərinin: subyekt, obyekt, invsetisiya gəliri, investissiya mühiti fərqləndirilməsinin tədqiqindən ibarədir . Həmçinin investisiya prosesinin elementlərini əhatə edən anlaşyışlar fəqləndirilir. Metodologiya-investisiya prosesinə müxtəlif yanaşmaların açıqlanmasında sintez, təhlil, müqayisəli təhlil, induksiya, deduksiya metodlarından istifadə edilmişdir. Ümumilikdə investisiya vəsaiti qoyuluşuna əsaslanmış qərarların kapitalın marjinal məhsuldarlığının xərclərlə balanslaşdırılmasına yönəldilməsinin məqsədəuyğunluğu təklf olunur. Yerli və xarici amillərin investisiya prosesi ilə əlaqəli tədqiqatlarına istinad edilərək onların fikir və nətiicələrinə müəllim yanaşması verilir. Elmi yenilik-investisiya prosesində qeyd edilən bu alətlər yeni istehlak modellərini stabilləşdirməklə bərabər sual motivləri üzrə inteqrasiya evristikasını dəyişdirir, nəsillərarası tarazlığı təşviq edir. Bu da fərdi portfellərin demoqrafik maneələri qaldırmağa və məcmu tələbi qoruyamağa meylli olan cəmiyyətdə ən vacib şərt hesab edilir. Nəticə- investisiya və investisiya gəliri fərqli predmetin məzmununa sahib olduqda, yəni fərqli fəaliyyət sahələrinə aid olduqda, çoxsaylı investisiya prosesləri bu sahələri bir-birinə nüfuz etməyə vadar edir və nəticədə inkişaf dinamikasında lokal (fərdi) idarə olunan dəyişikliklər baş verir. Bu da öz növbəsində əlaqəli sahələrin inkişafının süni zəncirvari reaksiyasına səbəb olur. Beləliklə, investisiya prosesləri əlaqəli fəaliyyət sahələrinin inkişafı üçün süni zəncirvari reaksiya yaratmağa və saxlamağa imkan verməklə cəmiyyətin inkişafının sürətlənməsində bir amil kimi özünü büruzə verir.

Açar sözlər: *investisiya, proses, elementlər, cəmiyyət, inkişaf, sürətlənmə.*

GİRİŞ

Ölkə iqtisadiyyatının inkişaf etdirilməsi istiqamətində müəyyən edilmiş dövlət sənədlərində əsas prioritetlər sırasında yaçıl iqtisadiyyata keçid və ətraf mühitin qorunması qeyd edilir [1]. Bu məqsədlə dövlət və qeyri-dövlət sektorunun birgə investisiya fəaliyyətinin təmin edilməsi zəruri şərtlərdən hesab edilir. Hələ feodalizm dövründə vassalın feodal mülkiyyətinə girişi investisiya adlanırdı. Eyni məna, əhalisi ilə birlikdə kilsə torpaqlarını idarə etmək üçün qəbul edən yepiskopların təyin edilməsini və onların mühakimə olunma hüququnu ifadə edirdi. İnvestisiya qoyuluşu investitura (və ya müasir dillə desək, investora) təkcə öz resurslarına çıxış əldə etmək üçün yeni əraziləri tanıtmağa deyil, həm də öz ideologiyalarını tətbiq etmək məqsədi ilə səlahiyyətli mülkiyyətçilər vasitəsilə bu ərazilərin idarə edilməsində iştirak etməyə imkan verdi. Ərazilərin idarəedilməsində iştirak etmək şəraiti, bir tərəfdən, orada məskunlaşan əhalinin intensiv şəkildə istismarını əsaslandırdı

və bu ərazilərdən alınan gəlirin artırılmasına imkan verdi, digər tərəfdən isə o, regionun inkişaf etdirilmə amili kimi çıxış etdi.

Faktiki olaraq, belə bir ümumi qəbul edilmiş şərh yalnız investor anlayışına qeyri-müəyyənlik gətirmir, həm də sözün mənasını əhəmiyyətsiz xüsusiyyətlər sahəsinə daxil edir. Əslində, əmanətçi anlayışı yalnız bir proses üçün deyil, hətta bəzi fəaliyyət sahələri üçün də qeyri-spesifikdir: əmanətçi təkcə investor deyil, həm də, məsələn, sponsordur, xeyriyyəçidir və s. Bu nöqteyi nəzərdən, bir sıra tədqiqatçıların fikrincə investor anlayışı əmanətçi kimi şərh edilə bilməz. Müəlliflərin bu fikri ilə razılaşırıq, ona görə ki, həqiqətən də əmanətçi geniş əhatəli məsələlərin sponsorluğunu, müəyyən təşkilatlara və fərdlərə xeyriyyəçiliyi də öz fəaliyyət dairəsinə daxil edə bilir [6, c.125-137; 7, s.193-213].


İnvestisiya prosesi investisiya fəaliyyətinin həyata keçirilməsi üçün mərhələlərin, təsir və ya hərəkətlərin və əməliyyatların ardıcıllığıdır. İnvestisiya prosesinin konkret gedişatı investisiya obyektindən asılıdır. Yəni, burada ilkin olaraq real və maliyyə investisiyalarının qoyuluşunun icra edilməsindən söhbət gedir. İnvestisiyalar iqtisadi inkişafın təməl daşıdır, eyni zamanda bir iqtisadi prosesdir. Onlar məhdud resursların səmərəli şəkildə bölüşdürülməsinə kömək etməklə yanaşı, həm də vacib funksiyaları yerinə yetirən bazarlardan istifadə edirlər-məlumatları paylaşmaq, dövrlər arasında istehlak vaxtını tənzimləmək və maliyyə vasitəçilərindən istifadə etməklə investisiya üçün pulu başqa bir məqsədli obyektə yerləşdirmək və riskləri şaxələndirmək kimi funksiyaları həyata keçirirlər. Bu proses yalnız məhsuldar kapitalı ondan yaxşı istifadə edə biləcək insanların əlinə keçirmək üçün bir yol deyil. Daha da əhəmiyyətlisi, o, həmçinin kapital axınları üçün qapıların geniş şəkildə açıq olub-olmadığını və ya möhkəm saxlanılıb-saxlanmadığını müəyyən edir və fərdi qərarların bütün iqtisadi qərarlarla uyğunluğunu təmin edir. Bu cür tənzimləyici təhriflərlə qarşılaşdıqda, gəlirlilik riski üzərinə götürən şəxs üçün bir maddi nemət olmaqla yanaşı, artımın hərəkətvericisinə (mühərrikinə) çevrilir, eyni zamanda maliyyə bazarları riski bir tərəfdən digərinə ötürməklə mahiyyət etibarilə sığorta funksiyasını yerinə yetirir. Beləliklə, bu fundamental perspektiv iqtisadiyyata investisiya qoyuluşunun nəzəri əsasını gücləndirir: bazar qüvvələrinə zamanla müxtəlif sahələr arasında resursların bölüşdürülməsinə nəzarət edən ədalətli agent qismində baxır. Maliyyə bazarlarının sığorta funksiyası prosesi yaranan risklərin aktivlərə investisiya qoyan sahibkarlardan investisiyaları maliyyələşdirərək icra edənlərə ötürülməsi prosesini təmin edir [10, s. 52-60]. Həmin funksiyalar daxilində risk mexanizmlərinin bu formada ötürülməsi iqtisadi genişlənməyə nail olmaq üçün çox vacibdir. Bu, müəyyən bir dövrdə daha böyük məbləğlərin səfərbər edilməsinə imkan verir. Beləliklə, bütövlükdə cəmiyyətin ümumi istehsal gücünün artırılmasına nail olunur. Daha da əhəmiyyətlisi, yüksək texnologiyalı sektorlara investisiya təşviqinin yüksəlməsinə təkan verir.

1. İnvestisiya prosesi və onun elementləri

İnvestisiyalaşma prosesi investisiya sisteminin bütün xüsusiyyətlərinə malikdir: burada həmişə müəyyən edilmiş subyekt (investor) və obyekt (investisiya yatırılması planlaşdırılan obyekt), onlar arasındakı əlaqə (investisiyalaşma investisiya qoyuluşundan gəlir əldə etmək üçün prosesdir) və fəaliyyət göstərdikləri mühit (investisiya mühiti) olmalıdır [6, s. 127-131]. Bu halda əlaqə prosesdə sistem yaradan bir amil kimi çıxış edir, çünki sistemin bütün digər elementlərini bir bütöv halında birləşdirir. Odur ki, investisiya prosesinə sistemli bir yanaşma onun mahiyyətini hərtərəfli təsvir etməyə və əsas anlayışların səmərəli tərifləri verməyə imkan verir. İnvestisiya prosesinin elementlərinə sistemli yanaşmanın sxemi aşağıda verilir.

Sxemə əsasən investisiya prosesinin elementlərini əhatə edən anlayışları fərqləndirmək mümkündür:

- İnvestisiya prosesi, müəyyən bir investisiya mühitinə xas olan, idarə olunan investisiya gəliri əldə edilməsi üçün investorun investisiya qoyuluşunu həyata keçirdiyi investisiya obyekti ilə tanış edilməsi prosesidir.



Sxem 1. İnvestisiya prosesinin elementləri: subyekt, obyekt, invsetisiya gəliri, investissiya mühiti

Mənbə: *[6, s. 125-137; 8, s. 696] əsasında müəllif tərtib etmişdir*

• İnvestisiya mühiti, əsasən investisiya prosesinin spesifikliyini və əşya məzmununu təyin edən tək və ya çoxsaylı fəaliyyət sahəsidir.

• İnvestisiya-investorun onu bu obyektin iştirakçısı edən investisiya obyektinə yatırımı, investisiyanın əşya ilə təmin edilməsi investorun investisiya obyekti ilə əlaqəsinin xarakterini və bu obyektə təsir etməyin mümkün yollarını müəyyənləşdirir. İnvestisiyalar yalnız maliyyə deyil, məsələn, idarəetmə və ya elmi ola bilər.

• İnvestisiyalaşma-bir investorun xüsusiyyətlərini dəyişdirmək üçün həyata keçirilən investisiya obyektinə birbaşa və ya dolayı təsir prosesidir.

2. Keynsin səmərəli tələb nəzəriyyəsinin əsas tənliklərində ÜDM və ÜMM-in asılı amillərinin istehsalın səmərəliliyinə təsiri

Qeyd edildiyi kimi, məcmu tələb axınının müstəqil bir elementi olaraq, investisiya prosesi əslində tələbin müvafiq səviyyəsini müəyyən edir və təklif artımı istiqamətində yeni qüvvələr yaradır. O, həmçinin zamanla istiqaməti müəyyən edir, yəni istehsal davranışına və gələcək kapital tutumunun genişlənməsinə birbaşa təsir göstərir [9, s.72-83]. C.M.Keynsin 1936 - cı ildə nəşr olunan "Məşğulluq, faiz və pul nəzəriyyəsi "əsəri, o dövrdə hakim olan və Marşal, Valras və Fişer tərəfindən işlənilmiş neoklassik nəzəriyyənin bir sıra postulatlarından imtina etməkdən ibarət olan "Keyns inqilabı" iqtisadi nəzəriyyədə bir çevriliş olduğunu ifadə etdi. Keynsin səmərəli tələb nəzəriyyəsinə görə, şəxsi istehlakdakı artım gəlir artımının sabit bir funksiyasıdır, digər amillərin rolu əhəmiyyətli deyil. Keyns investisiyaların həcmini effektiv tələbin və nəticədə milli gəlirin artmasının əsas amili hesab edirdi. Milli gəlirin davamlı artımını qorumaq məqsədilə getdikcə genişlənən əmanətlərin həcmini ödəmək üçün hazırlanmış kapital qoyuluşları artmalıdır.

Beləliklə, Keyns nəzəriyyəsinin əsas tənlikləri aşağıdakı formulalarla ifadə edilir:

Ümumi daxili məhsul= C + I+G+NX, (1)

Ümumi milli məhsul=C + I. (2)

Burada: C-xüsusi istehlakı;

I-investisiyanı;

G-dövlət xərclərini;

NX-xalis ixracı ifadə edir.

Buradan aydın olur ki, istehsalın genişləndirilməsi üçün investisiya qoyuluşunda təklif və tələb tarazlaşdırılır, bununla da istehsalın səmərəliliyi artır. Keynesə görə, investisiyanın həqiqi miqdarı

(ölçüsü) iki kəmiyyətdən asılıdır: kapital qoyuluşundan gözlənilən gəlir və ya onların faiz dərəcəsindən maksimum səmərəliliyi. Bu istiqamətdə məşğul olmuş tədqiqatçıların fikrincə (1) formulasında ifadə olunan (I) investisiya qeyri-yaşayış məqsədli (firmalar tərəfindən zavodların qurulması, yeni maşın və texnologiyaların alınmasının), həmçinin əhalinin yaşayış səviyyəsinin yüksəldilməsinə istiqamətlənmiş investisiyaların (insanların yeni evlər və ya mənzillərlə təmin edilməsi) icra edilməsinə əsaslanır [9 s.72-75]. Bu qeyri-yaşayış və yaşayış məqsədli investisiyanın ikili xüsusiyyətlərini (istehlak və məhsuldar istehsal) ifadə edən fərqləri xatırlatmağa yönəldilir və iqtisadiyyatda multiplikasiya prosesinin mühüm rol oynadığını ifadə etməklə onun icrasını asanlaşdırır. Məsələn, istehsal istiqamətli (qeyri-yaşayış sahəsinə yönəldilmiş investisiya yeni maşın, avadanlıq və texnologiyaların tətbiqini stimullaşdırır, əhalinin yaşayış mənzilləri ilə təminatı səviyyəsinə qoyulan investisiya isə fərqli və dolayı yollarla ev təsərrüfatlarında balans hesabatlarına öz töhfəsini verir. Qeyd edilən stimullaşma və töhfə istiqamətli yanaşmalar keçid iqtisadiyyatlı ölkələrdə istehlakın artımına dəstək olan bərpa və transformasiya prosesinə dəstək verir.

İnvestisiyanın planlaşdırılması ilk olaraq resurs azlığı və daxildəki qeyri-müəyyən proseslərin tam uçotunu tələb etməklə qəbul edilmiş qərarların xarici təsirə davamlılığını tənzimləyə bilir. Digər nöqteyi nəzərdən, strukturlaşdırılmaya istiqamətlənmiş yanaşma təkcə investorun strategiyasını əhatə etmir, eyni zamanda nisbətən geniş ictimai inkişafı da şamil edilir. Bu istiqamətli məsələlərlə məşğul olan bəzi tədqiqatçıların fikrincə investisiyalaşma prosesinin başlıca məqsədi mənfəət əldə edilməsi hesab olunsa da cəmiyyətdə mənəvi tərəqqinin, o cümlədən insan kapitalına qoyulmuş investisiyanın nəticəsinin səmərəliliyini ifadə edir" [4, s. 7-10]. Fikrimizcə, qeyd etdiyimiz arqument investisiya prosesinə yatırılan xərclərin sosial bərabərlik şərtlərini təmin edir (işıqlandırır), xalis gəlirliliyi ötərək insan kapitalının çoxaldılmasını ifadə edir. Praktiki baxımdan bu, Azərbaycan da daxil olmaqla ikinci inkişaf qrupuna aid olan (inkişaf etməkdə olan) ölkələrin bazarlarında səmərəli investisiya vəsaitləri vətəndaşların təhsilinə və mədəni mühafizəyə yönəldilməklə yaranmış qeyr-bərabərlik vəziyyəti azalda bilən və uzunmüddətli rəqabətə davamlı sosial birliyi qoruya bilən ixtisaslı işçi qüvvələrin inkişafını təmin etdirəcəyini nəzərdə tutur.

3. İnvestisiya vəsaiti qoyuluşuna əsaslandırılmış qərarların yönəldilmə istiqamətləri

Ümumilikdə investisiya vəsaiti qoyuluşuna əsaslanmış qərarlar kapitalın marjinal məhsuldarlığının xərclərlə balanslaşdırılmasına yönəldilir. Bu da rasional kapital ehtiyatının tənzimləməsini idarə edə biləcək hesablama forması hesab edilir. Kapitalın son məhsuldarlığının xərclərlə tarazlıq modeli, investisiya formasında uyğunsuzluqlar yarada bilən makroiqtisadi səviyyələrdə olduqca aydın nəzərə çarpır. Beləliklə, firma səviyyəli məntiqi belə də ifadə etmək olar: Hər hansı bir müəssisənin kapital ehtiyatının səmərəli istifadə edilməsi ilə bağlı qərarı (yəni mövcud kapitalı çoxaltmaq və ya onun dəyərdən düşməsiüçün əlverişli mühiti formalaşdırmaq kapitaldan düzgün yararlanmağın və yaxıd onu icarəyə götürməyin hansı variantının daha sərfəliliyinin seçilməsindən asılıdır" [15, s. 501-504]. Bu tip mənfəətə yönəlmiş məntiq, firmaların müqaviləyə qarşı daha çox meylli olduğunu işıqlandırır ki, bu da məcmu təklif əyrilərinə təsir göstərir. Bu isə siyasət baxımından effektiv xərcləri azaltmaq üçün vergi güzəştləri və ya subsidiyaları müdafiə edir və bununla da əməklə zəngin iqtisadiyyatlarda kapitalın dərinləşməsini sürətləndirir və gücləndirilmiş texnoloji inteqrasiya vasitəsilə struktur işsizliyi azaldır.

İnvestisiya prosesini spekulyativ fəaliyyətlərdən yəni riskli və qısamüddətli fəaliyyətlərdən ayırmaq vacibdir. Çünki, investisiya prosesi, əsasən, mütənasib gəlirləri qorumaq üçün analitik dəqiqliyə üstünlük verir. Analitik dəqiqliyin olması qısamüddətli dəyişkənliyi azaltmaqla davamlı sabitliyi təşviq edir. B.Qrahamın fikrincə investisiya aşağıdakı kimi başa düşülməlidir: investisiya qoyuluşu başa çatdıqdan sonra onun geni təhlili əsasən firmaya adekvat gəlir əldə etməsini vəd edən əməliyyat sayıla bilər və qeyd edilən tələbləri gözləməyə nail olan əməliyyatlar spekulyativ əməliyyat hesab edilir" [12, s. 18-25]. Bu ikili çərçivə iqtisadiyyatı təkcə həddindən artıq özünəinam kimi dav-

ranış pozuntusundan qorumur, həm də aşağı istiqamətli qorumanı vurğulayaraq müasir portfel nəzəriyyəsi ilə uyğunlaşır; empirik olaraq, o, institusional investorları bazarın enişləri zamanı istiqamətləndirir, yenidən investisiya üçün kapitalı qoruyur.

Qloballaşma dövründə investisiya prosesi xarici kapital axınlarını gücləndirir, milli sərhədləri aşmaq və müxtəlif iqtisadiyyatlara inteqrasiya etmək üçün müqayisəli üstünlüklərdən istifadə edir. Bu transmilli ölçü qlobal miqyasda üstün resurs bölgüsünü asanlaşdırır, sinerji effekti vasitəsilə daxili maneələri aradan qaldırır. Sabiroğlunun fikrincə şirkətin inkişafına çəkilən xərclərin investisiya hesab edilməsi üçün, yeni bir kapital mənbəyinin təmin edilməsi, həmçinin onun istehsal potensialının yüksəldilməsinə istiqamətlənməsi vacib şərtlərdəndir [5, s. 12-21]. Bu prinsip məna etibari ilə, gələcəkdə investisiyaların məhsuldarlığının artırılmasına yönəlib. Və nəzərə alsaq ki, qloballaşma şəraitində, investisiya qoyuluşları daha çox artır bu da regionlarda, xüsusilə, kapital qıtlığı olan bölgələrdə innovasiyanı stimullaşdıraraq, yeni məşğulluq mərkəzlərinin yaradılmasını və ixracın şaxələndirilməsini təşviq edir, eyni zamanda ödəniş balansındakı balanssızlıqları aradan qaldırır.

Tənzimləyici çərçivələr tarixən investisiya prosesini mülkiyyət strukturlarını sosial imperativlərlə uyğunlaşdırmaq üçün modulyasiya edir, bunu orta əsr dini praqmatizmi sübut edir. Başqa sözlə, faiz dərəcələrinin məhdudlaşdırılması sələmçilikdən vəsaitləri maddi aktivlərə yönləndirməklə real sektor investisiyalarını stimullaşdıra bilər. Piketty qeyd edir ki, kilsə fərqli zaman kəsiyində praqmatik yanaşma qəbul etməklə investisiya qoyuluşu və mülkiyyətin qəbul edilə biləcək formalarını tənzimləyir, əldə olunan kapital vəsaitinin xristian doktrinasına aid edilən sosial-siyasi məqsədlərə xidmətini təmin etmək məqsədilə sosial və siyasi nəzarəti yaratmağa nail olur [16, s. 98-112]. Bu tarixi prizma investisiyaların ideoloji əsaslarını ortaya qoyur, buna görə kapital sadəcə yığılmaya deyil, ədalətli bölgüyə xidmət edir.

Qrafik modelləşdirmə və dinamik proqramlaşdırma optimallaşdırması investisiya prosesini kəmiyyət təhlilini asanlaşdırır, dəqiq pul vəsaitlərinin hərəkəti proqnozlarını və qərarların ardıcıllığını müəyyən etməyə imkan verir. Bu analitik alətlər dəsti iqtisadi planlaşdırmada müvəqqəti qeyri-müəyyənliklərin aradan qaldırılması üçün əvəzolunmazdır. Luenberqerin fikrincə investisiya qoyuluşundan müsbət nəticə əldə etmək məqsədilə investisiyalar davamlı idarəetmənin olmasını tələb edir. İdarəetmənin nəticəsi olan qərar qəbulu və pul vəsaitləri axınının əlaqəsi bir çox hallarda qrafik şəklində verilir [14, s. 160-172]. Luenberqin bu fikri ilə razılaşmaq olar, ona görə ki, investisiyaya qiyulan xərcin riski çox yüksək olduğu halda və ya kəsin mənfəətlə nəticələndiyi halda xərclər qısa zaman kəsiyində dəyişkən olur və bu qrafidə daha tez gözə çarpır. Bu baxımdan da, qərar qovşaqlarını və qövslərini vizuallaşdırmaqla bu modellər optimallığa nail olmağa, yəni qərarlar alınarkən mərhələləri ayrı-ayrılıqda analiz edərək ən optimal qərarın alınmasını, yəni geri induksiyanı (reverse inductiona) asanlaşdırır; onların alqoritmik ticarətdə və ya layihə qiymətləndirməsində tətbiqi fürsət xərclərini minimuma endirir, nəticədə məlumatlara əsaslanan proqnozlaşdırma vasitəsilə iqtisadi elastikliyi artırır.

İnvestisiya prosesində portfel idarəetməsi sistematik olaraq diversifikasiya prinsipləri vasitəsilə riskləri azaldır və gəlirlilik istəklərini dəyişkənlik tolerantlıqları ilə balanslaşdıran səmərəli sərhədlər yaradır. Avadhani tədqiqat nəticəsində belə nəticəyə gəlmişdir ki, portfelin idarə olunması şaxələrə ayrılmış səbətin köməyi ilə effektiiv portfelin qurulması üçün Portfel Nəzəriyyəsinin prinsipləri tətbiq edildiyi halda investisiya prosesinə müsbət təsir göstərmiş olur [8, s. 271-286]. Fikrimizcə, qeyd edilən nəzəri fikirdə investisiyaların portfel nəzəriyyəsi ilə əlaqəli istifadə edilməsi daha səmərəli hesab edilir. Nəzəriyyədə əsas nəzərə alınan anlayış diverisifikasiya, əldə edilən gəlirlərin düzgün bərabər bölüşdürülməsini tələb edir.

Rəqabət üstünlükləri yurisdiksiyalar arasında korporativ nəzarət xətlərini müəyyən edir və investisiya prosesini çoxmillətli fəaliyyətə doğru aparır. Froot öz tədqiqatlarında ənənəvi paradiqmalar haqqında qeyd edir ki, ənənəvi tətbiq edilən nəzəriyyələr ölkələr arasındakı rəqabət üs-

tünlüyü fərqlərinə baxmaqla müəssisələrin məkanını, əhatə dairəsini qiymətləndirmək olar. Bu isə öz növbəsində ölkələrin və ya müəssisələrin sərhədlərarasında korporativ nəzarətin geniş vüsət almasını şərtləndirə bilər [11, s. 1-12]. Bu cür fəaliyyətlər bazar gücünü möhkəmləndirməklə yanaşı, həm də ən yaxşı təcrübələri yaymaqla ev sahibi ölkənin səmərəliliyini artırır; lakin, onlar yerli fikirləri xarici təcrübə ilə birləşdirən birgə müəssisələr vasitəsilə mənfəət-gəlir və xalis inkişaf qazanclarından qorunma tələb edir. Çoxtərəfli enerji tərəfdaşlığı, investisiya prosesinin bərpa olunan enerji dəyişkənliyini necə katalizləşdirdiyini və iqtisadi stimulları ətraf mühit imperativləri ilə necə birləşdirdiyini nümayiş etdirir. Dolayı yolla, innovasiya təsirləri və əməkdaşlıq sinerjiləri bu təsirləri, xüsusən də emissiya intensiv rejimlərdə gücləndirir. Zuo və Yunun əldə etdiyi nəticədən göründüyü kimi BREP-də iştirak etmək bərpa olunan enerjilərə yönəldilmiş investisiyalarda orta hesabla 11,81% artımı əldə etmək mümkündür və iştirakçı olmayan ölkələrə nisbətən iştirakçıların konsentrasiya faizini (17,96%) azalda bilər [17, s.124-164]. Bu ikili dividend infrastruktur xərclərinə investisiya-ların birgə faydalarını vurğulayır, burada o, təkcə maliyyə gəlirlərini deyil, həm də səhiyyə xarici təsirlərini təmin edir. İnflyasiya və ölüm nisbətləri nəzərə alınmaqla, investisiya prosesi real sərvət trayektoriyalarını qorumaq üçün inflyasiya ilə əlaqəli alətlər kimi innovasiyalardan qorunma tələb edir. Bu uyğunlaşma əmək bazarının çevikliyinə də aiddir, burada iş mobilliyi hədləri uzunömürlülük və miras mülahizələrinə cavab verir. Li, Şin və Yun tədqiqat nəticəsində müəyyən etmişlər ki, inflyasiya qoyuluşu ilə bağlı buraxılan istiqrazlar onun əlaqəli investisiya portfelinin formalaşmasında xüsusi əhəmiyyətə malikdir [13, s.107-307]. İnvestisiya prosesində qeyd edilən bu alətlər yeni istehlak modellərini stabilləşdirməklə bərabər sual motivləri üzrə inteqrasiya evristikasını dəyişdirir, nəsillərarası tarazlığı təşviq edir. Bu da fərdi portfellərin demoqrafik maneələri qaldırmağa və məcmu tələbi qoruyamağa meylli olan cəmiyyətdə ən vacib şərt hesab edilir.

NƏTİCƏ

Beləliklə, investisiya prosesi öz-özünə mövcud deyil, həmişə səviyyəli bir məkana aiddir. Bu o deməkdir ki, o, vahid yanaşma çərçivəsində, məkan baxımından sistemin digər sistemlərlə qarşılıqlı əlaqədə nəzərdən keçirilməsini zəruri edir. Bu, həm müəyyən bir fəaliyyət sahəsində, həm də sosial münasibətlər sistemində investisiya prosesinin yerini və rolunu hərtərəfli təsvir etməyə imkan verir. Hər hansı bir subyekt inkişafa yönəldilməklə həmişə bəzi mənbələrin doldurulmasını və müəyyən xüsusiyyətlərin dəyişdirilməsini tələb edir. Bu çatışmazlığın öz-özünə aradan qaldırılmasına yönəldilməsi inkişafın kəskin yavaşlamasına səbəb olur, çünki subyektdən qeyri-adi fəaliyyətlə məşğul olmağı tələb etməklə əsas resurs mənbələrindən kənarlaşmaya yönləndiririr. İnvestisiya ehtiyacı, tapılan obyektin potensialı lazımi meyarlara cavab verməddikdə və onun inkişafı üçün müəyyən bir xarici iştirak tələb etdikdə yaranır. İnvestisiya etmək imkanı o zaman tələb olunur ki, subyekt mümkün resurslara və xüsusiyyətlərə malik olduqda obyektin xüsusiyyətlərinə lazımi təsir göstərmək imkanına sahib ola bilsin.

Belə ki, investisiya və investisiya gəliri fərqli predmetin məzmununa sahib olduqda, yəni fərqli fəaliyyət sahələrinə aid olduqda, çoxsaylı investisiya prosesləri bu sahələri bir-birinə nüfuz etməyə vadar edir və nəticədə inkişaf dinamikasında lokal (fərdi) idarə olunan dəyişikliklər baş verir. Bu da öz növbəsində əlaqəli sahələrin inkişafının süni zəncirvari reaksiyasına səbəb olur. Beləliklə, investisiya prosesləri əlaqəli fəaliyyət sahələrinin inkişafı üçün süni zəncirvari reaksiya yaratmağa və saxlamağa imkan verməklə cəmiyyətin inkişafının sürətlənməsində bir amil kimi özünü büruzə verir.

İstifadə edilmiş ədəbiyyat:

1. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı.

2. "AR-nın işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması haqqında". Azərbaycan Respublikası Prezidentinin 3 may 2021-ci il tarixli, 2620 nömrəli Sərəncamı.

4. Əzizova G.A. (2012). Dövlətin investisiya-innovasiya siyasəti. Bakı, -107 s.

5. Sabiroğlu, N. (2006). Qloballaşma və xarici investisiyalar. "Qloballaşan Azərbaycan" Sivil İnkişaf Mərkəzi. Bakı, -287 S.

6. Маскин В. (2019). Сущность инвестиционного процесса // В. Маскин. Экономика и жизнь, – Т. 50. – с. 125-137.

7. Порфирьев Б.Н. (2011). Факторы климатических рисков в инновационной стратегии развития // Б. Н.Порфирьев. Регион: экономика и социология. -№ 1, -с. 193-213.

8. Avadhani, V.A.(2011).Investment Management.Mumbai:Himalaya Publishing House,696 p.

9. Blanchard O. (2017). Macroeconomics (7th ed., Global ed.). -Boston: Pearson, -581 P.

10. Bunevich K.G., Gorbacheva T.A. (2022). "Zelenye" tendentsii v razvitii mirovoi finansovoi sistemy // K.G. Bunevich, T.A. Gorbacheva. Vestnik Moskovskogo universiteta im. SYu Vitte. Seriya 1: Ekonomika i upravlenie, Moskow, -№1, -pp.52-60

11. Froot K.A. Foreign Direct Investment. 1993. Chicago:University of Chicago Press, 307 p.

12. Graham, B. (1973) The Intelligent Investor: A Book of Practical Counsel (Rev. ed.). New York: Harper & Row, 641 p.

13. Li, Q., Shin, Y.H., Yoon, J.H. (2025). Job switching and bequest motives in an optimal consumption–investment model under inflation and mortality risks // Q.Li, Y.H.Shin, J.H.Yoon. Economic Modelling, -pp.107-30.

14. Luenberger, D.G. (2014). Investment Science (2nd ed.). New York: Oxford University Press, -640 p.

15. Mankiw, N.G. (2013). Macroeconomics (8th ed.). New York: Worth Publishers, 674 P.

R.Z.Abdulhasanova
PhD student, teacher, Nakhchivan State University

Investment process: elements, their implementation stages

Abstract

The purpose of the article is to investigate and determine the investment process, its main organizing elements, to differentiate the concepts of investor and depositor, to study the differentiation of the elements of the investment process: subject, object, investment income, investment environment. Also, the concepts covering the elements of the investment process are distinguished. The methods of synthesis, analysis, comparative analysis, induction, deduction were used in explaining various approaches to the methodology-investment process. In general, the expediency of decisions based on investment funds being directed at balancing the marginal productivity of capital with costs is suggested. These tools, mentioned in the process of scientific innovation-investment, stabilize new consumption patterns, change the integration heuristics on question motives, promote intergenerational balance. This is considered the most important condition in a society that tends to remove demographic barriers to individual portfolios and maintain aggregate demand. The result is that when investment and investment income have different subject content, that is, belong to different areas of activity, multiple investment processes force these areas to penetrate each other, and as a result, locally (individually) controlled changes in the dynamics of development occur. This, in turn, leads to an artificial chain reaction of the development of related areas. Thus, investment processes manifest themselves as a factor in the acceleration of the development of society, allowing to create and maintain an artificial chain reaction for the development of related areas of activity.

Keywords: *investment, process, elements, society, development, acceleration.*

https://doi.org/10.58225/tim.2025-4-386-397

F.M.Mərdanlı
doktorant, Azərbaycan Dövlət İqtisad Universiteti
Mardanli.Fadai.Mehman.2023@unec.edu.az

Məqalə redaksiyaya daxil olub 03.11.2025
The article was received by editorial board on 03.11.2025
Статья принята к печати 03.11.2025

KRİPTOVALYUTA BAZARLARININ İNKİŞAFI VƏ MİQRASİYA POTENSİALI: YENİ İQTİSADİ İMKANLAR VƏ MOTİVASİYALAR

Xülasə

Məqalədə kriptovalyuta bazarlarının son illərdə sürətli inkişafı fonunda miqrasiya proseslərinə və pul köçürmələrinə təsirləri araşdırılır. Ədəbiyyat icmalında rəqəmsal aktivlərin transmilli pul axınlarında artan rolu və yeni iqtisadi imkanlar yaratması barədə mövcud yanaşmalar müqayisəli təhlil edilir. Tədqiqatda toplanmış statistik göstəricilər və SPSS proqramında aparılmış ekonometrik təhlillər nəticəsində müəyyən edilib ki, kriptovalyutaların yüksəlişi bəzi hallarda pul köçürmələrinin xərclərini əhəmiyyətli dərəcədə azalda bilər və miqrasiya qərarlarına yeni motivasiyalar gətirə bilər. Lakin nəticələr göstərir ki, kriptovalyutanın yaratdığı imkanların reallaşması tənzimləyici çərçivədən və əhali arasında rəqəmsal maliyyə savadlılığından asılıdır. Kriptovalyuta bazarlarının inkişafı müəyyən hallarda yeni iqtisadi imkanlar yaratsa da, onların miqrasiya potensialı hələ tam gerçəkləşməmiş, bəzi ölkələrdə risklər və institusional məhdudiyyətlər səbəbindən gözlənildiyindən aşağı olub. Məqalədə aparılmış ekonometrik təhlil hipotezlərin bir qismini təsdiq edir – məsələn, ənənəvi köçürmələrin yüksək məzənnəli olduğu ölkələrdə sabitkoinlərin istifadəsinin artdığı statistik olaraq mühüm səviyyədə müşahidə edilir. Bununla belə, rəqəmsal aktivlərin beynəlxalq miqrasiyaya təsiri mürəkkəbdir və həm müsbət (maliyyə inklüzivliyi, sərmayə axınlarının asanlaşması), həm də mənfi (beyin axını, vergidən yayınma) təzahürlər göstərir. Ümumilikdə, kriptovalyuta bazarlarının inkişafının yeni iqtisadi imkanlar yaratmaqla yanaşı, miqrasiya proseslərinə innovativ, lakin hələlik məhdud miqyasda təsir etdiyi qənaətinə gəlinir.

Açar sözlər: *kriptovalyuta; miqrasiya; pul köçürmələri; rəqəmsal iqtisadiyyat; sabitkoinlər.*

GİRİŞ

Kriptovalyutalar son onillikdə qlobal maliyyə sistemində diqqətəlayiq hadisəyə çevrilmişdir. Xüsusilə Bitcoin-in 2009-cu ildə yaranmasından sonra rəqəmsal aktivlər bazarı sürətlə böyüyərək qısa müddətdə trilyon dollarlıq kapitallaşmaya çatmışdır (Blandin və başq., 2020; Ratha və başq., 2024). Bu inkişaf təkcə investisiya və maliyyə texnologiyaları sahəsinə deyil, həm də beynəlxalq iqtisadi proseslərə – o cümlədən əmək miqrasiyasına və xaricdə yaşayan vətəndaşların pul köçürmələrinə – təsirsiz ötüşməmişdir. Son dövrlərdə tədqiqatçılar və beynəlxalq qurumlar kriptovalyutaların transmilli pul transfertlərinə potensial təsirini, həmçinin yeni iqtisadi imkanlar və motivasiyalar yaratmaq imkanını araşdırmağa başlamışlar (Robins, 2024; Dunbar və başq., 2025). Lakin mövzu yenidir və kriptovalyuta bazarlarının "miqrasiya potensialı" adlandırılan təsir mexanizmləri hələ tam anlaşılan deyil.

Ənənəvi olaraq, inkişaf etmiş ölkələrdə çalışan miqrantların və diasporların öz vətənlərinə göndərdiyi pul vəsaitləri – yəni pul köçürmələri – bir çox inkişaf etməkdə olan ölkə üçün mühüm maliyyə axınıdır. Dünya Bankının məlumatına görə, qlobal rəsmi pul köçürmələrinin həcmi 2015-ci ildə təxminən 582 milyard ABŞ dolları təşkil etmişdisə, sonrakı illərdə bu rəqəm davamlı artaraq 2022-ci ildə 844 milyard dollara çatmışdır (Ratha və başq., 2024). Cədvəl 1 və Cədvəl 2 müvafiq olaraq qlobal kriptovalyuta istifadəçilərinin sayındakı artımı və qlobal pul köçürmələri həcmlərinin artımını göstərir. Gördüyümüz kimi, 2016-cı ildə cəmi 5 milyon nəfər civarında olan kriptovalyuta istifadəçisi sayı 2020-ci ildə 100 milyonu aşmış, 2024-cü ildə isə təxminən 560 milyon nəfərə çatmışdır (Blandin və başq., 2020; Triple-A, 2024). Bu möhtəşəm artım rəqəmsal maliyyə texnologiyalarının geniş yayıldığını göstərməklə yanaşı, kriptovalyutaların mümkün təsir dairəsi barədə bəzi suallar doğurur: Bu qədər insanın kriptoaktivlərə yönəlməsi beynəlxalq miqrasiya axınlarına təsir edirmi? Rəqəmsal valyutaların meydana çıxması xaricə işləməyə gedən insanların vəsait göndərmə üsullarını və hətta miqrasiya qərarlarını dəyişirmi?

Cədvəl 1

Qlobal kriptovalyuta istifadəçilərinin sayı (2016–2024)

İl	İstifadəçilərin sayı (milyon nəfər)
2016	5
2018	35
2020	101
2022	402
2024	560

Mənbə: *Cambridge CCAF məlumatları (2016–2020) və Crypto.com/Triple-A hesabatları (2021–2024) əsasında tərtib edilib (Blandin və başq., 2020; Crypto.com, 2022; Triple-A, 2024).*

Cədvəl 2

Qlobal pul köçürmələrinin həcmi (2015–2024)

İl	Qlobal pul köçürmələri (milyard $)
2015	582
2018	689
2021	795
2024	905

Mənbə: *Dünya Bankı, Migration and Development Brief 40 (Ratha və başq., 2024) və Dünya Bankının məlumat bazası.*

Yuxarıdakı cədvəllərdən görünür ki, kriptovalyuta istifadəçilərinin sayı eksponensial artdığı bir dövrdə qlobal pul köçürmələrinin həcmi də artmaqdadır. Bu paralel artım bəzi tədqiqatçılara kriptovalyutaların beynəlxalq pul transfertlərinə təsirini daha dərindən öyrənmək üçün stimul vermişdir (Robins, 2024; Ante, 2025). Xüsusilə, kriptovalyuta texnologiyası pul köçürmələrinin sürətini artırmaq və xərcini azaltmaq potensialına malik olduğu üçün (Ante, 2025; Dunbar və başq., 2025), belə bir sual yaranır: rəqəmsal valyutaların yayılması migrasiya ilə bağlı yeni iqtisadi motivasiyalar yaradırmı? Məsələn, əgər miqrantlar ənənəvi bank köçürmələrinə yüksək komissiya ödəmək əvəzinə sabitkoinlər kimi kripto vasitələri ilə vətənə vəsait göndərə bilirlərsə, bu, onların göndərdiyi məbləğləri artırmağa və ya hətta ölkədən getmək zərurətini azaltmağa təsir göstərə bilərmi? Digər tərəfdən, kriptovalyuta sektorunda yaranan yeni varlı fərdlər və şirkətlər vergi və tənzimləmə mühitinə görə öz aktivlərini müxtəlif ölkələrə miqrasiya etdirməyə başlayıblar (Henley & Partners, 2023). Məsələn, 2023-cü ildə dünyada 88,200-ə yaxın kriptovalyuta milyonçusu olduğu

bildirilir və onların bir qismi kripto-dost ölkələrdə yaşayış yeri və ya vətəndaşlıq əldə etməyə maraq göstərir (Henley & Partners, 2023).

Bu məqalənin məqsədi kriptovalyuta bazarlarının inkişafının yaratdığı yeni iqtisadi imkanları və miqrasiya potensialını qiymətləndirməkdir. İlk növbədə, mövcud elmi ədəbiyyata əsaslanaraq kriptovalyutaların pul köçürmələri və beynəlxalq miqrasiya ilə əlaqəsini nəzərdən keçirəcəyik. Daha sonra, topladığımız son dövr statistik məlumatları əsasında ekonometrik təhlil aparacağıq. Bu təhlildə SPSS proqramı vasitəsilə bir sıra hipotezlər yoxlanılacaq – məsələn, "pul köçürmələrinin yüksək xərcli olduğu ölkələrdə kriptovalyuta istifadəsi (xüsusən sabitkoinlər) əhalinin daha çox hissəsi tərəfindən mənimsənilib" hipotezi. Bundan əlavə, kriptovalyuta bazarlarında yaranan yeni iş imkanlarının (məsələn, rəqəmsal freelans işlər, blokçeyn startapları) əmək miqrasiyasına təsir edib-etmədiyi də müzakirə olunacaq. Məqsədimiz süni intellektdən alınan sabit cavablardan qaçmaq, əksinə real verilənlərə və tədqiqat nəticələrinə əsaslanaraq insan fəaliyyəti prizmasından bu mövzunu təhlil etməkdir.

Kriptovalyutalar və pul köçürmələrinin xərci

Beynəlxalq təşkilatlar illərdir ki, pul köçürmələrinin yüksək xərcli olmasından narahatdırlar. BMT 2030 Dayanıqlı İnkişaf Məqsədlərində hədəf qoymuşdur ki, 2030-cu ilə qədər xaricə pul göndərmənin orta komissiya haqqı 3%-dən aşağı olsun (Dünya Bankı, 2019). Halbuki 2020-ci illərin əvvəlində bu orta xərc hələ 6–7% intervalında idi (Ratha və başq., 2024). Kriptovalyutaların mərkəzsiz və sərhədsiz xarakteri, həmçinin blokçeyn üzərindən vasitəçiləri minimallaşdıraraq dəyər ötürməsi imkanı ümid verirdi ki, köçürmə xərclərini ciddi şəkildə azalda bilər (Schilling və Uhlig, 2019b; IMF, 2022). Məsələn, sabitkoin adlanan və dəyəri dollara indekslənmiş rəqəmsal valyutaların istifadəsi ilə miqrant işçilər ənənəvi bank və pul köçürmə operatorlarının (Western Union, MoneyGram kimi) yüksək komissiyalarından yan keçə bilərlər. Lennart Ante (2025) tərəfindən aparılmış bir tədqiqat göstərdi ki, ABŞ-da pul köçürmələri göndərən mühacirlərin 26%-i artıq öz tranzaksiyalarında sabitkoinlərdən istifadə edir. Bu, sabitkoinlərin artıq xırda bir təbəqənin aləti deyil, transmilli ödənişlər üçün genişlənən bir seçim olduğunu göstərir (Ante, 2025). Həmin tədqiqatda həmçinin müəyyən edilib ki, rəqəmsal texnologiya və maliyyə bilikləri yüksək olan miqrantlar sabitkoinləri mənimsəməyə daha meyllidirlər – yəni rəqəmsal maliyyə savadlılığı artdıqca kripto vasitələrdən istifadə ehtimalı yüksəlir (Ante, 2025). Bu nəticələr göstərir ki, əgər lazımi biliklərə malikdilərsə, miqrantlar kriptovalyuta texnologiyasını real ehtiyaclarını qarşılamaq üçün praktiki olaraq faydalı görürlər.

Kriptovalyuta vasitələrinin ənənəvi köçürmələrlə müqayisədə xərc üstünlüyü bir çox nümunələrlə dəstəklənir. Cədvəl 3-də beynəlxalq pul köçürmələrinin göndərilməsi xərcinin son illərdəki tendensiyası göstərilib. 2016-cı ildə 200 dollarlıq tipik bir köçürmənin qlobal orta xərci təqribən 7,5% olduğu halda, rəqəmsal ödəniş platformalarının yayılması sayəsində bu göstərici 2023-cü ilin sonuna qədər 6,4%-ə enmişdir (Ratha və başq., 2024). Bununla belə, hələ 6%-dan çox olması hədəflənən 3%-lik səviyyədən xeyli yüksəkdir. Kriptovalyutaların tətbiqi bu göstəricini daha sürətlə azaltmaq potensialı kimi qiymətləndirilir (IMF, 2023). Məsələn, Federal Rezerv Sisteminin Dallas filialının təhlilində deyilir ki, rəqəmsal ödəniş texnologiyaları (o cümlədən kriptovalyutalar) ənənəvi sistemdə olan bir çox xərcləri aradan qaldıraraq, pul köçürmə haqlarını 2–3% intervalına qədər sala bilər (Dunbar və başq., 2025). Cədvəl 4 fərqli pul köçürmə kanallarında xərclərin müqayisəsini təqdim edir. Gördüyümüz kimi, ən bahalı üsullar bank köçürmələri və ənənəvi pul ötürmə operatorlarıdır – bəzi ölkələr arasında bank vasitəsilə 200 dollarlıq pul göndərmənin xərcinin 10–15% həddinə çatdığı qeydə alınmışdır (Dunbar və başq., 2025). Əksinə, tam rəqəmsal fəaliyyət göstərən müasir mobil pulköçürmə tətbiqləri bu xərci orta hesabla 2–5%-ə qədər endirə bilmişdir. Kriptovalyuta əsaslı köçürmələrdə isə bir çox hallarda ümumi komissiya 1–3% aralığında, bəzən daha aşağı olur (IMF, 2023; Dunbar və başq., 2025). Məsələn, Meksika və ABŞ arasındakı köçürmə baza-

rında fəaliyyət göstərən Bitso kripto-birjası 2024-cü ildə bu koridor üzrə 6,5 milyard dollardan çox pul köçürməsi emal etmişdir ki, bu da həmin marşrutun 10%-dən çoxunu təşkil edir (Dunbar və başq., 2025). Bitso kimi platformalar vasitəsilə həyata keçirilən bu köçürmələr ənənəvi provayderlərlə müqayisədə xərcləri ciddi şəkildə azaltdığı üçün istifadəçi payını qısa müddətdə əhəmiyyətli dərəcədə artırmışdır.

Cədvəl 3

Pul köçürmələrinin orta göndərilmə xərci (200$ üçün, %)

İl	Orta qlobal xərc (%)
2016	7,5
2018	6,9
2020	6,5
2021	6,3
2022	6,2
2023	6,4

Mənbə: *Dünya Bankının "Remittance Prices Worldwide" məlumatları əsasında (Ratha və başq., 2024).*

Cədvəl 4

Fərqli kanallarla pul göndərmənin təqribi komissiya xərcləri

Kanal	Tipik komissiya haqqı (% ilə)
Bank vasitəsilə beynəlxalq köçürmə	4% – 18% (sabit ödənişlər və valyuta məzənnə fərqi daxil)
Ənənəvi pulköçürmə operatoru (MTO)	4% – 10% (agent şəbəkəsi vasitəsilə nağd)
Rəqəmsal (mobil/internet) pulköçürmə xidməti	2% – 5% (tam rəqəmsal, sürətli ödəniş)
Kriptovalyuta əsaslı köçürmə	< 3% (şəbəkə haqqı + birja/off-ramp komissiyası)*

Mənbə: *Dunbar və başq. (2025); Dünya Bankı məlumatları.*

Qeyd: Kriptovalyuta əsaslı köçürmələr üçün vahid komissiya göstəricisi vermək çətindir, çünki blokçeyn şəbəkəsinin yüklənməsindən və birja/platforma komissiyalarından asılı olaraq dəyişir. Yuxarıdakı qiymətləndirmə tipik sabitkoin transferi üçün nəzərdə tutulub.

Kriptovalyutaların köçürmə xərclərinə təsirini empirik olaraq ölçən tədqiqatlar da bu qənaətləri dəstəkləyir. Banklararası Hesablaşmalar Bankının (BIS) 2023-cü ildə dərc etdiyi əhatəli tədqiqatda 2017–2022-ci illər arası 184 ölkə üzrə kriptovalyuta və ənənəvi pul axınlarının müqayisəsi aparılmışdır. Həmin araşdırmada müəyyən edilmişdir ki, ənənəvi üsullarla pul göndərməyin baha başa gəldiyi ölkə cütlükləri arasında kriptovalyuta (xüsusən sabitkoin) tranzaksiyaları əhəmiyyətli dərəcədə daha yüksək olur (BIS, 2023). Başqa sözlə, əgər bir ölkədən digərinə bank/ənənəvi kanalla pul göndərmək çox xərc tələb edirsə, insanlar alternativ olaraq kripto-ödənişlərə üstünlük verirlər. Məsələn, tədqiqatda sabitkoin axınları ilə pul köçürmə xərcinin statistik olaraq əks istiqamətdə hərəkət etdiyi – yəni yüksək komissiya olduğu marşrutlarda USDT kimi sabitkoinlərin həcmcə artdığı müşahidə edilmişdir (BIS, 2023). Bu nəticə məntiqə uyğundur: rəsmi kanallar bahalı olduqda miqrantlar və diaspor üzvləri vətənə vəsait göndərmək üçün qeyri-rəsmi və ya kripto kanallar axtarırlar. Nigeriya buna bir nümunə kimi göstərilə bilər – 2020-ci illərin əvvəllərində banklar kripto əməliyyatlarını qadağan etdikdə, Nigeriyaya rəsmi pul baratları kəskin şəkildə azalaraq 2020-ci ildəki $23,5 milyarddan 2021-ci ildə $17,2 milyarda düşmüşdür, ekspertlər bu azalmanın $6 milyardının kriptovalyutalar və digər qeyri-rəsmi kanallarla göndərildiyini ehtimal edirlər (The Africa Report, 2022). Göründüyü kimi, kriptovalyuta texnologiyası pul köçürmələrinin "kölgə iqtisadiyyatı"nı da

formalaşdırmağa başlayır – rəqəmsal yollarla köçən pul rəsmi statistikalara düşməyə bilər, amma ailələrə çatan məbləğ azalmır, sadəcə marşrut dəyişir.

Pul köçürmələri və miqrasiyada yeni motivasiyalar

Pul köçürmələrinin dəyərinin azalması miqrantlar və onların ailələri üçün əhəmiyyətli sosial-iqtisadi təsir yarada bilər. Dünya Bankının hesablamalarına görə, pul göndərmə xərci qlobal miqyasda orta hesabla 3%-ə düşərsə, hər il migrasiya nəticəsində göndərilən vəsaitlərin üzərində istehlakçılar təxminən $20 milyard daha az komissiya ödəyərdilər (Dünya Bankı, 2019; Dunbar və başq., 2025). Cədvəl 5 bu hipotetik ssenarini nümayiş etdirir. Gördüyümüz kimi, hazırkı təqribi 6%-lik qlobal komissiya səviyyəsindən hədəflənən 3%-ə düşülsə, hər il az inkişaf etmiş ölkələrin ailələrinə çatacaq əlavə məbləğ on milyardlarla dollar təşkil edəcəkdir. Bu, milyonlarla ailənin büdcəsinə birbaşa müsbət təsir deməkdir və yoxsulluğun azaldılmasına, təhsilə, səhiyyəyə yönəlik xərclərin artmasına səbəb ola bilər (World Bank, 2019). Kriptovalyutalar bu məqsədə çatmaq üçün potensial alət kimi görülür, çünki onlar vasitəçi komissiyalarını minimallaşdırır və rəqabəti artırır.

Cədvəl 5

Pul köçürmələrinin xərci 3%-ə düşərsə potensial illik qənaət

Göstərici	**Dəyər (təxmini, 2023)**
İllik qlobal pul köçürməsi həcmi	$865 milyard
Cari orta komissiya (%)	6,4%
Cari illik komissiya məbləği	$55 milyard
3% komissiya ilə illik məbləğ	$26 milyard
İllik qənaət	$29 milyard

Mənbə: *Dünya Bankı və BMT hesablamaları (Dunbar və başq., 2025; World Bank, 2019).*

Beləliklə, nəzəri olaraq kriptovalyutaların və rəqəmsal ödəniş platformalarının geniş tətbiqi migrasiya ilə bağlı maliyyə axınlarının səmərəliliyini artıraraq yeni imkanlar yarada bilər. Miqrant işçilər daha ucuz yollarla ailələrinə vəsait göndərə bildikcə, onların əmək miqrasiyasına çıxmaq motivasiyaları da dəyişə bilər. Bəzi mülahizələrə görə, əgər rəqəmsal texnologiyalar sayəsində insanlar öz ölkəsində oturaraq beynəlxalq pul qazana və sərhədlərarası maliyyə əməliyyatları apara bilirlərsə, bu hal "iqtisadi miqrasiyaya" ehtiyacı azalda bilər – yəni dolanışıq üçün mütləq xaricə getmək tələb olunmaz (Clement, 2022). Məsələn, 2021–2022-ci illərdə pandemiya dövründə Filippin, Vyetnam kimi ölkələrdə ortaya çıxan "play-to-earn" (oyna-qazan) kimi rəqəmsal iş modelləri gənclərə evdən çıxmadan qlobal kripto iqtisadiyyatından pul qazanmaq imkanı verdi. Xüsusilə Filipində Axie Infinity oyunu vasitəsilə minlərlə gənc sabitkoinlər qazanaraq ailələrinə dəstək oldular və bu, bəzi hallarda ənənəvi xaricə getmə planlarını ertələdi (World Population Review, 2023). Həmin dövrdə Filipində kriptovalyuta sahibliyi sürətlə artaraq 2023-cü ildə əhalinin 13,5%-nə çatdı (World Population Review, 2023). Bu cür fenomenlər göstərir ki, kripto iqtisadiyyatı daxildə də yeni gəlir imkanları açaraq miqrasiyaya alternativ yarada bilər. Bununla belə, bu hələ lokal və qeyri-davamlı bir tendensiyadır; 2022-ci ilin kripto bazarındakı volatillikdən sonra "oyna-qazan" sektorunun tənəzzülü həmin gənclərin gəlirlərini azaltdı və yenidən ənənəvi əmək bazarına qayıtmalı oldular (Chainalysis, 2023). Deməli, kriptovalyuta imkanlarının miqrasiyaya təsiri möhkəm əsaslara malik olması üçün rəqəmsal iqtisadiyyatın sabitliyi vacibdir.

Kriptovalyuta sektoru və yeni miqrasiya axınları

Kriptovalyutaların inkişafı təkcə miqrantların pul göndərməsi ilə bağlı deyil, həm də yüksək ixtisaslı kadrların və sərmayələrin hərəkəti ilə bağlı yeni trendlər yaradıb. Kripto sektorunda uğur qazanmış startaplar, böyük sərmayələr cəlb edən şirkətlər və varlanan fərdlər daha əlverişli hüquqi mühit və vergi rejimi olan ölkələrə köç etməyə başlayıblar (Henley & Partners, 2023). Məsələn, son illərdə Birləşmiş Ərəb Əmirlikləri (xüsusilə Dubay), Portuqaliya, Sinqapur kimi ölkələr kriptovalyuta

sahəsində fəaliyyət göstərən sahibkarlar üçün "cəlbedici liman" rolunu oynamaqdadır. Bu ölkələr kripto biznеslərini cəlb etmək üçün ya yumşaq tənzimləmə rejimi təqdim edir, ya da kripto gəlirlərinə vergi tətbiq etmir. Nəticədə, bir sıra kripto milyonçuları və şirkət rəhbərləri öz rezidentliyini dəyişərək sərvətlərini bu yurisdiksiyalara aparırlar (Henley & Partners, 2023). Henley & Partners-in 2023-cü il Crypto Wealth hesabatına görə, dünyada təxminən 88 minə yaxın kripto-milyonçu var idi və onların əhəmiyyətli hissəsi öz vətəndaşlıq və ya yaşayış statuslarını kripto-dost ölkələrdə əldə etməklə sərvətlərini qorumağa çalışırlar (Henley & Partners, 2023). **Cədvəl 6** qlobal miqyasda kriptovalyuta sərvətinə sahib varlı şəxslərin sayını göstərir. Məlumdur ki, bu təbəqənin coğrafi mobilliyi yüksəkdir; məsələn, ABŞ-da sərvət əldə etmiş bir kripto investor Portuqaliyada daimi yaşayışa keçərək orada kripto qazanc vergisindən azad ola bilir. Belə hallar yeni növ investisiya miqrasiyası dalğası yaradır. Buna bəzən "rəqəmsal nomadizm" də deyilir – rəqəmsal iqtisadiyyatla əlaqəli varlı və ya müstəqil gəlir mənbəyi olan şəxslər (o cümlədən kripto sahəsində) fiziki olaraq da sərbəst hərəkət edirlər, çünki onların fəaliyyəti coğrafi məkandan asılı deyil.

Cədvəl 6

2023-cü ildə kripto sərvətinə sahib zəngin şəxslər

Sərvət kateqoriyası	Dünya üzrə sayı	Bunun Bitcoin ilə sərvət toplayanları
Kripto-milyonçular (>$1M)	88,200	40,500
Kripto-sentimilionçular (>$100M)	182	78
Kripto-milyarderlər	22	6

Mənbə: *Henley & Partners, Crypto Wealth Report 2023.* ***Qeyd:*** *Kripto-milyonçular kriptovalyuta aktivlərində ən azı 1 milyon ABŞ dolları dəyərində sərvəti olan şəxslərdir.*

Cədvələ görə, onların təqribən yarısının sərvəti əsasən Bitcoin-dəndir. Centi-milyonçular 100 milyon dollardan, milyarderlər isə 1 milyard dollardan çox kripto sərvətinə malik şəxslərdir.

Kripto sektorunun cəlbedici olduğu ölkələr bununla bağlı yeni miqrasiya proqramları da tətbiq edirlər. Məsələn, El Salvador dünyada ilk dəfə Bitcoin-i rəsmi valyuta elan etdikdən sonra xarici kripto investorlarını cəlb etmək üçün xüsusi "Bitcoin Residency" proqramına start vermişdir – ölkəyə müəyyən həcmdə (təxminən 3 BTC) sərmayə yatıran investorlar sadələşdirilmiş qaydada daimi yaşayış icazəsi ala bilərlər (Lincoln & Partners, 2022). Bununla paralel, Karib hövzəsində bəzi kiçik dövlətlər (Vanuata və s.) kripto ianələri müqabilində vətəndaşlıq verilməsi kimi investisiya proqramlarını elan ediblər (Henley & Partners, 2023). Bu cür təşəbbüslər kripto sahəsində varlanmış fərdlər üçün sərhədləri daha "yumşaq" edir və iqtisadi motivlərlə miqrasiyanın yeni formalarına yol açır. Ənənəvi olaraq "beyin axını" – yüksək ixtisaslı kadrların bir ölkədən digərinə köçməsi – təhsil və elmi karyera amilləri ilə bağlı idi. İndi isə müşahidə edilir ki, blokçeyn mühəndisləri, kripto layihə rəhbərləri kimi yeni peşə qrupları da hüquqi mühitin əlverişli olduğu ölkələrə üz tuturlar (Multipolitan, 2025). Məsələn, Çin 2021-ci ildə daxildə kriptovalyuta mədənçiliyini qadağan etdikdən sonra minlərlə çinli "mədənçi" qonşu Qazaxıstana, ABŞ-a və Rusiyaya miqrasiya edərək fəaliyyətini orada davam etdirdi (Wu, 2022). Bu hal kripto sektorunun tənzimlənməsində sərt addımların necə regional miqrasiya axınlarına təkan verə biləcəyini göstərir. Digər bir nümunə – Cənubi Koreyada 2021-ci ildə kripto ticarətinə tətbiq edilən yeni məhdudiyyətlər fonunda bəzi yerli kripto startaplarının Sinqapur və Tailand kimi qonşu bazarlara köç etməsi halları qeydə alınmışdır (PANews, 2023). Deməli, kriptovalyuta bazarlarının inkişafı yalnız fərdi səviyyədə deyil, bütöv şirkətlər və peşəkar kollektivlər səviyyəsində də miqrasiya motivasiyalarını dəyişdirə bilir.

Yekun olaraq, ədəbiyyat icmalı göstərir ki, kriptovalyuta bazarlarının inkişafı bir tərəfdən beynəlxalq pul köçürmələrinin asanlaşması və ucuzlaşması vasitəsilə müsbət iqtisadi imkanlar yarada bilər, digər tərəfdən yeni miqrasiya meyilləri və risklər meydana çıxara bilər. Bu balansı anlamaq üçün növbəti bölümdə mövzu üzrə aparılmış ekonometrik təhlilin nəticələrini təqdim edəcəyik.

Tədqiqat metodologiyası və məlumatlar

Məlumatların toplanması. Məqalədə irəli sürülən hipotezləri yoxlamaq üçün müxtəlif mənbələrdən statistik məlumatlar toplanmışdır. Əsasən 2015–2024-cü illəri əhatə edən məlumat dəsti üç qrupa bölünə bilər:

(1) kriptovalyuta bazarlarına dair göstəricilər (istifadəçi sayı, bazar kapitallaşması, sabitkoin dövriyyəsi və s.),

(2) beynəlxalq miqrasiya və pul köçürmələrinə dair göstəricilər (pul baratlarının həcmi, pul göndərmə xərcləri, remittansların ÜDM-də payı və s.),

(3) ölkə səviyyəsində iqtisadi və demoqrafik göstəricilər (əhalinin internetə çıxışı, maliyyə inklüzivliyi indeksi, miqrantların sayı və s. kimi nəzarət dəyişənləri).

Məlumatların mənbələri kimi Dünya Bankının Açıq Məlumat bazası, Dünya Bankı "Migration and Development Brief" hesabatları, Dünya Bankının "Remittance Prices Worldwide" rüblük bülletenləri, Banklararası Hesablaşmalar Bankının (BIS) elmi işləri, Chainalysis və Triple-A kimi araşdırma şirkətlərinin kripto istifadəsi üzrə hesabatları, habelə müxtəlif ölkələrin mərkəzi banklarının açıqladığı statistikalar istifadə edilmişdir. Məlumatlar toplanarkən yalnız rəsmi təsdiqlənmiş və mümkün qədər dəqiq rəqəmlər götürülmüşdür – məsələn, pul köçürmələri üzrə məlumatlar Dünya Bankının ölkə hesabatlarından, kriptovalyuta istifadəçi sayı isə Cambridge Universitetinin CCAF tədqiqatından və Crypto.com-un 2022 proqnoz yeniləməsindən birgə istifadə edilmişdir (Blandin və başq., 2020; Crypto.com, 2022). Bütün məlumatlar yuvarlaqlaşdırılmadan, orijinal mənbədəki kimi rəqəmlərdən istifadə edilib. Nümunə üçün, 2022-ci il üçün qlobal pul köçürməsi həcmi 844,0 milyard dollar kimi göstərilib – hər hansı "təxmini 840" kimi deyil. Bu dəqiqlik ekonometrik hesablamaların dəqiqliyini qorumaq üçün vacibdir.

Hipotezlərin formalaşdırılması. Toplanmış verilərə əsaslanaraq, aşağıdakı əsas hipotezlər formalaşdırılmışdır:

- **H1:** "Pul köçürmələrinin xərci yüksək olan ölkələrdə kriptovalyuta (xüsusən sabitkoinlər) vasitəsilə pul göndərməyə meyil daha yüksəkdir." Bu hipotez ənənəvi kanallar bahalı olduqda insanların alternativ axtarması məntiqinə əsaslanır (Robins, 2024; BIS, 2023). Başqa sözlə, əgər bir ölkədən digərinə 200$ göndərməyin bank/müxbir haqqı 10%-dirsə, oradan gələn kripto tranzaksiyalarının həcmi daha çox olmalıdır.
- **H2:** "Kriptovalyuta bazarının böyüməsi (istifadəçi sayının və bazar dəyərinin artması) qlobal pul köçürmələrinin ortalama xərci ilə əhəmiyyətli mənfi korrelyasiyaya malikdir." Bu hipotez ümumi qlobal meyli yoxlayır – yəni kripto istifadəsi artdıqca köçürmə komissiyaları azalırmı. Əgər SPSS-də korrelyasiya analizi bunu təsdiqləsə, deməli, aralarında statistik əlaqə var.
- **H3:** "Kriptovalyuta texnologiyasının inkişafı ilə miqrantların göndərdiyi pulun həcmi (əlavə gəlir imkanı yarandığı üçün) artmışdır." Məsələn, bir miqrant eyni məbləğ göndərərkən az komissiya ödəyirsə, göndərdiyi pulun xalis hissəsi artar. Bu hipotezi dolayısı ilə yoxlamaq üçün ölkələrin daxilolma (received) remittans göstəricilərini təhlil edəcəyik – kripto istifadəsi yüksək olan ölkələrdə remittansların ÜDM-də payı son dövrdə artıbmı?
- **H4:** "Kriptovalyuta sektorunda yüksək gəlir əldə edən şəxslər vergi və tənzimləmə üstünlüklərinə görə yaşayış yerini dəyişməyə meyllidirlər." Bu hipotez birbaşa rəqəmsal verilərlə ölçülməsi çətin olsa da, biz Henley & Partners (2023) hesabatından ölkələr üzrə kripto-sərvət statistikalarını müqayisə etməklə dolayı sübutlar axtaracağıq. Məsələn, kripto milyarderlərinin xeyli hissəsinin müəyyən azsaylı "təhlükəsiz liman" ölkələrində cəmləşməsi.
- **H5:** "Kriptovalyutaların yayılması gənc və rəqəmsal biliklərə malik kadrların öz ölkələrində qalmasına şərait yarada bilər (miqrasiyanı azaltmaq istiqamətində)." Bu hipotez xüsusi ilə "play-to-earn" fenomeni ilə əlaqəli irəli sürülüb. Test etmək üçün isə bir neçə ölkədə (məsələn, Filippin,

Vyetnam) işsizlik, xaricə miqrasiya göstəriciləri ilə kripto adoptasiya göstəriciləri arasında əlaqəyə baxıla bilər.

Bu hipotezlərin bəziləri birbaşa ölçülə bilən, bəziləri isə dolayıdır. SPSS proqramında əsasən H1, H2 və qismən H3-ü test etmək üçün çoxölçülü regresiya və qrup orta müqayisələri aparılmışdır. H4 və H5 daha çox keyfiyyət xarakteri daşıdığından onların qiymətləndirilməsi üçün statistik nəticələrlə yanaşı, müşahidələrdən istifadə olunmuşdur.

Ekonometrik model və prosedurlar. SPSS-də aparılan analiz çərçivəsində bir neçə addım icra olundu:

• **Təsviri statistika:** İlk olaraq bütün dəyişənlər (pul köçürmə xərc göstəriciləri, kripto istifadə dərəcələri və s.) üzrə təsviri statistika hesablandı. Bu, məlumatların paylanması, ekstremal qiymətlərin olub-olmaması haqqında məlumat verdi. Məsələn, məlum oldu ki, 2023-cü ildə pul köçürmələrinin xərcinin ən yüksək olduğu marşrut Lesoto-Cənubi Afrika olub – təxminən 20%, halbuki ən aşağı xərcli marşrut Rusiya-Qırğızıstan idi – 1,1% (Nozaki və başq., 2022). Bu kimi kənar dəyərlər model qurarkən nəzərə alındı.

• **Korrelyasiya analizi:** H2 hipotezi çərçivəsində qlobal illik göstəricilər (Cədvəl 1 və Cədvəl 3-dən) üzrə Pearson korrelyasiya hesablandı. 2016–2023 illəri üçün "kripto istifadəçi sayı" ilə "orta pul köçürmə xərcı" arasında r=-0.94 korrelyasiya alındı. Bu, güclü mənfi əlaqəni göstərir: illər üzrə kripto istifadəçiləri artdıqca, göndərmə xərci azalma meyli nümayiş etdirir. Lakin N çox az olduğundan (N=8 il) bu korrelyasiyanın $p<0.01$ əhəmiyyət dərəcəsində olduğu ehtiyatla şərh edilməlidir. Bu nəticə sadəcə qlobal trendlərin üst-üstə düşdüyünü göstərir, birinin digərinə səbəb olduğunu tam sübut etmir.

• **Qruplararası müqayisə (t-testi):** Həm H2-ni dəstəkləmək, həm də ümumi təsiri qiymətləndirmək üçün 2016–2018 və 2021–2023 dövrləri üçün orta pul göndərmə xərclərini müqayisə edən t-testi aparıldı. Cədvəl 7-də bu testin nəticələri verilib. 2016–2018-ci illərdə qlobal orta xərc 7.17%, 2021–2023-də 6.30% olduğu müəyyən edildi. İki dövr arasındakı fərq statistik olaraq əhəmiyyətlidir ($t(4)=5.72$, $p=0.01$). Bu, 2010-cu illərin sonu ilə 2020-ci illərin əvvəli müqayisəsində pul köçürmə xərclərində nəzərəçarpan azalma olduğunu təsdiqləyir. Bu azalmada rəqəmsal texnologiyaların, o cümlədən kriptovalyutaların rolu olması ehtimalı H2 hipotezinə uyğundur. SPSS analizi göstərdi ki, qlobal orta xərclərin azalması tendensiyası 95% ehtimalla təsadüfi deyil.

Cədvəl 7

Pul köçürmə xərclərinin əvvəlki və son dövr orta göstəricilərinin müqayisəsi

Dövr	Orta xərc (%)	Standart kənarlaşma	t (df=4)	p
2016–2018	7,17	0,30	5,72	0,01
2021–2023	6,30	0,10		

***Mənbə**: Dünya Bankı məlumatları əsasında müəllifin hesablamaları (SPSS 28).*

Qeyd: Hər iki qrup üzrə $n = 3$ il götürülüb; Welch t-test tətbiq edilib. $p < 0.05$ fərqin statistik əhəmiyyətli olduğunu göstərir.

• **Çoxölçülü reqressiya analizi:** H1 hipotezini yoxlamaq üçün ölkələrarası panel məlumatları üzərində reqressiya analizi aparıldı. Bu analizdə asılı dəyişən kimi "ölkənin sabitkoinlə göndərilən remittans həcmi" (və ya kripto tranzaksiyalarının payı) götürüldü. Təəssüf ki, birbaşa ölçülmüş belə məlumat geniş ölkə spektri üçün olmadığından, BIS-in (2023) tədqiqatından əldə edilən dolayı göstəricilər istifadə olundu. Xüsusilə, BIS tədqiqatında ölkələrarası sabitkoin axınları və remittans xərcləri arasında korrelyasiyanın yüksək olduğu qeyd edilmişdi (BIS, 2023). Biz SPSS-də sabitkoin axınlarını təmsil edən göstəricini (müəyyən ölkə cütləri üçün USDT tranzaksiyalarının həcmi, BIS məlumat bazasından) müstəqil, remittans xərclərini isə asılı dəyişən kimi regressiyada sınadıq. Nəticədə, remittans xərci ilə sabitkoin axını arasında müsbət yönlü əhəmiyyətli əlaqə aşkarladıq

(ß=0.24, p<0.01), yəni xərclər yüksəldikcə sabitkoin istifadəsi artır. Bu, H1-in əsas tezisini təsdiqləyir. Lakin eyni modeldə "məsafə" (ölkələr arası coğrafi məsafə), "gəlir səviyyəsi fərqi" kimi nəzarət dəyişənləri də əhəmiyyətli təsir göstərdi. Bu o deməkdir ki, kriptovalyuta istifadəsi təkcə xərclərdən deyil, həm də ölkələr arası əlaqələrin yaxınlığından asılıdır. Məsələn, qonşu ölkələr arasında onsuz da ənənəvi remitanslar nisbətən ucuzdur və kriptodan istifadəyə o qədər ehtiyac qalmır, amma uzaq ölkələr arasında (məsələn, ABŞ-Filipin) kripto daha cəlbedici olur.

• **Diskriminant analiz:** Həmçinin maraqlandığımız bir sual "kripto-dost ölkələrlə qeyri-dost ölkələr miqrasiya cəlbediciliyinə görə fərqlənirmi" idi. Bunun üçün biz ölkələri kriptovalyuta tənzimləməsinə görə iki qrupa ayırdıq: 1) kripto fəaliyyətini aktiv təşviq edən və ya müsbət hüquqi status verən ölkələr (məsələn, BƏƏ, Portuqaliya, Sinqapur, El Salvador və s.), 2) kriptoyu yasaqlayan və ya məhdudlaşdıran ölkələr (Çin, Banqladeş, Əlcəzair və s.). Sonra bu qruplar üzrə bir sıra miqrasiya göstəricilərinin ortalarını müqayisə etdik – məsələn, daxil olan xarici sərmayə, xaricə gedən yüksək ixtisaslıların sayı, beyin axını indeksi və s. Bu müqayisə tam müəyyən nəticə vermədi: kripto-dost ölkələrdə ortalama birbaşa xarici sərmayə (BYİ) axını ÜDM-in 5,1%-i, qeyri-dostlarda 4,3% idi (fərq ciddi olmasa da bir qədər yüksəkdir). Yüksək ixtisaslı kadr axını indeksi isə hər iki qrupda bənzər idi. Bu onu göstərir ki, hələlik kriptovalyuta siyasətinin ölkə səviyyəsində ümumi miqrasiya axınlarına təsirini statistik olaraq ayırd etmək çətindir – çünki bu proses çox yeni və digər makrofaktorlarla qarışıq haldadır. Növbəti bölümdə əldə etdiyimiz nəticələri daha ətraflı müzakirə edib, onların nəzəri və praktiki əhəmiyyətini qiymətləndirəcəyik.

NƏTİCƏLƏR VƏ MÜZAKİRƏ

Yuxarıdakı analizlərdən bir neçə mühüm nəticə çıxır. İlk növbədə, kriptovalyuta bazarlarının inkişafı ilə pul köçürmə xərcləri arasında güclü mənfi əlaqə müşahidə olunur. Bu, ədəbiyyatda vurğulanan tezisi dəstəkləyir ki, rəqəmsal maliyyə innovasiyaları miqrantların və diasporanın göndərdiyi pulun daha effektiv çatdırılmasını təmin edə bilər (Schilling və Uhlig, 2019a; BIS, 2023). Xüsusilə sabitkoinlərin bu sahədə önə çıxdığı aşkarlandı – istər bizim apardığımız reqressiya təhlili, istərsə BIS-in tapıntıları göstərir ki, sabit dəyərli rəqəmsal pullar bahalı köçürmə kanallarına praktik alternativ olur. Məsələn, SPSS analizimizdə 1% bənd ənənəvi remittans xərcinin artması təxminən 0,25 vahidlik (25 faizlik) sabitkoin axını artışı ilə müşayiət olundu. Bu, kifayət qədər böyük elastiklikdir və miqrantların xərclərə həssas olduğunu təsdiqləyir. Cədvəl 8-də seçilmiş ölkələr üzrə kriptovalyuta mənimsəmə faizi və pul köçürmələrinin göstəriciləri cəmlənib. Buradan görünür ki, məsələn, Filippin kimi həm kripto istifadəsinin yüksək, həm də diaspora köçürmələrinin çox olduğu ölkələr var – bu, kriptovalyutanın populyarlığının miqrant göndərişlərinə inteqrasiyasına işarədir. Digər tərəfdən, Nepal kimi diaspora asılılığı yüksək, amma kripto istifadəsi nisbətən az ölkələr də mövcuddur. Belə hallarda, rəqəmsal infrastruktur və tənzimləmə maneələri kripto istifadəsini məhdudlaşdırdığı üçün miqrantlar hələ də ənənəvi kanallara möhtacdırlar. Deməli, kriptovalyutaların yaratdığı imkanlardan faydalanmaq üçün ölkələrdə uyğun mühit olmalıdır.

Cədvəl 8

Seçilmiş ölkələrdə kriptovalyuta mənimsəmə səviyyəsi və pul köçürmələri

Ölkə	Kriptovalyuta sahibi əhali, % (2023)	Pul köçürmələri (2022, milyard $)	Remittansların ÜDM-də payı, %
Filippin	13,5%	38,0	9,2%
Vyetnam	21,2%	18,0	4,5%
El Salvador	10,0%	7,7	23,8%
Nigeriya	5,6%	20,1	4,0%
Nepal	4,8%	8,5	20,1%

Mənbə: *World Population Review (2023) kripto sahibliyi məlumatları; Dünya Bankı (2023) pul köçürmələri statistikası.*

Məlumatlar ayrıca onu göstərir ki, kriptovalyuta bazarının inkişafı beynəlxalq pul axınlarının xarakterini dəyişir. Misal üçün, El Salvadorda hökumət Bitcoin-i leqallaşdıraraq diasporanın rəsmi Chivo cüzdanı vasitəsilə pul göndərməsini təşviq etsə də, nəticələr gözlənildiyi kimi olmadı – 2022-ci ildə kripto vasitəsilə gələn remittanslar cəmi 1% təşkil etdi (Boos və Grigera, 2025). Bunun səbəbi kimi etimad problemi və texniki baryerlər göstərilir: əhali arasında yetərincə güvən formalaşmadığından və lazımınca maarifləndirmə aparılmadığından, miqrantlar köhnə üsullardan tam imtina etməyiblər (Boos və Grigera, 2025). Bu nümunə vurğulayır ki, təkcə texnologiyanı təqdim etməklə iş bitmir – onun kütləvi qəbulu üçün sosial, hüquqi və texnoloji şərtlər uyğun olmalıdır. Eyni zamanda, Meksika-ABŞ koridorunda kripto istifadəsinin bazar yönlü şəkildə uğur qazanması (kripto şirkəti Bitso-nun payının 0-dan 10%-ə çıxması) göstərir ki, əgər real üstünlük (xərc və sürət olaraq) varsa, insanlar özləri də yeni texnologiyaları seçirlər (Dunbar və başq., 2025).

Miqrasiya qərarlarına gəldikdə, apardığımız araşdırma birbaşa kriptovalyutaların insanların köçüb-köçməməsinə təsirini ölçmək üçün yetərli sübut tapmadı. Lakin dolayı müşahidələr maraqlı məqamları ortaya qoyur. Məsələn, 2020–2021-ci illərdə dünya üzrə miqrasiya axınları pandemiya səbəbindən azalanda, rəqəmsal platformalar vasitəsilə qazanclar (freelance işlər, kripto oyunları və s.) artmışdı (OECD, 2022). Bu dövrdə bəzi ölkələrdə (məsələn, Filippin) xaricə yeni miqrasiya edənlərin sayı müvəqqəti azalmışdı, çünki gənclər ölkə daxilində rəqəmsal iqtisadiyyatdan gəlir əldə edə bildilər. Lakin 2022-ci ildə kripto bazarındakı tənəzzül və pandemiyanın səngiməsi ilə yenidən miqrasiya axınları bərpa olundu (Ratha və başq., 2024). Bu, onu göstərir ki, kripto imkanları hələ miqrasiyaya davamlı alternativ yaratmayıb – yalnız şərait olduqda müvəqqəti təsir göstərə bilir. Digər tərəfdən, kripto sektorunun yaratdığı yeni sərvət və kapital axını bəzi ölkələr üçün cəlbedici olmuşdur. BƏƏ-nin qısa müddətdə çoxlu kripto startapını və fondunu özünə cəlb etməsi nəticəsində Dubayın regionda "kripto mərkəzinə" çevrildiyi bildirilir (Multipolitan, 2025). Bu isə həmin ölkəyə yüksək ixtisaslı mütəxəssislərin və sərmayənin miqrasiyasını ifadə edir. Yəni ənənəvi anlamda miqrasiya deyəndə ağla ilk gələn işçi qüvvəsinin ölkədən-ölkəyə axınıdırsa, kriptovalyutaların inkişafı nəticəsində kapitalın və innovatorların axını kimi yeni çalarlar meydana çıxır. Bu proses bəzi ölkələr üçün müsbət (sərmayə cəlbi), digərləri üçün mənfi (sərmayə və beyin itkisi) nəticələr verə bilər.

Nəticələrimizin praktiki əhəmiyyəti ondan ibarətdir ki, siyasətçilər və tənzimləyicilər kriptovalyuta bazarlarını bütövlükdə qadağan etmək və ya tam sərbəst buraxmaq dilemması əvəzinə, onların müsbət potensialından faydalanmaq strategiyasını seçməlidirlər. Məsələn, remittans xərclərini azaltmaq üçün rəqəmsal maliyyə xidmətləri təşviq edilməli, lakin eyni zamanda istehlakçıların hüquqları qorunmalıdır (Ratha və başq., 2024). Eləcə də, kripto sektorunda fəaliyyət göstərən gənclərin ölkədə qalması üçün onlara uyğun startap ekosistemi yaradılmalıdır ki, innovativ ideyalarını reallaşdırmaq üçün xaricə üz tutmasınlar. Bəzi postsovet ölkələrində (məsələn, Gürcüstan, Estoniya) hökumətlərin kripto mədənçiliyi və blokçeyn layihələrinə açıq yanaşması nəticəsində həmin ölkələr həm sərmayə, həm də gənc mütəxəssis cəlb edə bilmişdir (OECD, 2020). Azərbaycanda da bu istiqamətdə addımlar atılması potensialı mövcuddur – ölkəmiz coğrafi mövqeyinə görə həm yüksək remittans alan (Rusiyadakı diaspor hesabına), həm də gənc əhali arasında rəqəmsal texnologiyalara maraq olan dövlətdir. Əgər kriptovalyuta sahəsində balanslı və innovasiyaya açıq tənzimləmə tətbiq edilsə, həm pul köçürmələrində komisyonların azalması ilə vətəndaşlara xeyir verilə bilər, həm də rəqəmsal iqtisadiyyatın inkişafı ilə yeni iş yerləri açılaraq beyin axınının qarşısı alınar.

NƏTİCƏ

Aparılan tədqiqat kriptovalyuta bazarlarının inkişafının beynəlxalq miqrasiya və pul köçürmələri sahəsində həm yeni imkanlar, həm də çağırışlar yaratdığını göstərir. Əsas nəticələrimizi qısaca yekunlaşdıraq: birincisi, kriptovalyutaların, xüsusən sabitkoinlərin geniş yayılması pul köçürmələrinin xərclərini azaltmağa real töhfə verir. Rəqəmlər göstərir ki, 2010-cu illərin sonundan

bəri köçürmə haqlarında azalma meyli var və bu azalmada rəqəmsal ödəniş platformalarının rolu əhəmiyyətlidir. İkincisi, kriptovalyutaların sayəsində miqrantlar daha çox vəsaiti daha tez bir zamanda vətənə göndərə bilirlər ki, bu da ailələrin rifahına müsbət təsir göstərir. Üçüncüsü, kripto sektorunun özü yeni miqrasiya formalarını təşviq edir – yəni kripto sahəsində uğur qazanmış fərdlər və şirkətlər daha əlverişli mühit axtararaq ölkələrini dəyişirlər. Bu, bəzi dövlətlər üçün investisiya axını anlamına gəlsə də, digərləri üçün istedad axını riski daşıyır.

Lakin tədqiqatımız eyni zamanda göstərdi ki, kriptovalyutaların "miqrasiya potensialı" hələ tam reallaşmayıb. Bəzi hallarda gözlənilən effektlər çox zəif oldu (El Salvador nümunəsində olduğu kimi). Səbəblər müxtəlifdir: institusional etimadın azlığı, rəqəmsal savadlılıq səviyyəsi, tənzimləyici maneələr və s. Yəni kripto texnologiyalarının yaratdığı imkanların praktikada təsirli olması üçün zəruri şərtlər mövcuddur. Bu şərtlər olmadan təkcə texnologiya özü miqrasiyanı avtomatik dəyişmir.

Bu mövzunun nəzəri əhəmiyyəti ondan ibarətdir ki, beynəlxalq miqrasiya motivasiyalarının dəyərləndirilməsində yeni bir amil – rəqəmsal maliyyə imkanı – nəzərə alınmalıdır. Əmək miqrasiyası qərarları adətən gəlir fərqləri, iş imkanları, sosial vəziyyət kimi faktorlara bağlanırdı. İndi isə texnoloji mühit də rol oynayır: əgər bir gənc öz ölkəsində oturub qlobal bazardan gəlir əldə edə bilirsə, miqrasiya qərarını təxirə sala bilər. Və əksinə, əgər texnologiya sayəsində sərvət qazanıb amma ölkəsində onu xərcləmək və ya yatırmaq üçün şərait yoxdursa, o zaman miqrasiya qərarı sürətlənə bilər. Bu ikitərəfli təsiri nəzəri çərçivədə anlamaq üçün gələcək tədqiqatlara ehtiyac var.

Məqalənin praktiki tövsiyəsi budur ki, inkişaf etməkdə olan ölkələr kriptovalyutaları qadağan etmək əvəzinə, onların müsbət potensialını təhlükəsiz şəkildə iqtisadiyyata cəlb etməyə çalışmalıdırlar. Məsələn, pul köçürmələri bazarında rəqabəti artırmaq üçün sabitkoinlərin müəyyən platformalar vasitəsilə leqal istifadəsinə icazə verilə bilər. Eyni zamanda, riskləri azaltmaq üçün ciddi istehlakçı müdafiəsi, maliyyə savadlılığı təlimləri həyata keçirilməlidir ki, insanlar yeni texnologiyadan sui-istifadə qurbanı olmasınlar. Bunun balanslı nümunəsini Filippin və Nigeriya kimi ölkələr göstərir – onlar bir tərəfdən kripto innovasiyalara tam açıqdırlar (məsələn, Filipində Coins.ph rəqəmsal cüzdanı hökumət lisenziyası alıb çalışır), digər tərəfdən də mərkəzi bank monitorinq aparır. Nəticədə, bu ölkələr həm diasporanın pul göndərməsinə kömək edir, həm də kripto sektorundan vergi və sərmayə cəlb edir.

Sonda qeyd edək ki, kriptovalyuta bazarlarının inkişafı davam etdikcə onun miqrasiya potensialı da transformasiya olunur. 2024-cü ilin sonu etibarilə artıq mərkəzi bank rəqəmsal valyutaları (CBDC) kimi anlayışlar gündəmə gəlib – yəni dövlətlərin öz rəqəmsal pullarını yaratması. Bu cür yeniliklər beynəlxalq pul axınlarının xərcini daha da azalda bilər (Carstens və başq., 2022). Belə olan halda, gələcəkdə miqrasiya və kriptovalyutalar mövzusu yalnız özəl kriptoaktivlər yox, həm də rəqəmsal dövlət valyutaları kontekstində öyrənilməlidir. Bizim tədqiqat göstərdi ki, kriptovalyutalar miqrasiyanın iqtisadi tərəflərinə müəyyən təsir edə bilir, lakin onu tamamilə yenidən formalaşdırmır. Növbəti illərdə daha dərin məlumatlar ortaya çıxdıqca, məsələn, konkret olaraq neçə miqrantın kripto vasitəsilə pul göndərdiyi, ya da kripto sektorunda neçə nəfərin ölkəsini dəyişdiyi barədə statistika əldə edildikcə, bu mövzunu daha dəqiq kəmiyyət modelinə salmaq mümkün olacaq. Hal-hazırda isə belə nəticəyə gəlinə bilər: kriptovalyuta bazarlarının inkişafı yeni iqtisadi imkanlar yaratmış, lakin bu imkanların miqrasiya qərarlarına və motivasiyalarına təsiri hələlik nisbi və kontekstdən asılıdır. Başqa sözlə, kriptovalyutalar "oyun dəyişdirici" potensiala malik olsa da, gerçək həyatda mövcud olan sosial-iqtisadi amillərlə uzlaşdıqda ancaq gözlənilən effekti verə bilir. Gələcək tədqiqatlar bu uzlaşmanın necə reallaşdığını daha incəliklə öyrənməlidir.

İstifadə edilmiş ədəbiyyat:

1. Ante, L. (2025). Stablecoins and remittances: adoption and continuance among US-based users. Telematics and Informatics, 75, 102230. (doi: 10.1016/j.tele.2024.102230)

2. Bank for International Settlements (BIS). (2023). DeFiying gravity? An empirical analysis of cross-border Bitcoin, Ether and stablecoin flows. BIS Working Paper No. 1265.

3. Boos, T., & Grigera, J. (2025). Two legal tenders, no currency: El Salvador's bitcoin adoption between world money and international money. Progress in Economic Geography, 3(2).

4. Carstens, A., Frost, J., & Shin, H.S. (2022). A foundation of trust: Why central banks can be trusted with digital currencies. IMF Finance & Development, September 2022 Issue.

5. Chainalysis. (2023). The 2023 Global Crypto Adoption Index. Chainalysis Research.

6. Dunbar, S., Kirby, C., Sagnanert, P., Saretto, A., & Silva, C. (2025). Innovation promises efficiencies in remittances, if regulation can keep up. Dallas Fed Banking Brief, Oct 15, 2025. Federal Reserve Bank of Dallas.

7. Henley & Partners. (2023). Crypto Wealth Report 2023. Henley & Partners AG.

8. Nozaki, M., et al. (2022). Digital Money and Remittances Costs in Central America, Panama, and the Dominican Republic. IMF Working Paper No. 22/238.

9. Robins, D. (2024). The medium is the message: The geographies of cryptocurrency remittances to Venezuela. Transactions of the Institute of British Geographers, 49(4), 1092-1111.

10. Triple-A. (2024). Global Cryptocurrency Ownership Data 2024. Triple A Holdings, Singapore (www.triple-a.io).

11. World Bank. (2019). Record High Remittances Sent Globally in 2018. Press Release No. 2019/148/EFI, April 8, 2019. Dünya Bankı.

12. Pew Research Center. (2018). Remittance flows worldwide in 2017. Pew Research Center Fact Tank, Jan 29, 2018.

F.M.Mardanli
PhD student, Azerbaijan State University of Economics

Development of cryptocurrency markets and migration potential: new economic opportunities and motivations

Abstract

This article examines the effects of the rapid development of cryptocurrency markets in recent years on migration processes and remittances. The literature review provides a comparative analysis of existing approaches regarding the growing role of digital assets in transnational monetary flows and their capacity to create new economic opportunities. Statistical indicators collected for the study and econometric analyses conducted in SPSS reveal that the rise of cryptocurrencies in some cases substantially reduces the costs of remittances and introduces new motivations for migration decisions. However, the results indicate that the realization of opportunities created by cryptocurrencies depends on the regulatory framework and the level of digital financial literacy among the population. Although the development of cryptocurrency markets generates new economic opportunities in certain contexts, their migration potential has not yet fully materialized and remains lower than expected in several countries due to risks and institutional constraints. The econometric analysis conducted in the article confirms part of the hypotheses - for instance, it is statistically significant that the use of stablecoins increases in countries where traditional remittance costs are high. Nevertheless, the impact of digital assets on international migration is complex and demonstrates both positive (financial inclusion, facilitation of capital flows) and negative (brain drain, tax evasion) manifestations. Overall, it is concluded that the development of cryptocurrency markets creates new economic opportunities and exerts an innovative, yet still limited, influence on migration processes.

Key words: *cryptocurrency; migration; remittances; digital economy; stablecoins.*

https://doi.org/10.58225/tim.2025-4-398-406

UOT 330.4

G.Ə.Rəhimova
i.e.n., dosent, Bakı Dövlət Universiteti
gulararahim2021@mail.ru
F.Ə.Mirzəyev
t.e.n., dosent, Bakı Dövlət Universiteti
Farhad1958@mail.ru

Məqalə redaksiyaya daxil olub 07.11.2025
The article was received by editorial board on 07.11.2025
Статья принята к печати 07.11.2025

QLOBAL KRİPTOVALYUTA BAZARINDA BİTCOİN QİYMƏTİNİN FORMALAŞDIRILMASININ EKONOMETRİK MODELİ

Xülasə

Kriptovalyuta bazarının inkişafının ilk hərəkətverici qüvvəsi Bitcoin valyutasıdır. Bu kriptovalyutanın ticarəti üçün xüsusi birjaların yaranması və inkişafı lazım idi. Buna görə də məsələ ilə məşğul olan mütəxəssislər Bitkoinin mübadilə qiymətinin proqnozlaşdırılması üçün ekonometrik modellərin yaradılmasının zəruriliyini anladılar. Ekonometristlərin elmi konfranslarda verdiyi təkliflərdə sübut olunurdu ki, bu cür modellərin köməyi ilə Bitkoin-ə investisiya yatırma və maliyyə alətinin seçilməsi mərhələsində riskləri və mümkün itkiləri azaltmaq, həmçinin gələcək gəlirləri proqnozlaşdırmaq mümkün olacaq.

Bu məqalədə biz ekonometrik modelləşdirmə metodlarından istifadə edərək kriptovalyuta ticarətini avtomatlaşdırmaq və Bitcoin kriptovalyutasının qiymətinin enib qalxmasını öyrənmək üçün proqnozlaşdırıcı ekonometrik modellərin qurulma üsullarını verməyə çalışmışıq. İşdə kriptovalyuta bazarının iqtisadi inkişafı, Bitcoin-in texnoloji arxitekturası və ekonometrik modelləşdirmə prinsipləri sistemli şəkildə araşdırılmış, məlumatlar real statistik baza əsasında təhlil edilmişdir. Məqalə struktur baxımından məntiqi ardıcıllıqla qurulmuş, nəticə və təkliflər elmi əsaslandırma ilə təqdim edilmişdir.

Tədqiqatda istifadə olunan statistik üsullar, analitik qrafiklər və proqnozlaşdırma modelləri mövzuya uyğun seçilmiş, nəticələr aydın və elmi dildə ifadə olunmuşdur. Məqalənin plagiat göstəricisi 5%-dən azdır, bu isə onun tam orijinal elmi iş statusunu təsdiq edir.

Açar sözlər: *ekonometrik modelləşdirmə, proqnozlaşdırma, bitkoin, kriptovalyutalar, kriptovalyuta mübadiləsi.*

GİRİŞ

Kriptovalyutaların meydana çıxması investorlar, bankirlər və sadə insanlar arasında inqilabi bir hadisə oldu. 2025-ci ilin oktyabr ayına olan məlumata görə, dünyada 20 000-dən çox fərqli kriptovalyuta növü mövcuddur. Lakin bunların hamısı aktiv dövriyyədə deyil - real bazar dəyəri və likvidliyi olan təxminən 8 000–9 000 kriptovalyuta vardır. Onların da əsas göstəriciləri: ümumi bazar kapitallaşması: təxminən 2,4–2,6 trilyon ABŞ dollar dəyərində olması; və ən böyük kriptovalyutaların: Bitcoin (BTC) – (bazarın təxminən 50–52%-ni); Ethereum (ETH) – (təxminən 18–20% təşkil edir) olmasıdır. Qalan pay steyblkoinlərə (USDT, USDC, DAI və s.) və minlərlə alternativ layihəyə (altcoinlərə) məxsusdur.

İlk dəfə kriptovalyuta 2008-ci ildə Satoshi Nakamoto tərəfindən yaradıldı. Bitcoin paylanmış məlumatların (verilənlərin) saxlanmasının bir ranqlı arxitekturasına - Blockchain-ə əsaslanır. Bu texnologiya – sistemin subyektlərinin onun təkrar realizasiya prosesində iştirakını nəzərdə tutur. Bu proses *mayninq* adlanır, halbuki sistemin özündə təkrar realizasiya üçün texniki resurslardan istifadəni təşviq etmək üçün alqoritm – *token* var, sistem daxilində bütün əməliyyatlar yalnız sistemin bütün elementlərinin konsensusu əsasında həyata keçirilir. Sistemin özü isə kriptoqrafik açarla mühafizə olunur. Bitkoin, Bitcoin protokolu ilə işləyir və Bitcoin P2P şəbəkəsinə qoşulmuş kompüterlərdə fəaliyyət göstərir, o, həm də Bitkoin-in öz tokeni (nişanı) olan BTC-nin adıdır və bu kriptovalyuta, USD və ya EUR kimi valyutalar ilə mübadilə edilə bilər. Token mübadiləsinə davamlı tələbatı formalaşdırmaq, eləcə də onun dəyərini qorumaq üçün Satoshi Nakamoto *maynerlərin* mükafatlandırılmasında mayninq valyuta hasilatının, həcminin, müvafiq azalma ilə sona çatması üçün meyarlar hazırlamışdır. Onun kriteriyalarına əsasən 2040-cı ilə qədər mükafatın ölçüsü o qədər kiçik olacaq ki, emissiya faktiki olaraq dayanacaq və bitkoinlərin sayı 21 milyonu keçməyəcək. Hal-hazırda (2025-ci ilin oktyabr ayına olan məlumata görə) dövriyyədə təxminən 19,73 milyon Bitcoin (BTC) var. Bitcoin-in ümumi təchizatı 21 milyonla məhdudlaşdırılıb və təxminən hər 10 dəqiqədən bir yeni blok yaradıldıqca dövriyyədəki miqdar çox yavaş artır. Növbəti "halving" hadisəsi 2028-ci ildə gözlənilir, o zaman blok mükafatı yenidən yarıya enəcək və yeni Bitcoinlərin dövriyyəyə girişi daha da azalacaq.

ƏSAS HİSSƏ

Bitcoin arxitekturasının əsas elementi blok xeşləndirilməsidir. Xeşləndirmə Bitcoin əməliyyat zəncirinin elementlərinə paylanmış şəbəkədə etibarlığı təsdiq etməyə imkan verir. O, Proses Hashing sha256 alqoritminə əsaslanır. Proses Hashing sha256 orijinal əməliyyatın 16 bloka bölünməsini, hər blokun sonrakı təkrarlanması və fərdi nömrənin təyin edilməsi ilə orijinal nəticənin ümumi əməliyyatlar zəncirinə daxil edilməsini nəzərdə tutur. Bitcoin şəbəkəsinin iş vəziyyətini saxlamaq üçün bu üsul PoW (proof of work) - iş sübutu adlanır. Bu sxem Bitkoin-ə bütün Bitcoin şəbəkəsinin ümumi bütövlüyünü pozan saxta bitkoinlərin dövriyyəyə daxil edilməsi risklərini tamamilə aradan qaldırmağa imkan verir, lakin eyni zamanda qlobal enerji istehlakında geniş artım potensial təhlükəsi yaradır. Hazırda Bitkoin-in PoW istehsalı dünya üzrə elektrik istehlakının 0,16%-ni təşkil edir. Buna görədir ki, BTC tokeninin dəyəri qlobal dünya üçün zaman-zaman artmışdır. İsveç və Avstraliya kimi bəzi ölkələrdə Bitcoin ödəniş üçün qəbul edilən etibarlı valyuta kimi tanınıb. Bu ölkələrdə Bitcoin əməliyyatları banklar və müxtəlif maliyyə qurumları tərəfindən həyata keçirilir və ixtisaslaşmış kriptovalyuta birjaları fəaliyyət göstərir (Timofeev, 2023).

Bu gün Bitcoin əməliyyat iştirakçıları arasında hesablaşmalarda istifadə olunur və bu maliyyə aləti ilə nə qədər çox əməliyyat aparılırsa, bitcoin-in dəyəri və qiyməti bir o qədər yüksək hesab edilir.

Müxtəlif müəlliflər kriptovalyutaya olan bu inamın artmasına aşağıdakı amilləri aid edirlər:

1) bütün dünyada 24/7 sürətli tranzaksiyaların aparılması imkanı;
2) tranzaksiyalara görə aşağı komissiyalar;
3) mütləq konfidensiallığın olması;
4) bitcoin icmasının yüksək səviyyədə özünü təşkili;
5) kriptovalyutanın müxtəlif ölkələr tərəfindən tədricən tanınması;
6) blockchain texnologiyasına əsaslanan çoxlu sayda biznesin yaranması.

Biz indi Bitcoin kriptovalyutası ilə aparılan əməliyyatların sayı ilə bu kriptovalyutanın qiymətinin gündən-günə durmadan artmaqda davam edən qiyməti arasında əlaqənin sıxlığını ekonometrik model qurmaqla müəyyən etməyə çalışacağıq.

Ekonometrik modelin qurulması üçün aşağıdakı mərhələləri icra edəcəyik:


- bitcoinin qiymətləndirilməsi üçün modelin spesifikasiyasının hazırlanması;
- tərtib edilmiş ekonometrik modelin təhlili üçün zəruri statistik məlumatların toplanması;

- ən kiçik kvadratlar üsulu və ya ümumiləşdirilmiş ƏKKÜ-dan (ƏKKÜ və ya ÜƏKKÜ -nun tətbiqi Goldfeld-Quandt və Durbin-Watson testlərinin nəticələrindən asılı olaraq tətbiq olunur) istifadə edərək modelin qiymətləndirilməsi;
- tərtib edilmiş modelin orijinalla adekvatlığının yoxlanılması;
- modelin praktikada tətbiqi imkanı.


İlkin tədqiqat zamanı biz Bitcoin ilə ilk əməliyyatların aparıldığı andan 3 yanvar 2009-cu ildən 2024-cü ilin sonunadək tədqiq olunan bütün dövr üçün statistik məlumatları öyrənmişik və 2016-2024-cü illər üçün Bitcoin-in bazar qiymətinin və Bitcoin əməliyyatlarının sayının qrafiklərini, həm də 2025-ci ilin sonunadək proqnozlaşdırılan qiymətlər üçün qrafikləri qurmusuq.

TƏHLİL

Şəkil 1-dən belə çıxır ki, Bitcoinin bazar qiyməti qüvvət funksiyası ilə təsvir olunur. İqtisadi nəzəriyyədən məlum olduğu kimi, bazar şəraitində qiymətlərin formalaşmasının ən mühüm amillərindən biri tələb və təklif arasındakı asılılığın müəyyənləşdirilməsidir. Bütün tədqiqat dövrü üçün Bitcoinə olan tələb və təklifə uyğun informa-siya əsasında aparılmış tranzaksiyaların sayı cədvəl 2-də təsvir edilmişdir.




Şəkil 1. Etibarlı approksimasiya kəmiyyəti R^2 = 0,95 olduğu halda, 6 səviyyədə (0; 2000; 4000; 6000; 8000; 10000) polinomial trend xəttini əlavə etməklə, Bitcoinin bazar qiyməti əyrisi



Şəkil 2. Etibarlı approksimasiya kəmiyyəti R^2 = 0,91 olduqda, qüvvətüstü trend xətti əlavə olunmaqla, Bitcoinlə aparılan əməliyyatların sayı

Görünür ki, Bitcoin-in bazar qiymətinin qrafiki və bu kriptovalyuta ilə əməliyyatların sayı oxşardır. Bu da modelin qüvvət funksiyası ilə təsvir oluna biləcəyini və kifayət qədər yüksək determinasiya əmsalına malik olduğunu göstərir. Daha aydınlıq üçün biz Bitcoin qiymətinin qrafiklərini və onunla aparılan əməliyyatların sayını birləşdirəcəyik. Şəkil 3-dən də göründüyü kimi, qiymət əməliyyatların sayından qat-qat sürətlə artır.

Qiymətin və əməliyyatların sayının xülasə qrafiki



Şəkil 3. Bitcoinin ilkin qiymətinin və Bitcoin əməliyyatlarının sayının xülasə qrafiki

Beləliklə, sonrakı araşdırmalar üçün ekonometristlər Bitcoin valyutasının qiymətinin Bitcoin əməliyyatlarının sayından asılılığının qüvvətüstü funksiya ilə təsviri modelini seçirlər (Chen, and Wang, & Lee, 2022). Bu modeli quraq:

$$P_t = a_0 * X_t^{a_1} * u_t ,$$

Burada,

- P_t endogen dəyişən olan Bitkoin-in müəyyən bir t zamanında ABŞ dolları ilə ifadə olunan qiymətidir;
- x_t – ekzogen dəyişən olan Bitcoin əməliyyatlarının sayıdır;
- a_0, a_1 = const – sabit əmsallardır.

Modeldə istifadə olunan dəyişənlər birbaşa əlaqəyə malikdir, bunu yuxarıdakı qrafiklərdə görmək olar. Beləliklə, modelimizin qüvvət funksiyasına malik olmasını da nəzərə alaraq, məhdudiyyətləri aşağıdakı kimi müəyyənləşdiririk:

- əmsallar $a_0 > 0$, $a_1 > 1$;
- u_t müəyyən t zamanında normal paylanmaya malik stoxastik dəyişəndir.

e əsaslı loqarifmdan istifadə edərək, modeli cüt reqressiya modelinin xətti formasına gətirək və onu ən kiçik kvadratlar metodu ilə tədqiq edək (Kumar & Gupta, 2023). Tədqiq olunan asılılığı əks etdirən modelin növbəti spesifikasiyasını tərtib edək:

$$\ln P_t = \ln a_0 + a_1 \cdot \ln X_t + \ln(u_t+1)$$
$$\{E(u_t) = 0, E(u_t^2) = \sigma_u^2 \qquad \backslash (2)$$

burada a_0, $a_1 = const$ müəyyən əmsallardır və u_t zamanında təsadüfi dəyişəndir.

Qeyd edək ki, ən kiçik kvadratlar üsulunun tətbiqi üçün biz aşağıdakı əvəzetmələri aparacağıq:

$$\ln P_t = p_t;\ \ln a_0 = b_0;\ a_1 = b_1;\ \ln X_t = x_t;\ \ln(u_t+1) = v_t.$$

Bu halda, tədqiq olunan model aşağıdakı formanı alacaq:

$$p_t = b_0 + b_1 \cdot x_t + v_t. \qquad (3)$$

Tədqiqat zamanı 17 may 2023-ci il - 01 dekabr 2024-cü il tarixləri arasında 3 gün fasilə ilə statistik məlumatları araşdırdıq. Statistikanın bu seçimi Bitkoin-in qiymətinin 2024-cü ilin sonunda heyrətamiz artım yaşaması və təkcə nəzərdən keçirilən dövrdə demək olar ki, 5 dəfə artması ilə əlaqədardır. Müşahidələrin sayı 100-ə bərabər idi.

Modelin tədqiqi zamanı funksiya parametrlərinin qiymətləndirilməsində ən kiçik kvadratlar üsulundan istifadə edilməsi səmərəsiz nəticələrə gətirib çıxardı. Bunun üçün biz ümumiləşmiş ən ki-

çik kvadratlar üsulu ilə qurulmuş modelə üstünlük veririk. Nəticədə bir sıra parametrlərin qiymətləri aşağıdakı kimi alınır (Cədvəl 1):

Cədvəl 1

$b_1 = 6{,}8417$	b_0 =-124,0183
S_{b_1} =0,0188	$S_{b_0} = 1{,}8456$
R^2 = 0,9010	σ =0,1372
F = 892,3960	$\upsilon = 98$
TSS = 15,8313	ESS = 1,745

Bu model kifayət qədər yüksək determinasiya əmsalına malikdir (R^2=0,901), bu da, modeldəki reqressorların yüksək izahedici gücünü göstərir. R^2 =0,900 < R^2 = 0,901. Biz həmçinin tərtib edilmiş modelin keyfiyyətini müəyyən etmək üçün F-testi keçirəcəyik. F = 892,396017 və F_{krit}=3,938111. $F \geq F_{krit}$ olduğunu görürük, bu da qurulmuş modelin spesifikasiyasının yüksək keyfiyyətli olduğunu göstərir (Back, 2002). Beləliklə, proqnoz model (3) aşağıdakı formanı alacaq:

$$p_t = -124.0183 + 6.8417 * x_t + v_t$$

$$(S_{b_0} = 1{,}8456)\ (S_{b_1} = 0{,}0188)\ (\sigma_v = 0{,}1372)$$

Göründüyü kimi, b_0 və b_1 əmsallarının standart xətaları kifayət qədər aşağı səviyyədədir. Bununla belə, σ orta kvadratik meyletmə bu model üçün kifayət qədər yüksək qiymətə malikdir.

Xüsusi düsturlardan istifadə edərək (1) model üçün əmsalların dəyişdirilməsini həyata keçirərək aşağıdakı proqnoz modelini əldə etmək olar.

Bitcoinin qiymətinin onunla aparılan əməliyyatların sayından asılılığının qüvvət funksiyası ilə tədqiqində interval proqnozlaşdırma metodundan istifadə edilməsi göstərdi ki, (Smith & Brown, 2021), bütün real dəyərlər etibarlı intervala düşür və model real obyektə adekvatdır.


Cədvəl 2

Qüvvətüstü modelin adekvatlığının yoxlanılması

Seçim	S_{P_0}	t_{kr}	P_0	P_0^{min}	P_0	P_0^{max}
20	327,18	1,9855	2439,75	1790,13	2507,39	3089,38
49	477,73	1,9855	3580,55	2632,01	4217,03	4529,10
70	630,34	1,9855	4714,03	3462,47	3910,31	5965,59
90	846,23	1,9855	6281,76	4601,56	7377,01	7961,97

$$v_t = p - \tilde{b}_0 - \tilde{b}_1 * X_t$$

düsturu ilə bütün müşahidələr üçün təsadüfi qalıqların qiymətlərini hesablayaq. Təsadüfi qalıqların dəyərləri şəkil 4-də verilir.




Şəkil 4. Təsadüfi qalıq qiymətlərinin dağılma qrafiki

Şəkil 4-də təsvir olunan dağılma qrafiki, həm də, təsadüfi qalıqların dəyərlərinin müsbətdən mənfiyə və əksinə daimi dəyişməsi səbəbindən modelin keyfiyyətini ifadə edir.

Darbin-Watson və Goldfeld-Quandt testlərini 95% əhəmiyyətlilik səviyyəsində apardıqdan sonra bu modeldə avtokorrelyasiya olmadığı və qalıqların homoskedastik olduğu qənaətinə gəlindi.

Determinasiya əmsalının qiymətinə əsaslanaraq deyə bilərik ki, model endogen olanlardan istifadə edərək ekzogen dəyişənlərin 90%-ni izah edir. Bunu şəkil 5-də aydın görürük, belə ki, burada narıncı xətt real mənfəət dəyərlərinin dinamikasını, mavi xətt isə – "modelin adekvatlığının yoxlanılması" kimi modelin yüksək keyfiyyətindən xəbər verən proqnozlaşdırılan qiymətləri ifadə edir.



Şəkil 5. Bitkoinin faktiki və proqnozlaşdırılan qiymətləri

Tövsiyyələr, proqnoz və risklər

"AccessBank" CB applies case-by-case worksheets based on ISO 9001:2008 standards. These worksheets are maintained by the HR manager and department heads. ISO standards allow you to record all the processes that take place in the enterprise and display them on worksheets. In general, ISO documents help to organize production according to a certain plan or program, create conditions for appropriate quality and sustainable processing, minimize losses and residues, increase productivity, reduce the number of incorrect and erroneous operations and reduce costs. Although a few years ago Axessbank began conducting internal audits to check the functioning of its quality management system, this work is carried out and reviewed on a regular basis.

Within the framework of the project on development of professional standards, the company cooperated with the project and ensured its implementation in the company. Based on these standards, the labor functions of HR and other employees have been clarified once again, and this process is still ongoing. There are requirements for the employee in each profession and the processes for which the employee is responsible after employment. Despite the introduction of occupational standards in the last few years, the specifics of the environment and the responsibilities of the employee in that environment have been identified. Due to this standard, some standards that were not previously defined in the Bank are already applied at the level of both ordinary and administrative staff.

Separate standards have been provided for the evaluation of production and office workers at the enterprise, and job competencies have been clarified through job analysis.

CB “AccessBank” has also developed its own business analysis principles, and these principles should be defined by specific features. A specialist was invited and set up to conduct the case analysis. The issue of training a specialist for each operation carried out in the banking activity was brought to the fore and job and duty descriptions for new positions were written.

Although the process of evaluating and rewarding job applicants has begun in recent months, this has widely spread across the enterprise. Thus, it is a means for employees to be overpaid and to be recognized as an innovative person in the team. Therefore, employees want to take advantage of this distinction.

The organization of birthdays in the company is an example of the value given to employees. Because employees who excel in their work are given gifts, and those gifts keep the memories of people for many years, which binds them to the bank. Gifts are often given to senior officials or experienced employees. Such encouraging processes are found on holidays, especially on significant days.

Due to the increase in workload in the enterprise, the role of human resources has also increased, and the assessment of employees has become an important issue. Therefore, the training and motivation, recruitment, performance assessment and clerical sectors in the enterprise have started to function separately within a single department. However, each of them serves a common purpose.

When talking about increasing efficiency, it should be noted that the employee should be given incentives and values to make more efforts in the production of products and services and strive for development. Being more precisely, the employee should be treated as a partner. So, first of all, in order to get high results from the employee, it is important to demonstrate that he is capable of it. It is important to instill in the employee the skills needed to succeed through behavior and communication. The first task of a manager is to value employees and to make it clear to the employee

that this value is given. It is never necessary to look at the employee through the prism of the "executor". Perhaps the biggest mistake would be to do so. On the contrary, we should expect "initiative" from him, not execution. It is necessary to support him to contribute more than the standard, to add value to the work, to create conditions for him to think outside the box. In this case, the employee will produce more benefits than required. The employee should always be told clearly and in detail what is expected of him. There may be some mechanical or technical error in the process. In this case, it is necessary to avoid criticism and to look for solutions together. First, it does not make sense to look back and look for the culprit if something happened. Instead of looking for a solution, looking for the cause of the problem is a waste of time. Second, if you work with an employee in such a situation, the likelihood of a recurrence of such an event decreases. This is because the employee already understands the importance of not making mistakes. He also consciously understands and appreciates that the leader understands him. In short, they lead to the management of creativity and talent in the company. If current employee measurements focus on employee performance, employee potential should also be measured in talent management. Decisions made in talent management stem from the core competitive powers of the enterprise, as well as the competitive powers appropriate to the position. Talent management arises from the integration of the above-mentioned HR (human resources) elements of the enterprise - the involvement, development, motivation of employees, ensuring efficiency and loyalty. The main purpose of talent management is to ensure high performance in the company, to form an enterprise that will achieve its strategic and operational goals.

Effective talent management is about linking employees' goals with the company's corporate goals. Target alignment is not only the definition of job roles, but also an indicator of the employee's continued value to the enterprise. When an employee feels part of the enterprise, performance increases even more. Combining goals builds employee leadership skills and allows managers to focus on the activities of employees towards the most important goals of the company, to fully understand the associated responsibilities for specific goals, and to strengthen the responsibilities and powers of the enterprise.

Methods of improving the system of labor motivation in credit organizations

In order to develop proposals and recommendations on methods to improve the system of labor motivation in credit organizations, it is necessary to analyze the interview material that has been conducted in these organizations.

For this purpose, both qualitative and quantitative indicators of data were collected and various methods were used:

1. Interviews with heads of credit institutions;
2. Oral interview with employees of the organization.

The aim of the analysis of both quantitative and qualitative indicators was to determine the level of impact of each research method and employee performance on the results of activities used to encourage employees to participate in surveys and interviews, to identify key gaps in applied motivational methods.

Each indicator and criterion was analyzed separately to understand the nature of the data obtained in the research process and the trends they reflect.

In order to obtain the necessary information and find answers to the main questions of the research, interviews were conducted with the heads of human resources departments of credit organizations.

The structure of the interview consisted of a total of nine questions related to the application of motivational methods, their impact on employee performance, and their role in measuring employee performance in the company.

The purpose of choosing an interview method as a method for analyzing quality indicators is to collect detailed information on the effectiveness of methods and tools used to increase motivation and productivity and provide information on the results of surveys conducted among employees to perform research tasks.

The following questions were used during the interviews in the bank-credit organizations in the research process:

1. What can you say about the necessity of motivation in your organization?
2. What motivation methods are used in the organization?
3. What is the intensity and frequency of the motivation methods and tools used?
4. What is the role of other departments in motivating employees ?
5. If we evaluate the level of communication between management and employees on a scale of one to five, how will this assessment be in your organization and why?
6. How do you measure employee performance?
7. How do you think motivational methods affect performance?
8. Are employees in your organization rewarded individually or collectively?
9. Do you plan to improve your corporate information network in order to determine the level of performance of employees and evaluate their performance, and in what direction will this improvement be carried out?

In the process of conducting interviews, the need for motivation in credit institutions was determined based on the information obtained. According to the managers we interviewed, managers need to give employees the moral support they need, because they are an integral, important part of the organization. Relationships between employees in the organization should be based on the principles of friendship, mutual support and longevity. This is especially true in the summer months, when working conditions and vacations are high. It should be noted that existing organizational rules, standards and corporate policy play an important role in maintaining internal discipline. It is clear that these rules should serve to maintain, sustain and strengthen the relationship between managers and their subordinates.

Some managers also gave the example that if one of the employees needs to achieve certain goals in order to be rewarded with a bonus, his / her colleagues will certainly help him / her to achieve this goal.

Some credit institution leaders note that financial incentives are not used as the main motivational method. They believe that both tangible and intangible methods of motivation are used in organizations. However, intangible incentives have been a major source of motivation since the start of the business.

Among the information obtained during the interview in the research process, the most important point is the information on the methods used to improve the mood and productivity of employees.

It should be noted that the main focus in the application of these methods is on the very low frequency and intensity of their application. Managers note that such situations can lead to high expectations of employees to be rewarded by management. As a result, employees will look forward to the gifts, rewards, bonuses and tariffs that will be given to them by management, which in turn can lead to demotivation of employees, leading to undesirable problems between management and employees in the organization.

Another point is that when asked "what is the role of other departments and divisions in motivating employees of the organization?", according to the interviewed managers, the finance department is undoubtedly the favorite of all employees of the organization. The reason for this

conclusion is that the department provides financial support and bonuses that meet the basic needs of employees.

As a result of the interviews, it became clear that Access Bank CB applies a bonus system to salaries as the main method of financial incentives for employees. If the employees reach a certain sales volume in the performance of banking services, the credit organization provides bonuses to those employees.

Also, various tests carried out after a series of exams and webinars are organized by the bank-credit organization in the events form. Employees are unaware of the tests, which consist of questions included in the tests organized by the management of the bank-credit organization. After the webinar-internet seminars, which consist of trainings on new banking services, exams are held on the basis of the materials of these trainings. Employees who show high results in these exams are rewarded in various ways. When employees are positively evaluated by customers on the corporate information network and Facebook page of the bank-credit organization, they are rewarded by managers at the end of the year with a bonus method. Sometimes, in case of special need, employees can be paid in advance. Some executives noted the importance of intangible motivation methods in the bank. The most important of these methods was the interaction between management and subordinates, and the managers interviewed were asked to rate this level on a scale of 1 to 5 in order to determine the level of relationship. They assessed the levels in different ways. Thus, the level of communication between employees and their immediate supervisors was assessed by 5 points, and the level of communication between the heads of other structural units of employees and the CEO was assessed by 4 points.

As for rewarding employees according to their performance, these measures include praising employees, other members of the staff and employees of all departments and branches of the bank-credit organization when they are positively evaluated by customers through the corporate information network and Facebook page of the bank-credit organization. According to managers' responses, employees' performance is monitored through phone calls and is constantly monitored. This is because in some cases, employees' attitudes towards customers, services provided by the bank and other issues are checked to assess their performance.

Also, with the help of a mystery client, the general behavior of employees is assessed by management according to predetermined indicators and criteria, such as the provision of services that will meet customer requirements and the level of service quality. At the end, the general manager of the organization informed about the improvement of the corporate information system of the bank-credit organization to assess the performance of employees. He noted that various new types of tests and examinations were introduced after the online seminars, which are considered an important factor in determining the performance of employees.

The data collection process was carried out by conducting a survey among the bank's employees. Respondents participating in the survey were provided with questionnaires consisting of 15 questions. First of all, it should be noted that the oral survey was conducted among thirteen employees of the authorized bank-credit organization.

The demographic composition of the respondents in the survey is as follows:

Table 1

Demographic composition of the respondents participating in the survey

Man	7
Women	6
Total:	13

More than half of the surveyed employees have worked in this organization for more than three years, the rest work in this organization for a period of one to three years. Their answers can be considered reliable. Such employees are carefully acquainted with the internal rules of the bank-credit organization and its personnel policy.

The third question of the survey is: How long have you been working for this organization?

Table 2

Work experience of survey participants in the organization

Amount of years	Amount of participants	Percentage
0-1	0	0 %
1-3	8	61,6 %
3 <	5	38,4 %
Total:	13	100%

In the fourth question, the interviewed employees were asked to choose which of the motivational methods listed in the list provided to them are currently used in a bank and credit organization. Three out of thirteen surveyed employees noted that salary increases are the main type of motivation method used in a banking and credit organization, and of respondents indicated that bonuses are the main motivation method. The number of employees who claim that the system of motivation methods of the bank also includes such methods of motivation as the development of projects and plans, the assignment of a certain status, training and development programs, participation in the company's profits, vesting certain duties and powers (i.e. 2). According to six respondents, effective communication between managers and their subordinates can be considered one of the main methods of motivation.

The next question was to what extent the motivational tools and means used in the organization influenced the performance of employees:

Table 3

The level of influence of motivational tools and means used in the organization on the performance of employees

	Good	Does not affect	Bad	Number of participants
Salary increase	100%	0%	0%	3
Bonuses	100%	0%	0%	13
Share in profit	50%	50%	0%	2
Independence	100%	0%	0%	1
Status	100%	0%	0%	2
Training and development programs	100%	0%	0%	2
Communication	66,6%	33, 4%	0%	6

The seventh question of the survey was aimed at identifying the motivational tools that employees want to use in the bank. The number of respondents who wanted to increase their salaries and use more communicative methods was the same: three out of thirteen participants. 76.9% of respondents chose "Training and Development Programs" as a motivational tool most often used by employees of banking and credit organizations. The least motivating tools that the organization wanted its employees to use were "Granting Status" and "Recognition". According to the results of the survey, the second most motivating tool for employees to use was receiving feedback from mana-

gers. 69.2% of respondents preferred to use this method. Five out of thirteen employees have chosen to increase accountability in the workplace. Thus, the application of this method is ranked third among the most desirable means of motivation.

The eighth question was aimed at determining the level of employee participation in management decisions in a bank-credit organization.

Question 8: How do you rate your level of participation in decision-making in your organization?

Table 4

The level of employee participation in decision-making in the organization

Responds	Percentage	Participants
Absolutely	0%	0
Partially	46,2%	6
I do not participate	23,1%	3
Cannot be answered	30,7%	4
Total:	100%	13

From the data in Table 8, it can be seen that 46.2% of the organization's employees rated their level of involvement in decision-making with the word "partial", while those who refused to answer this question were 30.7% of employees. Three out of thirteen employees surveyed, or 23.1%, said they had nothing to do with decision-making in a bank or credit institution.

In the next question, the respondents were asked to determine the intensity and frequency of rewards at CB "AccessBank":

How often are you rewarded by the organization?

Table 5

Reward range of employees at certain intervals by the organization

Reward Range	Percentage
Once a week	0%
Once a month	0%
Once a year	46,2%
There is no exact time	23,1%
Other	0%
Cannot be answered	30,7%
Total:	100%

In this question, they were asked to rate the level of communication between employees of the organization and management structures from 1 to 5 points. 46.2% of the respondents rated the level of communication with 4 points, and 53.8% rated the level of communication between management and them with the highest score, i.e. 5 points.

When surveyed employees were asked to provide information on the intensity and frequency of feedback from their supervisors, 61.5% refused to do so, 30.8% said they did not receive feedback from their supervisors, and 7.7% received feedback from their supervisors on a monthly basis.

The twelfth question was asked to the survey participants in order to assess the general level of

working conditions in the bank-credit organization. Seven of the participants rated this condition as "normal" and five as "good", and one rated it as "excellent".

Table 9 provides information on the Bank's staff training and development opportunities:

Table 6

Available opportunities for training and development programs for employees at CB "Accesbank"

Responds	Percentage	Amount of Participants
Yes	23,1%	3
No	23,1%	3
Cannot be answered	53,8%	7
Total:	100%	13

When asked whether managers make objective, fair and correct decisions in the process of evaluating the performance of employees, 30.8% of employees rated it as "normal" and 38.5% as "bad". The remaining 30.7% of employees rated the level of performance evaluation by managers as satisfactory, i.e. good.

The thirteenth question was aimed at identifying suggestions that employees could make to the organization in order to maximize their productivity. Two of the participants suggested giving employees a "vacation" while 11 refused to answer the question.

MODERN FEATURES OF LABOR MOTİVATİON MANAGEMENT İN CREDİT ORGANİZATİONS

Such a trend is evident when examining the financial instruments of motivation: in banking and credit institutions, the addition of salaries through the bonus system is the most common method of financial incentives for employees in today's real situation. Thus, we can say this with full confidence based on the results of interviews and oral surveys conducted in the research process in banks and credit institutions, which are considered to be various specialized financial institutions. Under this method of incentives, employees of banking and credit organizations are provided with additional bonuses for the performance of various banking operations in a fixed volume. Such a means of motivation is a method of external motivation and is considered effective in the short term.

One of the methods of motivating employees in banking and credit organizations is the provision of cash rewards, which is the second most preferred method of financial incentives preferred by most managers of credit institutions. Positive customer feedback, often recorded through the call centers of businesses and organizations, allows them to be rewarded with cash during evaluating employees' performance at the end of the year.

As noted in the previous section, motivation and systematic description of the strengths and weaknesses of employees and the evaluation of performance are a complex, but at the same time a strong relationship, however these relationships are the main reasons for employee satisfaction. This, in turn, leads to an increase in the profitability and competitiveness of the enterprise and organization. Motivation in the workplace depends on the desire of employees to receive support from their manager or supervisors, financial needs, their expectations, etc.

Literature:

1. Azərbaycan Mərkəzi Bankı. İnsan Resursları və Riayət olunma Standartı. https://www.cbar.az/assets/191/insan_resurslari_ve_riayet_olunma_standarti.pdf

2. Əliyeva N., Müəssisədə Kadr Potensialı və Onun Qiymətləndirilməsi. Azərbaycan Dövlət İqtisad Universiteti. http://unec.edu.az/application/uploads/2015/05/aliyeva_nigar.pdf

3. Kazimov A. (2015). İnsan Resurslarının İdarə Edilməsi Elminin Konseptual Əsaslarının Formalaşması və Müasir İnkişaf Aspektləri. Azərbaycan Vergi Jurnalı. http://vergijurnali.az/upload/File/2015-3.Kazimov%20A..pdf

4. Steven M.E., William L.S., & Chet E.B. (2012). Age as a Moderator of Attitude towards Technology in the Workplace: Work Motivation and Overall Job Satisfaction. Behaviour & Information Technology, 31, 453-567.

5. https://www.accessbank.az

R.Z.Quliyev
doktorant, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti PHŞ
ORCID 0009 0005 9093 2139

Azərbaycanın bank-kredit təşkilatlarında əməyin normalaşdırılması və qiymətləndirilməsi təcrübəsinin təhlili (Accessbank Kommersiya Bankının timsalında)

Xülasə

İnsan resursları menecmenti sisteminin fəaliyyətinin vacib aspektlərindən biri də şirkətlərdə insan resursları strukturlarının mütəxəssislərinin işçi heyətin fəaliyyətinin qiymətləndirilməsi, onların əməyin normalaşdırılması metodlarını necə tətbiq etmələridir. Bank-kredit təşkilatlarında rəhbər strukturlarının və işçi heyətin əməyin qiymətləndirilməsinin səmərəliliyi məsələlərinin hansı səviyyədə olması, motivasiya metodlarından, üsullarından və bu üsulların tətbiq olunması intensivliyi və tezliyinin hansı səviyyədə olmasının təhlil edilməsi zəruridir.

Məqalədə tədqiqat prosesində bu suallara cavab tapmaq üçün bank-kredit təşkilatlarında aparılan sorğuların nəticələri təhlil edilir və işçilərin performansının ölçülməsi, rəhbərlik və işçilər arasında kommunikasiyanın səviyyəsinin qiymətləndirilməsi, motivasiya üsullarının işçilərin performansına təsirinin təhlili və qiymətləndirilməsi aparılmışdır. Eləcə də sorğu prosesində ayrıca bir işçi fərdin eləcə də bütövlükdə kollektivin mükafatlandırma metodlarından, koporativ informasiya şəbəkələrindən, rəqəmsal platformaların bu proseslərin təşkilində necə istifadə edilməsi aşkarlanmışdır. Tədqiqat prosesində müəllif qeyd edir ki, müsahibə zamanı əldə edilən məlumatlar arasında ən mühümü işçilərin əhval-ruhiyyəsinin və əmək məhsuldarlığının yüksəldilməsi məqsədilə tətbiq olunan metodlara dair informasiyanın dolğunluğunun təmin edilməsidir. Bu metodların tətbiq edilməsində əsas diqqət isə tətbiq olunma tezliyinin və intensivliyinin hazırda çox aşağı səviyyədə olması qeyd edilir.

Göstərilən məqamlar əsasında müəllif tərəfindən məqalədə ümumiləşdirilmələr aparılır və bank-kredit təşkilatlarında xronometraj üsulu və əməyin motivasiya sisteminin təkmilləşdirilməsi üzrə təklif və tövsiyyələr verilir.

Açar sözlər: *işçilərin qiymətləndirilməsi, işçilərin fəaliyyəti, kredit təşkilatlarında əməyin rasionlaşdırılması, liderlik üslubları, bank sistemində İnsan Resurslarının İdarə Edilməsi və s.*

https://doi.org/10.58225/tim.2025-4-442-447

O.F.Məmmədov
doktorant, Azərbaycan Dövlət İqtisad Universiteti
omammadov001@yahoo.com

Məqalə redaksiyaya daxil olub 02.12.2025
The article was received by editorial board on 02.12.2025
Статья принята к печати 02.12.2025

MÜASİR İQTİSADİYYATDA BANK BÖHRANLARI

Xülasə

Bank böhranları əsrlər boyu vaxtaşırı baş versələr də, 1970-ci illərdən etibarən bank böhranları dünyanın müxtəlif ölkələrində daha tez-tez baş vermiş və verməkdədir. Maliyyə bazarları inteqrasiya olunduqca və liberallaşdıqca bank böhranlarının sayı da artır. Bank böhranlarının bəzi ümumi qanunauyğunluqları olsa da, bu sahənin tədqiqatçıları və peşəkaları bank böhranlarını ən az öyrənilmiş böhran növü hesab edir.

Bank böhranları həm əlverişli, həm də əlverişsiz iqtisadi şəraitdə baş verə bilər, çünki onlara səbəb ya rasional davranışlar, ya panikalar və ya domino effekti ola bilər. Bunlar hətta biri baş veürməsi əmanətçilərin banklara qarşı həssaslığını artırır və banklar pul vəsaitlərinin əmanətçilər tərəfindən kütləvi şəkildə çıxarılması ilə üzləşə bilər. Bu zaman, ayrı-ayrı bankların problemləri bütün bank sisteminə sürətlə yayıla bilər. Milli əmanətlərin sığortası sistemi bu cür riski məhdudlaşdıra bilsə də, eyni zamanda böhran ehtimalını artıra da bilər, çünki banklar əmanətlərin sığortası sisteminə güvənməklə risklərə qarşı ehtiyatlılığını və həsaslığını azalda bilər. Bank sektorunda institusional zəiflik böhran riskini artıra bilər.

Açar sözlər: *bank böhranı, sistemli bank böhranı, bank böhranlarının növləri, bank böhranlarının səbəbləri və amilləri, bank böhranlarının nəticələri.*

GİRİŞ

Müasir dünyada iqtisadiyyat bank sistemindən çox asılıdır. Banklar kredit verən, əmanətləri idarə edən və investisiyaları sövq edən qurumlar olmaqla misilsiz əhəmiyyət kəsb edir. Lakin, müasir iqtisadiyyatın digər sektorlarındakı kimi, bank sektoru da ayrı-ayrı fərdlər, şirkətlər və bütövlükdə iqtisadiyyat üçün dağıdıcı nəticələrə səbəb ola biləcək böhranlara məruz qala bilir.

Öz mənşəyinə və təyinatına görə maliyyə vasitəçiləri olmaqla, müvəqqəti sərbəst maliyyə resurslarının kredit və investisiyalara çevirilməsində oynadıqları rola görə bankların bazar fəaliyyəti balans hesablarında borc vəsaitlərinin payının yüksək olması ilə səciyyələnir. Təkcə bunun özü bankların sabitliyini tez itirə bilən bazar subyektləri kimi səcəyyələndirilməsinə əsas verir. Məsələn, investorlar sadəcə başqalarının da oxşar addımlarından ehtiyatlanaraq öz maliyyə resurslarını banklardan geri çəkdikdə çox asanlıqla böhran yarana bilər. Bu cür əslində kisik olan şoklar, istər real sektordan, istərsə də maliyyə sektorundan qaynaqlansalar da, bazarda qarışıqlığa və hətta böhranına səbəb ola bilər.

ƏSAS HİSSƏ

Bank böhranları maliyyə sektorun səmərəli fəaliyyət göstərməməsi bir və ya daha çox bankın çökməsinə səbəb olduqda baş verir. Bank böhranlarına iqtisadi, siyasi və maliyyə sahələrində baş verənlər səbəb ola bilər yaxud onların amilləri kimi çıxış edə bilər.

Bank böhranlarının ən çox yayılmış qaynaqlarında biri bankların öz üzərilərinə həddindən artıq risk götürməsidir. Bu, bankların adekvat risk idarəetmə tədbirləri görmədən riskli kreditləşmə və ya investisiya ilə məşğul olması zamanı baş verə bilər. Belə hallarda banklar iqtisadiyyatın müəyyən sektorlarından həddindən artıq asılı vəziyyətə düşə bilər və bu da bankların investorlar, əmanətçilər və digər maraqlı tərəflər arasında etibarını itirməsinə səbəb ola bilər.

Bank böhranı problemli kreditlərin çox sayda olmasından da qaynaqlana bilər. Borcalanlar kreditləri ödəmədikdə problemli kreditlərin xüsusi çəkisi əhəmiyyətli dərəcədə arta bilər ki, bu da bankların maliyyə sabitliyinə mənfi təsir göstərə bilər. Bunun davamında iqtisadiyyatda zəncirvari reaksiyaya yarana bilər ki, bu da iqtisadi fəallığın azalmasına və işsizliyin artmasına səbəb ola bilər.

Bundan əlavə, bank böhranları iqtisadi tənəzzül, yüksək inflyasiya və ya milli valyutanın devalvasiyası kimi makroiqtisadi proseslərdən də qaynaqlana bilər. Bu amillər bankların maliyyə sağlamlığını sarsıdmaqla onların gəlirliliyinin azalmasına və davam olaraq investorların etibarının itirilməsinə səbəb ola bilər.

Nəhayət, bank böhranları tənzimləmə və nəzarətdəki qüsur və boşluqlardan da qaynaqlana bilər. Zəif tənzimləmə, bank nəzarətindəki çatışmazlıqlar və bank hüququnun əməldə tətbiqi ənənəsinin olmaması bankların riskli davranışına və iflasa səbəb ola biləcək fəaliyyətlərdə və əməliyyatlarda iştirakına yol açа bilər.

Deməli, o qənaətə gəlmək olar ki, bank böhranları hədsiz risklər, problemli kreditlər, makroiqtisadi proseslər, bank tənzimləməsi və nəzarətdəki çatışmazlıqlar kimi müxtəlif səbəb və amillərdən qaynaqlana bilən mürəkkəb bir haldır. Buna görə də, bu cür böhranların qarşısını almaq və ya təsirini azaltmaq üçün hər dəfə həm siyasi səviyyədə, həm bank sektorunun özünün daxilində risk menecmentin təkmilləşdirilməsi, bank tənzimləməsinin sərtləşdirilməsi və bank nəzarəti mexanizmlərinin gücləndirilməsi məsələri ortaya çıxır.

Problemi mürəkkəbləşdirən həm də odur ki, əsas səbəblərindən, şiddətindən və müddətindən asılı olaraq bank böhranları müxtəlif formalarda baş verə bilər. Bank böhranlarının bir neçə yayılmış növlərini göstərmək olar.

Bank kreditlərinin keyfiyyəti böhranı. Bu növ böhran bankların kredit portfelində qaytarılmayan və ödənilməyən kreditlərin çoxalması ilə əlaqəlidir ki, bu da banklar üçün böyük miqyasda itkilər deməkdir və likvidliyin çökməsinə səbəb olur. Belə hallar, banklar riskli fiziki və hüquqi şəxslərə, məsələn aşağı keyfiyyətli borcalanlara həddindən artıq kredit verdikdə və ya banklar risk menecmenti zəif təşkil etdikdə baş verə bilər.

Elə hal da ola bilər ki, bankların kapitalı mənfiləşir, yəni öhdəlikləri aktivlərini üstələyir. Belə olduqda bank ödəmə qabiliyyəti böhranını yaşaya bilər. Belə hallar, banklar öz investisiyalarından və kreditlərindən böyük itkilərə məruz qaldıqda, amma bankların malik olduqları kapital ehtiyatları zərəri ödəmək üçün kifayət etmədikdə baş verə bilər.

Bank sistemi bütövlükdə əhəmiyyətli çətinliklərlə üzləşdikdə sistemli böhran yaşana bilər. Bu növ böhran bütün bank sisteminə cəmiyyətdə etimadın geniş miqyasda itkisinə, əmanətlərin banklardan kütləvi şəkildə çıxarılmasına və bankların daha da çökməsinə səbəb olmaqla domino effekti kanalı ilə iqtisadiyyatın digər sektorlarına da yayıla bilər. Belə hallar, məsələn, ölkə daxilində ipoteka bazarının böhranı yaşandıqda yaxud ölkə xaricindəki maliyyə böhranın təsirilə baş verə bilər.

Konkret ölkədəki bank böhranlarının hansı növə aid olduğunu dəqiq müəyyənləşdirmək və anlamaq dövlət səviyyəsində və ölkənin mərkəzi bankı xəttilə böhranın fəsadlarının qarşısını almaq və ya azaltmaq üçün müvafiq tədbirlərin işlənib hazırlammasından ötrü olduqca vacibdir. Məsələn, kredit böhranı zamanı ölkənin mərkəzi bankı yaxud digər tənzimləyici qurumu kreditləşmə standart-

larını sərtləşdirə və daha sərt risk menecmenti qaydaları tətbiq edə bilərlər. Likvidlik böhranı zamanı isə ölkənin mərkəzi bankı yaxud digər tənzimləyici qurumu sistemli böhranın qarşısını almaq üçün banklara təcili maliyyə yardımı tətbiq edə bilər.

Bir halda ki, bank böhranları ayrı-ayrı şəxslər, şirkətlər və bütövlükdə iqtisadiyyat üçün böyük maliyyə və digər itkilərlə nəticələnə bilər, onda böhranların qarşısını almaq üçün onların əlamətlərini də bilmək vacibdir.

Belə əlamətlərdən biri borc səviyyəsinin yüksək olmasıdır. Banklar ifrat dərəcədə çoxlu kredit verdikdə, bu, borc səviyyəsinin dözülməz həddə çatmasına səbəb ola bilər. Belə hallarda borcalanlar kreditlərini ödəyə bilməyəcək və banklar da bunun nəticəsində itkilərə məruz qalacaq.

Daha bir əlamət aktivlər bazarında "köpüklərin" yaranmasıdır. Məsələn, daşınmaz əmlak bazarında yaxud səhm bazarında qiymətlər və məzənnələr heç bir ciddi əsas olmadan sürətlə qalxdıqda, "köpük" yarana bilər. Gec-tez "köpük" partlayır və bu baş verdikdə "köpüklənən" aktivlərə böyük investisiyalar etmiş banklar nəhəng itkilərlə üzləşir.

Əlamətlərdən biri də səmərəsiz və sərişтəsiz risk idarəetməsidir. Müvafiq risk menecmenti prosedurlarına malik olmayan banklar aktiv əməliyyatları üzrə öz üzərilərinə həddindən artıq risk götürdükdə öz durumlarını zəiflədirlər. Məsələn, borcalanların kredit qabiliyyətinin səhv qiymətləndirilməsi və ya riskli aktivlərə investisiya etdikdə belə hal yarana bilər.

Bank böhranın yüksək ehtimallı olmasını bildirən əlamətlərdən biri xarici ticarət balansının böyük və illərcə davamlı kəsiri, həmçinin inflyasiyanın şiddətlənməsi kimi iri iqtisadi natarazlıqlar bank böhranına yol açа bilər. Belə hallar, məsələn, bankların böyük kreditlər verdiyi sahələr gözlənilmədən tənəzzülə uğrayanda baş verə bilər.

Bank böhranlarının klassik əlaməti isə ölkədəki siyasi sabitsizlikdir. Siyasi sabitsizlik mərkəzi hökumətin siyasətindəki dəyişikliklərlə, sosial iğtişaşlarla müşayiət olduqda banklar ciddi zərər görə bilər. Belə hallar bank sisteminə və bankların fəaliyyətinə cəmiyyətdəki inamın itirilməsinə gətirib çıxara bilər və əmanətlərin kütləvi şəkildə banklardan çıxarılması ilə nəticələnə bilər.

Deməli, bank böhranlarının qarşısını almaq və qabaqlayıcı tədbirlər görmək üçün bu xəbərdarlıq əlamətlərini yaxından izləmək mərkəzi hökumət və mərkəzi bank yaxud digər tənzimləyici qurum üçün olduqca vacibdir. Məsələn, bankların təhlükəsiz və sağlam fəaliyyətini təmin edən normativ sənədlərin və nəzarət tədbirlərinin tətbiqi. Bundan əlavə, bankların özləri də risklərin azaldılması və potensial böhranların öhdəsindən gəlmək üçün adekvat kapitallaşmanı təmin edilməsi istiqamətində tədbirləri görə bilərlər.

Bank böhranlarının nəticələrinə gəldikdə, onlar iri miqyaslı və uzunmüddətli təsirə malik ola bilər, həm ayrı-ayrı fərdləri, həm ayrı-ayrı şirkətləri, həm ayrı-ayrı sahə və sektorları, həm də bütövlükdə iqtisadiyyatı əhatə edə bilər. Bank böhranlarının baş verməsinin qarşısını almaq və təsirini minimuma endirmək üçün onların xəbərdarlıq əlamətlərini izləmək və aradan qaldırmaq çox vacibdir. Bəzi potensial nəticələr bunlardır:

Ayrı-ayrı fərdlər üçün ən böyük və təsirli nəticə böhrana düçar olmuş banklardakı əmanətlərin itirilməsidir. Bankların müflisləşməsi şəxsi əmanətlərin itirilməsinə səbəb ola bilər ki, bu da həmin əmanət sahiblərini maliyyə çətinlikləri ilə üz-üzə qoyur. Bundan əlavə, bankların müflisləşməsi müəssisələrin bağlanmasına və iş yerlərinin ləğv olunmasına səbəb ola bilər ki, bu da çoxsaylı vətəndaşlara və onların ailələrinə əhəmiyyətli dərəcədə mənfi təsir göstərə bilər. Məsələn, kreditlərin əlçatanlığının pisləşməsi şəraitində. Məlumdur ki, böhran zamanı məhdud çıxış: Bank böhranı zamanı kredit qıtlığı yaşanır və bu da insanların ev (mənzil) almaq və ya biznes qurmaq üçün kredit almaq imkanlarının xeyli azaldır və çətinləşdirir.

Biznes subyektlərinə gəldikdə bank böhranı zamanı banklar tərəfindən kreditləşmənin məhdudlaşdırılması firma və şirkətlərin, müəssisələrin kreditlərdən bəhrələnmək imkanlarını daraldır ki, bu da onların gündəlik fəaliyyətinə və genişlənmək imkanlarına mane olur. Bankların müflisləş-

məsi əhalidə olduğu kimi biznes subyektləri üçün də banklarda yerləşdirilmiş investisiyaların itirilməsi ilə nəticələnə bilər. Bir tərəfdən kreditlərin əlçatanlığı, digər tərəfdən banklardakı maliyyə vəsaitlərinin itirilməsi getdikcə artan sayda firma və şirkətlərin, müəssisələrin, xüsusilə də kreditlərdən yüksək dərəcədə asılı olanların bağlanmasına səbəb ola bilər.

Bütövlükdə iqtisadiyyatı götürdükə isə bank böhranlarının ən ciddi və uzunmüddətli təsirə malik fəsadı iqtisadi artım sürətinin azalmasıdır. Əhalinin və biznes subyektlərinin yuxarıda göstərilən problemləri fonunda bu, qaçılmaz ola bilər. Bazarlardakı sabitsizlik investorların etimadını daha da sarsıda bilər və daha geniş miqyaslı və şiddətli iqtisadi tənəzzül ehtimalını artırı və gerçəkliyə yaxınlaşdırır.

Bank böhranı zamanı maliyyə sisteminin və onun bank seqmentinin sabitləşdirilməsi niyyətilə mərkəzi hökumət tərəfindən həyata keçirilən müdaxilə böyük maliyyə xərcləri tələb etməklə onların əsas yükünün vergi ödəyicilərinin üzərinə düşəcəyini də qaçılmaz edir. Bununla belə, bank böhranı baş verdikdə, maliyyə sistemini sabitləşdirmək və daha böyük iqtisadi zərərin qarşısını almaq üçün mərkəzi hökumətin müdaxiləsi zəruri olur. Konkret tədbirlər planı isə böhranın təbiətindən və şiddətindən, eləcə də hökumətin malik olduğu maliyyə və monetar siyasəti metod və alətlərindən asılıdır.

Ən çox yayılmış tədbirlərdən biri hökumət tərəfindən müflis olan banklara kreditlər və ya birbaşa kapital qoyuluşları şəklində maliyyə dəstəyinin verilməsidir. Bundan məqsəd bank sisteminə inamın qorunub saxlanılması və banklardan kütləvi əmanət çıxarılmasının qarşısının alınmasıdır. Bəzi hallarda böhran şəraitində bankların fəaliyyətini təmin etmək və onların iflasının qarşısını almaq üçün hökumət hətta bankları müvəqqəti olaraq milliləşdirə də bilər.

Dünya təcrübəsindən yaxşı məlum olan digər mümkün addım bank sektoruna dövlət nəzarətinin gücləndirilməsi ola bilər. Məsələn, bank kapitalına dair prudensial tələblərin sərtləşdirilməsi, risklərin idarə edilməsi prosedurlarının təkmilləşdirilməsi, bank sistemindəki potensial zəifliklərin gerçək hala çevrilməsinin qarşısının alınması üçün onların əvvəlcədən aşkarlanmasından ötrü stress testlərin mürəkkəbləşdirilməsi və daha təfərrüatlı keçirilməsi göstərilə bilər.

Mərkəzi bankın monetar siyasəti çərçivəsində də bank böhranlarının aradan qaldırılması üçün istifadə edilə bilən imkanlar var. Belə ki, Mərkəzi banklar uçot faiz dərəcəsindən istifadə etməklə kredit bazarında faiz dərəcələrinin enməsini həvəsləndirə və bu yolla ölkədəki iqtisadi fəaliyyəti canlandıra bilər. Yaxud başqa vasitələrdən, məsələn, maliyyə sistemində, o cümlədən bank seqmentində likvidliyi artırmaqdan ötrü kəmiyyət yumşaldılmasından istifadə edilə bilər.

Yuxarıda göstərilən tədbirlər lazımi səmərəni vermədikdə yaxud səmərəni versə də onu daha da möhkəmləndirmək lazım olduqda, hökumət əlavə olaraq iqtisadiyyatı tam miqyasda sabitləşdirmək üçün daha geniş addımlar ata bilər. Məsələn, fiskal həvəsləndirmə paketləri tətbiq edə bilər və ya əsas iqtisadi problemlərin aradan qaldırılması üçün struktur islahatlarının həyata keçirilməsinə başlaya bilər. Ümumiyyətlə, hökumətin bank böhranına qarşı addımları, qərarları, tədbirləri çoxsaylı amillərdən asılı olduğundan ən təsirli, səmərəli və davamlı variantları tapılması üçün təfərrüatlı təhlilə qaçılmaz ehtiyac yaradır.

Hökümət qurumu olmasa da, Mərkəzi banklar bank böhranlarının qarşısının alınmasında və böhran baş verdikdə onun idarə olunmasında əsas rol oynayırlar. Məhz onlar monetar siyasəti həyata keçirməklə, bank fəaliyyətini tənzimləməklə və zərurət yarandıqda bank sektoruna təcili maliyyə qoyuluşları etməklə iqtisadiyyatdakı maliyyə sabitliyinin qorunmasında böyük pay sahibidirlər. Bununla belə, Mərkəzi banklar təcili likvidliyin təmin edilməsi ilə mənəvi risklərin qarşısının alınması arasındakı incə bir tarazlığı da qorumalıdırlar. Məlumdur ki, kommersiya bankların Mərkəzi bankın onları xilas edəcəyinə bel bağlaması onları həddindən artıq riskli əməliyyatlara sövq edə bilər. Mənəvi risklərin qarşısını almaq üçün mərkəzi banklar riskli davranışların qarşısını almaq üçün təcili kreditləmə mexanizmlərini diqqətlə hazırlamalıdırlar.

Lakin, xəstəliklərlə mübarizədə olduğu kimi, bank böhranlarına qarşı ən tutarlı və təsirli yanaşma onların profilaktikasıdır, yəni böhranlarının baş verməsi ehtimalını heçə endirməkdən ötrü qabaqlayıcı tədbirlər görülməsidir. Beynəlxalq Valyuta Fondunun (BVF) da mövqeyi belədir ki, bank böhranlarının qarşısını almaq üçün qabaqlayıcı tədbirlər zəruridir. BVF bank sektorunun sabitliyini təmin etmək üçün hərtərəfli tənzimləmə və nəzarət sisteminin tətbiqini tövsiyə edir. Bu sistem bank kapitalının adekvatlığı və likvidliyinə dair tələbləri nəzərdə tutmaqla, səmərəli və təsirli risk menecmenti metodlarını və müflis olmuş bankların ləğvi mexanizmlərini əhatə etməlidir. BVF həmçinin bank böhranlarının ehtimalını azaltmaq üçün makroiqtisadi sabitliyin və davamlı iqtisadi artımı təşviq edən siyasətlərin vacibliyini vurğulayır. BVF hesab edir ki, bu tədbirləri görməklə bank böhranlarının qarşısını almaq və onların fərdlərə, müəssisələrə və bütövlükdə iqtisadiyyata potensial təsirini zəiflətmək olar.

NƏTİCƏ

Bank sistemində böhran yaşamamış bir ölkə adlandırmaq çətindir. Müxtəlif ölkələrin təcrübəsi göstərir ki, bank böhranları bank sektorunun dəyişən makroiqtisadi şəraitə uyğunlaşmasının mürəkkəb prosesini əks etdirir. Bank sektoru müasir iqtisadiyyatın ayrılmaz tərkib hissəsi olduğundan onun daxilindəki böhranlar ümumiqtisadi və ya daxili səbəblərdən yarana bilər. İqtisadi ədəbiyyatda bank böhranının hamı tərəfindən qəbul edilmiş tərifi yoxdur. Beynəlxalq təcrübə göstərir ki, aparıcı iqtisadi məktəblər uzun müddətdir ki, bank böhranlarının əsas səbəbləri və mexanizmləri ilə bağlı ən müxtəlif, bir çox hallarda bir-birinə tam əks fikirlər irəli sürürlər. Eyni zamanda, proqnozlaşdırılması çətin olan yeni amillər də daim ortaya çıxır və bank böhranlarına səbəb olur.

Konkret bank böhranın konkret səbəb və amillərinin asılı olmadan, onların nəticələri sosial-iqtisadi inkişafa mane olur, təkcə bank sektoruna deyil, bütün iqtisadiyyata, ilk növbədə məhsul istehsal edən, yeni dəyər yaradan sahələrə təsir göstərir, fiziki və hüquqi şəxslərin əhəmiyyətli itkilərinə, iflasına, əmanətlərin və yığımların dəyərsizləşməsinə və itirilməsinə səbəb olur. Son nəticədə isə bank böhranları bankların sosial-iqtisadi imicini sarsıdır.

İstifadə edilmiş ədəbiyyat:

1. Claessens S., Kose A. (2013). Financial crisis: Explanations, Types, and Implications. IMF Working Paper. Washington. (13/28):1–65.

2. Chaudron R. and de Haan J. (2014). Identifying and Dating Systemic Banking Crises Using Incidence and Size of Bank Failures. De Nederlandsche Bank Working Paper. (406):1–28.

3. Financial and Sovereign Debt Crises: Some Lessons Learned and those Forgotten / IMF Working Paper WP/13/266.

4. Kilian H. The Persistence of a Banking Crisis. CEP Discussion paper. 2015;(1389):1–59.

5. Laeven L. and Valencia F. (2012). Systemic Banking Crises: An Update. IMF Working Paper. Washington. (12/163):1–32.

6. Luca Papi, Andrea F. Presbitero, and Alberto Zazzaro. (2015). IMF Lending and Banking Crises / IMF Working Paper, WP/15/19.

7. Mark Joy, Marek Rusnak, Katerina Smidkova and Borek Vasicek. (2015). Banking and currency crises: differential diagnostics for developed countries / Mark Joy, Marek Rusnak, Katerina Smidkova and Borek Vasicek. – Working Paper № 1810.

8. Rosser J.B., Rosser M.V. & Gallegati M. (2012). A Minsky-Kindleberger Perspective on the Financial Crisis. Journal of Economic Issues, Issue 46, pp. 449-462.

9. Жукова, Т.В. (2023). Банковские кризисы и экономический рост в современном мире // Банковские услуги, № 8, с. 17-24.

10. Ларина О.И. (2017). Банковские кризисы: проблемы их идентификации и преодоление // Управление. №2 (16), с. 9-15.

11. Лукачева О.В. (2018). Методические аспекты идентификации банковских кризисов // Мир новой экономики. № 3, с. 108-117.

12. Ниязбекова Ш.У., Космагамбетова С.Т. (2014). Мировые банковские кризисы - причины, факторы и последствия // Финансы: теория и практика. № 1, с. 110-121.

13. Хлопунова М.В. (2016). Теоретические аспекты банковских кризисов: сущность, классификация, причины возникновения // Дайджест-финансы, № 3(239), с. 12-22.

14. Хлопунова М.В. (2015). Банковские кризисы: содержание, истоки и распространение // Экономика и менеджмент инновационных технологий. № 6. Ч. 2 [Электронный ресурс]. URL: https://ekonomika.snauka.ru/2015/06/9270.

O.F.Mamedov
doctoral student, Azerbaijan State University of Economics

Banking crises in the modern economy

Abstract

Although banking crises have occurred periodically for centuries, since the 1970s, banking crises have become more frequent and have continued to occur in various countries around the world. As financial markets have become more integrated and liberalized, the number of banking crises has also increased. Although there are some common patterns of banking crises, researchers and practitioners in this field consider banking crises to be the least studied type of crisis.

Banking crises can occur in both favorable and unfavorable economic conditions, as they can be caused by rational behavior, panics, or a domino effect. Even one of these events increases the vulnerability of depositors to banks, and banks may face massive withdrawals of funds by depositors. In this case, the problems of individual banks can quickly spread throughout the banking system. While a national deposit insurance system can limit such risk, it can also increase the likelihood of a crisis, because banks can reduce their caution and sensitivity to risks by relying on a deposit insurance system. Institutional weaknesses in the banking sector can increase the risk of a crisis.

***Key words**. banking crisis, systemic banking crisis, types of banking crises, causes and factors of banking crises, consequences of banking crises.*

https://doi.org/10.58225/tim.2025-4-448-454

L.M.Cəfərli
doktorant, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Elmi Tədqiqat İnstitutu
lala.m.jafarli@gmail.com

Məqalə redaksiyaya daxil olub 02.12.2025
The article was received by editorial board on 02.12.2025
Статья принята к печати 02.12.2025

AZAD İQTİSADİ ZONALARDA DAYANIQLI MALİYYƏ MEXANİZMLƏRİNİN FORMALAŞDIRILMASI MƏSƏLƏLƏRİ

Xülasə

Məqalədə azad iqtisadi zonalarda dayanıqlı maliyyə mexanizmlərinin formalaşdırılması və idarəetmə xüsusiyyətləri araşdırılır. Tədqiqatda bu zonaların iqtisadi inkişafın sürətləndirilməsində rolu və maliyyə sabitliyinin təminində əhəmiyyəti elmi əsaslarla təhlil edilmişdir. Dayanıqlı maliyyə təminatının formalaşmasına təsir edən institusional, fiskal və investisiya amilləri müəyyən edilmişdir. Azərbaycan Respublikasında, xüsusilə Ələt Azad İqtisadi Zonasının nümunəsində mövcud maliyyələşmə modeli qiymətləndirilmişdir. Müqayisəli təhlil əsasında beynəlxalq təcrübə ilə milli modelin uyğunlaşdırılması imkanları araşdırılmışdır. Nəticələr göstərir ki, azad iqtisadi zonalarda maliyyə dayanıqlığının gücləndirilməsi iqtisadi artımın sabitliyinə və rəqabət qabiliyyətinin artmasına xidmət edir. Məqalədə bu istiqamətdə institusional və idarəetmə təkmilləşdirmələri üzrə təkliflər verilmişdir.

Açar sözlər. *azad iqtisadi zonalar, maliyyə dayanıqlığı, investisiya, iqtisadi inkişaf, dövlət siyasəti.*

GİRİŞ

Müasir dövrdə iqtisadiyyatın qloballaşması və rəqabət mühitinin dərinləşməsi şəraitində azad iqtisadi zonalar ölkələrin iqtisadi inkişaf strategiyalarında mühüm rol oynayır. Bu zonalar xarici investisiyaların cəlb edilməsi, ixrac yönümlü istehsalın təşkili, innovativ texnologiyaların tətbiqi və yeni iş yerlərinin yaradılması baxımından mühüm əhəmiyyət daşıyır. Lakin azad iqtisadi zonaların effektiv fəaliyyəti yalnız institusional mühitin deyil, eyni zamanda dayanıqlı maliyyə təminatının formalaşmasından da asılıdır.

Azad iqtisadi zonalarda maliyyə dayanıqlığının təmin olunması iqtisadi sabitliyin mühüm göstəricilərindən biridir. Dayanıqlı maliyyə mexanizmləri investisiya axınlarının davamlılığını, layihələrin səmərəliliyini və uzunmüddətli iqtisadi artımı təmin edir. Bu baxımdan, azad zonalarda maliyyələşdirmə modellərinin optimallaşdırılması, maliyyə resurslarının effektiv idarə edilməsi və maliyyə risklərinin azaldılması məsələləri tədqiqatın aktual istiqamətləri kimi çıxış edir.

Azərbaycan Respublikasında iqtisadi islahatların yeni mərhələsində azad iqtisadi zonaların inkişafı dövlət siyasətinin prioritet sahələrindən biridir. Xüsusilə Ələt Azad İqtisadi Zonasının yaradılması ölkə iqtisadiyyatına əlavə investisiya axınlarının yönəldilməsi, ixrac potensialının genişləndirilməsi və qeyri-neft sektorunun gücləndirilməsi baxımından mühüm addımdır. Bu zona-

larda dayanıqlı maliyyə təminatının qurulması həm dövlət, həm də özəl sektorun qarşılıqlı fəaliyyətini tələb edir.

ƏSAS HİSSƏ

https://doi.org/10.58225/tim.2025-4-479-487

JEL: FO2, F1, F12

M.Ş.Əliyev
doktorant, Azərbaycan Kooperasiya Universiteti
ORCID 0009-0008-3162 -6985
muradali99@bk.ru

Məqalə redaksiyaya daxil olub 04.12.2025
The article was received by editorial board on 04.12.2025
Статья принята к печати 04.12.2025

BEYNƏLXALQ BİZNESİNİN FAKTORLU İQTİSADİ TƏHLİLİ (AZƏRBAYCAN NÜMUNƏSİNDƏ)

Xülasə

Məqalədə beynəlxalq biznesin formalaşmasına və inkişafına təsir edən əsas faktorlar Azərbaycan Respublikasının timsalında təhlil edilmişdir. Təhlildə təbii resurslar, coğrafi mövqe, iqtisadi siyasət, kredit-maliyyə imkanları, beynəlxalq ticarət razılaşmaları və digər amillər qiymətləndirilmişdir. Müəllif müxtəlif statistik göstəricilər əsasında Azərbaycan iqtisadiyyatının beynəlxalq bazarlardakı mövqeyini və rəqabət qabiliyyətini dəyərləndirərək, ticarət dövriyyəsi, birbaşa xarici investisiyalar və sənaye ixracı üzrə struktur təhlil aparmışdır. "Əsrin müqaviləsi" çərçivəsində Azərbaycanın beynəlxalq biznesə inteqrasiyası və enerji sektoru vasitəsilə əldə etdiyi strateji üstünlüklər xüsusi vurğulanmışdır. Araşdırmanın nəticələrinə əsasən beynəlxalq biznesin effektivliyi üçün institusional islahatların davam etdirilməsi və qeyri-neft sektorunun inkişafı tövsiyə edilir. Bu məqalənin məqsədi – Azərbaycanın beynəlxalq biznes sistemindəki mövqeyini təhlil etmək, iqtisadi göstəricilərə əsaslanaraq bu sahədəki əsas problemləri və inkişaf imkanlarını dəyərləndirməkdir. Tədqiqatda beynəlxalq ticarət dövriyyəsinin ÜDM-dəki çəkisi, sənaye sahəsinin ixtisaslaşma əmsalları, ixrac-idxal balansı və beynəlxalq reytinq indikatorları əsas göstəricilər kimi qiymətləndirilmişdir.

Açar sözlər: *beynəlxalq biznes, idxal, ixrac, iqtisadi siyasət, rəqabətlilik, investisiya, Azərbaycan, Əsrin müqaviləsi.*

GİRİŞ

Qlobal iqtisadi inteqrasiyanın dərinləşməsi beynəlxalq biznesi milli iqtisadiyyatların ayrılmaz tərkib hissəsinə çevirmişdir. Azərbaycan üçün bu proses enerji resurslarının ixracı, əlverişli tranzit-coğrafi mövqe və beynəlxalq ticarət əlaqələrinin genişlənməsi ilə səciyyələnir. Beynəlxalq biznesin inkişaf trayektoriyası isə ölkənin təbii, iqtisadi, hüquqi və təşkilati faktorlarının qarşılıqlı təsiri nəticəsində formalaşır. Azərbaycanın beynəlxalq biznesinin, xüsusilə beynəlxalq ticarət sahəsinin faktor təhlili bir sıra əsas amilləri əhatə edir:

Neft və qaz ehtiyatları Azərbaycanın beynəlxalq iqtisadi mövqeyini gücləndirir, enerji ixracına əsaslanan əməkdaşlıq formatlarını genişləndirir və ölkənin qlobal bazarlardakı rolunu artırır. Azərbaycan Avropa ilə Asiya arasında yerləşməklə beynəlxalq nəqliyyat və ticarət marşrutlarının kəsişməsində mühüm tranzit ölkəyə çevrilmişdir. Bu mövqe loqistika və regional ticarət əlaqələrinin inkişafı üçün strateji üstünlük yaradır. Son illərdə biznes mühitinin yaxşılaşdırılması, xarici investisi-

yaların cəlbi və ticarət prosedurlarının sadələşdirilməsi istiqamətində həyata keçirilən islahatlar Azərbaycanın beynəlxalq biznes fəaliyyətini əhəmiyyətli dərəcədə stimullaşdırır (Babayev, A. 2021).

Ölkənin beynəlxalq biznes fəaliyyətinin qiymətləndirilməsi müxtəlif iqtisadi, maliyyə və sosial amillərin nəzərə alınması yolu ilə xarici ticarət proseslərinin necə həyata keçirildiyini və bu fəaliyyətin milli iqtisadiyyata təsirini müəyyən etməyə yönəlmişdir. Bu qiymətləndirmə çərçivəsində bir sıra əsas göstəricilərdən və analitik metodlardan istifadə olunur. Belə ki, idxal və ixracın həcmi, ümumi xarici ticarət dövriyyəsi, eləcə də ÜDM-də xarici ticarətin payı ölkənin beynəlxalq ticarətdəki mövqeyini və qlobal bazarlara inteqrasiya səviyyəsini müəyyən edən əsas indikatorlardır.

Eyni zamanda, ticarət göstəricilərində müşahidə olunan müsbət və mənfi tendensiyaların təhlili xüsusi əhəmiyyət kəsb edir. Bu təhlil ölkənin ticarət siyasətinin effektivliyini, xarici ticarət mühitində baş verən dəyişiklikləri, eləcə də ticarət strukturundakı risk və imkanları üzə çıxarır. Məsələn, ixracın artım və ya azalma dinamikası, idxalın strukturunda baş verən dəyişikliklər və xarici asılılıq səviyyəsi qiymətləndirmə prosesinin mühüm elementlərindəndir.

ƏDƏBİYYAT İCMALI

Birbaşa xarici inteqrasiyaların təhlili, xarici ticarət dəyərləndirilməsində vacibdir. BXİ-nin səviyyəsi və strukturu ölkənin beynəlxalq ticarət mövqeyni təsdiqləyəb göstəricidir. [Məmmədov, R] Ölkənin xarici ticarətinə təsir edən digər amillər arasında loqostika və nəqliyyat infrastrun inkişafı, rəqabət qabiliyyəti (yəni yerli inkişafın) beynəlxalq bazarda rəqabətliliyi yerli istehsal və sənaye sektorunun gücü vardır. Ölkənin xarici ticarət fəaliyyətinin qiymətləndirilməsi bir necə iqtisadi, maliyyə, hüquqi və sosial faktorların analizi ilə həyata keçirilir. Bu qiymətləndirmə həm ölkə daxilində, həm də beynəlxalq aləmdə iqtisadiyyatın sağlamlığını, ticarət siyasətinin effektivliyini və gələcək inkişaf perspektivlərini müəyyən etməyə kömək edir. [Babayev, A. 2021]

Əsrin müqaviləsi Azərbaycanın beynəlxalq biznes fəaliyyətinin inkişafında çox mühüm bir mərhələ olmuşdur. Bu müqavilə, yalnız neft və qaz sektoru ilə bağlı deyil, həm də ümumi iqtisadiyyatı, infrastrukturun, ticarətin və beynəlxalq əlaqələrin inkişafını əhəmiyyətli təsir göstərmişdir. Azərbaycanın beynəlxalq biznes mühitinə daxil olması, daha geniş iqtisadi əlaqələr qurması və qlobal bazarda, mövqeyni möhkəmləndirilməsi, Əsrin müqaviləsinin nəticəsi olaraq genişlənmişdir.

Bu müqavilə həmçinin Azərbaycanın iqitsadi müstəqilliyini təmin etməsi və beynəlxalq sərmayələri ölkəyə cəlb etməsi baxımından əvəzsiz rol oynayıb.
[https://minenergy.gov.az/az/neft/esrin-muqavilesi] Bu müqavilə Azərbaycan üçün bir sıra müsbət təsirləri aşağıdakı kimi ümumiləşdirə bilərik: Əsrin müqaviləsi Azərbaycanın enerji sektoruna, iqtisadiyyata böyük investisiyalar gətirdi. Müqavilə çərçivəsində bir çox beynəlxalq şirkətlər, o cümlədən BP, Exxon Mobil, Chevron, Statoil (indiki Eguinor) və digər Azərbaycanda fəaliyyət göstərməyə başladılar. Bu investisiyalar yalnız neft və qaz sahəsində deyil, həm də digər sahələrdə (infrastruktun, loqostika, texnologiya) inkişafı stimullaşdırır.

Əsrin müqaviləsi Azərbaycanın neft və qaz sənayəsinin inkişafında mühüm rol oynadı. Bu müqavilə nəticəsində ölkə, dünyada ən böyük enerji bazarlarına çıxış əldə etdi və bu sahədə dünya səviyyəsində tanınmağa başdı. Azərbaycanın ən böyük yataqlarından biri olan Azəri Çıraq Günəşli yatağı (ASG) bu müqavilə vasitəsilə istismar edilməyə başlandı və Azərbaycanın enerji ehtiyyatları beynəlxalq bazarlarda paylaşıldı. [Aslanbəyli B. 2023] Əsrin müqaviləsi Azərbaycanın nəqliyyat və enerji infrastrukturunun inkişafına da böyük təsir göstərdi. Bakı-Tiflis-Ceyhan (BTE) qaz kəməri layəhələri Azərbaycanı qlobal enerji bazarına bağlayan mühüm nəqliyyat vasitələri oldu. [Babayev, A. 2021]

Bu kəmərlər vasitəsi ilə Azərbaycan neft və qaznı Avropa və Asiya bazarlarına çıxara bildi. Bu infrastruktur layihələri yalız enerji sektoru üçün deyil, həm də ölkənin iqtisadiyyatı və loqostika sahəsi üçün müsbət təsir etdi. Əsrin müqaviləsi ölkənin qeyri neft sektorunun da inkişafına stimul

vermişdi. Azərbaycan iqtisadiyyatı diversifikasiya etməyə, təkcə neft ixracına deyil, eyniz zamanda digər sahələrdə də diqqət yetirməyə imkan verdi.

Hazırkı tədqiqatda ölkənin beynəlxalq biznesinin hazırkı vəziyyətini ölkənin tədiyə balansı, rəqabətqabiliyyətlilik indeksi kimi göstəricilərə görə reallaşdırılmışdır.

Azərbaycan Respublikasında beynəlxalq biznesin tənzimlənməsinin səmərəliliyini qiymətləndirilməsi və bu sahədəki göstəricilərin təhlilinə yönəlib. Burada əsas diqqət ölkənin beynəlxalq iqtisadi münasibətlərdə mövqeyni gücləndirmək üçün qəbul edilən hüquqi, iqtisadi və təşkilati mezanizmlərin effektivliyinə yönəlməlidir. Aşağıda bu məsələni inkişaf etdirmək üçün bir struktur təqdim eetməyə calışacağıq. Əsas məsələ odur ki, Azərbaycan beynəlxalq biznesdə inteqrasiya proseslərinin iştirakçısı kimi hansı rol oynayır və əsas problemlər hansılardır? Azərbaycanda beynəlxalq biznes sahəsində mövcud vəziyyət: idxal və ixrac dinamikası, BXİ investisiyalar: axınlar və meyllər, əsas idxal və ixrac tərəfdaşları və Azərbaycan iqtisadiyyatının qeyri neft sektorunun inkişafi və diverifikasiyası ,daha sonra beynəlxalq biznesin təşkilati və hüquqi mexanizminin həm hüquq çərçivədə (qanunvericilik bazası) beynəlxalq, müqavilələr, həm gömrük, vergi və infrastruktur və loqostika istiqamətində onun tranzit potensialının təkmilləşmə istiqamətləri veriləcəkdir.

MƏLUMAT BAZASI VƏ METODOLOGİYA

İndi beynəlxalq biznesin effektivliyinin təşkilati mexanizmlərinin araşdırılmasından başlayaq. Bunlar əsasən ölkə səviyyəsində olan göstəricilərdir, iqtisadi azadlıq indeksi qlobal rəqabət reytinqi və dünya bankının hesabatında Azərbaycanın mövqeyinin təhlilindən başlayırıq:

2020-ci ilə qədər Dünya bankının "Doing" Business hesabatı ölkələrin biznes mühitini qiymətləndirən əsas beynəlxalq göstəricilərdən biri idi. Bu hesabatda ölkələr müxtəlif indikatorlarla sıralanırdı: biznesin başlanması, tikinti icazələrinin alınması, kreditlərin əldə edilməsi, xarici ticarət, mülkiyyətin qeydiyyatı və sair üzrə, Azərbaycan 2020-ci ilin göstəricilərinə görə həmin hesabatda 34-cü yerdə qərarlaşmışdı ki, bu da ölkənin biznes mühitinin rəqabət qabiliyyəti baxımından yüksək göstəricilərdən biri hesab edilirdi. 2021-ci ildə Dünya bankı (DB) hesabatının etibarlılığına təsir edən problemlərə görə bu hesabat dayandırıldı. Hazırda Azərbaycan üçün "Doing Busines"ə alternativ digər beynəlxalq göstəricilərdən istifadə edilə bilər: (World Economic Forum, 2019).

1) İqtisadi Azadlıq İndeksi (The Heritage Fondation) – bu indeks ölkələrin iqtisadi siyasətlərinin azadlıq səviyyəsini qiymətləndirir, xüsusən, biznes azadlığı, investisiya azadlığı və sosial sağlamlıq üzrə mövqeynini inkişaf etdirir. (The Heritage Foundation, 2024). İqtisadi Azadlıq indeksi 12 kompanent üzrə hesablanır və ölkələrin iqtisadi siyasətinin azadlıq səviyyəsini ölçür. 2021-ci ilin hesabatına görə Azərbaycan 70 bal toplayaraq 6 pillə irəliləyərək "Əsasən azad iqtisadiyyat" kateqoriyasına daxil olmuşdur. Bu nəticə ilə Azərbaycan Avropa regionunda 45 ölkə arasında 23-cü yerdə qərarlaşmış, Polşa, İspaniya, Sloveniya, Fransa, İtaliya kimi inkişaf etmiş ölkələri qabaqlamışdır. (TheGlobalEconomy, 2024).

2022-ci ilin hesabatında isə Azərbaycanın mövqeyi 75-ci pilləyə düşmüş və iqtisadiyyatı "orta dərəcədə azad" hesab edilmişdir. Bu dəyişiklik digər ölkələrin daha sürətli islahatlar aparması və ya Azərbaycanın bəzi sahələrində zəifləməsi ilə izah oluna bilər. Ümumilikdə Azərbaycanın iqtisadi azadlıq səviyyəsi son illər beynəlxalq dəyişkənlik göstərmişdir. Bu indeksdə mövqeyin yaxşılaşdırılması üçün davamlı olaraq islahatlar aparmaq və iqtisadi siyasətin təkmilləşməsi vacibdir.

II. Qlobal Rəqabətlilik İndeksi (World Ekonomic) Azərbaycanın rəqabətlilik indeksi rəqabətli iqtisadiyyat yaratmaq üçün apardığı islahatları qiymətləndirə bilir. Bu göstəricidə əsasən infrastruktur, institutsional inkişafi, texnoloji hazırlıq göstəriciləri önəm kəsb edir.

GRİ (Global Compditiveness İndex) ölkə iqtisadiyyatının müxtəlif aspektlərdən xarakterizə edən 12 göstərici üzər hesablanır: infrastruktur, makroiqtisadi stabillik, səhiyyə, təhsil, əmək bazarı, maliyyə sistemi, bazar həcmi, biznes dinamika innovasiya potensialı 2019-cu ildə bu göstərici dərc

olunan hesabatda 141 ölkə arasında 58-ci yerdə qərarlaşmışdır. Əvvəlki illə müqayisədə bu 11 pillə irəliləyiş demək idi. (World Bank, 2020).

TƏHLİL VƏ NƏTİCƏLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ

İdxalın, ixracın, ümumi xarici ticarət döriyyəsinin ÜDM-də xüsusi çəkilərinin hesablanması və normativ göstəricilərə görə onların müqayisəsi və dəyərləndirilməsi. 1 saylı cədvəldə Azərbaycanı Respublikasının xarici ticarət dövriyyəsi əsas göstəriciləri verilir.

Cədvəl 1

Azərbaycanı Respublikasının xarici ticarət dövriyyəsi əsas göstəriciləri (2014-2024-cü illər üzrə) (mln. dollar). Gömrük komitəsi məlumatlarıəsasında

İllər	Xarici ticarət göstərici-ləri	İdxalın həcmi	İxracın həcmi	Saldo	Əvvəlki ilə nisbətən, %-lə		
					Ticarət dövriyyəsi, %	İdxal, %	İxrac, %
2014	39408	9188	30220	21032	96	85	99
2015	25809	9217	16592	7316	100	99	100
2018	3178,3	11465	20310	888,7	100,4	100,2	93,7
2020	24204	10732	13733	3000	72,6	64,0	78,7
2022	56212	14540	41670	27132	106,3	101,6	108,6
2023	47003	17285	29718	12432	99,6	101,8	98,8
2024	47612	21058	26554	5496	98.7	121.0	89.3

Qeyd: *Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatmamış ixracolunan xam neft və qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmır.*

Azərbaycanın xarici ticarət dövriyyəsi 2014-2024-cü illər arasında müəyyən dalğalanmalarla müşahidə olunur. 2014-cü ildə ölkənin ümumi xarici ticarət dövriyyəsi 39,4 milyard dollar səviyyəsində olub. Sonrakı illərdə xüsusilə 2020-ci ildə dünya iqtisadiyyatında və enerji bazarlarında baş verən dəyişikliklər fonunda xarici ticarət dövriyyəsi 24,2 milyard dollara qədər azalıb. Lakin 2022-ci ildə kəskin artım müşahidə olunub və xarici ticarət dövriyyəsi 56,2 milyard dollara yüksəlib. Bu artımın əsas səbəbi ixrac həcminin böyük dərəcədə yüksəlməsi olub.

2023 və 2024-cü illərdə isə xarici ticarət dövriyyəsində yenidən azalma baş verib; 2024-cü ildə bu göstərici təxminən 47,6 milyard dollar təşkil edib. İdxal həcmi isə ümumilikdə artan tendensiya nümayiş etdirir. 2014-cü ildə 9,2 milyard dollar səviyyəsində olan idxal 2024-cü ildə 21 milyard dollara yaxınlaşıb. Xüsusilə son iki ildə idxal həcminin 121% artması daxili tələbatın güclənməsi və ölkəyə idxal olunan məhsulların miqdarının çoxalması ilə izah oluna bilər.

İxrac həcmi isə 2014-cü ildən 2020-ci ilə qədər azalma meyli göstərib. 2020-ci ildə 13,7 milyard dollara düşən ixrac, 2022-ci ildə kəskin artaraq 41,7 milyard dollar səviyyəsinə çatıb. Lakin 2023 və 2024-cü illərdə yenidən azalma qeydə alınıb və 2024-cü ildə ixrac həcmi 26,6 milyard dollar civarında olub.Ticarət saldosu (ixrac və idxal arasındakı fərq) 2014-cü ildə müsbət və yüksək səviyyədə - 21 milyard dollar civarında olub. 2020-ci ildə bu göstərici 3 milyard dollara qədər azalıb, sonra 2022-ci ildə yenidən yüksələrək 27 milyard dollara çatıb. Sonrakı illərdə isə saldonun azalması müşahidə olunur və 2024-cü ildə 5,5 milyard dollar səviyyəsindədir.

Ümumilikdə, 2024-cü ildə Azərbaycan xarici ticarətində idxalın sürətli artması və ixracın azalması ticarət balansının zəifləməsinə səbəb olub. Bu, ölkənin iqtisadiyyatı üçün risk amili kimi qiymətləndirilə bilər, çünki ixrac gəlirlərinin azalması valyuta gəlirlərinə mənfi təsir göstərir. İdxalın

artması isə daxili istehlakın və iqtisadi aktivliyin artdığını göstərsə də, eyni zamanda xarici asılılığın da yüksəlməsi kimi dəyərləndirilə bilər.

Buna görə də, Azərbaycanın ticarət siyasətində ixracın stimullaşdırılması və ixrac bazarlarının diversifikasiyası istiqamətində əlavə tədbirlər görülməsi vacibdir. Həmçinin, daxili istehsalın gücləndirilməsi və idxal asılılığının azaldılması məqsədilə sənaye və digər qeyri-neft sektorlarının inkişaf etdirilməsi iqtisadi dayanıqlığın təmin olunması baxımından prioritet olmalıdır.

Cədvəl 2

Dünya ölkələri üzrə Azərbaycan Respublikasının beynəlxalq biznesi (mln. dollar) 2023-2024

Ölkələr	Xarici ticarət dövriyyəsi, cəmi				2023			2024		
	2023	%	2024	%	İdxal	İxrac	Saldo	İdxal	İxrac	Saldo
Cəmi	47003	100	47612	100	17285	29718	+12433	21058	26554	+5496
MDB	6422	13,5	6928	13.9	2840	3785	+925	5 230	1 698	-3532
Digər ölkələr	40581	86,5	40684	86.1	14445	25933	+11488	15828	24856	+9028

Mənbə: *Azərbaycanın statistik göstəriciləri, 2023,2024*

2023 və 2024-cü illər üzrə Azərbaycan Respublikasının xarici ticarət əlaqələrinin coğrafi strukturuna nəzər yetirdikdə, ölkənin ticarət tərəfdaşlarının iki əsas qrupa – MDB ölkələri və digər ölkələrə ayrıldığı görünür. Bu dövrdə Azərbaycanın ümumi xarici ticarət dövriyyəsi 2023-cü ildə 47,0 milyard ABŞ dolları, 2024-cü ildə isə 47,6 milyard ABŞ dolları təşkil etmişdir. Hər iki ildə Azərbaycanın xarici ticarətində üstünlük ixraca məxsus olmuş, lakin bu üstünlük 2024-cü ildə nəzərəçarpacaq dərəcədə azalmışdır [Dövlət Gömrük Komitəsi, 2024].

MDB ölkələri ilə xarici ticarət dövriyyəsi 2023-cü ildə 6,4 milyard ABŞ dolları təşkil etmiş və bunun 3,8 milyard dolları ixrac, 2,8 milyard dolları isə idxalın payına düşmüşdür. Nəticədə, MDB ölkələri ilə ticarət balansı 925 milyon ABŞ dolları səviyyəsində müsbət olmuşdur. Lakin 2024-cü ildə bu göstərici ciddi şəkildə dəyişmişdir – MDB ölkələrinə ixrac 1,7 milyard dollara qədər azalmış, idxal isə 5,2 milyard dollara qədər artmışdır. Bu da həmin ölkələrlə ticarətdə 3,5 milyard dollarlıq mənfi saldonun yaranmasına səbəb olmuşdur [Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi, 2024].

Digər ölkələrlə ticarət isə daha sabit və balanslı səviyyədə qalmışdır. 2023-cü ildə bu ölkələrlə ticarət dövriyyəsi 40,6 milyard dollar, 2024-cü ildə isə 40,7 milyard dollar olmuşdur. 2024-cü ildə bu qrup ölkələrdən idxal 15,8 milyard dollar, ixrac isə 24,9 milyard dollar səviyyəsində reallaşmış və nəticədə 9,0 milyard dollarlıq müsbət saldo formalaşmışdır. Bu da göstərir ki, Azərbaycanın ixrac potensialı MDB-dən kənar bazarlarda daha rəqabətqabiliyyətli və dayanıqlıdır.

Ümumilikdə, bu dövr ərzində MDB ilə ticarətdə qeydə alınan kəskin balans dəyişməsi ölkənin ticarət siyasətində regional yönümlü korrektələrin edilməsinin vacibliyini ortaya qoyur. MDB ölkələrindən idxalın artması və bu bazarlara ixracın zəifləməsi Azərbaycanın bu regionda rəqabət mövqeyinin zəiflədiyini göstərə bilər. Bununla yanaşı, digər ölkələrlə ticarətdə müsbət balansın qorunması xarici bazarlarda şaxələndirilmiş ixrac siyasətinin və qeyri-neft sektoru məhsullarının ixrac potensialının artmasının əhəmiyyətini vurğulayır [UNCTAD, 2023; World Bank, 2024].

Cədvəl 3

Azərbaycanın əməliyyat növləri üzrə xarici ticarət dövriyyəsi (mln. ABŞ dolları)

Göstəricilər	2018	2023
Cəmi – idxal	11469	17285
O cümlədən:	6949	3348

Milli valyuta ilə hesab		
SDV ilə hesablaşmalar	8987	14107
Klirinq üzrə göstəricilər	120	560
Qapalı valyuta üzrə hesablar	7866	16237
Cəmi, ixrac	19458	33899
O cümlədən: Milli valyuta ilə hesab	46,6	133
SDV ilə hesablaşmalar	15846	14098
Qapalı valyuta üzrə hesablar	20	186

Mənbə: *Azərbaycanın statistik göstəriciləri, 2025, s. 31*

2024-cü ildə Azərbaycan Respublikasının xarici ticarət əməliyyatlarının strukturu mühüm göstəricilərlə xarakterizə olunur. Xarici ticarət dövriyyəsində həm idxal, həm də ixrac əməliyyatları üzrə müxtəlif valyuta növləri ilə aparılan hesablaşmalar ümumi ticarət fəaliyyətinin dinamikasını əks etdirir.

Cədvəl 4

İxracda neft-qaz sektorunun xüsusi çəkisinin hesablanması (mln. ABŞ dolları)

İllər	**İxracın ümumi dəyərində neft-qaz ixracının xüsusi çəkisi, %-lə**		**Neft-qaz sahə ixracının həcmi**		**Ümumi ixracın həcmi**
	Kimyəvi mallar daxil olmaqla	Xüsusi mallar hesaba alınmamaqla	Kimyəvi mallar hesaba alınmamaqla	Xüsusi mallar hesaba alınmaqla	
2010	94,15	9476	20110	20240	21360
2015	87,1	88,2	10073	9882,0	11429
2020	75,0	85,0	11450	10103	13471
2023	91,4	87.5	27218	26023	29718
2024	91.1	89.8	24211	23855	26554

Mənbə: *Cədvəl secilmiş metodika və stat.gov.az məlumatlarına istinadən iddiaçı tərəfindən hesablanmışdır.*

4 saylı cədvəldən məlum olur ki, 2024-cü ilin məlumatlarına əsasən, Azərbaycan Respublikasının ixrac strukturunda neft-qaz sektorunun xüsusi çəkisi yenidən artmağa başlamışdır. Belə ki, 2023-cü ildə bu göstərici kimyəvi mallar daxil olmaqla 91,4%, kimyəvi mallar istisna olmaqla isə 87,5% olmuşdur. 2024-cü ildə isə müvafiq olaraq bu rəqəmlər 91,1% və 89,8%-ə dəyişmişdir. Bu, ixracın hələ də əsasən neft-qaz məhsullarına əsaslandığını göstərir.Əlavə olaraq, 2023-cü ildə ümumi ixracın həcmi 29,7 milyard dollar olduğu halda, onun 27,2 milyard dolları neft-qaz sektoru ilə bağlı olmuşdur. 2024-cü ildə isə ümumi ixrac 26,5 milyard dollar, neft-qaz ixracı isə 24,2 milyard dollar təşkil etmişdir. Bu da sektorun ixrac strukturundakı payının yüksəkliyini və iqtisadiyyatın hələ də enerji ixracından asılı olduğunu sübut edir.

Bu göstəricilər onu deməyə əsas verir ki, Azərbaycanın ixracı hələ də yüksək dərəcədə neft-qaz sektorundan asılıdır. İxrac strukturunun tədricən şaxələndirilməməsi ölkə iqtisadiyyatını enerji qiymətlərindəki dəyişkənliklərə qarşı həssas edir və qeyri-neft sektorunun inkişafını məhdudlaşdırır.

Cədvəl 5

İdxalın və ixracın ÜDM-də xüsusi çəkisi

Sıra №-si	**Göstərici-lər**	**2010**		**2020**		**2023**		**2024**	
		Mln. $	**%**	**Mln. $**	**%**	**Mln. $**	**%**	**Mln. $**	**%**
1	ÜDM	52901	100	42607	100	71100	100	75000	100

2	İxrac	26560	50	13471	32	29718	41	26554	35,4
3	İdxal	6001	12,5	10730	25	17285	24.3	21058	28.1
4	XTD	33161	62,5	24201	57	47003	66	47612	63

Mənbə: *Seçilmiş metodikaya əsasən hesablanmışdır.Azərbaycanın statistik göstəricilərinə əsasən iddiaçı tərəfindən hesablanmışdır.*

2010–2024-cü illər ərzində Azərbaycanın ÜDM-də ixracın xüsusi çəkisi azalmış, idxalın xüsusi çəkisi isə artmışdır. 2010-cu ildə ixrac ÜDM-in 50%-ni təşkil etdiyi halda, 2024-cü ildə bu göstərici 35,4%-ə düşmüşdür. Əvəzində, idxalın xüsusi çəkisi 12,5%-dən 28,1%-ə yüksəlmişdir. Xarici ticarət dövriyyəsi 2023-cü ildə ÜDM-in 66%-ni, 2024-cü ildə isə 63%-ni təşkil etmişdir ki, bu da ölkə iqtisadiyyatının hələ də xarici bazarlardan asılı olduğunu göstərir.Əsas problemli cəhət ixracın azalıb, idxalın artması xarici ticarət balansının pisləşməsi və valyuta axını risklərini artırır.

2020-ci ildə ixracın xüsusi çəkisi yenidən artaraq 56,2%-ə yüksəlmişdir. Bu artım həm ixracın həcminin müəyyən dərəcədə artması, həm də ümumi sənaye məhsulu istehsalının azalması ilə bağlı ola bilər.

Qeyd etmək lazımdır ki, bu dövr COVID-19 pandemiyasının iqtisadi təsirlərinin hiss olunduğu ildir və bu faktor daxili və xarici tələbatda dəyişikliklərə səbəb olmuşdur. 2023 və 2024-cü illərdə isə ixracın xüsusi çəkisi təxminən 49% və 46,2% səviyyəsində stabilləşərək bir qədər azalma meyli göstərmişdir.

Eyni zamanda, sənaye məhsullarının ümumi həcmi 24,540 milyon və 24,610 milyon ABŞ dolları kimi yüksək səviyyədə qalır. Bu da göstərir ki, sənaye sektorunda daxili istehsal və tələbat artmaqda davam edir, ixrac isə nisbi olaraq müəyyən qədər azalmaqdadır.

Bu dinamika sənaye sektorunun strukturunda dəyişikliklərin baş verdiyini və iqtisadiyyatın diversifikasiyasına yönələn meyilləri əks etdirir. İxracın xüsusi çəkisinin azalması daxili bazarın genişləndiyini və qeyri-neft sektorunun inkişafını göstərir. Ümumilikdə, sənaye məhsullarının ümumi həcminin artması yerli istehsalın güclənməsini təsdiqləyir ki, bu da iqtisadiyyatın davamlı və dayanıqlı inkişafına müsbət təsir göstərir. Bu tendensiyalar Azərbaycanın sənaye sektorunda strateji dönüşümlər yaşadığını və beynəlxalq bazarlara daha balanslı inteqrasiyaya doğru irəlilədiyini göstərir.

NƏTİCƏ

Araşdırmalar göstərir ki, Azərbaycanda beynəlxalq biznesin inkişafı istiqamətində müəyyən nailiyyətlər əldə edilsə də, bu sahənin davamlı və rəqabətqabiliyyətli inkişafı üçün hələ də bir sıra ciddi problemlər mövcuddur.

İdxal-ixrac göstəricilərindəki dəyişkənliklər, qeyri-neft sektorunun hələ də ixracda zəif təmsil olunması və birbaşa xarici investisiyaların (BXİ) sektorlar üzrə qeyri-bərabər bölgüsü bu sahədəki struktur problemlərin göstəricisidir.

Beynəlxalq biznesin institusional və hüquqi bazası müəyyən qədər formalaşsa da, normativ-hüquqi mexanizmlərin qeyri-müəyyənliyi, yerli və xarici investorlar üçün institusional zəmanətlərin zəifliyi, idxal-ixrac prosedurlarında mövcud inzibati baryerlər və şəffaflığın yetərsizliyi mühüm maneələr olaraq qalır.

Beləliklə, Azərbaycanda beynəlxalq biznesin inkişafını ləngidən əsas problemlər aşağıdakılardır:

1. **Qeyri-neft sektorunun ixracdakı payının aşağı olması** – iqtisadiyyatın diversifikasiyası hələ də istənilən səviyyəyə çatmayıb.
2. **İdxal asılılığının yüksəkliyi** – xüsusilə sənaye və kənd təsərrüfatı məhsullarında yerli istehsalın əvəzləyici gücü zəifdir.
3. **Birbaşa xarici investisiyaların qeyri-bərabər paylanması** – əsasən enerji sektoruna yönəlmiş investisiyalar digər sahələrdə çatışmazlıq yaradır.
4. **Təşkilati-hüquqi mexanizmlərin qeyri-kafi səviyyədə olması** – beynəlxalq ticarətin və biznes əməliyyatlarının stimullaşdırılması üçün hüquqi mühit yetərincə cəlbedici deyil.

5. **Gömrük və vergi inzibatçılığında şəffaflıq və səmərəliliyin tam təmin olunmaması** – bu, investorların maraqlarını azaldır və ixracatçılar üçün əlavə çətinliklər yaradır.

6. **Əlaqələndirici və təşviqedici dövlət qurumlarının effektiv fəaliyyət göstərməməsi** – beynəlxalq biznesə dəstək mexanizmləri parçalanmış xarakter daşıyır.

Bu problemlərin aradan qaldırılması məqsədilə normativ-hüquqi bazanın təkmilləşdirilməsi, institusional islahatların dərinləşdirilməsi, şəffaflığın artırılması və qeyri-neft sektorunun ixrac imkanlarının genişləndirilməsi istiqamətində ardıcıl siyasət yürüdülməlidir.

İstifadə edilmiş ədəbiyyat:

1. Asian Development Bank. (2023). Asian Economic Integration Report 2023: Investment, Technology, and Regional Cooperation. ADB. https://www.adb.org

2. Azerbaijan State Statistical Committee. (2024). Foreign Trade Statistics of Azerbaijan Republic 2010–2024. https://www.stat.gov.az

3. Doing Business. (2020). Doing Business 2020: Comparing Business Regulation in 190 Economies. World Bank Group. https://www.doingbusiness.org

4. Fitch Ratings. (2023). Sovereign Credit Rating: Azerbaijan. https://www.fitchratings.com

5. Heritage Foundation. (2022). 2022 Index of Economic Freedom: Azerbaijan Country Profile. https://www.heritage.org/index

6. International Monetary Fund. (2023). World Economic Outlook: Economic Recovery After the Pandemic. https://www.imf.org

7. Moody's Investors Service. (2023). Azerbaijan Sovereign Rating Report. https://www.moodys.com

8. State Oil Company of the Republic of Azerbaijan (SOCAR). (2023). Annual Report 2022. https://www.socar.az

9. UNCTAD. (2023). World Investment Report 2023: International Tax Reforms and Sustainable Investment. United Nations Conference on Trade and Development. https://unctad.org

10. World Bank. (2023). Global Economic Prospects: Azerbaijan Overview. https://www.worldbank.org

11. World Economic Forum. (2019). The Global Competitiveness Report 2019. https://www.weforum.org

12. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi. (2023). İxracın təşviqi və beynəlxalq ticarət üzrə illik hesabat. https://www.economy.gov.az

13. Əliyev, M. (2022). Azərbaycanın xarici ticarət siyasəti və beynəlxalq iqtisadi münasibətləri. Bakı: İqtisad Universiteti Nəşriyyatı.

14. Məmmədov, R. (2023). Qloballaşma və beynəlxalq biznes: nəzəri və praktik aspektlər. Bakı: Elm və Təhsil.

15. Babayev, A. (2021). İnvestisiya siyasəti və birbaşa xarici sərmayələr: Azərbaycan təcrübəsi. Bakı: Azərbaycan Milli Elmlər Akademiyası.

16. Aslanbəyli B. (2023) Azərbaycan - 20 sentyabr. HEYDƏR ƏLİYEV VƏ "ƏSRİN MÜQAVİLƏSİ, bp-nin Xəzər regionu üzrə vitse-prezidenti, - № 203. - S. 9.

M.Sh.Aliyev
PhD student, Azerbaijan Cooperation University
ORCID 0009-0008-3162 -6985

Factor-based economic analysis of international business (in the example of Azerbaijan)

Abstract

The article analyzes the main factors affecting the formation and development of international business in the example of the Republic of Azerbaijan. The analysis evaluates natural resources, geographical location, economic policy, credit and financial opportunities, international trade agreements and other factors. The author, evaluating the position and competitiveness of the Azerbaijani economy in international markets on the basis of various statistical indicators, conducted a structural analysis on trade turnover, foreign direct investments and industrial exports. The strategic advantages gained by Azerbaijan through its integration into international business and the energy sector within the framework of the "Contract of the Century" are especially emphasized. Based on the results of the study, it is recommended to continue institutional reforms and develop the non-oil sector for the effectiveness of international business.

Keywords: *international business, import, export, economic policy, competitiveness, investment, Azerbaijan, Contract of the Century.*

Tikintinin iqtisadiyyatı və menecment
2025-ci il. № 4 (33) -səh.488-498
T.M.Əsgərli

Construction economics and management
2025, № 4 (33), pp.488-498
T.M.Asgarli

https://doi.org/10.58225/tim.2025-4-488-498

T.M.Əsgərli
doktorant, Azərbaycan Dövlət İqtisad Universiteti
esgerlitural17@gmail.com

Məqalə redaksiyaya daxil olub 03.11.2025
The article was received by editorial board on 03.11.2025
Статья принята к печати 03.11.2025

BEYNƏLXALQ TƏCRÜBƏDƏ AUDİTİN TARİXİ İNKİŞAFININ KORPORATİV İDARƏETMƏ MODELLƏRİNƏ TƏSİRİNİN TƏDQİQİ

Xülasə

Məqalədə beynəlxalq təcrübədə auditin tarixi inkişaf mərhələlərinin korporativ idarəetmə modellərinin formalaşmasına və transformasiyasına təsiri araşdırılır. Ədəbiyyat icmalında anglo-amerikan, kontinental Avropa və Asiya korporativ idarəetmə modellərində audit institutunun tarixi kökləri və müasir funksiyaları müqayisə edilir. Analitik hissədə auditorların "gatekeeper" kimi nəzərdən keçirilməsi və böyük korporativ skandallar fonunda onların məsuliyyət çərçivəsinin necə dəyişdiyi izah olunur. Tədqiqatın empirik hissəsi üçün 2002–2022-ci illəri əhatə edən, 24 ölkə üzrə məlumatlardan ibarət panel dataset konseptual olaraq formalaşdırılır və korporativ idarəetmə indeksləri audit tənzimlənməsi göstəriciləri ilə əlaqələndirilir. SPSS mühitində qurulan model üzrə korporativ idarəetmə göstəricilərinin audit komitələrinin müstəqilliyi, beynəlxalq audit şəbəkələrinin bazardakı payı və investorların qorunması indeksləri ilə müsbət əlaqədə olması nəzəri və mövcud empirik ədəbiyyatla uyğunlaşdırılır. Nəticələr göstərir ki, audit institutunun güclənməsi idarə heyətlərinin müstəqilliyini, açıqlama praktikasını və maliyyə hesabatlarının keyfiyyətini dəstəkləyən korporativ idarəetmə mühitinə zəmin yaradır. Eyni zamanda, formal tələblərin mövcud olduğu, lakin daxili audit funksiyasının zəif olduğu ölkələrdə "forma naminə uyğunluq" fenomeni müşahidə olunur və auditin real nəzarət gücü məhdudlaşır. Ümumilikdə belə qənaət formalaşır ki, auditin tarixi inkişafı korporativ idarəetmə modellərini qismən yaxınlaşdırır, lakin milli institusional xüsusiyyətlər bu təsiri heterogenləşdirir.

Açar sözlər: *audit, korporativ idarəetmə, tarixilik, beynəlxalq təcrübə, audit komitəsi, gatekeeper, SPSS.*

GİRİŞ

Audit peşəsinin tarixi inkişafı sadə hesabların yoxlanılmasından başlayaraq bu günkü mürəkkəb korporativ idarəetmə arxitekturalarının mərkəzi elementi səviyyəsinə qədər uzanan davamlı bir təkamül xəttini göstərir. Müxtəlif dövrlərdə auditin əsas məqsədi dəyişsə də, daim resurslara nəzarət, məsul şəxslərin davranışının qiymətləndirilməsi və ictimai etimadın qorunması kimi funksiyalar ön planda olub. Sənaye inqilabı və səhmdar cəmiyyətlərinin sürətli yayılması nəticəsində mülkiyyətlə idarəetmə ayrıldıqda müstəqil auditorlara ehtiyac kəskin şəkildə artırdı və bu ehtiyac audit peşəsinin korporativ idarəetmə sisteminə inteqrasiyasını sürətləndirdi (Cheffins, 2012).

Korporativ idarəetmə nəzəriyyəsində menecer və səhmdar maraqları arasında agentlik problemi əsas çıxış nöqtəsi hesab olunur və bu problemin həlli üçün müxtəlif nəzarət mexanizmləri – idarə heyəti, müstəqil direktorlar, audit komitələri, xarici auditorlar, reytinq agentlikləri, hüquqşünaslar və

digər peşə qrupları sistem kimi nəzərdən keçirilir (Coffee, 2006). Bu sistemdə auditorun rolu təkcə rəqəmlərin düzgünlüyünü təsdiq etməkdən ibarət deyil, həm də kapital bazarları üçün etibarlı informasiya süzgəci rolunu oynayan reputasiya daşıyıcısı statusu daşıyır. "Gatekeeper" konsepsiyasına görə auditorlar öz peşə reputasiyalarını riskə atmaq istəmədikləri üçün menecmentin manipulyasiya cəhdlərinə qarşı əyləc funksiyasını yerinə yetirməlidirlər və bu, korporativ idarəetmə modellərinin daxili intizam mexanizmlərini formalaşdırır.

Son onilliklərdə baş verən böyük korporativ skandallar – xüsusilə Enron və WorldCom kimi hadisələr – audit peşəsinə və ümumilikdə "gatekeeper" institutlarına yönəlik gözləntiləri yenidən nəzərdən keçirməyə məcbur etdi və tənzimləyicilər bir sıra ölkələrdə audit və korporativ idarəetmə qaydalarını köklü şəkildə yenilədi (Coffee, 2006). Bu dəyişikliklər nəticəsində audit komitələri korporativ nəzarət strukturunda daha mərkəzi mövqe qazandı, müstəqil direktorların sayı artdı, daxili audit funksiyasına dair tələblər sərtləşdi və auditorların rotasiyası kimi mexanizmlər tətbiq edildi. Eyni zamanda, investorların qorunması və maliyyə hesabatı standartları üzrə beynəlxalq harmonizasiya meyilləri, xüsusilə IFRS-in geniş qəbul edilməsi auditin korporativ idarəetməyə təsirini qlobal müstəviyə daşıdı (Houqe, Van Zijl, Dunstan, & Karim, 2012).

Bu məqalədə məqsəd beynəlxalq təcrübədə auditin tarixi inkişafının müxtəlif korporativ idarəetmə modellərinə təsirini həm nəzəri, həm də konseptual empirik baxımdan qiymətləndirmək, auditorların "gatekeeper" funksiyasının hüquqi-tənzimləyici dəyişikliklərlə necə transformasiya olunduğunu göstərmək və audit komitələri, investorların qorunması, IFRS qəbulu kimi elementlərin korporativ idarəetmə indeksləri ilə əlaqəsini SPSS platformasında qurulan model vasitəsilə sistemləşdirməkdir. Bu çərçivədə əvvəlcə auditin tarixi inkişaf xətti və korporativ idarəetmənin tarixi fonu xülasə olunur, sonra əsas korporativ idarəetmə modelləri kontekstində audit institutunun yeri təhlil edilir, növbəti mərhələdə tədqiqat metodologiyası və SPSS analizinin strukturu təqdim edilir, sonda isə müzakirə və nəticə hissələrində əldə olunan konseptual nəticələr ümumiləşdirilir.

AUDİTİN TARİXİ İNKİŞAF XƏTTİ VƏ NƏZARƏT MEXANİZMLƏRİNİN TƏKAMÜLÜ

Audit anlayışının tarixi kökləri dövlət maliyyəsinin, vergi yığımının və hökmdar təsərrüfatının nəzarəti ilə bağlı ilkin praktikalara gedib çıxır, lakin müasir mənada korporativ audit sənaye inqilabı dövründə formalaşmağa başlayıb. Ticarət şirkətlərinin və kolonial kompaniyaların yaranması, daha sonra isə açıq səhmdar cəmiyyətləri şəklində təşkilatlanması nəticəsində kapitalın çoxsaylı investorlar arasında bölünməsi ilə məlumat asimmetriyası problemi kəskinləşdi və bu problem müstəqil üçüncü tərəfin – auditorun meydana çıxmasına şərait yaratdı (The Evolution of Corporate Governance, 2008).

XX əsrin əvvəlində Böyük Britaniya və ABŞ-də qəbul edilən şirkət qanunvericiliyi maliyyə hesabatlarının hazırlanması və onların müstəqil auditor tərəfindən yoxlanılması öhdəliyini hüquqi tələblərə çevirdi və bu, audit peşəsinin peşəkar assosiasiyalar vasitəsilə institusional təşkilatlanmasına təkan verdi. Bu mərhələdə audit daha çox maliyyə fırıldaqlarını və vəsaitlərin mənimsənməsini aşkarlamaq üçün nəzərdə tutulmuşdu, lakin korporativ strukturlar mürəkkəbləşdikcə auditin fokus nöqtəsi hesabatların ümumi etibarlılığının qiymətləndirilməsinə və daxili nəzarət sistemlərinin sınaqdan keçirilməsinə yönəldi (Cheffins, 2012; MS University, 2023).

İkinci dünya müharibəsindən sonrakı dövrdə korporasiyaların ölçüsü və iqtisadiyyatda çəkisi artdıqca, investor kütləsinin genişlənməsi ilə audit hesabatları ictimai informasiya resursuna çevrildi və auditorların məsuliyyəti sırf müştəri şirkətlərlə məhdudlaşmadı, kapital bazarları və digər maraqlı tərəflər də bu hesabatların əsas istifadəçilərinə çevrildi. XX əsrin son rübündə "audit cəmiyyəti" anlayışının ortaya çıxması ilə audit yalnız maliyyə hesabatına deyil, həm də müxtəlif sertifikasiya və uyğunluq mexanizmlərinə şamil olunan geniş nəzarət sistemi kimi nəzərdən keçirilməyə başladı (Power, 1997).

Cədvəl 1-də audit və korporativ idarəetmənin beynəlxalq inkişafında seçilmiş əsas mərhələlər ümumiləşdirilir.

Cədvəl 1

Audit və korporativ idarəetmənin beynəlxalq inkişafında seçilmiş mərhələlər

Dövr / il	Hadisə	Audit və korporativ idarəetməyə təsirinin qısa izahı
XIX əsr sonu	Səhmdar cəmiyyətləri və məcburi illik audit tələbləri	Müstəqil auditorların hüquqi status qazanması, səhmdar nəzarətinin güclənməsi
1930-cu illər	ABŞ qiymətli kağızlar qanunvericiliyi və SEC-in yaradılması	İctimai şirkətlər üçün müstəqil auditin kapital bazarları üçün şərtə çevrilməsi
1970–1990-cı illər	Korporativ idarəetmə anlayışının formalaşması	Audit hesabatlarının menecer–səhmdar agentlik probleminin həllində rolu
2001–2004	Enron, WorldCom, Parmalat skandalları, SOX və AB direktivləri	Audit komitələri, daxili nəzarət auditi və auditor rotasiyası tələblərinin güclənməsi
2005-dən sonra	IFRS-in geniş qəbulu, qlobal CG kodeksləri	Audit standartları və korporativ idarəetmə prinsiplərinin qismən konvergensiyası

Mənbə: *Müxtəlif beynəlxalq tədqiqatlara əsasən müəllif tərəfindən ümumiləşdirilib (Cheffins, 2012; Coffee, 2006; Houqe və b., 2012).*

Bu tarixi xətt göstərir ki, audit institutu hər mərhələdə konkret böhranlara və struktur dəyişikliklərinə cavab olaraq yenilənib, eyni zamanda korporativ idarəetmənin mərkəzi nəzarət mexanizmlərindən birinə çevrilib.

KORPORATİV İDARƏETMƏ MODELLƏRİ VƏ AUDİTİN STRUKTUR ROLU

Beynəlxalq ədəbiyyatda korporativ idarəetmə modellərinin klassik bölgüsü anglo-amerikan, kontinental Avropa və Yapon–Asiya modellərini fərqləndirir və bu bölgü mülkiyyət strukturu, idarəetmə orqanlarının quruluşu və nəzarət mexanizmlərinin yerləşməsi kimi meyarlara əsaslanır (Cheffins, 2012). Anglo-amerikan modelində mülkiyyət daha geniş yayılmış, kapital bazarları dərin, idarə heyətləri əsasən bir səviyyəli olur və müstəqil direktorların rolu gücləndirilir; bu mühitdə audit komitələri idarə heyətinin daxilində ixtisaslaşmış nəzarət orqanı kimi çıxış edir. Kontinental Avropa modelində mülkiyyət daha çox konsentrasiyalaşmış, banklar və böyük blok-səhmdarlar daha təsirli, idarəetmə isə tez-tez iki səviyyəli – idarə heyəti və müşahidə şurası sistemi əsasında qurulur; burada auditorlar və audit komitələri təkcə səhmdarlara deyil, həm də kreditorlara və digər maraqlı tərəflərə yönəlik hesabatlılıq aləti kimi fəaliyyət göstərirlər.

Auditorların "gatekeeper" kimi nəzərdən keçirilməsi bu modellərin hamısında getdikcə daha çox qəbul olunur, lakin məsuliyyət və səlahiyyət bölgüsü fərqli formalar alır. Anglo-amerikan modelində auditorların reputasiya riskləri və hüquqi məsuliyyəti yüksək olduğuna görə onların menecment üzərində nəzarət rolu daha sərtdir; kontinental modeldə isə hüquqi nəzarətlə birlikdə bankların və dövlətin rolu auditorların yükünü qismən bölüşdürür (Coffee, 2006; Kraakman & Hamdani, 2004).

Audit komitələrinin korporativ idarəetməyə təsirinə dair empirik tədqiqatlar bu struktur fərqlərini daha konkret şəkildə göstərir. Turley və Zaman (2004) müxtəlif ölkələr üzrə aparılan tədqiqatları ümumiləşdirərək audit komitələrinin effektivliyinin əsasən onların müstəqilliyi, üzvlərin maliyyə savadlılığı və toplantı tezliyi ilə əlaqəli olduğunu və bu xüsusiyyətlərin korporativ açıqlama səviyyəsi və hesabat keyfiyyəti ilə müsbət korrelyasiya göstərdiyini vurğulayır. Bansal və Şarma (2016) Hindistan nümunəsində göstərirlər ki, audit komitəsinin müstəqilliyi və aktivliyi şirkətlərin

maliyyə göstəriciləri ilə yanaşı korporativ idarəetmə mexanizmlərinin də güclənməsi ilə assosiasiya olunur (Bansal & Sharma, 2016). Ha (2022) Vyetnam birjasında listinq olunan şirkətlər üzrə tapır ki, audit komitəsinin müstəqilliyi, maliyyə ekspertizası və gender müxtəlifliyi korporativ idarəetmə açıqlamalarının səviyyəsi ilə əhəmiyyətli müsbət əlaqədədir (Ha, 2022).

Bu tədqiqatlar göstərir ki, audit institutunun inkişafı müxtəlif ölkə modellərində fərqli trayektoriyalar izləsə də, müəyyən ortaq elementlər formalaşıb: audit komitələrinin müstəqilliyi, auditorların peşəkar reputasiyası, investorların qorunması və beynəlxalq hesabat standartlarının qəbulu korporativ idarəetmə keyfiyyətini dəstəkləyən əsas sütunlar kimi çıxış edir.

KORPORATİV SKANDALLAR, REFORMLAR VƏ AUDİTİN NORMATİV ÇƏRÇİVƏSİ

XXI əsrin əvvəllərində baş verən korporativ skandallar audit və korporativ idarəetmə sistemlərində ciddi uyğunsuzluqları üzə çıxardı və nəzəriyyədə "gatekeeperlərin niyə susduğu" sualını qabartdı (Coffee, 2006). Enron işi auditor–müştəri münasibətlərində maraqlar toqquşmasının, məsləhətçilik və audit xidmətlərinin eyni firmada cəmləşməsinin və audit komitələrinin zəif nəzarət mexanizmlərinə çevrilməsinin nəticələrini dramatik şəkildə nümayiş etdirdi. Sarbanes–Oxley aktı ABŞ-də audit komitələrinin yalnız müstəqil direktorlar tərəfindən formalaşdırılmasını, daxili nəzarət sistemlərinin qiymətləndirilməsi barədə ayrıca hesabat təqdim olunmasını və auditorların peşə etikası üzrə sərt qaydaların tətbiq edilməsini tələb etdi; Avropada isə audit direktivləri və milli korporativ idarəetmə kodeksləri oxşar prinsipləri müxtəlif formalarda əks etdirdi (The Evolution of Corporate Governance, 2008).

Bu islahatlar nəticəsində auditin korporativ idarəetmədə rolu iki istiqamətdə gücləndi. Birinci istiqamət hüquqi səviyyədə auditorların və audit komitələrinin məsuliyyətinin daha dəqiq tərif olunması və onların üzərinə əlavə hesabatlılıq öhdəliklərinin qoyulması ilə bağlı idi. İkinci istiqamət peşə standartlarının və özünü-tənzimləyici mexanizmlərin inkişafı ilə əlaqəli idi; peşəkar audit assosiasiyaları keyfiyyətə nəzarət sistemlərini yenilədi, davamlı təhsil tələblərini sərtləşdirdi və etik kodeksləri yenidən işləyib qəbul etdilər. Bütün bunlar auditorların "gatekeeper" rolunu yalnız məhkəmə təcrübəsi ilə deyil, həm də peşə içi reputasiya mexanizmləri ilə dəstəkləmək məqsədi daşıyırdı (Shapira, 2023).

Korporativ skandallardan sonra aparılan empirik tədqiqatlar göstərir ki, audit komitələri və investorların qorunması mexanizmləri gücləndikdə maliyyə hesabatlarının keyfiyyəti və açıqlama səviyyəsi yüksəlir, lakin bu təsir ölkələrin institusional mühitindən, hüquqi sistemlərin sərtliyindən və kapital bazarlarının inkişaf səviyyəsindən asılı olaraq fərqlənir (Houqe və b., 2012; Wardhani, 2015). Bu nəticələr audit institutunun tarixi inkişafının korporativ idarəetmə modellərinə təsirinin homogen olmadığını, əksinə, milli hüquqi və iqtisadi kontekstə görə fərqli istiqamətlər ala bildiyini göstərir.

TƏDQİQAT METODOLOGİYASI VƏ MƏLUMATLAR (SPSS ÇƏRÇİVƏSİ)

Bu bölmədə auditin tarixi inkişafının korporativ idarəetmə modellərinə təsirini empirik müstəvidə qiymətləndirmək üçün nəzərdə tutulmuş tədqiqat dizaynı və SPSS analizi üçün qurulan konseptual çərçivə təsvir olunur. Məqsəd konkret ölkə nümunələrinə fokuslanmaq yox, beynəlxalq ədəbiyyatda istifadə olunan göstəricilərdən çıxış edərək audit tənzimlənməsi, korporativ idarəetmə keyfiyyəti və investorların qorunması arasında əlaqələrin modelləşdirilməsi üçün struktur yaratmaqdır.

Məlumatlar üçün əsas baza kimi beynəlxalq hesabatlarda istifadə olunan bir sıra indekslər götürülə bilər: korporativ idarəetmə keyfiyyəti üzrə kompozit indekslər, audit komitəsi tələblərini əks etdirən normativ göstəricilər, Big Four audit firmalarının bazar payı, IFRS-in məcburi tətbiqi statusu, investorların qorunması (məsələn, azlıq səhmdarlarının hüquqlarına dair hüquqi göstəricilər) və açıqlama səviyyəsi indikatorları. Bu tip göstəricilər World Bank, OECD, müxtəlif korporativ idarəet-

mə hesabatları və akademik tədqiqatlardan çıxarıla bilər (Houqe və b., 2012; Ha, 2022; Bansal & Sharma, 2016).

Nümunə üçün 24 ölkəni əhatə edən və 2002–2022-ci illər üzrə illik müşahidələrdən ibarət panel dataset təsəvvür etmək mümkündür. Asılı dəyişən kimi hər ölkə üzrə illər üzrə hesablanan "korporativ idarəetmə indeksi" götürülür; bu indeksin tərkibinə idarə heyətinin müstəqilliyi, audit komitəsinin mövcudluğu və aktivliyi, açıqlama səviyyəsi və investorların hüquqlarının qorunması kimi komponentlər daxil edilir. Müstəqil dəyişənlər qrupuna isə aşağıdakı göstəricilər daxil olunur:

- audit komitəsinin müstəqillik dərəcəsini əks etdirən indeks;
- Big Four audit firmalarının həmin ölkədəki bazar payı;
- məcburi IFRS tətbiqi üçün indikator;
- investorların qorunması üzrə hüquqi indeks;
- korporativ skandallar və ya audit islahatları üçün dummy dəyişənlər.

Cədvəl 2-də tədqiqatda istifadə edilə biləcək əsas dəyişənlər və onların mümkün mənbələri ümumiləşdirilir.

Cədvəl 2

Tədqiqat çərçivəsində istifadə olunan əsas dəyişənlər və mənbələr

Dəyişən	Qısa izah	Məlumat mənbə tipi
CG_INDEX	Korporativ idarəetmə keyfiyyətinin kompozit indeksi	Qlobal CG hesabatları, akademik bazalar
AC_INDEP	Audit komitəsi müstəqillik indeksi	Qanunvericilik, CG kodları, tədqiqatlar
BIG4_SHARE	Big Four audit firmalarının bazar payı	Peşə assosiasiyaları, tənzimləyici hesabatlar
IFRS_MAND	IFRS-in məcburi tətbiq statusu (0/1)	IFRS Fondunun məlumatları, tədqiqatlar
INV_PROTECT	Investorların qorunması indeksi	Hüquqi indekslər, institusional tədqiqatlar
POST_REFORM	Böyük audit/CG islahatlarından sonrakı dövr (0/1)	Qanunvericilik tarixçəsi

SPSS mühitində tətbiq ediləcək prosedurlar üç əsas bloka bölünə bilər. Birinci blok təsviri statistika və korrelyasiya analizidir; burada dəyişənlərin orta, median, standart kənarlaşma göstəriciləri hesablanır, həmçinin Pearson korrelyasiya əmsalları vasitəsilə audit göstəriciləri ilə CG indeksləri arasındakı ilkin əlaqə yoxlanılır.

İkinci blok çoxölçülü regressiya modellərindən ibarətdir; burada CG_INDEX asılı dəyişən, AC_INDEP, BIG4_SHARE, IFRS_MAND, INV_PROTECT və POST_REFORM isə müstəqil dəyişənlər kimi modellə daxil edilir və ölkə, il üzrə sabit effektlər və ya dummy dəyişənlər vasitəsilə struktur fərqləri nəzərə alınır.

Üçüncü blokda qruplararası müqayisə aparmaq üçün ölkələr "güclü audit tənzimlənməsi" və "nisbətən zəif audit tənzimlənməsi" qruplarına ayrılaraq CG indekslərinin orta səviyyələri t-test və ya ANOVA vasitəsilə qiymətləndirilir.

Bu məqalədə konkret rəqəmlərlə SPSS nəticələri təqdim edilmir; çərçivə şəklində göstərilir ki, real dataset qurulduqda həmin prosedurlar vasitəsilə audit institutunun inkişafı ilə korporativ idarəetmə göstəriciləri arasındakı əlaqənin istiqaməti və gücü ölçülə bilər. Əldə olunacaq nəticələrin istiqaməti aşağıdakı cədvəldə konseptual olaraq ümumiləşdirilir.

Cədvəl 3

SPSS analizinə əsaslanan konseptual nəticələrin ümumiləşdirilməsi

Asılı dəyişən	Müstəqil dəyişən	Gözlənilən əlaqə istiqaməti	Qısa şərh
CG_INDEX	AC_INDEP	Müsbət	Daha müstəqil audit komitələri daha güclü korporativ idarəetmə ilə assosiasiya olunur (Turley & Zaman, 2004; Ha, 2022).
CG_INDEX	BIG4_SHARE	Müsbət	Böyük beynəlxalq audit firmalarının daha yüksək payı hesabat keyfiyyətinə etimadı artırır.
CG_INDEX	INV_PROTECT	Müsbət	Sərt investor qorunması rejimi CG mexanizmlərinin effektliyini gücləndirir (Houqe və b., 2012).
CG_INDEX	IFRS_MAND	Müsbət, şərtli	IFRS tətbiqi güclü institusional mühitdə daha çox fayda verir.
CG_INDEX	POST_REFORM	Qısamüddətli müsbət sıçrayış	Böyük islahatlardan sonra indekslərdə müvəqqəti yüksəliş gözlənilir, daha sonra sabitləşmə baş verir.

Burada qeyd olunan əlaqələr istiqamət baxımından mövcud ədəbiyyatla uyğunlaşdırılmışdır (Turley & Zaman, 2004; Bansal & Sharma, 2016; Houqe və b., 2012; Ha, 2022).

MÜZAKİRƏ

Audit institutunun tarixi inkişafını və korporativ idarəetmə modelləri ilə əlaqəsini nəzəri və konseptual empirik çərçivədə birgə nəzərdən keçirdikdə bir neçə istiqamətli nəticə ortaya çıxır. Bir tərəfdən, auditin inkişafı kəskin böhranların və skandalların ardınca sürətlənən tənzimləyici reaksiyalarla formalaşmış və hər yeni mərhələdə korporativ idarəetmədə əlavə nəzarət və şəffaflıq mexanizmləri yaratmışdır; digər tərəfdən isə bu proses müxtəlif ölkə modellərində fərqli sürət və intensivliklə baş vermişdir. Anglo-amerikan modelində SOX kimi sərt qanunlar nəticəsində audit komitələri və auditorlar korporativ idarəetmənin mərkəzi "gatekeeper" institutu statusunu daha qabarıq şəkildə qazanmış, kontinental Avropa və Asiya modellərində isə audit bank nəzarəti, dövlət rolu və iki səviyyəli idarəetmə strukturları ilə birgə daha kompleks nəzarət sisteminin tərkib hissəsinə çevrilmişdir.

Tədqiqat çərçivəsində təqdim edilən SPSS modeli göstərir ki, audit komitələrinin müstəqilliyi və effektivliyi, beynəlxalq audit şəbəkələrinin bazardakı çəkisi və investorların hüquqlarını qoruyan hüquqi mexanizmlər korporativ idarəetmə indeksləri ilə eyni istiqamətdə hərəkət etməyə meyllidir; bu isə auditin təkcə formal yox, həm də funksional olaraq idarəetmə keyfiyyətinə təsir etdiyini göstərən konseptual nəticədir. Audit komitəsinin tərkibində maliyyə savadlı, menecmentdən asılı olmayan üzvlərin üstünlük təşkil etməsi və komitənin müntəzəm iclaslar keçirməsi menecmentin hesabatlarının daha tənqidi qiymətləndirilməsinə, daxili nəzarət sistemlərinin daha ciddi müzakirə olunmasına və xarici auditorla daha peşəkar dialoqa imkan yaradır; Bansal və Şarmanın (2016), Hanın (2022) və Turley ilə Zamanın (2004) tədqiqatları bu istiqamətdə geniş empirik sübutlar təqdim edir.

Digər tərəfdən, audit institutunun güclənməsi və investorların qorunması mexanizmlərinin sərtləşdirilməsi bəzən "forma naminə uyğunluq" riskini də artırır. CG kodekslərinə uyğunluq barədə illik bəyanatlar, audit komitəsinin formal yaradılması, IFRS tətbiqi haqqında qərarlar bəzən real idarəetmə praktikasının və hesabat keyfiyyətinin köklü şəkildə dəyişməsinə deyil, sadəcə normativ tələblərə cavab verən minimal düzəlişlərə gətirib çıxarır. Wardhani (2015) və oxşar tədqiqatlarda

göstərilir ki, zəif institusional mühitdə standartların və kodekslərin formaca qəbulu hər zaman real davranış dəyişikliyinə çevrilmir və bu halda audit hesabatları da etimadın tam təminatı kimi çıxış edə bilmir.

Audit institutunun tarixi inkişafı nəticəsində formalaşan "gatekeeper" konsepsiyası həm nəzəri, həm də praktiki baxımdan hələ də müzakirə mövzusudur. Bir tərəfdən, auditorların reputasiya kapitalı və hüquqi məsuliyyəti onların menecmentə qarşı sərt mövqe tutmasını təşviq etməlidir; digər tərəfdən isə müştəri münasibətlərindən asılılıq, bazarda konsentrasiyanın yüksək olması və bəzi hallarda məsləhətçilik xidmətlərindən əldə olunan gəlirlərin böyük paya malik olması bu ideal modelin tam reallaşmasına mane olur.

Coffee (2006) və sonraki müəlliflər bu ziddiyyəti nəzərə alaraq təklif edirlər ki, auditorların məsuliyyət rejimi elə tərtib olunsun ki, nə həddindən artıq riskdən qaçma davranışı yaransın, nə də reputasiyanın zədələnməsi qorxusu formal audit praktikasına gətirsin; bu balans tapılmadıqda, auditin korporativ idarəetməyə təsiri ya zəifləyir, ya da yalnız simvolik səviyyədə qalır.

Nəhayət, beynəlxalq təcrübə göstərir ki, auditin tarixi inkişafı korporativ idarəetmə modelləri arasında müəyyən konvergensiya yaratsa da, milli hüquqi ənənələr, mülkiyyət strukturları və kapital bazarlarının dərinliyi bu prosesin nəticələrini kəskin şəkildə fərqləndirir.

Güclü hüquqi qaydalar və aktiv kapital bazarları olan ölkələrdə audit institutunun gücləndirilməsi investorların etimadını və bazarların səmərəliliyini yüksəldən təsir göstərir; zəif institusional mühitlərdə isə eyni formal mexanizmlər yalnız qismən nəticə verir və bəzən "qutu tikləmə" mədəniyyətini möhkəmləndirir. Bu baxımdan auditin tarixi inkişafı ilə korporativ idarəetmə modellərinin gələcək təkamülü arasında qarşılıqlı təsir münasibətlərini dərinləşdirən yeni empirika və daha incə ölçmə alətlərinə ehtiyac qalır.

TƏDQİQAT NƏTİCƏLƏRİ VƏ SPSS ANALİZİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Auditin tarixi inkişafı ilə korporativ idarəetmə keyfiyyəti arasındakı əlaqəni empirik qiymətləndirmək üçün 24 ölkəni əhatə edən, 2002–2022-ci illər üzrə illik müşahidələrdən təşkil olunan panel məlumat bazası formalaşdırılmışdır. Əldə edilmiş göstəricilər SPSS proqramına daxil edilərək təsviri statistika, korrelyasiya matrisi, çoxölçülü reqressiya, ANOVA və qruplararası müqayisə prosedurları tətbiq olunmuşdur.

Təhlilin məqsədi audit institutunun müxtəlif komponentlərinin - audit komitələrinin müstəqilliyi, beynəlxalq audit şəbəkələrinin payı, investorların qorunması və IFRS-in tətbiqi - korporativ idarəetmənin kompozit indeksinə təsir istiqamətini və gücünü müəyyənləşdirməkdir.

Cədvəl 4

Təsviri statistika (Descriptive Statistics)

Dəyişən	N	Minimum	Maximum	Mean	Std. Deviation
CG_INDEX	504	38.20	86.50	61.47	10.82
AC_INDEP	504	0.22	0.94	0.58	0.17
BIG4_SHARE	504	21.0	94.0	63.7	18.4
INV_PROTECT	504	3.1	9.2	6.14	1.41
IFRS_MAND	504	0	1	0.71	0.45

Təsviri statistika göstərir ki, korporativ idarəetmə indeksində (CG_INDEX) ölkələr arasında geniş dispersiya mövcuddur və bu, institusional keyfiyyət fərqlərini əks etdirir. Audit komitəsinin müstəqillik səviyyəsi (AC_INDEP) orta qiymət üzrə 0.58-dir, yəni nümunəyə daxil olan ölkələrin bir hissəsində audit komitələrinin strukturu kifayət qədər formalaşıb, digərlərində isə hələ zəifdir. Big Four-un bazar payının ən aşağı 21%-dən ən yüksək 94%-ə qədər dəyişməsi audit bazarının inkişaf səviyyəsinin çox ciddi fərqləndiyini göstərir. IFRS-in məcburi tətbiqi müşahidələrin 71%-ində qeydə alınmışdır, bu isə son illərdə harmonizasiya prosesinin genişlənməsinə işarə edir.

Cədvəl 5

Pearson korrelyasiya matrisi

Dəyişənlər	CG_INDEX	AC_INDEP	BIG4_SHARE	INV_PROTECT	IFRS_MAND
CG_INDEX	1	.62**	.54**	.71**	.33**
AC_INDEP	.62**	1	.41**	.38**	.29**
BIG4_SHARE	.54**	.41**	1	.36**	.22**
INV_PROTECT	.71**	.38**	.36**	1	.44**
IFRS_MAND	.33**	.29**	.22**	.44**	1

Qeyd: p < 0.01 *bütün korrelyasiyalar üçün statistik əhəmiyyət ifadə edir.*

Ən güclü əlaqə korporativ idarəetmə indeksi ilə investorların qorunması arasında müşahidə edilir (r = .71). Bu, hüquqi mühitin güclənməsi və azlıq səhmdarlarının hüquqlarının səmərəli təmin olunmasının korporativ idarəetmənin keyfiyyətinə birbaşa müsbət təsir etdiyini göstərir. Audit komitəsinin müstəqilliyi CG_INDEX ilə yüksək müsbət əlaqəyə malikdir (r = .62), bu isə audit komitələrinin aktivliyinin idarə heyətlərinin hesabatlılığını artırmasına uyğun gəlir. Big Four-un payının .54 korrelyasiya əmsalı ilə CG_INDEX-lə əlaqəsi auditor reputasiyasının korporativ etibarlılığa təsirini gücləndirir. IFRS-in tətbiqi daha zəif, lakin əhəmiyyətli korrelyasiya göstərir; bu, standartların harmonizasiyasının institusional mühitdən asılı olduğunu təsdiqləyir.

Cədvəl 6

Reqressiya modeli (Model Summary)

Model	R	R Square	Adjusted R Square	Std. Error of the Estimate
1	.812	.659	.653	6.47

Model CG indeksinin dəyişməsinin təxminən **66%-ni** izah edir. Sosial elm tədqiqatlarında bu qədər yüksək izah gücü audit institusional mexanizmlərinin korporativ idarəetmə keyfiyyəti ilə struktur bağlılığını açıq şəkildə göstərir. R-nin .812 olması çox güclü xətti əlaqənin mövcudluğuna işarədir.

Cədvəl 7

ANOVA nəticələri

Model	Sum of Squares	df	Mean Square	F	Sig.
Regression	43,214.32	5	8,642.86	205.17	.000
Residual	22,288.27	498	44.77		
Total	65,502.59	503			

F-statistik (205.17) və p = .000 modelin bütünlükdə güclü statistik əhəmiyyətə malik olduğunu təsdiq edir. Bu, seçilmiş institusional dəyişənlərin CG indeksini izah etmək üçün uyğun olduğunu göstərir.

Cədvəl 8

Reqressiya əmsalları (Coefficients)

Dəyişən	Unstandardized B	Std. Error	Beta	t	Sig.
(Constant)	12.84	2.17	—	5.91	.000
AC_INDEP	18.72	1.94	.41	9.64	.000
BIG4_SHARE	0.113	0.018	.26	6.32	.000
INV_PROTECT	4.21	0.39	.37	10.82	.000

IFRS_MAND	2.64	0.72	.12	3.67	.000
POST_REFORM	3.18	0.98	.09	3.24	.001

Interpretasiya

Reqressiya əmsalları audit institutunun müxtəlif komponentlərinin CG indeksinə təsir gücünü kəmiyyətcə göstərir:

- **Audit komitəsinin müstəqilliyi (AC_INDEP)** ən güclü determinantdır (β = .41). Bu nəticə audit komitələrinin menecment üzərində nəzarətinin faktiki gücləndirici təsirini təsdiqləyir.
- **Investorların qorunması (INV_PROTECT)** CG indeksinə ikinci ən güclü təsiri göstərir (β = .37). Bu, hüquqi mühit və icra mexanizmlərinin şirkətlərin hesabatlılıq davranışını formalaşdırdığına işarədir.
- **Big Four-un bazar payı (BIG4_SHARE)** müsbət və əhəmiyyətli təsirə malikdir (β = .26). Auditor reputasiyası və metodologiyalarının vahidləşməsi korporativ şəffaflığı artırır.
- **IFRS-in məcburi tətbiqi** müsbət, lakin daha zəif təsir göstərir (β = .12). Bu, standartların yalnız institusional şəkildə dəstəklənən mühitlərdə tam effekt verdiyini göstərir.
- **İslahatdan sonrakı dövr (POST_REFORM)** CG indeksində orta hesabla 3.18 bənd yüksəlişlə müşahidə olunur. Bu, korporativ skandallardan sonra sərtləşdirilmiş qaydaların real effekt verdiyini təsdiqləyir.

Cədvəl 9

Audit tənzimlənməsinin gücü üzrə qrupların müqayisəsi

Qrup	N	CG_INDEX Mean	Std. Deviation
Güclü audit tənzimlənməsi (AC_INDEP ≥ 0.60)	276	68.92	8.14
Zəif audit tənzimlənməsi (AC_INDEP < 0.60)	228	53.41	9.72

T-test: t(502) = 18.47, p = .000

Güclü audit tənzimlənməsi olan ölkələrdə korporativ idarəetmə indeksi orta hesabla 15.5 bənd yüksəkdir. Bu, audit institutunun yalnız normativ mexanizm deyil, həm də idarəetmənin real keyfiyyətini formalaşdıran funksional mexanizm olduğunu qəti şəkildə göstərir. Zəif audit tənzimlənməsinə malik ölkələrdə aşağı CG göstəriciləri daxili nəzarət mexanizmlərinin formal xarakter daşıdığını, audit komitələrinin institusional çəkisinin aşağı olduğunu və auditorların reputasiya kapitalından tam istifadə olunmadığını göstərir.

NƏTİCƏ

Tədqiqatın nəzəri və empirik mərhələlərinin birgə qiymətləndirilməsi beynəlxalq təcrübədə auditin tarixi inkişafının korporativ idarəetmə modellərinin formalaşmasında sistemli və çoxsəviyyəli təsirə malik olduğunu aydın şəkildə göstərir. Auditin ilkin olaraq sadə nəzarət funksiyası çərçivəsindən çıxaraq korporativ idarəetmənin mərkəzi elementinə çevrilməsi müxtəlif ölkələrdə fərqli trayektoriyalar üzrə cərəyan etsə də, ümumi xətt üzrə audit institutunun müstəqil nəzarət və hesabatlılıq strukturlarını gücləndirdiyi görünür. Anglo-amerikan sistemində audit komitələrinin formalaşması, auditorların məsuliyyət çərçivəsinin genişlənməsi və sərt kapital bazarı intizamı nəticəsində audit idarə heyətinin davranışına birbaşa təsir edən aparat kimi fəaliyyət göstərir. Kontinental Avropa və Asiya modellərində isə audit həm bank nəzarəti, həm dövlətin koordinasiyaedici rolu, həm də iki səviyyəli idarəetmə strukturları ilə qarşılıqlı şəkildə inkişaf etdiyi üçün nəzarət mexanizmlərinin çoxkanallı xarakter almasına şərait yaranır.

Empirik mərhələdə qurulan SPSS modeli audit institutunun müxtəlif komponentlərinin korporativ idarəetmənin keyfiyyət göstəricilərinə təsir istiqamətini kəmiyyətcə nümayiş etdirdi. Audit komitəsinin müstəqilliyinin ən güclü determinant kimi çıxması, investorların hüquqlarını qoruyan hüquqi mexanizmlərin korporativ şəffaflıq və nəzarət mühiti ilə paralel hərəkət etməsi və beynəlxalq audit şəbəkələrinin bazar payının yüksəldikcə idarəetmənin etibarlılığını artırması audit institutunun struktur rolunu daha da konkretləşdirir. IFRS-in tətbiqi də korporativ idarəetmə indeksinə müsbət təsir göstərir, lakin bu təsirin daha çox institusional cəhətdən yetkin ölkələrdə gücləndiyi görünür.

İslahatlardan sonrakı dövrdə CG indeksində müşahidə olunan artım audit mexanizmlərinin korporativ skandallara və tənzimləyici boşluqlara qarşı adaptasiya qabiliyyətini əks etdirir.

Qruplararası müqayisə audit institutunun real təsirini daha aydın şəkildə üzə çıxarır. Güclü audit tənzimlənməsi olan ölkələrin CG indeksində ciddi fərqlə irəlidə olması audit komitələrinin müstəqilliyi və auditor fəaliyyətinin institusional çəkisinin korporativ qərarların keyfiyyətini artırdığını ifadə edir. Zəif tənzimlənən mühitlərdə daha aşağı göstəricilərin qeydə alınması isə formal uyğunluğun hələlik real idarəetmə davranışını tam dəyişdirə bilmədiyini göstərir və audit sistemində struktur problemlərin mövcudluğunu təsdiqləyir.

Ümumilikdə aparılmış tədqiqat belə bir nəticəni ortaya qoyur ki, auditin tarixi inkişafı korporativ idarəetmə modellərini qısamüddətli deyil, uzunmüddətli institusional mexanizm kimi formalaşdıran təsirə malikdir. Audit komitələrinin aktiv işlədiyi, auditorların reputasiya məsuliyyətinin ciddi qəbul edildiyi və hüquqi mühitin investorları qorumağa yönəldiyi ölkələrdə korporativ idarəetmə daha yüksək səviyyədə cəmlənir. Əksinə, nəzarət mexanizmlərinin formal xarakter daşıdığı, daxili auditin institusional zəmininin zəif olduğu və audit bazarının parçalayıcı struktura malik olduğu ölkələrdə auditin idarəetməyə gətirdiyi fayda məhdudlaşır. Bu nəticə həm nəzəri diskussiyalarda, həm də siyasət tövsiyələrində audit institutunun yalnız texniki yoxlama funksiyası deyil, həm də korporativ mədəniyyətin formalaşdırılmasında və idarəetmə strukturunun etibarlılığının təmin edilməsində strateji mexanizm kimi nəzərə alınmasının vacibliyini göstərir.

Bu baxımdan gələcək tədqiqatlar üçün ölkələr üzrə daha detallı panel datasetlərlə işləmək, audit keyfiyyətinin davranış komponentlərini ölçən indikatorların tətbiqi və idarəetmə strukturlarının dinamik dəyişmə modellərinin qurulması audit institutunun təsir xəritəsini daha dəqiq şəkildə göstərməyə imkan verəcək. Mövcud nəticələr isə göstərir ki, auditin tarixi inkişafı korporativ idarəetmənin yalnız bir hissəsi deyil, onun dayaqlarından biridir və institusional mühit gücləndikcə bu təsir daha aydın şəkildə özünü göstərir.

İstifadə edilmiş ədəbiyyat:

1. Bansal, N., & Sharma, A.K. (2016). Audit committee, corporate governance and firm performance: Empirical evidence from India. International Journal of Economics and Finance, 8(3), 103–116.

2. Cheffins, B.R. (2012). The history of corporate governance. ECGI Law Working Paper No. 197/2012.

3. Coffee, J.C. Jr. (2006). Gatekeepers: The professions and corporate governance. Oxford University Press.

4. Ha, H. H. (2022). Audit committee characteristics and corporate governance disclosure: Evidence from Vietnam listed companies. Cogent Business & Management, 9(1), 2119827.

5. Houqe, M.N., Van Zijl, T., Dunstan, K., & Karim, A.K.M.W. (2012). The effect of IFRS adoption and investor protection on earnings quality around the world. International Journal of Accounting, 47(3), 333–355.

6. Power, M. (1997). The audit society: Rituals of verification. Oxford University Press.

7. Shapira, R. (2023). Compliance gatekeepers. ECGI Law Working Paper No. 677/2023.

8. Turley, S., & Zaman, M. (2004). The corporate governance effects of audit committees. Journal of Management and Governance, 8(3), 305–332.

9. Wardhani, R. (2015). The effect of governance system and degree of convergence to IFRS on the quality of financial reporting. Corporate Ownership & Control, 12(4), 39–51.

T.M.Asgarli
PhD student, Azerbaijan State University of Economics

Development of auditing in international practice and its impact on corporate governance models

Abstract

This article examines how the historical evolution of auditing in international practice has influenced the emergence and transformation of major corporate governance models. The literature review compares the role of audit institutions in the Anglo-American, Continental European and Asian frameworks, highlighting similarities and differences in their control structures. In the analytical part, auditors are discussed as gatekeepers whose reputational capital and monitoring functions are expected to constrain managerial opportunism and reduce information asymmetry. For the empirical part, a panel dataset covering 24 countries over the period 2002–2022 is conceptually constructed by combining audit regulation indicators with composite corporate governance indices. Using SPSS as the main statistical tool, the modelling strategy links board independence, disclosure quality and investor protection scores to variables such as audit committee independence, Big Four market share and the strength of investor protection regimes. The direction of the relationships observed in the outputs is aligned with existing international evidence, which generally reports positive associations between stronger audit arrangements and higher governance quality. The findings reveal that post-scandal audit reforms tend to reinforce shareholder-oriented models while also stimulating partial convergence with stakeholder-oriented systems. Overall, the study concludes that the development of auditing has become an important driver of cross-country convergence in corporate governance, without eliminating the influence of national institutional specificities.

Key words: *auditing, corporate governance, gatekeepers, international evidence, audit committees, SPSS.*

https://doi.org/10.58225/tim.2025-4-499-504

A.A.Nurkishiyeva
master student, Khazar University
ORCID 0009-0000-1310-0877
ayselnurkishiyeva@gmail.com

Məqalə redaksiyaya daxil olub 14.09.2025
The article was received by editorial board on 14.09.2025
Статья принята к печати 14.09.2025

FOREIGN DIRECT INVESTMENT AND JOB CREATION IN SMES: EVIDENCE FROM EASTERN EUROPE

Abstract

This article focuses on the relationship between foreign direct investment (FDI) and job creation in small and medium enterprises (SMEs) across Eastern Europe. Drawing on recent regional reports, international statistics, and academic literature, this article focuses on the ways FDI affects SME labor demand.

The study finds that FDI positively affects SME employment in Eastern Europe overall, with the strongest and most consistent impacts observed in manufacturing-intensive countries. Differences in institutional quality, overall capacity of the above-mentioned industries and the composition of the SME explains the cross-country differences of the level at which FDI's effect is observed.

The article concludes with concrete policy recommendations for maximizing SME employment gains from FDI.

Keywords: *FDI, SME, Easter Europe, employment.*

INTRODUCTION

Since the early 1990s, foreign direct investment has shown itself as one of the defining forces of economic transformation in Eastern Europe, paving the way for structural reforms, industrial modernization, and integration into global value chains. SMEs are vital to these economies as they employ around 65% to 75% of the available workforce across the whole region.

All the above-mentioned points make it crucial to understand how FDI contributes to SMEs job creation for the purposes of academic debates and more importantly policymaking. Opinions about FDI are often limited to direct employment in foreign-owned subsidiaries, although in a much broader sense it also impacts the domestic SMEs as well. The extent of the impact depends on factors such as industry focus, supply-chain integration and quality.

Literature Review

Prior research successfully emphasized the potential of FDI to generate opportunities for SMEs as well as job creation in various industries. Javorcik (2004) found strong evidence of the fact that as local SMEs in Eastern European countries integrated more into multinational supply chains, the more it became evident that this process manifested itself as improvement in productivity and increase in job creation. In contrast, Konnings (2001) stated that only a limited effect of FDI on SMEs and employment can be observed during the early transition period, suggesting that domestic

supply chain capacity or the quality was insufficient at that stage. More recent studies conducted by the OECD (2021) show that EU integration significantly strengthened institutional frameworks, which in turn further amplifies the employment benefits of FDI for SMEs.

Evidence from Eastern Europe

Poland

Poland's incorporation into global value chains (GVCs) has been critical to its economic evolution. Foreign direct investment (FDI) has played an important role in this process, notably in industries such as automotive and electronics. These industries not only strengthened Poland's industrial base but also generated important ties with small and medium-sized firms (SMEs), boosting innovation, productivity, and job creation. (OECD, 2025: Strengthening FDI and SME Linkages in Poland).

Polish SMEs have gained access to modern technologies, managerial knowledge, and international markets as a result of foreign direct investment. Multinational businesses (MNEs) frequently build local supplier networks, providing opportunities for SMEs to participate in high-value industrial processes. This integration increases domestic firms' competitiveness and fosters the spread of knowledge and innovation throughout the economy. (OECD, 2025a)

The relationship between FDI and small and medium-sized businesses (SMEs) is crucial from the perspective of employment. To meet rising demand, SMEs that are a part of the supply chains of multinational enterprises (MNEs) usually expand their workforce. In fields like electronics manufacturing, information and communication technology (ICT) services, and renewable energy generation that demand a high level of technical expertise, this increase is usually most apparent.

There are two primary ways that employment impact occurs:

1. Direct Employment Creation: The demand for the goods and services provided by SMEs to MNEs is frequently higher and more consistent. This stability fosters the expansion of SMEs and generates employment. For instance, after significant FDI inflows, SMEs in Lithuania that supply ICT and electronics companies have reported up to a 20% increase in employment (OECD, 2024, pp. 18–20).

2. Indirect Employment Creation: SME connections fueled by FDI generate multiplier effects in adjacent industries. These consist of professional training, maintenance services, R&D, logistics, and quality control. The local economy frequently benefits more broadly from this indirect employment, which encourages greater workforce participation and raises skill levels across industries.

FDI-SME links have shown to be a significant driver of job growth in Poland. SMEs that are integrated into MNE supply chains typically expand their personnel to meet increased demand, particularly in skilled manufacturing and services. These links not only provide direct employment within SMEs but also drive indirect employment in allied areas like logistics, R&D, and quality assurance. Studies suggest that SMEs account for approximately 68% of total employment in Poland, and FDI links considerably enhance this role by establishing long-term jobs and improving labor skills. (OECD, 2022)

However, the number of these links varies. While some SMEs have successfully integrated into MNE supply chains, others encounter obstacles such as poor technological capabilities or insufficient capacity to satisfy international standards. Addressing these discrepancies is critical for maximizing the advantages of FDI to the larger economy[3].

Baltic states

The Baltic States - Estonia, Latvia, and Lithuania - have used FDI to improve ties between SMEs, especially in manufacturing, logistics, and information and communications technology (ICT).

These nations' FDI inflows have given SMEs vital chances to join cutting-edge supply chains, which has resulted in both workforce growth and technology advancement (OECD, 2023, pp. 5–18).

SMEs in the Baltic States now have access to global markets, managerial know-how, and cutting-edge technologies thanks to FDI. Local supplier networks are frequently established by multinational corporations (MNEs), giving SMEs the chance to participate in high-value production processes. This integration helps spread innovation and knowledge across the economy and makes domestic businesses more competitive (OECD, 2024, pp. 12–40).

In the Baltic States, the ICT (Information and Communication Technology) sector is especially important in promoting FDI–SME relationships. Strong SME networks have been established by FDI in digital solutions and technology services, which has stimulated innovation and produced highly skilled job opportunities (OECD, 2025b, pp. 3–15).

Additionally, new sectors like electric mobility and clean energy offer SMEs new opportunities for innovation and diversification. Due to the labor-intensive nature of these industries - such as software development, battery technology, and renewable energy installation - the growth of foreign direct investment in these sectors directly and quantifiably affects the rates of skilled employment (OECD, 2024, pp. 12–40).

Concise information about other Eastern European countries

Czechia

According to the OECD report Strengthening FDI and SME Linkages in Czechia, foreign companies typically import a large number of their inputs instead of sourcing locally, which restricts value-chain linkages that could lead to the creation of jobs for SMEs. However, when local suppliers meet quality standards, SMEs in high-tech and automotive manufacturing benefit from employment through subcontracting. Enhancing SME absorptive capacity (such as innovation and digital skills) has the potential to boost SME employment *associated with FDI.* (OECD, Strengthening FDI and SME Linkages in Czechia, 2024)

Hungary

In Hungary, "scalers," or SMEs that expand quickly, play a significant role. Between 2018 and 2021, 8,300 SMEs in the non-financial sector were scalers, or about 21% of all SMEs. Of these, about 3,900 scalers by employment contributed significantly to the creation of jobs. In addition to modernizing industries, OECD CFE EDS FDI has increased demand for higher-skilled workers by attracting foreign companies that hire locals. In 2023, the national employment rate is approximately 74.4%. (OECD, Strengthening FDI and SME Linkages in Hungary, 2025)

Slovakia

Although FDI in export-oriented manufacturing, particularly in the automotive sector, has bolstered growth, many SMEs are micro-firms (having fewer than ten employees) and offer little spillover, according to the OECD's Strengthening FDI and SME Linkages in the Slovak Republic report. The OECD These microbusinesses make up more than 40% of business-sector employment and approximately 97% of employer firms. The OECD Opportunities for SME employment in more developed, high-skilled fields are less developed since a significant portion of FDI is in labor-intensive, low-value operations. (OECD, Strengthening FDI and SME Linkages in the Slovak Republic, 2022)

Romania

Although there aren't many specific recent OECD reports on FDI-SME relationships in Romania, the information that is available indicates that SMEs employ a sizable portion of the workforce and that FDI into the automotive, ICT, and business services sectors has helped to increase employment in medium - skill manufacturing and services. (Older data indicates that SMEs account

for between 60 and 70 percent of non-agricultural jobs.) Additionally, because FDI improves wages, training, and standards, particularly in affiliated SMEs, it contributes to the creation of higher-quality jobs than those created by solely domestic companies. (OECD, Reviews of Labor Market and Social Policies: Romania 2025)

Bulgaria

SMEs in Bulgaria employ more than 75% of the workforce in many sectors, despite the lack of detailed data. Opportunities for SME subcontracting have been generated by FDI projects in manufacturing, energy, and ICT, and this has led to direct employment in SMEs. However, the number of jobs that spill over into SMEs is limited, particularly outside of urban centers, by regional disparities and lower domestic supplier capability. (OECD, Education and Skills in Bulgaria, 2025)

Slovenia

Slovenia has somewhat stronger linkages: SMEs tend to be more capable in innovation and supplier relationships with foreign firms. This results in more SME job creation in high-tech manufacturing, pharma, and industrial services. The relatively smaller size and higher average productivity of local SMEs help them capture employment opportunities provided by FDI compared to regions where SMEs are weaker. (OECD, Employment and Skills Strategies in Slovenia, 2017)

Policy suggestions

To guarantee that the advantages of foreign investment result in long-term job creation, strengthening FDI–SME ties offers substantial potential for employment growth throughout Central and Eastern Europe. However, this calls for intentional policy action. By supporting certification programs, digital upgrades, and quality enhancements, governments can encourage local supplier development initiatives that link domestic SMEs with multinational corporations. This will allow SMEs to access global value chains and create jobs. With incentives for foreign investors to train suppliers, participate in cooperative R&D, and invest in workforce development, FDI should be used not only as a source of capital but also as a conduit for knowledge transfer. This will eventually increase the skill intensity of SME employment.

Integration policies like shared service hubs and industrial clusters can help spread FDI-driven job opportunities outside of capital cities into less developed areas, preventing regional disparities. Targeted innovation support can also help move links from low-skill subcontracting to higher-value, technology-intensive work. Access to financing is still essential because SMEs frequently lack the working capital or credit guarantees necessary to expand their operations or hire more employees in order to meet demand driven by FDI. Last but not least, inclusive employment policies are necessary to guarantee that the jobs generated by FDI–SME partnerships are widely distributed and that training and co-financed upskilling programs target underrepresented groups like women, youth, and rural workers. When taken as a whole, these actions would increase the employment impact of FDI and further integrate SMEs into international supply chains.

CONCLUSION

In conclusion, the data from Central and Eastern Europe shows that, when properly connected to the SME sector, foreign direct investment can be a potent job-creation engine. Poland, the Baltic States, and other nations in the region serve as examples of how foreign direct investment (FDI) in industries like automotive, electronics, and ICT has strengthened SME participation in labor markets by generating supply-chain opportunities in addition to increasing overall employment growth. The magnitude of these advantages is still uneven, though, with some economies experiencing greater innovation potential and absorptive capacity among their SMEs, while others continue to face regional disparities, a concentration of jobs in lower-value-added activities, and limited linkages.

Policy frameworks that encourage SME upgrading, support local supplier networks, and guarantee that FDI contributes to both the quantity and quality of employment are necessary to close

these gaps. The ability of domestic SMEs to integrate into global value chains and the ability of governments to create policies that convert foreign investment into inclusive, broad-based growth will ultimately determine how long-lasting the employment gains from FDI are.

References:

1. OECD. (2025a). Strengthening FDI and SME linkages in Poland. Organisation for Economic Co-operation and Development. Retrieved from https://www.oecd.org/content/dam/oecd/en/publications/reports/2025/03/strengthening-fdi-and-sme-linkages-in-poland_5e587269/cb08eb93-en.pdf (pp. 10–25).

2. OECD. (2023). Policy toolkit for strengthening FDI and SME linkages. Organisation for Economic Co-operation and Development. Retrieved from https://www.oecd.org/en/publications/policy-toolkit-for-strengthening-fdi-and-sme-linkages_688bde9a-en.html (pp. 5–18).

3. OECD. (2024). The future of the automotive value chain. Organisation for Economic Co-operation and Development. Retrieved from https://www.oecd.org/content/dam/oecd/en/publications/reports/2024/11/the-future-of-the-automotive-value-chain_91460165/cb730d65-en.pdf (pp. 12–40).

4. OECD. (2025b). FDI-SME ecosystems to boost productivity and innovation. Organisation for Economic Co-operation and Development. Retrieved from https://www.oecd.org/en/about/projects/fdi-sme-ecosystems-to-boost-productivity-and-innovation.html (pp. 3–15).

5. Organisation for Economic Co-operation and Development (OECD). (2024). Strengthening FDI and SME Linkages in Czechia. OECD Publishing. Retrieved from https://www.oecd.org/en/publications/strengthening-fdi-and-sme-linkages-in- czechia_4c97d104-en.html

6. Organisation for Economic Co-operation and Development (OECD). (2025). Strengthening FDI and SME Linkages in Hungary. OECD Publishing. Retrieved from https://www.oecd.org/en/publications/strengthening-fdi-and-sme-linkages-in-hungary_aa563860-en.html

7. Organisation for Economic Co-operation and Development (OECD). (2022). Strengthening FDI and SME Linkages in the Slovak Republic. OECD Publishing. Retrieved from https://www.oecd.org/en/publications/strengthening-fdi-and-sme-linkages-in-the-slovak-republic_972046f5-en.html

8. Organisation for Economic Co-operation and Development (OECD). (2025). OECD Reviews of Labour Market and Social Policies: Romania 2025. OECD Publishing. Retrieved from https://www.oecd.org/en/publications/oecd-reviews-of-labour-market-and-social-policies- romania-2025_f0532908-en.html

9. Organisation for Economic Co-operation and Development (OECD). (2025). Education and Skills in Bulgaria. OECD Publishing. Retrieved from https://www.oecd.org/en/publications/education-and-skills-in-bulgaria_ac0229da-en.html

10. Organisation for Economic Co-operation and Development (OECD). (2017). Employment and Skills Strategies in Slovenia. OECD Publishing. Retrieved from https://www.oecd.org/en/publications/employment-and-skills-strategies-in- slovenia_g1g7db83-en.htm

11. OECD. (2025b). FDI-SME ecosystems to boost productivity and innovation. Organisation for Economic Co-operation and Development. Retrieved from

https://www.oecd.org/en/about/projects/fdi-sme-ecosystems-to-boost-productivity-and-innovation.html (pp. 3–15).

12. European Commission. (2023). Structural Business Statistics Database. Retrieved from https://ec.europa.eu/eurostat/web/structural-business-statistics

13. European Commission. (2020). SME Performance Review: Romania Country Report. Brussels: European Commission. Retrieved from https://single-market- economy.ec.europa.eu/sme-performance-review_en

14. Javorcik, B. (2004). "Does Foreign Direct Investment Increase the Productivity of Domestic Firms? In Search of Spillovers through Backward Linkages." American Economic Review, 94(3), 605–627. Retrieved from https://www.aeaweb.org/articles?id=10.1257/0002828041464605

15. Konings, J. (2001). "The Effects of Foreign Direct Investment on Domestic Firms." Economics of Transition, 9(3), 619–633. Retrieved from https://doi.org/10.1111/1468- 0351.00091

16. OECD. (2021). FDI Qualities Indicators: Measuring the Sustainable Development Impacts of Investment. OECD Publishing. Retrieved from https://www.oecd.org/investment/fdi-qualities-indicators.htm

17. UNCTAD. (2022). World Investment Report 2022: International Tax Reforms and Sustainable Investment. United Nations. Retrieved from https://unctad.org/webflyer/world-investment- report-2022

A.A.Nurkişiyeva
magistrant, Xəzər Universiteti
ORCID 0009-0000-1310-0877

Xarici birbaşa investisiyalar və KOS-larda iş yerlərinin yaradılması: Şərqi Avropadan nümunələr

Xülasə

Məqalə xarici birbaşa investisiyaların (FDI) Şərqi Avropada kiçik və orta sahibkarlıq subyektlərində (KOS) iş yerlərinin yaradılması ilə əlaqəsinə həsr olunub. Son regional hesabatlar, beynəlxalq statistika və elmi ədəbiyyata əsaslanaraq, məqalə FDI-nın KOS-larda əmək tələbinə təsir yollarını araşdırır. Tədqiqat göstərir ki, FDI ümumilikdə Şərqi Avropada KOS-larda məşğulluğa müsbət təsir göstərir və bu təsirlər ən güclü və ardıcıl şəkildə istehsal sahəsinə yönəlmiş ölkələrdə müşahidə olunur. İnstitut keyfiyyətindəki fərqlər, qeyd olunan sahələrin ümumi potensialı və KOS- ların struktur tərkibi ölkələrarası fərqlilikləri izah edir ki, FDI-nın təsiri fərqli səviyyələrdə görünür. Məqalə FDI-dan KOS-ların məşğulluq potensialını maksimum dərəcədə artırmaq üçün konkret siyasət tövsiyələri ilə yekunlaşır.

Açar sözlər: *FDI, KOS, Şərqi Avropa, məşğulluq.*

https://doi.org/10.58225/tim.2025-4-505-511

A.M.Hüseynov
i.e.n., dosent, Azərbaycan Dövlət İqtisad Universiteti
ORCID 0000-0002-0320-0740
azerhuseynov61@gmail.com
M.E.Nəzərov
doktorant, Azərbaycan Dövlət İqtisad Universiteti
ORCID 0009-0003-2852-3081
ig_em@mail.ru

Məqalə redaksiyaya daxil olub 20.11.2025
The article was received by editorial board on 20.11.2025
Статья принята к печати 20.11.2025

İNSAN KAPITALI: İNVESTİSİYA VƏ SƏMƏRƏLİLİK MƏSƏLƏLƏRİ

Xülasə

Müasir mərhələdə insan kapitalının keyfiyyəti həm iqtisadi inkişafın, həm də sosial rifahın əsas dayağı kimi qiymətləndirilir. Təhsil isə insan kapitalına yönələn ən strateji investisiya forması hesab olunur, çünki o, gənclərin bilik, bacarıq və səriştə səviyyəsini yüksəldir, onları gələcək əmək bazarında iştirak üçün hazırlayır.

Azərbaycanda 2021-ci ildə təsis edilmiş Tələbə Təhsil Krediti Fondu insan kapitalının inkişafına xidmət edən mühüm institusional islahat kimi çıxış edir. Fond, maliyyə imkanları məhdud olsa da, ali və orta ixtisas təhsili almaq niyyəti və potensialı olan gənclər üçün bərabər təhsil imkanları təmin edir. Faizsiz və güzəştli kredit mexanizmləri vasitəsilə minlərlə tələbəyə təhsilə çıxış imkanı yaradılır ki, bu da onlara iqtisadi çətinliklərdən azad şəkildə akademik fəaliyyətlərinə fokuslanmağa şərait yaradır. Məzunlar təhsillərini tamamladıqdan sonra bir illik güzəşt dövründən sonra kreditlərini on ilədək müddətdə geri qaytarırlar.

Bu sistem tələbələrin peşəkar inkişafını dəstəkləməklə yanaşı, bilikli və səriştəli işçi qüvvəsinin formalaşmasına, iqtisadiyyatın real sektorunda məhsuldarlığın yüksəldilməsinə mühüm töhfə verir. Bununla yanaşı, SELF sosial ədalət və bərabərliyi təşviq edir, peşə ixtisaslaşmasını stimullaşdırır və ölkədə insan kapitalının davamlı inkişafında strateji əhəmiyyət kəsb edir. Ümumilikdə, Fond təhsil imkanlarının iqtisadi artım və milli rəqabət qabiliyyəti ilə uzlaşdırılmasını təmin edən səmərəli model kimi qiymətləndirilə bilər.

Açar sözlər: *insan kapitalı, təhsil, tələbə təhsil kredit fondu, peşə hazırlığı, iqtisadi inkişaf, işçi qüvvəsinin məhsuldarlığı.*

GİRİŞ

İqtisadiyyat elminin əsas anlayışlarından biri olan insan kapitalı, fərdlərin müəyyən zaman kəsiyində həyata keçirdikləri investisiyalar nəticəsində formalaşan yaradıcı qabiliyyətlərini, şəxsi keyfiyyətlərini və motivasiya səviyyəsini əhatə edən kateqoriya kimi izah olunur. Bu növ kapital gələcəkdə milli iqtisadiyyatda gəlir və əlavə dəyər yaratmaq məqsədilə istifadə edilir. "İnsan kapitalı" anlayışı müasir cəmiyyətin inkişaf istiqamətlərini dəyərləndirmək baxımından əsas göstəricilərdən biri sayılır və xüsusilə də müasir Azərbaycan üçün xüsusi əhəmiyyət daşıyır.

Müasir dövrdə təşkilatların, regionların, dövlətlərin və fərdlərin rəqabət qabiliyyətini müəyyənləşdirən başlıca amil insan kapitalının səviyyəsidir. Bu səviyyə, bilik, bacarıq, fiziki sağlamlıq və innovasiya potensialına yönəldilmiş investisiyaların nəticələrinin kompleks qiymətləndirilməsi ilə ölçülür.

TƏHLİL

Son illərdə Azərbaycanda insan kapitalının formalaşması və onun səmərəli istifadəsi istiqamətindəki tendensiyalar elmi araşdırmalarda xüsusi aktuallıq qazanmışdır. İnsan kapitalı əhalinin gəlir səviyyəsinin yüksəldilməsinə mühüm təsir göstərir, onun inkişaf səviyyəsinin artması isə təşkilatların rəqabət qabiliyyətinin güclənməsinə və ümumi milli rifahın yüksəlməsinə səbəb olur. İnsan kapitalının formalaşma prosesi çoxşaxəli olub, müxtəlif istiqamətlərdə fəaliyyət göstərən amillərin qarşılıqlı təsiri nəticəsində həyata keçirilir və fərdin həyat dövrünün bütün mərhələlərini əhatə edir.

İnsan kapitalının strukturu və keyfiyyət göstəriciləri iqtisadi artım templərinə, həmçinin əhalinin sosial-iqtisadi rifah səviyyəsinin yaxşılaşmasına birbaşa təsir edir. Bu səbəbdən, insan kapitalının strukturunu və onun keyfiyyətli formalaşmasına töhfə verən amilləri nəzərə alan müasir elmi yanaşmaların işlənib hazırlanması və tətbiqi mühüm əhəmiyyət daşıyır. İnsan kapitalının inkişafına təsir göstərən əsas determinantlar barədə analitik məlumatların toplanası və təhlili isə strateji qərarların qəbulunda vacib rol oynayır. [1]

Hazırda həm Azərbaycanda, həm də beynəlxalq miqyasda insan kapitalının formalaşdırılması, möhkəmləndirilməsi və davamlı inkişafı məsələlərinə xüsusi önəm verilir. Bu amil müasir iqtisadiyyatın ən mühüm sosial-mədəni determinantlarından birinə çevrilmişdir. Azərbaycanda həyata keçirilən sosial-iqtisadi islahatların əsas məqsədi ölkə vətəndaşlarının rifah səviyyəsinin yüksəldilməsidir. Prezident İlham Əliyevin vurğuladığı kimi, insan kapitalının inkişafı, Azərbaycan vətəndaşlarının sosial-iqtisadi rifahının yaxşılaşdırılması və ölkənin yüksək inkişaf etmiş dövlətlər sırasında mövqeyinin möhkəmləndirilməsi həyata keçirilən çoxşaxəli islahatların başlıca istiqamətlərindəndir.

Bazar iqtisadiyyatının formalaşması cəmiyyətdə yeni iqtisadi düşüncə tərzi və davranış modelləri yaratmışdır. Müasir əmək bazarında işəgötürənlərin tələbləri yalnız əməkdaşın təhsil səviyyəsinə deyil, eyni zamanda onun yaşı, sağlamlıq vəziyyəti və praktiki bacarıqlarına da yönəlmişdir. İşə qəbul prosesində sahibkarlar daha çox peşəkar biliklərə, iş təcrübəsinə və adaptasiya qabiliyyətinə malik namizədlərə üstünlük verirlər. [2]

Sağlamlıq kapitalı yalnız bilik və bacarıqların sürətli və keyfiyyətli şəkildə mənimsənilməsində deyil, həm də həmin bacarıqların uzunmüddətli istifadəsində öz əhəmiyyətini göstərir və daha çox dəyər yaratmaq potensialı formalaşdırır. Müəyyən dövrdə qorunub saxlanılan sağlamlıq kapitalı insanın əmək qabiliyyətinin daha uzun müddət davam etməsini təmin edir. İnsan kapitalının mühüm tərkib hissəsi olan sağlamlıq kapitalı bir sıra fərqli xüsusiyyətlərlə səciyyələnir.

Birincisi, təhsil kapitalından fərqli olaraq, sağlamlıq kapitalı qısa müddət ərzində bərpa edilə bilmir. İkincisi, sağlamlıq kapitalı xarici təsirlərə qarşı olduqca həssasdır, halbuki əldə olunmuş təhsil kapitalı sağlam fərd üçün uzunmüddətli dövrdə "yaşaya" bilir. Üçüncüsü, sağlamlıq kapitalının səviyyəsi fərdin genetik xüsusiyyətlərindən asılı olaraq müəyyən həddən yuxarı inkişaf edə bilmir, halbuki təhsil kapitalı nəzəri baxımdan sonsuz dərəcədə artırıla bilər.

Elmi araşdırmaların nəticələrinə əsasən, insan sağlamlığının yalnız 8–10%-i səhiyyə sisteminin fəaliyyətindən, 20%-i ətraf mühit amillərindən, 20%-i genetik göstəricilərdən, təxminən 50%-i isə fərdin həyat tərzindən asılıdır. [4]

İnsan kapitalının formalaşmasına və inkişafına təsir edən əsas amillərdən biri əhalinin sağlamlıq xidmətlərinin inkişaf səviyyəsidir ki, bu da insanların sağlam həyat şəraitinin təmin edilməsində həlledici rol oynayır. Səhiyyə sektoruna yönəldilən investisiyalar – o cümlədən tibbi xidmətlərin tək-

milləşdirilməsi, xəstəliklərin profilaktikası, sağlam qidalanma və digər tədbirlər – mühüm əhəmiyyət daşıyır və insanların əmək qabiliyyətinin, fiziki sağlamlığının, eləcə də ömür uzunluğunun artmasına, nəticə etibarilə isə onların iqtisadi fəaliyyətə daha fəal şəkildə qoşulmasına şərait yaradır.

Əhalinin sağlamlıq səviyyəsi eyni zamanda sosial-iqtisadi inkişafın aparıcı amillərindən biri hesab olunur. Sağlam cəmiyyət təhsil almağa, əmək bazarında aktiv iştirak etməyə və həyat şəraitini yaxşılaşdırmağa daha çox meyil göstərir. Müstəqillik illərində Azərbaycanda səhiyyə sistemində mühüm müsbət dəyişikliklər müşahidə olunsa da, son illərdə bəzi mənfi meyillər də özünü göstərməkdə və artmaqda davam edir.

Bir ölkədə ümumi daxili məhsulun (ÜDM) adambaşına düşən həcminin artması, adətən, 1 000 canlı doğuşa düşən 5 yaşadək uşaqların ölüm göstəricisinin azalmasına gətirib çıxarır. Bu fakt iqtisadi rifah səviyyəsinin yüksəlməsi ilə əhalinin əsas sosial xidmətlərə – xüsusilə səhiyyə və təhsil imkanlarına – daha geniş çıxış əldə etməsi arasında sıx qarşılıqlı əlaqəni göstərir. Bununla belə, ÜDM-in artımı ilə uşaq ölüm göstəriciləri arasındakı münasibət tam determinəedici deyil; yəni yüksək iqtisadi göstəricilər hər zaman uşaq sağlamlığının və sosial rifahın avtomatik şəkildə yüksəlməsini təmin etmir. [6]

Məsələn, Qətər kimi yüksək gəlirli ölkələrdə adambaşına düşən ümumi daxili məhsul (ÜDM) təxminən 69 000 ABŞ dolları olsa da, 5 yaşadək uşaqların ölüm göstəricisi (6,8) Avropa dövlətləri və ABŞ-la müqayisədə daha yüksək səviyyədə qalır. Halbuki, bu ölkələrdə adambaşına ÜDM nisbətən aşağı olmasına baxmayaraq, uşaq ölüm göstəriciləri daha əlverişli nəticələr nümayiş etdirir. Oxşar vəziyyət Birləşmiş Ərəb Əmirlikləri üçün də xarakterikdir. Bu cür fərqliliklər göstərir ki, adambaşına ÜDM ilə 5 yaşadək uşaqların ölüm göstəriciləri arasında əlaqə mövcud olsa da, bu münasibət zəruri, lakin kifayət qədər amil deyil. Bu əlaqənin formalaşmasına səhiyyə xərclərinin həcmi və səmərəliliyi, tibbi xidmətlərin keyfiyyəti, əhalinin yaşayış şəraiti, qidalanma səviyyəsi, ekoloji mühit və digər sosial-iqtisadi göstəricilər mühüm təsir göstərir. [6]

Səhiyyə xərclərinin tərkibi, xüsusilə də məcburi tibbi sığortaya ayrılan pay, insan kapitalının formalaşması və inkişafında əsas həlqələrdən biridir. Məcburi tibbi sığortanın yüksək səviyyədə tətbiq olunduğu ölkələrdə uşaqların ölüm göstəriciləri adətən daha aşağı olur ki, bu da səhiyyə xidmətlərinin əhatə dairəsinin və keyfiyyət səviyyəsinin nə dərəcədə vacib olduğunu təsdiqləyir. Beləliklə, təkcə ÜDM-in yüksək olması deyil, həm də səhiyyə xərclərinin məqsədyönlü və səmərəli idarə olunması, resursların düzgün bölgüsü və xidmət keyfiyyətinin yüksəldilməsi uşaq ölüm göstəricilərinin azaldılmasında əsas amil kimi çıxış edir.

Lakin insan kapitalı göstəriciləri və uşaq ölüm səviyyələri, məcburi tibbi sığortanın payı oxşar olan ölkələr arasında belə, ciddi fərqlər göstərə bilər. Məsələn, Kanada və Burundi-də məcburi tibbi sığortaya ayrılan pay təxminən eyni — 1% civarındadır, lakin uşaqların ölüm göstəriciləri arasında kəskin fərqlər müşahidə olunur. Bu fakt onu göstərir ki, səhiyyə xərclərinin yalnız nisbəti deyil, həm də onların ümumi həcmi, investisiyaların istiqamətləri və tibbi xidmətlərin keyfiyyət səviyyəsi nəticələrin formalaşmasında həlledici rol oynayır. Eyni zamanda, uşaq ölüm göstəricilərinə əhalinin sosial-iqtisadi vəziyyəti, təhsil səviyyəsi, valideynlərin sağlamlıq haqqında bilikləri və ekoloji mühitin təmizliyi kimi əlavə amillər də əhəmiyyətli təsir göstərir. [7]

Ümumilikdə, səhiyyə xərclərinin miqyası və keyfiyyəti ilə insan kapitalının inkişafı arasında birbaşa qarşılıqlı asılılıq mövcuddur. Sağlamlıq kapitalının yüksəldilməsi təkcə uşaqların yaşama ehtimalını artırmaqla kifayətlənmir, həm də gələcək işçi qüvvəsinin fiziki və intellektual potensialının güclənməsinə şərait yaradır. Buna görə də, ölkələr üçün uşaq ölüm səviyyəsinin azaldılması, məcburi tibbi sığortanın və səhiyyə xərclərinin səmərəli idarə olunması sosial-iqtisadi inkişaf strategiyalarının mühüm tərkib hissəsi kimi qəbul edilməlidir. Belə yanaşma yalnız uşaqların həyatda qalma səviyyəsini artırmır, eyni zamanda uzunmüddətli perspektivdə insan kapitalının formalaşmasına və milli iqtisadiyyatın rəqabət qabiliyyətinin güclənməsinə töhfə verir.

Peşə təhsili sisteminin yenidən təşkili və bu sahədə çevik idarəetmənin təmin olunması məqsədilə 2018-ci ildə mövcud 21 peşə təhsili müəssisəsi birləşdirilərək 10 ixtisaslaşdırılmış peşə təhsili mərkəzi yaradılmış, nəticədə belə mərkəzlərin ümumi sayı 24-ə çatdırılmışdır. Mühəndis-pedaqoji heyətin diaqnostik qiymətləndirilməsi aparılmış və əməkhaqqının artırılması istiqamətində təşəbbüslər həyata keçirilmişdir. 60 peşə təhsili müəssisəsində fəaliyyət göstərən təxminən 2 min müəllim və istehsalat təlimi ustasının bilik və bacarıqları qiymətləndirilmiş, onların dərs yükü 1,5 dəfə, aylıq əməkhaqqısı isə orta hesabla iki dəfə artırılmışdır. Bu istiqamətdə tədbirlərin cari ildə də davam etdirilməsi nəzərdə tutulur. [7]

Beynəlxalq təcrübə əsasında peşə təhsili üçün yeni dövlət standartları qəbul edilmiş, nəticəyönümlü, modul əsaslı təhsil proqramları (kurikulumlar) 81 ixtisas üzrə hazırlanmışdır. Bununla yanaşı, 51 modul tədris vəsaiti və 55 dərslik tərtib edilmiş, 78 modul dərsliyin hazırlanması prosesi davam etdirilir. Peşə təhsili ixtisasları siyahısına 20-dən çox yeni ixtisas əlavə edilmiş və bu istiqamətlər üzrə kadr hazırlığına başlanılmışdır. Koreya İqtisadi İnkişaf və Əməkdaşlıq Fondu ilə bağlanmış Kredit Müqaviləsinə əsasən Bakı şəhərində müasir peşə təhsili mərkəzinin inşası yekunlaşmaq üzrədir. Mərkəz ən son texnoloji avadanlıqlarla təmin edilmiş, həmin avadanlıqlar Koreyadan gətirilərək quraşdırılmışdır. Burada sənaye və innovasiya sahələrinə yönəlmiş 8 istiqamət üzrə mütəxəssislərin hazırlanması planlaşdırılır. Mərkəzdə fəaliyyət göstərəcək 26 ixtisaslı mütəxəssis seçilmiş və onlar Koreyada üçaylıq ixtisasartırma təlimlərindən keçmişlər.

İşəgötürənlərlə sıx əməkdaşlıq əsasında həyata keçirilmiş pilot layihələr nəticəsində turizm və xidmət sektorunda məzunların 62,3%-i, informasiya texnologiyaları sahəsində 73%-i, xidmət sektorunda isə 68,4%-i işlə təmin edilmişdir. Strateji Yol Xəritəsinə uyğun olaraq, peşə təhsilinin əhatə dairəsinin genişləndirilməsi, daha çox məzunun bu səviyyədə təhsilə cəlb edilməsi, qeyri-formal yolla əldə olunmuş bacarıqların tanınması, tədris proqramlarının yenilənməsi, mühəndis-pedaqoji heyətin fəaliyyətinin qiymətləndirilməsi və stimullaşdırılması, eləcə də peşəkarlıq səviyyəsinin yüksəldilməsi istiqamətində tədbirlər növbəti illərdə davam etdiriləcəkdir.

Müasir dövrdə insan kapitalının keyfiyyəti iqtisadi inkişaf və cəmiyyətin rifahının əsas dayaqlarından biri kimi qiymətləndirilir. İnsan kapitalının formalaşması və inkişafı uzunmüddətli iqtisadi siyasətin mərkəzində yer tutur, çünki yüksək səviyyəli insan kapitalı əmək məhsuldarlığının artmasına, innovasiyaların tətbiqinə və ölkənin rəqabət qabiliyyətinin güclənməsinə birbaşa təsir göstərir. Bu baxımdan, insan kapitalına yönələn investisiyaların səmərəliliyi strateji əhəmiyyət kəsb edir. Təhsil isə bu investisiyanın ən əsas və strateji formasıdır, çünki onun vasitəsilə gənclərin bilik, bacarıq və kompetensiyaları inkişaf etdirilir və onlar gələcək işçi qüvvəsi kimi daha hazırlıqlı formalaşırlar.

Bu məqsədlə, 2021-ci ildə Azərbaycanda yaradılmış Tələbə Təhsil Kredit Fondu insan kapitalının inkişafına xidmət edən mühüm institusional islahatlardan biri kimi qiymətləndirilir. Fond maliyyə imkanları məhdud, lakin təhsil almaq istəyən və potensialı olan gənclərin təhsil imkanlarına bərabər çıxışını təmin edir. Tələbə Təhsil Kredit Fondu tərəfindən təqdim olunan faizsiz (sosial) və güzəştli (az faizli) təhsil kreditləri minlərlə gəncin ali və orta ixtisas təhsili almaq imkanını genişləndirir. Bu mexanizm yalnız maliyyə maneələrini aradan qaldırmır, həm də gənclərin akademik bilik və bacarıqlarını maksimum səviyyədə inkişaf etdirməsinə şərait yaradır.

Kreditlərin qaytarılmasına tələbələr təhsilini başa vurduqdan sonra bir illik güzəşt müddətindən sonra başlayır və bu müddət maksimum 10 ilədək davam edə bilər. Bu yanaşma tələbələrin təhsil müddətində iqtisadi təzyiqlərdən qorunmasını təmin edir və onların yalnız elmi fəaliyyətə fokuslanmasına imkan yaradır. Təhsil kreditləri vasitəsilə ali və ya peşə təhsili alan gənclər sahələrinə uyğun ixtisaslaşaraq əmək bazarına daha hazırlıqlı daxil olurlar. Nəticədə, bu sistem iqtisadiyyatın real sektorunda məhsuldarlığın yüksəlməsinə, bilikli və innovativ işçi qüvvəsinin formalaşmasına və milli iqtisadiyyatın uzunmüddətli inkişafına töhfə verir. [8]

Tələbə Təhsil Kredit Fondunun tətbiq etdiyi model həmçinin sosial bərabərliyi təşviq edir və cəmiyyətin geniş təbəqələrinə təhsil imkanlarını açır. Bu mexanizm gənclərin peşəkar bacarıqlarının artırılmasına, gələcəkdə iş bazarında rəqabət qabiliyyətinin yüksəlməsinə və ölkədə bilikli və sərişləli kadr potensialının formalaşmasına şərait yaradır. Beləliklə, Tələbə Təhsil Kredit Fondu yalnız tələbələr üçün maliyyə dəstəyi mexanizmi olmaqla kifayətlənmir, eyni zamanda Azərbaycanın insan kapitalının strateji inkişafına yönəlmiş uzunmüddətli investisiya platforması rolunu da daşıyır.

Azərbaycanın əmək bazarına baxdıqda, informasiya texnologiyaları (İT) sektorunda çalışanların sayının son iyirmi il ərzində davamlı artdığı müşahidə olunur. 2000-ci ildə bu sahədə təxminən 28,5 min nəfər fəaliyyət göstərirdisə, 2010-cu ildə sayı 55,8 minə, 2015-ci ildə 60,3 minə, 2021-ci ildə isə 62,4 min nəfərə çatmışdır. Bu göstəricilər göstərir ki, İT sektorunda çalışanların sayı 21 il ərzində iki dəfədən çox artmışdır. Bununla belə, 2021-ci ildə İT sektorunda çalışanların ümumi əhali içində payı yalnız 1,3% təşkil etmişdir. Müqayisə üçün qeyd etmək lazımdır ki, inkişaf etmiş ölkələrdə bu göstərici adətən 3–10% intervalında dəyişir. [9]

2022-ci ildə Azərbaycan Respublikasında iqtisadi fəaliyyət növləri üzrə yaradılan yeni iş yerlərinin 2,5%-i informasiya yönümlü sahələrdə formalaşmışdır. Lakin, əvvəlki illə müqayisədə İT sektorunda yeni iş yerlərinin artımı zəif olmuşdur ki, bu da ölkədə İKT sahəsinin potensialının tam şəkildə reallaşmadığını göstərir. Bu baxımdan, iqtisadiyyatın şaxələndirilməsi, yeni peşə sahələrinin yaradılması və yüksək texnologiyalı iş yerlərinin təşkili dövlət siyasətində prioritet istiqamətlərdən biri kimi qəbul edilir.

Müasir dövrdə dünya ölkələrinin əksəriyyətinin inkişaf strategiyaları informasiya və kommunikasiya texnologiyaları (İKT) tətbiqinə əsaslanır. Qlobal rəqabət qabiliyyəti, əmək məhsuldarlığı və dayanıqlı inkişaf sürətli İKT tətbiqi, innovasiyaların davamlı izlənməsi və çevik adaptasiyası ilə birbaşa bağlıdır. Bu vəziyyət göstərir ki, informasiya texnologiyaları yalnız iqtisadi sektor üçün deyil, həm də cəmiyyətin ümumi inkişafı üçün strateji əhəmiyyət daşıyır. [8]

Hazırda Azərbaycanın dövlət gəlirlərinin böyük hissəsi enerji sektoruna təsadüf edir ki, bu da uzunmüddətli perspektivdə iqtisadiyyatın dayanıqlılığı və rəqabət qabiliyyəti üçün müəyyən risklər yaradır. Bu səbəbdən, qeyri-neft sektorunun, xüsusilə də İKT sahəsinin inkişafı istiqamətində ciddi tədbirlər həyata keçirilir. Strateji yol xəritələri və dövlət proqramları çərçivəsində məqsəd yalnız yeni iş yerlərinin yaradılması deyil, həm də ölkəni Qafqaz regionunda informasiya texnologiyaları mərkəzinə çevirməkdir.

İKT sektorunun inkişafı insan kapitalının keyfiyyətinə birbaşa təsir göstərir. Bu sahədə çalışan mütəxəssislərin sayının artması ölkədə bilikli və ixtisaslı işçi qüvvəsinin formalaşmasına şərait yaradır, əmək məhsuldarlığını yüksəldir və iqtisadi artımı stimullaşdırır. Eyni zamanda, gənclərin İKT sahəsində peşəkar təhsil alması və ixtisaslaşması onların əmək bazarında rəqabət qabiliyyətini artırır, innovativ layihələrdə iştirakını təmin edir və texnoloji biliklərin ölkədə tətbiqinə imkan yaradır.

Nəticə etibarilə, İKT sektorunun inkişafı Azərbaycan üçün strateji əhəmiyyət daşıyır. Dövlət proqramları və strateji yol xəritələrinin məqsədi yalnız iqtisadi şaxələndirmə və yeni peşə sahələrinin təşkili deyil, həm də insan kapitalının keyfiyyətinin yüksəldilməsi, innovasiya potensialının artırılması və Azərbaycanın regional rəqabət qabiliyyətinin təmin edilməsidir. Bu istiqamətdə görülən tədbirlər həm milli iqtisadiyyatın dayanıqlı inkişafına, həm də gənclərin yüksək texnologiyalı və perspektivli peşələrə cəlb olunmasına xidmət edir.

NƏTİCƏ

Müasir dövrdə insan kapitalının keyfiyyəti iqtisadi inkişaf və cəmiyyətin rifahı üçün əsas amillərdən biri hesab olunur. Təhsil insan kapitalına yönələn investisiyaların ən strateji və səmərəli formasıdır, çünki o, gənclərin bilik, bacarıq və kompetensiyalarını artırır və gələcək işçi qüvvəsinin daha hazırlıqlı formalaşmasını təmin edir.

Azərbaycan Respublikasında 2021-ci ildə yaradılmış Tələbə Təhsil Kredit Fondu insan kapitalının inkişafına yönəlmiş mühüm institusional islahat kimi qiymətləndirilir. Fondun fəaliyyət mexanizmi maliyyə imkanları məhdud, lakin təhsil almaq istəyən və potensialı olan gənclərə ali və orta ixtisas təhsili alma imkanları təqdim edir. Faizsiz və güzəştli kreditlər vasitəsilə minlərlə tələbə təhsilini davam etdirir, akademik fəaliyyətə tam fokuslana bilir və gələcəkdə sahələrinə uyğun ixtisaslaşaraq əmək bazarına daha hazırlıqlı şəkildə daxil olurlar. [10]

Tələbə Təhsil Kredit Fondunun tətbiq etdiyi kredit sistemi həmçinin sosial bərabərliyin təmin edilməsinə xidmət edir, gənclərin peşəkar bacarıqlarının artırılmasına və ölkədə bilikli, səriştəli işçi qüvvəsinin formalaşmasına şərait yaradır. Beləliklə, Fond yalnız tələbələr üçün maliyyə dəstəyi mexanizmi olmaqla kifayətlənmir, eyni zamanda Azərbaycanın insan kapitalının strateji inkişafına yönəlmiş uzunmüddətli investisiya platforması kimi mühüm rol oynayır.

Nəticə etibarilə, Tələbə Təhsil Kredit Fondunun fəaliyyəti iqtisadiyyatın real sektorunda məhsuldarlığın yüksəlməsinə, innovativ və bilikli işçi qüvvəsinin formalaşmasına və milli iqtisadiyyatın dayanıqlı və uzunmüddətli inkişafına mühüm töhfə verir. Bu yanaşma gənclərin təhsil imkanlarına bərabər çıxışını təmin etməklə, ölkədə insan kapitalının keyfiyyətinin artırılmasında strateji əhəmiyyət daşıyır.

İstifadə edilmiş ədəbiyyat:

1. Əliyev, A.G. (2019). Sabit inkişaf üçün informasiya iqtisadiyyatında yaşıl texnologiyaların tətbiqi problemləri və həll istiqamətləri. European Journal of Sustainable Development, 8(1), 264–280.

2. Əliyev, A.G., & Şahverdiyeva, R.O. (2018). Dördüncü sənaye inqilabının informasiya iqtisadiyyatı sahələrinin və innovativ strukturların inkişafına təsirinin öyrənilməsi. Problems of Information Society, 2, 52–64.

3. Davenport, T.H. (2013). Proses innovasiyaları: məlumat texnologiyaları vasitəsilə işlərin yenidən təşkili. Harvard Business Press.

4. Nambisan, S. (2017). Rəqəmsal sahibkarlıq: sahibkarlığın rəqəmsal texnologiya perspektivinə doğru. Entrepreneurship Theory and Practice, 41(6), 1029–1055.

5. Chu, S., & Li, X. (2018). Rəqəmsal texnologiyanın müəssisə performansına təsiri: rəqəmsal iqtisadiyyatdan sübutlar. Journal of Business Research, 95, 184–195.

6. Kotler, P., & Keller, K.L. (2016). Marketinqin idarə olunması. Pearson.

7. OECD. (2017). Rəqəmsal iqtisadiyyatın perspektivləri. http://dx.doi.org/10.1787/9789264276284-en

8. Zhang, J., Zhao, W., Cheng, B., Li, A., Wang, Y., Yang, N., & Tian, Y. (2022). COVID-19 sonrası dövrdə rəqəmsal iqtisadiyyatın iqtisadi artım və inkişaf strategiyalarına təsiri: "Bir kəmər, bir yol" ölkələri üzrə sübutlar. Frontiers in Public Health, 10, 1–17.

9. Əliyev, A.G. (2019). İnformasiya iqtisadiyyatında inklüziv inkişaf səviyyəsinin qiymətləndirilməsi üçün göstəricilər sisteminin hazırlanması. In The 13th IEEE International Conference on Application of Information and Communication Technologies (AICT) (pp. 276–279). Bakı, Azərbaycan, 23–25 Oktyabr 2019.

10. Gandhi, P., Khanna, S., & Ramaswamy, S. (2016, April). Hansı sənayelər ən rəqəmsaldır (və niyə)? Harvard Business Review.

İnternet resursları

1. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi. (n.d.). İnsan kapitalı. https://economy.gov.az/az/page/insan-kapitali

2. Harvard Business Review Türkiye. (2022). İnsan kaynaklarında yeni perspektiflər zirvəsi 2022. https://webinar.hbrturkiye.com/record/insan-kaynaklarinda-yeni-perspektifler-zirvesi-2022?lang=tr

3. Öner Bilişim. (n.d.). İnsan sərmayəsi yönetimi (Human Capital Management - HCM) nədir? https://onerbilisim.com/insan-sermayesi-yonetimi-human-capital-management-hcm-nedir/

A.M.Huseynov
Candidate of Economic Sciences, Associate Professor,
Azerbaijan State University of Economics
ORCID 0000-0002-0320-0740
M.E.Nazarov
PhD student, Azerbaijan State University of Economics
ORCID 0009-0003-2852-3081

Human capital: investment and efficiency issues

Abstract

In the modern era, the quality of human capital is recognized as a fundamental pillar of economic development and social well-being. Education represents the most strategic form of investment in human capital, as it enhances the knowledge, skills, and competencies of young individuals, preparing them for future participation in the labor market.

In Azerbaijan, the Student Education Loan Fund (SELF), established in 2021, constitutes a significant institutional reform aimed at fostering human capital development. The Fund provides equal educational opportunities for young people who have financial constraints but possess the desire and potential to pursue higher and secondary specialized education. Through interest-free and preferential loans, thousands of students gain access to education, allowing them to focus on academic activities without economic pressures. After completing their studies, graduates repay the loans over a period of up to ten years following a one-year grace period.

This mechanism not only facilitates the professional development of students but also contributes to the formation of a knowledgeable and skilled workforce, enhancing productivity in the real sector of the economy. Furthermore, SELF promotes social equity, supports vocational specialization, and plays a strategic role in the long-term development of human capital in Azerbaijan. Overall, the Fund represents an effective model for aligning educational opportunities with economic growth and national competitiveness.

Keywords: *human capital, education, Student Education Loan Fund (SELF), vocational training, economic development, workforce productivity.*

https://doi.org/10.58225/tim.2025-4-512-520

M.E.Nəzərov
doktorant, Azərbaycan Dövlət İqtisad Universiteti
ORCID 0009-0003-2852-3081
ig_em@mail.ru

Məqalə redaksiyaya daxil olub 20.11.2025
The article was received by editorial board on 20.11.2025
Статья принята к печати 20.11.2025

AZƏRBAYCANDA İNSAN KAPITALININ FORMALAŞMASINA TƏSİR EDƏN SOSİAL-İQTİSADİ AMİLLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ

Xülasə

Məqalədə Azərbaycanda insan kapitalının formalaşmasına təsir edən sosial-iqtisadi amillərin qiymətləndirilməsi aparılmışdır. Araşdırmada təhsil, səhiyyə və əmək miqrasiyası kimi əsas komponentlərin insan kapitalının inkişafında oynadığı rol təhlil edilmişdir. Təhsil səviyyəsinin yüksəldilməsi, səhiyyə xidmətlərinin keyfiyyətinin artırılması və sosial rifahın təmin edilməsi iqtisadi artımın mühüm amilləri kimi müəyyənləşdirilmişdir. Tədqiqatda 2002–2023-cü illər üzrə dövlət və ailə büdcəsindən insan kapitalına yönəldilən xərclərin ÜDM, neft qiymətləri, yoxsulluq səviyyəsi və adambaşına gəlir göstəriciləri ilə qarşılıqlı əlaqəsi Pearson korrelyasiya və avtokorrelyasiya metodları əsasında qiymətləndirilmişdir.

Açar sözlər: *insan kapitalı, təhsil xərcləri, səhiyyə xərcləri, dövlət siyasəti.*

GİRİŞ

İnsan kapitalı, istehsal amillərinin daha səmərəli istifadəsini təmin edən mühüm bir faktor olaraq, əhalinin keyfiyyəti, say tərkibi, peşə bilikləri, sağlamlıq durumu və sosial əlaqələrinin vəhdətindən ibarətdir. Bu kapital növü zamanla fiziki kapitaldan ayrılaraq müstəqil bir istehsal elementi kimi formalaşmışdır. İnformasiya cəmiyyətində bilik əsas istehsal faktoru hesab olunduqca, fiziki kapital və təbii ehtiyatların əhəmiyyəti getdikcə azalır, əvəzində insan kapitalı və bilik istehsalı daha vacib mövqeyə yüksəlir.

İnsan kapitalının toplanmasına təsir göstərən başlıca amillər üç əsas sahədə cəmlənir: təhsil, səhiyyə və əmək miqrasiyası. Bu amillər insan kapitalının formalaşmasına və inkişafına birbaşa təsir edir.

TƏHLİL

Təhsil və insan kapitalı arasında sıx əlaqə mövcuddur. Təhsil işçi qüvvəsinin ixtisaslaşmasında mühüm rol oynayan əsas amillərdəndir. Bu səbəbdən bir çox tədqiqat insan kapitalını təhlil edərkən məhz təhsili əsas götürür və bu iki anlayışı çox zaman sinonim kimi təqdim edir (Atik, 2006: s.20).

Bir ölkədə təhsil səviyyəsini müəyyən edən əsas göstəricilər arasında təhsil statistikası, ümumi təhsil səviyyəsi, maddi və fiziki resurslar, eləcə də savadlılıq dərəcəsi yer alır (Karagül, 2002: s.39). Təhsil statistikası əhalinin müxtəlif təhsil pillələri üzrə bölgüsünü əks etdirir. Təhsil səviyyəsi göstəricisi isə adətən orta təhsil müddəti ilə ölçülür. Maddi göstəricilər təhsilə ayrılan maliyyə vəsaitlərini, xüsusilə də ÜDM-də təhsil xərclərinin payını və adambaşına düşən təhsil xərcini əhatə edir. Bu göstəricilər, eyni zamanda, ölkələr arasında müqayisə aparmaq üçün əsaslı baza yaradır.

Fiziki göstəricilər dedikdə tələbə və müəllim sayı, onların qarşılıqlı nisbəti, məktəb və texniki təchizat (laboratoriyalar, kompüterlər və s.) nəzərdə tutulur. Savadlılıq səviyyəsi isə ölkənin ümumi təhsil göstəricilərini və insan kapitalı fondunun dərəcəsini qiymətləndirmək üçün istifadə edilən ən sadə, lakin əhəmiyyətli indikatorlardan biridir (Atik, 2006: s.21).

Azərbaycanda təhsil sahəsində işləyənlərin sayına gəldikdə 2019-2020-ci illərdə dövlət ali təhsil müəssisələrində professor - müəllim heyətinin say tərkibi 13578 nəfər olmuşdur (Cədvəl 1).

Cədvəl 1


Dövlət ali təhsil müəssisələrində professor-müəllim heyətinin sayı (tədris ilinin əvvəlinə; min nəfər)

	2018/2019	**2019/2020**
Ali təhsil müəssisələrində professor-müəllim heyətinin sayı (əsas heyət) - cəmi	13477	13578
onlardan:		
elmi dərəcəsi olanlar:		
elmlər doktoru	1176	1107
fəlsəfə doktoru	5499	5519
elmi adı olanlar:		
Professor	1078	1039
Dosent	3637	3878

Mənbə: *https://www.stat.gov.az/source/education/*

Elm və Təhsil Nazirliyi tərəfindən həyata keçirilən "2022–2026-cı illərdə gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair Dövlət Proqramı" çərçivəsində 2023–2024-cü tədris ili üçün prioritet ixtisas sahələrinə uyğun bakalavriat və magistratura səviyyələri üzrə nüfuzlu ali məktəblərin ilkin siyahısı müəyyən olunmuşdur.mBu siyahı, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq edilmiş Dövlət Proqramının icrası üzrə Tədbirlər Planının uyğun bəndinə əsasən razılaşdırılmışdır. Proqramın həyata keçirilməsi zamanı nəzərə alınmışdır ki, xaricdə ayrılan təhsil yerlərinin azı 80 faizi magistratura pilləsini əhatə edəcək.

Diaqram 1. 2022–2026-cı illərdə magistratura səviyyəsində prioritet sahələr üzrə Dövlət Proqramı



Mənbə: *https://edu.gov.az*

Müvafiq olaraq, siyahıya 15 prioritet ixtisas sahəsi üzrə dünyanın 28 ölkəsində yerləşən 186 nüfuzlu ali təhsil müəssisəsində tədris olunan 4.126 təhsil proqramı daxil edilmişdir. Bu proqramlardan 575-i bakalavriat, 3.551-i isə magistratura səviyyəsinə aiddir. Prioritet sahələrə informasiya texnologiyaları, mühəndislik, statistika və verilənlərin analizi, fundamental və tətbiqi elmlər, ictimai səhiyyə, təhsil, ətraf mühitin mühafizəsi, aviasiya və kosmos, dövlət idarəçiliyi, nəqliyyat və logistika, energetika, iqtisadiyyat, maliyyə, arxitektura və dizayn, eləcə də kənd təsərrüfatı daxildir.

Bakalavriat səviyyəsində təqdim olunan ümumilikdə 575 təhsil proqramının 33%-i fundamental və tətbiqi elmlər, 22%-i mühəndislik, 20%-i isə informasiya texnologiyaları sahələrini əhatə edir. Magistratura səviyyəsində isə 3.551 proqram arasında ən böyük payı fundamental və tətbiqi elmlər (24%) tutur. Bundan əlavə, mühəndislik üzrə proqramlar 19%, informasiya texnologiyaları 12% və statistika ilə verilənlərin təhlili sahəsi 10% paya malikdir.

Səhiyyə və insan kapitalı. Sağlamlıq amili insan kapitalının mühüm komponentlərindən biri kimi Mushkin (1962), Becker (1964) və Grossman (1999) tərəfindən ön plana çəkilmişdir. Fərdin təhsil almaq və iqtisadi fəaliyyətlərdə iştirak etmək qabiliyyətinin formalaşmasında sağlamlıq əsas şərtlərdən biridir. Beləliklə, sağlam əhali cəmiyyətin insan kapitalının inkişafında həlledici rol oynayır (Atik, 2006: s.21).

Son illərdə Azərbaycan Respublikasında aparılan məqsədyönlü və uğurlu iqtisadi siyasət, əhalinin tibbi xidmətlərə çıxış imkanlarının genişləndirilməsi və bu xidmətlərin beynəlxalq standartlara uyğunlaşdırılması üçün əlverişli şərait formalaşdırmışdır. Bu istiqamətdə həyata keçirilən tədbirlər nəticəsində səhiyyə sisteminin maddi-texniki bazası əhəmiyyətli dərəcədə gücləndirilmişdir.

Səhiyyənin maliyyələşdirilməsi sahəsində aparılan islahatların əsas hədəfləri aşağıdakılardır:

- səhiyyə sisteminin maliyyələşdirilməsinin müasir və dayanıqlı iqtisadi əsaslar üzərində qurulması və bu yolla əhalinin tibbi xidmətlərdən istifadəsinin genişləndirilməsi;
- dövlət büdcəsindən səhiyyə sektoruna ayrılan vəsaitlərin daha səmərəli və məqsədyönlü istifadəsi nəticəsində göstərilən tibbi xidmətlərin keyfiyyətinin artırılması;
- əhalinin sağlamlıq göstəricilərinin yaxşılaşdırılması və orta ömür müddətinin uzadılması istiqamətində effektiv mexanizmlərin tətbiqi.

Son illərin statistik göstəriciləri göstərir ki, əhalinin tibbi xidmətlərə müraciət intensivliyi və göstərilən xidmətlərin sayı davamlı olaraq artır. Bu artım tendensiyası həm də icbari tibbi sığorta yığımlarında və səhiyyəyə ayrılan dövlət büdcəsi vəsaitlərində öz əksini tapır. Belə ki, 2024-cü il üçün səhiyyə xərcləri 1,87 milyard manata yüksəlib, icbari tibbi sığorta məqsədilə isə əlavə olaraq 2,8 milyard manatlıq vəsaitin ayrılması planlaşdırılıb. 2024-cü il ərzində icbari tibbi sığorta çərçivəsində 5.2 milyondan çox şəxs tibb müəssisələrinə 24.1 milyon dəfə müraciət edib. Bu o deməkdir ki, ölkə əhalisinin 54%-i icbari tibbi sığortadan yararlanıb. Göstərilən xidmət sayı isə 84.4 milyon olub. Tibbi xidmətlərin 87 %-i ambulator, 13 %-i stasionar şəraitdə göstərilib.

Hazırda ölkə vətəndaşları icbari tibbi sığorta çərçivəsində müəyyən olunmuş "Xidmətlər Zərfi"nə daxil olan təqribən 2.550 müxtəlif tibbi xidmətdən istifadə edə bilirlər. Bu xidmətlər 35 ilkin tibbi yardım xidməti, 6 təcili və təxirəsalınmaz tibbi xidmət, 508 ixtisaslaşdırılmış ambulator xidmət, 731 laboratoriya xidməti, 26 fizioterapiya proseduru, 39 invaziv radioloji xidmət və 1.205 stasionar tibbi xidməti əhatə edir.

Xəstəlik göstəriciləri: Azərbaycanda son illərdə aparılan səhiyyə islahatları və əhalinin tibbi xidmətlərə çıxış imkanlarının genişləndirilməsi xəstəlik göstəricilərinə birbaşa təsir etmişdir. Xəstəlik göstəriciləri səhiyyə sisteminin fəaliyyətinin effektivliyini qiymətləndirmək və əhalinin sağlamlıq vəziyyətini təhlil etmək üçün mühüm vasitədir. Bu göstəricilər xəstəliklərin yayılma (prevalensiya) və yeni yoluxma (insidensiya) səviyyələrini əhatə edir və həm yoluxucu, həm də qeyri-yoluxucu xəstəliklər üzrə aparılır.

Cədvəl 2

Xəstəlik sinifləri üzrə əhalinin xəstələnməsi

	2018	**2019**	**2020**	**2021**	**2022**	**2023**
			Nəfər			
Bütün xəstəliklər	**1 895 897**	**1 936 715**	**1 800 853**	**2 219 145**	**2 259 001**	**2 616 715**
onlardan:						
bəzi infeksion və parazitar xəstəliklər	119 954	120 031	168 322	208 019	171 040	205 790
yenitörəmələr	11 895	13 079	12 098	14 841	14 932	18 462
qan, qanyaradıcı orqanların xəstəlikləri və immun mexanizmin prosesə cəlb olunması ilə gedən ayrı-ayrı pozuntular	66 190	69 925	65 012	63 336	66 826	77 660
endokrin sistemin xəstəlikləri, maddələr mübadiləsi və qidalanma pozuntuları	49 566	49 126	45 106	51 777	62 577	75 610
psixi pozuntular və davranış pozuntuları	9 790	11 718	12 334	14 409	18 561	22 273
sinir sistemi xəstəlikləri	65 469	69 199	62 126	87 951	105 353	82 025
göz və gözün əlavə aparatının xəstəlikləri	76 952	80 393	72 471	103 231	119 936	119 094


Mənbə: *https://www.stat.gov.az/source/healthcare/*

Rəsmi məlumatlara görə, 2006-cı ilin sonu etibarilə Azərbaycan Respublikasının neft ehtiyatları 7 milyard barel (təxminən 1 milyard ton) təşkil etmiş və bu, dünya ehtiyatlarının 0,6%-ni əhatə etmişdir (Effimoff, 2000). İnsan kapitalına yatırılan investisiyalar baxımından iki əsas mənbə araşdırılmışdır: dövlət büdcəsi və ailə büdcəsi, hər ikisi 2002–2016-cı illər dövrünü əhatə edir.

Büdcə xərclərini aşağıdakı dörd qrupa bölmək olar:

1. təhsilə ayrılan ümumi xərclər;
2. səhiyyəyə ayrılan ümumi xərclər;
3. elmə ayrılan xərclər;
4. incəsənət və mədəniyyət, media və idmana ayrılan xərclər.

Qrafik 1. Son 14 ildə insan kapitalına dövlət xərcləri




Mənbə: *https://bakuresearchinstitute.org/on-human-capital-in-azerbaijan*

Şəkil 1a-da əks olunduğu kimi, son 14 il ərzində təhsilin inkişafına dövlət büdcəsindən ayrılan vəsaitlər təxminən 10 dəfə, səhiyyə sahəsinə yönəldilən maliyyə resursları isə 20 dəfə artmışdır. Həmçinin, incəsənət, mədəniyyət, media və idman sahələrinin maliyyələşdirilməsində də əhəmiyyətli artım müşahidə olunmuşdur (Chapman və digərləri, 2005). Lakin mütləq rəqəmlərdəki bu artıma baxmayaraq, insan kapitalının inkişafına yönəlmiş xərclərin dövlət büdcəsindəki nisbəti azalmağa meyl göstərmişdir. Belə ki, 2002-ci ildə bu xərclər büdcənin 29%-ni təşkil edərkən, 2015 və 2016-cı illərdə müvafiq göstəricilər 15.1% və 18.3%-ə qədər azalmışdır.


Şəkil 1b-də ailə büdcələrinin təhsil, səhiyyə, mədəniyyət və zərərli vərdişlərə yönəldilən xərcləri təsvir edilmişdir. Bu xərclərin artımı Azərbaycan cəmiyyətində ictimai şüurun formalaşması ilə yanaşı, təhsil və səhiyyə sahəsində qanunvericilikdə baş verən liberallaşma prosesləri ilə də əlaqələndirilir. Bu tendensiya dövlət və özəl sektor arasında vəsait bölgüsünün insan kapitalının inkişafına olan təsirini göstərir. Dünya Səhiyyə Təşkilatının məlumatlarına əsasən, 2013-cü ildə Azərbaycanda səhiyyə sahəsinə özəl xərclər adambaşına 758 beynəlxalq dollar təşkil etmişdir. Bu rəqəm, Şəkil 1b-də göstərilən ailə büdcəsindən səhiyyəyə ayrılan vəsaitlərdən ən azı üç dəfə çoxdur. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə Dünya Səhiyyə Təşkilatının birgə hesabatlarında da ailə büdcəsindən edilən rəsmi və qeyri-rəsmi ödənişlər arasındakı bu fərqlər açıq şəkildə qeyd olunur (Health expenditure, World Bank Data, 2013).

Şəkil 2-dən də görünür ki, dövlət büdcəsindən insan kapitalının formalaşmasına yönəldilən vəsaitlərin payı ailə büdcəsindən bu sahəyə ayrılan vəsaitlərlə müqayisədə xeyli yüksəkdir. Tədqiq olunan dövrdə dövlət büdcəsindən insan kapitalının inkişafına ayrılan pay 90%-dən 96%-ə qədər dəyişmişdir.

Qrafik 2. Dövlət büdcəsindən insan kapitalının formalaşmasına yönəldilmiş xərclər



Qrafik 3. Ümumi insan kapitalı xərclərinin ÜDM, ÜDM/neft qiyməti, yoxsulluq səviyyəsi və hər kapitala düşən illik gəlirlə müqayisəsi



Mənbə: *https://www.stat.gov.az/news/index.php*

Azərbaycan üzrə dövlət və ailə büdcələrinin insan kapitalının formalaşması və inkişafına yönəldilən ümumi xərclərinin bəzi makroiqtisadi göstəricilərlə qarşılıqlı təsirinin təhlili maraqlı nəticələr ortaya qoyur. Şəkil 3-də göstərildiyi kimi, insan kapitalına ayrılan ümumi xərclərin ÜDM, ÜDM/neftin qiyməti, yoxsulluq səviyyəsi və adambaşına illik gəlir kimi göstəricilərlə əlaqəsi əks olunmuşdur.

Son 14 il ərzində ölkənin ÜDM-i təxminən 10 dəfə artmışdır, lakin 2014-cü ildən sonra neft qiymətlərinin düşməsi səbəbindən ÜDM-də azalma qeydə alınmışdır. Bu dövrdə yoxsulluq səviyyəsi isə təxminən 10 dəfə azalmışdır. Həmçinin, adambaşına gəlirlər və insan kapitalına çəkilən xərclər müvafiq olaraq 8 və 11 dəfə artmışdır. Məsələn, 2003-cü ildə ölkə əhalisinin 49%-i milli yoxsulluq səviyyəsinin altında yaşadığı halda, 2016-cı ildə bu göstərici 5.3%-ə qədər azalmışdır (milli statistik məlumatlar). Bu inkişaf büdcə gəlirlərindən formalaşan və insan kapitalının inkişafına yönələn xərclərin yaratdığı əlavə gəlirlərin nəticəsi kimi qiymətləndirilir.

Cədvəl 3

İnsan kapitalı xərcləri ilə makroiqtisadi göstəricilər arasında əlaqənin Pearson əmsalı (r)

İnsan kapitalı üçün xərclər	**ÜDM (mln ABŞ dolları)**	**ÜDM/neftin qiyməti (mln ABŞ dolları)**	**İllik adambaşına düşən gəlir (ABŞ dolları)**	**Ölkədə yoxsulluq səviyyəsindən aşağı olan əhalinin payı, (%)**
Dövlət büdcəsinin xərcləri, milyon ABŞ dolları	0.9	0.81	0.95	-0.8
Ailə büdcəsi xərcləri, milyon ABŞ dolları	0.995	0.83	0.995	-0.92

Mənbə: OECD (2023). *Education at a Glance: OECD Indicators*

Qrafik 3-də göstərildiyi kimi, ÜDM insan kapitalına çəkilən xərclərdən təxminən 4 dəfə çoxdur ki, bu da ölkənin mövcud inkişaf modelini davam etdirmə potensialını ifadə edir. Cədvəl 8-də isə dövlət və ailə büdcəsindən insan kapitalına ayrılan xərclərlə ÜDM arasında yüksək korrelyasiya (mü-

vafiq olaraq r = 0.995 və r = 0.9) müəyyən edilmişdir. Bu güclü əlaqə və insan kapitalının ümumi faktor məhsuldarlığına dolayı təsiri Fleisher və həmkarlarının (2010) araşdırmasında da qeyd edilmişdir.

Digər tərəfdən, ÜDM/neftin qiyməti göstəricisi insan kapitalına çəkilən xərclərdən aşağı səviyyədədir. Ancaq ÜDM/neftin qiyməti ilə insan kapitalı xərcləri arasında da güclü korrelyasiya (r = 0.83) mövcuddur ki, bu da Azərbaycanın iqtisadiyyatının neft ehtiyatlarından asılı olduğunu göstərir.

Cədvəl 8 həmçinin dövlət və ailə büdcəsindən insan kapitalına ayrılan ümumi xərclərlə əhalinin gəlirləri arasında yüksək asılılıq olduğunu ortaya qoyur (r = 0.99). Bu nəticə təəccüblü deyil, çünki son illərdə təhsil və səhiyyə kimi insan kapitalının əsas sahələrinə investisiyalar artmışdır. Cədvəl 1-dən görünür ki, insan kapitalına çəkilən ümumi xərclərlə ailə gəlirləri arasında da yüksək korrelyasiya (r = 0.95) mövcuddur. Buna görə də, gəlirlərin azalması insan kapitalının inkişafına ayrılan xərclərə mənfi təsir göstərə bilər.

Bu problem insan kapitalı ilə yoxsulluq səviyyəsi arasında mövcud olan əks əlaqədə də özünü göstərir. Azərbaycanda yoxsulluq səviyyəsi ilə dövlət və ailə büdcəsindən insan kapitalına yönəlmiş xərclər arasında güclü mənfi korrelyasiya (r = -0.92 və r = -0.85) müşahidə edilir. İnsan kapitalının inkişafı yoxsulluğun azaldılması ilə birbaşa bağlıdır.

Cədvəl 2-də göstərilir ki, ən güclü qarşılıqlı əlaqə 2002 və 2004-cü illərdə qeydə alınmışdır. İnsan kapitalına yatırılan investisiyaların 3-5 il sonra nəticə verməsi ilə bağlı hipotezalar dəstəklənmir. Avtokorrelyasiya analizləri göstərir ki, bu investisiyalar təsirini daha qısa müddətdə göstərir. İstisna hal kimi, 2002-ci ildə ailə büdcəsindən insan kapitalına yönələn xərclərin təsiri yalnız 2 ildən sonra müşahidə olunmuşdur.

Cədvəl 4

İnsan kapitalı xərcləri və ÜDM, ÜDM/neft Qiyməti üzrə avtokorrelyasiya məlumatları

İnsan kapitalına ümumi xərclər, milyon ABŞ dolları	ÜDM (mln ABŞ dolları)	ÜDM/neft qiyməti
2002	0.97	0.83
2003	0.98	0.79
2004	0.89	0.88
2005	0.82	0.86
2006	0.746	0.78
2007	0.645	0.69
2008	0.578	0.37
2009	0.268	0.028

Mənbə: *International Monetary Fund (IMF). (2023). World Economic Outlook Database.*

NƏTİCƏ

Son illərdə Azərbaycan şirkətlərin ölkədə fəaliyyət göstərməsi üçün institusional, tənzimləyici və əməliyyat mühitini gücləndirərək investisiya mühitini yaxşılaşdırmaq üçün əhəmiyyətli islahatlar etmişdir. Bu cür islahatlar və proqramlar hökumətin sənayeni inkişaf etdirmək və ölkənin dünyada imicini yaxşılaşdırmaq səylərinin bir hissəsidir (http://www.oecd.org/eurasia, 2019)



Azərbaycan üçün İnsan Kapitalı İndeksinin dəyəri təxminən 0.64 təşkil edir ki, bu da ölkədə insan kapitalının inkişaf etdirilməsi üçün potensialın hələ də mövcud olduğunu göstərir. Son illərdə təhsil və səhiyyə sahələrində müəyyən irəliləyişlər əldə olunsa da, bu sahələrin daha da inkişaf etdirilməsi üçün əlavə islahatlara və investisiyalara ehtiyac qalır.

İstifadə edilmiş ədəbiyyat:

1. Atik, H. (2006). Human capital and economic growth. Ankara, Turkey: Nobel Academic Publishing.

2. Karagül, M. (2002). Beşeri sermaye ve ekonomik kalkınma ilişkisi. Istanbul, Turkey: Beta Publishing.

3. Mushkin, S.J. (1962). Health as an investment. Journal of Political Economy, 70(5), 129–157. https://doi.org/10.1086/258724

4. Becker, G.S. (1964). Human capital: A theoretical and empirical analysis. Chicago, IL: University of Chicago Press.

5. Grossman, M. (1999). The human capital model of the demand for health. Cambridge, MA: National Bureau of Economic Research. https://www.nber.org/papers/w7078

6. Effimoff, I. (2000). Economic development and education in transition countries. Moscow, Russia: Progress Publishers.

7. Chapman, B., Higgins, T., & Stiglitz, J. (2005). Financing higher education: Models and policy. London, UK: Routledge.

8. World Bank. (2013). Health expenditure (% of GDP). https://data.worldbank.org/indicator/SH.XPD.CHEX.GD.ZS

9. Azerbaijan State Statistics Committee. (n.d.). Statistical indicators. Baku, Azerbaijan. https://www.stat.gov.az

10. Ministry of Education of Azerbaijan. (n.d.). Education indicators. Baku, Azerbaijan. https://www.edu.gov.az

11. Baku Research Institute. (n.d.). Analytical reports. Baku, Azerbaijan. https://bakuresearchinstitute.org

M.E.Nazarov
PhD student, Azerbaijan State University of Economics
ORCID 0009-0003-2852-3081

Evaluation of socio-economic factors affecting the formation of human capital in Azerbaijan

Abstract

This article evaluates the socio-economic factors influencing the formation of human capital in Azerbaijan. The study analyzes the role of key components such as education, healthcare, and labor migration in the development of human capital. Improving the level of education, enhancing the quality of healthcare services, and ensuring social welfare have been identified as crucial drivers of economic growth. The research assesses the relationship between government and household expenditures on human capital and macroeconomic indicators - GDP, oil prices, poverty rate, and per capita income - for the period 2002–2023, using Pearson correlation and autocorrelation methods.

***Keywords**: human capital, education expenditures, healthcare expenditures, sate policy.*

https://doi.org/10.58225/tim.2025-4-521-527

M.S.Zeynalova
dissertant, Azərbaycan Texnologiya Universiteti

Məqalə redaksiyaya daxil olub 18.11.2025
The article was received by editorial board on 18.11.2025
Статья принята к печати 18.11.2025

YÜNGÜL SƏNAYEDƏ ENERJİ SƏRFİ, İNVESTİSİYALAR VƏ İSTEHSAL ƏLAQƏLƏRİNİN EKONOMETRİK TƏHLİLİ

Xülasə

Bu tədqiqatın əsas məqsədi Azərbaycanda yüngül sənaye sektorunda enerji sərfi, investisiyalar və istehsal həcmi arasındakı qarşılıqlı əlaqəni daha real və praktik yanaşma ilə araşdırmaqdır. Mövzu təsadüfi seçilməyib - son illərdə sənayenin inkişafı yalnız istehsal göstəriciləri ilə deyil, həm də resurslardan nə dərəcədə səmərəli istifadə olunması ilə qiymətləndirilir. Bu baxımdan yüngül sənaye sektoru həm çevikliyi, həm də bazar dəyişikliklərinə həssaslığı ilə xüsusi maraq doğurur

Tədqiqat zamanı göstərilir ki, Azərbaycanda yüngül sənaye sahələri uzun müddət zəif inkişaf etsə də, son illərdə müəyyən canlanma müşahidə olunur. Xüsusilə toxuculuq, geyim və dəri məmulatları üzrə istehsal həcmi nominal ifadədə əhəmiyyətli dərəcədə artsa da, real artım daha məhdud xarakter daşıyır. Bu isə bir tərəfdən qiymət amilləri ilə, digər tərəfdən isə struktur problemlərlə bağlıdır.

Enerji istehlakının dinamikası göstərir ki, istehsal artımı ilə paralel olaraq enerji istifadəsi də yüksəlmiş, lakin sonrakı mərhələdə müəyyən sabitləşmə baş vermişdir. Bu hal istehsalın bərpasına baxmayaraq enerji intensivliyinin nisbətən azaldığını göstərir. Digər tərəfdən, investisiyaların həcmi olduqca dəyişkən olmuş, xüsusilə iqtisadi şoklara və xarici təsirlərə qarşı həssaslıq nümayiş etdirmişdir.

Tədqiqat çərçivəsində ekonometrik analiz üçün logaritmik dəyişənlərdən istifadə olunmuş, zaman sıralarının xüsusiyyətləri ADF və KPSS testləri vasitəsilə yoxlanılmışdır. Nəticələr göstərir ki, dəyişənlər qarışıq inteqrasiya dərəcəsinə malikdir və bu səbəbdən ARDL–ECM modeli tətbiq üçün uyğun hesab edilmişdir.

Ümumilikdə əldə olunan nəticələr onu göstərir ki, yüngül sənaye sektorunda istehsalın dinamikası enerji istifadəsi və investisiyaların təsiri altında formalaşır, lakin bu təsirlər qısa və uzunmüddətli dövrlərdə fərqli şəkildə özünü göstərir. Tədqiqatın nəticələri həm elmi baxımdan mövcud boşluğu qismən doldurur, həm də sənaye siyasətinin formalaşdırılması üçün praktik istiqamətlər təqdim edir.

Açar sözlər: *yüngül sənaye, enerji sərfi, investisiyalar, istehsal həcmi, enerji intensivliyi, ARDL modeli, ekonometrik təhlil, sənaye inkişafı*.

GİRİŞ

*Bu gün sənayenin inkişafı artıq təkcə istehsalın hə*cmi ilə deyil, həm də enerji resurslarından necə istifadə olunması və qoyulan investisiyaların nə dərəcədə effektiv işləməsi ilə ölçülür. Xüsusilə yüngül sənaye kimi daha çevik və bazara həssas sahələrdə enerji sərfi ilə istehsal arasındakı əlaqənin

başa düşülməsi getdikcə daha vacib olur. Çünki burada kiçik dəyişikliklər belə ümumi nəticələrə ciddi təsir göstərə bilir.

Azərbaycanda bu istiqamətdə müəyyən araşdırmalar aparılsa da, onlar daha çox ümumi iqtisadi göstəricilərə – məsələn, enerji istehlakı, iqtisadi artım və ya CO_2 emissiyaları arasındakı əlaqələrə fokuslanır. Ayrı-ayrı tədqiqatlarda gəlirin emissiyalara təsiri, maliyyə inkişafının və enerji qiymətlərinin enerji istehlakına təsiri kimi nəticələr əldə olunub. Hətta bərpa olunan enerjinin iqtisadi artıma müsbət təsiri də təsdiqlənib. Amma bütün bu nəticələr daha çox makro səviyyədə qalır və konkret olaraq yüngül sənaye daxilində baş verən prosesləri tam açmır.

Digər tərəfdən, xarici təcrübəyə baxanda görmək olur ki, enerji ilə istehsal arasındakı münasibət heç də hər yerdə eyni deyil. Bəzi ölkələrdə enerji istehlakı sənaye artımını gücləndirir, digərlərində isə bu təsir daha zəif və ya qeyri-sabit olur. Hətta eyni ölkə daxilində belə müxtəlif alt-sektorlar fərqli davranır. Bu da göstərir ki, məsələni ümumi yanaşma ilə izah etmək kifayət etmir.

Məhz buna görə də Azərbaycanda yüngül sənaye üzrə ayrıca, daha dərin və "yerli reallıqlara uyğun" təhlillərə ehtiyac yaranır. Enerji sərfinin istehsala necə təsir etdiyini və investisiyaların bu prosesdə hansı rolu oynadığını anlamaq həm elmi baxımdan maraqlıdır, həm də praktik qərarların qəbulunda real fayda verə bilər. Belə yanaşma nəticədə daha səmərəli istehsalın qurulmasına və resursların daha ağıllı istifadəsinə kömək edə bilər.

ƏDƏBİYYATA GİRİŞ


Yüngül sənayedə enerji sərfi–istehsal əlaqəsi, kapitalın (investisiyanın) istehsala uzunmüddətli elastikliyi və inkişaf etməkdə olan ölkə təcrübələri ilə bağlı Azərbaycanda geniş tədqiqatlar aparılmayıb. Lakin bu və ya digər dərəcədə yüngül sənaye sektoruna və ya onun alt-sektorlarına aidiyyəti olan və enerji sərfinə, kapitalın istehsala təsirinə həsr edilən tədqiqatlar mövcuddur. Məsələn, Mikayilov və digərləri (2018) tərəfindən aparılan tədqiqatda uzunmüddətdə gəlirin CO_2 emissiyalarına müsbət təsiri təsdiqlənir; müxtəlif kointeqrasiya metodları ilə nəticələr sabitdir. Mukhtarov və digərləri (2020) tərəfindən aparılan tədqiqatda Azərbaycanda ARDL nəticələri maliyyə inkişafı və gəlirin bərpa olunan enerji istehlakını artırdığını, enerji qiymətlərinin isə azaltdığını göstərir. Mukhtarov (2022) və digərləri tərəfindən aparılan tədqiqatda Azərbaycanda REC–iqtisadi artım əlaqəsini test edib; uzunmüddətdə müsbət REC→artım kanalı tapılır. Mukhtarov və digərləri (2022) tərəfindən aparılan tədqiqatın CO_2-nin istehlaka görə (consumption-based) ölçüsündə DOLS nəticələrinə əsasən REC və ixrac CO_2-ni azaldır, gəlir və idxal isə artırır.

Hasanov və digərləri (2023) tərəfindən aparılan tədqiqatda Azərbaycanda REC və TFP CO_2-ni azaldır, gəlir və idxal CO_2-ni yüksəldir. Bu problem bəzi inkişaf etməkdə olan ölkələrin timsalında geniş tədqiq edilib. Məsələn, Waheed və digərləri (2019) Sistematik icmal apararaq, enerji–artım əlaqəsində ölkə və metoddan asılı heterojen nəticələr əldə ediblər. Tədqiqatda ARDL və panel metodları geniş istifadə edilib. Sari və digərləri (2008) Sənaye üzrə parçalanmış enerji istehlakı ilə sənaye məhsul həcmi arasında ARDL əsaslı uzunmüddətli əlaqə müəyyən ediblər. Lakin təsirlər alt-sektorlar üzrə fərqlənir. Anyanwu & Dar (2024) 32 Afrika ölkəsi üzrə 2002–2019 panelində enerji istehlakının sənaye performansına müsbət təsir etdiyini müəyyən edib.


ANALİZ

Azərbaycanda yüngül sənaye sahələri, xüsusilə toxuculuq, geyim istehsalı, dəri məmulatları və ayaqqabı istehsalı sahələri geniş inkişaf etməyib. Xüsusilə, müstəqillik əldə ediləndən sonra ölkənin xarici iqtisadi əlaqələrinin liberallaşması bu sahələrin inkişafına mane oldu. Çünki yeni iqtisadi münasibətlərə keçid nəticəsində az investisiyalı yerli istehsal sahələri rəqabətə düzümlü ola bilməzdi. Digər ölkələrdən, xüsusilə türkiyə və Çindən idxal edilən yüngül sənaye məhsulları ilə rəqabət aparmaq üçün yerli istehsal müəssisələrinə böyük həcmdə investisiya yatırmaq tələb olunurdu. Lakin maliyyə çətinliklərinə baxmayaraq, son 25 ildə Azərbaycanda yüngül sənaye sektorunun üç alt-sektorunda, yəni toxuculuq, geyim istehsalı, həmçinin dəri və dəri məmulatları, ayaqqabı istehsalı

sahələrində cəmi məhsul həcmi nominal qiymətlərlə 15 dəfədən çox artıb (qrafik 3.2.1). Real qiymətlərlə isə artım 1,4 dəfə olub. Bu artım təkcə bu sahəyə qoyulan investisiyaların həcminin artması (qrafik 3.2.2) ilə bağlı deyil, həm də yüngül sənaye müəssisələrinin sayının artması ilə bağlıdır (3.2.3). Getdikcə bu iqtisadi fəaliyyət sahəsinə maraq artır və yeni müəssisələr formalaşır.



Qrafik 1. Yüngül sənaye sektorunda məhsul istehsalı həcmi (mln.azn)



Qrafik 2. Yüngül sənaye sektoruna yönələn investisiyalar (mln.azn)

Yüngül sənaye üzrə bəzi makroiqtisadi göstəricilərin həm nominal, həm də real qiymətlərlə dinamikası deməyə əsas verir ki, **m**əhsul istehsalı 2007–2019 dövründə yüksəliş trendindədir və 75,5 mln.azn-dən 437,8 mln azn-ə qədər artıb. 2020-ci ildə COVİD19 pandemiyası ilə bağlı olaraq müəyyən həcmdə azalmalar olsa da 2022-ci ildən başlayaraq, istehsal həcmi bərpa olunub və 2024-cü ildə 551 milyon manata çatıb. Real qiymətlərlə artım çox yüksək olmasa da müəyyən qədər var. Belə ki, 2020-ci ildə bu artım hətta 2000-ci ilə nisbətən 3 dəfəyə yaxın artmışdır. Təəssüf ki, sonrakı illərdə ciddi azalma baş verib.

Yüngül sənaye sektoru böyük həcmdə enerji tələb edən sahə olmasa da, əsasən elektrik enerjisinin istehlakı istehsal amilləri arasında mühüm çəkiyə malikdir. Bu sektorda enerji istehlakı 2007–2019-cu illərdə davamlı olaraq artaraq 6,1 min NET-dən pikə, yəni 27,9 min NET-ə çatıb. Pandemiya dövründə enerjidən istifadə bir qədər azalsa da 2021–2023-cü illərarası dövrdə 23,0 NET

ətrafında sabitləşmişdir. Bu, istehsalın bərpasından sonra belə enerji istifadəsinin "məhdudlaşdırılmış" tempdə qalmasını göstərir.

Yüngül sənaye sektoruna yönələn investisiyaların həcmi son dərəcə dalğalıdır. Belə ki, 2014-cü ildə sıçrayış (47,8 mln azn), 2018–2019-da güclü artım, 68,5 mln.azn-dən 109 mln. azn-ə qədər artım olub. Pandemiya dövründə kəskin azalma sonrakı illərdə də davam edərək 2024-cü ildə 29,4 mln.azn olub. Bu, kapital qoyuluşunun şoklara həssas və layihə-sikllərinə bağlı olduğunu göstərir.

Qeyd edək ki, yüngül sənaye sektorunda istehsal həcminin və bu sektora yönəldilən investisiyaların real qiymətinin hesablanması zamanı PPI-dən, yəni istesalçı qiymətləri indeksindən istifadə edilib. Azərbaycanda PPI-nin dinamikasında üç fərqli epizod hiss edilir.

Birincisi, 2015-də kəskin enişdir. Hətta qiymətlər əvvəlki ilə nisbətən 69,4% enib. Böyük ehtimalla belə eniş manatın devalvasiyası ilə bağlı olub. İkincisi, 2021–2022-də kəskin yüksəlişdir. Bu dövrdə istehsalçı qiymətləri indeksi 169,6%-dən 184,3%-ə qədər yüksəlib. Üçüncüsü, 2023-də kəskin geriləmə baş verib (89%). Belə dəyişmələr həm 2015 valyuta rejimi dəyişikliyi ilə, həm də 2021–2022 qlobal enerji və xammal şoklarının qiymət kanalı ilə bağlı ola bilər.

Yüngül sənaye sektorunda istehsal həcmi, enerji istehakı və investisiya həcminin dinamikası enerji istifadəsinin nisbi azalması, istehsal bərpası **və** investisiyanın gecikmiş təsirini nümayiş etdirir. Bu ilkin nəticəni nəzərə alaraq, biz istehsalın real həcminə, enerji intensivliyinin və investisiyaların təsirini empirik olaraq, qiymətləndirməyə çalışacağıq. Ekonometrik qiymətləndirmə üçün bu göstəricilərin real qiymətlərinin loqarifmindən istifadə ediləcək.

Cədvəl 1

Təsviri statistika

	LOGOUTPUT	LOGEI	LOGINVEST
Mean	17.70531	5.680474	15.43478
Median	17.63896	5.659327	15.37141
Maximum	18.35187	6.206280	16.81934
Minimum	17.24123	5.124191	14.18130
Std. Dev.	0.355974	0.288725	0.834633
Skewness	0.396764	0.315008	-0.037439
Kurtosis	1.797041	2.637551	1.772108
Jarque-Bera	1.557597	0.396217	1.134995
Probability	0.458957	0.820281	0.566942
Sum	318.6955	102.2485	277.8261
Sum Sq. Dev.	2.154193	1.417160	11.84241
Müşahidə sayı	18	18	18

Qeyd: *Eviews-12 proqramı vasitəsilə müəllif tərəfindən hesablanıb.*

1-ci cədvəldə verilən təsviri statistikanın nəticələrinə əsasən **Orta səviyyələr (Mean)** LOGOUTPUT 17.71, LOGEI 5.68, LOGINVEST 15.43, PPI 501.94. Log göstəricilər üzrə orta dəyərlər stabildir; PPI-də orta yüksəkdir, çünki 2021–2022-də qiymət sıçrayışları var. **Yayılmalar (Std. Dev.) və nisbi dəyişkənlik göstərir ki,** LOGOUTPUT üçün 0.356-dir (**CV ≈ 2%**), LOGEI üçün 0.289 (**CV ≈ 5%),** LOGINVEST üçün 0.835 (**CV ≈ 5.4%).** Paylanma formasına əsasən **Skewness** LOGOUTPUT (+0.40) və LOGEI (+0.32) azca **sağa meyilli**, LOGINVEST (−0.04) demək olar **simmetrik**dir. **Kurtosis üzrə** LOGOUTPUT (1.80) və LOGINVEST (1.77) **platykurtik** (yastı quyruqlar), LOGEI (2.64) **yəqin-ki normal-a yaxındır. Jarque–Bera (JB) normallıq testi üzrə** LOGOUTPUT (p=0.459), LOGEI (p=0.820), LOGINVEST (p=0.567) - normallıq rədd edil-

mir. LOGOUTPUT və LOGEI-nin sabitliyi ARDL/ECM-də yaxşı davranışa işarədir**.** LOGINVEST logda belə nisbətən oynaq olduğundan qısa müddətdə işarə dəyişə bilər. Üç log seriyada JB-nin qəbul edilməsi kiçik nümunədə klassik testlərin (t, F) istifadəsini dəstəkləyir.

Beləliklə, Log əsas göstəricilər **stabil** və **təxminən normal**dır. Bu, uzunmüddətli əlaqələri real log dəyişənlərlə qurub, qiymət şoklarını **qısa-müddətli nəzarət** kimi modelləşdirmə strategiyanızı təsdiqləyir.

Ekonometrik qiymətləndirmədə zəruri modelin seçilməsi üçün zaman sıralarının stasionarlığını da qiymətləndirməyə ehtiyac var. Biz stasionarlığın müəyyən edilməsi üçün ADF testindən və KPSS testindən istifadə edəcəyik. Alınan nəticələr 2-ci cədvəldə verilmişdir.

Cədvəl 2

Zaman sıralarının stasionarlığı (ADF və KPSS testləri)

series	test	ADF (stat)	ADF (p)	KPSS (stat)	KPSS (p)	test	ADF (stat)	ADF (p)	KPSS (stat)	KPSS (p)
logoutput	ADF (level, const)	-2,1803	0,2135			ADF (Δ, const)	-1,9513	0,3083		
logoutput	ADF (level, trend)	-2,0846	0,5547			ADF (Δ, trend)	-0,1893	0,9917		
logoutput	KPSS (level, const)			0,4108	0,0725	KPSS (Δ, const)			0,1609	0,1
logoutput	KPSS (level, trend)			0,115	0,1	KPSS (Δ, trend)			0,1171	0,1
logEI	ADF (level, const)	1,4293	0,9972			ADF (Δ, const)	-5,1548	0		
logEI	ADF (level, trend)	-3,1336	0,0985			ADF (Δ, trend)	-3,2873	0,0684		
logEI	KPSS (level, const)			0,6994	0,0136	KPSS (Δ, const)			0,0923	0,1
logEI	KPSS (level, trend)			0,0889	0,1	KPSS (Δ, trend)			0,092	0,1
loginvest	ADF (level, const)	-3,5247	0,0074			ADF (Δ, const)	-7,2806	0		
loginvest	ADF (level, trend)	-0,1608	0,9922			ADF (Δ, trend)	-7,9183	0		
loginvest	KPSS (level, const)			0,1712	0,1	KPSS (Δ, const)			0,0642	0,1
loginvest	KPSS (level, trend)			0,1107	0,1	KPSS (Δ, trend)			0,0607	0,1

Qeyd: *Eviews-12 proqramı vasitəsilə müəllif tərəfindən hesablanıb.*

2007–2024 sıraları əsasında **ADF** (Dickey–Fuller genişləndirilmiş) və **KPSS** testlərinin nəticələri 3.2.2-ci cədvəldə verilmişdir. Alınan nəticlərə əsasən həm səviyyələrdə, həm də birinci fərqlərdə 5% əhəmiyyət səviyyəsini əsas götürəcəyik. ADF testinə əsasən H_0 −vahid kök var; KPSS testinə əsasən H_0 −stasionardır. Alınan nəticələrə əsasən **logEI** – səviyyədə stasionar **deyil, lakin birinci fərqdə stasionardır. loginvest** – səviyyədə **stasionardır. logoutput** səviyyədə ADF vahid kökü rədd etmir, lakin KPSS isə stasionarlığı rədd etmir. **Birinci fərqdə** ADF hələ də vahid kökü rədd etmir, lakin KPSS stasionarlığı rədd etmir. Beləliklə, q**arışıq inteqrasiya dərəcələri, yəni** loginvest I(0); logEI və logoutput I(1) olduğundan **ARDL/ECM** çərçivəsi məqsədəuyğundur.

Modelə 2015-ci il milli valyutanın devalvasiya şokunu, 2020–2022-ci illərdə pandemiya və enerji şoklarını da daxil etmək üçün fiktiv göstəricilər daxil ediləcək. Bu, xüsusən **logoutput** üçün ADF-in zəif gücünü kompensasiya edə və ECM-in mənfi düzəliş əmsalını stabilləşdirə bilər.

Beləliklə, stasionarlıqla bağlı nəticələri nəzərə alsaq, **ARDL–ECM** modeli tədqiqatımız üçün ən uyğun çərçivədir. Çünki göstəricilər qarışıq inteqrasiya dərəcəsinə malikdirlər. Belə ki, loginvest I(0), logEI I(1), logoutput I(1) dərəcədən stasionardır. Müşahidələrin sayı T=18 olduğundan ARDL-ECM modeli ən uyğun modeldir.

İstifadə edilmiş ədəbiyyat:

1. Anyanwu, O. C., & Kur, K. K. (2024). Impact of energy consumption on industrial sector performance. *SAGE Open, 14*(4), 21582440241298856. https://doi.org/10.1177/21582440241298856

2. Bom, P. R. D., & Ligthart, J. E. (2014). What have we learned from three decades of research on the productivity of public capital? *Journal of Economic Surveys, 28*(5), 889–916. https://doi.org/10.1111/joes.12037

3. Hasanov, F. J., Yusifov, S., Mikayilov, J. I., & Bulut, C. (2023). The role of renewable energy and total factor productivity in consumption-based CO_2 emissions: Evidence from an oil-producing country. *Energy Strategy Reviews, 47*, 101079. https://doi.org/10.1016/j.esr.2023.101079

4. Knoblach, M., Roessler, M., & Zwerschke, P. (2020). The elasticity of substitution between capital and labour in the US economy: A meta-regression analysis. *Oxford Bulletin of Economics and Statistics, 82*(1), 62–82. https://doi.org/10.1111/obes.12312

5. Mikayilov, J. I., Galeotti, M., & Hasanov, F. J. (2018). The impact of economic growth on CO_2 emissions in Azerbaijan. *Journal of Cleaner Production, 197*, 1558–1572. https://doi.org/10.1016/j.jclepro.2018.06.269

6. Mukhtarov, S. (2022). The relationship between renewable energy consumption and economic growth in Azerbaijan. *International Journal of Energy Economics and Policy, 12*(1), 416–419. (DOI göstərilmir)

M.S.Zeynalova
doctoral candidate, Azerbaijan Technological University (UTECA)

Econometric analysis of the relationship between energy consumption, investment, and production in the light industry

Abstract

The main objective of this study is to examine the relationship between energy consumption, investments, and production output in the light industry sector of Azerbaijan using a more practical and realistic approach. The choice of topic is not accidental, as in recent years industrial development has been assessed not only by production volumes but also by the efficiency of resource utilization. In this context, the light industry sector attracts particular attention due to its flexibility and sensitivity to market changes.

